AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRİTTİFAQ

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

# «BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR»

***Dərslik***

Azərbaycan Respublikasının Təhsil Nazirliyi Elmi-Metodik Şurasının «İqtisadiyyat» bölməsinin 19 oktyabr 2004 tarixli iclasının qərarı ilə təsdiq edilmiş (protokol №04) proqramına əsasən yazılmışdır.

**Bakı - 2010**

**Müəlliflər:** i.e.d., professor G.Ə.Gənciyev
i.e.n. dosent Ə.R.Ələkbərov i.e.n.,
dosent A.M.Əliyev baş müəllim
N.Ə.Həsənov

**Elmi redaktor:** i.e.d. professor: İ.H.İbrahimov
**Rəyçilər:** i.e.d. E.M.Hacızadə i.e.n. dos:
N.T.Qənizadə

G.Ə.Gənciyev, Ə.R.Ələkbərov, A.M.Əliyev,
N.Ə.Həsənov **«Beynəlxaiq iqtisadi müna$ibətlər»,**
Bakı, 2010,396 səh.

*Dərslik kimi yazılmış bu kitabda Beynəlxalq İqtisadi Münasibətlərin (BİM) mahiyyəti, iqtisadi əsasları, formaları, inkişaf istiqamətləri, yaranması mexanizmi, onların həyata keçirilməsi xüsusiyyətləri. inkişaf amilləri, BİM-də ayrı-ayrı ölkələrin və şirkətlərin mövqeyi verilmişdir. Kitab ali məktəblərin, kolleclərin tələbələri, magistrlan, alimlər, müvafiq orqanların işçiləri, özünün intellektual səviyyə.dni* **və** *dünyagörüşünü müstəqil yüksəltmək istəyən adamlar üçün nəzərdə tutulur.*

5001000002
-78-10
A/-652/19.02.2010

©2010

# MUNDƏRİCAT


GİRİŞ ........................................................................................................6
Fosil I. Bim-in iqtisadi nasları va formaları........................................................9
Bölmə I. Beynəlxalq iqtisadi münasibətlərin iqtisadi mahiyyəti, məqsəd və vəzifələri .......... .............................................................. 9
1.1. Beynəlxalq iqtisadi münasibətlərin mahiyyəti ............................9
1.2. Beynəlxalq iqtisadi münasibətlərin predmeti, subyektləri ......................................................................... 12
1.3. Açıq iqtisadiyyatın BİM-in inkişafında rolu BtM-in məqsəd və vəzifələri .............................................................. 13
Bölmə II. Beynəlxalq iqtisadi münasibətlərin inkişafında dövlətin rolu və xarici fəaliyyət strategiyasının növləri ................................ 17
2.1. BİM-İn tənzimlənməsi və onun fəaliyyət mexanizmi ............ 17
2.2. BİM-ın tənzimlənməsinin formaları və metodları......... ........ 18
2.3. BİM-in dövlət tənzimlənməsinin hüquqi-iqtisadi əsasları və prinsipləri ...........................................................................20
2.4. Xarici fəaliyyət strategiyasının növləri ............ ... ...............23
Bölmə III. Beynəlxalq iqtisadi münasibətlərin formaları................................. 25
3.1. BİM-in formalaşmasının və inkişafının iqtisadi əsasları....................................................................................... 25
3.2. BİM-in formalarının xarakteristikası..................................... 28
3.3. Beynəlxalq ticarət BİM-in aparıcı formasıdır ........................ 28
Bölmə IV. Kapital ixracı BİM-in əsas formasıdır ............................................ 33
4.1 Kapital ixracının mahiyyəti.................................................. 33
4.2 Kapital ixracının ilkin şərti və əsas səbəbləri.................... 33
4.3 Kapital ixracının formaları .................................................. 34
4.4 Kapital ixracının müasir xüsusiyyətləri .............................. 37
Bölmə \^ İşçi qüvvəsinin beynəlxalq hərəkəti................................................. 41
5.1. işçi qüvvəsinin beynəlxalq hərəkətinin mahiyyəti və əmələ gəlmə səbəbləri............................................................................ 41
5.2. İşçi qüvvəsinin beynəlxalq hərəkətinin formaları və sosial-iqti.sadi nəticələri .......... .... .................................................... 42
5.3. Əhalinin beynəlxalq hərəkətinin əsas mərkəzləri.... ............... 56
Bölmə VI. Beynəlxalq valyuta, maliyyə və kredit münasibətləri ...................... 59
6.1. Beynəlxalq valyuta sistemi və onun inkişaf mərhələləri ........ 59
6.2. Beynəlxalq maliyyə-kredit mərkəzləri və valyuta dönərliyi ......................................................................... Ö3
6.3. Beynəlxalq Valyuta Fondunun valyuta, maliyyə-kredit münasibətlərinin tənzimlənməsində rolu ................................ 66
Bölmə VII, Beynəlxalq elmi-texniki əməkdaşlıq.. ............................................ 69
7.1. Beynəlxalq elmi-texniki əməkdaşlığın (BETƏJ mahiyyəti və onu doğuran səbəblər .......................................... 69

7.2. Beynəlxalq elmi-texniki əməkdaşlığın dünya texnologiyalar bazarının inkişafında rolu....72
7.3. Beynəlxalq elmi-texniki əməkdaşlığın inkişafında beynəlxalq təşkilatların rolu....73
7.4. Azərbaycan beynəlxalq elmi-texniki əməkdaşlıq sistemində....75

Fəsil II. BİM-in inkişaf istiqaıtıətləri....77
Bölmə VIII. Beynəlxalq əmək bölgüsü (BƏB) BİM-in aparıcı inkişaf istiqamətidir....77
8.1. Beynəlxalq əmək bölgüsünün mahiyyəti və onun inkişafının nəzəri-metodoloji əsaslan....77
8.2. Dünya ölkələrinin beynəlxalq əmək bölgüsündə iştirakının müasir vəziyyətinin təhlili.... 112
8.3. Azərbaycanın BƏB-də iştirakı imkanları və onlardan istifadənin yaxşılaşdırılması istiqamətləri....134
Bölmə IX. Beynəlxalq iqtisadi inteqrasiya BİM-in əsas istiqamətidir.... 177
9.1. İqtisadi inteqrasiyanın mahiyyəti, əhəmiyyəti və onun şərtləndirən amilləri....177
9.2. İEOÖ-də inteqrasiyanın səbəbləri və xüsusiyyətləri.... 186
9.3. Beynəlxalq iqtisadi inteqrasiya sistemində İqtisadi Əməkdaşlıq Təşkilatının (lƏT) yeri və onun Azərbaycanla əlaqələrinin səmərəli təşkili.... 190
9.4. Azərbaycanla İƏT-ti arasında inteqrasiya əlaqələrinin təkmilləşdirilməsi....213
Fəsil Hi. Beynəlxalq iqtisadi münasibətlərinin inkişaf yollan, vasitələri və amilləri....222
Bölmə X. İstehsalın beynəlxalq kooperasiyası və BİM....222
10.1. Beynəlxalq kooperasiyanın mahiyyəti və BİM-in inkişafında yeri....222
10.2. Birgə müəssisənin mahiyyəti, formaları və inkişaf meylləri....224
10.3. Ölkələrə investisiya cəlb edilməsində istehsalın beynəlxalq kooperasiyasının rolu.... 228
Bölmə XI. Beynəlxalq turizmin BİM-in inkişafında rolu....231
11.1. Beynəlxalq turizmin mahiyyəti və inkişafının ilkin şərtləri.... 231
i 12. Turizmin formaları və inkişaf xüsusiyyətləri....244
11.3. Azərbaycanda turizmin inkişafının milli cəhətləri və prioritetləri....266
Bölmə XII. Azad iqtisadı zonalar və BİM....281
12.1. Azad iqtisadı zonaların mahiyyəti və əmələ gəlməsi məqsədləri....281

i 2.2. Azad iqıisadi zonaların formaları........................................ 284
12.3. Azad iqli.sadi zonaların inkişaf meylləri və Azərbaycanda onların yaradılması imkanları................................................ 287
Bölmə XIII. Birləşmiş Millətlər Təşkilatı (BMT) və beynəlxalq iqtisadi münasibətlər........................................................ 289
13.1. BMT-nin yaranması ........................................................ 289
13.2. BMT-nin əsas vəzifələri, funksiyalarıvə təşkilatı-iqtisadi strukturu ............................................................ 291
13.3. BMT-nin inkişaf proqramı və Azərbaycanla onun əməkdaşlığı......................................................... 300
Bölmə XIV. Beynəlxalq Valyuta Fondu (BVF) və dünya təsərrüfatında BİM-in inkişafı........................................................ .306
14.1. Beynəlxalq Valyuta Fondunun strukturu və üzv dövlətlərin kvotaları.......................................................... 306
14.2. BVF‘-nun fəaliyyətinin xüsusiyyətləri və üzv ölkələrlə kreditin verilməsi siyasəti................................................ 312
14.3. BVF-u ilə Azərbaycan arasında əlaqələrin inkişaf meylləri ............................................................ 325
BölməXV, Transmilli korparasiyalar (TMK) BİM sistemində.................. 357
15.1. TMK-ın iqtisadi məzmunu, formaları və inkişaf xüsusiyyətləri......................... ...................................... .. .... 357
15.2. TMK-ın yaranmasına təsir edən amillər və inkişaf mərhələləri.................. ......................-. ............................ 368
15.3. TMK-lar ölkələr arasında əməkdaşlıq sistemində investisiya daşıyıcılarıdır................................................ 373
Bölmə XVT. Beynəlxalq iqtisadi münasibətlər sistemində birjalar və hərraclar............................................................. 378
16.1. Bü ja ticarətinin mahiyyəti, rolu və inkişafı......................... 378
16.2. Əmtəə birjasının təşkili qaydaları, quruluşu və birja sövdələşmələrinin növləri................................................ 380
16.3. Hərracların mahiyyəti, təşkili formaları və keçirilməsi mexanizmi.......................................................... 388
Ədəbiyyat siyahısı.............................................................. 392

# GİRİŞ

İqtisadiyyat həyatımızın əsasıdır. İnsanlar yaşamaq üçün özünə dolanacaq vəsaiti qazanmağın iki əsas üsullarından biri, həm də aparıcısı hesab olunan sahibkarlığın imkanlarından maksimum faydalanmalıdırlar.

Çünki dünya miqyasında belə bir fikir formalaşmışdır ki, fıravanlığın qızıl açarı azad sahibkarlıqdır.

Dünya miqyasında öz inkişaflarını çox aşağı səviyyədən başlamış və bu sahədə yüksək nəticələrə malik olmuş ölkələrin təcrübəsi bu gün bizə örnək olmalı, bu istiqamətdəki fəaliyyətimizi istiqamətləndirməlidir.

Demokratik iqtisadi inkişaf üsuluna keçən respublikamızın maddi və təbii sərvətləri, əmək ehtiyatları və həyata keçirilən iqtisadi siyasət strategiyası imkan verir ki, ölkəmizin vətəndaşları dünya səviyyəsində ən təmin olunmuşlar sırasında dursunlar.

140 ildən çox vaxt ərzində ölkə neftinin istismarı nəticəsində əldə edilən gəlirin sovet imperiyası tərəfindən mənimsənilməsi respublikamızı dünya sivilizasiyanın üstünlüklərinən istifadə etmək imkanlarını tam məhdudlaşdırmışdı.

Bu gün xalqın inkişafına düzgün istiqamət verən elmi mülahizələrə və əsaslandırmalara daha çox ehtiyac vardır. İqtisadi çətinlikləri təhlil edib, onların aradan qaldırılması işgüzar dairələrin, ayrı-ayrı fərdlərin, sahibkarların, gənc mü- təxəsislərin bilik və ümumi fəaliyyətindən bilavasitə asılıdır.

İqtisadi münasibətlərin yenidən qurulduğu indiki şəraitdə göstərilən məsələlərin elmi-nəzəri əsasları, əhəmiyyəti və həlli yolları hazırkı kitabda öz əksini tapır.

Məlum olduğu kimi müasir dövrdə dünya təsərrüfatının formalaşmasında xarici iqtisadi əlaqələrin rolu və əhəmiyyəti get-gedə artır. Dünya ölkələri arasındaiqtisadi münasibətlərin dərinləşməsi kapitalın, əmtəələrin, xidmətlərin, işçi qüvvəsinin, elmi-texniki əməkdaşlığın, valyuta ehtiyatlarının hərəkəti

vasitəsi ilə həyata keçirilir. Məlum olduğu kimi kapitalların, valyutaların, əmtəə və xidmətlərin miqrasiyası hər bir ölkənin daxili iqtisadi inkişafın zəruriliyi üzündən dövlətlərin milli hüdudundan kənara çıxır və beynəlxalq iqtisadi münasibətlər sisteminə daxil olur.

Müasir dövrdə bəşəriyyətin gələcək sivilizasiyası, sosial-iqtisadi tərəqqisi və məhsuldar qüvvələrin sürətlə inkişafı məsələləri əsl hüquqi beynəlxalq əmək bölgüsünün, insan cəmiyyətinin həyati mənafeyinə cavab verəbiləcək dünya təsərrüfatı münasibətləri sisteminin yaradılmasını təkidlə tələb edir.

il

Beynəlxalq əmək bölgüsünün dərinləşməsi və onun üstünlükləri cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı ilə vəhdət təşkil edir, həmçinin bu meyl getdikcə güclənir.

Beynəlxalq əmək bölgüsü isə ölkələr arasında ticarətin, kapital ixracının, kreditlər verilməsinin, valyuta əməliyyatlarının apanlmsının, elmi-texniki əməkdaşlığın genişlənməsinin, İqtisadi inteqrasiyanm dərinləşməsinin və dünya bazarının İnkişafının obyektiv əsasını təşkil edir. Ehinya ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsində və qlobal problemlərin həllində müstəqillik yolu ilə gedən Azərbaycan Respublikası da beynəlxalq əlaqələr sistemində yaxıdan iştirak edir. Bu məqsədlə ölkənin ixrac potensialının inkişaf etdirilməsi, dünya bazarına çıxanlan mallann rəqabət qabiliyyətinin yüksəldilməsi, idxal və ixracın səmərəli strukturunun formalaşması hesabına ölkəyə valyutanın gətirilməsi, yeni şəraitə uyğun olaraq ixtisaslaşma və investisiya əməkdaşlığının genişləndirilməsi, beynəlxalq və regional təşkilatlara qoşulma prosesində fəal iştirak etmək sahəsində əməli işlər həyata keçirilir.

Göstərilən böyük səylərə, müəyyən uğurlu nəticələrə baxmayaraq iqtisadiyyatda həll olunmalı problemlər yetərincədir. Hazırda ölkədə baş verən iqtisadi proseslər onların nəticələri İqtisadçılar tərəfindən ciddi araşdırma və

**obyektiv tələbata çevirir. Beynəlxalq iqtisadi münasibətlər sistemində uğurla inkişaf edən Azərbaycan Respublikasında xarici iqtisadi əlaqələrin dərinləşməsi ilə bağU olan elmi-nəzəri və praktiki məsələlər iqtisadçı alimlərimiz tərəfindən öyrənilmiş, bu sahədə dəyərli əsərlər yazılmışdır.**

**tşıq üzü görmüş bu əsərlərdən fərqli olaraq hazırkı kitabda BtM-in ümumi inkişaf məsələləri, formaları, istiqamətləri, amilləri, vasitələri vəhdət halında yazılmış və tam dərslik formasına gətirilməsinə səy göstərilmişdir.**

**Bütün bunlar hazırkı dərsliyin hazırlanması üçün əsas olmuşdur. Şəksiz ki, kitabda beynəlxalq iqtisadi münasibətlər fənni ilə bağlı olan bütün məsələləri sistem halmda nəzərə almaq qeyri mümkündür. Dərsliklə vəsaiti ilə əlaqədar irad və arzularını bizə bildirən şəxslərə müəlliflər qabaqcadan öz minnətdarlıqlarım bildirirlər.**

# FƏSİL I
# BİM-İN İQTİSADİ ƏSASLARI VƏ FORMALARI

## Bölmə L Beynəlxalq iqtisadi münasibətlərin iqtisadi mahiyyəti, predmeti, məqsəd və vəzifələri

y, *1. Beynəlxalq iqtisadi münasibətlərin mahiyyəti.*
*1.2. Beynəlxalq iqtisadi münasibətlərin predmeti, obyektləri və subyektləri.*
*1.3. Açıq iqtisadiyyatın BİM-in inkişafında rolu. Bİ M-in məqsəd və vəzifələri.*

L L Ümumiyyətlə, münasibət anlayışı dedikdə tərəf müqabillər arasında obyektiv zərurət nəticəsində yaranan hər hansı bir əlaqənin, ünsiyyətin daha yetkin formada ifadəsi başa düşülür. Ayrı-ayrı fərdi şəxslər, müəssisələr, təşkilatlar və dövlətlər arasında yaranan iqtisadi əlaqələr təsadüfi deyil, sabit və daima təkrar olunarsa və onlar qanunauyğun sosial-iqtisadi əsaslarına söykənərsə, belə münasibətlər obyektiv iqtisadi münasibətlər kimi zəruri xarakter daşıyır.

Bu kimi münasibətlər millİ çərçivədə yarandığı kimi regional və beynəlxalq miqyasda yaranır. BİM iqtisadi münasibətlərin milli çərçivədən beynəlxalq miqyasa yüksəlməsini əks etdirir. «BİM» fənni nəyi öyrənir sualına cavab verməzdən əvvəl qeyd edək ki, bəzi iqtisadi ədəbiyyatlarda BİM-lə beynəlxalq ticarət, xarici iqtisadi əlaqələr və beynəlxalq münasibətlər mahiyyəti etibarı ilə düzgün olmayaraq eyniləşdirilir. Qeyd olunan məsələyə aydınlıq gətirmək məqsədilə haqqında bəhs edilən iqtisadi anlayışlann dəqiqlədİrilməsini məqsədəuyğun hesab edirik.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, beynəlxalq ticarət beynəlxalq iqtisadi münasibətəlrin mühüm tərkib hissəsi, yaxud sahəsidir. Alim və mütəxəsislərin fikrinə görə beynəlxalq iqtisadi münasibətlər sistemində beynəlxalq ticarətin payı 80 % təşkil edir. Deməli, beynəlxalq ticarət anlayışı məzmunu

və əhatə dairəsinə görə BtM-dən məhduddur. Həm də beynəlxalq ticarət ölkələr arası münasibətlərdə BİM-in formalarından biridir. Onu da qeyd etmək lazımdır ki, beynəlxalq ticarət fəaliyyətində tərəflər arasında əlaqlərin əsasını bütün hallarda maddi nemətlər təşkil edir.

Məzmununa görə xarici iqtisadi əlaqələr də BİM və Beynəlxalq ticarətlə eynilik təşkil etmir. Ölkələr arasında müəyyən fəaliyyətin həyata keçirilməsi üçün qarşılıqlı razılaşma əsasında iqtisadi zonaların təşkili, vergi tutma, kömrük, normativ sənədlərin hazırlanması və s. sahələrdə iqtisadi əlaqələr yarana bilər. Lakin bu zaman beynəlxalq ticarət əməliyyatları baş verməyə də bilər. Bu da onu göstərir ki, xarici iqtisadi əlaqələr anlayışı da BİM və beynəlxalq ticarətlə məzmunca eyni deyildir və praktiki tədbirlər sistemində onlara fərqləndirilmiş qaydada yanaşmaq məqsədəuyğundur.

Qeyd edilənlər əsasında belə bir nəticəyə gəlmək olur ki, BİM inteqral anlayışdır və o, özünün formaları, inkişaf istiqamətləri, yollan, amiləri vasitəsilə funksiyalarını yerinə yetirir. Beləliklə, beynəlxalq iqtisadi münasibətlər anlayışı altında nə başa düşülür sualını cavablandıraq. Beynəlxalq iqtisadi münasibətlər dedikdə əmtəə-pul dövriyyəsinin bütün kompleksi, həmçinin iqtisadiyyatın müxtəlif sahələri arasında, xidmətlər və kapitallar, eləcədə valyutalar arasında dövriyyə başa düşülür. Deməli, BİM dedikdə maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı baxırmndan milli dövlətlərin təsərrüfat subyektləri arasında qarşılıqlı fəaliyyət sistemi nəzərdə tutulur. BİM bütövlükdə dünya iqtisadiyyatının ayn-ayrı ünsürlərinin fəaliyyət prosesində baş verən qarşılıqlı əlaqə və asılılıqları əks etdirir. Daha doğrusu ayn-ayn dövlətlər arasındakı ticarət, valyuta münasibətlərini, işçi qüvvəsinin beynəlxalq hərəkəti, beynəlxalq elmi-texniki əməkdaşlığı, maliyyə, kredit və inteqrasiya əlaqələrinin, beynəlxalq əmək bölgüsü münasibətlərinin vəhdət halında fəaliyyəti BİM-in predmetini təşkil edir.

BİM-in öyrənilməsi metodu dialektik materialist metoddan ibarət olub dünya təsərrüfatı əlaqələrində BİM-in hər bir

formasının müstəqil sərbəst götürülməsini nəzərdə tutulur. BİM-in öyrənilməsi dialektik prinsiplərə əsaslanır və nəzəri müddəalarla işıqlandmlır. Bu prinsiplərə aşağıdakılar daxildir; obyektivlik, sistemlilik, ardıcıllıq, tarixilik, ziddiyətlilik, inkar-etmə, nisbi sabitlik.

Beləliklə, başqa elmlərdə olduğu kimi BİM-İndə predmeti onun metodu ilə vəhdət təşkil edir. BİM özünəməxsus bİr çox cəhətləri vardır. Onlar aşağıdakılardır:

1. iqtisadi münasibətlər daha geniş ərazini əhatə edir.

2.istehsal amillərinin və ehtiyyatlann beynəlxalq hərəkəti baş verir.

3.tələb və təklif qanunu və sərbəst qiymətlərin yaranması qanunu fəaliyyət göstərir.

4.əmtəə və xidmətlər, alıcılar və satıcılar arasında geniş rəqabət mövcuddur.

5.BİM-in tənzimlənməsi müxtəlif formalarda həyata keçirilir.

6.BİM-in müxtəlif formaları arasında daha geniş, qarşılıqlı əlaqə və asılılıq mövcuddur.

Dünya xalqlan və ölkələri arasında iqtisadi münasibətlərin yaranması heçdə təsadüfi olmayıb, obyektiv iqtisadi qanuna-uyunluqlar əsasında, bir sıra zəruri şərtlərin təsiri altında baş verir. Bu şərtlərə əsasən aşağıdakılan aid etmək olar:

1.dünyada insanların yaşayışı üçün yararlı torpaqlann və digər resursların məhdudluğu;

2.təbii resursların artımı sivilizasiyanın müasir mərhələsi üçün tələbat baxımından kifayət dərəcədə olmaması;

3.dünya üzrə mövcud olan təbii sərvətlərin ölkələr üzrə qeyri-mütənasib paylanması;

4. dünya əhalisinin daha sürətli artımı;

5.milli iqtisadiyyatın, milli intellektual mülkiyyətin inkişaf səviyyəsinə görə ölkələr arasında kəskin fərqlərin mövcudluğu və s.

Bütün bunlar isə dünya ölkələri arasında iqtisadi münasibətlərin yaranmasını obyektiv tələbata çevirir. Heç də təsadüfi deyildir ki, bu gün, inkişaf səviyyəsindən asılı olmayaraq.

dünyanın heç bir ölkəsi beynəlxalq iqtisadi əlaqələr qurmadan təcrid olunmuş formada inkişaf edə bilməz.

Belə zəruri şərtlər beynəlxalq iqtisadi münasibətlərin daima bərpa və təkrar olunmasına və deməli, həmin münasibətləri öyrənən BİM fənninin yaranmasına səbəb olur.

BİM-İn mexanizmi dedikdə: - BİM-in bütün formalarının reallaşmasında istifadə edilən hüquqi-iqtisadi normalann və metodların məcmusu nəzərdə tutulur. Burada hər bir sahəyə uyğun olaraq beynəlxalq razılaşmalar, müqavilələr, konsepsiyalar və sair kimi sənədlər əsas götürülür. Bu sənədlər milli səviyyədə və dövlətlərarası səviyyələrdə işlənib hazırlanır və fəaliyyət üçün qəbul edilir.

1.2. ?OCI əsrin birinci yansında dünya təsərrüfatının inkişafının əsas fərqləndirici cəhətlərindən birİ ondan ibarətdir ki, bu dövrdə BİM daha intensiv xarakter alır, ölkələr arasında, ayrı-ayn qrup ölkələr arasında İqtisadi münasibət yaranır, genişlənir. Bu kimi proseslər BƏB-də təsərrüfat həyatının beynəlmiləlləşməsində, milli iqtisadiyyatın açıq şəkil almasında, bunların bir-birini tamamlanmasında, yaxınlaşmasında regionun inkişaf və möhkəmlənməsində təzahür edir. Xarakter haldır ki, bütün bu qarşılıqlı fəaliyyət, yaxınlaşmaq, əməkdaşlıq və bu kimi proseslər ziddiyətli və dialektiv xarakter daşıyır. BlM-in dialektikası ondan ibarətdir ki, iqtisadi müstəqilliyə səy göstərilməsi və milli iqtisadiyyatın möhkəmlənməsi nəticə etibarı ilə dünya təsərrüfatının beynəlmiləlləşməsində, milli iqtisadiyyatın açıq xarakter almasına, BƏB-ünü dərinləşməsinə gətirib çıxarır. Bu kimi mülahizələr əsasında BİM-in predmetini müəyyən etmək olar. BİM-in predmeti beynəlxalq iqtisadi münasibətlər və onun reallaşması mexanizmindən ibarətdir. Burada xarici ölkələrin iqtisadiyyatı deyil, onların iqtisadi münasibətlərinin xüsusiyyətləri təqiq edilir. Başqa elmlər kimi BİM-də hər cür iqtisadi münasibətləri deyil, daha sabit, təkrarolunan xarakterik müəyyənedici münasibətləri öyrənir.

BİM-lər dünya təsərrüfatı sistemində ayrı-ayn ölkələr, onların regional birlikləri, ayrı-ayrı müəssisələri arasında hər cür iqtisadi münasibətləri kompleks şəkildə tədqiq edir. BİM- in mexanizmi bu münasibətlərin reallaşması üzrə hüquqi

normaları, melodlan və onların həlli vasitələrini do tətbiq edir. Bu hüquqi normalar BİM-in inkişafına yönəldilmiş beynəlxalq iqtisadi təşkiiatlann fəaliyyətini əks etdirir,

BİM milli çərçivədən yüksək olan makro və mikroiqtisadi səviyyələrdə araşdırılır. Makroiqtisadi səviyyə dedikdə mİlli ölkələr arasındakı əlaqələr nəzərdə tutulur. Məsələn, xarici, ticarət, istehsal amillərinin beynəlxalq hərəkəti var.

Mikroiqtisadi səviyyə dedikdə ayrı-ayn ölkələrin təsərrüfat vahidləri arasındakı xarici iqtisadi əlaqələr nəzərdə tutulur.

BİM-in məzmunu araşdınlarkən onun obyekti və subyektlərinin fərqləndirilməsi böyük əhəmiyyət kəsb edir.

BİM-in subyektləri firmalardan, müəssisələrdən, beynəlxalq şirkətlərdən, sahibkarlıq ittifaqından, xarici iqtisadi fəaliyyətlə məşğul olan dövlət orqanları təşkilatlanndan, nazirliklərdən, investisiya işləri ilə məşğul olan beynəlxalq təşkilatlardan ibarətdir. Makroiqtisadi səviyyədə isə BİM-in subyektləri milli hökümətlər və dövlət orqanlarından ibarətdir.

Qeyd etmək lazımdır kİ, BİM-in həm obyektləri, həm də subyektləri dünya təsərrüfatı sisteminin inkişaf etməsinə, ayrı-ayrı dövlətlərin milli iqtisadiyyatlannın möhkəmlənməsinə şərait yaradır.

1.3. Müasir dövrdə dünya təsərrüfatının inkişafının xüsusiyyətlərindən biri də qapalı milli ticarətdən açıq milli iqtisadiyyata keçirilməsidir. II dünya müharibəsindən sonra ayrı-ayrı ölkələr qapalı vəziyyətdən çıxdıqca başqa ölkələrlə iqtisadi əlaqələr, o cümlədən ticarət əlaqələri genişlənir.

Açıq ticarət azadlığı barədə müəyyən məqsədli birtərəfli cəhd deyil daha geniş dünya iqtisadi əlaqələrin beynəlmil- ləşməsi nəzərdə tutulur. Açıq iqtisadi formalarına aşağıdakı amillər təsir göstərir əlbəttə açıq iqtisadi formada dövlətin rolu böyükdür.

**1.** Bu ilk növbədə xarici istehsala, əmtəə və xidmətlərin inkişafına stimul yaradır. Xarici müəssisələrlə şərikli sirklər müəssisələr yaranmasına şərait yaradır. Xaricdən kapital texnologiya işçi qüvvəsi və informasiya axını üçün möhkəm hüquqi əsas yaradır.

2. Açıq iqtisadiyyatın sürətlənməsina transmilli şirkətlərin fəaliyyəti çox təsir edir. Transmilli şirkətlər yeni bazarlar ələ keçirməyə səy göstərməkdən başqa ölkələrdə filiallar yaradır. Beləliklə, beynəlxalq iqtisadi mübadiləni beynəlmilləlləşdirir. Milli iqtisadiyyatın açıqlığında əhalinin səfərbəyliyinin artmasına informasiya vasitələri böyük rola malikdir.

Açıq iqtisadiyyatın aşağıdakı üstünlükləri var:

1. İxtisaslaşmanın genişlənməsi və istehsalın birgə əməkdaşlığının artması;
2. Ehtiyatların səmərəli bölgüsü;
3. Beynəlxalq əmək bölgüsü ilə dünya təcrübəsinin genişlənməsi;
4. Dünya bazarındakı rəqabət;
5. Yerli İstehsalçılar arasmda rəqabətin artması.

Müasir inkişaf mərhələsində iqtisadiyyatın açıqlıq səviyyəsi o ölkələrdə daha yüksək hesab olunur ki, onun ixrac əmsalı daha yüksək xüsusi çəkiyə malik olsun. Bu göstəricisi bir qayda olaraq tnkİşaf Etmiş Ölkələrdə (ABŞ, B.Britaniya, Yaponiya, Kanada, Fransa və s.) və son dövrlərdə daha yükək inkişaf dinamikasına malik olan ölkələrdə (ÇXR, C.Koreya, Asiyanın bir sıra yeni sənaye ölkələri və s.) başqa ölkələrə nisbətən daha sürətlə artmağa başlamışdır. Bu proses ayrı-ayrı Ölkələrin makroiqtisadi sistemində xarici iqtisadi əlaqələrin rolunun artması ilə xarakterizə olunur.

Ölkələr arasında daxili və xarici siyasətin dialektik vəhdəti və qarşılıqlı əlaqəsi daha da inkişaf edir. Açıq iqtisadiyyat beynəlxalq iqtisadi əməkdaşlığın inkişaf edərək dərinləşməsinə zəmin yaradır. Bütün bunlar isə məhsuldar qüvvələrin dünya iqtisadiyyatı miqyasında daha da inkişafına və ölkələr arasında daha məqsədyönlü yerləşdirilməsinə sosial-iqtisadi zəmin yaratmış olur. Beləliklə də, BƏB ölkələrin milli iqtisadiyyatında nisbi üstün istehsal amillərindən səmərəli istifadə edilməsinə maddi stimul yaratmış olur. Dünya ölkələri arasmda vəhdətin yaranması, iqtisadi amillərdən səmərəli istifadə edilməsinə və bu əsasda bir çox qlobal problemlərin həllinə kömək etmiş olur. Hər bir ölkə dünya əmək bölgüsündə istirak etməklə öz milli

qazanır (Azadlıq dövründə Azərbaycan İqtisadiyyatından misallar gətirmək), göründüyü kimi açıq iqtisadiyyat anlayışı BİM fənninin ən mühüm iqtisadi kateqoriyalarından biri olmaqla müxtəlif sosial sistemə və milli mentalitetə malik olan ölkələr arasında tərəf müqabillərin milli maraqlarından irəli gələn mənafelərini on optimal formada ödəmək üçün geniş imkanlar açır.

Məlum olduğu kimi, beynəlxalq iqtisadi əlaqələr öz əhəmiyyətinə görə xalqlar və dövlətlər arasında çox qədim inkişaf tarixinə (hələ natural təsərrüfat şəraitində ticarət vasitəsilə) malik olsa da onun bir tədris fənni kimi öyrənilməsinə çox-çox sonralar, yəni XIX əsrin əvvəllərində dünyanın apancı ali məktəblərində (Harvard, Oksford və s. universitetlərində) başlamışdır.

BİM fənninin belə gec formalaşmasının bir sıra səbəbləri vardır ki, bunların ən vacibləri aşağıdakılardan ibarətdir.

Əvvəla, natural təsərrüfatın mövcud olduğu inkişaf mərhələlərində beynəlxalq iqtisadi münasibətlər məhdud xarakter daşıyırdı və xalqlar arasında meydana çıxan iqtisadi problemlər adətən zorakılıq yolu, imperiyalar arası müharibələr yolu ilə həll edilirdi. Beynəlxalq münasibətlərin razılaşmalar, danışıqlar və digər ünsiyyət formalarında həlli nadir xarakter daşıyırdı. İkincisi, sivilizasiyanın ləng inkişafı beynəlxalq əlaqələrin inkişafını zəiflətməklə yanaşı, həm də onların dialoq yolu ilə həllini məhdudlaşdırırdı. Üçüncüsü, dünya miqyasında məhsuldar qüvvələrin zəif inkişafı beynəlxalq iqtisadi əlaqələrin vasitələrinin-nəqliyyat-iqtisadi, məlumat-informasiya müvafiq infrastruktur amillərinin də zəif olmasına səbəb olmuşdur. Bu amillər inkişaf etmədən beynəlxalq iqtisadi əlaqələrin sürətli inkişafı qeyri-mümkün idi. Dördüncüsü, milli iqtisadiyyatların zəif inkişaf etməsi və məhdud sahəli olması da BİM-in inkişafını ləngidirdi. Beşincisi, beynəlxalq yollarda piratçılığın, quldurluğun və yolkəsmələrin mövcudluğu da, BİM-in inkişafına mənfi təsir göstərmişdir. Burada daha çox amillərdən danışmaq olar. Lakin qeyd edilən amillər BİM-ə əks təsir göstərən bilavasitə amil kİmi meydana çıxır. Məhz bu və ya digər səbəblər üzündən BİM daima artan, genişlənən və mütəmadi təkrarlanan bir münasibət forması prosesi kimi

yalnız XIX əsrin sonu və XX əsrin əvvəllərində sivili fəaliyyət formasında qərarlaşmağa başlamışdır. Həmin dövrdə müxtəlif sahələr üzrə beynəlxalq təşkilaliann yaradılması, II dünya müharibəsindən sonra onların sayca çoxalması və səlahiy* yotlərinin genişlənməsi bu prosesi öyrənən konsepsiyaların meydana gəlməsinə səbəb olmuşdur.

Beynəlxalq iqtisadi münasibətlərin meydana gəlib, inkişaf etməsinə dair klassik və müasir konsepsiyaların təhlili göstərir ki, onlar bir sıra beynəlxalq problemlərə baxışda müxtəlif mövqelərdə dururlar. Ən qısa formada bunu belə ifadə etmək olar ki, klassiklərin nəzərincə BİM dünya xalqlanmn inkişaf qanunlarının zəruri nəticəsi kimi, obyektiv amillərin (yuxanda qeyd etdiyimiz) təsiri altında yaranır və dünyanın əhalisi artdıqca (ötən əsrin əvvəllərində isə 8 milyarda yaxın, təxminən 4 dəfə artmış) daha sürətlə inkişaf edir. Müasir iqtisadçılar isə BİM-in dövlətlər arası münasibətlərin psixoloji cəhətlərin nəticəsi kimi yarandığını iddia edirlər. Əlbəttə ki, belə fikirlər özünü doğrulda bilməz. Çünki, hakimiyyətdəkilər dəyişən kimi siyasətlərdə dəyişir.

BİM fənni isə bir iqtisadi elm sahəsi kimi hər hansı insanların psixoloji münasibətlərini deyil, beynəlxalq İqtisadi münasibətlərin meydana gəlməsi və inkişafım təmin edən iqtisadi qanunlar, qanunauyğunluqlar və onların doğurduğu obyektiv iqtisadi kateqoriyaların dialektik vəhdətini, onlar arasında meydana çıxan ziddiyətlərin kompromis həlli yollarını öyrənir. BİM fənninin əsas vəzifəsi də məhz dünya ölkələri arasında zəruri olaraq yaranan iqtisadi əlaqə formaları ilə bağlı formalaşan iqtisadi münasibətlərin və inkişafı qanunlarının öyrənilməsindən ibarətdir. Məsələn, nəyə görə dünya ölkələri ayn-ayrı sistemlərə bölünür; bu sistem ölkələrinin inkişaf xüsusiyyətlərin və dünya iqtisadiyyatındakı mövqeyi necə müəyyən edilir, nə üçün dünya ölkələri beynəlxalq iqtisadi əlaqə və münasibətlər qırmadan öz milli iqtisadiyyatını müvafiq tələblər səviyyəsində qura bilməz və s.

BİM-in əsas məqsədi isə dünya ölkələrinin beynəlxalq iqtisadi münasibətlər sisteminin müxtəlif formalanndan faydalanmaqla milli iqtisadiyyatlarının dinamik inkişafını təmin etməkdən ibarətdir.

## Bölmə II. Beynəlxalq iqtisadi münasibətlərin inkişafında dövlətin rolu və xarici fəaliyyət strategiyasınm növləri

***2.1. BİM-in tənzinthnmssi və onun fəaliyyət mexanizmi***
***2.2. BİM-in tənzimlənməsinin formaları və metodları.***
***2.3. BİM-in dövləttənzimlənməsinin hüquqi-iqtisadi əsaslan və prinsipləri.***
***2.4. Xarici fəaliyyət strategiyasının növləri.***

2.1. Müasir dövrdə dünyada baş verən köklü kəmiyyət və keyfiyyət dəyişiklikləri beynəlxalq əmək bölgüsünün dərinləşməsi, qlobal problemlərin kəskinləşməsi, işsizlik, infliyasiyamn və böhranlann yaranması, elmi-texniki tərəqqinin sürətli inkişafı, beynəlxalq iqtisadi inteqrasiya əlaqələrinin genişlənməsi, dünya dövlətləri arasında rəqabətin güclənməsi, milli iqtisadiyyatın xarici təsirindən qorunması xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsini zərurətə çevirmişdir.

Məhz buna görə də, müasir şəraitdə müxtəlif ölkələrdə baş verən beynəlxalq iqtisadi münasibətlər beynəlxalq hüquqi münasibətlərin obyekti kimi fəaliyyət göstərməyə başlamışdır. Hər biri öz ölkəsinin rnilli mənafeyinə xidmət edən dövlətlərin və siyasi qurumlann BİM-dəki mövqeyi bunu tələb edir.

Xarici iqtisadi fəaliyyətin makroiqtisadi tənzimedilməsi də dövlətin xarici iqtisadi siyasəti vasitəsilə həyata keçirilir. Dövlət xarici iqtisadi fəaliyyəti tənzim etmək üçün müxtəlif forma, üsul və vasitələrdən istifadə edir.

*Xarici iqtisadi fəaliyyət əsasən iqtisadi* **və** *inzibati üsullarla tənzim edilir.* İqtisadi tənzimetmə metodlarına gömrük tarifləri, müxtəlif vergi və rüsumları, idxal depozitləri, valyuta siyasətinin rəsmi ehtiyatlanmn idarə edilməsi və taarif məzənnələri siyasətinin elementləri, xaricdən gətirilmiş məhsulların yerli əmtəələrlə müqayisədə rəqabətə davamlılığının aşağı düşməsi və sairə aid edilir.

İnzibati tənzimləmə metoduna isə lisenziyalaşdırma, kvotalar (hədd), qeyri-tarif məhdudlaşmalan, idxal və ixraca qoyulan qadağalar (embarqo), idxalın məhdudlaşdırılması, idxal mallannın qiymətlərinin artması, xarici ixracatçılara və ya daxili istehlakçılara əlavə vergilərin qoyulması, dolayı vergilərin tətbiqi və sairə aid etmək olar. Bütün bu tədbirlərin

hamısı BİM-in təşkilati-hüquqi əsaslarını təşkil etməklə yanaşı, həm də milli dövlətlərin suverenliyinə xidmət edir.

Dünya dövlətləri tənzimləmə mexanizminin göstərilən bu metodlarının köməyilə dünya təsərrüfatı əlaqələri sistemində, ölkənin milli mənafelərini qorumaq məqsədilə xarici iqtisadi əlaqələri tənzim edirlər. Bu problem bütün dünya dövlətləri üçün olduqca aktualdır.

2,2.Dünya ölkələri arasında baş verən beynəlxalq iqtisadi münasibətlərin və digər xarici iqtisadi əlaqələrin tənzimlənməsində əsas məqsəd beynəlxalq miqyasda rəqabətə davam gətirmək və beynəlxalq əmək bölgüsündə ölkələrin yaxından iştirak etməsinin təmin edilməsi üçün əhəmiyyətlidir. Ölkələr arasında baş verən beynəlxalq iqtisadi münasibətlər və ümumiyyətlə xarici iqtisadi əlaqələrin tənzimedilməsi metodlarını 2 qrupa bölmək olar: tarif və qeyri-tarif (inzibati) tənzimlənməsi.

1.Xarici iqtisadi fəaliyyətin tənzimedilməsinin qeyri tarif (inzibati) üsulu özündə dövlətin iqtisadi və ticarət siyasətinin geniş əhatəli sistemini birləşdirir. Dövlətlər arasında iqtisadi əlaqələrin genişləndiyi, beynəlxalq ticarətin sürətlə inkişaf etdiyi şəraitdə qeyri tarif tənzimlənməsinin rolu artmışdır. Buna baxmayaraq dünyanın bir sıra dövlətləri özlərinin milli iqtisadiyyatını və bazarlarını qorumaq məqsədilə xarici ticarət əlaqələrində himayədar-məhdudlaşdırıcı siyasət yetirməyə çalışırlar.

BMT-nin qəbul etdiyi qaydalara görə xarici iqtisadi fəaliyyət və xarici ticarətin tənzimedilməsinin qeyri tarif üsulları 3 növə bölünür:

1. Milli istehsalın müəyyən sahələrinin qorunması məqsədilə idxalın məhdudlaşdırılması (lisenziya, kvota, məhdudlaşdırılması)

2.İnzibati bürokratik üsul (gömrük rüsumlarının artırılması, tranzit vergilərin qoyulması, texniki standartlar və normalar)

3. İdxal və ixracın məhdudlaşdırılması və stimullaşdı-nlmasına yönəldilmiş tədbirlər.

Dünya ölkələrində beynəlxalq ticarəti məhdudlaşdırmaq üçün 50-dən çox üsuldan istifadə edilir. İdxal və ixracın

birbaşa tənzim etmək üçün lisenziya və kvotalardan istifadə edilir. Liscnziyalaşma İqtisadi əməliyyatın apanimasma razılıq verilməsini nəzərdə tutur. Lisenziyalar öz növbəsində baş lisenziyaya və birdəfəlik lisenziyaya bölünür.

Beynəlxalq aləmdə lisenziyaları müsabiqə əsasında hərrac keçiilməsi, açıq üstünlük verilməsi sistemi və lisenziyaların məsrəf üsulu ilə bölüşdürülməsi formalarında həyata keçirilir.

İdxal lisenziyalan dövlət tərəfindən və ya hərraclar vasitəsilə və yaxud gizli şəkildə satıla bilər.

Kvota (hədd)-qoyulması, idxal və ixrac olunan əmtəə və xidmət növlərinin dəyər və ya kəmiyyətcə məhdudlaşdınl- masmı nəzərdə tutur. Bu tədbir ayn-ayn ölkələrə konkret tarixi müddətə tətbiq olunur.

Kvota sistemi ixraca nisbətən idxal çox olduğu hallarda tarazlıq yaratmaq məqsədilə həyata keçirilir.

Embarqo-hər hansı bir ölkəyə əmtəə və xidmətlərin aparılmasına dövlət tərəfindən qadağan edilməsidir.

Qeyri tarif metodu ilə xarici iqtisadi fəaliyyətin tənzim edilməsində standartlar xüsusi rol oynayır.

Standartlaşma-əmtəə və xidmətlərin keyfiyyətinə görə müəyyən edilən standart tələblər və normalardır.

Beynəlxalq standartlaşma çoxcəhətli elmİ texniki və iqtisadi əməkdaşlığın inkişafı ilə bağlıdır.

2. Beynəlxalq iqtisadi əlaqələrin tənzimlənməsinin mühüm iqtisadi metodlardan biri onun gömrük tarifləri vasitəsilə tənzimlənməsidir. Gömrük tarifləri xarici iqtisadi siyasətin on qədim və geniş yayılmış vasitələrindən biridir. Gömrük rüsumlarını bir neçə əlamətə görə müəyyən etmək olar;

- Alınma obyektinə görə (idxal, ixrac və tranzit rüsumları)
- Alınma məqsədlərinə görə fiskal rüsumlar
- Alınma üsullarına görə spesifik (qiymətdən alınan yaxud qarışıq) rüsumlar.

Son zamanlar beynəlxalq aləmdə təsərrüfat fəaliyyətini genişləndirmək üçün subsidiyalardan geniş istifadə edilir. Subsidiya yerli İstehsalçıların iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq üçün dövlətin onlara verdiyi maddi yardımdır.

Burada I qrup gömrük rüsumlar ölkədən aparılan əmtəələri məhdudlaşdırmaq üçün tətbiq edilir.

II qrup gömrük rüsumları isə bu dərəcələrin yüksək olduğu ölkələr aid edilir. Buraya Əlcəzair, Liviya, Meksika, İran və s. ölkələri daxil etmək olar.

III qrup gömrük rüsumları İnkişaf Etməkdə Olan Ölkələrə aid edilir. Bu ölkələrə Misir, Tayland, Hindistan, Türkiyə, Suriya və s. misal göstərmək olar.

Xüsusi olaraq bu ölkələr içərisində yüksək tarif dərəcələri ilə Ekvador, Misir, Pakistan irəlidə gedir. Dünyanın əksər inkişaf etməkdə olan ölkələri tarifləri Brüssel gömrük nomenk- laturası əsasında tənzim edirlər. Bu ölkələrdə fiskal gömrük gəlirləri dövlət büdcəsinin mühüm gəlir mənbəyidir.

Buna görə də həmin ölkələrdə gömrük tariflərindən başqa, bir sıra inkişaf elməkdə olan ölkələr, fiskal siyasətin və müxtəlif vergilər də tətbiq edir.

Fiskal siyasəti-dövlət xərcləri və vergi ilə bağlı tənzimləmə sistemidir. İnkişaf elməkdə olan ölkələr bu sistemi yetirməklə ölkənin əmtəə və xidmətlərə olan zəruri tələbatını ödəyir. Digər tərəfdən isə milli bazarları tənzimləyirlər. BİM-in və digər xarici iqtisadi əlaqələrin tənzimlənməsində, bir sıra beynəlxalq təşkilatlarında mühüm rolu vardır. Bu beynəlxalq təşkilatlara dünyanın sənayecə inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələrdir. Buna misal olaraq BMT-nin ticarət və inkişaf üzrə konfransını və BMT-nin Avropa iqtisadi komissiyasım göstərmək olar. Bu təşkilatlarm əsas məqsədi dünya dövlətləri arasında xarici iqtisadi əlaqələrin və beynəlxalq ticarətin səmərəli şəkildə həyala keçirilməsini təşkil etməkdən ibarətdir.

2.3.BİM sisteminə daxil olan bütün orqanlar əslində BİM- in obyektləridir, onun substansiyalarıdır. Regional iqtisadi qruplaşma şəklində tənzimlənməsi isə iqtisadi inteqrasiya prosesi vasitəsilə həyata keçirilir. Məsələn: 2006-cı ilin əvvəlinə dünya ticarətinin 24%-i Sakİt Okean iqtisadi əməkdaşlığı birliyinin 23 %-i Avropa iqtisadi birliyi, 8 %-i Şimali Amerika azad ticarət zonası tərəfindən həyata keçirilir. Deməli, ticarət sahəsindəki münasibətlərin böyük bir qismi bu qurumlar vasitəsilə tənzimlənir.

Regiona] iqtisadi qruplaşmalar əsasında inteqrasiya və əməkdaşlığın aşağıdakı formalan var;

1. Açıq ticarət birliyi.
2. Gömrük ittifaqı (vahid tarif tədbiq edilməsi).
3. Ümumi bazar gömrük ittifaqının bütün bu kimi cəhətləri kapitalın işçi qüvvəsinin xidmətin hərəkəti ilə tamamlanır.
4. İqtisadi birlik.

Regional iqtisadi təşkilatların fəaliyyəti aşağıdakı istiqamətlərdə həyata keçirilir;

- əmtəə və kapitalın sərbəst hərəkəti
- aparıcı sahələrin (sənaye, kənd təsərrüfatı) maliyyə nəqliyyat sahələrinin inkişaf proqramlarının əlaqələndirilməsi.
- regional iqtisadi əməkdaşlıq təşkilatı. Bu təşkilat XX əsrin II yarısından öz inkişafını bank sistemində tapmışdır. Belə ki, 1949-cu ildə ABŞ ölkələr arası inkişaf bankı yaradılmışdır. Bu bank 16 inkişaf etmiş ölkəni və 27 inkişaf etməkdə olan ölkəni özündə birləşdirir.

1966-cı ildə Asiya inkişaf bankı yaradılmışdır. Bu bank 31 inkişaf etməkdə olan ölkəni və 14 inkişaf etmiş Ölkəni özündə birləşdirir. Avropa Yenidənqurma və İnkişaf Bankı isə xüsusi bölmə ilə daha genİş əməkdaşlıq edir. Bütün bunlarla yanaşı həmin dövrdən başlayaraq bilavasitə BİM-in tənzimlənməsi ilə məşğul olan bir çox təşkilatlar, o cümlədən Beynəlxalq İqtisadi Təşkilatlar yaradılmışdır. Dünya təsərrüfatında yaranan və inkişaf edən yeni-yeni proseslər və amillər dünya təsərrüfatının gündəlik tələbatına çevrilmişdir. Onlar BİM-in genişlənməsini sürətləndirir və tənzimlənməsini tələb edir. Burada daha ümumi hesab edilən amillərdən aşağıdakılan qeyd etmək olar;

1. Beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsi;
2. Dünya iqtisadiyyatında və beynəlxalq təsərrüfat əlaqələrində beynəlmiləlləşmənin güclənməsi;
3. Elmi texniki inqilabın hər tərəfli inkişafı, onun rüfuz dairəsinə yeni ölkələrin və ərazilərin cəlb edilməsi;
4. Bir çox qlobal problemlərin yaranması; Bunlardan ekoloji problemlər, ərzaq, yoxsulluq, demoqrafiya və s. göstərmək olar;
5. İstehsalın ictimailəşmə səviyyəsinin artması;

6. BİM-in bütün formalannın İntensiv inkişaf yoluna keçməsi;

7. BİM-in hərtərəfli tənzimlənməsi sisteminin perspektiv inkişafda dünya sistemindəki dəyişikliyin də böyük əhəmiyyəti vardır və s.;

Bunlarla yanaşı üçüncü dünya adlanan inkişaf etməkdə olan ölkələrin özlərində də müəyyən dəyişikliklər nəzəri cəlb edir. Bütün bu kimi amillər bir tərəfdən BİM-in genişlənməsinə zəmin yaradır, digər tərəfdən isə onun tənzimlənməsi mexanizminin olması tələb edir.

8. Belə qlobal ümumi problemlərlə yanaşı BİM-in hərtərəfli tənzimlənməsi sistemini edən digər amillər və proseslər də mövcuddur.

9. BİM-in hərtərəfli tənzimində liberallaşma prosesinin də rolu da vardır,

10.Onu da qeyd etməliyik ki, BİM-in müasir şəraitdəki inkişafı transmilli korporasiyaların rolunun və əhəmiyyətinin artması ilə qınimaz bağlıdır.

11.BİM-in çoxtərəfli tənzimlənməsi sisteminin daha da inkişaf etdirilməsinin aktuallığı bir də ondan irəli gəlir ki, beynəlxalq iqtisadi əlaqələrdə daha yenİ sahələr sürətlə artır.

BİM-in dövlətlərarası tənzimlənməsində əsas vəzifə beynəlxalq əməkdaşlıq qaydalarının, hüquq normalırının hazırlanmasıdan ibarətdir. İctimai istehsal sahələrinin raakro və mikro səviyyədə tənzimlənməsi dövlət sektoru ilə özəl sektor arasında elə optimal əlaqələrin yaradılması tələb edilir ki, xarici iqtisadi əlaqələr sahəsində milli mənafelər qoruna bilsin.

Bu prosesdə BİM-in müxtəlif formaları dövlətlərarası tənzimlənməsinin obyekti hesab edilir. Dövlətlərarası tənzimlənmənin obyektləri isə milli dövlətlərin qurumları. Qanşıq inhisarçı dövlət müəssisələri beynəlxalq dövlətlərarası orqanlar hesab edilirlər.

Dünya ölkələrinin həyata keçirdikləri beynəlxalq iqtisadi siyasətin real bazisi (milli mənafelər) müxtəlif olduğuna, ölkələr arasında sürətlə inkişaf edən sosial-iqtisadi əlaqələrə nəzarət etmək və onları beynəlxalq hüquqi normalar əsasında tənzimləmək hər bir milli dövlətin başlıca iqtisadi və siyasi funksiyasını təşkil edir. Məhz buna görə də, BİM-in tənzim

lənməsi beynəlxalq müqavilələr, konfranslar, ittifaqlar, birliklər, danışıqlar, görüşlər və sair kimi yüksək səviyyəli tədbirlər vasitəsilə həyata keçirilir. Bu baxımından BİM fənninin mühüm vəzifələrindən biri də qeyd edilən proseslər barədə elmi raühazilərin formalaşdırılmasından ibarətdir.

Beynəlxalq hüquqda bir normaların yaranması beynəlxalq müqavilələrə və beynəlxalq ənənələrə əsaslanır. Bu beynəlxalq hüququn əsas məzmunu onun subyektlərinin hüquq və vəzifələri ilə əks olunur. Bütün bu kimi beynəlxalq problemlər milli çərçivədən üstün olan və daimi fəaliyyət göstərən institutlar, qurumlar, mexanizmlər yaradılması xərurətini doğur- muşur. Belə mexanizmlər və təşkilatlar haqqında növbəti fəsillərdə daha geniş məlumatlar veriləcəkdir.

2.4. Xarici fəaliyyət strategiyasının növləri.

BİM sistemində hər bir dövlətin hökümət dairələri özünün İqtisadi siyasətini elə hazırlamalıdır ki, bütövlükdə ölkə onun bazarlarına xaricdən gətirilən məhsulların satışından ziyan çəkməsin, əksinə bu əməliyyatların hesabına kifayət qədər mənfəət əldə etsin.

Dövlət tərəfindən idxalın və ixracın məhdudlaşdırılmasından, yaxud stimullaşdınlmasından asıh olaraq onun xarici iqtisadi fəaliyyət strategiyası 4 növə ayrılır. Bunlara aşağıdakılar aiddir:

1. Qismən təcridetmə strategiyası. Bu strategiya növü Ölkənin daxili bazarına müəyyən növ məhsulları buraxmamaq məqsədilə həyata keçirilir. Məsələn, ölkə əhalisinin ideologiyası və həyat tərzi ilə ziddiyət təşkil edən kinobigyu məhsulları, nəşr olunmuş materiallan və s.

2. Proteksionizm strategiyası. Proteksionizm anlayışı latınca «protectio» sözündən götürülüb himayədarlıq, müdafiə etmək mənasında işlədilir. Yəni daxili bazann və milli sahibkarların xarici rəqabətdən müdafiə edilməsi. Adətən bu strategiya bu və ya digər səviyyədə ixrac istehsalının idxalı əvəzləməsinin stimullaşdırıiması ilə uzlaşdırılaraq əlaqələndirilərək həyata keçirilir. Həm də bu strategiya rəqabət qabiliyyəti nisbətən aşağı olan millİ sahibkarlann dövlətə təziqi nəticəsində qəbul edilir. Nəticədə proteksionizm strategiyası hesabına yerli sahibkarlar üçün xüsusi güzəştli şərait

yaradılır ki, bunun da milli iqüsadiyyat üçün müxtəlif nəticələn olur. Bir tərəfdən xaricdən idxal olunan məhsulların məhdudlaşdırılması bütövlükdə ölkənin, həmçinin istehlakçıların mənafeinə mənfi təsir göstərir. Çünki bu şəraitdə ölkə beynəlxalq əmək bölgüsünün (BƏB) üstünlüklərindən lazımınca faydalana bilmir. Digər tərəfdən yerli sahibkarlar üçün proteksionizm tədbirləri hesabına «istixana» mühitinin yaradılması milli firmaların möhkəmlənməsi və rəqabətə davamlılığı məqsədilə çox vacibdir.

Onu da qeyd etmək lazımdır ki, proteksionizm strategiyasının qeyd etdiyimiz müsbət tərəfi ilə yanaşı mənfi cəhətləri də vardır. Beləki bu strategiyanın hesabına milli firmalar üçün yaradılmış «istixana» şəraiti texnoloji cəhətdən köhnəlmiş istehsalın konservasiyasına (inhisar effekti) gətirib çıxara bilər. Bütün bunları nəzərə alaraq proteksionizm strategiyasının zərərli nəticələri özünü biruzə verdikdə ondan istifkdənin məhdudlaşdırılması məqsədəuyğundur.

3. Azad ticarət stratediyası. Bu strategiya frilreydərçilik strategiyası kimi də İqtisadi ədəbiyyatlarda öz əksini tapmışdır. Azad ticarət strategiyası şəraitində xarici ticarətdə məhdudiyyətlər minimuma endirilir. Adətən bu strategiya bazarlarda liderlik mövqeyi tutan ölkələr tərəfindən həyata keçirilir. Bu hal inkişaf etmiş ölkələrin beynəlxalq ticarətdə liderlik mövqeyə malik olması və bazarda onların məhsullarının rəqabətə yüksək davamlılığı faktı ilə izah olunur.

4. Qıt bazarın doldurulması strategiyası. Bu strategiya milli bazarlarda və onun ayrı-ayn seqmentlərində məhsulların qıtlığı böyük olan hallarda səmərəli hesab olunur. Onun ayn- ayn elementlərindən 1990-1995-ci illərdə Azərbaycanda daxili bazara böyük həcmdə xarici malları cəlb etmək məqsədilə istifadə olunmuşdur.

Qıt bazarın doldurulması. Strategiyası sərt, həm də yüngül formada tətbiq edilə bilər. Əgər bu strategiya bazarlarının və əmtəələrin hamısı üzrə həyata keçirilirsə onda o, sərət xarakter daşıyır. Digər halda, yəni bu strategiya ayrı-ayrı bazarlar və məhsul növləri üçün dövlət tərəfindən həyata keçirilirsə onda o şərt olmur. Bu hal əksər dövlətlərə imkan verir ki, xarici iqtisadi fəaliyyət strategiyasının bir neçə növündən əlaqəli formada istifadə etsinlər.

## Bölmə III. Beynəlxalq iqtisadi münasibətlərin formaları

3.1. BİM-in formalaşmasının və inkişafının iqtisadi əsaslan.
3.2. BİM-in formalarının xarakteristikası.
3.3. Beynəlxalq ticarət BİM-in aparıcı formasıdır.

3.1. Məlum olduğu kimi ölkələrin daxilində həyata keçirilən iqtisadi fəaliyyət beynəlxalq miqyasda reallaşan xarici iqtisadi fəaliyyətlə vəhdət təşkil edir. Belə ki, ümumi milli məhsulun artımı, valyuta təsərrüfatının gücləndirilməsi, həyat səviyyəsinin yüksəldilməsi və s. kimi milli problemlər xarici iqtisadi əlaqələr qurmadan tam həll edilə bilməz. Onu da qeyd edək ki, geniş təkrar istehsal prosesinin istənilən həlqəsi xarici iqtisadi fəaliyyətin obyekti kimi formalaşmağa başlamışdır.

İnsan cəmiyyətinin inkişafının hər hansı bir dövründə məhsuldar qüvvələrin inkişaf səviyyəsi, miliisərvətlərin miqyası və onun istehsala cəlb edilməsinin iqtisadi formaları bu və ya digər formada konkret xarici iqtisadi fəaliyyət növü ilə vəhdət təşki) edir. Bu proses BİM-in mühüm qanunauyğunluqlarından biridir. Xarici iqtisadi fəaliyyət beynəlxalq ticarət-iqtisadi, maliyyə-kredit, valyuta-pul, elmİ-texniki əməkdaşlıq və s. formalarında həyata keçirilir. Xarici iqtisadi fəaliyyətin ilkin və ən geniş yayılmış forması kimi ticarət əlaqələri meydana gəlmişdir.

Xarici iqtisadi fəaliyyət dünya ölkələrinin milli iqtisadiyyatının qarşılıqlı asılılığını yaradır və iqtisadi artımın sürət- iənraəsiə xidmət edir.

Xarici iqtisadi fəaliyyət, milli iqtisadiyyat sahələrinin dövlətin sərhədlərindən xaricə çıxması ilə əlaqədar yaranır və bu əsasda beynəlxalq münasibətlər formalaşır. Beynəlxalq münasibətlər dünya birliyinə daxil olan dövlətlər, millətlər, hökümətlərarası təşkilatlar və s. arasında siyasi, iqtisadi, elmi texniki, mədəni və s. münasibətlər sistemidir.

Bu münasibətlər ayrı-ayrı dövlətlərin ərazisindən, onların səlahiyyətlərindən kənarda mövcud olur inkişaf edir və bütün

dünya ölkələrinin, beynəlxalq təşkilatları və müstəqillik uğrun- da mübarizə aparan millətlərin mənafeyini əhatə edir.

Beynəlxalq münasibətlər eyni zamanda beynəlxalq fəaliyyət sisteminin subyektləri arasında münasibətlərin bütün tərəflərini, yaxud da onların BİM-lə bağlı olan əlaqələrini əhatə edir. Müasir mərhələdə elmi-texniki tərəqqinin və BƏB-in təsiri altında BİM fasiləsiz genişlənir və dərinləşir. Dünya təsərrüfatının beynəlmilləşməsi prosesləri güclənir və dövlətlərin qarşılıqlı asıhlığı artır.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, qarşılıqlı asılılığın güclənməsinin müsbət tərəfləri ilə yanaşı, həm də mənfi cəhətləri vardır. Belə asılılıq məhsul ixracından əldə edilmiş vəsait əsasında inkişaf edən ölkələr üçün xüsusilə təhlükəlidir. Çünki, ümumi sosioloji qanunlar spesifik qanunauyğunluqlar formasında təzahür edir. Buraya ilk növbədə sosial iqtisadi strukturun formalaşması və iqtisadiyyatın fəaliyyətini tənzimləyən qanunlar aiddir. Eyni zamanda əhalinin artımı qanunu. Ölkələrin qeyri-bərabər inkişafı qanunu, müxtəlif ölkələrin iqtisadi inkişaf səviyyələrinin bərabərləşməsi qanunu və s. aid edilir. BİM-in subyektləri milli hökümətlər və dövlət orqanlarından ibarət olduğu üçün, bu qanunauyğunluqlar ayrı-ayrı ölkələrdə müxtəlif səviyyələrdə təzahür edir.

Beynəlxalq ticarət istər ayn-ayn Ölkələrdə, istərsədə dünya miqyasında ictimai həyatın ayrılmaz və mühüm tərkib hissəsinə çevrilmişdir. Küçələrdə şütüyən xarici avtomobillər, insanların geydikləri rəngarəng paltarlar, işlədikləri telefonlar və s. xarici ticarətin gündəlik həyat və məişətimizə necə daxil olduğunu elə bil ki, hər an bizə xatırladır.

Klassik siyasi iqtisadi məktəbin görkəmli nümayəndələri olan ingilis iqtisadçısı A.Smit özünün məşhur əsəri olan «Xalqlann sərvətinin təbiəti və səbəbləri haqqında» tədqiqat (1776-cı il) əsərində o zaman dünyanın sənaye cəhətdən ən inkişaf etmiş ölkəsi sayılan İngiltərədə hökm sürən himayədar merkatilist xarici ticarət siyasətini kəskintənqid etmiş, beynəlxalq ticarət azadlığını tərənnüm etmİş və faktiki dəlil-

lərlə onu sübuta yetirməyə çalışmışdır. A.Smit dünya bazarının-ticarətinin əsasında nə durur sualına cavab verməklə BİM-in nəzəri əsaslannı hazırladı. Ondan sonra isə İkinci böyük ingilis İqtisadçısı D.Rikardo özünün ən geniş həcmli əsəri olan «Siyasi iqtisadın və vergi qoyulmasının əsasları» (1817-ci il) adlı əsərində İngiltərədə hökm sürən xarici ticarət siyasətini təhlil etməklə yanaşı, həm də bu münasibətlərin sonrakı inkişafı üçün zəruri amil rolunu oynayan «nisbi xərclər nəzə- riyyəsini» irəlİ sürmüşdür. BİM-in iqtisadi əsasının öyrənilməsində Xekşer Olin, Pozner, Porter, C.S.Mil, Leontyev və s. təlimlərin do böyük rolu olmuşdur. Bu nəzəriyyələr işıq üzü görmüş ədəbiyyatlarda kifayət qədər şərh olunduğu üçün onların üzərində təkrar dayanmağı lazım bilmirik.

Bütün hallarda dövlətlərin bir-biri ilə ticarətinin əsasında BƏB durur. Bu əlaqələrin getdikcə dərinləşməsinin əsas səbəbini hər şeydən əvvəl BƏB-i şərtləndirən amillərdə axtarmaq lazımdır. Bu amillər sırasına ilk növbədə təbii sərvətlərin məhdudluğu və Ölkələr arasında iqtisadi ehtiyatlann qeyri-bərabər yerləşməsidir. Başqa sözlə, iqtisadi ehtiyatlarla təmin oluna bilməyən ölkələr bir-birindən ciddi sürətdə asılı vəziyyətə düşürlər. Müxtəlif ölkələrin iqitisadi potensialı arasındakı fərqi təbii ehtiyatların qeyri-bərabər bölgüsü İlə yanaşı, ayrı-ayrı ölkələrdə irİ maşınlı sənayenin meydana gəlib inkişaf etməsi də mühüm əhəmiyyət kəsb edir. Bu istehsalın səmərəli təşkilindən, texnologiyanın inkişafı və ehtiyatların səmərəli tətbiqindən ibarətdir. Bu amillərin qarşılıqlı təsiri nəticəsində ölkələr müxtəlif malların istehsalı üzrə ixtisaslaşır və hər bir ölkədə digər ölkənin məhsullarına ehtiyac yaranır. Beynəlxalq ticarət haqqında mülahizələr dərinləşdikcə amillərin təsiri ticarətin əsasını təşkil edən başqa amillərdə ortaya çıxır. Bunlardan aşağıdakıları göstərmək olar.

1. Yerli istehsalın kifayət dərəcədə inkişaf etməməsi
2. Malların qiymətinin beynəlxalq miqyasda fərqlənməsi
3. Müxtəlif ölkələrdə fərqli mallar istehsalı və s.

BƏB nəticəsində ayrı-ayrı ölkələr müvafiq əmtəə istehsalı üzrə ixtisaslaşır. Bir çox mallar isə yerli təlabatdan artıq

istehsal edilir. Bütün bu və ya digər şərtlər beynəlxalq səviyyədə BİM-in aparıcı mövqe tutmasına səbəb olur.

**3.2.** Beynəlxalq iqtisadi münasibətlər formaları, istiqamətləri, vasitələri, yollan və ona təsir edən amillər vasitəsilə inkişaf edir. Çox təəsüf ki, bəzi hallarda BİM-in formaları onun inkişaf istiqamətləri ilə heç bir əsası olmadan eyniləşdirilir. Beynəlxalq səviyyədə qəbul olunmuş yanaşmalara əsasən BİM-in aşağıdakı formalan vardır.

1. Beynəlxalq ticarət və xaricİ ticarət siyasəti;
2. Kapital ixracı;
3. Beynəlxalq valyuta kredit münasibətləri;
4. İşçi qüvvəsinin beynəlxalq hərəkəti;
5. Beynəlxalq elmi texniki əməkdaşlıq.

Qeyd etdiyimiz formalardan başqa beynəlxalq iqtisadi münasibətlərin iki inkişaf istiqaməti vardır. Bura daxildir:

- Beynəlxalq əmək bölgüsü:
- Beynəlxalq iqtisadi İnteqrasiya:

İqtisadi ədəbiyyatlarda BİM-in inkişaf yollanna aşağıdakılar aid edilir:

- Beynəlxalq turizm;
- İstehsalın beynəlxalq kooperasiyası;
- Beynəlmiləlləşmə.
- Beynəlxalq ixtisaslaşma.
- Beynəlxalq iqtisadi münasibətlərin inkişafına bir çox amillər də təsir göstərir. Onlardan aşağıdakıları göstərmək olar: azad iqtisadi zonalann təşkili, beynəlxalq inhisar formalarının inkişafı, beynəlxalq hərracların, torpaqların, yarmarkaların inkişafı və s.

BİM-in formalan, istiqamətləri, yolları və inkişafına təsir gölərən amilləri hazırkı kitabın sonrakı bölmələrində ətraflı öyrənilməsi nəzərdə tutulduğuna görə onlara işin bu hissəsində ayrılıqda yer verilməsi məqsədəuyğun bilinməmişdir.

**3.3.** Beynəlxalq ticarət BİM-in ənənəvi və ən çox inkişaf etmiş formasıdır. Alim və mütəxəsisiərin fikrinə görə BİM sferasında BT-nin həcmi 80 ‘Vö-ə çatır.

C. Saksın fikrinə görə, hər hansı bir ölkənin iqtisadi həyatındakı irəliləyiş onun xarici ticarətində özünü biruzə verir. Hələlik heç bir ölkəyə, dünya iqtisadiyyatı sistemindən təcrid olunmuş halda sağlam iqtisadiyyat qurmaq nəsib olmayıb. Beynəlxalq ticarət (BT), müxtəlif ölkələrin bir-birilərinə iqtisadi asılılığını və qarşıhqh əlaqələrini biruzə verir. Hesablamalara görə dünyada BT-İn həcmi (əmtəə mübadiləsi) istehsalın həcminə nisbətən sürətlə artır. Belə ki, dünya istehsalının hər 10 % artımına 16 % dünya ticarətinin artımı düşür.

BT dünya ölkələri arasında haqqı ödənilən əmtəə dövriyyəsi məcmusudur. Müasir dövrdə beynəbcalq ticarətin aşağıdakı formalanndan geniş istifadə olunur:

- idxal üzrə beynəlxalq ticarət;
- ixrac üzrə beynəlxalq ticarət;
- reeksport əməliyyatları əsasında xarici ticarət;
- reinsport əməliyyatları üzrə xarici ticarət;
- tranzit ticarəti;

Qeyd edilən bu beynəlxalq ticarət formalanndan başqa birjalarda marjinal ticarət əməliyyatları və birjalarda vasitəsilə xarici ticarətin nisbətən az yayılmış növlərindən də İstifadə olunur ki, onlar da dövlətlər arasında BİM-in inkişafında böyük rol oynayır.

Qeyd etdiyimiz kimi BƏB, BT-in əsasmı təşkil edir və müxtəlif ölkələrin xammal və hazır məhsul üzrə dünya bazannda ixtisaslaşmasını göstərir.

BİM-in tərkib hissəsi kimi beynəlxalq ticarətin inkişafında bir sıra konsepsiyalar mühüm rol oynamışdır. BT-də xüsusilə «fretrade» çilik siyasətinin böyük rolu olmuşdur. Bu siyasət ilk dəfə A.Smit tərəfindən irəli sürülmüşdür. O, sübut etdİ ki, «mübadilə hər bir ölkə üçün əlverişlidir. Hər bir Ölkə burada üstünlük qazanır». Bu nəzəriyyə azad ticarət siyasətinin bütün formalarına xidmət edən klassik nəzəriyyənin başlanğıc nöqtəsi oldu.

D. Rikardo «Siyasi iqtisadın başlanğıcı və vergiqoyma» əsərində iki ölkələr arasında mübadilənin mümkünlüyünü şərh

etmişdir. Onun fikrincə, hər bir ölkə özünün yüksək üstünlüyə və ya mənfəət böyük olub başqa sahələrə nəzərən zəifliyi qismən sahələrin ixtisaslaşdınimasında maraqlıdırlar. O, göstərmişdir ki, beynəlxalq mübadilə bütün ölkələr üçün mümkündür və maraqlıdır. D.Rikkardo nəzəriyyəsində qiymət zonasını təyin edir və hər bir iştirakçı üçün onun əsasında mübadiləni seçir.

Ceyms Stüartmil «Siysi iqtisadın əsasları» əsərində göstərdi ki, mübadilənin dəyəri tələb-təklif qanununa əsasən formalaşır. Bu o, səviyyədə müəyyən edilir ki, hər hansı ölkənin eksportunun məcmuyu importun məcmusunu ödəyə bilsin. Bu nəzəri fikir elm tarixinə «Beynəlxalq dəyər nəzəriyyəsi)) qanunu kimi daxil olunmuşdur. Həmin nəzəriyyə, ölkələr arasında əmtəə mübadiləsini həyata keçirmək üçün tələb- təklifdən asılı olan qiymətin mövcudluğunu göstərmişdir. Elm tarixində beynəlxalq ticarətin nəzəri əsasları, inkişafı və əhəmiyyəti haqqında onlarca klassik təlimlər olub. Lakin bunla- nn hər biri haqqında geniş şərhə fıkrimizcə ehtiyac yoxdur. Eləcə onu göstərmək lazımdır ki, müasir BT sistemində hər bir dövlətin ticarət siyasətinin inkişafında ziddiyətli iki tendensiya vardır:

1) Proteksionizm, 2) Liberallaşdırma, Əgər 50-60-cı illərdə liberallaşdırma tendensiyası üstünlük təşkil edirdisə, 70-80-cı illərdə «Yeni prteksionizm» meyli sürətləndi.

50-60-cı illərdə liberallaşdırma tendensiyasının təsiri nəticəsində gömrük haqları xeyli azaldıldı, valyuta məhdudiyyətləri ixtisar edildi. Əgər 50-ci illərin ortalannda gömrük haqqlarının orta səviyyəsi Avropa ölkələrində və ABŞ-da 30- 40 % təşkil edirdisə, sonradan bu göstərici 3-5 %-ə endirildi.

Müasir beynəlxalq ticarət sistemində proteksionizm daha geniş yayılmışdır. Bu metod daha çox regional xarakterli iri və yeni inteqrasiya birliklərindən istifadə olunur.

Proteksionizm siyasəti ilə tənzimlənmədə qlobal səviyyədə yeni qaydalar meydana gəlmişdir. Bu siyasət əsasən

edilir. Artıq gömrük vergilərinin yerini taarİfsİ7 proteksionizm əvəz edir: kəmiyyət məhdudiyyətləri, standartlar, texniki şərtlər, ekoloji təhlükəsizlik normalan və s. proteksionizm siyasətinin əsas amilləri və stimullandır.

Eksporta dövlət köməyindən söhbət gedərkən daha 3 əsaslı metodu göstərmək lazımdır. Bunlardan biri birbaşa kreditləşdirmədir. Bu metod ABŞ və Yaponiyada geniş yayılıb. Metodlardan biridə eksportun sığortalanmasıdır. Sığorta hərbi, siyasi və b. risklərdən müdafiə olunmaq üçün edilir. Üçüncü metod, dövlət tərəfindən xaricdə milli məhsulun reklamına kömək edilməsidir.

XX əsrin II yarısından beynəlxalq ticarət (BT) sürətlə inkişaf etməyə başladı. 1950-1994-cü illərdə BT inkişafında «qi2il əsr» adlandırırlar. Məhz bu dövrdə illik dünya eksportu 7 % artmışdır. 70-ci illərdə bu rəqəm orta hesabla 5 % olmuşdur. 80-ci illərin axırlarında dünya eksportunun artım sürəti daha da yüksəldi (I998-ci üdə 8,5 %). Bu artım tempi 90-cı illərin başlanğıcında yenidən endi və 90-cı illərin ortalannda indiyədək yüksək artım tempi davam etməkdədir. BT-nin ölkələr üzrə inkişaf tendensiyalanndan danışdıqda qeyd edək ki, 50-ci ildə ABŞ-ın payına dünya ixracının 1/3-i düşmüşdürsə, 90-cı ildə bu göstərici 1/8-ə enmişdir. Bu dövrlərdə Almaniya ABŞ-a yaxınlaşmış və hətta müəyyən dövrlərdə onu ötüb keçmişdi. 90-cı illərdə Qərbi Avropa beynəlxalq ticarətin əsas mərkəzinə çevrildi. Onun ixracı ABŞ-ın ixracını 4 dəfə ötüb keçmiş, dünya ixracının 1/2-ni təşkil etmişdir.

80-cı illərdə BT-də sürətli sıçrayışı Yaponiya etdi. 1983-cü ildə o, ilk dəfə maşın və avadanlıq ixracında I yerə çıxdı. 80-cı illərin axırlarında Yaponiya rəqabət qabiliyyətinə görə lider idi. Bu dövrdə YSÖ (yeni sənaye ölkələri) inkişaf etməyə başladı. 90-cı illərdən başlayaraq 2009-cu ilədək ABŞ rəqabət qabiliyyətinə görə liderliyi ələ aldı. Onun ardınca Sinqapur, Honkonq, Yaponiya gəlirdi.

BT-in sabit artımına aşağıdakı amillər təsir göstərib;

I) BƏB-nün inkişafı və istehsalın beynəlmiləlləşməsi.

2) **Ext,** əsas kapitalın təzələnməsi, iqtisadiyyatda yeni sahənin yaranması.

3) TMK-lann Dünya bazannda aktiv fəaliyyəti.

4) BT-in Ümumdünya Ticarət Təşkilatı (ÜTT) tərəfindən idarəedilməsi,

5) BT-də sığorta, kəmiyyət məhdudiyyətlərinin ləğvi və kömrük rüsumlarının endirilməsi, Azad İqtisadi Zonaların təşkili.

6) Ticarət-Tqtisadi inteqrasiya proseslərinin inkişafı, regional sərhədlərin götürülməsi, ümumi bazarİann formalaşması.

7) Bir sıra ölkələrin siyasi müstəqilliyə çıxması

BT-in inkişafında, idarə olunmasında, liberallaşmasında regional iqtisadi birliklər, azad iqtisadi zonalar və Beynəlxalq İqtisadi Təşkilatlar mühüm rol oynayır. Onlardan ən aparıcısı ÜTT-dir. O, çox tərəfli beynəlxalq sazişdir. Üzv Ölkələr arasında hüquq normalannı, prinsiplərini, qarşılıqlı ticarətin Dövlət tənzimlənməsini özündə cəmləyir. ÜTT dünya ticarətinin 94 %-ni əhatə edir.

Son məlumatlara görə 183 dövlət Ümumi dünya Ticarət Təşkilatının (UTT) üzvüdür.

Azərbaycan Respublikası bu mötəbər təşkilatın üzvü deyildir. Respublikamız ÜTT-yə üzv olmaq üçün 1992-ci ildə müraciət etmiş və indiyədək bu təşkilatın tədbirlərində məşvərətçi statusu ilə çıxış edir. Bu isə o deməkdir ki, respublikamız ÜTT-nin bütün tədbirlərində iştirak edə bilər, müzakirələrə qoşulmaqla müəyyən təkliflər verə bilər. Lakin səs vermə hüququ yoxdur. Azərbaycan dövləti ÜTT-yə üzv olmaq üçün səylərini davam etdirir. Şübhə yoxdur ki, respublikamızın bu mötəbər təşkilata üzv olması onun üstünlüklərindən istifadə etməsinə və milli iqtisadiyyatımızın daha da möhkəmlənməsinə səbəb olacaqdır.

## Bölmə IV. Kapital ixracı BİM-in əsas formasıdır

4.1. Kapital ixracının mahiyyəti.
4.2. Kapital İxracının ilkin şərti və əsas səbəbləri.
4.3. Kapital ixracımn formaları.
4.4. Kapital ixracının müasir xüsusiyyətləri.

4.1. Kapital ixracı beynəlxalq iqtisadi münasibətlərin əsas formasıdır. Xarici ölkələrə kapital ixracı və Ölkələr arasında onun fəal hərəkəti müasir dünya təsərrüfatının ən əlamətdar cəhətlərindən biri olub beynəlxalq iqtisadi münasibətlərə geniş yol açır. Kapital ixracı əmtəə ixracım daha da tamamlayaraq beynəlxalq iqtisadi münasibətlər sistemində həlledici rola malik olur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) məlumatlarına görə !983-cü ildən sonra birbaşa xarici investisiyaların orta illik artımı sürəti 34 % olmuş və dünya ticarətinin artım sürətindən 5 dəfə yüksək olmuşdur. 2009-cu ilin əvvəlinə olan məlumata görə birbaşa investisiyaların artım tempi 37 %-ə çatmışdır.

Kapital ixracı dedikdə, ölkədən kapitalın bir hissəsinin daxili dövriyyədən götürülüb əmtəə və pul formasında başqa ölkədə yerləşdirilməsi prosesi nəzərdə tutulur. Əvvəllər kapital ixracı sənaye cəhətdən İnkişaf etmiş ölkələrin kiçik bir hissəsi tərəfindən həyata keçirilirdi. Dünya təsərrüfatının inkişafı bu prosesin çərçivəsini genişlədirdi. Kapİlal ixracı müvəffəqiyyətlə, dinamik inkişaf edən hər bir hansı iqtisadiyyatın funksiyasına çevrilir. Kapital həm aparıcı sənaye ölkələri, həm orta səviyyədə inkişaf etmiş ölkələr, həm də inkişaf etməkdə olan, xüsusilə də «yeni sənaye ölkələri» ixrac edirlər.

Kapitalın beynəlxalq hərəkəti ölkələr arasında kapitalın qarşılıqlı hərəkətidir. Hər bir ölkə öz növbəsində kapital idxal və ixrac edir. Nəticədə qarşılıqlı investisiya əməliyyatları baş verir.

4.2. Kapital ixracının əsas səbəbi-ilkin şərti ölkədə kapital artıqlığı imkanı ilə

izah olunur. Dünya təsərrüfatı sistemində kapital ixracının baş verməsinin bir çox səbəbləri və amilləri vardır.

Yüksək mənfəət əldə etmək məqsədi ilə kapital ixracının əsas səbəbləri sırasına aşağıdakılar aiddir;

1. Ölkədə kapital artıqlığı imkanları;

2. Dünya təsərrüfatının müxtəlif həlqələrində kapitala tələb və təklifin üst-üstə düşməməsi;

3. Yerli bazarın inhisarlaşması imkanının mövcudluğu;

4. Kapital ixrac edilən ölkələrdə xammal və iş qüvvəsinin ucuz olması;

5. Ölkələrdə investisiya üçün sabit siyasi vəziyyətin və əlverişli şəraitin olması;

6. Xarici ticarətdə ayrı-ayrı bazarların müqayisəli üstünlük pinsipi.

Bunlarla yanaşı kapital ixracına təsir edən amillər də mövcuddur. Bunlardan aşağıdakılan qeyd etmək olar:

1. Milli iqtisadiyyatlar arasında qarşılıqlı əlaqə və asılılığın artması. İstehsalın beynəlmiləlləşməsi;

2. Beynəlxalq sənaye şirkətlərinin yaranması;

3. Kapitalın bir qisminin iqtisadi artımın sürətini yüksəltmək, sənayenin qabaqcıl sahələrini inkişaf etdirmək, məşğulluq səviyyəsinə kömək etməyə və s. barədə inkişaf etmiş ölkələrin iqtisadi siyasəti.

4. Xarici kapitalınköməkliyi ilə inkişaf etməkdə olan ölkələrin öz iqtisadiyyatlannı dirçəltmək marağı;

5. Ekoloji amillər (inkişaf etmiş ölkələrdə ekoloji vəziyyətin pislənməsi üzündən beynəlxalq şirkətlər kapitalı inkişaf etməkdə olan ölkələrə yeridir).

6. Beynəlxalq maliyyə təşkilatlarının rolu.

4.3. Dünya təsərrüfatında kapitalın hərəkətinin subyektləri və mənbəyi kimİ xüsusi kommersiya strukturları, dövlət təşkilatları, beynəlxalq iqtisadi və maliyyə təşkilatlan çıxış edirlər.

Ümumi şəkildə kapital ixracı əsasən aşağıdakı formalarda həyata keçirilir;

- sənaye, ticarət və başqa müəssisələrə qoyulan birbaşa investisiyalar;

portfel investisiyaları (xarici istiqrazların, səhmlərin, qiymətli kağızların alınması);

- borc kapitalı formasında sənaye və ticarət şirkətlərinə, banklan və digər maliyyə qurumlarına verilən orta müddətli və uzunmüddətli kreditlər (və ya istiqrazlar);

- iqtisadi kömək; əvəzsiz və güzəştli kreditlər (faizsiz, aşağı faizli) formada.

Dünya təcrübəsində kapitalın hərəkəti ilə xarici investisiyalar məvhumu arasında aydın şəkildə fərq qoyulur.

Kapitalın hərəkətinə daxildir: xarici tərəfdaşlarla aparılan əmliyyatlar üzrə tədiyyələr, istiqrazların verilməsi(5 ildən çox olmayan müddətə), yalnız kapitalı yaymaq məqsədilə xarici kompaniyaların səhmlərinin, istiqarzlarmın və dİgər qiymətli kağızların əldə edilməsi, qiymətli kağızlar portfelinin diversi-fıkasiyası və i.a.

Xarici investisiyalar dedikdə kapitalın elə hərəkəti başa düşülür ki. investisiyanı qəbul edən ölkədə kompaniyanın, idarəetməyə nəzarətinin və iştirakının təmin edilməsi məqsədini daşısın.

Birbaşa invesitisİyalara elə kapital qoyuluşları aiddir ki, kapital qoyulan obyektin idarə edilməsində iştirak etmək imkanını vermiş olsun.

Birbaşa investisiyaların əsas formaları aşağıdakılardır;

Xaricdə müəssisələrin, o cümlədən qız kompaniyalarının və ya fıliailann yaradılması; müqavilə əsasında birgə müəssisələrin yardılması; təbii resursların birgə işlənməsi; kapital qoyulan ölkənin müəssisələrinin alınması və ya özəlləşdirilməsi.

Birbaşa investisiyalar beynəlxalq şirkətlərin dünya bazarında hökmranlığının əsasını təşkil edir. Bu İnvestisiyalar həmin şirkətlərin tam şəkildə xarici müəssisələrədə sabit olmasını, yaxud da səhmdar kapitalının, investorun həqiqi nəzarətini təmin edən hissəsinə malik olmasını təmin edir. Bir qayda olaraq bu zaman kompaniyanın səhmdar kapitalının ən azı 25%-i xarici investorun payına düşür.

Birbaşa investisiyalar sahəsində aparıcı ölkələr əsasən sənaye cəhətdən inkişaf etmiş ölkələrdir. Onlar illik birbaşa

investisiya axınlarının təqribən 4/5-ə malik olmaqla kapitalın ən iri idxalatçılan və ixracatçıları hesab edilirlər.

1990-cı ildə birbaşa xarici investisiya axınları 200 mlrd, dolları təşkil etməklə rekord səviyyəyə daxildi. Bunun ardmça baş verən azalma yeni artımla əvəz olundu. Dünya üzrə birbaşa xarici investisiyaların həcmi 2005-ci ildə 615 mlrd, dol- laradək artdı və onların ümumi məbləği 3,0 trln. dollara çatdı.

Portfel investisiyalar-səhmlər, istiqrazlar, digər kapital qoyuluşu formalarıdır ki, xarici müəssisənin fəaliyyəti üzərində bilavasitə nəzarət etməyə imkan vermir. İnvestorlar yalnız qiymətli kağızlar haqqında müəyyən edilmiş qaydalara uyğun olaraq mənfəət əldə edə bilirlər.

Portfel İnvestisiyaları nəhəng şirkətlər, mərkəzi (dövlət) və xüsusi banklar tərəfindən buraxılan istiqrazların maliyyələşdirilməsi üçün xarici kapitalın mühüm cəlb edilmə mənbəyidir. Xarici portfel investisiyaların həyata keçirilməsində adətən iri investisiya banklan vasitəçi kimi çıxış edirlər. Portfel investisiyaları şirkətin səhmdar kapitallann 10%-dən cox olmamalıdır.

Ayrı-ayrı ölkələrdə istiqrazlar üzrə ödənilən faiz dərəcələrinin normasında olan fərqlər portfel investiyalarının hərəkətinə əhəmiyyətli təsir göstərir.

Müharibədən sonrakı dövrdə kapital ixracının strukturunda dünya təsərrüfatının inkişaf xüsusiyyətlərini özündə əks etdirən mühüm dəyişİkhklər baş verdi. Bunlardan ən əsası beynəlxalq krditləri 70-cİ 80-ci illərdə çox böyük artımı və dünya maliyyə-kredit kapitalının yaranması hesab olunur. Bu proseslərin təsiri altında borc kapitalının rolu kəskin şəkildə artdı.

60-cı illərdə beynəlxalq borc kapitalı bazan üçün qısamüddətli əməliyyatlar səciyyəvi idi. 70-ci 80-ci illərdə orta və uzunmüddətli kreditlərdən əsas kapitalın tamamlanması, səhmlərin alınması, filialların təsis edilməsi, tikinti və xarici investisiyaların yenidən təşkili üzrə əməliyyatların kreditləşdi- rilməsİ və maliyyələşdirilməsi üçün istifadə edilir. Əsas borc alanlar birinci növbədə beynəlxalq şirkətlərdir.

1995-ci ildə beynəlxalq kapital bazarlannda kreditləşdirmənin həcmi sahəsində yeni rekord əldə edildi.

tqtisadi Əməkdaşlıq və inkişaf Təşkilatının (tƏİT) məlumatlarına görə müddətsiz və müddətli alınma üzrə bütün növdən olan müqavilələr 388 mlrd, dollara qədər artmışdır (1994-cü ildə 258 mlrd.). Maliyyələşdirmənin ümumi həcmində sindikatlaşdınlmış kreditlərin xüsusi çəkisi 29%-ə çatmışdır ki, bu da onun mühüm beynəlxalq maliyyə vasitəsinə çevrilməsini göstərir.

80-95-ci illərdə borc kapitalının layihə maliyyələşdirmə forması, yəni konkret sənaye obyektlərinə iri həcmli kreditlərin verilməsindən fəal surətdə istifadə edilməyə başlandı. Bu proses hazırda da davam edir. Qeyd edək ki, borc kapitalı vasitəsilə maliyj'ələşmə bir növ birbaşa investisiyalara oxşardır.

ÍCapitalın protfel investisiyaları və borc formasında ixracı dünya təsərrüfatına ikili təsir göstərir. Bir tərəfdən, kapitalın beyənlxalq təkrar istehsalı təmin edilir. Onun beynəlmiləlləşməsi və maliyyə bazarının inteqarsiyası nəticəsində beynəlxalq iqtisadi əlaqələrin mexanizminin səmərəliliyi yüksəlir. Digər tərəfindən, nəzarətsiz kapital axınları ölkələrin tədiyyə balansında tarazlığın pozulmasına səbəb olur və valyuta kurslarının ciddi şəkildə dəyişilməsinə gətirib çıxarır. Öz növbəsində xeyli həcmdə kapital idxal edilməsi milli kapitalın sıxışdınlıb aradan çıxarılması İlə nəticələnə bilər.

İqtisadi kömək əsasən sənaye cəhətdən inkişaf etmiş ölkələr tərəfindən qaytarmamaq, eləcə də güzəştli kreditlər şəkildə həyata keçirilir. Dünya ölkələrinə kömәkdə Yaponiya birinci, ABŞ ikinci yerdə dayanır. ABŞ 1994-cü ildə 13 mlrd, dollar pul buraxmışdır. Bu cür yardım şəklində kredit alan ölkələrin siyahısında birinci yerdə israil (3 mlrd, dollar), ikinci yerdə isə Misir (2,1 mlrd, dollar) dayanır. Köməyin 65%-i qaytarmamaq şərtilə, 35%-i isə güzəştli kreditlər kimi göstərilmişdir.

4.4. Ərazi-coğrafi nöqteyi-nəzərdən kapital ixracının ən çox təsadüf edilən axınları sənaye cəhətdən inkişaf etmiş ölkələrin payına düşür. Kapitalın fəal surətdə hərəkəti də bu ölkələrin arasında baş verir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələr dairəsində kapitalın hərəktini bir neçə səviyyədə nəzərdən keçirmək lazımdır: I. «Triada» ölkələri arasında: ABŞ-Qərbi Avropa-Yaponiya. Avropa-Amerika ticarət-sənaye palatasının məlumatlarına görə, ABŞ və Avropanın qarşılıqlı investisiyaları I995-cj ildə. 776 mlrd, dollara, l994-cü ildə -500 mlrd, dollar, 2007-ci ildə isə 975 mlrd, dollara çatmışdır. Avropa investisiyaları ABŞ-da iş yerlərinin 12,5%-ni təmin elməklə əsasən istehsal sahəsində cəmlənmişdir, 2, Sənaye cəhətdən inkişaf etmiş ayrı-ayrı ölkələr arasında. 3. Sənaye cəhətdən inkişaf etmiş ölkələrin sahələri arasında.

Kapitalın hərəkətinin subyektləri nöqteyi-nəzərdən onun makro və mikrosəviyyəsi fərqləndirilir. Makrosəviyyə-kapita- lın dövlətlər arasında hərəkətidir. Bu, statistik olaraq ölkənin tədiyyə balansında öz əksini tapır, Mikrosəviyyə-beynəlxalq kompaniyaların daxilində kampitalın şirkətdaxili kanallar, üzrə hərəkətidir.

Müharibədən sonrakı dövrdən indiyədək kapitalın hərəkətinin ən intensiv xarakter daşıdığı region Qərbi Avropa hesab olunur.

Arvopada isə əsas yerləri Böyük Britaniya, Almaniya, Fransa tutur. Avropa qitəsindəki iri ixracatçılara həmçinin Hollandiya, İsveç, və İsveçrə aiddir, Avropa birliyi (AB) ölkələri tərəfindən qoyulan investisiyanın əsas obyekti ABŞ- dır. Burada investisiyaların yansı Böyük Britaniyanın payına düşür. Daha sonra Fransa və Almaniya əsas yerləri tutur, ABŞ tərəfindən Avropaya qoyulan investisiyanın-2/3-i Böyük Britaniyanın payına düşür, sonra isə Fransa və İsveçrə gəlir.

ABŞ sənaye cəhətdən inkişaf etmiş ölkələr içərisində cəlb edilmiş investisiyalann və kapital ixracının həcminə görə liderdir. 2000-2006-cı illərdə xarici firmalar ABŞ iqtisadiyyatına hər ii orta hesabla 69 mlrd, dollar kapital qoyurdular. ABŞ-ın investisiyalara olan daxili tələbatının demək olar ki, I/3-İ kapital idxalı hesabına ödənilir, 90-cı illərin ortalarından 2007-ci islədək dünya üzrə pul vəsaitləri idxalının 85-87yo-ə qədəri sənaye cəhətdən inkişaf etmiş ölkələrin payına düşür.

investisiyaların ümumi daxili məhsula olan faiz nisbəti nəzərə alınarsa qeyd etdiyimiz dövrdə ən çox kapital axını Belçika və Lüksemburqa, ən böyük investor isə Niderland olmuşdur.

Kapital ixracının müasir tendensiyalarından biri də istehsal təyinatlı kapital ixracının əhəmiyyətinin artmasıdır. Sahibkarlıq fəaliyyətində portfel investisiyalardan birbaşa investisiyalara keçid baş vermişdir. 50-cİ illərdən başlayaraq birbaşa xarici investisiyaların ardıcıl olaraq hasiledici sənayedən emal sənayesinə, eləcə də xidmət sahəsinə meyl etməsi müşahidə edilir.

90-cı illərdə kapital ixracının ən çox nəzərə çarpan tendensiyası kapitahn hərəkətində fond bazarının rolunun kəskin şəkildə artması hesab olunur.

Son 20 ildə kapital bazarlarının beynəlmiləlləşməsi prosesinin əsas xüsusiyyəti ondan ibarətdir ki, əgər 70-80-cı illərdə beynəlmiləlləşmə prosesi əsas etibarilə inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrini əhatə edirdisə, 90-cı illərdə bu proses inkişaf etməkdə olan ölkələrə, ilk növbədə Cənubi-Şərqi Asiya və Latın Amerikası dövlətlərinə yayıldı.

İnkişaf etməkdə olan ölkələr arasında və xüsusən, yeni sənaye ölkələri ilə digər inkişaf etməkdə olan ölkələr arasında kapitalın hərəkətinin fəallaşması 90-cı illərdən başlamış 2007- ci illərin əvvəllərinədək mühüm xüsusiyyəti hesab olunur. Əgər əvvəllər kapital əmtəə formasında hərəkət edirdisə hazırda onun ixracı istehsalın bütün ünsürləri formasında baş verir.

**90-CI** illərdə inkişaf etməkdə olan Ölkələrə qoyulan böyük həcmdə birbaşa investisiyalar əsasən sənaye cəhətdə inkişaf etmiş ölkələrdən daxil olmuşdur. Əsas investisiya axınları Asiyanın və Latın Amerikasının **10-15** inkişaf etməkdə olan ölkəsində cəmlənmişdir.

Hazırda inkişaf etməkdə olan ölkələr sənaye cəhətdən inkişaf etmiş ölkələrin İnvestorları üçün az maraq kəsb edirlər. Bir sıra ekspertlərin rəyinə görə, gələcəkdə də belə olacaqdır. Bu dövlətlərin payına dünya üzrə birbaşa investisiya axınlarının getdikcə daha az hissəsi düşəcəkdir. 90-cı illərdə

ümumi xarici investisiya axmlannda ən zəif inkişaf etmiş ölkələrin payı cəmi 5-6 faiz təşkil edir,

1990-2007-ci illərdə Şərqi Avropa və MDB ölkələrinə xarici kapital axını artmışdır. Əsas kapital axım Macarıstan, Polşa, Çexiya kimi ölkələrə olmuşdur. Son illərdə bu ölkələr 3,4 mlrd, dollar kapital əldə etmişlər. Bunun təxminən 50%-i Macarıstanın payına düşmüşdür. Son 15 ildə Şərqi Avropa iqtisadiyyatına qoyulan Qərb İnvestisiyalarının ümumi məbləği 5 mlrd, dollardan çox olmuşdur. Bunların əsas hissəsi daha firavan yaşayan, iqtisadi İslahatlar yolunda nisbətən irəliləmiş dövlətlərin payına düşür. Bu, dünya təsərrüfatında xüsusi kapitalın hərəkəti üçün xarakterik olan, coğrafi və ya siyasi şəraitdən asılı olmayan ümumi tendensiyadır.

Siyasi sabitlik, minimal iqtisadi risk, maksimal mənfəət- lİlik baxıiTundan və məkanından asılı olmayaraq xüsusi kapital üçün başlıca istiqamət hesab olunur. İnkişaf etməkdə olan ölkələrdə kapitalın hərəkəti də bu nəticəyə gəlməyə əsas verir.

XX əsrin son 30 ilində kapitalın beynəlxalq hərəkətinin həcminə və keyfiyyət göstəricilərinə həlledici təsir göstərən ən mühüm amil kapitalın hərəkət şərtlərinin liberallaşması hesab olunur və bu, istər sənaye cəhətdən inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan Ölkələrə xasdır. Məsələn, 1995-ci ildə 64 ölkədə 112 dəyişiklik qeydə ahmnışdır, həm də 106 halda rejim yüngülləşdirilmişdir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələr kapital ixracının və idxalının milli və beynəlxalq səviyyələrdə stimullaşdırılması yolu ilə kapitalın hərəkətinə təsir edirlər. İstiqrazlar, portfel investisiyaları və b. formada kapitalın hərəkətinə münasibətdə dövlət siyasəti qarşıya çıxan bütün məhdudiyyətlərin aradan qaldırılması əsasında qurulur. Birbaşa xarici investisiyalara münasibətdə dövlət, milli iqtisadi maraqların müdafiəsinə yönəlmiş istənilən məhdudiyyətləri qəbul etmək hüququnu özündə saxlayır. Səciyyəvi hal odur ki, xarici ölkələrə kapital ixracı gələn xarici investisiyalara nisbətən daha az dərəcədə tənzim olunur.

***5.1.İşçi qüvvəsinin beynəlxalq hərəkatinin mahiyyəti və əmələ gəlmə səbəbləri.***
***5.2.İşçi qüvvəsinin beynəlxalq hərəkatinin formaları və sosial-iqtisadi nəticələri.***
***5.3. Əhalinin beynəlxalq hərəkatinin əsas mərkəzləri.***

5.1. Qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatlarda işçi qüvvəsinin beynəlxalq hərəkəti daha işlək və yığcam formada miqrasiya kimi işlənilir. Miqrasiya-latın sözüdür, yerdəyişmə, köçmə mənasında başa düşülür. Burada yerdəyişmə yalnız adamlara deyil, heyvanlara, kapitala, kimyəvi elementlərə, və s. rəğmən işlənilir. Hazırkı situasiyada əhalinin miqrasiyası insanların daimi yaşayış yerinin, müəyyən ərazinin sərhədlərini tərk etmək, yaxud ora qayıtmağı özündə əks etdirir.

Bütün hallarda əhalinin yerdəyişməsi emiqrasiya və immiqrasiya axınlarından ibarətdir. Emiqrasiya dedikdə adamların ölkə ərazisini tərk edərək sərhədindən kənara çıxmasını, immiqrasiya isə xaricdən ölkəyə gəlməsini göstərrir. Məsələn, Azərbaycandan bir vətəndaşın daimi yaşayış yerindən Kanadaya köçməsi miqrasiyam, Kanadadan Cekin respublikamıza gəlməsi isə immiqrasiyanı əks etdiri.

Qeyd elmək lazımdır ki, insanlann bir beynəlxalq regiondan gəlməsi lap qədim zamanlardan adamlara xas olmuşdur. Lap qədim zamanlarda hərbİ yürüşlər və digər səbəblər nəticəsində bəşər tarixində yer kürəsinin hər yerində insanlann yer dəyişmə hallan baş vermişdir.

Arialılarm və başklarm, vestotlann və oslotlann, monqol-tatarların və sair xalqların kütləvi yerdəyişməsi tarixdən bizə məlum olan faktlardır. Dünya tarixində ilk miqrant Troya müharibəsi zamanı ölkəni tərk edən Eni olmuşdur.

XIX əsrin ortalarında insanların ölkələrarası hərəkəti bir hadisə kimi qeyd edilirdi. XIX əsrin 40-cı illərində wkartof aclığı» deyilən hadisə ilə əlaqədar olaraq İrlandiyadan ABŞ-a on minlərlə adam köçürülmüşdür.

Göründüyü kimi əhalinin yerdəyişməsinin baş verməsinə müəyyən səbəblər təsir elmişdir. Bu səbəbləri iqtisadi-sosial və qeyri iqtisadi amillər olmaqla iki qrupa bölmək olar.

İqtisadi sosial-amillərlə yaşayış səviyyəsinin aşağı olması, işsizlik, əmək haqqının azlığı, yaşayış tərzləri arasındakı fərqlər və s. daxildir.

Qeyri iqtisadi səbəblər sırasına müharibələri, zəlzələləri, xəstəlikləri, dini və irqi ayn seçkiliklər zəminində münaqişələri, siyasi baxışların müxtəlifliyi, aclığı, iqlim əlverişsizliyini, köçəri həyat tərzini və s. daxil etmək olar.

Alim və mütəxəssislərin fikrinə görə dünyada əhalinin yerdəyişməsinə təsir göstərən amillər içərisində iqtisadi amillər aparıcı rol oynayırlar. Məhz bu amillərin müəyyənedici rola malik olmasının nəticəsidir ki, miqrantlann böyük əksəriyyəti inkişaf etmiş sənaye Ölkələrinə getməyə üstünlük verirlər.

5.2. tşçi qüvvəsinin beynəlxalq hərəkəti müxtəlif əlamətlərə görə formalara bölünür. İqtisadi ədəbiyyatlarda coğrafi istiqamətinə görə əhalinin miqrasiyasının iki formasını fərqləndirirlər. Bura daxildir xarici və daxili miqrasiyalar. Daxili miqrasiya bir ölkənin daxilində şəhərlə regionlar arasında adamlann yerdəyişməsini özündə əks etdirir. Xarici miqrasiya isə bir ölkədən digərinə insanlarm yer dəyişməsidir, öz növbəsində xarici miqrasiyalar qitələrdaxili və qitələrarası yerdəyişmə kimi iki formaya bölünür.

Praktikada əhalinin miqrasiyasının davametmə müddətinə görə formalanna da rast gəlmək olur. Bu formalara daxildir: daimi, müvəqqəti və mövsümü miqrasiyalar. Bundan başqa köçmə və əmək miqrasiyası formalanna da iqtisadi ədəbiyyatlarda rast gəlmək mümkündür. Bir qayda olaraq köçmə miqrasiyaları insanlarm müxtəlif nəsilləri arasında qohumluq əlaqələri hesabına əmələ gəlir.

Əmək miqrasiyaları isə əməkqabiliyyətli yaşda olan

Hüquqi statusuna görə də işçi qüvvəsinin beynəlxalq hərəkətinin 2 forması vardır. Bura daxildir: 1) leqal miqrasiyalar, 2) qeyri leqal miqrasiyalar.

Qeyd etmək lazımdır ki, son illərdə miqrasiyanın bu formaları dünyada geniş vüsət almışdır. Məhz buna görə leqal və qeyri leqal miqrasiyalar üzərində bir qədər geniş dayanmağı məqsədəuyğun hesab edirik.

***Leqal miqrasiyalar -*** qanunçuluq əsasında ölkədən ezamiyyətə, elmi konfranslarda iştirak etməyə, xidmət vəzifəsinin yerinə yetirilməsinə, daimi və ya müvəqqəti əmək müqaviləsi əsasında işləməyə gedənlərin hərəkətini özündə əks etdirir.

Qeyri-leqal miqrasİyalar-xəlvəti və ya qeyri-qanuni yollarla ölkədən çıxıb gedən insanların hərəkətini özündə əks etdirir. Bura həmçinin leqal olaraq miqrasiya etmiş, lakin viza müddəti qutarmağma baxmayaraq həmin ölkədə yaşamağa davam edən imqrantlar da aid edilir. Yalnız qeyri-leqal miqrasiyalar hesabına dövlətlər arasında münasibətlərin pisləşməsi, siyasi didişməiərin meydana gəlməsi özünü biruzə verir. Bu miqrasiya hesabına bu və ya digər ölkədən məhsuldar qüvvələrin ən fəal hissəsi olan gənclər və orta nəslin xaricə getməsi bir çox sosial problemlərin meydana gəlməsinə səbəb olur.

Eləcə də BMT-nin məlumatlarına görə qeyri-leqal miqrasiyalar cinayətkar qruplar üçün gəlir mənbəyinə çevrilib. Artıq demək olar ki, bu bir növ dünya səviyyəsində gəlirli sahəyə çevrilib. Statistik məlumatlara görə dünyada hər il 4 milyon insan cinayətkar qruplar vasitəsi ilə qeyri-leqal olaraq miqrasiya edirlər. Bunlann da cox hissəsini insan alverinə məruz qalacaq qadınlar təşkil edir. İnsan alveri hər il cinayətkar qruplara 7 milyard ABŞ dolları həcmində gəlir gətirir.

Bu gün dünyada 190 milyon nəfər miqrant kimi bir ölkədən başqa ölkəyə köçür. Onlardan 86 milyonu qazanc dalınca gedənlərdir. Təkcə Rusiyanın payına belə əmək miqrantlarının minimum 10 milyon nəfəri düşür. Miqrantlann Amerikada, Yaponiyada, Yeni Zelandiyada məskunlaşıbdır. Bu ölkələr miqrantlan yüksək həyat səviyyəsinə, iş yerlərinin çoxluğuna,

əmək haqqının yüksəkliyinə görə cəlb edə bilirlər. Misal üçün adi savadsız meksikalı fəhlə işlədiyi hər saatına görə 2 ABŞ dolları alırdısa, o, ABŞ-da hər saatına görə 7-8 ABŞ dollan ala bilər. Ölkələr arasında olan bu kimİ fərq nəticəsində işçi qüvvəsinin beynəlxalq hərəkəti obyektiv qanuna uyğunluq təşkil edir. Dünyanın aparıcı ölkələrindən miqranilərın vəziyyətini nəzərdən keçirək (cədvəl 1.)

Cədvəl 1

Ölkələr üzrə leqal və qeyri-leqal miqrasiyalar; (2007-ci il)

| **Ölkələr** | **Miqrantlar (mln. nəfər)** | | |
|---|---|---|---|
| | **Leqal** | Qeyri-leqal | Cəmi |
| ABŞ | 29.2 | 11.0 | 40.2 |
| Rusiya | 16.0 | 10.0 | 26.0 |
| Almaniya | 7.0 | 0.9 | 7.9 |
| Ukrayna | 6.9 | 0.13 | 7.03 |
| Fransa | 6.0 | 0.84 | 6.84 |
| Kanada | 5.8 | 1.0 | 6.8 |
| Böyük Britaniya | 4.0 | 0.5 | 4.5 |
| Polşa | 2.0 | 2.12 | 4.12 |
| İsveçrə | 1.8 | 0.21 | 2.01 |

Mənbə; www.nolit.rudJ niied Nations Population Division, 2008)

Göründüyü kimi miqrant qəbuluna görə ilk üçlükdə 40,2 milyon nəfərlə ABŞ, 26 milyon nəfərlə Rusiya, 7.9 milyon nəfərlə Almaniya dayanır.

2 saylı cədvəldən göründüyü kimi 2000-2007-ci illər ərzində leqal və qeyri leqal miqrasiyalar əsasən inkişaf etməkdə olan ölkələrdən inikşaf elmiş ölkələrə doğru istiqamətlənmişdir.

*Diaqrama 1*

***2000-2007-ci ilhr itrzinda leqal və qeyri-leqal miqrasiyaların ümumi hscmi v^ saldosu***




▯Min nəfərlə OSaldo

Mənbəə: İnternational miqration 2008. Wallcharl. UN Porulation DİVision, Oktober 2008.

Bu köçürmələr, yerdəyişmələr siyasi, milli, dini, hərbi, ekoloji səbəblə və amillərin təsiri nəticəsində baş verir. Ümumi halda leqal və eləcədə qeyri leqal miqrasiya prosesləri 2 qrup amillərin təsiri altında baş verir:

1. qeyri'iqtisadi amillər;
2. iqtisadi amillər.

Qeyri iqlisaİ amillərə dinİ, etnik, ailəvi, siyasi-hüquqi amillər aiddir. Belə ki, 40-cı illərdə əhalinin kütləvi yerdəyişməsi hərbi əməliyyatlarla, dövlətlərin sərhədlərinin yerdəyişməsi, müxtəlif siyasi səbəblərlə bağlı idi. Bu tipli miqrasiyalar Mərkəzi Asiyada, Hindistanda, Yaxın Şərqidə, Şərqi Asiyanın

bəzi bölgələrində həyata keçirilib. Bu miqrasiyaya misal olaraq 1956-cı ildə Macarıstanda xalq üsyanının boğulmasından sonra, eləcə də I975-ci ildə Vyetnamda kommunistlərin qələbəsindən sonra baş vermiş qaçqın axınlarını göstərmək olar. 1947-ci ildə isə Fələstin bölüşdürüldükdən sonra 700 mindən çox fələstinli ərəb İsrailin tutduğu ərazilərdən qaçmağa məcbur olmuşdur.

İqtisadi amillərə isə aşağıdakılar aiddir;

*Birnci* amıZ-öIkələrin iqtisadi inkişaf səviyyələrində olan müxtəliflikdir. Belə ki, Avropa ölkələri istehsalın elmi-texniki səviyyəsinə və texnoloji inkişafına görə Asiya dövlətlərini qabaqlayır. Asiyanın əksər ölkələri texnoloji baxımından müqayisə olunacaq dərəcədə geri qaldığına görə burada canlı işçi qüvvəsinə ehtiyac yüksək səviyyədədir. Həm də ölkələrin əksər hissəsində ölkə şərait qanunları ilə idarə olunduğuna görə əhalinin müəyyən qismi (xüsusilə qadınlar) istehsal prosesində işləmirlər. Məhz bu amilin təsirinə görə bütün Asiya, o cümlədən Yaxın Şərqin neft istehsal edən dövlətlərində miqrasiya səviyyəsi həddən artıq yüksəkdir. Eləcə də ölkələr arasında mövcud bu kimi inkişaf fərqləri həmin ölkələr arasında işçilərə verilən əmək haqqı fərqi ilə də müşahidə olunur. Bunun nəticəsində işçi qüvvəsinin dəyərində kəskin fərqlərə gətirib çıxanr ki, nəticədə də işçi qüvvəsi əməyin ödəniş səviyyəsinin, yəni əmək haqqının daha yüksək olduğu ölkələrə istiqamətlənir.

Bu amil həm miqrant üçün, həmçinin inkişaf etmiş ölkələrin sahibkarlanna da səmərə gətirir. Belə ki, əksər inkişaf etmiş ölkələrdə yerli işçi qüvvəsinin həddən artıq baha olduğuna görə ucuz başa gələn emmiqrantlarla onların əvəz edilməsi sahibkar üçün çox əlverişlidir. Məsələn, Almaniyada sıravi fəhlə işləyən yerli işçinin bir saatlıq əmək haqqısı 70 ABŞ dolları təşkil etdiyi halda, işə daxil olan miqranta yerli işçinin bir həftəlik əmək haqqısını ödəməklə onu bir ay ərzində asanlıqla işlətmək olur.

*İkinci amil-* ayrı-ayrı ölkələrin əmək resurslan ilə fərqli səviyyədə təmin olunmasıdır.

***üçüncü*** «m//-əmək bazarının vəziyyətidir, məsələn, iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə milli əmək bazan xroniki işsizlik şəraitində inkişaf edir ki, bu da insanları digər ölkələrdə iş axtarmağa məcbur edir.

İşsizlik daim iqtisadi cəhətdən zəif inkişaf etmİş ölkələrdə müşahidə olunur. Belə ki, işsizlik səviyyəsi Şimali və Mərkəzi Afrikada 13,2 faiz, Şərqi Asiyada 3,8 faizdir. Buna görə işçi qüvvəsi daha çox iş yerləri olan ölkələrə doğru istiqamətlənir.

Bəzən «acmdan ölməmək üçün» işci qüvvəsi istənilən bir iş axtarışında olur. Bunun nəticəsində müasir dövrdə qeyri-leqal işçi qüvvəsinin miqrasiyası artmağa başlayır. Belə ki. 90-cı illərdə qeyri-leqal işləyən miqrantlann sayı Avropada 2 milyon, ABŞ-da 6 milyon nəfər, Yaponiyada 300 min nəfər, Malaziyada 400 min nəfər, Rusiyada 1,5 milyon nəfər olduğu halda, müasir dövrdə bu rəqəmlər bir neçə dəfə artaraq, Avropada 32 milyon nəfər, Yaponiyada 1,5 milyon nəfər, Malaziyada 1,7 milyon nəfər (bəzi mənbələrə görə 2 milyon nəfər), Rusiyada 10 milyon nəfər, ABŞ-da 9,8 milyon nəfər (bəzi mənbəələrə görə 13 milyon nəfər) olub. ABŞ-da bu göstəricilərin böyük hissəsi kənd təsərrüfatında çalışan Meksika və Latın Amerikadan olan miqrantlann payına düşür.

Haqqında danışdığımız səbəb iqtisadi cəhətdən çox zəif inkişaf etmiş və işsizlik səviyyəsi yüksək olan ölkələrin aşağı təhsilli işçi qüvvələrinə aid edilir. Bu əsasən Asiya və Afrika ölkələrindən Qərbi Avropaya, Latın Amerikası ölkələrindən ABŞ, Kanadaya, Cənubi və Şərqi Avropa ölkələrindən Qərbi Avropanın nisbətən inkişaf etmiş regionlarına olan beynəlxalq hərəkətdə müşahidə olunur.

***Dördüncü*** <7m//-əmək resurslarının kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin mİlli istehsalın maddi-texniki bazasına uyğunsuzluğudur. Belə ki, yüksək ixtisaslı mütəxəsislərin öz ölkələrində normal yaşamaq tərzi yarada bilməyərək xarici ölkələrə miqrasiya edirlər. ABŞ-ın isə ən nüfuzlu ali və elmi mütəxəssisləri qıtlığı ilə üzləşdiyindən ölkəyə «beynİn axını»-nı gücləndirir.

Məlum olduğu kimi istənilən iqtisadi proseslər öz inkişafında müxtəlif mərhələlərdən keçirlər ki, onlar da bir-birindən kəmiyyət və keyfiyyət parametrlərinə görə fərqlənirlər. İqtisadi səbəblər nəticəsində miqrasiya axınları bir qayda olaraq aşağı gəlirli ölkələrdən yüksək gəlirli ölkələrə doğru istiqamətlənir. II Dünya müharibəsindən sonra beynəlxalq miqrasiya istiqamətləri iqtisadi şəraitin dəyişməsi nəticəsində daimi tərəddüdlərə məruz qalmışdır. Beynəlxalq miqrasiya prosesinin dünyada coğrafi regionlar üzrə formalaşmasının müasir vəziyyətini nəzərdən keçirək (bax cədvəl 2).

**Cədvəl 2**

**Regionlar üzrə leqal və qeyri-leqal miqrasiya axınlarının artımı.**

**(2000-2007-ci illər ərzində)**

| Əsas regionlar | 2000-ci il (mln. nəfər) | | 2007-ci il (mln. nəfər) | | Dəyişmə (200Ö-2007) | |
|---|---|---|---|---|---|---|
| Dünya | leqal | qeyri-leqal | leqal | qeyri-leqal | (mln nəfər) | (faizlə) |
| | 175.7 | | 200.0 | | 25.0 | 14.2 |
| lEÖ | 41.5 | 63.5 | 47.2 | 69.4 | 11.6 | 11.0 |
| İEOÖ | 27.6 | 43.4 | 27.9 | 44.3 | 1.2 | 1.69 |
| Afrika | 9.7 | 6.3 | 9.4 | 6.64 | 0.7 | 0.25 |
| Asiya | 17.6 | 32.1 | 17.1 | 32.0 | -0.6 | -1.2 |
| Avropa | 21.3 | 34.8 | 24.2 | 38.0 | 6.1 | 10.8 |
| Şimali Amerika | 1Ü.8 | 30.0 | 13.9 | 38.2 | 11.3 | 27.2 |
| Okeyaniya | 4.1 | 1.7 | 4.7 | 1.3 | 0.2 | 3.4 |
| Latın Amerika və Karib hövzəsi | 3.9 | 2.0 | 2.6 | 1.5 | -1.8 | -30.5 |

**Mənbəə:** International Migration Reports 2008. United Nations New York 2008.

Cədvəldən göründüyü kimi miqrantann çoxu Avropada (62.2 milyon nəfər). Şimali Amerikada (52.1 milyon nəfər) yaşayır.

BMT-nin apardığı tədqiqatlar göstərir ki, miqrantlann 60 faizi inkişaf etıniş ölk^ələrdə 40 faizi isə iqtisadi cəhətdən daha az inkişaf etmiş ölkələrdə yaşayırlar. Faktiki olaraq inkişaf etmiş ölkələrin əhalisinin hər 10 nəfərdən biri miqrantdır inkişaf etməkdə olan ölkələrdə isə hər 70 nəfərə 1 miqrant düşür. 2000-2007-ci illər ərzində dünyada miqrantlann sayı 25 milyon nəfər və ya 14.2 faiz artıb. Hal-hazırda isə miqrantlann ümumi sayı 200 milyon nəfərə yaxındır. Bu isə dünya əhalisinin 3 faizinə bərabərdir.

Müasir dövrdə miqrantlann sayı inkişaf etmiş ölkələrdə artmış, inkişaf etməkdə olan ölkələrdə isə azalmışdır. Avropa, Şimali Amerika, Avstriya, Yeni Zelandiya və Yaponiyada miqrasiya axını 12 milyon nəfər və ya 11 faiz artıb. Son 7 ildə Şimali Amerikada miqrantlann sayı 11.3 milyon nəfər və ya 27.2 faiz artığı halda, Avropada bu artım 6.1 nəfər və ya 10.8 faiz təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə i.sə miqrasiya prosesi nəticəsində əhalinin sayı 1.2 milyon nəfər azalıb. Latın Amerikasında isə bu rəqəm 1.8 milyon nəfər və ya 30.5 faizdir.

Qeyd etdiyimiz kimi BMT-nin 2007-ci il məlumatlarına görə Avropada 62.2 milyon nəfər. Şimali Amerikada 52.1 milyon nəfər, Asiyada 49.1 milyon nəfər miqrant yaşayır. Əsas miqrasiya regionlarından gəlmələr, inkişaf etmiş ölkələrin ümumi əhalisinin təqribən 5-20 faizini təşkil edir. Onların 10- 25 faizi isə iqtisadi aktiv hissəni təşkil edir. Miqrasiya İnformasiya Mərkəzinin fMİM) verdiyi məlumatlara görə hal- hazırda Afrikadan Avropaya 7-8 milyon nəfər qeyrİ-Ieqal olaraq miqrasiya edib. Qeyri-leqal miqrantlann sayının çoxluğu Avropa ölkələri üçün problemlərə çevrilir. Ekspertlərin he- sablamalanna görə 2000-ci ilin əvvəlinə Avropada 3 milyondan çox qeyri-leqal miqrant olub. Bunların çox hissəsi Şimali Afrika və Asiyanın payına düşür. Bu rəqəmlərin gələcəkdə daha da artması gözlənilir.

Ümumiyyətlə hər il Aralıq dənizini 100-120 min qeyri-leqal miqant keçir, onlardan 35 min nəfəri Afrikanın payına düşür. Lakin qeyri-leqal miqrantlann sayı həmişə tam dəqiq olaraq hesablanmır.

Siyasi Miqrasiya İnstitutunun (SMİ) məlumatlanna görə müasir dövrdə miqrasiya qəbuluna görə birinci yeri ABŞ, ikinci yeri isə Rusiya tutur.

ABŞ-miqrantlan qəbul edən ölkəsi kimi formalaşır vo böyük həcmdə miqrant qəbul etməklə yaşayır. Təkcə Latın Amerikası və Asiyadan gəlmələrin həcmi 88 faizə çatır. Belə miqrantlar üçün kompakt məskunlaşma xarakterikdir ki, bu da etnik biznesin formalaşmasına zəmin yaradır. Verilən məlumatlara görə 47 faiz Koreyalı sahibkar, 27,6 faizi həmin firmalarda çalışan muzdlu işçilərdir, İranlı immiqrantlar üçün bu rəqəmlər uyğun olaraq 56.7 faiz və 4.16 faizə bərabərdir. Burada mövcud olan etnİk biznesin ənənəvi sferasının inkişafının əsasını tikinti, alver və xidmət sahəsi təşkil edir.

Rəsmi məlumatlara görə ABŞ-da 11 milyon nəfər qeyri-leqal (qeyri rəsmi məlumatlara görə isə 40 milyon nəfər) miqrant yaşayır. Əksəriyyəti, yəni təqribən qeyri-leqal miqrantla- nn 90 faizi Meksika və Latın Amerikası ölkələrindən gələnlərdir. ABŞ-da yaşayan 40,2 milyon mİqrant 4 qrupa bölünürlər;

1. 12 milyon nəfər -34%-vətəndaşlıq almış leqal miqrantlar;
2. 12 milyon nəfər -34%-vizası olan leqal miqrantlar;
3. 12 milyon nəfər -3%-kontraktla işləyənlər və tələbələr;
4. 11 milyon nəfər-28%-qeyri-leqal miqrantlardır,

Rusiya-hər il bu ölkəyə 20 milyon nəfər miqrant gəlir. Qeyd edək ki, onlardan 10 min nəfəri leqal və qeyri leqal gedən azərbaycanlılardır. Lakin Rusiyada mövcud İmmiqrant- ların hal-hazırda 16 milyonu leqal, 10 milyonu isə qeyri- leqaldır. Ölkədəki bütün miqrantlann illik gəliri 20 milyard ABŞ dolları təşkil edir. Rusiyada çalışan işçi qüvvəsinin 2,90 dəfə miqrantlar ümumi halda, onların ölkənin UDM-dəki payı 4 faizdən artıq deyil. Rusiya Mərkəzi Bankının məlumatlarına görə ötən il miqrantlar ölkədən 10 milyard ABŞ dolları həcmində nağd, 3 milyard ABŞ dolları həcmində isə nağdsız pul köçürmələri formasında maliyyə vəsaiti çıxarıblar.

Əsasən miqrantlar Rusiyaya MDB ölkələrindən gəlir. 2007-ci ildə Qazaxıstandan 38,6 min nəfər, Özbəkistandan 37.1 min nəfər, Llkrayinadan 32.7 mİn nəfər, Azərbaycandan 10 min nəfər, Gürcüstandan 7.2 min nəfər miqrasiya edib.

Müasir miqrasiyanın digər bir xüsusiyyəti kimi isə beynəlxalq miqrasiya İlə əlaqədar olan pul axınının həcminin artmasını göstərmək olar. Hazırda bu göstərici 100 milyard

ABŞ dolları ilə ölçülür. Miqyasına görə hətta birbaşa xarici investisiyalarla da eyniləşdirib bitər, tşçi miqranlİann əsas hissəsinin inkişaf etmiş ölkələrdə cəmləşdiyi üçün pul köçürmələrinin 4/5-ü məhz bu miqrantlann payına düşür.

Miqrantlann işlədikləri ölkələrə görə onlann qazandıqları o qədər də yüksək məbləğ deyil, lakin bu məbləğ vətənə, ailəsinə göndərdildikdə iqtisadi cəhətdən azköməklik deyil. Belə ki, hal-hazırda mövcud olan 200 milyon nəfər miqrant tərəfindən yalnız rəsmi bank strukturlan vasitəsi ilə həyata keçirilən pul köçürmələri 400 milyard ABŞ dolları təşkil edib. Əgər qeyri-leqal köçürmələri nəzərə alsaq, bu rəqəmin 2-3 dəfə çox olduğunu ehtimal etmək olar. Bu miqrasiya prosesinin lazımı şəkildə nizamlanması ilə beynəlxalq UDM-un həcmi 2 dəfə artar, yəni 17 trln. ABŞ dollan ola bilər. 2006-cı ilin göstəricilərinə əsasən dünya üzrə leqal və qeyri-leqal miqrant- ların pul köçürmələri göstəricilərini nəzərdən keçirək.

**Diaqrama 2**

**Leqal və qeyri leqal miqrantlann pul köçürmələrinin ümumi həcmi (2007-ci il)**




▯Milyard ABŞ dollan • ÜDM-da %-lə Mənbəə: International Migration-2007. Wallchart. UN Population Division, October 2007.

Diaqromadan göründüyü kimi işçi qüvvəsi ixrac edən ölkələrə yüksək məbləğdə dönərli valyuta daxil olur. Hətta son illərdə Pakistandan işçi qüvvəsinin ixracı onun iqtisadiyyatına çox əhəmiyyətli təsir edib. Belə ki, işləməyə gedənlərin pul köçürmələri əmtəə və xidmətlərin ixracından olan gəlirlərdən 5 dəfə artıqdır. Yəməndə isə bu rəqəm 30-dur. Ümumiyyətlə Yəməndə, İordaniyada, Banqladeş və Yamaykada pul köçürmələri ÜMM-un 10-50 faizinə bərabərdir. BMT-nin məlumatlarına görə təkcə 2000-ci il ərzində xaricə pul köçürmələri nəticəsində bu ölkələrin ÜDM-u 10 faiz artıb. Onu da qeyd edək ki, evə göndərilən pulun həcminə görə 5 ölkə qabaqcıl yerləri tutur (cədvəl 3).

**Cədvəl 3**

**Leqal və qeyri leqal pul köçürmələri edən əsas 5 ölkə (2007-ci il)**

| Ölkələr | ^ul köçürmələri | | |
|---|---|---|---|
| | Leqal | Qeyri-leqal | Cəmi |
| Hindistan | 27.0 | 33.2 | 60.2 |
| Çin | 25.7 | 46.26 | 71.96 |
| Meksika | 25.0 | 67.2 | 92.2 |
| Filippin | 17.0 | 27.2 | 44.2 |
| Fransa | 12.5 | 8.7 | 21.25 |

Mənbəə: International Migration 2008. Wallchart. UN Population Division, Octobcr 2008.

Cədvəldən göründüyü kimi leqal pul köçürmələrinə görə birinci yerdə 27 milyard ABŞ dolları ilə Hindistan, qeyri-leqal pul köçürmələrinə görə isə birinci yerdə isə 67.2 milyard ABŞ dolları ilə Meksika dayanır.

Miqrantlar tərəfindən evə göndərilən pullar ölkənin ÜDM-də böyük yer tutur. Bunu 4 saylı cədvəldən görə bilərik.

Cədvəl 4

Leqal və qeyri-leqal tniqrantlann pul köçürmələrinin ümumi həcmi və ÜDM də xüsusi çəkisi. (2007-ci il)

| Ölkələr | Pul köçürmələri (mlrd. ABŞ dolları) | | | |
|---|---|---|---|---|
| | Leqal | ÜDM-da %-lə | Qeyri-leqal | ÜDM %-lə |
| Ukrayna | 8.5 | 8.0 | 9.2 | 8.6 |
| Belarus | 2.3 | 6.3 | 4.2 | 11.5 |
| Moldava | 1.0 | 31.4 | 2.6 | 74.2 |
| Estoniya | 0.37 | 2.3 | 1.1 | 6.8 |
| Latviya | 0.45 | 2.3 | 0.56 | 2.8 |
| Litva | 0.47 | 1.6 | 0.40 | 1.3 |
| Qazaxıstan | 4.55 | 6.5 | 6.23 | 8.9 |
| Tacikistan | 1.0 | 36.7 | 2.4 | 88,0 |
| Özbəkistan | 2.9 | 17.0 | 5.7 | 33.0 |

Mənbəə: www.dav.azi Washington Pro File 2008)

Lakin ölkələrdə gedən yüksək məbləğdə pul köçürmələri, işçi qüvvəsini idxal edən ölkələr üçün mənfi təsirini biruzə verir. Bununla yanaşı əmək bazarında işçi qüvvəsinin təklifinin artması nəticəsində milli işçi qüvvəsinin də dəyəri azalmağa, yerli əhali və miqranüar arasında münaqişələr yaranmağa, iş yerlərinin məhdudlaşması nəticəsində milli əmək bazarında vəziyyət pisləşməyə başlayr.

Eləcə də qeyri-leqal miqrasiya prosesləri nəticəsində miqrantlar öz ailələrindən uzun müddət uzaqda olduqları üçün ailənin dağılması, və yaşayış kodeksinin pozulması nəticəsində yerli sakinlərlə miqrantlar arasında ziddiyyətlərin yaranması, cinayyətkarlığın artması, xəstəliklərin çoxalması prosesləri baş verir. Belə ki, dünya üzrə cinayətkarlığın 73 faizİ qeyri-leqal miqrantların payına düşür, eləcə də 48 faiz isə müxtəlif xəstəlik daşıyıcılan məhz qeyri-leqal miqrantlardır.

Son illərdə ABŞ-da əhalinin 50 faizə qədəri kənardan gələnlər hesab olunur. Fransa, Almaniya və İsveçdə yeni doğulanların 10 faizi, İsveçrədə 24 faizi kənardan işləməyə gələnlərin ailəsinə məxsusdur. Hazırda Qərbi Avropada işləyən xarici fəhlələrin 7 milyon uşağı vardır ki, bu da gələcəkdə işsizliyin və qanun-qaydanın pozulmasına səbəb ola bilər. Müəyyən iş yerlərinin tutulmasında yerli işçilərlə gəlmə işçilər arasında gərginlik yaranacaq ki, bu da millətlər arasında ədavətdə özünü göstərə bilər.

Belə ki, miqrasiyanın yaratdığı bu kimi problemlər dövlət və döviəüərarası tənzimlənmənin geniş sisteminin yaranmasına gətirib çıxarır, Bu proses hələ XVIIl əsrin sonunda İngiltərədə yaranmışdır. Sənaye işçilərinə xaricə miqrasiyanı qadağan edən qanun qəbul edihnişdir. XIX əsrdə bir çox Avropa ölkələri arzuolunmaz şəxslərin ölkəyə gəlməsini məhdudlaşdıran qanunlar və normativlər qəbul etmişdilər.

Milli iqtisadiyyatın normal fəaliyyətinin təmin edilməsinə yönəlmiş bu tədbirlər dövlətlərin miqrasiya siyasəti çərçivəsində həyata keçirilir. Bu siyasət yerli işçilərin hüquqlarını qorumaq, həmçinin işçi qüvvəsinin ixracatçı və idxalatçı ölkələrinin maraqlanma qarşılıqlı müdafiəsinin təmin edilməsi məqsədlərini daşıyır.

Əksər hallarda ölkə qanunvericiliyi miqrantlar və emmiq-rantlar arasındakı dəqiq fərqi müəyyən edərək, siyasəti 2 yerə-emİqrasİya və immiqrasiya siyasətlərinə bölünürlər. Onlar da, yəni 2 yerə bölünmüş siyasətin də, bir-birindən fərqli məqsədləri və tənzimlənmə metodları var.

Qeyd edək ki, həyata keçirilən miqrasiya siyasətinin aşağıdakı istiqaməti vardır;

1. əmək miqrasiyasının stimullaşdırılması;

2. əməkçi miqrantların məhdudulaşdınıması;

3. reemiqrasiya (ölkədən miqrasiya etmiş əhalinin daimİ yaşaaq üçün yenidən vətənlərinə qayıtması) üçün şərait yaratmaq.

Emiqrasıya siyasətinin məqsədləri isə aşağıdakılardır;

1.miqranllan qəbul edən ölkələrdə işçi miqrantlann hüquq və maraqlarının müdafiəsi;

2,milli işçi qüvvəsinin getməsindən irəli gələ biləcək ilkilərin kompensasiya edilməsi.

Miqrasiya siyasəti-milli əmək bazarım miqrasiya axınından müdafiə edir, çox vaxt isə ölkə ona lazım olan şəxslərin gəlişinə maneə olmur, digərlərinin gəlişini isə məhdudlaşdırır. Məsələn, ABŞ ümumi miqrantlann 71 faizinin bu ölkə vətəndaşlarının xaricdə yaşayan qohumlarının gəlməsi üçün nəzərdə tutur. 20 faizini isə ABŞ-ın şəxsən özünə lazım olan İnsanların ölkəyə cəlbi, 9 faizini isə siyasi baxışlanna görə müxtəlif ölkələrdən gələ bilən mühacirlər üçün nəzərdə tutub.

Ümumiyyətlə, ABŞ-da çox sərt emiqrasiya və immiqrasiya məhdudiyyətlərinə baxmayaraq, bura xaricdən gəlmək üçün əcnəbi mütəxəsislərin-xüsusi ilə inkişaf etməkdə olan ölkələrdən cəlb edilməsi xarakterikdir. Bu prosesi (onu wbeyn axını», yaxud da «zəkaların oğurlanmasın adlandınrİar.) mütəxəssis qıtlığının artması, inkişaf etməkdə olan ölkələrə böyük ziyan vurur. Misal üçün, Latm Amerikası, miqrasiya nəticəsində hər il məktəb məzunlarının 10 faizindən çoxunu itirir, ABŞ isə öz potensialını artırır. Məsələn, ölkədə hər üç həkimdən biri miqrantdır.

ABŞ-a yüksək dərəcəli işçilərin gəlişi üçün illik kvota 65 min nəfər, aşağı dərəcəli işçilər üçün İllik kvota isə 10 min nəfərdir.

Rusiyanın Federal Miqrasiya Xidmətinin verdiyi məlumatlara görə bu il ölkənin iilik kvotası 300 min nəfər təşkil edir. Bunlar aşağıdakı kimi bölüşdürülüb:

170 min nəfər-tikinti sektoruna;

90 min nəfər-istehlak və xidmət sahəsinə;

20 min nəfər-nəqliyyat sektoruna;

10 min nəfər-mənzil-təsərrüfat sahəsinə;

8 min nəfər-sənaye sahəsinə.

Ümumi halda miqrasiya vəziyyəti dünyanın müxtəlif regiolarında özünəməxsus tərzdə formalaşıb. Məsələn, Avropada

miqrasiya səviyyəsi minimum 3,4-33,1 faiz arasında, neft istehsal edən Yaxın Şərq ölkələrində isə bu rəqəm 51 faizə, bəzən 90-92%-ə bərabərdir.

Ümumiyyətlə yeni, perspektivli sahələrin mütəxəssisləri (almaz cilayıcıları, qeyri-ənənəvi müalicə metodlarından istifadə edən həkmlər və s.), dünya şöhrətli mütəxəssislər (musiqiçilər, alimlər, yazıçılar, idmançılar və s.), sərmayə qoyuluşu edən və yeni iş yerləri yaradan işçi yerlərində işləməyə hazır olan işçilər adətən ölkələr üçün arzuolunan miqrantlardırlar.

Bir sıra dövlətlərin praktikasında remmiqrasiyanın stimullaşdırılması praqramlarmdan istifadə edirlər. Bu proqram qeyri-qanuni miqrantlann məcburi repatriasiyasından tutmuş, vətənə qayıtmaq istəyən mİqrantlara maddi yardım göstərilməsinə qədər geniş tədbirlər planını əhatə edir. Qərbi Avropa ölkələrində (Almaniya, Fransa, Niderland) miqrantlann könüllü surətdə vətənlərinə qayıtdıqları halda, onlara maddi yardımların göndərilməsi üzrə proqramlar qəbul edilib. Bu cür maddi yardım miqrantlan işə götürən şirkət tərəfindən yığılmış vəsaitlər hesabına həyata keçirilir, Parktikadan görünür ki, bu istiqamət ölkə büdcəsinin xərclərini kifayət qədər artırdığına görə bu proqramın səmərəliliyi xeyli aşağıdır.

Ümumi halda hər bir ölkə işçi qüvvəsinin ixrac və İdxalının tənzimlənməsi üzrə tədbirləri özünün daxili iqtisadi vəziyyətinə uyğun olaraq müəyyənləşdirir. Miqrasiya proseslərinin tənzimlənməsinin xarakterik cəhəti ondan ibarətdir ki, bu sahədə prioritet milli dövlətlərin tərəfində olur və mübahisəli məsələlərin həllində məhz milli miqrasiya qanunculuğu əsas götürülür.

5.3.İşci qüvvəsinin beynəlxalq hərəkətinin ildən ilə genişlənməsi hesabına 1990-cı ilədək dünyada bir neçə miqrasiya mərkəzləri meydana gəlib.

***Birinci-AB^,*** Kanada və Avrasiya miqrasiya mərkəzidir. Bura yalnız leqal olaraq yük.sək ixtisaslı miqrantlan qəbul edirlər. Yalnız belə bir faktı göstərə bilər ki, ABŞ-da 90-cı illərdən sonra miqrasiya hesabına gələn mütəxəssislərin 50 faizi

Rusiyadan qaçmış riyaziyyatçı alimlərdir, 33 faizi isə dünyanın müxtəlif ölkələrindən gəlmiş Nobel mükafatçılandır. Qeyri- leqal miqrantlar isə ya təhsil tələb etməyən sahələrdə çalışırlar, ya da insan alverinə məruz qalırlar. Bu miqrantlar 2002-ci ilin yekununa görə ölkənin işçi qüvvəsinin 12.4 faizini təşkil edir. Bura hər il leqal şəkildə 740 min nəfər miqrasiya edir.

***İkinci-QsThi*** Avropanın inkişaf etmiş ölkələrinin bazarlarında formalaşan miqrasiya mərkəzidir. Burada əsasən yüksək ixtisası olmayan mütəxəssislər qəbul olunur. Savadsız, eləcədə də qeyri-leqal miqrantlar isə əl əməyinin yüksək olduğu yerlərdə, həmçinin yerli əhalinin özlərinə sığışdırmadıqları qara işlərdə, ağır sahələrdə, həddən artıq yüksək temperaturlu yerlərdə və insan səhhəti üçün ziyanlı olan sahələrdə işləyirlər. Miqrasiya İnformasiya Mərkəzinin verdiyi məlumatlara görə hazırda təkcə Afrikadan Avropaya 7-8 milyon nəfər qeyri-leqal olaraq miqrant gəlmişdir. Onların da çox hissəsi məhz bu kimi işlərdə çalışırlar.

Statistik məlumatlara əsasən hazırda miqrantlar və onların ailə üzvlərinin sayı Qərbi Avropada 13 milyon nəfəri keçib. Miqrant işçi qüvvəsinin Almaniyanın əmək resurslarından xüsusi çəkisi 8,8 faizə bərabər olub, Fransada bu göstərici 10,5 faiz, İsveçrədə 5,8 faiz, Hollandiyada 3,7 faiz. Avrasiyada 6,2 faiz, Lüksemburqda 57,3 faizdir.

Üç'ü/ıai-Yaxın Şərqin neft istehsal edən ölkələrində inkişaf tapmış miqrasiya mərkəzidir. Bu işçi qüvvəsi bazan 1970-ci ildə formalaşıb. Bura bütün ixtisaslardan olan, hətta bir ixtisası olmayan miqraııtlarda qəbul edilir. Regiona miqrant kimi gələnlərin tərkibiİn araşdırılmasından görünür ki, təcrübəsi 5 itdən yuxarı olan aşpazlar da bu miqrasiya mərkəzində işə qəbul olunurlar. Əsasən Ərəb ölkələrindən-Suriya, Liviya, İordaniya, Fələstin. Asiya Ölkələrindən-Hindistan, Pakistan, F'ilippin, Banqladeş və s. ölkələrindən gələnlər çalışırlar.

Lakin qeyd edək ki, daimi yaşamaqdan ötrü yalnız yüksək dərəcəli kadrlar üçün şərait yaradılıb, İnkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş ölkələrə 15 milyon nəfər ixtisaslı

**kadrlar yerləşdirilib. Belə ki, işləyənlərin 6,5 faizi ali təhsilli, ixtisaslı kadrlardır. Təhsil tələb etməyən sahələrdə (xidmətçi, təmir işləri) isə bu rəqəm 2-4 dəfə çoxdur,**

*Dördüncü-hıam* **də nisbətən yeni miqrasiya mərkəzi Cənubi-Şərqİ Asiyamn yeni sənaye ölkələridir. Bu miqrasiya regionuna daxil olan ölkələrdə əmək haqqının səviyyəsi, sosial şərait 0 qədər yuxandır ki, hətta Yaponiyadan bura İşləməyə gələnlər vardır.**

**Son illərdə Afrikada və Latın Amerikasında sosial-iqtisadi inkişafın səviyyəsi dünyanın bir çox ölkələrindən bu regionlara miqrasiya etmək üçün stimul yaratnuşdır. Məhz bu proseslərin güslənməsinin təsiri altında dünyada mövcud ənənəvi miqrasiya mərkəzlərindən başqa Cənubi Afrika Respublikasında yeni miqrasiya mərkəzi formalaşaraq inkişaf edir.**

**Miqrasiya mərkəzləri ilə yanaşı miqrant ixrac edən donor ölkələr də var. Belə ki, Kanada üçün əsas donor ölkələr Honq- Konq (15.3-%), Filippin (5,2-%)-dir. Honq-Konqdan miqrasiya edənlərin çoxu daimi yaşamaq üçün gəlmiş sahibkar və investorlardır. Kanadada 2000-ci ildə bu rəqəm 52 fazə qədər artmışdır. Qərbi Avropa üçün isə donor ölkələr Əlcazair, Mərakeş, Türkiyə, keçmiş Yuqasılaviya və s. ölkələrdir.**

**Ümumi halda həm miqrasiya mərkəzləri, həm də işçi qüvvəsini ixrac edən donor ölkələr dünya təsərrüfatı sistemində insan resurslanndan istifadə etmək funksiyasım yerinə yetirirlər. Onu da qeyd edək ki, İşçi qüvvəsini ixrac və**

***6.1. Beynəlxalq valyuta sistemi və onun inkişaf mərhələləri***
***6.2. Beynəlxalq maliyyə-kredit mərkəzləri və valyuta dönərliyi.***
***6.3. Beynəlxalq Valyuta Fondunun valyuta maliyyə-kredit münasibətlərinin tənzimlənməsində rolu.***

6.1. Valyuta sistemi dedikdə, 2 elementin-valyuta mexanizmi və valyuta münasibətlərinin cəmi başa düşülür.

Valyuta mexanizmi milli və beynəlxalq səviyyədə hüquqi norma və alətləri özündə birləşdirir.

Valyuta münasibətləri ayrı-ayrı şəxslərin, firmala nn, bankların pul və valyuta bazarlarında hər gün iştirak etdikləri əlaqələridir.

Beynəlxalq bazarın bu günkü inkişaf səviyyəsində sənaye cəhətdən İEÖ-in qarşılıqlı asılılığının dərinləşdiyi və genişləndiyi bir vaxtda valyuta münasibətlərinin təkmilləşməsi xüsusi ilə böyük əhəmiyyət kəsb edir.

Qeyd edək ki. valyuta münasibətlərinin formalaşması problemi bir çox xarici ölkə alimlərinin əsərlərində öz əksini tapmışdır. Qərb iqtisadçı alimlərinin əsərlərində beynəlxalq valyuta münasibətləri probleminin tədqiqi sahəsində ikİ yanaşma mövcuddur. Bunlardan birincisi Keyns məktəbinin yanaşmasıdır ki, burada fəal surətdə dövlət tənzimlənməsi əsasında valyuta münasibətlərinin inkişafı nəzərdə tutulur.

İkinci yanaşma isə monetarist nəzəriyyə ilə əlaqədardır. Bu nəzəriyyə valyuta bazarlannda tələb və təklifə mərkəzdən tənzimləmə alətləri vasitəsilə qarışmasından imtina edilməsini nəzərdə tutur.

Dünya təsərrüfatı sistemində milli və beynəlxalq valyuta sistemlərinin inkişafında hər iki yanaşmadan ölkələrin inkişaf modellərindən asılı olaraq istifadə olunur.

Dünya ölkələrinin tətbiq etdikləri valyuta sistemi hər bir ölkə üçün ayrılıqda milli valyuta sistemi adlanır. Təsnifat

zamanı isə bir qayda oİaraq beynəlxalq (dövlətlərarası), regional və milli valyuta sistemlərinə ayırd edilir.

İstehsalla müqayisədə valyuta sistemi müəyyən sərbəstliyi ilə lərqlənirlər. Əgər hər bir ölkə daxilində istehsal prosesi milli xarakterli olub, ölkənin daxili tələbatına uyğunlaşırsa, valyuta sferası onu beynəlmiləlləşdirir.

Dünya valyuta sisteminin müasir formaya düşməsi üçün uzun illərin ciddi təsiri olmuşdur. Bu sistemin əsas elementləri aşağıdakılardan ibarətdir:

1. Milli və kollektiv valyuta ehtiyatlan;
2. Pula çevrilən beynəlxalq aktivlərin tərkibi və quruluşu;
3. Valyuta bərabərliyi və kursun alıcılıq mexanizmi;
4. Qarşılıqlı valyuta dönərliyi şərtlərinin təmin edilməsi;
5. Beynəlxalq hesablaşmaların formaları və onların tərkibi;
6. Beynəlxalq valyuta bazarının və dünya qızıl bazarının qarşılıqlı əlaqəsi;
7. Dövlətlərarası valyuta maliyyə münasibətlərini tənzimləyən beynəlxalq valyuta-kredit təşkilatlan.

Müasir valyuta sisteminin formalaşması öz tarixini XIX əsrdən beynəlxalq ticarətin inkişafı dövründən başlayır. Məhz XIX əsrdə nisbətən surətlə İEÖ özlərində «qızıl standart» tətbiq etməyə başladılar. Yəni o zamandan etibarən hər bir ölkənin valyutasının qızıl tutumu müəyyən edilirdi. Valyuta idarələri, banklar, kağız pulları onların üzərində qeyd olunan qızılın miqdarına bərabər natural qızılla dəyişməyə məcbur idilər. Misal üçün 1821-ci ildə Böyük Britaniyada 1 funt sterlinin qızıl ekvavalenti 7, 322385 qrama bərabər idi. Bir Alman markasının qızıl tutumu I873-cü ildə 0,385422 qram qızıla uyğun idi.

«Qızıl standart» valyuta sistemi tarixdə ən uzun davam edən (1879-1934-cü illər) valyuta sistemidir və o, qəti müəyyən edilmiş valyuta kursuna əsaslanırdı. Bu sistemin aşağıdakı əsas şərtləri vardır:

-ölkənin pul vahidinin qızıl məzmununun müəyyən edilməsi;

-ölkə daxilindən nağd pul kütləsi ilə ölkənin qızıl ehtiyatı arasında nisbətin ciddi şəkildə gözlənilməsi;

-qızılın sərbəst idxal və İxracına heç bir maneənin olmaması və s.

Qızıl standart sistemi aşağıdakı üstünlüyə malikdir;

-stabil valyuta kursu qeyri-müəyyənlik və riskin olmağı düşməsinə təsir göstərir və eyni zamanda beynəlxalq ticarətin həcminin artmasını stimullaşdırır;

-qızıl standart avtamatik olaraq lədiyyə balansının kəsr və aktivini bərabərləşdirir.

1879-cu ildə 1934-cü ilə qədər olan dövr dünya ölkələrində pul sisteminin qızıl standart dövürü adlanır.

Beynəlxalq valyuta sistemində qızıl deviz sistemi özünə məxsus yer tutmuşdur. Bu sistemdə deviz olaraq dollar və ya lüntsterlinq əsas götürülür. Başqa ölkələrin bank biletləri birbaşa qızıl deyİl, bu devizlərə dəyişdirilirdi. Bu sistem 1922- ci ildə İtaliyanın Genuya şəhərində keçirilən konfransın qərarı əsasında yarannuşdır. Bu konfransda iqtisadiyyat və maliyyə məsələləri müzakirə edilmiş və burada 28 kapitalist ölkəsi İştirak etmişdir. Fərəhli haldır ki, Genuya konfransında keçmiş Sovet dövlətinin nümayəndə heyyətinə Nəriman Nərimanov rəhbərlik etmişdir. Bu sistem sonralar bir çox kapitalist dövlətləri tərəfindən qəbul edilmişdir.

1931-ci ildə Böyäin Britaniya kağız pullarm qızıla dəyişdirilməsi öhdəliyindən imtina edir və beləliklə bir çox dövlətlər qızıl standartdan əl çəkirlər. ABŞ-da 1933-cu ildə valyuta ilə qızılın əlaqəsi ləğv edilmişdir, 1934-cü ildə qızıl standartına qayıdılır, lakin dolların qızıla olan bərabərliyini (qızıl kursunu) azaldaraq 54 %-ə endirilir.

Qızıl sikkələr sərbəst olaraq qızıl külçələrə dəyişdirib bilər; qızıl sərbəst idxal və ixrac edilib beynəlxalq qızıl bazarında alınıb-satıla bilər.

**ölkə daxilində olan qızıl ehtiyatı ilə onun pula olan tələbatı arasında nisbətə ciddi riayət edilirdi.**

**Qızıl standarta əsaslanan beynəlxalq hesablaşmalar mexanizmi müəyyən edilmiş kurs Uə həyata keçirilirdi. Qızıl standart sistemi qızıl sikkə, qızıl külçə və qızıl deviz adı altında təzahür etmişdir. Bu qızıl standartına bir formadan digər formaya təkamül etməsi və dünya kapitalizm sisteminin inkişafı ilə bağlı olmuşdur.**

**Əvvəllər mövcud olmuş beynəlxalq valyuta sisteminin çatışmayan cəhətlərinin aradan qaldırılması yeni valyuta sisteminin yaradılmasını obyektiv tələbata çevirdi.**

**Beynəlxalq valyuta sistemi Brettan-Vuds valyuta sistemi adlanır, Bu sistemin tətbiqi beynəlxalq aləmdə valyuta münasibətləri sahəsində əsaslı islahat dəyişikliklərinin əsasını qoymuşdur.**

**Bu məqsədlə I944-cü ildə dünya ölkələri beynəlxalq valyuta sisteminin tənzim edilməsinin əsaslarını işləyib hazırlamaq üçün ABŞ-ın Bretlon-Vuds şəhərində beynəlxalq konfrans keçirmişdir. Bu konfransdakı razılaşmalara görə beynəlxalq valyuta sistemini tənzimləmək üçün razılığa gəlinmiş və tarixə Bretton-Vuds valyuta sistemi kimi daxil olmuşdur. Qəbul edilmiş yeni sistem köhnə sistemin üstünlüklərini saxlamaq və çatışmamazlıqlan aradan qaldırmağa istiqamətləndin İmişdir.**

**Bretton-Vuds sisteminin əsas prinsipləri bunlardır:**

**- qızılın dünya pulu funksiyasını saxlamaqla yanaşı, eyni zamanda milli pul vahidlərinin, ilk növbədə ABŞ dollarının, eləcə də ingilis funt sterlinqinin beynəlxalq ödəniş və ehtiyat valyuta kimi tətbiq edilməsi;**

**- ehtiyat valyutanın qızıla rəsmi məzənnəsi (troya unsiyasına görə-31,1 qram);**

**- valyuta bərabərliyinin BVF ilə razılaşdırılmış əsaslar üzrə valyutanın qızılla və ABŞ dolları ilə qarşılıqlı şəkildə eyniləşdirilməsi və dəyişdirilməsi;**

- bazar valyuta məzənnəsinin yol verilən dəyişkənliyi 1 faizdən çox olmamalıdır. Yəni valyutanın dollara sıx bağlılığı.

Bretton-Vuds valyuta sistemi 1944-1971-ci illərdə qüvvədə olmuşdur.

Bretton-Vuds sisteminin iflası və amerikan dollarının qiymətdən düşməsindən sonra, valyutanın yeni «üzən» (enib-qal-xan) məzənnəsi müəyyən edildi. Bu sistem 1976-cı ildə Yamayka konfransında bu ölkənin paytaxtı Kinqston şəhərində təsdiq edildi.

Yamayka valyuta sisteminin aşağıdakı «üzən» valyuta rejimi mövcuddur:

- ABŞ, Kanada, İngiltərə, Yaponiya və s. ölkələrin valyutaları valyuta məzənnəsinin tələb və təklifindən asılı olaraq sərbəstdir;
- Avropa Birliyi üzvlərinin əksər ölkələri (Almaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Lüksemburq, İrlandiya, Danimarka) öz aralarında valyuta mübadiləsinin məzənnəsini müəyyən edirlər, özlərinin Avropa valyuta sistemini yaradırlar (skun);
- bir sıra ölkələr valyutanın fərdi «səbəbinə» nisbətdə özlərinin mərkəzi valyuta məzənnələrini müəyyən edirlər;
- bəzi ölkələr Özlərinin valyutalarının yaxın iri xarici iqtisadi parinyorlannm «üzən» valyutaları ilə əlaqəsini yaratmağı məqsədəuyğun hesab etdilər. Məsələn, 38 ölkə ABŞ dollarından, 13 ölkə fransız frankından istifadə etməyi qəbul etdi.

6.2. Beynəlxalq maliyyə və kredit münasibətlərinin əsasını borc kapitalı, hazırda isə bir başqa investisiyalar təşkil edir. Dünya bazannda Özünün iqtisadi mahiyyətindən asılı olaraq borc kapitalı iki əsas sahəyə aynlır: dünya pul bazan və dünya kapital bazarı.

Dünya pul bazarı əsasən tədavül sferası və beynəlxalq ticarətə xidmət edir.

Beynəlxalq kapital bazarında borc kapitalı pul kimi deyil, dəyərin artmasına yönəldilir. Beynəlxalq aləmdə dünya kapital

bazan iqtisadi artımın təmin edilməsinə xidmət edir. Öz konkret formasından asılı olaraq dünya kapital bazarı iki yerə bölünür: kredit bazan və qiymətli kağızlar bazan.

Dünya borc kapitalı baz.arı xüsusi institutsional quruluşa malikdir. Belə ki, onun əsas iştirakçıları iri transmilli banklardan, maliyyə kampaniyalarından, fond birjalarından və maliyyə-kredit idarələrindən ibarətdir.

Dünya kapital bazarında maliyyə-kredit idarələrinin borc almağa əsas müştərisi kimi transmilli korporasiyalar, dövlət orqanları, beynəlxalq və regional təşkilatlar çıxış edir.

Beynəlxalq maliyyə mərkəzinin normal fəaliyyəti üçün aşağıdakı ilkin şərtlər vacibdir:

- ölkənin yüksək iqtisadi inkişaf səviyyəsi;
- ölkənin dünya ticarətində fəal iştirakı;
- sərbəst valyuta və vergi qanunları;
- əlverişli coğrafi şərait;
- nisbi siyasi sabitlik və s.

Dünya aparıcı maliyyə mərkəzi Nyu-York hesab edilir ki, bu da güclü iqtisadiyyat və ABŞ-m kapital bazarına əsaslanır. Xüsusi olaraq onun qiymətli kağızlar ticarət, səhm və istiqrazlar emissiyasında rolu böyükdür.

Avropada İsə Londan, Frankfurt və Lüksemburq maliyyə əməliyyatlarının aparılmasında əsas rol oynayır. Son dövrdə dünya ölkələri içərisində Yaponiya kreditlər vermək sahəsində xeyli irəlidə gedir. Deməli, Yaponiya beynəlxalq bazara çevrilir və Tokio BV bazarının iştirakçısı olur. Bundan başqa yeni maliyyə mərkəzləri yaranmışdır. Dünya ölkələrindən Sinqapuru, Honkonqu, Bəhreyhi, Panamam və s. göstərmək olar.

Qeyd etmək lazımdır ki, müvəqqəti sərbəst olan pul kapitalı, kredit vasitəsilə borc kapitalına çevrilir.

Beynəlxalq kreditlər verilmə müddətinə görə qısamüddətli {1 ilə qədər), orta müddətli (1 ildən 5 ilə qədər) və uzunmüddətli (5-6 ildən artıq) olurlar.

Müasir şəraitdə beynəlxalq ticarətin həcminin artması və satış bazarları uğrunda mübarizənin kəskinləşməsi xarici idxalçılara əmtəə və xidmətlərin möhlətlə kreditə satışı çoxalır ki, bu da kommersiya kreditinə olan tələbatın artmasına səbəb olur. Başqa ölkələrin sahibkarlanna borc pul formasında verildiyi halda da o, bankir kreditor olur, əgər borclu kimi xarici dövlət meydana çıxırsa, onda bu beynəlxalq dövlət krediti olur.

Beynəlxalq və xarici kapital bazarlarında beynəlxalq kredit müxtəlif formalarda, istiqraz səhm və başqa qiymətli kağızlar emissiyası şəklində həyata keçirilir.

Valyuta münasibətləri sistemində valyuta dönərliyi mərkəzi yer tutur. Valyuta dönərliyi dedikdə, hər hansı mİlli valyutanın digər valyutalara ekvivalent olaraq dəyişdirilməsi başa düşülür. Əgər milli valyuta sərhədlərdən kənarda işləyə bilərsə, əməliyyat aləti ola bilərsə, deməli o, dönərli hesab edilir. Tarixi baxımdan dönərlilik və yaxud sərbəst konvent- ləşdirmə qızıl standart dövründə yaranmışdır. Bank biletləri məhdudiyyətsiz qızıla dəyişdirilə bilərdi. Valyutanın qızıla dəyişdirilməsi Birinci Dünya Müharibəsinə qədər mövcud olmuşdur. Bretton-Vuds konfransının qərarına əsasən İkinci Dünya Müharibəsindən sonra ABŞ dollarının dünya bazarındakı hegemonluğunu nəzərə alaraq milIİ pul vahidləri beynəlxalq bazarda dollara dəyişilmək yolu ilə işlədilirdi. Hazırda dünyada 4 dönərli valyuta mövcuddur. Bunlar aşağıdakılardır: l) ABŞ dolları, 2) AVRO, 3) Funt sterlinq, 4) Yapon leni. Qeyd etdiyimiz dönərli valyutalardan başqa regional və dünyəvi əhəmiyyət kəsb edən hesablaşma valyuta vahidlərindən də İstifadə olunurdu. Belə regional valyuta vahidlərindən biri EKYU-idi. EK.YU Avropa birliyinə daxil olan 12 dövlətin arasında işlənən valyuta İdi. O, 1979^u ildən Avropa birliyinə daxil olan dövlətlər üçün hesablaşma valyuta keyfiyyətində tətbiq olunurdu. EKYU-nun əsas məqsədi dövlətlər arasında valyuta kursunun sabitliyini saxlamaqdan ibarət idi. Bir

EKYU 1,3 dollara bərabər götürülürdü. 1991-ci ilədək bu valyutadan istifadə edilmişdir. AVRO valyuta kimi dövriyyəyə daxil olduqdan sonra o, dönərli valyuta kimi Avropa valyuta sistemini dolların dəyişməsinin zərərli nəticələrindən azad etmək funksiyasım yerinə yetirir.

Dünya miqyasında isə istifadə olunan belə valyutalardan BVF-nəznində istifadə olunur SDR-dir.

SDR dövlətlər arasında öhdəliklər üzrə tətbiq olunan hesablaşmalan aparmaq üçün istifadə olunan valyutadır, 1 SDR 1,04 dollara bərabərdir.

SDR standartı qəbul edildikdən sonra Yamayka müşavirəsi qarşıya belə bir məqsəd qoymuşdur ki, 1969-cu ilədək yığılmış Beynəlxalq Valyuta fondu xüsusi əvəzetmə hüquqi adlanan kollektiv valyuta vahidinə çevrilsin.

Xüsusi əvəzetmə hüququ sözün əsl mənasında valyuta bərabərliyi və kursuna xidmət etməyə başladı. Xüsusi əvəzetmə hüququ (XƏH) qızıla və dollara alternativ hesab olunur. Lakin kəskin iqtisadi və valyuta çətinlikləri səbəbindən XƏH valyuta sisteminin əsas ehtiyat aktivi rolunu oynaya bilmir. Buna baxmayaraq hazırda BVF-u tərəfindən SDR dövlətlər arasında öhdəliklər üzrə hesablaşma valyuta keyfiyyətində istifadə olunur.

6.3. Beynəlxalq dövlətlərarası valyuta-maliyyə təşkilatla-nndan ən böyüyü və ən mühümü Beynəlxalq Valyuta Fondudur (BVF). BVF 1944-cü ilin iyununda ABŞ-ın Nyu-Xemnşir ştatının Bretton-Vuds şəhərində 44 ölkənin nümayəndəsinin iştirakı ilə keçirilən Bretton-Vuds konfransında təsis edilmişdir. Fond rəsmi şəkildə mövcudluğuna 1945-ci il dekabnn 27- də 29 ölkə tərəfindən nizamnamənin təsdiqi və qəbulundan sonra başladı. BVF ilk maliyyə əməliyyatma 1947-ci ilin 1 martından etibarən başlamışdır. Bu fond beynəlxalq valyuta sisteminin və onun subyektləri olan üzv ölkələri arasındakı valyuta-kredit münasibətlərinin tənzimlənməsini həyala keçirən və üzv ölkələrə tədiyyə balansında əmələ gələn müvəqqəti

kəsirləri ləğv etmək məqsədi ilə kreditlər verən beynəlxalq dövlətlərarası maliyə təşkilatıdır. Onun yaradıcdan Amerikalı iqtisadçı Herri Dekster Uayt və onun Britaniyalı həmkarı Con Meynard Keyns olmuşlar. Hazırda BVF-nin 183-dan çox üzvü vardır.

BVF dövlətli bir təşkilatdır və onun baş direktiv orqanı Direktorlar Şurasıdır. Bu şuraya hər bİr ölkədən bir direktor və eyni zamanda bir o qədər də müavin daxildir. Direktorlar və onlann müavinləri Öz ölkələrinin Maliyyə Nazirləri və ya Mərkəzi Bankın sədrləri olduqlarından onlar öz hökümətləri adından çıxış etmək hüququna malikdirlər. Direktorlar Şurası BVF-nin işlərinin apanimasmm rəsmi orqanı kimi illik görüşlər keçirirlər, tşin yerdə qalan müddətində Direktorlar öz nümayəndələri vasitəsi ilə BVF-nin gündəlik fəaliyyətinə dair öz hökümlərinin fikirlərini çatdırırlar. Bu nümayəndələr İcra Şurasını təşkil edirlər. İcra Şurasmın baş qərargahı Vaşinqtonda yerləşir. 24 icraçı direktor həftədə 3 dəfə rəsmi iclas keçirirlər və üzv ölkələrin hökümətlərinin Direktorlar Şurası vasitəsi ilə planlaşdırdıqları tədbirlərin həyata keçirilməsinə nəzarət edirlər. Hazırda səkkiz İcraçı direktor ayn-ayrılıqda bir ölkəni təmsil edirlər:

ABŞ, Yaponiya, Fransa, Almaniya, Böyük Britaniya, Çin, Səudiyyə Ərəbistanı və Rusiya. Yerdə qalan 16 direktorun hər biri 175 ölkənin təşkil etdiyi ayrı-ayn qruplam başçılıq edirlər.

BV-nun işçilərinin ümumi sayı 2000-ə yaxındır. **Onlara** Sərəncamçı-Direktor başçılıq edir. O, tcra Şurası tərəfindən seçilir və eyni zamanda Şuraya da başçılıq edİr.

BVF öz fəaliyyətini əsasən 3 istiqamətdə formalaşdırır:

1. Nəzarət və təhlil.
2. Maliyyələşdirmə.
3. Texniki kömək.

İkinci və üçüncü istiqamətlər birincinin davamı hesab edilir.

Beynəlxalq valyuta sisteminin idarə edilməsində BVF-nin əsas vəzifələrindən və fəaliyyət istiqamətlərindən biri və birincisi nəzarət və təhlildir. Bu nizamnamədə üzv-ölkələr üçün nəzərdə tutulan öhdəliklərə uyğunluq baxımından bu ölkələrin apardığı iqtisadi siyasət nəzarəti və onun təhlil edilməsini əhatə edir.

BVF ölkələr tərəfindən aparılan iqtisadi siyasətə, eləcə də iqtisadi vəziyyətinə nəzarət və bu məsələləri təhlil etdikdən sonra müvafiq olaraq bu və ya digər məqsədlər üçün ölkələrə maliyyə yardımınm zəruri olduğunu müəyyənləşdirir. Bu zaman onun fəaliyyəti iki istiqamətə-maliyyəİəşdirmə və texniki mərhələsinə keçir. Texniki kömək mərhələsi isə texniki avadanlıqlarla təchiz etmə, məsləhətləşmə və s. ilə bağlıdır.

BVF-a daxil olan ölkələr aşağıdakı şərtlərə əməl etməlidirlər: öz pullarının dəyərini başqa ölkələrinin pullarına nəzərən təyin elmək üçün apanlan işlərlə digər ölkələri tanış etmək, milli pulun xarici valyutaya dəyişdirilməsinə məhdudiyyət qoyulmamaq və milli gəlirin artmasım təmin edən iqtisadi siyasət yürütmək.

Kredit götürən ölkə BVF-nİn xərcləri üçün və valyutaya borc götürdüyü ölkəyə kompensasiya olaraq müəyyən miqdarda pul ödəyir. Hazırda kredit götürən ölkə xidmətə görə borc götürülmüş pulun 0,5 %-i qədər ödənc verir, eyni zamanda bu pulun 9 %-ni qaytarır. BVF-nin üzvü verdiyi kvotaya görə o vaxt faiz alır ki, digər ölkələr BVF-dən onun valyutası ilə kredit götünnüş olsunlar.

Beynəlxalq iqtisadi təşkİlatlann, o cümlədən BVF-in BİM-də rolu sonrakı bölmələrdə daha əhatəli tədqiq olunduğu üçün bu bölmədə BVF-in beynəlxalq valyuta sistemində yerinin öyrənilməsinin yığcam şəkildə verilməsi məqsədəuyğun bilinmişdir.

**7.1. Beynəlxalq elmi-texniki əməkdaşlığın (BETƏ) mahiyyəti və onu doğuran səbəblər.**
**7.2. Beynəlxalq elmi-texniki əməkdaşlığın dünya texnologiyalar bazarının inkişafında rolu.**
**7.3. Beynəlxalq elmi-texniki əməkdaşlığın inkişafında beynəlxalq təşkilatların rolu.**
**7.4. Azərbaycan beynəlxalq elmi-texniki əməkdaşlıq sistemində.**

7.1. Beynəxalq iqtisadi münasibətlərin aparıcı formalarından biri beynəlxalq elmi-texnİki əməkdaşlıqdır (BETƏ). Həm də BİM-in bu forması digər formalardan fərqli olaraq bəşəriyyəti düşündürən, həlli bütün dövlətlərin, maddi-texniki, elmi-texniki, informasiya və s. resursların-səylərin birləşməsi yolu ilə qlobal problemlərin həllinə xidmət edir. Bu qəbildən olan problemlərə içməli su problemini dünyada gedən səhra- laşmanı, hündür dağların səviyyəsinin aşağı düşməsini, zəlzələnin baş verməsinin qabaqcadaq xəbər verilməsinin mümkün- süzlüyününə qarşısı alınmayan bəd xəstəlikləri və s. göstərmək olar.

Qeyd etdiyimiz və etmədiyimiz problemlər bir ölkənin deyil, dünyəvi problem olduğu üçün onların həlli hazırda harada və hansı dövlətə mənsub olmasından asılı olmayaraq ölkələr arasında elmi-texniki əməkdaşlığın gücləndirilməsini obyektiv tələbata çevirir.

Elə buna görə də bütün dövlətlər hər il ümumi milli gəlirin müəyyən hissəsini elmi-texniki işlərin aparılmasına, ilk növbədə məqsədli fundamental tədqiqatların yerinə yetirilməsinə yönəldirlər. Bu yanaşmam şərtləndirən başlıca səbəb elmi- texniki əməkdaşlığın əsasında cəmiyyətin hərəkət verici qüvvəsi hesab olunan elmidir. Elmin bəşəriyyətin inkişafında həlledici roluna vaxtı ilə Məhəmməd peyğəmbərimiz böyük

qiymət verərək qeyd etmişdi ki, alim ölərsə el də ölər. Dahi Nizami Gəncəvi isə hesab edirdi ki, qüvvət elmdədir.

Elmin cəmiyyətdə artan rolunun nəticəsidir ki, XX əsrin İkinci yarısında dünyada yeni bazar-texnologiyalar bazarı əmələ gəlmişdir ki, o da əmək və kapital bazan ilə yanaşı beynəlxalq səviyyədə fəalliyyət göstərir.

Beynəxalq elmi-texniki əməkdaşlığın inkişafı ilk növbədə müxtəlif ölkələrdə elmi-tədqiqat və təcrübə konstruktor işlərinə ayrılan resursların həcmindən çox asılıdır.

Statistik rəqəmlərdən göründüyü kimi 2005-ci ildə dünyada ETTKİ-nə ayrılan xərclərin dünya üzrə ümumi milli məhsulda payı 2, 75 % təşkil etmişdir. Bu göstərici inkişaf etmiş sənaye ölkələrində 6,1- 8,15 % inkişaf etməkdə olan dövlətlərdə 0,91 %, MDB-də isə 2,8 %-ə bərabərdir.

Dünyanın iqtisadi güc mərkəzi hesab olunan ABŞ-da bu göstərici 6-8 %, Rusiyada-3,1 Vo, Azərbaycanda isə təxminən - 0,9-1,0 % təşkil edir.

Qeyd etmək lazımdır ki, dünya ölkələrində elmi-tədqiqat və təcrübə konstruktor işlərinə xərclər qeyri bərabərdir. Bu xərclərin təxminən 95-96 %-i sənayecə inkişaf etmiş dövlətlərin payına düşür. Məhz bunun nəticəsidir ki, beynəlxalq səviyyədə elmi-texniki əməkdaşlıq sistemində həmin ölkələr üstün rol oynayırlar. Bu üstünlüyü əldən verməmək üçün həmin dövlətlər ildən-ilə elmi tədqiqatlara və təcrübə konstruktor işlərinə xərcləri artırırlar.

Məsələn, 1979-cu ildə ABŞ-da bu məqsədlə cəmi-56,6 mlrd, dollar, Yaponiyada -18,2 mlrd, dollar, Almaniyada - 12,5 mlrd, dollar, Fransada 8,0 mlrd, dollar. Böyük Britaniyada-8,0 mlrd, dollar xərclənildiyi halda 2005-ci ildə bu göstəricilər dövlətlər üzrə müvafiq olaraq təxminən 305,0; 158,0; 49.3; 39,0; 35,9 mlrd, dollar təşkil etmişdir. Məhz, ETTKİ-nə göstərilən bu diqqətin nəticəsidir ki, ABŞ-da qeyd olunmuş ixtiralar, verilmiş lisenziyalar, verilən patentlər (şəhadətnamələr), yeni əmtəə nişanları və s. digər dövlətlərə

nisbətən daha sürətlə artmışdır. Bütün bu məlumatlar ABŞ-ın elmi-texniki əməkdaşlıq və elmi-texniki yeniliklərin kommersiya mənimsənilməsi sahəsindəki böyük üstünlüklərə malik olmasını sübut edir.

İnkişaf etmiş sənaye ölkələrində elmi-texnİki fəaliyyətin sürətli inkişafına diqqətin gücləndirilməsinin bir çox səbəbləri vardır. Onlara əsasən aşağıdakılar daxildir;

-dünyada texnologiya sahəsində liderliyi əldə saxlamaq;

- texnoloji gerilikdən çıxmaq marağı;

- istehsal sahələrinin texniki əsasının təkmilləşdirilməsinin zəruriliyi;

- beynəlxalq bazarlara çıxarılan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi;

- milli iqtisadiyyatların elm tutumlu məhsullar istehsalını artırmaqla BƏB-də iştirak etmək istəyi;

- dünya texnologiyalar bazannda aparıcı yer tutmaq marağı;

- elmi-texniki məhsulların ixracı hesabma daha çox mənfəət əldə etmək;

- dünyada güclənən beynəlxalq elmi-texniki mübadilə prosesinin sürətləndirilməsi zərurəti və s.

Qeyd edilən amillərin təsiri altında dünya texnologiyalar bazarının bütün seqmentlərinin inkişafı yalnız lEÖ-də deyil, inkişaf etməkdə olan ölkələrdə də baş verir ki, bu da onlann milli iqtisadiyyatlarının inkişafında böyük rol oynayır.

7.2. Ümumiyyətlə nəzərə almaq lazımdır ki, texnologiyanın beynəlxalq hərəkəti yaxud ötürülməsi dedikdə elmi-texniki nailiyyətlərin dövlətlər a rası hərəkəti başa düşülür. İqtisadi münasibətlərin obyekti kimi bu elmi- texniki yeniliklər bir neçə formada və müxtəlif yollarla dövlətlər arasında yayılır.

Ümumi halda bu yayılma iki formada həyata keçirilir;

1. Kommersiya əsasında
2. Qeyri-Kommersiya yolu ilə.

Kommersiya yolu dedikdə texnologiyanın, yaxud elmi məhsulların hansı şəkildə olmasından asılı olmayaraq onu beynəlxalq bazarlarda olan, razılaşdınimış qiymətlərlə müəyyən məbləğ pul ödəyir.

Qeyri-Kommersiya yolu dedikdə isə dövlətlərarasında pul ödəmələri nəzərdə tutulmur.

Hazırda elmi-texniki biliklərin və yaxud onların bir növü olan texnologiyanın mübadiləsinin ən çox yayılmış forması beynəlxalq lisenziya satışıdır. Buna patent lisenziya razılaşmaları da deyilir. Hər hansı bİr dövlət şirkət öz kəşfi, yaxud ixti- raçı barədə olan məlumatı digər ölkəyə və başqa qurumlara satır. Qeyd edək ki, lisenziya ödəmələri bir neçə formada həyata keçirilir. Bunlardan biri royalti müqaviləsi hesab olunur. Royaltİ müqavilə müddətində ardıcıl olaraq lisenziyanın istifadəsindən əldə edilən mənfəətdən ödəniş nəzərdə tutulur.

İkincisi, pauşal ödənişi müqaviləsidir. Bu müqaviləyə, əsasən istifadə vaxtından asılı olmayaraq lisenziyanı aldığı vaxtdan razılaşdınimış məbləğ birdəfəlik ödənilir. Üçüncüsü, birləşdirilmiş yaxud uyğunlaşdınimış ödəniş formasıdır. Zəruri vəsaitin 10-15 %-i birdəfəlik pauşal qaydada, qalanı isə dövrü olaraq royalti qaydasında ödənilir. Dördüncü forma mənfəətdə iştirak etmək qaydasına əsaslanır. Bu qaydaya əsasən əldə edilən mənfəətin 10- 30 %-i lisenziya satana ödənilir.

Lisenziyaların satışı sistemində mülkiyyətdə iştirakına görə ödəmələrin aparılması formasından da istifadə olunur. Bu formaya görə lisenziyanı alan öz müəssisəsinin səhmlərinin bir qismini lisenziya verənə ödəniş kimi verir.

Bütün qeyd olunan fonnalardan geniş istifadənin nəticəsidir ki, son dövrlərdə başqa istehsal amilləri kimi texnologiya sahəsində də idxal və ixracın həcmi genişlənir. Bu isə istər-istəməz dünya texnologiya bazarının yaranmasım şərtləndirir. Texnologiya bazarının əsas subyektləri-dövlətlər, şirkətlər, universitetlər, müəyyən fondlar, alimlər və mütəxəssislərdən ibarət fiziki şəxslərin məcmusunu əks etdirir.

Dünya texnologiya bazarının obyektləri isə İntellektual mülkiyyət hesab edilir. Bu bazarı quruluşuna görə aşağıdakı seqmentlər vasitəsilə xarakterizə etmək olar:

- patent və lisenziyalar verilməsi.
- elmitutumlu və texnoloji tutumlu məhsullar bazarı.
- elmi-texniki mütəxəssislər bazan.

Bütünlükdə isə dünya texnologiya bazarının 90 %-i inkişaf etmiş sənaye ölkələrinə məxsusdur. Dünya texnologiya baza-nnın sahəvi quruluşunda isə dünya üzrə lisenziya satışının 19 %-ni elektrotexniki və elektron sənayesi, 18 %-ni ümumi maşınqayırma sənayesi, 17,4 %-ni kimya sənayesi, 10,2 %-ni nəqliyyat maşınqayırma sənayesi təşkil edir. Beynəlxalq texnologiya mübadiləsinin emal sənayesinin inkişafına olan təsiri bütünlükdə iqtisadiyyata nisbətən 3 dəfə yüksəkdir.

Müasir şəraitdə formalaşmış dünya texnologiya bazarı bİr çox cəhətləri ilə səciyyələnir. Bunlardan aşağıdakıları göstərmək olar:

- dünya texnologiya bazarı bütünlükdə dünya iqtisadiyyatının intellektuallaşma səviyyəsini artırır;
- dünya texnologiya bazannda TMK-lar aparıcı subyekt kimi çıxış edirlər. Burada ETTKİ-nin nəticələrindən TMK-rin əsas və qız cəmiyyətləri (filialları) birlikdə istifadə edirlər;
- böyük TMK-lar bir çox tədqiqat işlərini Öz əllərində cəmləşdirir və bununlada beynəlxalq texnologiya bazarının inhisarlaşmasına zəmin yaradüır.

7.3. Beynəlxalq elmi-texniki əməkdaşlığın İnkişafında beynəlxalq və regional təşkilatların böyük rolu vardır. Bu sahədə aparıcı yer BMT və onun İxtisaslaşdınhmş qurumlarına məxsusdur. Xüsusilə, Yunesko, Ümumdünya intellektual mülkiyyət hüquqi təşkilati, BMT-nin ticarət və inkişaf üzrə konfransı (YUNKTAD) və s. beynəlxalq elmi-texniki əməkdaşlığın güclənməsində rolu böyükdür.

Beynəlxalq elmi-texniki əməkdaşlıqda qeyd etdiyimiz beynəlxalq təşkilatların rolunu göstərməkdən qabaq bu problemin

«NOU-XAU» proqramının əhəmiyyəti haqqında qısaca məlumat verməyi məqsədəuyğun hesab edirik.

«NOU-XAU» anlayışının hərfi mənası bilirəm-demirəm deməkdir. O, ilk dəfə İ916-cı ildə ABŞ-da ailə zəminində baxılmış məhkəmə prosesində işlədilmişdir. Qeyd etmək lazımdır ki, bülün lisenziya müqavilələrinin 50 %-ə qədəri «NOU-XAU»-nun payma düşür. Beynəlxalq səviyyədə «NOU-XAU» proqramının İEOÖ-lər üçün böyük əhəmiyyəti vardır. Çünki, bu proqramla müxtəlif ölkələrdə vacib elmi-texniki işləri yerinə yetirmək üçün maliyyə təminatı lazımı səviyyədə təmin olunur, əldə edilən nəticədən istifadə edən şirkətin, təşkilatın və s. ünvanı dəqiq göstərilir. Deməli, İdeyadan konkret elmi biliyinin əldə edilməsinədək mövcud şəkildə işlər ardıcıl apanidığına görə innovasiya prosesi sürətlənir, elmi-texniki əməkdaşlığın iqtisadiyyatın nəzərdə tutulan sahəsində verdiyi səmərənin yüksəlməsi üçün şərait yaranır.

Beynəlxalq elmi-texniki əməkdaşlığı tənzimləyən qurum-lann əsas vəzifələrindən biri intellektual mülkiyyət hüququnun qorunmasıdır.

Qeyd edək ki, hər bir Ölkədə mülkiyyət hüququnun milli qorunma sistemi nə qədər güclü olsa, bir o qədər həmin ölkəyə müasir texnologiya axını artıq olar.

Aydındır kİ, hər bir ölkədə mülkiyyət hüququ milli qanunvericilik yolu ilə müəyyən edilir. Beynəlxalq münasibətlərdə isə bu hüququn saxlanılması, qorunması və istifadə edilməsi beynəlxalq razılaşmalara, beynəlxalq kodeksə əsaslanır.

Son 100 ildə kifayət qədər belə razılaşmalar əldə edilmişdir. Bu razılaşmaların əksəriyyəti intellektual mülkiyyət hüququ istiqamətini nəzərdə tutur.

Ümumidünya İntellektual mülkiyyət hüququ təşkilatı İ967-Cİ ildə yaradılmışdır. İqamətgahı Cenevrədə yerləşir. 1974-cü İldən BMT-nin ixtisaslaşdırılmış təşkilali hesab edilir. 156 üzvü vardır. Eləcə də 1994-cü ildə ümumdünya ticarət təskilatı çərçivəsində intellektual mülkiyyət hüququ üzrə

çoxtərəfli razılaşma əldə edilmişdir. 1996-cı ildən qüvvədə olan «intellektual mülkiyyətin ticarəti hüququ» üzrə çoxtərəfli razılaşma fəaliyyət göstərir. Burada inkişaf etməkdə olan ölkələr üçün 2005-2006 İllərədək bəzi istisnalar nəzərdə tutulmuşdur.

BMT-nin ticarət və inkişaf üzrə konfransı (YUNKTAD) çərçivəsində texnologiya verilməsi komitəsi, ixraca nəzarət üzrə koordinasiya komitəsi, təhlükəsizlik və texnologiya üzrə mütəxəssislərin müşavirəsi və digər qurumlar intellektual mülkiyyətin qorunmasına zəmin yaradırlar,

7.4. Dünya təsərrüfatının subyekti kimi Azərbaycan respublikası da beynəlxalq elmi-texniki əməkdaşlıq sistemindən faydalanır. Respublikamızda beynəlxalq elmi-texniki əməkdaşlıqda iştirak elmək üçün lazımı hüquqi-normativ baza və təşkilati fəaliyyət mexanizmi yaradılmışdır.

Qeyd etmək lazımdır ki, beynəlxalq elmi-texniki əməkdaşlıqda fəal iştirak etmək üçün respublikamızda kifayət qədər güclü elmi-texniki potensial və elmi-tədqiqat, təcrübə konstruktor bürolarının, təcrübi isiehsalatlann və s. bölmələrinin böyük şəbəkəsi vardır.

Azərbaycanda mövcud elmi-texniki potensial əsasən 3 bölmə üzrə fəaliyyət göstərir. Bunlara Akademiya elm bölməsi, sahə elmi və ali məktəb elmi aiddir. Bunlardan başqa respublikada zavodların nəzdində elmi bölmələr vardır ki, onlar da cəm halında zavod elm bölməsi adlandırılır. Bu elmi sektorlarda 123 elmi-tədqiqat institutu, 40-dək dövlət və özəl ali məktəb fəaliyyət göstərir.

Elm və elmə xidmət sahəsində 21 min nəfərdən çox elmi və elmi- pedaqoji kadrlar çalışırlar. Bunlarında 9 min nəfəri elmlər namizədi, 4 mindən bir qədər çoxu elmlər doktorudur. Kifayət qədər keyfiyyət xarakteristikana malik elmi-pedoqoji kadrlar fizika-riyaziyyat, kimya, biologiya, genetika və seleksiya, yer elmləri, ictimai elmlər və s. sahələrdə əsaslı və tətbiqi tədqiqatlar yerinə yetirirlər.

Respublikamız bir çox elm sahələrində MDB məkanında aparıcı yer tutur. Alimlərimizin yarımkeçiricilər, müxtəlif aşqarların hazırlanması və s. istiqamətində apardıqları tədqiqatlar dünya alimlərini maraqlandırır. Bütün bunlar alimlərimizin beynəlxalq elmi-exniki əməkdaşlıqda iştirak etmələri üçün böyük potensiala malik olmalarından xəbər verir.

Bazar iqtisadi münasibətləri şəraitində Azərbaycanda fəaliyyət göstərən elmi təşkilatlann, xüsusilə Akademiya elm bölməsinin beynəlxalq elmi-texniki əməkdaşlıqda, «NOU-XAU)> proqramlarında iştiraki tədqiqat institutlarının maliyyə və materiai-texniki bazasının möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Kifayət qədər güclü elmi kadrlar məhz ən yeni cihaz, aparat və avadanlıqlarla yaxşı təchiz olunduqda aparılan tədqiqatlardan alınan nəticələr daha dəqiq, keyfiyyəti xarakterizə edən göstəricilər baxımından mütərəqqi hesab olunur.

Beynəlxalq elmi-texniki əməkdaşlıqda aparıcı rol oynayan elmi kadrların cihazlarla və ümumi halda texnika ilə silahlanmasını diqqətin gücləndirilməsi ixtiraların, kəşflərin və səmərələşdirici təkliflərin çoxalmasına səbəb olur.

Ölkə ərazisində elmi tədqiqatlardan alman yeniliklərin hesabına elmi məhsullar bazarı yaranır. Bu bazarda lisenziyaların, patentlərin, müəlliflik hüququ təsdiq edən digər sənədlərin elmi məhsullar bazannda satılması respublikada, həmçinin konkret müəssisələrdə və sair iştirakçılar tərəfindən əlavə valyuta əldə etməsinə imkan verəcəkdir. Digər tərəfdən elmi məhsullar bazarına xarici valyutaların və investorlann axını baş verəcək, əgli əməyin məhsuluna təlabat artmaqla Azərbaycanın beynəlxalq texnologiyalar bazarına verdiyi töhfəsi daha da artacaqdır.

## FƏSIL II
## BİM-tN İNKİŞAF İSTİQAMƏTLƏRİ

### Bölmə VIII. Beynəlxalq əmək bölgüsü (BƏB) BİM-in aparıcı inkişaf istiqamətidir

8.1. Beynəlxalq əmək bölgüsünün mahiyyəti və onun inkişaftmn nəzəri- metodoloji əsaslan.
8.2. Dünya ölkələrinin beynəlxalq əmək bölgüsündə iştirakının müasir vəziyyətinin təbiili.
8.3. Azərbaycanın BƏB-də iştirakı imkanları və onlardan istifadənin yaxşılaşdırılması istiqamətləri.

**8.1.** BİM'in formalaşması və inkişafının əsasında nə üçün beynəlxalq əmək bölgüsünün durduğunu aydınlaşdırmaq üçün, fikrİmizcə, ilk növbədə BƏB-in özünün mahiyyətini araşdırmaq lazımdır. Bu sahədə çoxsaylı fikirlər olsa da, ən ümumi şəkildə demək olar ki, BƏB əməyin ictimai ərazi bölgüsünün ən yüksək forması olub bu və ya digər əmtəə növləri üzrə ölkələr arasında daimi, qarşılıqlı faydalı ixtisaslaşmaya və onların istehsalın nəticələri ilə müəyyən səviyyədə nisbətlərində mübadiləsinə əsaslanır. BƏB əmtəələr, xidmətlər, biliklərlə beynəlxalq mübadilənin, ölkələrin inkişaf səviyyəsindən və ictimai quruluşundan asılı olmayaraq onlar arasında istehsal, elmi-texniki, ticarət və digər növ əməkdaşlığın obyektiv əsasıdır. BƏB ölkə daxilində və onlar arasında əmək bölgüsünün nəticəsidir. Əmək bölgüsü dedikdə, burada konkret əməyin ayrı-ayrı hissələrə bölünməsi nəzərdə tutulur,

BƏB-in tarixən birinci məqsədi əmək məhsuldarlığının yüksəldilməsi olmuşdur. İqtisadi və sosial tərəqqinin əsası olan əmək məhsuldarlığının yüksəldilməsi zərurəti BƏB-in hərəkətverici qüvvəsi kimi çıxış elmişdir. Çünki ölkədaxili əmək bölgüsü yolu ilə məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar ölkə daxilində hər hansı sahədə istehsal olunan məhsul müəyyən həddən sonra daxili tələbi üstələyir. Nəticədə rentabelliyi

**saxlamaq, durğuniuğun qarşısını almaq üçün müəssisələr xarici bazarlara çıxırlar. Beynəlxalq rəqabətdə ölkələr (onların müəssisələri) üstünlüklərə malik olduğu sahələrdə qalib gəlir, üstünlüklərə malik olmadıqlan sahələrdə isə məğlub olurlar və müvafiq sahələr istiqamətində beynəlxalq səviyyədə ixtisaslaşırlar, digərlərindən İmtina edirlər. Beləliklə, ölkələrin bu və ya digər sahələr üzrə BƏB-də ixtisaslaşması əvvəlcə BİM-in ilk forması olan beynəlxalq ticarətin, BƏB-in dərinləşməsi isə sonradan BİM-in qalan formalarının təşəkkülünə səbəb olur, onların inkişafı üçün İlkin ünsürlər yaradır.**

**BƏB ölkələrin milli istehsal xərclərinin beynəlxalq xərclərə nisbətən minimal səviyyədə olan əmtəələrin istehsalı üzrə uzunmüddətli ixtisaslaşma prosesi nəticəsində meydana çıxmışdır. Bu nöqteyinəzərdən BƏB-in əsas funksional təyinatı ondan ibarətdir ki, o ayn-ayn ölkələr arasında möhkəm iqtisadi əlaqələr qurmaqla onların ümumi əmək bölgüsünün stru- turunun formalaşdınimasına səmərəli təsir göstərir. Bu onunla əlaqədardır ki, BƏB ölkələrə öz səylərini onların ən əlverişli istehsal şərtlərinə malik olduğu sahələrdə cəmləşdirməyə imkan verir. Odur ki, müxtəlif ölkələri BƏB-də iştiraka sövq edən ən əsas məqsədlərdən biri də artıq istehsal xərclərinə qənaət etməkdir,**

**Ölkələr yerli istehsal xərclərinin beynəlxalq xərclərdən baha olan əmtəələrin istehsalından imtina edib onlan idxal etməklə əlavə mənfəət qazanırlar. Ona görə də tam əminliklə demək olar ki, BƏB istehsalın effektivliyinin artırılması məqsədinə xidmət edir, ictimai əməyə qənaət edilməsi vasitəsi məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və istifadəsinin əsas aləti rolunu oynayır.**

**BƏB-də iştirak edən ölkə mövcud maddi və mənəvi potensialı daha optimal şəkildə istifadə etməyə, dünya üzrə elm və texnikanın ən yeni nailiyyətlərini qısa müddətdə tətbiq etməyə, iqtisadiyyatın restruktrizasiyasını sağlam şəkildə həyata keçirməyə, əhalinin tələbini daha dolğun və rəngarəng şəkildə ödəməyə, milli strateji maraqları reallaşdırmağa imkan əldə edir.**

Bu səbəbdən də qeyd etmək olar ki, məhz BƏB bütün planet miqyasında səmərəli beynəlxalq iqtisadi münasibətlərin qurulmasının ilkin maddi şərtini təşkil edir, milli iqtisadiyyatların vahid dünya təsərrüfatında birləşdirilməsinin əsasında durur.

Ona görə də hər bir ölkənin beynəlxalq iqtisadi münasibətlərdə iştirakı məsələsini araşdırarkən nəzərə almaq lazımdır ki, istənilən dövlətin burada iştirakının obyektiv səbəbi beynəlxalq səviyyədə əmək bölgüsü və mübadilədir.

Bəs beynəlxalq iqtisadi münasibətlərin inkişafına BƏB-in təsir mexanizmi necədir?

Əsrlərdən bəri Adam Smit, David Rikardo, Eli Hekşer, Bertil Olin, Pol Samuelson və s. görkəmli alimlər bu suala cavab verməyə cəhd edərək iqtisadi fikri inkişaf etdirmiş, zənginləşdirmişlər. Fikmizcə, burada həmin klassiklərin əsərlərinə qısaca olsa da, müraciət etmək məsələyə aydınlıq gətirmək baxımından xeyli faydalı olardı.

BƏB-in nəzəri əsaslan özünün ilkin ifadəsi və inkişafımn siyasi iqtisadın klassikləri A.Smit və D.Rikardonun əsərlərində tapmışdır. A.Smit 1776-cı ildə yazdığı «Xalqların sərvətinin təbiəti və səbəblərinin tədqiqİ» əsərində göstərmişdir ki, əgər hər bir ölkə digər ölkələrə nisbətən mütləq üstünlüklərə malik olduğu əmtəələrin istehsalı, ixracı üzrə ixtisaslaşarsa və beynəlxalq ticarət bu əsaslarla qurularsa, onda belə fəaliyyət nəticəsində nəinki həmin ölkə, eyni zamanda bütün dünya ölkələri fayda əldə edərlər.

Bir sözlə, A.Smit ölkələrə mütləq üstünlüklərə malik olduqları əmtəələrin istehsalı üzrə ixtisaslaşmağı və BƏB-də həmin məhsullarla çıxış etməyi təklif edirdi. «Mütləq üstünlüklər» adım alan bu nəzəriyyənin qısaca sxematik izahım aşağıdakı şəkildə şərh etmək olar:

| | İspaniya | Norveç |
|---|---|---|
| taxıl | 3 | 4 |
| **balıq** | **6** | **5** |

Rəqəmlər əmtəə vahidinə (məsələn, 1 ton) çəkilən istehsal xərcləri kimi qəbul olunur.

**Göründüyü** kimi, **İspaniya taxıl, Norveç isa balıq istehsalı** sahəsində mütləq üstünlüyə malikdir. Deməii «mütləq üstünlüklər>> nəzəriyyəsinə görə İspaniya taxıl, Norveç isə balıq istehsalı üzrə ixtisaslaşmalı və BƏB-də həmin əmtəələr iştirak etməlidirlər. İspaniya Norveçə taxıl, Norveç isə İspaniyaya balıq ixrac etməlidir.

Lakin bu nəzəriyyə heç bİr əmtəə üzrə mütləq üstünlüyə malik olmayan ölkələrin beynəlxalq iqtisadi münasibətlərdə necə iştirak etdiklərini izah edə bilmədi və çıxılmaz vəziyyətə düşdü.

David Rikardo 1817*ci ildə yazdığı «Siyasi iqtisadın və vergiqoymanm prinsipləri)) əsərində BƏB-in mahiyyətini yeni aspektdə izah edən «müqayisəli üstünlüklər)) nəzəriyyəsini yaratmaqla klassik nəzəriyyəni düşdüyü çətin vəziyyətdən çıxardı.

BƏB-in nəzəri əsaslannın formalaşdınlmasında «müqayisəü istehsal xərcləri», yaxud «müqayisəli üstünlüklər» nəzəriyyəsi klassik siyasi iqtisadın ən vacib nailiyyəti hesab olunur.

Müqayisəli üstünlüklər nəzəriyyəsinin əsasına müxtəlif coğrafi, iqlim mühitində yerləşən ölkələrin iqtisadiyyatları arasında təbii fərqlərin mövcudluğu ideyası qoyulmuşdur.

Müqayisəli üstünlüklər nəzəriyyəsi bu və ya digər əmtəə üzrə BƏB-də ixtisaslaşmanın ölkələrin digər ölkələrə nəzərən mütləq üstünlüklərə malik olduğu zaman deyil, hətta belə üstünlüklərin olmadığı zamanda da mümkünlüyünü sübüt edir. Bunu aşağıdakı vəziyyətin timsalında izah edək;

| | İspaniya | Norveç |
|---|---|---|
| taxıl | 2 | 7 |
| balıq | 3 | 4 |

Rəqəmlər əmtəə vahidinə (məsələn, 1 ton) çəkilən istehsal xərcləri kimi qəbul olunur.

Göründüyü kimi, Norveç heç bir məhsulun istehsalı üzrə mütləq üstünlüklərə malik deyildir. Deməli, «mütləq üstünlüklər)) nəzəriyyəsinə görə bu ölkələr arasında qarşılıqlı iqtisadi əlaqələr də ola bilməz. Norveç yalnız birtərəfli qaydada taxıl və batığın idxalı üzrə ixtisaslaşmalıdır. Lakin müqayisəli

üstünlüklər nəzəriyyəsi vasitəsilə göstərmək olar ki, bu ölkələr arasında qarşılıqlı əlaqələr qurulması mümkündür və belə əlaqələr hər iki dövlət üçün səmərəlidir. Bunun üçün aşağıdakı ardıcıllıqda təhlil aparaq:

İspaniya və Norveçdə 1 ton taxıl becərilməsinə sərf edilən xərclərlə neçə ton balıq və əksinə, 1 ton balıq hasilatına sərf edilən xərclərlə neçə ton taxıl İstehsal edilməsinin mümkünlüyünü araşdıraq;

İspaniya Norveç

1 ton taxıl=2=0,66 ton balıq 1 ton taxıl=7=l,75 ton balıq 3
4

1 ton balıq= 3=1,5 ton taxıl 1 ton balıq=4=0,57 ton taxıl 2
7

Beləliklə, aydın olur ki, İspaniya 1 ton balıq tutulmasına çəkdiyi xərclə 1,5 ton taxıl becərə bilər. Norveç isə həmin miqdarda balığın tutulmasına sərf olunan xərclə yalnız 0,57 ton taxıl istehsal edə bİlər. Deməli, İspaniyada 1 ton balığın istehsal edilməsi üçün tələb olunan xərclərlə Norveçdə həmin miqdarda balıq hasilatı üçün lazım olan xərclərə nisbətən daha çox taxıl istehsal etmək olar (1,5 >0,57). Ona görə də İspaniya taxıl becərilməsi üzrə Norveçə nisbətən müqayisəli üstünlüklərə malikdir və o, BƏB-də məhz bu sahə üzrə ixtisaslaşmalıdır.

Digər tərəfdən Norveç 1 ton taxılın istehsalına çəkdiyi xərclərlə 1,75 ton balıq hasil edə bilirsə, İspaniya həmin miqdarda taxılın becərilməsinə sərf etdiyi xərclərlə yalnız 0,66 ton balıq hasil edə bilir. Deməli, Norveçdə 1 ton taxıl becərilməsi üçün zəruri xərclərlə İspaniyada eyni miqdarda taxıl istehsalı üçün çəkilən xərclərə nisbətən daha çox balıq hasil etmək olar (1,5 >0,57). Bu səbəbdən də Norveç balıq hasilatı üzrə İspaniyaya nisbətən müqayisəli üstünlüklərə malikdir və o, BƏB-də həmin sahə üzrə ixtisaslaşmalıdır.

Müqayisəli üstünlüklər nəzəriyyəsi BƏB vasitəsilə bu iki ölkə arasında BİM-in ən inkişaf etmiş forması olan beynəlxalq əsaslarla mövcud ola biləcəyini sübut edir.

Bu ölkəbr arasında beynəlxalq ticarətin mümkünlüyünü araşdırmaq üçün fərz edək İd, norveçlilər bir gəmi balıq yükü ilə tspaniya limanlarının birinə gəlirlər, Norveçlibrin gəlişinə qədər ispan tacirləri 1 ton balıq üçün 1,5 ton taxıl verməyə adət etmişdir. Norveçlilər isə İspaniyaya gələnədək 1 ton balığı 0,57 ton taxıla satmağa adət etmişdilər. Ona gÖrə də l ton balıq üçün 0,57< ton X ton taxıl <1,5 ton mübadilə nisbəti həm norveçlilər, həm də ispanlar üçün sərfəli olacaqdır.

Beləliklə, bu və ya digər əmtəələrin istehsalı ilə əlaqədar çəkilən xərclərin müqayisəsi belə bir fikir söyləməyə əsas verir ki, hər hansı ölkənin onun üçün tələb olunan bütün əmtəələri istehsal edilməsindənsə, BƏB-də iştirak etməklə onun üçün ən az xərclərlə başa gələn əmtəələrin istehsalı üzrə ixtisaslaşması məqsədəuyğundur. İstehsalın həmin əmtəələr üzrə ixtisaslaşması daha sonra bütün digər zəruri məhsulları mübadilə yolu ilə BİM vasitəsilə xarici bazarlardan artıqlaması ilə əldə etməyə imkan verəcəkdir.

Bununla belə müqayisəli üstünlüklər nəzəriyyəsi yarandığı dövrdən məhdud xarakter daşıyırdı. Çünki onun prinsipləri yalnız müstəqil dövlətlər tərəfindən reallaşdırıla bilərdi, müstəmləkə və asılı dövlətlər iri kapitalist ölkələri tərəfindən iqtisadi təzyiqlərə məruz qalırdılar. Ona görə də həmin ölkələrdən müqayisəli üstünlüklər nəzəriyyəsinin prinsiplərinin həyata keçirilməsindən danışmaq real deyildir. Eyni zamanda müqayisəli üstünlüklər nəzəriyyəsinin bəzi çatışmamazhqlan var idi ki, onlara aşağıdakıları göstərmək olar:

- nəzəriyyədə əmək və kapital resurslarının beynəlxalq yerdəyişməsi, istehsalın ixtisaslaşması istiqamətində dövlətin təsiri nəzərə alınmır;
- nəzəriyyədə «i$tehsal miqyası» effekti və nəqliyyat xərcləri nəzərə aimmır.

Əgər müqayisəli üstünlüklər nəzəriyyəsində digər faktlar, o cümlədən nəqliyyat amilini də nəzərə alsaq nəzəriyyə bir qədər mürəkkəb xarakter alacaqdır. Lakin real beynəlxalq iqtisadi münasibətlərə qoşulmağa cəhd edən

qura bilməzlər. Belə ki, Avropada yeniləşən ölkə müəyyən məhsulun istehsalında Şimali Amerikada yerləşən ölkəyə nisbətən istehsal xərclərinə görə müqayisəli üstünlüklərə malik olduğu Latın Amerikası ölkələrinin bazarında tədavül xərclərini də nəzərə alsaq, həmin Avropa ölkəsi Şimali Amerika ölkəsinə nəzərən müqayisəli üstünlüklərə malik olmaya da bilər. Qeyd edilən fərziyyə Şimali Amerika ölkələrinin daxili bazarı üçün də doğrudur, yəni Avropa əmtəəsi oraya çatdıqda tədavül xərclərinə görə yerli istehsala nisbətən rəqabətqabiliy- yətli olmaya da bilər. Nə üçün məhz bu faktor nə üçün BƏB- də və BİM-də eyni bir əmtəə qrupunun istehsalı, ixracı üzrə əksər hallarda bir neçə ixtisaslaşmış ölkənin iştirak edə bilməsini izah edir.

Yuxanda qeyd edilənləri nəzərə almaqla bərabər, sonradan müqayisəli üstünlüklərə yeni elementlər də əlavə olundu. Onlara misal olaraq, İşçilərin ixtisas səviyyəsi, ölkələr arasında əmək haqqında olan fərqlər və s. göstərmək olar. Bunları nəzərə almaqla XX əsrin əvvəllərində isveçli alimlər Eli Hekşer və Bertil Olin iki istehsal amilinə-kapitalın və əməyin istifadə olunduğu BƏB modeli işləyib hazırladılar.

Onların modelinin əvvəlki nəzəriyyələrdən fərqi ondadır ki, əgər A.Smit, D.Rİkardo BƏB və BİM probleminə yalnız ölkələrin təbii, iqlim fərqlərinə əsaslanan eyni əmtəənin istehsalına çəkilən müxtəlif əmək sərfi aspektindən yanaşırdılarsa, burada artıq qeyd etdiyimiz kimi iki ayrı-ayrı istehsal amilinin (mahiyyət etiban ilə isə çoxsaylı amillərin) həmin proseslərə təsiri öyrənilir.

Onların fikrincə əmək resurslarının çox, kapital resurslarının az olduğu ölkələr əmək tutumlu məhsulların istehsalında, kapital resurslannm çox, əmək resurslarının az olduğu ölkələr isə kapital tutumlu əmtəələrin istehsalında müqayisəli üstünlüklərə malik olacaqlar. Bir sözlə Hekşer-Olin nəzəriyyəsi BƏB və BİM-in aşağıdakı inkişaf qanunauyğunluğunu təyin etməyə imkan verir.

Beynəlxalq iqtisadi əlaqələrin istənilən iştirakçısı o əmtəələri ixrac edir ki, onlann istehsalında intensiv istifadə

olunan amilləri ilə həmin ölkə digərlərinə nisbətən daha yüksək səviyyədə təmin olunmuşdur və əksinə o əmtəələri idxal edir ki, onların istehsalında intensiv istifadə olunan istehsal amilləri ilə həmin ölkə digərlərinə nisbətən daha aşağı səviyyədə təmin olunmuşdur.

II Dünya müharibəsindən sonra BƏB-in empirik modellərinə, o cümlədən Hekşer-Olin nəzəriyyəsinə də maraq artdı. Bu modellər hərtərəfli analiz olunmağa başlandı. Rus mənşəli amerikan iqtisadçısı Vasitiy Leontyev ABŞ-ın 1947-ci il idxal-ixrac əməliyyatlarım ciddi təhlil etdi. Həmin tədqiqatın ABŞ- tn kapitallutumlu əmtəələri ixrac edib, əməktutumlu əmtəə İdxal edən ölkə mövqeyini bir daha təsdiqləyəcəyi gözlənilirdi. Lakin Leontyev tamam əksinə olan münasibətləri aşkar etdi. Omm Hekşer-Olin nəzəriyyəsinə zidd olan bu nəticəsi wLeontyev təzadı» adını aldı. ABŞ ixracının nə üçün əmək tutumlu olmasını izah etmək məqsədilə Leontyanv belə bir fərziyyə irəlİ sürdü ki, 1 adam ili amerikan əməyi xarici ölkələrin 3 adam ilinə bərabərdir. Leontyev ABŞ işçisinin əmək məhsuldarlığının belə yüksək olmasını onların xarici işçilərə nisbətən daha yüksək ixtisas səviyyəsi ilə izah edirdi. O, faktiki olaraq sübut edirdi ki, ABŞ-ın ixrac etdiyi əmtəələr onun idxal etdiyi əmtəələrə nisbətən daha yüksək ixtisas səviyyəsi tələb edir. Bundan əlavə ABŞ-da ixtisaslı işçilərin sayı digər ölkələrə nisbətən çox olduğundan onların hazırlığına çəkilən xərclərin də kapital qoyuluşları kimi qəbul olunmasını təklif etdi.

ABŞ idxalınm kapital tutumlu olması isə bununla izah edilirdi ki, onun idxalının əsas hissəsi istehsalı külli miqdarda kapital qoyuluşları tələb edən hasilat sənayesinin məhsullarıdır. Eyni zamanda əməktutumlu sahələri xarici rəqabətdən qoruyan, beləliklə də əməktutumlu əmtəələrin idxalının qarşısını alan amerikan idxal tariflərinin nəzərə alınması da təklif olunurdu. Bütün bunlar son nəticədə daha realist və universal BƏB modelinin qurulmasına öz müsbət töhvəsini vermiş oldu.

Müasir dövrdə BƏB-in daha da dərinləşdirilməsi həmçinin modernizasiyası və beləliklə də BİM-in inkişafının yeni mərhələlərə qaldırılması üçün müxtəlif nəzəriyyələr, təkliflər, ideyalar irəli sürülür. Bu ideyalann əsas mahiyyəti ondan ibarətdir ki, İEOÖ-ə süni maneələrin ləğv edilməsi, proteksionizm siyasətindən imtina etmək, iqtisadiyyata xarici investisiyaları geniş surətdə cəlb etmək məsləhət görülür.

Qərb iqtisadçılarının və siyasətçilərinin «Cənubun, yəni İEOÖ-in proteksionizm siyasətini yumşaltmaq çağınşlanna cavab olaraq «cənublular» da inkişaf etmiş «şimal»dan eyni addımların atılmasım, həmçinin bəzi əlavə imtiyazlar tələb edirlər. Qərb iqtisadçılannın nöqteyi-nəzərincə «təzə» və «modernləşdirİlmiş» BƏB ideyalarının əsas praktiki mahiyyəti İEOÖ-in yeni sahəvi ixtisaslaşmasını təmin etməkdir. İEOÖ-ə əməktutumlu, materialtutumlu, standartlaşdırılmış məhsullar istehsalına və onların ilk növbədə İEOÖ-in tələbini ödəmək məqsədilə ixracına istiqamət olmaq təklif edilir. İEOÖ Öz növbəsində qüvvələrini iqtisadiyyatın yüksək ixtisaslı əməyin və ETT-nin nailiyyətlərinin intensiv istifadə edildiyi sahələrində cəmləşdirilməlidirlər. Lakin aydındır ki, bu əksər İEOÖ-in strateji maraqlarına uyğun gəlmir.

Beləliklə yuxarıda qeyd etdiklərimizdən aydın olur ki, istənilən dövlətin BTM-də iştirakı məsələsini bu və ya digər aspektdən araşdırarkən nəzərə almaq lazımdır ki, hər bir dövlətin burada müəyyən isiqamətdə iştirakının obyektiv əsasım BƏB təşkil edir.

BƏB ona görə təşəkkül tapmışdır ki, istənilən ölkə çərçivəsində tələb olunan əmtəələrin bütün nomenklaturasının istehsalını yüksək texnoloji səviyyədə təmin etmək praktiki cəhətdən qeyri mümkündür. Ona görə də ölkələr müəyyən üstünlüyə malik olduqlan sahələrdə ixtisaslaşmış və həmin məhsullan ixrac elmişlər. Üstünlüyə malik olmadıqları sahələrin məhsullarını isə onlar idxal etməyə başlamışlar. Nəticədə ayrı-ayrı ölkələrin BƏB sistemində müxtəlif istiqamətlərdə ixtisaslaşmaları beynəlxalq mübadiləni zəruri etmiş, beləliklə də BİM-in əsası qoyulmuşdur.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, ölkənin BƏB-də bir və ya bir neçə əmtəə istehsalı üzrə ixtisaslaşması və digər əmtəələrin istehsalından imtina etməsi heç də onun həmin əmtəələrin istehlakmdan da imtina edilmiş əmtəələrə olan daxili tələbin ödənilməsi üçün milli sərhədlərdən kənara çıxmağa vadar edir və bununla da BİM-in təşəkkülü, inkişafı üçün ilkin ünsürlər formalaşır.

Digər tərəfdən BƏB-də iştirak etmək ölkələrə öz istehsal güclərini və iqtisadi potensiallarım müəyyən bir sahə, əmtəə üzərində cəmləşdirməyə imkan verir. Ona görə də həmin sahə, yaxud əmtəə istehsalı üzrə əmək məhsuldarlığı ölkədə sürətlə yüksəlir. Beləliklə BƏB-də hər hansı istiqamətdə ixtisaslaşmaqla çıxış edən ölkə daxili istehlakı və istehsal tələbini ödəməkdən əlavə məhsul istehsal edir. Belə vəziyyət özü- özlüyündə artıq qalan əmtəələrin reallaşdırılması üçün dünya bazanna çıxmağa, digər ölkələrlə BİM qurmağa məcbur edir. Həm də təsərrüfat subyektləri özləri bilə-bilə artıq məhsul buraxaraq həmin əmtəələri dünya bazarında realizə etməklə onlar üçün zəruri və digər ölkələrdə bol olan əmtəələri əldə edirlər. Müəyyən əmtəə qrupunun istehsalı üzrə ixtisaslaşmanı dərinləşdirməklə, möhkəmləndirməklə ölkələr özlərinə lazım olan məhsulları beynəlxalq bazarda həmin əmtəə qrupu üzrə ixtisaslaşmış ölkələrlə mübadilə etmək vasitəsilə daha ucuz qiymətlərlə əldə edirlər.

Bütün bunlar belə bir fikir söyləməyə imkan verir ki, BƏB BİM-in təşkilati formasıdır.

Nəticə etiban ilə qeyd etmək olar ki, məhz BƏB-in dərinləşməsi BİM-in inkişafım şərtləndirən ən əsas amildir. Çünki BƏB BİM-in inkişafı üçün ilkin əsas yaradır.

BİM-in özünü isə BƏB-ə əsaslanmış xüsusi fəaliyyət sferası kimi xarakterizə etmək olar. BİM-İmkanlan, perspektivi və rolu, onun əsas formalarının nisbəti və inkişaf istiqamətləri BƏB-in dərinləşməsi, onun daha yüksək formalarına keçidlə prtlənmişdir. BƏB ilk növbədə qarşılıqlı asılılıq doğurur, bu isə BİM-in daha da sürətlə inkişafına səbəb olur.

Lakin onu da mütləq qeyd etmək lazımdır ki, hazırki dövrdə BİM'in coğrafiyası BƏB-dən əlavə ölkələrin siyasi orientasiyasında da ciddi şəkildə asılılığa düşmüşdür. Müasir dövrdə beynəlxalq hüquq normalanm pozmuş ölkələrə qarşı ticarət sanksiyaları və iqtisadi blokada geniş tətbiq edilir (məsələn, İraq, Serbiya ilə ticarətə qoyulan beynəlxalq qadağalar). Şərqi Avropanın da beynəlxalq iqtisadi münasibətlərinin coğrafiyası II Dünya Müharibəsindən sonra onların xarici siyasəti SSRİ-nin təsiri altına düşdükdən sonra əsaslı şəkildə dəyişdi, sosialist respublikalarına istiqamətləndi. Əlbəttə, bunu II Dünya Müharibəsindən sonra iqtisadiyyatı demək olar ki, dağılmış SSRİ-nn müharibə nəticəsində bu və ya digər sahədə müqayisəli üstünlüklər əldə etməsi ilə izah etmək çox gülünc olardı. Təəsüf ki, bütün bu siyasi amillər ölkələrin BƏB-də malik olduqları müqayisəli üstünlükləri BİM vasitəsilə vaxtında, dövlətin milli mənafeyinə tam uyğun şəkildə reallaşdırmağa imkan verir. Hazırda da buna bir çox misallar göstərmək olar. Məsələn, İranın ABŞ-la soyuq münasibəti ilə əlaqədar birincinin dünya təsərrüfat əlaqələrindən sıxışdırılması, həmçinin eyni səbəbdən ABŞ-ın səyİ ilə Kubanın, Şimali Koreyanın BİM-dən izolyasiyasını göstərmək olar. Hərçənd bu halda İran, Kuba, Şimali Koreya Ölkələrinin BİM-dən izolyasiyasının qalan bütün dünya ölkələrinin milli iqtisadi mənafelərinə uyğun olmasını, yaxud həmin dövlətlərin heç bir müqayisəli üstünlüklərə malik olmadığım söyləmək ən azı «iqtisadi yaxıngörənlik» olardı. Bütün bunlar nəticəsində BİM sisteminin kökündən yenidənqurulmasına obyektiv tələbin artması onu göstərir ki, təşəkkül tapmış BƏB və ona əsaslanan dünya təsərrüfat əlaqələri artıq bir qrup ölkələrin, xüsusən də İEOÖ-in həm iqtisadi, həm də siyasi maraqlan ilə toqquşmuşdur. BMT tərəfindən səsləndirilmiş fikirlərdə göstərilir ki, BƏB və BİM artıq kortəbii şəkildə, yalnız rəqabət mübarizəsinin qanunlarının təsiri altında formalaşdırıla bilməz, bazar mexanizmi dünya iqtisadiyyatı miqyasında resursların səmərəli inkişafı və istifadəsini təmin edə bilmir. Lakin onu da qeyd etmək lazımdır ki, əməyin xüsusi növlərə

bölünməsi, praktiki olaraq sonsuz davam edə bilər. Odur ki, yaranmış vəziyyətdən çıxış eimtutumlu hazır məhsullar istehsalında beynəlxalq əmək bölgüsünü daha da dərinləşdirməklə lEOÖ-i həmin proseslərə cəlb etmək və BİM-i bu yeni əsaslar üzərində qurmaqdan ibarətdir.

Digər müstəqil ölkələr kimi respublikamızda getdikcə BƏB və onun vasitəsilə BİM sisteminə daha ciddi şəkildə qoşulur. Lakin, Azərbaycanın BƏB-də öz mövqeyini müəyyənləşdirilməsi prosesi kifayət qədər mürəkkəb və bir çox hallarda qeyri müəyyən formada həyata keçirilir.

Bu cəlbolunma prosesinin respublikamız üçün eyni zamanda həm pozitiv, həm də neqativ aspektləri vardır. Pozitiv tərəf ondan ibarətdir ki, hazırda Azəbaycan ona lazım olan bir sıra məhsulları dünya bazarından milli istehsal qiymətlərindən daha ucuz qiymətə ala bilər. Həmçinin öz əmtəələrinin ixracı zamanı, əgər beynəlxalq qiymətlər daxili qiymətlərdən yüksəkdirsə əlavə gəlir də əldə edir.

Keçən əsrin 90-cı illərinin sonundan etibarən Azərbaycanda idxal və icracdan istehsal amillərinin olduqca arzuolunmaz nisbəti foımalaşnuşdır. İxracda xammal, ixtisassız əmək üstünlük təşkil etməyə başlamışdır. Həmçinin Azərbaycanın ixracında ekoloji nöqteyi-nəzərdən əlverişli sahələrin payı stabil olaraq artır.

BƏB-də bu cür iştiraka belə beynəlxalq ixtisaslaşmaya mövcud keçid dövrünün yaratdığı ağır iqtisadi şəraitlə haqq qazandırmaq mümkün olsa da, qeyd edilən vəziyyət Azərbaycanın perspektiv mənafelərinə, onun dünya iqtisadiyyatında oynaya biləcəyi rola və potensial imkanlanna heç cürə uyğun gəlmir.

SSRİ-nin dağılmasından sonra Azərbaycanın ixracı yanacaq-enerji xammalına əsaslanmaqda davam edir. Belə ixtisaslaşma həqiqətən də Azərbaycanda mövcud olan izafi istehsal faktorlarının obyektiv qanunauyğun ixracını əks etdirir. Lakin əsas səyləri izafi resursların ixracına yönəldən dövlət mövcud izafi istehsal amillərinin intensiv istifadə edilməsi zəruriliyinə lazımi diqqət yetirməmişdir. Faktiki olaraq, Azərbaycan

Hekser-Olin nəzəriyyəsinin «ölkə izafi faktorlann intensiv istifadə olunduğu əmtəələri ixrac edir» postulatını inkar etmişdir. Bu postulata əsasən respublikamız təbiİ resursları, ixtisassız və ixtisaslı işçi qüvvəsi kimi iqtisadi faktorları deyil, istehsalında həmin faktorların intensiv istifadə olunduğu hazır əmtəələrin ixracı üzrə ixtisaslaşmalı idi.

Təəssüf ki, hazırda ölkəmizdə bunu müşahidə etmək mümkün deyil. Azərbaycanın müasir beynəlxalq ixtisaslaşması üçün neft, qazdan əlavə qara, əlvan metallurgiya ilkin kimyəvi emal kimi aşağı texnologiyalı və ekoloji cəhətdən təhlükəli sahələr xarakterik hal almışdır. Bu sahələrin ölkə ixracında ümumi payı 90 "/o-dən artıqdır.

Respublikamızın potensialını nəzərə alaraq söyləmək olar ki, Azərbaycanın BƏB-də əsas iştirak istiqamətləri eimtutumlu məhsulların istehsalı olmalıdır və onun beynəlxalq iqtisadi münasibətlərinin əsas məğzini də həmin məhsullarla mübadilə təşkil etməlidir.

Ona görə də Azərbaycanın BƏB-də iştirakının obyektiv zərurət olduğunu göstərməklə bərabər yaddan çıxarmamalıyıq ki, bu proses ilk növbədə respublikamızın milli iqtisadiyyatının səmərəlilik səviyyəsinin yüksəldilməsinə xidmət etməli, onu təmin etməlidir. Azərbaycanın müasir BƏB və BİM sisteminə cəlb olunmasında əsas şərt «burada iştirak respublikanın milli maraqlanna və iqtisadi təhlükəsizliyinə nə dərəcədə cavab verir?» kriteriyası olmalıdır.

Məlum olduğu kimi istehsalın beynəlxalq ixtisaslaşması və beynəlxalq kooperasiya BƏB-in ən əsas inkişaf mərhələləri hesab olunurlar. Eyni zamanda beynəlxalq ixtisaslaşma və istehsalın beynəlxalq kooperasiyası BƏB-in mahiyyəti xarakterizə edir. Beynəlxalq ixtisaslaşma və beynəlxalq kooperasiyanın genişləndirilməsi hazırda BƏB və BİM-in əsas inkişaf istiqamətlərinə çevrilmişdir. Çünki, ixtisaslaşma və kooperasiya problemləri özü-özlüyündə BƏB-in təşəkkülü, onun dərinləşdirilməsi üçün ilkin əsas yaradır və BİM-in formalaşdırılmasım zərurətə çevirir. Tarixən beynəlxalq ixtisaslaşma və kooperasiya məhsuldarlığının artırılması ehtiyacından əmələ

gəlmişdir. XX əsrin 50-ci illərindən etibarən bura ETT və ETİ amili də əlavə olundu. İstehsalın texnoloji strukturunun mürəkkəbləşməsi hazır məhsulda istifadə olunan məmulat və qovşaqlann sayının kəskin şəkildə çoxalması İlə nəticələndi. Məsələn, hazırda minik avtomobillərində 20 minə qədər, prokat dəzgahlannda 100 minədək, elektrovazlarda 250 minədək detal və qovşaqlardan istifadə olunur. Əlbəttə, belə olan vəziyyətdə bütün lazımi texnoloji əməliyyatlan bir təsərrüfat subyekti çərçivəsində həyata keçirmək qeyri mümkündür. Bu amil dünya təsərrüfat subyektlərinin ixtisaslaşma və kooperasiya səviyyəsinin daha da artırılmasım zəruri etdi. Nəticədə XX əsrin lİ yarısında BƏB həm üfüqi, həm də şaquli istiqamətlərdə daha da dərinləşərək yeni inkişaf səviyyəsinə yüksəldi. Ona görə də demək olar ki, BƏB-in mahiyyəti bu 2 prosesin dinamik vəhdətində, yəni istehsalın, əməyin hissələrə bölünməsində və onların birləşməsində təzahür edir.

İxtisaslaşma fəaliyyətin dar çərçivədə müəyyən növ əmtəə, xidmət istehsalı üzərində cəmiəşdİrilməsidir. Beynəlxalq ixtisaslaşma isə dünya təsərrüfat subyektlərinin, yəni ayn-ayn ölkələrin, ölkə qruplarının müxtəlif əmtəə növlərinin istehsalı üzrə ixtisaslaşmasını nəzərdə tutur. Məlum olduğu kimİ beynəlxalq ixtisaslaşma 2 istiqamətdə inkişaf edir:

1. Ərazi istiqaməti üzrə;
2. İstehsal istiqaməti üzrə.

İstehsal istiqaməti isə öz növbəsində 3 səviyyədə ixtisaslaşmanı özündə birləşdirir.

1.Sahələrarası ixtisaslaşma-burada, yəni BƏB-ə iştirak edən ölkələrin təsərrüfat fəaliyyətinin müxtəlif sahələrində ixtisaslaşması başa düşülür.

2.Sahədaxili ixtisaslaşma BƏB-də iştirak edən subyektlərin təsərrüfat fəaliyyətinin eyni bir sahəsinin müxtəlif istiqamətləri üzrə ixtisaslaşmasım (məsələn, maşmqayırmada- dəzgahqayırma və avtomobilqayırma) nəzərdə tutulur.

qeyri-maddi istehsal (informasiya, EHM-in proqram təminatı, film, musiqi və s.) üzrə ixtisaslaşmanı nəzərdə tutur.

Ərazi aspektində istehsalın beynəlxalq ixtisaslaşması dedikdə, müxtəlif ölkələrin, ölkə qruplanmn və regionların ayn-ayn əmtəə növlərinin istehsalı üzrə ixtisaslaşması başa düşülür.

Beynəlxalq ixtisaslaşmanın əsas təzahür formalarına aşağıdakılar daxildir:

a) Əşya (yəni, hazır məhsulların İstehsalı) üzrə ixtisaslaşma.

b) Hissələr (yəni, ayn-ayn detalların, qovşaqların istehsalı) üzrə ixtisaslaşma.

c) Mərhələlər üzrə, yaxud texnoloji (yəni müxtəlif əməliyyatların, məsələn: yığma, rəngləmə, qaynaq, tədarük və s. həyata keçirilməsi) ixtisaslaşma.

Onu da qeyd etmək lazımdır ki, ölkələrin iqtisadi proseslərinin həddən artıq sürənləndiyi müasir dövrdə bu və ya digər istiqamət üzrə beynəlxalq ixtisaslaşmasının strukturu ilk növbədə ETT-nin təsiri ilə tez-tez dəyişə bilir. Misal üçün, XX əsrin 50-60-cı illərində İlkin sahələr (hasilat, maşınqayırma, kimya və s.) səviyyədə ixtisaslaşma aparıcı mövqe tuturdu. Lakin keçən əsrin 70-80-cı illərindən etibarən ön mövqelərə beynəlxalq sahədaxili ixtisaslaşma keçdi. Və beynəlxalq mübadilə istehlak xarakteristikasına görə fərqlənən əvəzedici əmtəələrin mübadiləsi böyük xüsusi çəkiyə malik oldu, (məsələn, təkərli traktorların zəncirli traktorlara, dəri ayaqqabıların rezin ayaqqabılara mübadiləsi). Digər tərəfdən əgər əvvəllər hazır əmtəələr üzrə ixtisaslaşma BƏB-in inkişafının əsas forması kimi ölkələrin, sahələrin, firmaların məmulatlar, qovşaq üzrə beynəlxalq ixtisaslaşmasının genişlənməsi çıxış edir. Müasir dövrdə son məhsul istehsalı üzrə ixtisaslaşmaya əsaslanan BƏB öz yerini ayrı-ayrı hissələr istehsalı üzrə ixtisaslaşmaya əsaslanan BƏB-ə verir. Bunların hamısı yuxarıda qeyd etdiyimiz kimi elmi-texniki proseslərin təsİri ilə istehsal əməliyyatlarının və əmtəələrin strukturunun həddən artıq mürəkkəbləşməsi və aynca götürülmüş təsərrüfat subyektləri çərçivəsində hər hansı bir əmtəənin istehsalının yüksək

texnoloji səviyyədə təmin edilməsinin getdikcə çətinləşməsi ilə əlaqədardır.

Hər bir ölkənin və bütün dünya təsərrüfatının beynəxalq ixtisaslaşmaya cəlb edilməsi bəşəriyyətə aşağıdakı töhfələri verir: qlobal səviyyədə ictimai əməyin səmərəli təşkili beynəlxalq məhsuldar qüvvələrin inkişafı dünya üzrə əmək məhsuldarlığının artımı, əmtəələrin əmək tutumunun azalması, dünya iqtisadiyyatında ümumi istehsal xərclərinin aşağı düşməsi, əvvəlki xərclərə və əvvəlki müddət ərzində daha çox məhsul istehsalının mümkün olması beləliklə bütün bəşəriyyətin rifah halının yüksəldilməsi.

Lakin beynəlxalq ixtisaslaşmanın bütün bu müsbət tərəflərinə baxmayaraq, müasir dövrdə onun bəzi mənfi nəticələri öz həllini tələb edir. Belə ki, bir tərəfdən milli istehsal xərcləri beynəlxalq xərclərdən aşağı olan 1 -2 əmtəənin istehsalı və ixracı üzrə ixtisaslaşma ən optimal və mənfəətli variant kimi qiymətləndirilə bilər. Ancaq dİgər tərəfdən ölkənin bütün iqtisadiyyatı həmin əmtəələrin dünya bazarında konyuktu- runun və qiymətlərinin tərəddüdlərindən, hava şəraitindən, təbii fəlakətlərdən asılı vəziyyətə salır. Məsələn, XX əsrin 80-ci illərinin əvvəllərində Braziliyada hava şəraitinin kəskin dəyişməsi, soyuması kofe plantasiyalarının məhvinə və ölkənin əsas ixrac məhsulu, valyuta gəlirlərinin mənbəyi olan kofe istehsalının çox-çox aşağı düşməsinə səbəb oldu. Belə vəziyyət həmin dövrdə Braziliyada iqtisadi böhranla nəticələndi. Eyni zamanda məlumdur ki, müasir dövrdə qlobal səviyyədə işçi qüvvəsi, təbii resurslar icraçı üzrə ixtisaslaşmış çoxlu sayda ölkələr mövcuddur. Və belə ixtisaslaşmanın öz milli mənafelərinə uyğun olmadığını onlar artıq başa düşürlər. Bu isə xammal ixrac edən ölkələrlə onların xammalından hazırlanmış son məhsulları ixrac edən ölkələr arasında iqtisadi qarşıdurma, zİddiyətlərİ getdikcə sürətləndirir. Dünya konyuktu- runun tərəddüdlərindən asılılığını aradan qaldırmaq və öz xammallarından tam istifadə etmək üçün həmin dövlətlər çox zaman kor-təbii şəkildə istehsal olunan hazır əmtəələrin miqdarını maksimumlaşdırmağa çalışırlar. Bu isə BƏB-in mahiyyətinə ziddir və beynəlxalq ixtisaslaşmanın yaratdığı

üstünlükləri tam reallaşdınnağa imkan vermir. Çünki həddən artıq sayda son məhsulun istehsalını bütöv şəkildə həyala keçirməyə çalışan ölkə məhsuldar qüvvələrin rasional yerləşdirilməsinə nail ola bilməz. Məhsuldar qüvvələrin səmərəsiz istifadəsi İsə əmək məhsuldarlığının potensial artımının qarşısım alan ən birinci amildir. Yaranmış mürəkkəb vəziyyətdən optimal çıxış yolu, fikrimizcə dünya təsərrüfatı subyektlərinin BƏB-in inkişafının növbəti mərhələsi sayılan beynəlxalq kooperasiya əlaqələrinə keçmələri ola bilər.

Beynəlxalq kooperasiya dedikdə, iqtisadi müstəqilliklərini saxlamaqla hər hansı bir əmtəənin hazırlanmasında iştirak edən müxtəlif ölkələrə mənsub təsərrüfat subyektləri arasındakı istehsal-iqtisadİ münasibətlər başa düşülür.

Beynəlxalq kooperasiya zamanı fərqli ölkələrin istehsalçıları müqavilə əsasında hər hansı son məhsulun buraxılması üçün onun ayrı-ayrı hissələrini hazırlayırlar və öz əmtəələri ilə bir-biri ilə mübadilə edirlər. Nəticədə bir yaxud bir neçə istehsalçı son məhsulun hazırlanmasmı həyata keçirir. Göründüyü kimi beynəlxalq kooperasiya əlaqələri nəticəsində dünya təsərrüfat subyektlərinin ixtisaslaşma səviyyəsi və BƏB daha da dərinləşir, əməyin müxtəlif formalarının bir-birindən ayrılmasına və istehsalın ixtisaslaşmasına gətirən BƏB beynəlxalq kooperasiya vasitəsilə öz məntiqi soluğunu tapır.

lEÖ-lə İEOÖ arasında BƏB sahəsində yuxanda qeyd edilən ziddiyəllərin aradan qaldırılmasına beynəlxalq kooperasiyanın rolu əvəzedilməzdir. Çünki, xammal ixrac edən ölkələr beynəlxalq kooperasiya əlaqələrində fəal iştirak etməklə ilk növbədə təbii resursların kifayət qədər yüksək səviyyədə emalına nail ola bilərlər. Həm də hazır məhsula nisbətən hissələrin sayı küllü miqdarda olduğundan kooperasiya əlaqələrinə girən hər hansı bir dövlətin BƏB-də İxtisaslaşma istiqamətlərinin miqdarım da dəfələrlə artırmaq imkanı yaranır. Eyni zamanda kooperasiya münasibətləri müqavilə əsasında qurulduğundan bütün bunlar ölkələrin iqtisadi inkişafının dünya bazarının konyuktur tərəddüdlərindən asılılığım dəfələrlə aşağı salır. Ona görə də beynəlxalq kooperasiya əlaqələri burada aktiv iştirak edən ölkələrin bütün təbii resurs,

işçi qüvvəsi ehtiyatlarını öz dövriyyəsinə cəlb etmək potensialına malikdir və onun əsas müsbət xüsusiyyəti ondan ibarətdir ki, bu zaman həmin istehsal amilləri məhz mənsub olduqları dövlətin ərazisində əlavə dəyərin yaradılması üçün İstifadə olunur, həmin dövlətin iqtisadi inkişafına xidmət edir.

Beynəlxalq kooperasiyanın əsas əlamətlərinə aşağıdakılar daxildir:

A)Tərəflərin əvvəlcədən birgə fəaliyyətin şərtlərini razılaş- dırması;

B)Əməkdaşlığın əsas metodu kİmi müxtəlif ölkələrdən olan tərafdaşlann müəyyən qarşılıqlı razılaşdırılmış sferada təsərrüfat fəaliyyətinin koordinasiyasımn çıxış etməsi;

C)Kooperasiyanın əsas obyekti kimi müxtəlif hazır məh-suUann, komponentlərin, texnologiyalann müqavilə əsasında təsdiqlənməsi;

Ç) Kooperasiya fəaliyyətinin əsas məqsədlərinə uyğun olaraq razılaşdırılmış proqram çərçivəsində işlərin tərəfdaşların istehsal ixtisaslaşması istiqamətlərinə müvafiq şəkildə bölüşdürülməsi;

D)Tərəfdaşların həyata keçirdiyi qarşılıqlı, yaxud birtərəfli əmtəə təchizatlarının reallaşdınlan proqram ilə birbaşa əlaqəli olması, yəni kooperasiya proqnozundan kənar tərəfdaşlar arasında həyata keçirilən alqı-satqı əməliyyatları kooperasiyanın inkişaf səviyyəsini xarakterizə etmir.

Beynəlxalq kooperasiya fəaliyyəti zamanı aşağıdakılar müəyyənləşdirilir:

1. Əməkdaşlığın obyekti (əməkdaşlığın həyata keçiriləcəyi sahə);

1. Əməkdaşlıq metodu (əməkdaşlığın təşkUati formalar və vasitələri);

3. Kooperasiya iştirakçıları tərəfindən qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün normativ apparat.

Beynəlxalq kooperasiya əlaqələri müxtəlif sferalarda əməkdaşlıq münasibətlərini əhatə edə bilər. Onlardan ən çox rast gəlinənləri aşağıdakılardır:

l .İstehsal-texnolojİ əməkdaşlıq:

a) layihə-konstruktor sənədlərinin, texnoloji proseslərin, kooperasiyalaşmış müəssisələrin modemizasiyası və s. bu kimi məsələlərin işlənib hazırlanması və razüaşdınlması;

b) istehsalm idarə edilməsinin, standartlaşdırma, unifikasiya, sertifikatlaşdırma, istehsal proqnozlarının bölüşdürülməsi məsələlərinin təkmilləşdirilməsi.

2. Məhsulun reallaşdın İması ilə bağlı ticarət-iqtisadi məsələlər.

3. Satışdan sonra servis xidmətinin göstərilməsi ilə bağlı məsələlər.

Beynəlxalq kooperasiya əlaqələrinin qurulması zamanı 3 əsas metoddan istifadə olunur:

1. Birgə proqramlann həyata keçirilməsi;
2. Müqavilə əsasında ixtisaslaşma;
3. Birgə müəssisələrin yaradılması.

Birgə proqramlann həyata keçirilməsi öz növbəsindəki istiqamətdə reallaşdırılır: a) podorat əsasında istehsal; b) birgə istehsal.

Podorat istehsalı kooperasiya iştirakçılannm sifarişçinin verdiyi müəyyən tapşınqlan yerinə yetirmələrini nəzərdə tutur. Tərəflər arasında podorat istehsalı əsasında kooperasiya münasibətləri qurularkən əməkdaşlığın həcmi, keyfiyyəti və s. göstərilir.

Müqavilə əsasında ixtisaslaşma beynəlxalq kooperasiyanın iştirakçıları arasında istehsal proqrammm bölüşdürülməsini nəzərdə tutur. Razılaşan iqtisadi subyektlər hər iki tərəfin həyata keçirdiyi eyni istehsal əməliyyatlarını, özləri arasında bazar rəqabətini minimumlaşdırmağa çalışırlar.

Birgə müəssisələr zamanı tərəflər qarşılıqlı razılaşdırılmış məqsədlərə çatmaq üçün öz kapitallarını birləşirirlər.

Beynəlxalq kooperasiya əlaqələrinə girmiş iqtisadi subyektlər Öz əmtəələri ilə aktiv şəkildə qarşılıqlı alqı-satqı əməliy- yatlan həyata keçirirlər. Lakin bununla belə onu beynəlxalq ticarətdən fərqləndirən bir neçə əlamət də

I. Beynəlxalq kooperasiya əlaqələri beynəlxalq ticarətdən fərqli olaraq stabil və uzunmüddətli xarakter daştyır.

II. Beynəlxalq kooperasiya zamanı, beynəlxalq ticarətdən fərqli olaraq, tərəfdaşların fəaliyyəti qarşılıqlı və asılı xarakter daşıyır.

III. Beynəlxalq kooperasiya zamanı beynəlxalq ticarətdən fərqli olaraq, tərəfdaşlar hərə öz məqsədinə nail olmaq üçün deyil, ümumi məqsədin əldə edilməsinə yönəldilmiş birgə fəaliyyət həyata keçirirlər. Yəni, onların fəaliyyəti bir ümumi məqsədə nail olunmasına xidmət edir. Bu məqsədlərə nail olmaq üçün müxtəlif İqtisadi modellərdən istifadə olunur.

İqtisadi model dedikdə, iqtisadi sistemdə cərəyan edən prosesləri keyfiyyət nöqteyi nəzərindən xarakterizə edən prosesləri keyfiyyət nöqteyi nəzərindən xarakterizə edə ümumiləşdirilmiş təsəvvürlər və həmin proseslərin keyfiyyət etibarı ilə fərqli məcralara yönəldilməsini təmin edən iqtisadi qaydaların, qanunların məcmusu başa düşülür. BƏB-in də bİr iqtisadi sistem kimi müxtəlif modelləri vardır. Buraya ixracyönlü idxalın əvəzlənməsi, horizontal, vertikal BƏB modelləri aid edilə bilər.

BƏB-in vertikal və horizontal modelləri yüzilliklərlə bundan əwəl baş vermiş hərbi-siyasi proseslərin (müstəmləkəçilik, imperialist müharibələri) nəticəsi olsa da hələ də dünya ölkələrinin əksəri bu modellər üzrə ixtisaslaşmaqda davam edirlər.

BƏB-in vertikal modeli zamanı İEOÖ əsasən tEÖ-ə «şimal-cənub» marşurutu «istiqaməli» üzrə xammal-resurslar ixrac edib, hazır məhsullar, maşın və avadanlıqlar idxal edirdilər.

BƏB-in horizontal modeli isə, «şimal-şimal» istiqamətində İEÖ-in bir- birinə, ya da «cənub-cənub» marşurutu üzrə İEOÖ-in bir-birinə hazır məhsullar ixrac və idxalını xarakterizə edir.

Horizontal model ona görə təşəkkül tapmışdır ki, İEÖ-in yüksək texnoloji səviyyəyə malik əmtəələri daxili bazarlarının həcmi kiçik, alıcılıq qabiliyyəti aşağı səviyyədə olan İEOÖ-dən istehlakçıları çox azdır. Odur ki, İKÖ öz hazır əmtəələrini

böyiUc tutuma, yüksək alıcılıq səviyyəsinə malik İEÖ-in bazarlarına ixrac edirlər. Digər tərəfdən də İEOÖ-in məhsullarının texnoloji səviyyəsi İEÖ-in əmtəaiərinkinə nisbətən xeyli aşağı olduğundan onların əmtəələri tEÖ-in bazarlarında yerli əmtəələrlə rəqabətə girə bilmirlər. Hər hansı İEOÖ-in son məhsulları yalnız onun özü kİnıi texnoloji cəhətdən geridə qalmış digər İEOÖ-in bazarlarında rəqabət qabiliyyətli ola bilər. Bu səbəbdən də İEOÖ öz hazır məhsullarını əsasən bir- birinə ixrac edirlər.

Bİ M-də milli maraqlar baxımından əlverişli şərtlər daxilində iştirak edə bilmək üçün demək olar ki, hər bir dövlətin iqtisadi inkişafın əsasən ilkin dövründə BƏB-in idxalın əvəzlənməsi modelini qəbul edir. İdxalın əvəzlənməsi modelinin tətbiqi zamanı ölkə ilk növbədə hansı sferalarda müqayisəli üstünlüklərə və hansı sahələrin BƏB-də iştirak üçün prioritet əhəmiyyətə malik olduğunu müəyyənləşdirir. Sonra həmin istiqamətlərdə proteksionizm siyasəti yeritməyə başlayır. İdxalın əvəzlənməsi modelinin əsas məqsədi qeyd edilən sahələrdə ölkənin idxal asılılığının ləğv edilməsi olduğu üçün o, milli təsərrüfatın divcrsifıkasiyasmı təmin edir.

İdxalın əvəzlənməsi modelinin ən əsas xarakteristikası ondan ibarətdir ki, bu modelin tətbiqi mütləq zaman və iqtisadiyyat sahələrinin sayı etibarı ilə məhdud xarakter daşımalıdır. Çünki, birincisi əvvəl də qeyd etdiyimiz kİmi idxalın əvəzlənməsi modeli yalnız ölkənin konkret müqayisəli üstünlüklərə malik olduğu sferalara şamil edilməlidir. İkincisi isə, idxalın əvəzlənməsi modelinin yalnız müəyyən müddət, yəni prioritet sahələrin dirçəldilməsi, gücləndirilməsi üçün lazım olan müddət ərzində istifadə olunmalıdır.

Əgər idxalın əvəzlənməsi modeli heç bir fərq qoyulmadan bütün sferalarda tətbiq edilərsə onda BƏB nöqteyi-nəzərindən iqtisadiyyatın qeyri-effektiv bölmələri əsassız yardım alacaqlar, ölkə başqa dövlətlərin malik olduğu müqayisəli üstünlüklərdən istifadə edə bilməyəcəkdir. Nəticədə hər hansı məhsul yüksək keyfiyyətlə, həm də ucuz qiymətə xaricdə idxal olunacağı halda, daha qiymətlərlə onun istehsalı ölkə

daxilində təşkİl olunur, yəni resurslar ölkonİn müqayisəli üstünlüklərə malik olmadığı sferalara yönəldilir. Məhsuldar qüvvələr qeyri-rasional istifadə olunur.

Belə olan halda mahiyyət etibarı ilə ölkənin ixtisaslaşma səviyyəsinin dərinləşdirilməsinə və BƏB-in İnkişafına xidmət etməli olan idxalı əvəzləmə modeli əslində ölkənin özü-özünü BƏB sistemindən təcrid etməsinə gətirib çıxanr.

Digər tərəfdən idxalın əvəzlənməsi modeli ona görə yalnız məhdud və uzun olmayan müddət ərzində tətbiq edilməlidir ki, bu modelin təmin etdiyi dinamik və effektiv inkişaf mərhələsi çox da böyük zamanı əhatə etmir.

İdxalın əvəzlənməsi modelini uzunmüddətli ümumi iqtisadi inkişafın ana xətti kimi qoyan ölkələr gec-tez ciddi böhranla qarşılaşırlar. Çünki proteksionizm və xarici firmalar tərəfindən rəqabətin olmaması ilə xarakterizə edilən milli iqtisadiyyatın «istixana» rejimində inkişaf edən təsərrüfat subyektləri heç də sağlam, konyuktur dəyişikliklərinə tez reaksiya verə bilən effektiv iqtisadi sistemin qurulmasına səbəb olmurlar. Proteksionizm tədbirləri ona gətirib çıxanr ki, milli istehsalçılar xarici istehsalçılarla müqayisədə qeyri- effektiv işlədiyi halda, bazarda rəqabət olmadığı üçün bazarda gəlir əldə edə bilirlər. Buna görə də onlar istehsala yeni məhsuldar metodlar, avadanlıqların tətbiqinə, təzə məhsulların buraxılışına çalışmırlar.

Bu cür iqtisadi subyektləri çevik idarəetmə sisteminin yaradılması məhsulun keyfiyyətinin yüksəldilməsi, istehsal xərclərinin aşağı salınması problemləri narahat etmir və maraqlandırmır. Lakin Ölkənin daxili bazarının həcmi əhalinin tədiyyə qabiliyyətli tələbindən asılı olaraq müəyyən hədlərə malikdir və yerli müəssisələr bu tələbi ödədikdən sonra İstehsalın rentabelliyi, artım templərini saxlamaq üçün xarici bazarlara çıxmağa məcbur olurlar. Ancaq yuxarıda göstərdiyimiz səbəblərdən onlar xarici müəssisələrlə rəqabətə girə bilmir, beləliklə beynəlxalq bazarlara çıxa bilmirlər. Ona görə də uzun müddət idxalın əvəzlənməsi modeli ilə inkişaf edən iqtisadiyyat müəyyən dövrdən sonra durğunluqla üzləşir.

Bu səbəbdən də İdxalın əvəzlənməsi modeli qısa müddəldən sonra öz yerini ixracyönlü BƏB modelinə verməlidir. Qeyd edilən model tətbiq olunarkən dövlət bütün (xüsusən də xarici) iqtisadi əməliyyatların maksimum liberallaşdınimasmı həyata keçirir, administrativ, iqtisadi, texniki, valyuta məhdudiyyətləri aradan qaldırır, ixracın fəal dəstəklənməsi siyasəti yürüdülür. İxracyönlü BƏB modelinin ən yüksək tərəfi ondan ibarətdir ki, bu model ölkənin həm öz üstünlüklərindən, həm də digər dövlətlərin malik olduğu müqayisəli üstünlüklərdən milli iqtisadiyyatın inkişafı üçün maksimum səmərəli istifadə edilməsinə imkan verir. İxracyönlü BƏB modelinin digər üstünlüyü isə odur ki, bu zaman ölkə iqtisadiyyatı birbaşa dünya ba- zannm tələbinin ödənilməsinə yönəldiyi üçün milli təsərrüfatın uzun müddətə yüksək dinamik inkişafı təmin olunur.

Respublikamıza gəlincə, fikrimizcə, onun müqayisəli üstünlüklərə malik olduğu sahələri dirçəltmək üçün yaxın perspektivdə həmin sahələrdə idxalın əvəzlənəmsi modelini tətbiq etməklə bərabər müvafiq sahələrin əmtəələrinin dünya bazarında reallaşdırılmasını təmin etmək məqsədilə ixracyönlü modelin ixracın stimullaşdırılmasma, xarici investisiyaların cəlb olunmasına şərait yaradan iqtisadi alətlərindən və rıçaq- lanndan da aktiv surətdə istifadə olunmalıdır. Yəni, ölkəmizin spesifik durumu, potensial imkanlan, dünya təsərrüfatında bu və ya digər sahənin əmtəələrinə olan konyuktur dəyişmələrinin istiqamətləri nəzərə alınmaqla Azərbaycanda qısa zaman üçün bu iki modelin simbioz forması tətbiq edilməlidir. Keçid dövrünü uğurla başa vurmaq üçün isə orta və uzun müddətli perspektivdə dominant BƏB modeli, əlbəttə ki, ixracyönlü model olmalıdır. İqtisadiyyatda struktur dəyişmələrinin dünya təcrübəsi onu göstərir ki, belə dəyişmələrin effektivliyinin ən əsas faktoru ixracyönlü iqtisadiyyat yaratmaqdan ibarətdir.

Azərbaycanın BƏB-də optimal iştirakı modelinin formalaşdırılası qarşısında bir çox problemlər durur. Say etibarı ilə onların ən çoxu struktur böhranı ilə bağlı iqtisadi problemlərdir, lakin mahiyyət etibarı üə onlardan ən əsası fikrimizcə, Ermənistanın Azərbaycana qarşı həyata keçirmiş olduğu elan edilməmiş işğalçı müharibə və bunun Azərbaycan

üçün hələ nə ilə nəticələnəcəyinin qeyri - müəyyənliyidir. Müharibə nəticəsində öz torpaqlarından qovulmuş bir milyondan çox qaçqın əhali ölkəmizi ixtisassız işçi qüvvəsi ixrac edən dövlət olmağa məcbur edərək onu BƏB-in vertikal modelinə sürükləyir. Eyni zamanda özünün 20 % demək olar ki, ən yaxşı torpaqlarını itirmiş ölkəmiz həmin ərazilərin yeraltı, yerüstü sərvətlərindən aqrar iqtisadiyyatın, turizmin, yeyinti, yüngül, tikinti sənayesi və s. bu kimi hazır hazır əmtəə istehsalı sahələrində malik olduğu külli potensialdan istifadə edə bilmir. Ən mühümü isə ölkəmizdə rəqabətqabiliyyətli hazır əmtəələrin İstehsalı məqsədilə mütləq xarici investisiyaların, beynəlxalq kooperasiya əlaqələrinin qurulmasının tələb olunduğu hamı üçün aydın olduğu halda, müharibə ilə əlaqədar yaranmış siyasi stabilliyin qeyri-müəyyənliyi investisiyaları nisbətən uzun Ödəmə müddəti olan son əmtəələrin istehsalı sahələrinə yönəltməyə imkan vermir. Məhz bu səbəbdəndir ki, xarici investorlar riskləri azaltmaq üçün investisiyaları yalnız qısa ödəmə müddətinə malik xammal hasilatı sahələrinə yönəldirlər. Belə vəziyyət respublikamızın vertikal BƏB modelinə cəlb olunmasını gücləndirən ən əsas faktordur. Odur ki, cəmiyyətimiz, iqtisadiyyatdan zahirən nə qədər uzaq görünsə də, onunla birbaşa əlaqəsi olan, Azərbaycanın BƏB- də iştirakını müsbət İstiqamətdə kökündən dəyişə biləcək bu siyasi problemin həllinə çalışmalıdır.

Çalışmaq lazımdır respublikada BƏB-in inkişafına təsir göstərən amillər sistem halında nəzərə alınsın ki, ondan iqtisadiyyatımız mümkün qədər çox faydalansın.

Qeyd elmək lazımdır ki, BƏB-in inkişafını xarakterizə edən bir çox amillər vardır. Sadə şəkildə həmin amilləri BƏB- in meydana çıxması və inkişafının səbəbləri kimi başa düşmək olar. Bu amillərin dərindən öyrənilməsinin olduqca böyük nəzəri-praktİki əhəmiyyəti vardır. Çünki həmin amillərin müxtəlif kombinasiyası, müxtəlif dövrlərdə onlardan hansının üstünlük təşkil etdiyinin təyin edilməsi ayn -ayrı ölkələrin müəyyən tarixi mərhələdə nə üçün məhz bu və ya digər BƏB modelini seçdiyini, nə üçün bu və ya digər sahələr üzrə BƏB-də ixtisaslaşdığını izah etməyə imkan verir.

Həm də inkişaf amillərinin hərtərəfli tədqiqi ölkənin BƏB- də prioritet məqsədlərinə çatması, BƏB sistemində səmərəli iştirak edə bilməsi üçün hansı amillərə əsaslanmalı olduğunu təyin etməyə imkan yaradır.

Eyni zamanda onu da qeyd etməliyik ki, BƏB-İn inkişaf amillərinin tədqiqi permonent surətdə həyata keçirilməlidir. Ona görə ki, kəskin rəqabətlə xarakterizə olunan, surətlə dəyişən, nisbətən qısa müddətlərdə əsaslı keyfiyyət sıçrayışları baş verən qlobal İqtisadi mühitdə hadisələrin axarından geri qalmamaq, zamanın tələbinə cavab verən real BƏB modeli qurmaq üçün onun inkişafına səbəb olan hər bir yeni amilin vaxtı-vaxtında identifikasiyası və bunun əsasında mövcud BƏB modelinə qısa müddət ərzində zəruri korreksiyaların edilməsi müasir dövrdə olduqca vacibdir.

BƏB-in inkişafının ən əsas amilləri sırasına aşağıdakıları aid etmək olar;

1.Təbii resursların ölkələr üzrə paylanmasmdakı fərqlər bu BƏB-in inkişafını təmin edən ən qədim faktorlardan biridir. Aydındır ki, ölkənin hər hansı bir resursla yüksək səviyyədə təminatlılığı, yaxud faydalı qazıntılarla aşağı səviyyədə təmin olunması onun BƏB-də iştirakım zəruri edir.

Əlbəttə, bu zaman 1 və II qrupa daxil olan ölkələr eyni istiqamətdə ixtisaslaşmırlar. Birincilər resurslan, yaxud onlardan hazırlanmış əmtəələri ixrac edir, ikincilər isə ya onları idxal edir, ya da onlar vasitəsilə son məhsul hazırlayaraq təkrar ixracı həyata keçirirlər. Əgər resurslann növ müxtəlifliyini də nəzərə alsaq, ölkələrin ixtisaslaşma istiqamətləri həddən artıq çoxalar. Odur ki, həmin fərqlərin BƏB-də əhəmiyyətli rolu danılmazdır.

Təəssüf ki, çox resurslarla yüksək səviyyədə təmin olunmuş ölkələr onunla aşağı səviyyədə təmin olunmuş ölkələrin iqtisadi-hərbi-siyasi təzyiqləri altında BƏB sahəsində mövcud nəzəri fikirlərə zidd olaraq nisbətən bol resursların intensiv istifadə edildiyi hazır əmtəələrin ixracı üzrə ixtisaslaşma əvəzinə yalnız həmin resursların xammal formasında ixracı üzrə ixtisaslaşırlar. Belə vəziyyətin indiyə qədər davam etməsi

BƏB sisteminin sağlam şəkildə inkişaf etdirilməsinə ciddi əngəllər törədir.

**2.** Torpaq-iqlim şəraiti. Əslində bu amil təbii resurslar sırasına daxildir. Çünki faydalı qazıntılar kimi onlar da insan əməyinin məhsulu deyildir. Odur ki, bu amilin də BƏB-in inkişafına təsir mexanizmi faydalı qazıntılarda olduğu kimi ayrı-ayrı ölkələr arasındakı təbii fərqlərə əsaslanır. Eyni zamanda faydalı qazıntıların hasilatı üzrə ixtisaslaşmış ölkələr kimi torpaq-iqlim amili əsasında İxtisaslaşmış ölkələrin də (yenə, əlbəttə ki, İEOÖ nəzərdə tutulur) əsas problemi BƏB-də özlərinin istehsal etdiyi kənd təsərrüfatı məhsullannın xammal şəklində ixracı vasitəsilə iştirak etmələridir. Məsələn, çay Hindistan, seylon Keniyada istehsal olunur. Lakin Böyük Britaniyada da emal edilir, kofe, kakao Braziliya, Kenya, Kolumbiyada, istehsal edilir, amma İsveçrə, Almaniyada emal olunur.

Ancaq qeyd edilən oxşarlıqlara baxmayaraq, torpaq-iqlim amilinə əsaslanan ixtisaslaşmanı digər təbii resurslar üzrə ixtisaslaşmadan fərqləndirən üç mühüm müsbət amil vardır ki, onlan mütləq ayırmaq lazımdır.

Birincisi, faydalı qazıntılar tükənən resurslardır, lakin torpaq bərpa olunan, iqlim şəraiti isə demək olar ki, tükənməyən resurslardır. Ona görə də bu sahədə ölkələr daha ciddi şəkildə və uzun müddətli ixtisaslaşmaya məruz qalırlar, məsələn, vaxtı ilə bütün Avropa ölkələrinin iqitsadiyyatı özlərinin ərazilərindən hasil edilən faydalı qazıntılarla əsaslandığı halda, indi həmin resurslar tükəndiyi üçün, demək olar ki, xammalın yalnız xaricdən idxalına əsaslanır. Amma Avropa Ölkələri hələ də kənd təsərrüfatı məhsullarının əsas ixracçısı kimi çıxış edir. O cümlədən, Amerika qitəsi kəşf olunandan bəri, Braziliya kofenin əsas ixracçısı kimi BƏB-də mövqeyini saxlamışdır.

İkincisi, faydalı qazıntı!ardar fərqli olaraq, bəzi hallarda, torpaq-iqlim şəraitində əsaslanaraq BƏB-də iştirak edən ölkələrin məhz hazır istehsalı və ixracı üzrə İxtisaslaşması zəruri olur. Buraya əlbəttə ki, ənənəvi turizm xidmətləri və onun yeni növü olan aqroturizm üzrə ixtisaslaşma aid edilir.

üçüncüsü, torpaq-iqlim amilinə əsaslanan ixtisaslaşmış ölkələr kənd təsərrüfatından intensivləşdirmə, ETT-in nailiyyətlərinin istehsala aktiv tətbiqi vasitəsilə xərcləri azaltmaq, əvvəlkinə nisbətən son məhsulu xeyli artırmaq imkanına malikdirlər, faydalı qazıntılann hasilatında isə resursların mövcud miqdarından artıq hasil etmək mümkün deyildir.

**3.**Ölkənin coğrafi mövqeyi. Coğrafi mövqe hazırda bu və ya digər ölkənin BƏB-də iştirak istiqamətlərini müəyyən edən ən vacib faktorlardan biridir. Əlverişli coğrafi mövqenin elemetnlərinə bunları aid etmək olar: iqtisadi güc mərkəzlərinə yaxınlıq, əsas istehlak bazarlarına yaxınlıq, beynəlxalq nəqliyyat marşurutlarına yaxınlıq, beynəlxalq ticarət axınlanmn əsas kanallarına yaxınlıq.

Coğrafi mövqe amilinin ən müsbət tərəfi və BƏB-in digər inkişaf amillərindən fərqi ondan ibarətdir ki, o, hər hansı ölkəyə nəzərən «xammal ixracçısı-hazır məhsul idxalçısı» problemini doğurmur. Coğrafi mövqenin yuxanda qeyd edilən elementləri ölkənin nisbətən az xərclərlə çox yüksək inkişafını təmin edən reixrac, tranzit, nəqliyyat xidmətləri, hazırda isə bir çox hallarda emaledici sənayenin məhsulları üzrə ixtisaslaşmasının əsas səbəbidir. Məhz coğrafi mövqeyin sayəsində müasir dövrdə BƏB-də mövqeləri dinamik şəkildə genişlənən və möhkəmlənən «boğaz ölkələri»- Misir, Panama, Sinqapur, Malayziya, BƏƏ, Cəbəllütarik, Türkiyə və s. təşəkkül tapmışlar. Yaxud, sürətlə inkişaf edən cənubi-şərqi Asiya bazarına yaxınlığı Tayland, İndoneziya kimi ölkələrin maşınqayırma sənayesinə küllü xarici investisiya qoyulmasının və onların BƏB-də artır bu sahə üzrə ixtisaslaşmalarının ən əsas faktorlarından biri kimi göstərmək olar.

Dövlətlərin coğrafi mövqeyindəki müxtəlifliyin BƏB-in inkiafina təsir edən amillərdən daha bir fərqi ondadır ki, ölkənin ixtisaslaşma istiqamətinin formalaşdırılmasında o, bir növ passiv, iqtisadi mühitdəki dəyişikliklərdən asılı rol oynayar, həmin dəyişiklikləri özü yaratmır. Məsələn, Yaponiyanın iqtisadiyyatı güclənib qlobal miqyaslar olmayana qədər Sinqapurun coğrafi mövqeyinin onun nəqliyyat xidmətləri

ixracçısı, tranzit ölkə kimi ixtisaslaşmasına heç bir təsiri olmamışdır. Yalnız yapon əmtəələri dünya Ölkələrinə geniş axın şəklini aldıqdan sonra onun tranzit mövqeyinə ehtiyac yarandı.

Məsələn, aydınlıq gətirmək üçün onu belə şərh edə bilərik:

I hal. Azərbaycan neft məhsulları ixracçısı kimi BƏB-də ixtisaslaşır.

II hal. Azərbaycan tranzit ölkə kimi BƏB-də ixtisaslaşır.

I halın reallaşması üçün 2 tərəfin-Azərbaycanın və məsələn, onun əmtəələrini idxal edən Avropanın iştirakı zəruridir. Həm də bu zaman Azərbaycanın məhsulları Avropa ba- zarlannda rəqabətqabiliyyətli olmalıdır. Bu isə məhz Azərbaycanın özündən, onun elmi-texniki siyasətindən asılı olan məsələdir.

II halın həyata keçirilməsi, yəni respublikamızın BƏB-də tranzit ölkə kimi ixtisaslaşması, onun coğrafi mövqeyinin başqa ölkələrə nəzərən bu sahədə verdiyi müqayisəli üstünlüklərin reallaşdırılması üçün 3 tərəfin, məsələn, Avropa-Azərbaycan-Orta Asiyanın iştirakı zəruridir. Bu halda məhz Asiya dövlətlərinin əmtəələri Avropa bazarında rəqabətqa-biiiyyətli olmalıdır ki, Azərbaycan tranzit ölkə kimi BƏB-də ixitsaslaşa bilsin. Göründüyü kimi Azərbaycanın tranzit ölkə kimi ixtisaslaşması onun özündən deyil, xarici amillərdən asılıdır. Coğrafi mövqeyin passiv rolu da bununla izah olunur.

**4.** Əmək resurslarının ölçülərindəki fərqlər, demoqrafik vəziyyət, potensial və ölkədə ixtisaslı kadrların olması-bu amillə ayrı-ayrı ölkələrin müxtəlif səviyyədə təmin olunması BƏB-də onlardan bəzilərinin əməktutumlu əmtəələrin istehsalı, işçi qüvəsinin İxracçısı, digərlərinin isə işçi qüvvəsinin idxalçısı kimi ixtisaslaşmasına səbəb olur.

İxtisaslı kadrlann olması BƏB-in inkişaf etdirilməsinin mühüm faktorlarından biri kimi ona görə qəbul olunmuşdur ki, hazırda hər hansı bir ölkənin müəyyən əmtəə istehsalı üzrə BƏB-də inhisarçı mövqeyi demək olar ki, yoxdur və ona görə də kəskin beynəlxalq rəqabət şəraitində məhz yüksək ixtisaslı insanlar öz bilikləri, şəxsi təşəbbüskarlıqları ilə ölkənin malik

olduğu müqayisəli üstünlükləri ən əlverişli şəkildə reallaşdırmaq qabiliyyətinə malikdir-iqtisadiyyat nə qədər obyektiv qanunauyğunluqlara əsaslansa da o, subyektlər tərəfindən idarə olunur. Odur ki, BƏB-də iştirakın ən səmərəli variantına nail olmaq üçün hər bir ölkə həmişə ixtisaslı subyektlərə ehtiyac duyur. Təsadüfi deyildir ki, sənayecə inkişaf etmiş ölkələr daim yalnız ixtisaslı kadrların siyasətini yürüdürlər. BƏB-də ölkənin potensial iştirakı imkanlarım, onun malik olduğu müqayisəli üstünlükləri reallaşdıran ixtisaslı kadrlar nəticə etibarilə BƏB-in inikşafını təmin edirlər.

Bu faktorun BƏB-in bütün digər inkişaf amillərindən ən əsas keyfiyyət fərqi ondan ibarətdir ki, siyasətçilər, dövlət orqanlarında çalışan iqtisadçılar və s. bu kimi ixtisaslı kadrlar yürütdükləri iqtisadi siyasətlə bir çox hallarda ölkənin BƏB-də əvvəllər ixitsaslaşmadığı sahələrdə müqayisəli üstünlüklər əldə etməsinə şərait yaradırlar. Buraya BƏƏ, Çin, Kipr və s. ölkələrdə AİZ-lərin yaradılması təcrübəsinin, «yapon möcü- zəsi»-ni və bu kimi bir çox misallan aid etmək olar.

Beləliklə, əmək resursları, ixtisaslı kadrlar amili BƏB-in həm üfüqi, həm də şaquli istiqamətlərdə dərinləşməsinin ən əsas səbəblərindən biridir.

**5.** Ölkələrin daxili bazarlarınm ölçülərindəki fərqlər, məhsuldar qüvvələrin inkişafı, əmək məhsuldarlığının artınl-ması, istehsalın ən yüksək səviyyədə effektivliyinin təmin edilməsi, istehsal xərclərinin azaldılması zərurəti-bunlar ümumiyyətlə daim bütün tarixi mənbələrdə BƏB-in inkişafının təkanverici qüvvələri olublar. Ona görə də qeyd edilən amillər BƏB-in inkişafının bariz faktorları kimi qəbul edilir.

Həmin faktorlann BƏB-in inkişafına təsir mexanizmi qısa olaraq aşağıdakı ardıcıllıq əsasında izah etmək olar:

Ölkədaxili əmək bölgüsü istehsalın həcmlərinin çoxalması, iqtisadiyyatda yeni sahələrin yaranması ilə nəticələnir, xammal, resurslara olan tələbi artırır, lakin hər bir ölkənin daxili bazarının ölçüləri və təbii faydalı qazıntıların ehtiyatları məhduddur. Bu səbəbdən də müəyyən dövrdən sonra ölkə daxilində hər hansı əmtəə növü üzrə istehsal tələbi üstələdiyi

zaman təsərrüfat subyektləri məhsuldar qüvvələrin ardıcıl inkişafını təmin etmək, staqnasiya vəziyyətinin qarşısını almaq, həm də resurslara olan tələbi Ödəmək üçün xarici bazarlara çıxmağa məcbur olurlar. Bütün ölkələrin istisnasız olaraq qeyd etdiyimiz zərurətlə üzləşməsi son nəticədə BƏB-in formalaşması və inkişafına səbəb olur.

6. Səmərəlilik amili və iqtisadi maraqlar. Qeyd etmək lazımdır ki, BƏB-in inkişafı prosesində əsas məsələ ondan ibarətdir ki, burada hər bir ölkə özü BƏB-də iştirakından İqtisadi maraqlarına uyğun mənfəət əldə edir. Yəni, ölkə müqayisəli üstünlüklərə malik olduğu əmtəələrin istehsalı və ixracı üzrə ixtisaslaşmaqla onları dünya bazannda daxilisatış qiymətlərindən daha yüksək qiymətə satır. Müqayisəli üstünlüklərə malik olmadığı əmtəələrin istehsalından imtina edərək ölkə həmin əmtəələri dünya bazanndan daxili qiymətlərə nisbətən daha ucuz qiymətlərə almaq imkanı qazanır. Bu səmərəlilik amili hər bir ölkəni müqayisəli üstünlüklərə malik olmadıqları əmtəələrin istehsalı və ixraa üzrə ixtisaslaşmaqla maraqlı edir. Beləliklə, BƏB-in inkişafı geniş vüsət alır.

7. Elmi-texniki tərəqqi-müasir dövrdə bu proses BƏB-in inkişafının ən vacib amili olmaqla bərabər həmin əlaqələrin genişlənməsində bir növ katalizator rolunu oynayır. ETT istehsalatda tətbiq olunan texnoloji prosesləri, əmtəə növlərinin sayım, onların keyfiyyət tərkibini üfüqi və şaquli istiqamətlərdə əsaslı surətdə dərinləşdirir. Ona görə də belə şəraitdə bir ölkə çərçivəsində bütün istehsal növlərinin optimal inkişaf səviyyəsinə nail olmaq mümkün deyildir. Bu isə onlann hər bir hissəsinin başqa ölkələrdə yerləşdirİlməsini zəruri edir. Yəni, ETT istehsal üsullanmn, əmtəə növlərinin sayım küllü miqdarda artıraraq ölkələrin müxtəlif istiqamətlərdə İxtisaslaşmaları üçün geniş imkanlar açır.

Bir şey də həqiqətdir ki, C.Vernonun «Əmtəənin həyat dövrü» nəzəriyyəsinə uyğun olaraq sürətli ETT prosesində İEÖ yalnız ən qabaqcıl texnoloji sahələri öz ərazilərində cəmləşdirərək nisbətən köhnəlmiş texnologiyaya əsaslanan

yollarla inkişaf etdirməyə çalışan İEOÖ də buna həvəslə razı olurlar. Sonradan tEOÖ həmin məhsulları İEÖ-ə ixrac etməyə başlayırlar. Beləliklə, ETT nəticəsində İEOÖ onlar üçün əvvəllər xarakterik olmayan istiqamətlər üzrə BƏB-də ixtisaslaşırlar. Son illər getdikcə daha qabarıq şəkildə nəzərə çarpan ekoloj cəhətdən təhlükəli sahələrin III dünya ölkələrində yer- ləşdirilməsini söylənənlərə bariz nümunə kimi göstərmək otar.

Yuxanda sadalanan faktorlara nəzərə salsaq aydın olar ki, BƏB-in inkişafı həm təbii (resurs, coğrafi mövqe, demoqrafik və s.), həm də qazanılmış (işçi qüvvəsinin ixtisas səviyyəsi, məhsuldar qüvvələrin inkişaf səviyyəsi, ETT və s.) amillərdən asılıdır. BƏB öz inkişafının ilk dövrlərində təbii amillərə və ölkənin bu amillərlə ləminatlılıq səviyyəsindəki fərqlərə əsaslanmışdır. Ona görə də əvvəllər hər hansı Ölkənin BƏB-də iştirak istiqaməti kor -təbii şəkildə formalaşırdı.

Məsələn, uzun müddət beynəlxalq dəniz ticarətində müqayisəli üstünlüklərə malik İtaliya, Amerika və Hindistana dəniz yollarmm kəsiyi ilə beynəlxalq ticarətdəki bütün üstünlüklərini İtirdi. O üstünlüklər İspaniya, Portuqaliya və B. Britaniyaya keçdi. Çünki həmin kəşflərdən əvvəl beynəlxalq ticarət əsasən Avropa ölkələri arasında baş verirdi. Bu zaman İtaliyanın coğrafi mövqeyi çox əlverişli olduğundan o, müqayisəli üstünlüklərə malik idi. Lakin kəşflərdən sonra beynəlxalq ticarətin istiqamətləri kəskin dəyişdi. Yeni istiqamətlərdən beynəlxalq ticarət üçün İtaliyanın coğrafi möqveyi səmərəli deyildir. Burada qeyd edildiyi kimi İspaniya, Portuqaliya və Böyük Britaniyanın mövqeləri daha əlverişli idi. Bu səbəbdən həmin ölkələr ani olaraq nəqliyyat sahəsində müqayisəli üstünlüklər qazandılar. Eyni halı təbii resurs yataqlarının kəşf edildiyi ölkələrə də aid etmək olar.

Son zamanlar qazanılmış faktorlar ölkənin BƏB-də mövqeyini müəyyən edən ən vacib iqilsadi alətlərə çevrildiyindən və təbii resurslar, iqlim, coğrafi mövqe kimi «insan- lardan asılı olmayan» amillərinin rolunun azaldığından artıq belə bir tezisi tam inamla irəli sürmək olar ki, «ölkənin BƏB- də effektiv şəkildə iştirak edə bilməz birinci növbədə özündən

asıhdır». Hazırkı şəraitdə yəni, qlobal səviyyədə kapital və informasiya axınlarının sürətinin həddən artıq yüksəldiyi dövrdə bu və ya digər ölkə həyata keçirdiyi iqtisadi siyasətlə nəinki BƏB-də ixtisaslaşma istiqamətlərini, eyni zamanda BƏB-də iştirak modellərini də müəyyən edə bilər. Başqa sözlə əgər dövlət perspektiv sahələrə investisiya cəlb etmək, elmi tədqiqatların stimullaşdırmaq və onları istehsala tez bir zamanda tətbiqini həyata keçirmək, yüksək ixtisaslı kadrlar hazırlamaq və mövcud kadrların hazırlıq səviyyəsini artırmaq və s. bu kimi sonradan qazanıla bilən amillərin inkişaf etdirilməsi üzrə uğurlu iqtisadi siyasət həyata keçirirsə, o, belə siyasət həyata keçirməyən, yaxud uğursuz həyata keçirən dövlətlərə nisbətən müvafiq sahələrdə müqayisəli üstünlüklər əldə edəcəkdir. Dövlətin müəyyən sferada müqayisəli üstünlüklər yaratmağa istiqamətlənmiş effektiv iqtisadi siyasəti tez bir zamanda bütün dünya təsərrüfatında əks - səda qazanır. Ona görə də belə vəziyyət ölkənin BƏB-dən bu və ya digər istiqamətdə iştirakını uzun müddətli tarixi proseslərin müəyyən etməsinin qarşısını alır, onların özlərinin həmin istiqamətləri təyin etmələrinə və qısa, yaxud ortamüddətli perspektivlərdə müvafiq sahələrdə tələb olunan üstünlükləri yaratmaqlarına imkan verir.

Bütün yuxarıda qeyd edilənlərin fonunda XX əsrin əvvəlində olduğu kimi XXI kimi əsrin əvvəllərində də Azərbaycanın BƏB-də xammal ixracçısı qismində çıxış etməsi ən azı acı təəssüf hissi doğurur. Fikirimizcə, yaranmış bu tarixi imkandan respublikamız BƏB-də mövqeyini yaxşılaşdırmaq üçün davamlı, sistemli, özünü doğrultmuş beynəlxalq təcrübələrə əsaslanan iqtisadi siyasət yürütməklə hər tərəfli istifadə etməlidir.

Müasir dövrdə elmdə BƏB-in inkişafını xarakterizə etmək üçün bir sıra göstəricilər tətbiq olunur. Bu göstəricilər BƏB-in inkişafının müxtəlif səviyyələrdən və ayrı-ayrı aspektlərdən öyrənməyə imkan verir. Məhz onların vasitəsilə BƏB sistemində meydana çıxmış problemləri vaxtı- vaxtında aşkar etmək və yaxud iqtisadi tərəqqinin perspektiv istiqamətlərini

samanında ləyin etmək və milli təsərrüfatın inkişafını müvafiq məcraya yönəltmək mümkün olur.

Göstəriciləri sadalamamışdan əvvəl tez-tez istifadə olunacaq simvolların qısa şərhini yazmaq mümkün olardı. Həmin simvollar aşağıdakılardır:

1 - keçən il
2 - cari il
ə - əmtəə s
- sahə
d - dünya
ö - ölkə e -
ixrac i -
idxal p-
istehsal əh
- əhali
ÜDM - Ümumi daxili məhsul

Dünya təsərrüfatı miqyasında BƏB-in inkişafını xarakterizə edən göstəricilər bunlardır:

**1)** Dünya ixracının ümumdünya milli məhsulunda xüsusi =
***d e X*** 100%
***d.*** UDM

Bu göstərici vahidə nə qədər yaxın olarsa, BƏB-in bir o qədər dərinləşdiyini göstərir.

**2)** Dünya ixracının artım tempi = ***d.e.2*** -bu göstərici 1-dən böyük ***d.e.J*** olarsa BƏB-İn də rinləşdiyini göstərir,

**3)** Dünya ixracının artım tempinin ümumdünya milli məhsulunun artım tempinə nisbəti = ***d.e.2 düonı*** 1 -bu göstərici vahiddən ***d.e.I d.üoml*** böyükdürsə, deməli, BƏB daha da dərinləşmişdir.

**4)** Adambaşına düşən dünya ixracının artım tempi ***d.e. 2*** **.** ***d.dh*** 1 -bu göstərici vahiddən çox olması məhsuldar ***d.əh.2 d.e l*** qüvvələrin beynəlmiləşmə səviyyəsinin artmasını və BƏB-in dərinləşməsini göstərir.

**5) Sahə məhsullarının dünya ixracının ümumdünya ixracında xüsusi çəkisi =** <u>*S.de*</u> **.100 % - bu göstərici BƏB -in dünya təsərrüfatının hansı** *ä.e* **sahəsi üzrə inkişaf etdiyini xarakterizə edir.**

**6) Sahənin məhsullarının dünya ixracının artım tempi** <u>*S.de.2*</u> **- bu göstərici BƏB-in perspektiv inkişaf** *S.de.* **istiqamətlərini, onların gələcək səviyyəsini təyin etməyə imkan verir.**

**7) Sahə məhsullarının dünya ixracının artım tempinin ümumdünya İxracının artım tempinə nisbəti=** <u>*S.de.2*</u> **.** <u>*de.* **-**</u> **bu göstərici hansı sahələr** *S.d.eA de.2* **üzrə bdən böyükdürsə BƏB-in həmin istiqamətlərdə dərinləşdiyini göstərir.**

**8) Sahənin məhsullannm dünya ixracının sahənin məhsullarının dünya istehsalında xüsusi çəkisi =** <u>*S.de*</u> **. 100%- bu göstərici hər hansı** *S.d.p*

**Sahə üzrə 100 %-ə nə qədər yaxın olarsa, həmin sahədə təsərrüfat əlaqələrinin bir o qədər ^ynəlmüəşdiyi göstərir.**

**9) Sahənin məhsullannm dünya ixracının artım tempinin sahənin dünya istehsalının artım tempinə nisbəti =** <u>*S.de.2*</u> **.** <u>*S.d.p. l*</u>*-bu* **göstərici**
*S.de.l S.dp.l*

**Dünya təsərrüfatının həmin üzrə ixtisaslaşmasının daha da dərinləşdiyini göstərir.**

**Əgər dünya təsərrüfatında məhz hansı əmtəələr üzrə ixtisa- laşmanm üstünlük təşkil etdiyini öyrənmək lazım gələrsə, V,VI,VII,VIII,IX göstəricilərdə «Sahə» sözünü sadəcə olaraq əmtəə sözü ilə əvəz edərək düsturlara müvafiq rəqəmlərin qoyulması kifayətdir.**

**Ölkənin BƏB-ə cəlb olunma səviyyəsi, onun BƏB-də hansı sahələr, əmtəələr üzrə ixtisaslaşmasını xarakterizə edən göstəricilərə aşağıdakılar daxildir:**

1. **Ölkənin ixrac kvotası və onun artım tempi:**

**a)** <u>**Qe**</u> **. 100%; bl**<u>**Ög. 2**</u> **.** <u>*Öüdm*</u> **-l-dən böyük olarsa ölkənin** *Öüdm* *Öüdm 2 Öe.* **l**

**BƏB-ə cəlb olunmasının dərinlişdiyini göstərir.**

**UO**

2. Ölkə ixracında sahənin xüsusi çəkisi və onun artım tempi:

a) $\frac{S.ö.e}{Ö.e.} \cdot 100\ \%$; b) $\frac{S.ö.e.2}{Ö.e.2} \cdot \frac{Ö.\ e.\ 1}{S.ö.e.\ \backslash}$ -bu göstərici hansı sahə üzrə 1-dən böyük olarsa o sahə üzrə ölkənin BƏB-də iştirakının dərinləşməsini göstərir.

3. Ölkə ixracının dünya ixracında xüsusi çəkisi və onun artım tempi;

a) $\frac{Ö.e}{d.e} \cdot 100\ \%$; b) $\frac{Ö.e.2}{d.e.2} \cdot \frac{d.e.\ 1}{Ö.e.\backslash}$ -bu göstəricinin vahiddən böyük olması ölkənin BƏB-ə cəlb olunma səviyyəsinin ümumən artdığını təsdiq edir.

4. Hər hansı sahənin məhsullarının ölkə üzrə ixracının dünya üzrə müvafiq sahənin məhsullarının ixracında xüsusi çəkisi və onun artım tempi;

a) $\frac{S.ö.e}{S.d.e} \cdot 100\%$ b) $\frac{S.ö.e.2}{S.d.e.2} \cdot \frac{S.d.e.\ 1}{S.ö.e.\ \backslash}$ -bu göstəricinin 1-dən çox olması ölkənin həmin sahə üzrə beynəlxalq ixtisaslaşma səviyyəsinin artdığını göstərir.

5. Sahə məhsullarının ölkə üzrə ixracında xüsusi çəkisinin dünya ixracında xüsusi çəkisinə nisbəti:

5. $\frac{ö.e}{Ö.e} \cdot \frac{d.e.}{S.d.e}$ -bu göstəricinin 1-dən böyük olması ölkənin həmin sahə üzrə BƏB-də iştirakının dərinləşdiyini göstərir.

6. Ölkədə adambaşına düşən ixrac və onun artım tempi: Hər hansı sahənin məhsullannın ölkə üzrə ixracının dünya üzrə müvafiq sahənin məhsullarının ixracında xüsusi çəkisi və onun artım tempi:

a) $\frac{ö.e}{ö.ah}$ : b) $\frac{ö'.e.2}{ö.\ ah.2} \cdot \frac{ö.sh.\ 1}{ö.e.l}$ - bu göstəricinin vahiddən çox ö.ə/j. olması ölkənin məhsuldar qüvvələrinin beynəlmiləşmə səviyyəsinin və onun BƏB-ə cəlb olunmasının artdığını göstərir.

7. Ölkədə adambaşına düşən ixracın dünya üzrə adambaşına düşən ixraca nisbəti;

$\frac{ö.e}{ö.\ əh} \cdot \frac{d.əh}{d.\ e}$ -bu göstəricinin l-dən böyük olması ölkənin

məhsuldar qüvvələrinin beynəlmiiəşmə və onun BƏB-ə cəlb olunma səviyyəsinin daha da artdığını göstərir.

8. Ölkədə hər han.sı sahənin məhsullarının ixracının üzrə müvafiq sahənin ümumi istehsalında xüsusi çəkisi və onun artım tempi:

a) ***S.ö.e.*** . 100%; bl ***S.ö.e. 2*** . ***S.ö.n.*** 1 -bu göstəricinin ***S.ö.p.***
***S.ö.p. 2*** 5.ö.e. I

vahiddən çox olması ölkənin həmin sahə üzrə BƏB-də ixtisaslaşmasının dərinləşdiyini göstərir.

9. Ölkədə hər hansı sahənin məhsullannm ixracının həmin sahənin ümumİ İstehsalında xüsusi çəkisinin müvafiq sahə üzrə dünya ixracının sahənin dünya istehsalında xüsusi çəkisinə nisbəti:

***S.ö.e.*** . ***S.ä.n.*** -bu göstəricinin l-dən böyük olması ölkənin
***S.ö.p. S.d.e.***

BƏB-də həmin sahə üzrə ixtisaslaşma səviyyəsinin daha da dərinləşdiyini xarakterizə edir.

Ölkənin məhz hansı məhsulların ixracı üzrə iztisaslaşdığını və həmin əmtəələr üzrə onun BƏB-də iştirak səviyyəsinin nə dərəcədə inkişaf etdiyini təhlil etmək üçün, əvvəl göstərildiyi kimi, yenə də sadəcə olaraq II,1V,V,VII,IX göstəricilərdə «Sahə» sözünü «Əmtəə» sözü ilə əvəz etmək və düsturlara müvafiq rəqəmləri qoymaq kifayətdir.

Qeyd etdiyimiz göstəricilər vasitəsilə ayrı-ayrı ölkələrin, sahələrin BƏB-də iştirakını ətraflı təhlİl etmək və qiymətləndirmək olar.

8.2. Dünya ölkələrinin BƏB sistemində inkişafının mövcud vəziyyəti ölkə yarım sistemləri üzrə nəzərdən keçirək. Bu yarım sistemlərin biri İEÖ-dir. !EÖ sırasına hazırda 50-dən çox dünya dövlətləri daxildir. Dünya əhalisinin 20 %-dən bir qədər çoxu İEÖ-də yaşadığı halda dünya ÜMM-un 80 %-i, sənaye məhsullarının isə 80 %-dən çoxu bu ölkələrdə istehsal olunur. Buradan aydın olur ki, İEÖ dünya iqtisadiyyatında və BƏB sistemində digər ölkə qruplarına nəzərən dominant mövqe tuturlar.

İEÖ-in müasir təsərrüfat quruluşunu BƏB-də iştirak modeli baxımından ixracyönlü açıq-liberal iqtisadiyyat kimi xarakterizə etmək mümkündür. Bunun ən bariz nümunəsi ondan ibarətdir ki, dünya ixracının 75 %-ə qədəri İEÖ-in payına düşür. İEÖ-də sahibkar kapitalının hərəkətinin geniş- liyi, onların kənardan işçi qüvvəsi və digər istehsal amilləri qəbul etmələri, dünya təsərrüfatında kapitalın həm iri ixracları, həm də iri idxalçılan kimi çıxış etmələri bu ölkələrin BƏB-də iştirakının ən xarakterik xüsusiyyətləridir. Ümumiyyətlə, ölkələrin BƏB-də iştirakım xarakterizə etmək üçün istifadə olunan resursların nisbətindən asılı olaraq ictimai istehsal sahələrinin təsnifləşdirilməsi həyata keçirilir. Bu və ya digər ölkədə ictimai istehsalın sahəvi quruluşu milli təsərrüfatın ixtisaslaşma istiqaməti və səviyyəsini xarakterizə edir. Bu nöqteyi nəzərdən İEÖ-İn ixtisaslaşma tipini sadələşdirilmiş sxematik şəkildə aşağıdakı kimi göstərmək olar:

Sxem l.
İEÖ

K
Ə

burada, E-eImtutumlu sahələr,
K -kapitaltutumlu sahələr,
Ə-əməktutumlu sahələr,
R-resurstutumlu sahələrdir.

İEÖ üçün elmtutumlu sahələr üzrə ixtisaslaşma xarakterikdir. Beynəlxalq praktikada qəbul edilmiş terminlə desək, elmtutumlu sahələr (high tecnology industries) elm və texnikanın son nailiyyətləri əsasmda məhsul buraxan ən qabaqcıl sahələrdir. Bu sahələr digərlərindən elmi tədqiqatlara böyük miqdarda xərclərin çəkilməsi, elmi cəhətdən qabaqcıl istehsal aparatının, əsaslı kadr potensialının olması ilə fərqlənir. İƏIT- in metologiyasına görə ETTKİ-nə çəkilən

**yəsinin 4 yo-dən çox olduğu sahələr eimtutumlu hesab edilə bitər. ABŞ'in Əmək bürosu eimtutumlu sahələrə o sektorları aid edirik ki, orada ETTICİ-nə çəkilən xərclərin ümumi satışda payı 3,1 % dən, elmi araşdırmalarla məşğul olan tədqiqat- çılann sayı isə sahədə çalışan ümumi sayının 6,3 %-dən çox olsun. ABŞ-m milli təsərrüfatının cəmi 977 sahə və alt sahələrindən 92-si qeyd edilən metodologiya üzrə eimtutumlu sahələrə aid edilir. Burada həmçinin daha yüksək eimtutumlu sahələri də ayrıca fərqləndirirlər. Onlar da yuxanda adı çəkilən 2 göstəricisinin səviyyəsi eimtutumlu sahələr üzrə həmin göstəricilərin orta qiymətlərindən minimum 2 dəfə çoxdur. Belə yüksək texnologiyalı sahələrə tibbi preparatlar, EHM-ları və avadanlıqlan, radioelektron kompüterlər, laboratoriya avadanlıqları istehsalı, aviasiya və kosmik sənaye daxildir. Onu da qeyd etmək lazımdır ki, eimtutumlu ixtisaslaşma əksər İEÖ üçün xarakterik olsa da onların heç də hamısı BƏB -də yüksək eimtutumlu sahələr üzrə ixtisaslaşmada iştirak edə bilmirlər. BƏB-də yüksək texnologiyalı sahələr üzrə lider İEÖ sırasına yalnız ABŞ, Yaponiya, Fransa, Böyük Britaniya və Almaniyam aid etmək olar.**

**Beləliklə, İEÖ-in BƏB-də mövqeləri onların sərəncamında yüksək elmi, investisiya və informasiya -industrial komplekslərinin olması və həmin komplekslərin BtM-in qlobal infrastrukturunun əksər hissəsini nəzarət altında saxlaması ilə xarakterizə olunur.**

**BƏB-də emaledici sənayenin məhsullarının İstehsalı və ixracı ilə iştirak edən lEÖ-in iqtisadiyyatı üçün iri kapital qoyuluşları və yüksək ixtisaslı işçilərin mövcudluğu tİpik haldır. Müqayisəli üstünlüklərdən yeni elementlərindən biri olan ölkələr arasından əmək haqqının səviyyəsində olan fərqlər (daha doğrusu İEÖ-də əmək haqqının nisbətən yüksək olması) lEÖ-i həm ixtisassız, həm də yüksək ixtisaslı İşçilərin emiqrasiya mərkəzinə çevirmiş, onların BƏB-də işçi qüvvəsinin idxalçısı kimi çıxış etməsinə səbəb olmuşdur. İEÖ isə öz növbəsində bu tendesiya nəticəsində yerli işçilərə nisbətən emiqrantlarm daha ucuz əməyindən istifadə etmək, digər tərəfdən isə yüksək ixtisaslı kadrların hazırlanmasına**

çəkilən külii miqdarda xərclərə (məsələn, hesablamalara görə ABŞ -da 1 yüksək ixtisaslı həkimin yetişdirilməsi 1 milyon dollara başa gəlir) qənaet etmək imkam qazandıqlarına görə işçi qüvvəsinin idxalçısı roluna həvəslə razı olmuşlar. Onu da nəzərə alsaq ki, işçi qüvvəsi də istehsalın bir amilidir, o zaman İEÖ-in BƏB-də bu istiqamətdə iştirakının onlann «resurs idxal-hazır əmtəə ixracı» siyasətinə tam uyğun gəldiyini görərik.

Müasir dövrdə İEÖ-in BƏB-də hazır məhsulların istehsalı üzrə ixtisaslaşmalanmn tarixi səbəbi də vardır. Həmin səbəbi izah etmək üçün İEÖ-in yerləşdiyi ərazilərə baxmaq kifayətdir. Nə qədər prodoksal görünsə də bütün İEÖ (XV-XVII əsrlərdə kəşf olunmuş ABŞ, Kanada, CAR, Avstraliyadan başqa) tarixən digər ölkələrə nisbətən resurslanmn çox az olduğu ərazilərdə yerləşmişlər. Ona görə də İEÖ-in faydalı qazıntılan başqa ölkələrinkindən xeyli tez tükənmişdir. Bu səbəbdən onlar emal sənayelərini inkişaf etdirməyə bir növ məcbur olmuşlar. Dediklərimizi hazırkı dövrdə də bir çox misallarla təsdiqləmək olar. Məsələn, keçən əsrin 70-ci illərində Şimal dənizinin Niderlanda məhsus sektorunda küllü miqdarda qaz yataqlarının kəşfi onun qaz ixracçısına çevrilməsinə, ölkənin deindustrializasiyasına səbəb oldu və «Holland sindromum terminini əmələ gətirdi. Yaxud, BƏƏ, Oman kimi iri neft ixracçıları olan ölkələr yalnız indii-onlann təbii resurs ehtiyatlannm tükənməsinə az qalmış emal sənayesinin inkişaf etdirilməsi üçün ciddi səy göstərirlər.

BƏB-də hazır məhsul istehsalı üzrə ixtisaslaşmış ən iri İEÖ, əlbəttə ki, G-7 qrupuna daxil olan dövlətlərdir. G-7 qrupu və ya «Böyük Yeddiliyin» payına hazır məhsulun dünya ixracının 48yo-i düşür. Onlardan əlavə hazır əmtəə istehsalı üzrə BƏB-də ixtisaslaşmış qabaqcıl İEÖ-a Belçika və Lüksemburq (dünya əmtəə ixracının 3,5%-i), İspaniya (2%), İsveç (1,5%), İsveçrə (1,4%), İrlandiya (1,2%), Avstriya (1,1%), Avstraliya (1%) aiddir. Maraqlı burasıdır ki, İEÖ BƏB-də hazır əmtəənin əsas idxalçısı kimi də çıxış edirlər. Burada da lider mövqe «Böyük Yeddiliyə» məxsusdur-dünya

dən hazır məhsul idxalı üzrə öncül mövqe tutanlara misal olaraq, Belçika və Lüksemburq (dünya əmtəə istehsalının 3%-i), İspaniya (2,7%), (1,5%), İsveçrə (1,4%), Avstriya, İsveç, Avstraliyanın (hər bİri 1,2 "/o) adlarını çəkmək mümükündür.

İEÖ-in BƏB-də əsas iştirak istiqamətlərindən biri də xidmətlərin istehsalı və ixracıdır. Burada beynəlxalq və tranzit nəqliyyatın bütün növləri, turizm, bank və sığorta xidmətləri, reklam, incəsənət əsərlərinin satışı, təhsil, səhiyyə xidmətləri, EHM-lannin proqram təminatı, ticarət vasitəçilik xidmətləri və s. aiddir.

lEÖ-in dünya xidmətləri mübadiləsində payı 80“/ı-dir. İnternet vasitəsilə göstərilən xidmətləri də nəzərə alsaq onların payı 85 %-i keçir.

BƏB-də xidmətlərin ixracı üzrə ixtisaslaşmış iri dövlətlərdən başqa, digər apancı İEÖ sırasına İspaniya (dünya xidmətlər ixracının 4%-i), Hollandiya (4%), Belçika-Lüksemburq (3%), Avstriya (2,5%), İsveçrə (2%), İsveç və Avstraliyanı (1,5%) aid etmək olar. İEÖ eyni zamanda BƏB- də xidmətlərin əsas idxalçısı kimi də çıxış edirlər. «Böyük Ycddilik» ölkələrinin dünya xidmətlər idxalına xüsusi çəkisi də 50%-dir. BƏB-də İEÖ-dən iri xidmət idxalçıları qismində həmçinin Niderland (dünya xidmətlər idxalımn 3,5% -i), Belçika- Lüksemburq (2,5%), İspaniya (2,3%), Avstriya (2,2%), İrlandiya (1,8%), İsveç (1,7%), Avstraliya (1,3%) göstərmək olar.

İEÖ-in BƏB-də eyni zamanda hazır əmtəə və xidmətlərin həm əsas ixracçısı, həm də əsas idxalçısı olmaları, əvvəlki bölmələrdə aydınlaşdırıldığı kimi, horizontal BƏB modeli ilə əlaqədardır.

Müasir dövrdə İEÖ-in hazır əmtəə istehsalı üzrə BƏB-də ixtisaslaşma səviyyələri 2 mühüm istiqamətdə dərinləşdirilir. Onlardan birincisi, artıq qeyd etdiyimiz kimi, eimtutumlu yüksək texnoloji məhsulların, ikincisi isə ekoloji cəhətdən təmiz məhsulların istehsalıdır.

Eləcə də son zamanlar İEÖ-in bəzi ənənəvi xidmətlərinin (nəqliyyat və s.) ixracının azalması fonunda bu sahədə də onların BƏB-də yeni ixtisaslaşma meylləri müşahidə olun-

maqdadır. Hazırda İEÖ BƏB-də istehsalın avtomatlaşdırılması ilə əlaqədar idarəedici EHM-ə servis xidmətləri, konsul-tativ-injiniринq, maliyyə, sığorta, uzaq məsafələrə rabitə xidmətləri üzrə ixtisaslaşmaya meyl edirlər.

Sonda ən iri İEÖ-in BƏB-də ixtisaslaşma istiqamətlərini göstərmək, fikrimizcə faydalı olardı:

ABŞ-sənayedə əsas ixtisaslaşma sahələri avtomobilqayır-ma, aerokosmos, telekommunikasiya, kimya, elektronika, elektrotexnikadır. Elmi-texniki sahələrdən ABŞ təyyarə və kosmik apparatlar, kompüterlər və onların proqram təminatı, yarımkeçiricilər istehsalı, rabitə vasitələri, biotexnologiya sahəsində dünya lideridir. İEÖ-in maşınqayırma sənayesi məhsullarının 40yo-i, EHM-i üçün istehsal olunan proqram təminatının 70%-i, dünya üzrə ETTKİ-nə çəkilən xərclərin 40%-İ ABŞ-ın payına düşür. ABŞ həmçinin qabaqcıl kənd təsərrüfatı məhsulları istehsal edən Ölkədir. Dünya üzrə ixrac olunan buğdanın 35%-i, qarğıdalı və paxlalıların 69%-i, pambığm 25%-i, düyünün 18%-i, tütünün 12%-i ABŞ-da istehsal olunur. Eyni zamanda dünyada ixrac olunan maşın və avadanlıqlann 20%-İ, yanacaq xammalının da 20 %-ni ABŞ idxal edir.

Kanada -təbii resurs ixrac edən çox nadir İEÖ-dən biridir. Ümumilikdə BƏB-də iştirakının əsas istiqamətləri bunlardır; maşın və avadanlıqlar, avtomobilqayırma, taxta-şalban məhsulları, sellüloz-kağız sənayesi, neft, qaz, kömür, əlvan metallurgiya, turizm, taxıl, balıqçılıq məhsulları.

Yaponiya - BƏB-də mühüm ixtisaslaşma istiqamətləri aşağıdakılardır: dəqiq cihazqayırma, elektronika sənayesi, yanm-keçiricilər istehsalı, avtomobilqayırma, dəzgahqayırma, soyuducular və s. məişət cihazları, optika, audiovideo apparatlar, metallurgiya, kimya, balıqçılıq məhsulları, nəqliyyat xidmətləri. Dünya televizor istehsalının 60%-i, polad istehsalının 14,3%-i, süni lifin !2,3%-i Yaponiyanın payına düşür. Balıq tutulmasına görə dünyada 1-ci, ticarət donanmasının yükgö- türmə həcminə görə 2-cidir. Yaponiya mineral xammalına ən İri idxalçılanndandır. Dünya üzrə dəmir filizinin cəmi idxa-

İının 30%-i, daş kömür, pambıq və yunun 19%-i Yaponiya tərəfindən həyata keçirilir.

Almaniya - BƏB-də iştirakının ən vacib tərəflərinə aşağıdakılar daxildir: avtomobilqayırma, nəqliyyat maşınqayırma, ümumi maşmayırma, elektrotexnika, kimya, əczaçüıq, dəqiq mexanika və optika, qara metallurgiya, donuzçuluq, ət-süd istehsalı, maliyyə-bank xidmətləri daxildir.

Böyük Britaniya - BƏB-də bu İstiqamətlər üzrə ixtisaslaşmışdır: avtomolqayırma, gəmiqayırma, aerokosmik sənaye (dünyada III yerdədir), toxucuq-tikiş avadanlıqları, kənd təsərrüfatı texnikası, dəzgahqayırma, telekommunikasiya vasitələri, elektrotexnika, tibb avadanlıqları, məişət texnikası istehsalı, metallurgiya, kimya sənayesi, maliyyə xidmətləri daxildir.

Fransa -BƏB-də əsas ixtisaslaşma sahələrinə aşağıdakılar aid edilə bilər: aviasiya (dünyada II yerdədir), aerokosmik sənaye, elektrotexnika, rabitə avadanlıqlan, kimya əczaçılıq, kosmetika, avtomobilqayırma, gəmiqayırma, maliyyə xidmətləri, turizm, taxıl məhsulları daxildir.

İtaliyanın BƏB-də iştirakında aşağıdakı sahələr vacib rol oynayır: mebel, işıqlandırma avadanlıqlan, turizm, gön-dəri məmulatları, keramika, zərgərlik məmulatlan, maşınqayırma, toxuculuq-tikiş avadanlıqlan (dünyada III yerdədir), kənd təsərrüfatı maşınları, nəqliyyat, inşaat avadanlığı, elektrotexnika (40%-i ixrac edilir), əczaçılıq (dünyada V yerdədir), metallurgiya əsas yer tutur.

Avstraliya və Yeni Zenlandiyanm BƏB-də təmsil olunduqları əsas sferalara bunlar daxildir; süd, ət, yun, ekoloji məhsullar istehsalı, metallurgiya, maşınqayırma, gəmiqayırma, təyyarəqayırma, kimya sənayesi, toxuculuq, seilüloz-kağız sənayesi, telekommunikasiya avadanlığı, tikinti, turizm, xidmət, taxıl qarğıdalı və s. kənd təsərrüfatı məhsulları.

Son dövrlər İEÖ-in BƏB-də mövqeyinin nəzərə çarpacaq dəyişikliklərdən biri də onların idxalında xammalın payının getdikcə azalmasıdır. Bu tendensiya 3 əsas səbəblərlə izah edilə bilər:

1. Kimya sənayesinin nailiyyətləri ilə əlaqədar sintetik materiallar istehsalının genişlənməsi və artıq bir çox təbii meteriallann öz yerini sintetik əvəzedidlərə verməsi;

2. İEÖ-in məhsul vahidinin tərkibində xammalın payının minimumlaşdınimasına istiqamətlənmiş resursqonıyucu texnologiyalardan istifadəyə keçid;

3. Qeyri-maddi istehsal sahələrinin dünya ticarətində payının sürətlə artması.

İEÖ-in idxalmda ərzaq məhsuüanmn payının azalması ilə bu ölkələrdə kənd təsərrüfatının onları ərzaqla tamamilə təchiz edə biləcək səviyyədə inkişaf etməsi ilə şərtlənmişdir. Hazırda bir çox İEÖ-in özləri iri kənd təsərrüfatı məhsullan ixracçı kimi BƏB-də ixtisaslaşmışlar. İndi onların ərzaq idxalında əsas yeri torpaq-iqlim şəraiti ilə əlaqədar İEÖ-də yetişdirilməsi mümkün olmayan tropik və subtropik bitkilər tutur.

Dünya təsərrüfatı əlaqələrinin müasir inkişaf mərhələsində İEOÖ xüsusi yer tutur. lEOÖ sırasına hazırda təqribən 130 ölkə daxildir. Burada dünya əhalisinin 75%-i yaşayır. Dünya ÜMM-nun 20%i, sənaye istehsalının isə 15%-i, həmçinin birbaşa xarici investisiyalar idxalının xeyli hissəsi İEOÖ-in payına düşür. İEÖ-də hər nəfərə düşən ÜDM orta hesabla 19000 ABŞ dollan olduğu halda bu ölkələrdə cəmi 1314 ABŞ dollarıdır. Lakin İEOÖ qrupuna daxil olan ölkələr öz inkişaf səviyyəsinə görə bir-birindən xeyli fərqlənirlər. Qeyd edək ki, XX əsrin 70-ci illərindən etibarən onlann inkişafındakı əsas tendensiya bu differensiyasiyanın dərinləşməsindən ibarətdir. Məsələn, 1990-cı ildə ən qabaqcıl İEOÖ 935 ölkə) «orta- bablan» (54 ölkə) öz inkişaf səviyyəsinə görə 2,4 dəfə «zəifləri» isə 5,4 dəfə qabaqlayırdısa, 1992 -ci İldə bu fərq müvafiq olaraq 2,9 və 12,2 dəfəyə qədər yüksəlmişdir.

Hazırda İEOÖ BİM-ə aktiv surətdə cəlb olunmuşdur. Və bu münasibətlərdə onların rolunu aydınlaşdırmaq üçün ilk növbədə İEOÖ-in BƏB-də tutduqları mövqeyini təhlil etmək lazımdır. İEOÖ-in ixtisaslaşma tipini sadələşdirilmiş sxematik

Sxem 2.2
İEOÖ

**R**

K
E

İEOÖ-in beynəlxalq əmək bölgüsünün strukturunun və coğrafi istiqamətlərinin əsası hələ müstəmləkə dövlətlərində qoyulmuşdur. Əksər İEOÖ-də müstəmləkə dövründən bəzi birtərəfli təsərrüfatçılıq sistemi formalaşmışdır, yəni onların milli iqtisadiyyatları BƏB-də yalnız 1-2 məhsulun istehsalı və ixracı ilə iştirak edir ki, bunlar da əsasən xammal və kənd təsərrüfatı məhsullarıdır. Hazırda da əvvəlki metropoliyalardan iqtisadi və siyasi asılılıq, təsərrüfatın birtipli strukturu İEOÖ-in BƏB-də öz mövqelərini inkişaf etdirmələrinə ciddi şəkildə mane olur.

Ümumilikdə İEOÖ-in BƏB-də mövqeyini müəyyənləşdirən xarici iqtisadi əlaqələrin əsas istiqamətləri bunlardır;

- xammal ixracı, hazır məhsul idxalı;
- xarici kapital idxalı;
- xarici texnologiya idxalı;
- xarici köməklik.

İEOÖ-in ixracında əsas yeri, qeyd etdiyimiz kimi xammal tutur. İEOÖ BƏB-də həm ilkin (təbii resurs-yanacaq-enerji resursları, mineral faydalı qazıntılar-qara və əlvan metal filizlər, kənd təsərrüfatı xammah-əsasən də tropik və subtropik bitkilər), həm də nisbətən emal edilmiş xammalın (kauçuk, faner, sement, ağac emalı məhsulları) ixracı üzrə ixtisaslaşıblar.

Bütün İEOÖ-də iqtisadiyyatın inkişaf səviyyəsi çox aşağı olduğundan həmin resurslara daxili tələb azdır. Nəticədə bu ölkələrdə təbii resursların izafiliyi əmələ gəlir. Eyni zamanda onlarda müvafiq istehsal güclərini yaratmaq üçün tələb edilən kapital resursları da çox az olduğundan İEOÖ nisbətən bol təmin olunduqlan resursların intensiv istifadə olunduğu əmtəələrin istehsalı və ixracı üzrə də ixtisaslaşa bilmirlər. İEÖ

isə İEOÖ-in emal sənayesinə kapital qoyuluşunda bir o qədər də maraqlı deyildir. Çünki onlara öz emal sənayelərini inkişaf etdirə bilmək üçün İEOÖ-in təbii resursları lazımdır. Belə vəziyyət İEOÖ-İn BƏB-in vertikal modelinə ciddi şəkildə cəlb edilməsinə səbəb olmuşdur. Təsadüfü deyildir ki, İEOÖ-in ixracının əsasən müxtəlif növ xammaldan ibarət olan 56 %-i İEOÖ-in bazarlannda reallaşır.

Bunları nəzərə alaraq qeyd etmək olar ki, son dövrlərdə İEOÖ-in BƏB-də iştirakında bəzi kəskin problemlər yaranmışdır. Onlardan birincisi İEÖ-in resursqoruyucusu, enerjiqo- ruyucusu, texnologiyalara, sintetik materialların geniş istifadəsinə keçmələri ilə əlaqədar onların idxalında təbii resursların xüsusi çəkisinin getdikcə azalması problemidir. Qeyd edilən tendensiya artıq stabil xarakter almışdır. İkinci problem də birincinin davamı kimi qiymətləndirilə bilər, yəni dünya üzrə xammala tələbatın azalması ilə əlaqədar onu ( İEOÖ-in ixracının əsas maddəsi) qiymətinin aşağı düşməsi, bu fonda emal sənayesinin əmtəələrinin (İEOÖ-in idxalının əsas maddəsi) qiymətinin qalxması İEOÖ-in qeyri-ekvivalent mübadiləsi məcburiyyətində qoyur: onlar əvvəlkinə nisbətən daha çox xammal satmalıdılar ki, əvvəlki miqdarda maşın və avadanlıqlar ala bilsinlər. Dünya bazarında İEOÖ -in bu problemi artıq öz əksini tapmışdır. Məsələn, kofe və kakao kimi əmtəələrin qiymətləri II Dünya müharibəsindən bəri ən aşağı səviyyədədir və yaxın ələcəkdə onların artacağı gözlənilmir. Belə məhsullara tələb qeyri-elastikdir yəni o, qiymətin düşməsinə mütənasib olaraq artmır. Asiya, Afrika və Lalın Amerikası ölkələrinin miss, kobalt, almaz, uran, qalay, kauçuk və s. mineral xammal bazarları da depresiya vəziyyətindədir.

İEOÖ-in BƏB-də iştirakının əsas xüsusiyyətlərindən biri də onların ucuz əmək resurslannın ixracçısı kimi ixtisaslaşmalarıdır. İEOÖ-in iqtisadi inkişafının xarakterik cizgisi ondan ibarətdir ki, bu ölkələrdə əhalinin artım tempi bir çox hallarda iqtisadi artım templərinə üstün gəlir. Digər tərəfdən ümumiyyətlə dünya əhali artımında 80 %-i oniann payına düşür. Əlbəttə, belə vəziyyət İEOÖ-də işçi kütlələrinin vəziy

yətinin daha da pisləşməsi ilə nəticələnir, izafi əmək resursları yaradır. Ona görə də İEOÖ dünyanın iqtisadi mərkəzləri üçün əmək resurslarının vacib mənbələrinə çevrilmişlər.

Bu ölkələrin işçiləri, bir qayda olaraq, aşağı ixtisaslı, yaxud hər hansı ixtisas tələb bilməyən işlərdə istifadə olunurlar. XX əsrin II yarısından etibarən Qərb dövlətləri eyni zamanda İEOÖ-dən yüksək ixtisaslı mütəxəssislərin də cəlb edilməsi üzrə fəal siyasət yeridirlər. İEOÖ-in yüksək ixtisas dərəcəli işçilərinin başqa bir əsas hissəsi isə yerlərdə lEÖ-in TMK-lanna, yəni İEÖ -in « II milli iqtisadiyyatına» xidmət edir. Son illər işçi qüvvəsinin ixracından əldə edilən valyuta ödəmələrinin ən yüksək artım tempi də məhz İEOÖ-də müşahidə olunmaqdadır-illik 10%. Bu ən çox Pakistanda özünü göstərir. Pakistan üçün işçilərin xaricdən valyuta köçürmələri onun əmtəə və xidmətləri ixracını 5 dəfə qabaqlayır. Misirdə həmin göstərici 40%, Mərakeşdə SO'Vb, Türkiyədə 60%, Hindistanda 80%-dir. Əmək ehtiyyatlanmn çoxluğu ilə əlaqədar İEOÖ-in BƏB-də digər mühüm ixtisaslaşma istiqaməti əməktutumlu əmtəələrin ixracıdır. Belə məhsullara toxuculuq-trikotaj, yun, ipək, gön-dəri, pambıq məhsullan, saat və s. bu kimi əmtəələr aiddir. BƏB-də əməktutumlu əmtəələrin əsas ixracçıları Cənubi və Cənubi-Şərqi Asiyanın, Şimali Afrikanın, İEOÖ-in, xüsusən də Hindistan, Pakistan, Misir, İran, Çin və digərləridir.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, demoqrafik faktor son onilliklər ərzində lEOÖ-in BƏB-də iştirak xüsusiyyətlərini diqtə edən əsas faktordur.

İEOÖ-in BƏB-də digər mühüm ixtisaslaşma istiqamətlərindən biri də beyralxalq turizm xidmətlərinin ixracıdır. Bu sahədə ayn-ayn İEOÖ müxtəlif səviyyədə ixtisaslaşırlar. Məsələn, turizm Hindistan, Misir, Peru, Par aq vay, Kosta- Rika kimi ölkələr də cəmi ixracdan gələn gəlirin 10-15 %-ni, Kolumbiyada 20 %-ni, Yamaykada 30 %-ni təşkil edir. Bəzi İEOÖ-in BƏB-də iştirakında isə turizm apancı yer tutur. Belə ki, turizm cəmi ixracdan gələn gəlirin Panamada 55%-ni, Nepal və Butanda 65%-ni,Haitidə 70%

**Lakin bütün qeyd edilən problemlərə, yəni vertikal BƏB modelinə ciddi surətdə cəlbolunma, təsərrüfatın ekstensiv tipi, müqayisəli üstünlüklərdən tam istifadə imkanlannm olmaması və s. baxmayaraq XX əsrdə BİM-in inkişafında ən əlamətdar hadisələrdən biri İEOÖ-in BƏB sistemində rolunun keçən əsrin 60-cı illərindən etibarən xeyli artması olmuşdur.**

**Müasir dövrdə lEOÖ dünya təsərrüfatının ən vacib subyektlərindən birinə çevrilmişdir.**

**Hazırda tEOÖ-in inkişafında, sözsüz ki, BƏB sistemində «lEO və İEOÖ» arasında qarşılıqlı münasibətlərin xarakterini dəyişən mütərəqqi meyllər üstünlük təşkil edir. İEOÖ-in artıq bir çoxu dəzgahlar, gəmilər, elektronika cihazlan, turbinlər istehsal edir və həmçinin avtomobil yığılması, digər mürəkkəb maşınların, avadanlıqların da İstehsalı prosesini mənimsəmişlər. Hindistan, Misir, Çin, Oman, Uruqvay, Çexiya və s. İEOÖ əsasən ixrac üçün məhsul istehsal edirlər. Xarici Ölkələrə maşın, avadanlıq, elektronika və digər qabaqcıl sahələrin əmtəələrini satmaqla beynəlxalq bazarda Yaponiya, ABŞ, Qərbi Avropa kimi rəqibləri bütöv əmtəə qrupları üzrə sıxışdırırlar. İEOÖ-in BƏB-də mövqeyinin ümumən yaxşılaşdığı aşağıdakı cədvəldən aydın görmək olar:**

**Cədvəl 5**

**İEOÖ-in BƏB-də [illegible]**

| Göstəricilər | 1988-1990 | 1998-2006 |
|---|---|---|
| İqtisadiyyatın açıqlığı | 29 | 43,5 |
| tniliyasiyamn orta tempi | 12,6 | 6,1 |
| Büdcə kəsiri/ÜDM | 2,7 | 1,8 |
| Birbaşa investisiyalar/ÜDM | 0,5 | 2,7 |
| Xarici borc/ İxrac | 172,6 | 142,2 |
| Savadsızlıq səviyyəsi | 31 | 26 |

**Eyni zamanda BƏB-ə getdikcə aktiv cəlb olunmanın nəticəsidir ki, artıq əksər İEOÖ-də natural təsərrüfatın xüsusi çəkisi əhəmiyyətli dərəcədə azalmışdır. 1960-1999-cu**

ərzində Latm Amerikasında natural təsərrüfatın xüsusi çəkisi 7%-dən 3%-ə, Asiyada 40 %-dən 15%-ə, Afrikada 33% -dən 20%-ə enmişdir.

İEOÖ-in müasir dövrdə BƏB-də mövqelərinin möhkəmlənməsinin ən əsas səbəblərindən biri onlarda təkrar istehsal prosesinin tamlıq, bütövlük səviyyəsinin artması və tədricən onun milli iqtisadi bazaya keçirilməsi istiqamətində yürüdülən siyasətdir. İEOÖ-ə hazırda bu siyasəti həyata keçinnəyə bəzi amillər imkan verir. Məsələn, yaxın keçmişə qədər İEOÖ-in təbii resursları demək olar ki. Qərb ölkələrinə məxsus idi. Ona görə də onlar xammalı hasil etmələrinə baxmayaraq həmin resurslardan son məhsul istehsalı prosesində seyriçi funksiyasım yerinə yetirirlər. İndi isə onların öz milli sərvətləri üzərində nəzarəti artmışdır. Belə vəziyyət İEOÖ-in ilk növbədə malik olduqları təbii resurslardan istifadə etməklə, öz milli iqtisadi maraqlarına daha çox uyğun gələn iqtisadi siyasət yeritmələrinə şərait yaratmışdır. Nəticədə burada təkrar istehsal prosesinə xidmət göstərmək məqsədilə bir sıra dövlət milli iqtisadi institutları yaradıldı. Həmin institutlar İEOÖ-in BƏB sisteminə effektiv şəkildə cəlb edilməsi məqsədilə xarici kapital axınlarının miqdarı və istiqamətlərini müəyyən dərəcədə tənzimləməyə, tənəzzülə uğramış yerli avtonom istehsal anklavlannı beynəlxalq sahələrarası əlaqələr sisteminə qoşmağa imkan verdi.

Son illər ərzində BƏB sisteınində səmərəli iştirak edə bilmək üçün İEOÖ təkrar istehsalın, bank, kadrlann hazırlığı, təhsil sistemi və s. istehsal infrastrukturlarının müəyyən dərəcədə inkişaf etdirilməsinə nail ola bildilər. Nəticədə onlar investisiya qoyuluşlarının hazırda artan əhəmiyyətli sferasına çevrilirlər. Bu ölkələrdə onların yerli təbii və əmək resurs- lanndan istifadə edən istehsal sahələri yerləşdirilir. Müasir dövrdə onların dünya sənaye istehsalında rolunun getdikcə artması müşahidə olumaqdadır. Bütün problemlərə baxmayaraq, İEOÖ-in dünya ixracında xüsusi çəkisi durmadan çoxalır, onun tərkibi də yaxşılaşır. Belə ki, keçən əsrin 90-cİ illərinin sonunda İEOÖ-in ixracında hazır məhsulların payı 57,7%-ə çatmışdır. Ümumdünya ixracında bu ölkələrin payı

hazırda 25%-dən bir qədər aşağıdır. Müsbət haldır ki, onlann dünya sənaye məhsullarının ixracında da payı artmaqdadır. Əgər 1970-ci ildə İEOÖ-in dünya sənayesi məhsullan İxracında xüsusi çəkisi 7,6%, 1980-cı ildə 11%, 1991-ci ildə 19,5% idisə, XX əsrin sonunda bu rəqəm 25%-i keçmişdir. İEOÖ-in sənaye məhsulları ixracında əsas yeri maşın və avadanlıqlar tıtur. Son illərdə ən əhəmiyyətli 14 növ maşın və avadanlıqlardan 10-nu dünya üzrə ixracında İEOÖ-in payı artmışdır.

Dünya idxalında İEOÖ-in payı 30%-ə yaxındır. İEOÖ BƏB-də əsasən maşın və avadanlıqlar (ümumi idxalın 34%-i) və emal sənayesinin digər məhsullarının (37%) ixtisası üzrə ixtisaslaşıblar. Tropik Afrika və Cənubi Asiya ölkələrinin idxalında ərzaq məhsullarının da xüsusi çəkisi böyükdür (müvafiq olaraq 16% və 10%). Bunlardan əlavə Cənubi Asiya, Latın Amerikası və Karib dənizi hövzəsinin İEOÖ-in İdxalında yanacaq-cnerji resursları da böyük xüsusi çəkiyə malikdir (cəmi idxalın 15%-i).

Bununla belə, yuxarıda sadalanan müsbət məqamlara və tendensiyalara baxmayaraq İEOÖ-in BƏB-də səmərəli iştirak edə bilməsi qarşısında hələ də bir sıra ciddi problemlər durmaqdadır. Onlardan birincisi, İEOÖ-in BƏB-də iştirak modeli ilə bağlıdır. İEOÖ-in BƏB-də iştirakının əsas istiqamətləri idxalı əvəzləmə modeli vasitəsilə reallaşdırılır. Ancaq problem bilavasitə idxalı əvəzləmə modeli ilə deyil, onun istisnasız olaraq bütün iqtisadi sferalara tətbiq edilməsi ilə bağlıdır. İdxalı əvəzləmə siyasətindən irəli gələn proteksionizm meylləri xüsusilə Cənubi Asiya, Latın Amerikasının İEOÖ-ində Ö2üinü daha da qabarıq şəkildə biruzə verir.

Hindistan, Pakistan və s. buk imi ölkələrdə idxal olunan əmtəələrə qoyulan gömrük rüsumlarının səviyyəsi bir çox hallarda 1Cİ0%-İ keçir. Qeyd etdiyimiz kimi, proteksionizm siyasəti ilk etaplarda ucuz xarici əmtəələr tərəfindən yaradılan rəqabəti aradan götürür və yerli istehsalçılar tədricən inkişaf etməyə başlayırlar. Amma uzun müddət tətbiq edilən belə siyasətin əks tərəfi də vardır; xarici rəqibləri olmayan yerli istehsalçıların istehsal xərclərini azaltmağa və öz əmtəələrinin

keyfiyyətini yüksəltməyə heç bir stimulları qalmır. Nəticədə onlann əmtəələri xarici bazarlarda rəqabətqabüiyyətli olmurlar. Bundan əlavə bütün iqtisadi sferalarda yeridilən idxa- lıəvəzləmə siyasəti nəticəsində İEOÖ BƏB-də digər ölkələrin malik olduqlan müqayisəli üstünlüklərdən istifadə etmək imkanlanndan məhrumdurlar. Digər tərəfdən İEOÖ-in ümumilikdə iqtisadi inkişaf səviyyəsi aşağı olduğundan idxalı əvəz edən sahələrin daxili bazarları da məhdud, kiçik həcmə malikdir. Məsələn, əhalisinin sayı 6 milyondan az olan 30-a yaxın zəif inkişaf etmiş ölkə mövcuddur ki, burada dövlət əhalini işlə təmin edə bilmir. Ona görə də həmin ölkələrdə daxili bazar çox kiçikdir və xarici faktorlara əsaslanmadan çox məhduddur. Bunu da söyləmək lazımdır ki, İEÖ və İEOÖ-in idxahəvəzləmə siyasətinə cavab olaraq müxtəlif tarif və qeyri-tarif maneələri tətbiq etməyə başlayırlar. Belə vəziyyət İEOÖ-in BƏB-də onsuz qeyri-qənaətbəxş olan vəziyyətini daha da pisləşdirir. Məsələn, Asiya, Latın Amerikası və Afrikanın maşınqayırma, yüngül, xüsusilə tekstil və ayaqqabı sənayesinin məhsulları beynəlxalq bazarda kifayət qədər rəqabətqabiliyyəüidirlər. Lakin, İEOÖ-in idxahəvəzləmə modelinin total tətbiqinə cavab olaraq İEÖ də proteksionizm siyasəti yetirməklə həmin məhsulların dünya bazannda, yəni bu ölkələrin BƏB-də malik olduqlan müqayisəli üstünlüklərin realizasiyasmı məhdudlaşdırırlar. Bütün istiqamətlərdə İdxa-lıəvəzləmə modelinin uzunmüddətli tətbiqinin Ölkənin BƏB-də effektiv iştirakının qarşısım alan mənfi cəhətlərindən biri də budur ki, o, intensiv təsərrüfatçılıq tipinin ən vacib şərti olan beynəlxalq rəqabətin ləğvinə səbəb olmaqla İEOÖ-in milli iqtisadiyyatlanmn ekstensiv inkişafını şərtləndirir, Təsadüfi deyildir ki, İEÖ-ə nəzərən həb də tEOÖ-də kənd təsərrüfatının ÜDM-da payı, kənd təsərrüfatında çahşanlann ümumi məşğul əhalinin sayında xüsusi çəkisi çox yüksəkdir. Hərtərəfli proteksionizm siyasətinin və dövlət nəzarətinin arzuolunmaz nəticələrindən biri də İEOÖ-də dövlətin İqtisadi proseslərə müdaxilə səviyyəsinin getdikcə yüksəlməsi ilə bağlıdır. Bu meylin

**dövbt bölməsinin xüsusi çəkisi 7%-dən 12%-ə qalxmışdır. Hazırda Əlcəzair və Misirin sənaye məhsulunun 80%-i, kənd təsərrüfatı məhsulunun 60%-i, Anqola və Efiopiyada bir çox zəruri məhsulların 50-100%-i dövlət bölməsində istehsal edilir. Digər tEOÖ-də də ÜDM-da dövlət bölməsinin payı kifayət qədər çoxdur. Məsələn, Boliviyada bu rəqəm 40%, Pakistan və Kanadada 25,5%, Hindistanda 12%-ə bərabərdir. Kəskin rəqabətə əsaslanan BƏB sisteminə lEOÖ-in hərtərəfli qoşulması məqsədinin tezliklə reallaşdırılması baxımından onlann milli jqtisadiyyatmm xeyli hissəsinin bir inhisarçı təsərrüfat subyek- tinin əlində olması, əlbəttə müsbət hal kimi qiymətləndirilə bilməz.**

**İEOÖ-in BƏB-də effektiv iştirakına mane olan həmin problemlərin aradan qaldırılması üçün onlar BƏB-in ixrac-yönlü modelinə keçməlidir. Lakin bu zəruri olan tədbirlər «şlk kriteriyası» vasitəsilə deyil, ən azı iki mərhələdə həyata keçirilməlidir. I etapda proteksionizm siyasəti əsaslı şəkildə yumşaldılmalı, ixracm stimullaşdıniması məqsədilə müxtəlif formada tətbiq edilməlidir. II mərhələ ixracyönlü iqtisadiyyatın infrastukturu, qanunvericilik bazasının formalaşdırılması tamamlanması və proteksionizm siyasəti tamamilə aradan qaldınimahdır. Yaddan çıxarmaq lazım deyildir ki. Latın Amerikasmm YSÖ-ləri də total idxahəvəzləma modelini uzun müddət tətbiq etmələri nəticəsində XX əsrin 80-cı illərinin əvvəllərinə qədər sürmüş ağır böhranla üzləşdilər.**

**II mərhələdə həlli olduqca vacib olan problem İEOÖ-in elmi-texniki geriliyi və lEOÖ-lə lEÖ arasında bu fərqin getdikcə artmasıdır. Texnoloji proqress İEOÖ-in təsərrüfatının inkişafı üçün xeyli əlavə imkanlar yaratdı. Lakin problem ondan ibarətdir ki, o, eyni zamanda «periferik» və ümum- dünya məhsuldar qüvvələrinin inkişaf səviyyələri arasındakı fərqi daha da dərinləşdirməklə İEOÖ-in qabaqcıl sahələri üzrə BƏB-də iştirakı imkanlarını xeyli daraltmışdır. Bu problemin meydana çıxmasımn əsas səbəblərindən birİ də İEÖ-in lEOÖ-i özlərinin köhnəlmiş texnologiyalannm ömrünün uzaldılması üçün poligon kimİ**

mənəvi cəhətdən aşınmış əmtəə və xidmətlər deyil, həm də mənəvi cəhətdən aşınmış texnologiyalar ixrac edirlər. Bu onların strateji maraqlarına uyğundur. Çünki, birincisi, qeyd edildiyi kimi, İEÖ Özlərinin əmtəələrinin, texnologiyalarının həyat dövrünü uzadırlar. İkincisi, müasir texnologiyaları mənimsəyən İEOÖ sonradan beynəlxalq bazarda İEÖ-ə rəqib ola bilərlər. Odur ki, problemi həll etmək və beləliklə BƏB-də öz iştirak istiqamətlərini genişləndirmək üçün İEOÖdn demək olar ki, yalnız bir yolu qalır-öz daxillərindən elmi-texniki proseslərin inkişafını və onların istehsala tez bir zamanda tətbiqini stimullaşdırmaq.

BƏB-də xammal və kənd təsərrüfatı əmtəələrinin əhəmiyyətinin, BİM-də isə onların payının azalması fonunda bu əmtəələrin istehsalı və ixracı üzrə ixtisaslaşma iqtisadiyyatın dünya təsərrüfatı miqyasında səmərəli, stabil İnkişafı üçün öz təkanverici funksiyasını artıq itirmişdir. Xammal ixracı üzrə ixtisaslaşma iqtisadiyyatın inkişafı üçün artıq yalnız köməkçi rolunu oynaya bilər. Ona görə də İEOÖ BƏB-də əlverişli mövqelərə nail olmaq məqsədilə ilk növbədə tezliklə ixracın diversifikasiyanın və ixrac olunan əmtəələrin emal dərəcələrinin artırılması üzərində öz səylərini cəmləşdirirlər.

XX əsrin 60-80-cı illərin İEOÖ-in strukturunda qlobal dəyişikliklərlə xarakterizə olunur. Bu dövrdə onların tərkibindən bir qrup ölkə ayrılaraq bir qrup-Yeni Sənaye Ölkələrini əmələ gətirdilər. Beləliklə, BƏB sisteminin müasir inkişaf mərhələsinin ən əhəmiyyətli cizgilərindən biri də YSÖ-nin meydana gəlməsi oldu.

Hazırda YSÖ-nə 15-ə qədər dövlət daxildir. Onlardan:

YSÖ-nin I dalğasına daxil olan ölkələr: Cənubi Koreya, Tayvand, Sinlapur, Konkonq, Braziliya, Argentina, Meksika.

YSÖ-nin II dalğasına daxil olan ölkələr: Malayziya, Tailand, Çili,

YSÖ-nin III dalğasına daxİl olan ölkələr: Kipr, Tunis, Türkiyə, İndoneziya.

YSÖ-nin beynəlxalq iqtisadi münasibətlərinin inkişafı tarixinə nəzər salsaq onların qısa müddət ərzində BƏB-də ixti-

saslaşma istiqamətlərində əsaslı keyfiyyət dəyişikliklərinə nail olduqlarını görərik. Bu prosesin inkişafı ardıcıllıqla aşağıdakı kimi olmuşdur:

1950-cİ illərdə BƏB-də parça, şüşə;

1960-cı illərdə semenl, mineral gübrə, neft emalı, polad-tökmə, sintetik parça istehsab;

1970-ci illərdə gəmiqayırma, uzunmüddətli istehlak şeyləri;

1980-cı İllərdə elektrotexnika, telekommunikasiya, İnformatika vasitələri;

**I990-2000-Cİ illərdə isə daha yeni materiallar, elektron, aerokosmik sənayenin müxtəlif sahələri üzrə ixtisaslaşmışlar.**

Tayvanın 1952-1993-cü illər ərzində əhalisi 2,5 dəfə artdığı halda ÜDM 170 dəfə, xarici ticarət dövriyyəsi 534,6 dəfə çoxalmışdır, ÜDM-un orta itlik artım tempi 8,7 % olmuşdur. Eyni dövrdə ÜDM-un orta illik artım tempi Cənubi Koreyada 8 %, Sinqapurda 8 %, Malayziyada 9 %-dən çox olmuşdur. XX əsrin 60 -90-cı illəri ərzində YSÖ-nin əhalisinin orta illik gəliri 4 dəfə artmışdır. Ekspertlərin rəyinə görə təkcə Cənubi- Şərqi Asiyanın YSÖ ÜDM-un həcminə görə 2010-cu ildə Qərbi Avropanı, 2020-ci ildə isə Şimali Amerikanı keçə bilərlər. Sinqapur 1995-ci ildə İƏtİT tərəfindən rəsmi olaraq «sənaye cəhətdən inkişaf etmiş ölkə» statusunu atmışdır.

YSÖ-in mövqelərini BƏB-də belə sürətlə inkişaf etməsini hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Cənub-Şərqi Asiyanın YSÖ-ində bu xüsusiyyətlər əsasən siyasi amillərlə və həmin Ölkələrdə təhsil səviyyəsi, işçilərin ixtisas dərəcəsi, əməksevərliyi (Cənubi-Şərqi Asiyanın YSÖ-ində dünyanın ən böyük iş həftəsi mövcuddur, Həmin Ölkələrdə orta hesabla hər bir işçi ildə 2200 saat işləyir. Bu ABŞ-dan 234, Almaniyadan isə 600 saat artıqdır), dünya nəqliyyat-ticarət kanallannm üzərində yerləşmələri ilə, Latın Amerikasının YSÖ-ində isə onların təbii rcsurlan, işçi qüvvəsinin ucuzluğu, ən əsası isə ABŞ, Kanada kimi iri bazarlara yaxın olan coğrafi mövqeləri ilə bağlıdır.

Cənubi-Şərqi Asiyanın YSÖ «kommunist sistemiwnə qarşı ölkələr kimi (məsələn. Cənubi Koreya, Şimali Koreya.

Tayvan, Çinə qarşı və s.) inkişaf etmiş sənaye ölkələrinin xüsusi siyasi-iqtisadi maraq dairələrinə düşmüşdürlər. Bu ölkələrə ABŞ küllü miqdarda yardım göstərirdi. Misal üçün, 1950-196S-Cİ illərdə yalniz ABŞ-ın iqtisadi yardımı Tayvana ümumi investisiyalann 34%-ni, o cümlədən infrastruktura qoyulanların 74%-i, kənd təsərrüfatlarına qoyulanların 59%- ni, sənaye yatınmlann 13%-ni təşkil etmişdir. Bu yardımlar YSÖ-nin iqtisadi inkişafına çox güclü stimul yaratdı.

Latın Amerikasının YSÖ-nin BƏB sistemində dinamik inkişafının əsas səbəbi isə, qeyd etdiyimiz kimi, onların bir tərəfdən zəngin, ucuz təbii və işçi qüvvəsi resursianna malik olmalan, digər tərəfdən isə coğrafi mövqelərini dünyanın əsas bazarlarına yaxınlığıdır. Buna görədə investorlar sənaye obyektlərini Meksika, Braziliya, Çili, Argentinada açaraq məhsulları Şimalı Amerikaya ixrac etməyi üstün tuturdular. Bu yolla əmtəələrin qiymətlərini aşağı salmağa çalışan investorların əksər hissəsi məhz ABŞ, Kanada mənşəli idilər. Təsadüfü deyil ki, məsələn, «Ford», «General Motorsw şirkətlərinin Meksikada açdığı avtomobilqayırma müəssisələri 80 %-i yenidən ABŞ ixrac edilir.

Ümumilikdə YSÖ-nin BƏB-də ixtisaslaşma tipinin sadələşdirilmiş sxematik forması aşağıdakı kimidir:

Sxem 2.3

YSÖ

K

YSÖ-nin BƏB-də ən əsas ixtisaslaşma istiqamətlərindən biri əməktutumlu sahələrdir. Burada da əsas diqqət bütün növ parça, paltar, ayaqqabı, saat, idman mallan, oyuncaqlar, çantalar və sair əmtəələrə verilmişdir. Hazırda təkcə Asiyanın YSÖ-nin ABŞ bazarında reallaşdırılan parça və tikili mallarda payı 50 %-dir. Əmək resurslannm kəmiyyət /keyfiyyət, qiymət/ keyfiyyət nisbəti göstəricilərinə görə YSÖ-i BƏB-də

digər ölkələrə nəzərən böyük müqayisəli üstünlüklərə malik olduqları uçun əməktutumlu sahələr üzrə ixtisaslaşma daim onlann iqtisadi inkişafınm əsasını təşkil etmişdir. Lakin müasir dövrdə əməktutumlu sahələr postindustrial inkişaf mərhələsinə qədəm qoymuş YSÖ-nin I dalğasına daxil olan ölkələrdən onun II dalğasına daxil olan ölkələrə (Tailan, Malayziya) həmçinin Çinə, Vyetnama köçürülür.

YSÖ üçün hazırda təkcə əməktutumlu deyil, həm kapitaltutumlu, eimtutumlu ixtisaslaşma xarakterikdir. YSÖ əvvəlcə əməktutumlu, ixracyönlü istehsal sahələrini inkişaf etdirmişlər, sonra kapital və təcrübə yığdıqca kapitaltutumlu, eimtutumlu sahələr üzrə ixtisaslaşmaya keçmişlər. Artıq bu sahələrdə Cənubi Koreya, Tayvan və Cənubi-Şərqi Asiyanın digər YSÖ Yaponiyanın ixracına təzyiq göstərirlər. Metallurgiya sahəsində Cənubi Koreyanın müəssisələri Yaponiyanın poladəritmə müəssisələrindən daha effektiv fəaliyyət göstərirlər. YSÖ həmçinin ABŞ, Qərbi Avropa, Yaponiya TMK-lan- nın filialları qismində elektron cihazlann ixracçılarına çevrilmişlər.

Sosial-iqtisadi tərəqqinin pillələri ilə irəlilədikcə YSÖ BƏB sistemində daha da güclü rol oynamağa başlayırlar. Lakin onlann BƏB-də yerini təhlil edərkən burada qeyd etdiyinüz kimi 2 qrup Cənubi-Şərqi Asiya və Latın Amerikasının YSÖ- nin tutduğu mövqeləri mütləq fərqləndirmək lazımdır. Çünki Asiyanın YSÖ üçün bir çox hallarda tamamilə qeyri-tipikdir. Bu ilk növbədə onlann seçdiyi BƏB-də iştirak modelləri ilə izah olunur.

Bildiyimiz kimi, Asiyanın YSÖ ixracyönlü BƏB modelini. Latın Amerikasının YSÖ isə BƏB-in idxalın əvəzlənməsi modelini qəbul etmişdilər. Cənubi-Şərqi Asiya ölkələrindən fərqli olaraq Latın Amerikasının YSÖ zəngin təbii resurslara malikdirlər (iqlim-torpaq resursu, dəmir filizi, əlvan metallar, boksit, uran, kömür, qızıl, neft, təbii qaz, almaz və s.). Məhz bu amil Latın Amerikası YSÖ-nə idxalm əvəzlənməsi modelini həyata keçirməyə imkan vermişdir. Nəticədə xarici ticarət dövriyyəsinin ÜDM-a nisbəti İndoneziyada 50% Cənubi

Koreyada 605, Filippində 62%, Tayvanda 75%, Tailanda 72%, Malayziyada 180%, Honkonqda 255%, Sinqapurda 290% olduğu halda, Braziliya və Argentinada cəmi 14%, Çilidə 475, Meksikada 60% (ona görə ki, Meksikanın həm ÜDM-da, həm də ixracında əsas yeri neft tutur) olmuşdur. Eyni zamanda qeyd etmək lazımdır ki, Asiyanın da YSÖ-nin əksəri öz inkişaflannın müəyyən dövlətlərində idxabnəvəzlənməsi siyasətini yetirmişlər. Bu dövr Tayvan, Cənubi koreyada 1950- ci illəri, Malayziyada 1960-70 ci illəri, Filippində 1950-60-cı illəri əhatə edİb, Ancaq Latın Amerikasının YSÖ-dən fərqli olaraq bu ölkələrdə idxaiınəvozlənməsi modeli sonrakı xarici iqtisadi ekspansiya üçün maddi-texniki bazarının yaradılması, kapital yığımının təmin edilməsi rolunu oynayırdı. Həm də Cənubi-Şərqi Asiyanın YSÖ-də həmin qısa müddətlər ərzində onların yalnız müqayisəli üstünlüklərə malik olduğu sahələrdə əmək məhsuldarlığının yüksəldilməsi məqsədinə xidmət edir. Latın Amerikası YSÖ isə uzun müddət «hipertorik» idxa- lıəvəzləmə modelinin tətbiqinə səy göstərmişdirlər. Lakin 1980-1990-cı illərin iqtisadi böhranlarından sonra onlar da artıq tədricən açıq iqtisadiyyata keçməyə çalışırlar.

YSÖ-nin BƏB-də konkret ixtisaslaşma istiqamətlərindən danışarkən, ilk növbədə onların kapital (birbaşa investisiya) və texnologiyaların, İEÖ-dən sonra, ən iri idxalçıları olduğunu qeyd etmək lazımdır. Bütün YSÖ-nin yüksək texnoloji, elmtu- tumlu məhsulları məhz İEÖ-dən müxtəlif yollarla (TMK-lann filialları, birgə müəssisələr, lisenziya, patentlərin alqı-satqısı və s.) idxal edilmiş texnologiyalar əsasında istehsal edilir. Bu sahədə onların yürütdükləri iqtisadi siyasət yenicə müstəqilliyini qazanmış ölkələrə, o cümlədən Azərbaycan Respublikası üçün gözəl örnək ola bilər.

Ümumilikdə YSÖ əsasən (əməktutumlu sahələrdən əlavə) maşınqayırma sənayesi məhsullarının ixracı üzrə ixtisaslaşmışlar. Ancaq burada da Asiya və Latın Amerikası YSÖ-nin ixtisaslaşmalarında müəyyən fərqlər vardır. Belə ki, birincilər EHM, tranzistor, telekommunikasiya vasitələri və s. bu kimi eimtutumlu maşınlann. ikincilər isə gəmiqayırma, avtomobil-

qayırma kimi resurs və kapitaltutumlu maşmlann ixracı üzrə ixtisaslaşıblar. Cənubi-Şərqi Asiyanın YSÖ bu və ya digər dərəcədə vacib maşınqayırma sənayesi məbsuilarmın ixracı üzrə ilk 10 Ölkə sırasına daxildirlər. Məsələn, Sinqapurun payına dünya EHM ixracının 10,5%-i, telekommunikasiya avadanlıqları ixracının 4,3%-i, lampa və tranzistorlar ixracının 6,6%-i, televizor ixracının 8%-i, radioqəbuledicilər ixracının 14%-i, səsyazma və səs avadanlıqları ixracının 7,3 %-i düşür. Cənubi Koreyanın bu əmtəə qruplarının dünya ixracı üzrə payı müvafiq olaraq 29 %, 36 %, 9,8%, 9,3%, 11,2%, 9,7%-dir.

YSO-nin əksəri hazırda dünyanın ən böyük əmtəə ixracçıları və idxalçıları sırasına daxildirlər.

Cənubi-Şərqi Asiya və Latın Amerikasının ən mühüm YSÖ-nin BƏB-də ixtisaslaşma istiqamətləri, qısaca olaraq aşağıdakı kimidir:

Sinqapur-maşınqayırma, maliyyə, turizm xidmətləri, reeksport, nəqliyyat xidmətləri, elektronika sənayesi;

Honkonq-maliyyə-bank xidmətləri, yüngül sənaye (parça, paltar, idman malları) elektronika, maşınqayırma, yeyinti sənayeləri;

Cənubi Koreya - elektrotexnika (məişət texnikası), maşınqayırma, gəmiqayırma, gön-dəri məmulatları, avtomobilqayır- ma, metallurgiya;

Tayvan-elektronika, yüngül sənaye, kənd təsərrüfatı məh-sullannın emalı, maşınqayırma, kimya;

Malayziya-elektronika, yüngül sənaye.

Bununla belə Malaziya nadir YSÖ-dəndir ki, o, hələ də bir sıra xammal və yanmfabrikatlar ixrac edir. Məsələn, Malayziya kauçuk, palma yağı, qalay ixracına görə dünyada 1 yerdədir. Eyni zamanda o, iri boksit ixracçısıdır. Kənd təsərrüfatı məhsullanndan Malayziya istiot, ananas, çay, hindqozu (dünyada IV yer), kakao (dünyada V yer) ixracı üzrə ixtisaslaşmışdır. Malayziyanın BƏB-də ixtisaslaşdığı digər mühüm istiqamət taxta-şalban məhsullarının ixracı və reixracıdır.

Braziliya - gəmiqayırma, maşınqayırma, elektronika, təy-yarəqayırma, metallurgiya, ağac emalı, kofe, şəkər qamışı, pambıq, qarğıdalı, soya, turizm;

Argentina - maşınqayırma, avtomobilqayırma, elektrotexnika, qara metallurgiya, kənd təsərrüfatı texnikası, yüngül sənaye, ət (dünyada I yer), taxıl, un, gön-dəri, bitki yağı, kərə yağı.

Latın Amerikasının YSÖ 1980-90-cı illər, Cənubi-Şərqi Asiyanın YSÖ isə 1997-ci il böhranını arxada qoyduqdan sonra BƏB-də öz mövqelərini xeyli möhkəmlətmişdirlər. Hazırda ümumdünya ixracında onların xüsusi çəkisi 17%, ümumdünya idxalında isə 16%-dir. YSÖ-nin BƏB-də mövqeyinin möhkəmlənməsini o da təsdiq edir ki, keçən əsrin 9Ü-cı illərinin ortalarından ABŞ-ın YSÖ İlə xarici ticarət dövriyyəsinin həcmi onun Qərbi Avropa İlə xarici ticarət dövriyyəsinin həcmini ötmüşdür.

Müasir dövrdə YSÖ-nin BƏB-də iştirakının ən yeni cizgilərindən biri də odur ki, əgər 1980-cı illərdə onlar xarici investisiyaların çox iri idxalçıları İdilərsə, hazırda onların bir çoxu kapitalın iri ixracçılarına çevrilmişlər. Onlar əsasən İEÖ Asiya-Sakit okean hövzəsi ölkələrinə kapital ixrac edirlər. Məsələn, Cənubi Koreya ABŞ-a, Tayvan Çinə, Honkonq Çinə birbaşa investisiya qoyan əsas donor ölkələr sırasına daxildirlər. Honkonq Çində rəsmi qeydiyyatdan keçmiş birgə müəssisələrin yarısından çoxunda xarici tərəfdaş kimi çıxış edir,

8.3. Məlumdur ki, Azərbaycan yanacaq enerji və mineral resurslannm kifayət qədər əhəmiyyətli yataqlarına malikdir. Respublikamız eyni zamanda torpaq-iqlim və əmək resursları ilə yüksək səviyyədə təmin olunmuşdur. Digər tərəfdən ölkəmizdə sənaye müəssisələrinin sayı 3500-dən çoxdur. Bütün bunlar Azərbaycanın BƏB-də çox sahələrdə hazır məhsulların iri ixracıçısı kimi ixtisaslaşması üçün münbit şərait yaradır. Ancaq təəssüf ki, respublikamızın ixracında xammal və təbii resurslar hələ də 90%-ə yaxın xüsusi çəkiyə malikdir. 100-dən çox hazır məhsulun istehsalı üçün əsas xammal sayılan Azərbaycan neftinin 90%-dən çoxu xammal şəklində ixrac olunur.

Ölkəmizin ixracının ən əsas maddələri xam neft və onun ilkin emalı məhsulları, pambıq, alüminium oksidləri, elektrik enerjisi və kənd təsərrüfatı məhsullarıdır.

Lakin müasir dünya ləsərrüfatmda əsas faktorlarla yüksək səviyyədə ləminallılıq və BƏB-də onların ixracı üzrə ixtisaslaşma artıq əhəmiyyətli rəqabət üstünlüklərinin əldə edilməsinin mühüm şərti deyildir. Onlann yaratdıqları üstünlüklər cüzi və qeyri-stabiİdirlər. Müasir nəqliyyat sisteminin nailiyyətləri, istehsalın beynəlmiləşməsi beynəlxalq iqtisadiyyatda bazis faktorların rolunu getdikcə daha da azaldır. Xammal ixracı üzrə ixtisaslaşma əhalinin aşağı təhsil səviyyəsini daha da möhkəmlənməsi ilə nəticələnir. Çünki bu sahələrdə çahşan işçilərin ixtisas səviyyələrinə irəli sürülən tələblər bir o qədər də yüksək deyildir, yəni, yüksək ixtisaslı işçilərə emal sənayesi ilə müqayisədə tələb bir o qədər də çox deyildir. Xammal bazarı birjalara əsaslandığından burada möhtəkirlik əməliyyatları çox tez-tez baş verir, qiymətlərin səvviyyəsi tez-tez kəskin surətdə dəyişir. Bütün bunlar ölkəni stabil iqtisadi inkişafdan məhrum edir.

Xammalın və aralıq məhsullann emal səviyyəsinin yüksəlməsinə istiqamətləndirilmiş dəyişikliklərin BƏB-də Azərbaycan qarşısında təkcə neft sənayesində nə dərəcədə geniş, indiyə kimi həqiqətən də istifadə edilmiş imkanlar açdığını təsəvvür etmək üçün sadəcə bunlara diqqət yetirək: əgər ölkəmiz ilkin xammal formasında cəmi 4-6 növ neft məhulları ixrac edirsə, həmin məhsullar idxalçı ölkələrdə 100-dən çox müxtəlif növ əmtəəyə çevrilərək respublikamızda ixrac edilir. Anoloji problem kənd təsərrüfatında da mövcuddur.

Britaniya Sosial-İqtisadi Araşdırmalar İnstitutun məlumatlarına görə hazır əmtəələrin qiyməti xammalın qiymətindən 2 dəfə, maşın və avadanlıqların qiyməti isə xammaldan 3-4 dəfə bahadır. Deməli, milli iqtisadiyyatımızın sadəcə olaraq mövcud resursların emalına keçməklə BƏB-də ixtisaslaşması ölkəmizə əlavə milyardlarla valyuta gətirə bilər:

Ümumiyyətlə respublikamız hazırda mövcud sənaye və resurs potensialı əsasında BƏB-də aşağıdakı istiqamətlərdə hazır məhsulların istehsalı və ixracı üzrə ixtisaslaşa bilər:

1. Neft-mədən maşınqayırması;
2. Neft kimyası;

3. Yüngül sənaye;
4. Turizm xidmətləri;
5. Nəqliyyat xidmələlir;
6. Bir çox sahələrdə konsultativ-injiniriq xidmətləri.

Bildiyimiz kimi, Azəbaycan güclü maşınqayırma kompleksinə malikdir.

Respublikamızın maşınqayırma sənayesinin ən inkişaf etmiş sahələri bunlardır: a) neft maşınqayırma; b) elektronika və cihazqayırma; c) radiotexnika; ç) elektronika; d) məişət texnikası; e) kənd təsərrüfatı maşınqayırması.

Bütün sadalanan sahələr üzrə Azərbaycan BƏB-də kifayət qədər səmərəli iştirak etmək potensialı vardır. Respublikamız SSRİ-nin neft maşınqayırması sənayesi məhsullarına olan tələbatını 65%-ni ödəyirdi. Bura ABŞ-dan sonra dünyada neft sənayesi müəssisələrinin II ən böyük konsentrasiya mərkəzi idi. Sahənin yüzlərlə müxtəlif adda məhsulları dünyanın bir çox ölkələrinə ixrac olunurdu. Lakin 90-cı illərin iqtisadi böhranı bu sahəyə də öz mənfi təsirini göstərdi. Hazırda neft maşınqayırma müəssisələri öz istehsal güclərinin 8-105-i ilə işləyir. Maşınqayırma sənayesinin Azərbaycanın ÜDM-da sayı cəmi 3%-dir. Böhran nəticəsində hazırki dövrdə maşınqayırma sənayesində səmərəsiz istifadə olunan, yaxud tamamilə istifadə olunmayan ərazilər 500 min m--dən çoxdur.

Azərbaycanın maşınqayınna sənayesinin əsas məhsulları aşağıdakılardır: qazma dəzgahları və neft sənayesi üçün tələb olunan bütün avadanlıqlar, nasoslar, qaldırıcı kranlar, metal-kəsən dəzgahlar, avtobuslar, refrijerator-avtomobillər, podşip-niklər, məişət kondisionerləri, transformatorlar, lüminesens lampalar, soyuducular, ölçmə apparatları.

Göründüyü kimi bu əmtəələrin əksəri müasir dövrdə beynəlxalq bazarda yüksək tələbə malik məhsullardır. Lakin müəssisələrimiz həmin əmtəələrə olan daxili tələbi də ödəyə bilmirlər. Bunun səbəbini sadəcə neft maşınqayırması sahəsindəki yaranmış siyasi vəziyyətlə tanışlıq zənnimizcə kifayətdir. Burada bizə yaranmış paradoksal vəziyyətin şahidi olarıq. Belə ki, bir tərəfdən ölkənin neft yataqlarının işlənməsi üçün

çoxmilyard]ı müqavilələr imzalanır, digər tərəfdən isə neft maşınqayınnası zavodlarımız praktikiolaraq öz fəaliyyətini dayandırmışlar. Məsələnin mahiyyəti ondan İbarətdir ki, bizim neft maşınqayırma avadanlıqlarının əksər halda APİ və İSO 9000 sertifikallannın olmaması üzündən onlardan imtina edilir. Hərçənd xarici mütəxəssislərin etirafına görə köhnə sovet standartları məhsulun Qərb sertifikasiya sistemindən heç də geri qalmır, bir çox hallarda isə bu sahədə bizim məhsullar «keyfıyyət/qiymət» nisbətinə görə Qərb analoqlarını xeyli üstələyir. Göründüyü kimi, bəzi nüanslar səbəbindən əla keyfiyyət belə rəqabətqabiliyyətliliyə təminat vermir. Ona görə də maşıqayırma sənayesində yaranmış bu tip maneələri aradan qaldırmaq və ölkəmizin həmin sahədə BƏB-do mövcud geniş potensialım reallaşdıra bilmək üçün ən birinci addım milli standartların dünya standartlarına uyğunlaşdınıması olmalıdır. Beləliklə, həm milli istehsalçıları dünya standartlanna uyğun məhsul buraxmağa istiqamətləndirmək, həm də Qərb sertifikatlarını avtomatik təmin etmək mümkündür.

Azərbaycanın kimya sənayesinin əsas hazır məhsulları mineral gübrələr, bitkilənn zərərvericilərdən qorunması üçün vasitələr, plastik pəncərə və qapılar, sintetik yuyucu vasitələr, plastik taralar, məişət əşyaları, müxtəlif növ yanacaqlar, polimer tikinti məmulatları və s. olmuşdur. Təkcə onu demək kifayətdir ki, respublikamızda istehsal olunan sintetik yuyucu vasitələr, keçmiş ittifaq respublikalarını .saymasaq, dünyanın 40-dan çox ölkəsinə ixrac olunurdu. Sumqayıt Üzvi Sintez Briliyinin 40-dan artıq məhsulu isə keçmiş İttifaq dövründə 200-dən çox ölkəyə ixrac edilirdi və bütövlükdə xammalı ancaq Azərbaycanın Özü verirdi. Məlum iqtisadi böhran və ölkəmizin xammal ixracıçısına çevrilməsindən sonra isə Azərbaycanın kimya sənayesində real vəziyyət belədir; məsələn, «Kimyəvi lif» kombinatı üçün xammal olan mzkoplamanı o, 3 ölkədən idxal edir. Halbuki həmin nizkoplamam əldə etmək üçün ilkin xammal Azərbaycan neftidir. 1990-cı illərin tənəzzülü nəticəsində müvafiq emal sexləri fəaliyyətini dayandırdığı üçün nefti ixrac edib ondan hazırlanan məhsulları idxal edirik. İdxaldan

asılılıq ixrac potensialım xeyli azaltmaqla bərabər, əlavə bir sıra çətinliklər də yaradır. Müəssisə, onun sexləri orta hesabla ildə 1-2 dəfə Avropadan nizkoplaman təchizatı qrafik üzrə yerinə yetirilmədiyindən öz fəaliyyətini dayandınr. Nəticədə istehsalın stabilliyi pozulur, müəssisənin beynəlxalq imicinə zərər dəyir, əmtəə vahidinin maya dəyəri yüksəlir. Təəcüblü burasıdır ki, respublikamızda illik neft hasilatı 10 15 milyon ton, neft-kimya müəssisələrinin emal gücü isə 20 milyon ton olduğu halda Azərbaycan hələ də xam neft ixracçısı kimi ixtisaslaşmaqda davam edir, Lakin bu problemlərə baxmayaraq, respublikamızın BƏB-də kimya sənayesi üzrə ixtisaslaşmanın böyük gələcəyi vardır. Kimya sənayesində Azərbaycanın malik olduğu ən vacib müqayisəli üstünlüklər bunlardır:

I. Əsas xammal-Azərbaycan nefti yüksək keyfiyyətlidir, ölkə qalan xammal növlərini də idxal etməyə bilər, o, özü- özünə bütün zəruri xammallarla təchiz etmək iqtidarındadır;

II. BƏB-də kimya sənayesi məhsullarının ən iri ixracçılan ABŞ, Yaponiya. Almaniyadan fərqli olaraq, Azərbaycan xammalı çox uzaq məsafələrdə idxal etmir, xammal mənbələri yaxında yerləşdiyi üçün nəqliyyat xərcləri cüzidir. Bu amil qiymətləri xeyli aşağı salmaqla müli məhsulların dünya bazarında rəqabətqabiliyyətliliyini surətdə artırır.

III. Azərbaycanda iri kimya sənayesi artıq mövcuddur və hətta istehsal potensialı xammal hasilatım üstələyir. Eyni zamanda müvafiq sənaye strukturunun geniş şəbəkəsi də vardır. Bu böyük istehsal güclərini yenidən işə salmaq üçün avadanlıqlar və texnologiyaların alınması, infrastrukturunun modemizasisi məqsədilə kimya sənayesinə qoyulan müasir investisiyalarla müqayisədə əslində gücli vəsait tələb olunur.

IV. Neft-kimya, üzvi kimya və sənayenin bir çox digər istiqamətlərində respublikamızın güclü ixtisaslı kadr potensialı vardır.

Azəbaycamn müasir dövrdə BƏB-də ixtisaslaşma imkanlarının ən geniş olduğu sahələrdən biri də yüngül sənayedir. Azərbaycanın yüngül sənayesi üzrə ixtisaslaşmada malik olduğu əsas üstünlüklər bunlardır:

1. Yüngül sənaye əsas əməktutumlu sferadır. Azərbaycanda isə əmək resursları həm boldur. Həm nisbətən ixtisaslı, həm də çox ucuzdur.

2. Azərbaycan yüngül sənayesi üçün zəruri olan bütün növ təbii və sintetik xammala tələbatı yerli istehsal hesabına tam ödəmək imkanlarına malikdir,

3. Respublikanın demək olar ki, bütün rayonlarda keçmiş SSRİ-dən qalma yüngül sənaye müəssisələri mövcuddur. Çox daha böyük olmayan xərclərlə onlann dünya standartlarına uyğun məhsul buraxmasını təmin etmək mümkündür. Həm də o müəssisələrin fəaliyyəti bütünlükdə yerli xammalın emalına əsaslanırdı.

Təkcə onu göstərmək kifayətdirki, Cənubi-Şərqi Asiyanın bütün YSÖ, Türkiyə, Braziliya və digər YSÖ öz inkişaflarııun ilk dövrlərində məhz əməktutumlu yüngül sənaye sahələrinə əsaslanmışdırlar. Cənubi-Koreya, Honkonq, Tayvan, Malayziya, Argentinanın ixracında yüngül sənaye məhsullan hələ də kifayət qədər böyük xüsusi çəkiyə malikdir. Bu onunla izah əlaqədardır ki, yüngül sənaye ucuz işçi qüvvəsi və s. xammalm geniş istifadəsinə əsaslandığından tEÖ belə əmək resursları bol olan ölkələrin BƏB-də bu sferada malİk olduğu müqayisəli üstünlükləri ələ keçirməyə acizdirlər, bir çox hallarda isə onlann buna heç marağı da olmur. Ona görə də yüngül sənaye üzrə beynəlxalq rəqabət nisbətən azdır. Belə vəziyyət aşağı inkişaf səviyyəsinə malik ölkələrin BƏB vasitəsilə ekstensiv amillərdən istifadə edərək intensiv amillərə əsaslanan sahələrin yaradılması məqsədilə ilkin kapital yığımını təmin etməsi üçün yüngül sənaye üzrə ixtisaslaşmanı ən səmərəli vasitəyə çevirir. Azərbaycan yüngül sənayenin bütün istiqamətlərində, xüsusilə də aşağıdakı əmtəələrin istehsalı və ixracı üzrə ixtisaslaşa bilər: yun, ipək, sintetik liflərdən bütün növ toxuculuq-trikotaj məmulatlan, ayaqqabı, palto, çatna və s. gön - dərİ məmulatları, xalçaçılıq, çini qablar istehsalı, idman mallan və s.

Müasir dövrdə Azərbaycanın BƏB-də ixtisaslaşmalı olduğunu ən vacib sferalardan biri, fikrimizcə, beynəlxalq turizm xidmətlərinin ixracı olmalıdır. Respublikamız bu sahədə öz potensialına görə dünya liderləri sırasına daxil ola

biləcək bir dövlətdir. Azərbaycanda beynəlxalq turizmin inkişaf etdirilməsini şərtləndirən, onun inkişafı üçün əlverişli ilkin şərait yaradan bir çox amillər vardır. Bunlara aşağıdakıları aid etmək olar:

1. Azərbaycan ərazisinin 20 %-i turizm üçün yararlıdır.

2. Azərbaycan dünya ərazisinin 0,058 %-nə malik olduğu halda, dünya üzrə bütün bitki növlərinin 0,84 %-i (o cümlədən 70 növ endemik bitki) burada bitir. Yəni, Azərbaycanda bitkilərin, təbiətin zənginliyi, rəngarəngliyi planetimizdəkinə nisbətən 14 dəfə yüksəkdir.

3. Azərbaycanda 200-dən çox mineral su (onlardan 60-ı müalicəvi əhəmiyyətlidir), 250 müalicəvi palçıq mənbə, 124 kurort zonası vardır.

4. Azərbaycanda 14 qoruq, 18 yasaqlıq, 2 ovçuluq təsərrüfatı, 2130-dan çox qorunan təbiət abidəsi vardır. Ümumiyyətlə, Azərbaycanda bu və ya digər şəkildə qorunan təbiət obyektlərinin sayı 2165-dən çox olub, dünyadakının 5 %-i qədərdir.

5. Azərbaycanda yüzlərlə müxtəlif dövrləri əhatə edən (ilk insan məskənlərindən XIX əsrədək) tarixi abidə və abidə kompleksləri vardır.

Respublikamızın bu kimi üstünlüklərinin siyahısını xeyli çoxaltmaq da olar. Bütün bunlara bərabər respublikamızın ərazisinin relyef-iqlİm baxımından rəngarəngliyi kimi amili də nəzərə alsaq, Azərbaycanda beynəlxalq turizmin əksər növləri, xüsusən tarixi, mədəni, ekstremal, diyarşünaslıq, rekreasiya, iqlim müalicəsi ilə bağlı bütün turizm növləri: helioterapiya, aeroterapiya, telessoterapiya və s, inkişaf etdirilməsi üçün çox geniş imkanlar vardır. Ekspertlərin hesablanmalanna görə hələlik Azərbaycanın kurort ehtiyyatlannın cəmi ! 2%-i, müalicə palçığı ehtiyatlarının 5%-i, mineral suların 10%-i istifadəyə cəlb edilmişdir. Az.ərbaycanda hələ də mövcud olan onlarla müxtəlif növ xalq sənətlərini dirçəltməklə ölkəmiz beynəlxalq turizmdə əniri suvenir ixracçısına çevrilə bilər. Onu da qeyd etmək lazımdır ki, həmin sənətkarlıq növlərinin əksəri (məsələn, təkəlduzçuluq, keçəçilik) yalnız respublikamız üçün xarakterikdir.

Azərbaycan həm də çoxmillətli dövlətdir. Bu onun mədəni irsini olduqca zəngin etmişdir. Belə kiçik ərazidə bu qədər çoxsaylı xalqın yaşaması, bir-birindən fərqli mədəniyyət nümunələrinin kulinariya zənginliyinin mövcudluğu da respublikamızda beynəlxalq turizmin inkişaf etdirilməsinin stimullaşdırıcı faktorlardan biridir.

Azərbaycanda beynəlxalq turizmin inkişaf etdirilməsi və ölkəmizin BƏB-də bu istiqamətdə ixtisaslaşmasının təmin edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacib əhəmiyyət kəsb edir:

1. Dövlətin turizm obyektlərinin özəlləşdirilməsinin sürətləndirilməsinin stimullaşdmlması;

2. Regionlarda beynəlxalq turizmin inkişafı üzrə dövlət proqramımn hazırlanması və həyata keçirilməsi;

3. Təbii və tarixi-mədəni mühitin səmərəli istifadəsi və bərpası qaydalarının müəyyənləşdirilməsi;

4. Müasir beynəlxalq turizm infrastrukturunun formalaşdırılması (dünya standartları səviyyəsinə qaz, su, işıq, İstilik, kanalizasiya sistemləri, nəqliyyat-yol kompleksləri və s.

5. Azərbaycanda təmiri ehtiyacı olan çoxsaylı turizm obyektlərinin rekonstruksiya işlərinin dünya standartları səviyyəsində başa çatdırılması;

6. Ciddi problemlərdən biri ondan ibarətdir ki, turbaza, pansionat, sanatoriya, otellərin əksəriyyəti qaçqınlar tərəfindən tutulmuşdur. Qaçqınlara güzəştli şərtlərlə torpaq paylayıb ev tikintisinə də uzunmüddətli suda verərək həmin turizm obyektlərindən köçürülməsinin təmin edilməsi;

7. Azərbaycanda beynəlxalq turizmin inkişafının osas problemlərindən bir də bu sahədə yüksək ixtisaslı kadrların olmamasıdır. Hətta fəaliyyət göstərən turizm obyektlərinin sahibləri belə heç də bu sahədə ixtisası olan peşəkar şəxslər deyildir. Onun üçün də bu istiqamətdə təhsil sferasında tezliklə müvafiq dəyişikliyin həyata keçirilməsi;

8. Beynəlxalq səviyyədə aktiv reklam siyasətinin həyata keçirilməsi;

9. Azərbaycanda mövcud qrupların bəzilərinin bazasında milli parkların yaradılması.

10. Yerli orqanların bu işdə iqtisadi maraqlarım gücləndirmək üçün turizm sferasından təşkilati və idarəetmə funksiyalarının çox hissəsini onlara vermə və turizmdən gələn gəlirlərin əksər hissəsi də rayonların büdcəsinə keçirilməsi. Beləliklə rayonlarm idarəetmə orq anlan özləri turizm infrastrukturunun bərpasında maraqlı olar, investor axtarmaq sahəsində qayğılan xeyli azalır.

11. Müxtəlif vergi güzəştlərinin tətbiq edilməsi. Məsələn, Fransada ƏDV bütün sahələrdə 22%, turizm üzrə 12%-dir. Bu tədbirlər 4 əsas istiqamətdə həyata keçirilməlidir: 1. Turizm sferasına investisiyalara vergi güzəştləri; **II.** Turizm məqsədilə olunan idxalın gömrük rüsutnlanndan azad edilməsi; III. Turizmdə çalışan işçilərin əmək haqqından tutulan gəlir vergisinin azaldılması (müəyyən müddət üçün); IV. Turizm fırmalanna «vergi tətillərinin» tətbiq edilməsi.

12. Tarixi abidələrin, muzeylərin, milli parklarm və s. bu kimi turizm əhəmiyyətli obyektlərin, həmçinin bu obyektlərin fəaliyyəti ilə bağlı İnfrastrukturun idarəedilməsinin ixtisaslı milli və ya xarici menecmentə həvalə edilməsi.

Azərbaycan turizm xidmətlərinin ixracı üzrə BƏB-də ixtisaslaşmasının ölkəmizə verə biləcəyi töhfələrdən dam- şarkən, belə bir faktı göstərmək kifayətdir ki, bir xarici turistin qəbulundan əldə edilən gəlir 3-4 ton xam neftin hasilatından və ixracından əldə edilən gəlirə bərabərdir.

Respublikamızın beynəlxalq turizm potensialından səmərəli istifadə edə bilmək və eyni zamanda onun maddi-mənəvi irsinin qorunub saxlanılmasını təmin etmək üçün bu prosesə mütləq müvafiq sahənin mütəxəsisləri (tarixçilər, arxeoloqlar, sosioloqlar, omtropoloqlar, etmoqraflar və s.) cəlb edilməlidir.

Respublikamızın BƏB-də mühüm İxtisaslaşma istiqamətlərindən biri də nəqliyyat xidmətlərinin ixracı olmalıdır. Azərbaycanın Qərb və Şərq, Şimal və Cənub arasında nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması üçün digər dövlətlərə nəzərən ən əlverişli mövqeyə malik olması hamıya məlumdur.

Təsadüfi deyildir ki, TRASECA, tNOQEYT kimi beynəlxalq əhəmiyyətli nəqliyyat layihələrində **mərkəzi yer** tutur. Beynəlxalq nəqliyyat koridorlannm Azərbaycandan keçməsi Şərqdən Qərbə qədər olan məsafəni 4000 kilometr qısaldır. Bundan Qərbə qədər olan məsafəni 4000 kilometr qısaldır. Bundan əlavə müqayisə üçün deyər ki, Qazaxıstan neftinin Rusiya ərazisindən aralıq dənizinə daşınması üçün hər barrelə
4,5 ABŞ dollan tələb olunursa, Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə hər barrel Qazaxıstan neftinin Aralıq dənizinə nəqli 3,5 ABŞ dollarına başa gələcəkdir. Şimal və Cənubi əlaqələndirən beynəlxalq nəqliyyat marşrutlanndan ən əlverişli məhz respublikamızdan keçən yollardır. Orta Asiyada həmin avtomobil yollarının, həm də onun infrastrukturunun Azərbaycanla müqayisədə aşağı səviyyədə inkişaf etməsi ilə əlaqədar Cənub-Azərbaycan-Şimal marşurutu Cənub-Orta Asiya-Şimal marşurutuna xeyli ucuz və qısadır. Respublikamızın müasir dövrdə BƏB-də nəqliyyatın aşağıdakı istiqamətləri üzrə ixtisaslaşması faydalı olardı:

I. Bilavasitə nəqliyyat xidmətləri;

II. Tranzit daşımalar üzrə xidmətlər;

III. Bakı limanında, Bakı ətrafında və Yevlaxda nəqliyyatla bağlı digər xidmətlər də daxil olmaqla bağlama- anbar tipli AlZ-lərin yaradılması vasitəsilə anbar, texniki servis, dayanacaq, yükləmə-boşaltma və s. bu kimi xidmətlər.

Hər 3 istiqamətdə ixtisaslaşmam dərinləşdirmək üçün həll edilməsi mühüm problem dünya standartlarına cavab verən müvafiq infrastrukturun formalaşdınıması və İnkişaf etdirilməsidiri. Həmin infrastruktura otellər, anbarlar, qarajlar, parkinqlər, emalatxanalar, yanacaq doldurma və texniki servis məntəqələri, yeməkxanalar və s. daxildir. Bu sahədə effektiv fəaliyyət göstərəcək AİZ-ni təşkil etmək üçün hökumət mütləq keyfiyyətli infrastrukt amilini nəzərə almalıdır. Məsələn, Çində 1980-cı illərin sonunda hökümətin təkcə 4 AİZ-nin infrastruturuna kapital qoyuluşu 22 milyard ABŞ dollarından çox və ya hər hektar əraziyə 15 milyon ABŞ dollan olmuşdur.

Azərbaycanın güclü elmi potensiala malik olduğu sahələrdə müxətilf növ xidmətlərin İxracıt üzrə BƏB-də ixtisaslaşması üçün böyük imkanlan vardır. Hazırda bunlara neft hasilatı, neft emalı, neft maşınqayırması, kimya, neft- kimya, seleksiya-yeni növ kənd təsərrüfatı məhsullannm yetişdirilməsi və bir sıra digər sahələrini aid etmək olar. Respublikamızın təkcə neft sənayesi ilə bağlı xidmətlər üzrə BƏB-də perspektiv ixtisasma istiqamətlərinə aşağıdakılar daxil edilə bilər;

1. Neft yataqlarının kəşfi, yataqların iqtisadi cəhətdən qiymətləndirilməsi;
2. Neftin hasilatı layihəsinin işlənib -hazırlanması;
3. Neft kəmərlərinin çəkilməsi layihələrinin tərtibi;
4. Neft emalı zavodlarının tikilməsi layihələrinin tərtibi;
5. Yeni neft hasilatı və emalı maşınlanmn, avadanlıqlarının işlənib hazırlanması üzrə konsultativ xidmətləri;
6. Maşın və avadanhqlann buruqlarda quraşdırılması, işə salınması və idarə edilməsi;
7. Mövcud maşın və avadanlıqların, emal xəttlərinin modernizasiyası proyektlərinin tərtibi;
8. Neft buruqlanna servis xidməti;
9. Ali məktəblərdə neft -qaz sahəsində təhsil xidmətləri;
10. Neft-qaz sahəsində çalışan aşağı və orta ixtisas dərəcəli işçilərin ixtisasartırma kurslarımn təşkili;
11 .Azərbaycanda neft sahəsi alimlərinin tədqiqatlarından alman yeniliklərin istifadəsi və ixracı mexanizminin işlənib hazırlanması.

Problemin bu cür həlli BƏB-də mövqeyini möhkəmləndirməklə bərabər «beyin axını»da dayandırır. Lakin bütün sadalanan perspektiv istiqamətlərə baxmayaraq, Azərbaycan hələ də vertikal BƏB modelinin Cənub elementi olaraq qalır. Əlbəttə aydındır ki, yuxarıda qeyd edilən istiqamətlərdə İxtisaslaşmanı reallaşdırmaq üçün külli miqdarda investisiya tələb olunur. Ancaq bununla yanaşı təəsüf ki, müasir dövrdə respublikamızda elə qanunvericilik aktlarına da rast gəlmək mümkündür ki, onlar Azərbaycanın hazır məhsullar deyil,

məhz xammal İxracçısı kimi ixtisaslaşmasını «stimullaşdırır». Məsələn, son illərdə respublikamızdan kənara qanuni və qeyri-qanuni yollarla küllü miqdarda təkrar metal xammalı daşınmışdır. Alüminium, miss, sink, qurğuşun kimi metalların dünya qiymətləri hər tona görə 2000-2500 ABŞ dolları olduğu halda, respublikamızdan onların ixracına qoyulmuş rüsumlar hər tonu görə cəmi 15 ABŞ dollarıdır, yəni onların bazar qiymətlərinin heç 15-i belə deyildir. O cümlədən, çuqun və dəmir qınntılanmn hər tonuna qoyulmuş ixrac rüsumları cəmi 5 ABŞ dolları, paslanmayan poladın bir tonuna 7 ABŞ dollarıdır. Belə vəziyyət təbii ki, heç cürə respublikadan xammal ixracının qarşısını ala bilməz. Fikirimizcə, ölkədən ilkin xammalın daşınmasının qarşısını kəsmək üçün bu tədbirlər həyata keçirilməlidir:

I. Xammalın respublikadan ixracı maksimum məhdudlaşdırılmalıdır.

II. Xammala ixrac rüsumları sərt müəyyənləşdirilmiş qaydada deyil, xammalın dünya qiymətlərinə nisbətən faizlə təyin edilsin. Həmin rüsumlar xammalın dünya qiymətlərinin ən azı 80 %-i həcmində olmalıdır.

Respublikamızın BƏB-də hazır məhsullar üzrə ixtisaslaşmasını orta müddətli perspektivdə təmin etmək üçün ümumilikdə a.sağıdakı tədbirlərin reallaşdırılması məqsədə uyğundur:

1.Dünya bazarında likvidli tələbə malik və ilk növbədə yerli ehtiyatların aktiv istifadə edildiyi emal sənayesi sahələrinin prioritet inkişafı təmin olunmalıdır.

2.Rəqabət mübarizəsinin kəskinləşdiyi dünya bazarında öz seqmentinin yaradılması ixtisaslaşma istiqamətlərini formalaşdıran amillərdən biri kimi qəbul edilməlidir.

3.Bərpa olunan istehsal ehtiyatlarının intensivliyini artırmaqla ÜDM-də və ixracda bu tip sahələrin payının 50-70 %-ə çatdırılması strateji hədəfə çevrilməlidir.

4.Keyfiyyətə total nəzarətin qabaqcıl texnologiyaları yaradılmalıdır.

5.İnfrastruktur sahələrinin geniş mənada yeni inkişaf səviyyəsi təmin edilməlidir.

6. Özəlləşdirmə prosesi sürətləndirilməsi və burada mənəvi köhnəlmə amili mütləq nəzərə alınmalıdır.

Belə ki, özəlləşdirmə prosesində Sovet dövründən qalmış, mənəvi cəhətdən çoxdan aşınmış avadanlıqların qalıq dəyəri də müəssisələri qiymətinə daxil edilir. Müəssisəni özəlləşdirən sahibkar sonradan çıxarıb atmalı, yenisi ilə əvəz olduğu bu avadanlıqların dəyərini haqsız olaraq dövlətə ödəyir.

Bildiyimiz kimi BƏB-in dinamik inkişafını təmin edən forması beynəlxalq kooperasiya əlaqələridir. Ölkəmizin bu gün beynəlxalq kooperasiya əlaqələrində aktiv iştirakı isə bir sıra amillər səbəbindən əsimdə obyektiv zərurətə çevrilmişdir. Burada ilk növbədə onu qeyd etmək lazımdır ki. Sovet İttifaqı dövründə yeridilən siyasət nəticəsində respublikanın sənaye müəssisələrinin yalnız cüzi hissəsinin ölkə daxilində tamamlanmış texnoloji tsiklə malik olduğu üçün onlann əksər hissəsi, daxildə kompleksləşdirici hissələrlə kifayət qədər təmin olunmamaq şəraitində beynəlxalq kooperasiya əlaqələri qurmadan effektiv fəaliyyət göstərə bilməzlər. Ümumiyyətlə Azərbaycanın sənaye müəssisələrinin müasir dövrdə rastlaşdığı reallıqları da (hazır əmtəə istehsalı və satışı sahəsində beynəlxalq işgüzarlıq təcrübəsi az, beynəlxalq rəqabət imkanları məhdud, beynəlxalq marketinq isə yox dərəcəsindədir.) nəzərə alsaq BƏB-də ölkəmizin itirilmiş mövqelərini bərpa etmək üçün ən əlverişli variant onlann yaxın gələcəkdə perspektivdə detallar, hissələr və texnoloji əməliyyatlar üzrə ixtisaslaşmaya üstünlük vermələrindən ibarətdir.

Yuxanda sadalanan çıxış yolu olmaqla bərabər məmulat, yanmfabrikatlar üzrə ixtisaslaşma və beynəlxalq kooperasiya əlaqələrində iştirakın milli firmalarımız üçün digər mühüm əhəmiyyətə malik tərəfləri də vardır. Onlan qısaca olaraq aşağıdakı kimi şərh etmək olar:

1. Tələbin dəyişməsi ilk növbədə hazır əmtəə istehlakına zərbə vurur. Bu tələb dəyişiklikləri adətən evolyusional qaydada hazır əmtəənin yalnız hər hansı bir hissəsinə münasibətdə olur. Lakin nəticədə bütün əmtəənin istehlakı aşağı düşür. Ona görə də istehlakı artırmaq üçün hazır əmtəə istehsalçısı həmin dəyişikliyi mütləq həyata keçirməlidir.

Ancaq bu heç də əmtəənin istehsalında istifadə edilən bütün məmulat və qovşaqların, texnoloji əməliyyatların dəyişdirilməsi demək deyildir. Bu səbəbdən də məmulat və yarımfab- rikatlar, texnoloji əməliyyatlar üzrə ixtisaslaşma zamanı tələb dəyişikliklərinə məruz qalma riski hazır əmtəə istehsahndakma nisbətən xeyli aşağıdır. Məsələn, avtomobil istehsalçısı tələb- dəki dəyişikliklərə cavab verə bilmək üçün (misal üçün, tələb dəyişikliyi avtomobilin xarici görünüşündədir) araşdırmalar aparır, yeni növ avtomobil yaradır, külli miqdarda xərclər çəkərək yeni ştamplar, platformalar quraşdınr. Avtomobilin rənglənməsi texnologiyası isə yeni qalır.

2. Məmulatlar və yanmfabrikatlar üzrə ixtisaslaşma hazır əmtəə istehsalına nisbətən az investisiya qoyuluşu, texnologiya, ETT xərcləri və s. xərclər tələb etdiyi üçün kapital resurslannın məhdudluğundan əziyyət çəkən respublikamızda belə müəssisələrin təşkili nisbətən asandır.

3. Hazır əmtəə istehsalına nəzərən bu cür müəssisələrdə istehsalın texniki, texnoloji mürəkkəbliyinin nisbətən aşağı səviyyədə olmasına görə həmin fınnalar dünya bazannda baş verən hər hansı dəyişikliyə çox çevik reaksiya vermək qabiliyyətinə malik olurlar.

4. Məmulatlar, qovşaqlar üzrə ixtisaslaşmaqla BƏB-də iştirak edən müəssisələrdə istehsal strukturunun nisbətən sadəliyi idarəetmə. Keyfiyyətə nəzarət problemlərini universal müəssisələrə nəzərən xeyli asan və yüksək səviyyədə həll etməyə imkan verir.

5. Məmulatlar, yanmfabrikatlar üzrə BƏB-də ixtisaslaşma zamanı hazır əmtəə istehsalından fərqli olaraq, marketinq siyasəti əsasən subyektiv şəxsi fikirlərin üstünlük təşkil etdiyi kütləvi istehlakçıların deyil. Obyektiv peşəkar fikirlərin üstünlük təşkil etdiyi məhdud istehlakçıların (mühəndislər, texniki kadr heyəti üzvləri, müəssisə və s.) cəlb edilməsinə yönəldiyindən dəfələrlə az xərc tələb edir. Çünki ola bilər firmanın istehsal etdiyi hazır əmtəələr rəqiblərinkindən daha keyfiyyətli olsun. Lakin, düşülməmiş marketinq siyasəti nəticəsində rəqiblər onu subyektiv fikirli kütləvi istehlakçılar bazarında üstələsinlər. Ancaq detallar texnoloji əməliyyatlar

bazarında istehlakçılar sırf professionallar olduğundan belə halın mümkünlüyü çox cüzi səviyyədədir. Həm də qeyd etmək lazımdır ki, bu bazarda istehlakçıların sayının az olmasına baxmayaraq onların (müəssisələrin) istehlak səviyyəsi kifayət qədər yüksəkdir.

6. Hazırki dövrdə sənayedə (xüsusən maşınqayırmada) əsas meyllərdən birİ hissə və qovşaqlann infikasiyasıdır. İnfi- kasiya müxtəlif əmtəələrdə istifadə olunan eyni məmulat və detalların, yarımfabrikatların sayının çoxaldılmasını nəzərdə tutur. Odur ki, bu tendensiya BƏB-də məmulatların istehsalı və ixracı ilə iştirak edən dünya təsərrüfatı subyektlərinin ixtisaslaşma səviyyəsinin daha da dərinləşməsinə təminat verməklə bərabər, onların bazarlarını da xeyli genişləndirir. İnfıkasiya meylinin güclənməsi nəticəsində gələcəkdə konkret məmulatın, hissənin, qovşağın bazan və ondan hazırlanan əmtəələrin ayrı -ayrılıqdakı bazarlarından daha böyük ola bilər.

7. Respublikamızın əmtəələrinin rəqabəlqabiliyyətli ola biləcəyi İEOÖ- dən çoxu öz milli İstehsalçılarını qorumaq üçün hazır əmtəə idxalına yüksək səviyyəli rüsumlar təyin etmişlər. Onların səviyyələri br çox hallarda son məhsulun dəyərinin 50-100%-i arasında tərəddü edİr. Lakin məmulatlar və yanm-fabrikatlar idxalına qoyulan rüsumlar hazır əmtəəyə qoyulan rüsumlara nisbətən xeyli aşağıdır, bəzi hallarda bu məhsulların idxalına heç bir rüsum tətbiq edilmir. Ona görə do milli müəssisələrimiz həmin İEOÖ-in firmaları ilə beynəlxalq kooperasiya əlaqələrinə girməklə son məhsul istehsalı üçün zəruri olan bütün detal və qovşaqları həmin ölkəyə ixrac edər, orada yerlİ firmalar onun yığımını həyata keçirər.

Məlumdur ki, müasir dövrdə beynəlxalq səviyyədə tələbin ödənilməsi üçün əmtəələrin texniki-texnoloji səviyyəsi çox yüksək olmalıdır. Bu isə əmtəələrin hər hansı ayrıca bir müəssisədə kütləvi istehsalın maksimum səmərəlilik baxımından praktiki olaraq qeyri-mümkün edir. Effektiv istehsalı təşkil edə bilmək üçün müəssisələrin BƏB-də ayrı-ayrı məmulatlar, hissələr, qovşaqlar, texnoloji əməliyyatlar üzrə ixtisaslaşmaları və kooperasiya əlaqələrinə girmələri zərurət halım alır.

Mövcud reallıqları nəzərə alsaq görərik ki, məhz burada Azərbaycan müəssisələri üçün həqiqətən geniş imkanlar açılır.

BƏB-də hissə qovşaqlar üzrə ixtisaslaşmış və kooperasiya əlaqələrinə girmiş müəssisələrdə sıfırdan başlayaraq hazır əmtəə istehsal edən müəssisələrə nisbətən məhsul vahidinə çəkilən əmək xərcləri 2,5-5 dəfə aşağıdır.

Beynəlxalq kooperasiya əlaqələri hazır əmtəə istehsalına tələb olunan vaxtı da xeyli azaldır. Belə kİ, BMT-nin Avropa üzrə iqtisadi komissiyasının məlumatlarına əsasən texniki əməkdaşlıq, detallar, məmulatlann mübadiləsi üzrə ixtisaslaşma yeni növ əmtəə istehsalına tələb olunan zamanı 14-30 ay qısaldır, yeni istehsal güclərinin inşasına sərf olunan xərcləri orta hesabla 50-70% aşağı salır. BƏB-də məmulat və yanm- fabrikatlar üzrə ixtisaslaşma ən çox maşınqayırma sənayesində inkişaf etmişdir. Bu aşağıdakılarla izah edilir:

1. Maşınqayırma sahəsinin əmtəələrinin mürəkkəb konstruktiv xüsusiyyətləri vardır və maşınlar, avadanlıqlar, mexa- nizmlər çox saylı komponentlərdən ibarətdir. Konstruktiv mürəkkəblik səbəbindən onlann bir çoxunun istehsalı müxtəlif ölkələrdən olan onlarla, yüzlərlə, hətta bəzən minlərlə fırma- lann öz səylərini (maliyyə vxaitləri, istehsal gücləri, texnologiyaları, elmi-texniki kadr potensialını) birləşdirməsi zərurəti yaradır. Misal üçün, bir müasir «Boinq» təyyarəsinin istehsalında 20 milyon ədəd detal və qovşaqlardan istifadə olunur. Beb vəziyyət Özü - özlüyündə məmulatlar üzrə ixtisaslaşmanı tələb edir. Odur ki, məsələn, elə həmin «Boinq» təyyarələrinin istehsalı prosesində təxminən 3500 müəssisə iştirak edir.

2. Maşınqayırma sənayesinin məhsullan çoxsaylı kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə malikdir. Eyni zamanda həmin əmtəələr sırasına müxtəlif miqyaslarda (tək-tək, kiçik, böyük seriyalı buraxılış, kütləvi istehsal) buraxılan yüz minlərlə adda məhsul daxildir. Bəzən tək-tək, yaxud kiçik seriyalarla istehsal olunan əmtəələrin buraxılışını istehsal güclərinin tam yüklənməsi, beləliklə də xərclərin azaldılması nöqteyi- nəzərindən az istehsal güclərinə malik müəssisələrdə yerləşdirmək əlverişli olur.

Hazırda maşınqayırma sahəsində beynəlxalq ticarətdə detal və qovşaqların payı 50%-ə yaxındır. Halbuki, 1960-cı ildə bu rəqəm 20% idi.

Respublikamızın məmulat və yanmfabrikatlar üzrə ixtisaslaşmasının sadalananlardan əlavə bir sıra başqa əhəmiyyətli tərəfləri də vardır. Belə ki, ekspertlərin hesablamalarına görə maşın və avadanlıqların istehsalının əməktutum- luğunu 80%-i detal və qovşaqların payına düşür. Həm də hazır əmtəənin dəyərinin 75%-ni məmulat və yanmfabrikatlann qiyməti edir. Deməli, Azərbaycan BƏB-də hissələr, qovşaqlar üzrə ixtisaslaşmaqla bir tərəfdən yuxanda göstərdiyimiz kimi professional, obyektiv fikrə, alıcılıq qabiliyyəti yüksək olan istehlakçılara nisbətən sabit tələbə malik əmtəələr ixrac edəcək, digər tərəfdən isə aydın olur ki, o, özünün bol əmək resurslarından intensiv istifadə edə biləcək və əslində son məhsulun dəyərinin əsas hissəsi ölkəmizdə yaradılacaqdır. Odur ki, bazar iqtisadiyyatına keçid dövrünü arxada qoymaq, BƏB-də ölkəmizin potensial imkanlanna uyğun yer tutmaq üçün Azərbaycan sənayesinin inkişaf etdirilməsinin başlıca yolu, fikrimizcə, respublika müəssisələrinin məmulatlar, detallar, texnoloji əməliyyatlar üzrə ixtisaslaşmasıdır. Lakin bu fikir heç də ölkəmizin hazır əmtəələrin istehsalı və ixracı üzrə BƏB-də İxtisaslaşmasıma səmərəsiz olduğunu iddia etmək kimi başa düşülməməlidir. Məsələ orasındadır ki, kapital çatışmamazhğı şəraitində respublikanın hazır əmtəələr üzrə ixtisaslaşması məmulatlar, yanmfabrikatlar üzrə İxtisaslaşmağa nisbətən çox çətindir və uzun müddət tələb edir. Eyni vaxtda məmulatlar üzrə ixtisaslaşma zamanı ilkin mərhələdə əsasən respublikamızın mövcud elmi-texniki potensialı ilə də (ancaq onları tədricən davamlı şəkildə inkişaf etdirmək şərtilə) bir çox hallarda kifayətlənmək olar. Ona görə də hazır əmtəələr üzrə ixtisaslaşma ölkəmizin BƏB-də iştirakımn perspektiv ali məqsədi kimi qəbul edilərək yaxın gələcəkdə sənayeni dirçəltmək, kapital yığımını təmin etmək, elmi- texniki prosesləri stimullaşdırmaq üçün detallar texnoloji üzrə ixtisaslaşma ən mühüm vasitə kimi götürülməlidir. Hətta Azərbaycanın müqayisəli üstünlüklərə malik olduğu hazır

əmtəə istehsalı dirçəltmək üçün həmin sahələrin müvəqqəti olaraq BƏB-də müvafiq əmtəələrin detal və qovşaqlannın hazırlanması, ixracı üzrə ixtisaslaşması çox səmərəli olardı.

Lakin ümumiyyətlə məmulatlar, texnoloji əməliyyatlar üzrə ixtisaslaşmaya mütləq respublikamızın BƏB-də aynca, müstəqil olduqca geniş imkanlara malik iştirak istiqaməti kimi yanaşılmalıdır. Belə ixtisaslaşma həqiqətən də ölkəmizin çox böyük realizə olunmuş imkanlan həyata keçirməsinə şərait yaradır. Məsələn, fərz edək ki, Azərbaycan hər hansı bir elmtutumlu son məhsulun istehsalında müqayisəli üstünlüklərə malik deyildir, lakin o, həmin məhsulun əməktutumlu, yaxud az elmtutumlu hissələrinin istehsalmda bu cür üstünlüklərə malik ola bilər. Deməli, belə çıxır ki, Azərbaycanın hazır əmtəə şəklində istehsalı üzrə ixtisaslaşa bilməyəcəyi məhsulların buraxılmasında məmulat və yanmfabrikat üzrə BƏB-də ixtisaslaşma nəticəsində iştirak etməsi mümkün olur. Məhz bu amil BƏB-də detallar, qovşaqlar üzrə ixtisaslaşmanın ölkəmizə verə biləcəyi ən böyük töhfələrdən biridir.

Məmulat istehsalı üzrə ixtisaslaşma zamanı respublikamızın ən iri potensiala malik sahəsi, əlbəttə ki, neft-mədən maşınqayırmadır. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın maşınqayırma sənayesinin bütün əsas alt sahələrinin, yəni neft maşınqayırması, elektronika, elektrotexnika, cihazqayırma, dəzgahqayırma, kənd təsərrüfatı maşınqayırması, məişət cihazları istehsalı və digərlərinin beynəlxalq kooperasiya əlaqələrində, detalların, qovşaqlann beynəlxalq müba- dUəsində iştirakı üçün çox geniş imkanlan vardır.

Yanmfabrikatlar istehsalı üzrə respublikamız BƏB-də 3 əsas istiqamətdə ixtisaslaşa bilər: kimya, tikinti və fomakoknoziya sənayeləri.

Azərbaycanın kimya sənayesi ümumiyyətlə SSRİ dövründə yanmfabrikatlann ixracı üzrə ixtisaslaşmışdır. O, dövrdə Azərbaycanın kimya məhsullannın 70%-i ixrac olunurdu. O cümlədən kimyəvi lifin 50 %-i, sulfanolun 65%- i, polietilenin 70yt>-i, epoksit qətranlann 79 %-i, kaostik sodamn 25%-i, kauçuk və lateksin 88%-i, izopropil spirtin 100 %-i xarici bazarlar gedirdi. Sadalananlardan əlavə hazırda respub-

likaraizin süni parça, odadavamlı materiallar, izolyasiya örtük-bri, plastik kütlələr, aşgarlaq (istehsalına görə Azərbaycan SSRl-də l-ci yerdə), etilen, etil spirti, kükürd turşusu və s. bu kimi məhsullann ixracı üçün böyük ehtiyatları mövcuddur.

Respublikamızın yanmfabrikatlar istehsalı üzrə BƏB-də potensial ixtisaslaşma istiqamətlərindən biri də tikinti sənayesidir. Azərbaycanın tikinti sənayesinin əsas üstünlükləri resurslarla jniksək səviyyədə təminatlılıq, ucuz, lakin ixtisaslı işçi qüvvəsi, sənayesinin infrastrukturunun nisbətən inkişaf etmiş olması, iri istehsal güclərinin mövcudluğu, əksər hallarda müəssisələrin resurs yataqlarına çox yaxın yerləşməsi və s. Təkcə bir faktı da göstərmək kifayətdir ki, SSRİ dövründə Azəbaycanm 65 rayonunun 34-də tikinti sənayesi müəssisələri fəaliyyət göstərmişdirlər.

Bütün bunlar onu sübut edir ki, ölkəmizin BƏB-də tikinti sənayesi məhsulları üzrə ixtisaslaşması üçün o qədər də böyük olmayan investisiya qoyuluşları da kifayətdir. İlkin etapda Azərbaycan BƏB-də sement, şifer, üzlük və döşəmə üçün keramik plitələr, dam örtükləri, kərpic, şüşə, plastik və metal borular və digər tikinti məhsullannm istehsalı üzrə ixtisaslaşa bilər.

Azərbaycanın BƏB-də yanmfabrikatlar üzrə ixtisaslaşmasının ən vacib qollarından biri də formakoknoziya məhsulları, yəni müalicəvi əhəmiyyətə malik bitkilərdən hazırlanan nisbətən emal edilmiş xammalın istehsalı və ixracıdır. Ölkəmizin bu sahədə üstünlükləri olduqca böyükdür. Birincisi, Azərbaycanın mütəxəssislərinin bitkilərin tərkibi, hansı bitkinin hansı xəstəliklərdə istifadə olunması barəsində külli miqdarda təcrübəyə malikdirlər, ölkəmizdə fitoterapiya ilə məşğul olan bir sıra professional həkimlər və tibb ocaqlan mövcuddur. Halbuki Qərbdə bu sahə ilə təzə- təzə maraqlanırlar. Onu da söyləmək lazımdır ki, formakoknoziyada Azərbaycanın malik olduqları üstünlükləri əksər hallarda mütləq üstünlüklər kimi qiymətləndirmək olar. Çünki Azərbaycanda yetişən müalicəvi əhəmiyptli bitkilərin çoxu nə Amerikada, nə Avstraliyada, nə də Afrikada bitmir, ikincisi, Ölkəmizdə fəaliyyətinin formakoknoziya İstiqamətində qurmuş neçə-neçə müəssisələr

cuddur. Yəni A2ərbaycanın bu sahədə müəyyən emal texnologiyaları da vardır.

Sevindirici haldır ki, formakoknoziya sferasında Azərbaycan digər ölkələrə nəzərən (təcrübə, tenologiya) əsaslanan üstünlüklərə malikdir. Həm də formakoknoziya ekspertlər tərəfindən hazırda tibbin ən güclü inkişaf perspektivinə malik sahəsi kimi qiymətləndirilir. Bu müasir dövrdə bütün dünyada ekoloji cəhətdən təmiz əmtəələrə, o cümlədən də təbii preparatlara artan tələb ilə izah olunur.

Azərbaycanda 300-dən çox müalicəvi əhəmiyyətli bitki vardır. Onlar ümumilikdə 2000-dən çox xəstəliyin müalicə sində istifadə oluna bilər. Eyni zamanda həmin bitkilərdən vitamin, polivitamin, qüwətləndirici preparatların, bioloji aktiv qida əlavələrinin istehsalı üçün də çox qiymətli .xammaldır.

Zənnimizcə, Azərbaycan həm ekstensiv, həm də intensiv üstünlüklərə sahib olduğu bu sahə üzrə BƏB-də ixtisaslaşmağa mütləq cəhd etməlidir.

Əlbəttə, məmulat və yanmfabrikatlann istehsalı z.amanı əmtəəyə nisbətən az əlavə dəyər yaradır. Lakin bu vəziyyət hazır əmtəəyə nisbətən texnologiya, istehsal vasitələrinə kapital qoyuluşunun azlığı, istehsal proseslərinin, keyfiyyətin idarə edilməsinin asanlığı və burada da zəruri xərclərin azlığı, bazarın genişliliyi, bazar tələbinin hazır əmtəələrə nisbətən stabilliyi yüksək professional istehlakçılann mövcudluğu ilə əlaqədar marketinq xərclərinin dəfələrlə aşağı olması və s. belə amillərlə konpensasiya olunur. Nəticədə əksər hallarda təsərrüfat fəaliyyətinin rentabillik səviyyəsi hazır əmtəə istehsal- çılanna nisbətən yüksək olur. Odur ki, məmulat və yanm- fabrikatlar üzrə ixtisaslaşma respublikamızın BƏB-də iştirakının strateji istiqamətinə çevrilməlidir.

Azərbaycanın BƏB-də mövqeyinin inkişafına təsir edən stimulların yaradılması üçün səyləri, fikrimizcə 5 əsas istiqamətdə cəmləşdirmək lazımdır:

1. Ixracyönlü BƏB modelinin ölkə iqtisadiyyatına hərtərəfli tətbiqinə nail olmaq;

2. Respublikamızı xarici birbaşa İnvestisiyaların yatınlmasının dünya miqyasında ən cəlbedici obyektlərindən birinə çevirmək;

3. Ölkədə elmi-texniki prosesləri hərəkətə gətirmək, sürətləndirmək, Azərbaycanın əmtəə idxalçısından müasir texnologiyalann idxalçısı və istehsalçısına çevirmək;

4. Milli təsərrüfatın fəaliyyətin əsas hissənin resurslann təkrar emalı üzərində qurulmasına nail olmaq;

5. Milli təsərrüfatın bütün həlqələri və fazalarından rəqabətqabiliyyətliliyin beynəlxalq miqyaslara qədər artırılması üçün zəruri tədbirlər hazırlamaq və reallaşdırmaq.

Respublikamızın BƏB-də mövqeyinin yaxşılaşdırılması yolunda atılması ən birinci addım iqtisadi artımın ixracyönlü modeli əsaslandınimasıdır. Bu sahədə dünya təcrübəsinə əsaslanan effektiv dövlət proqramının yaradılması artıq zamanın tələbinə çevrilmişdir. Fikrimizcə, ixracın stimullaşdıniması uçun aşağıda göstərilən təkliflər həmin proqramm bəzi elementləri rolunu oynaya bilər:

1. Yalnız emal sənayesinə aid ixraclann fəaliyyətinin stimullaşdıniması;

2. İxracın kommersiya bankları ilə dövlət tərəfindən birgə kreditləşdirilməsi;

3. Milli ixracçıları kreditləşdirən banklara dövlət qarantlarmm verilməsi;

4. Azərbaycan məhsullarım alan xarici firmalara dövlət tərəfindən, yaxud dövlət qaranti ilə kommersiya banklan tərəfmdən kreditlərin təqdim edilməsi;

5- İxracçıların kreditlərə görə kommersiya banklarına ödədikləri faizlərin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdınlması;

6. İxracçılara milli nəqliyyat tarifləri ilə beynəlxalq nəqliyyat tarifləri arasındakı fərqin ödənilməsi;

7. İxracm bir başa dövlət tərəfindən sığortalanması;

8. İxrac kreditlərinin dövlət tərəfindən sığortalanması;

9. İxracçı müəssisələrin idxal etdikləri əsas fonlardan tutulan gömrük rüsuralannm ləğvi;

10. İxracçı fırmalann əsas fonlara görə öhdəlikləri əmlak vergisinin ləğvi;

11. İxracçı fırmalann mallann rektamlaşdınimasma görə vergidən azad edilməsi;

12. İxracçı firmaJann qiymətli kağızlarından gələn gətirə qoyulan verginin azaldılması və ya ləğvi;

13. İxracçı müəssisələrdə əsas fonlann amartizasiya müddətinin qısaldılması;

14. İxrac artımından tutulacaq mənfəət vergisinin ləğv edilməsi;

15. İxracçılara müəyyən əlavə imtiyazlann verilməsi (məsələn, su, elektrik, qaz və s. tariflərdə bir qədər güzəştlər);

16. Dövlət tərəfindən ixracçılara informasiya, marketinq konsultativ xidmətlərin göstərilməsi;

17. İxracçı fırmalann xarici bazarlann tədqiqi üzrə marketinq proqramlannm dövlət tərəfindən maliyyə cəhətdən dəstəklənməsi;

18. İxracyönlü müəssisələrin eimtutumlu, mürəkkəb avadanlıqların quraşdnlması, mənimsənilməsi, eləcə də onlann istismar olunması üə bağlı kadr hazırlığı xərclərini dövlətin öz üzərinə götürməsi;

19. Beynəlxalq tender və torpaqlarda milli firmalarm iştirakı ilə əlaqədar xərclərin dövlət tərəfindən konpensasiya olunması;

20. Bilavasitə dövlətin təşəbbüsü ilə faktorinq əməliy-yatlannm təşkili və genişləndirilməsi, bu sahədə müvafiq qanunvericilik bazasının formalaşdınlması;

21. Fəaliyyətini xarici lisenziyalar əsasında qurmuş ixracyönlü firmalara səlahiyəddi güzəştlərin tətbiqi;

22. Elmi-tədqiqat institutlann, ali təhsil ocaqlarmın kadr potensialının dövlət tərəfindən fəal surətdə xarid iqtisadi fəaliyyətin problemlərinin araşdırılması məsələsinə cəlb edilməsi və onlann elmi araşdırmalanmn nəticələrinin aktiv şəkildə ixracyönlü formalara ötürülməsi.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatında ekstensiv ixrac modelinin istifadə olunması üçün zəruri resurslann əksər hissəsi məhdudlaşmışdır. Dünya bazarına xammal ixracının

genişləndirilməsi imkanlan getdikcə ölkənin mövcud resurs potensialı ilə daha ciddi ziddiyət təşkil edir. Qeyd edilən şərtləri nəzərə almaqla Azərbaycanın ixrac potensialının sonrakı genişləndirilməsi yalnız o zaman haqlı əsaslandırılmış olar ki, bu genişləndirmə yüksək səviyyədə əlavə edilmiş dəyərə malik məhsullann ixracının artınıması istiqamətində inkişaf etdirilməsi olsun.

Hazırda Azərbaycamn rəqabət üstünlüklərinə malik olduğu sahələrdə ixracın stimullaşdınlması ilə bərabər, müəyyən dövr yumşaq idxalın əvəzlənməsi siyasətinin də yeridilməsinə ehtiyac vardır. Burada dünya ölkələrinin təcrübəsindən hərtərəfli bəhrələnmək olar. Məsələn, Cənubi Koreya və Braziliya iqtisadi inkişaflarının ilkin etaplannda yalnız o məhsulların idxalına əlverişli şərait yaradırdılar ki, onlar ixrac üçün nəzərdə tutulmuş əmtəələrin hazırlanmasında istifadə olunsunlar. Digər məhsullann idxalı isə ya məhdudlaşdınlır, ya da qadağan olunurdu.

İxracyÖnlü BƏB modelinin tətbiqinin ən vacib şərtlərindən biri də odur kİ, ixracın stimullaşdınlması mütləq məhsul istehsalından satışdan sonrakı servisədək əmtəə yeridilməsinin bütün mərhələlərini əhatə etməlidir. Əks halda təkrar istehsalın birinci mərhələsində əldə edilmiş effekt sonrakı mərhələlərdə heçə endiriləcəkdir və həyata keçirilən tədbirlər real nəticə verməyəcəkdir. Nəticədə ixracı stimullaşdırmaq üçün İxracçılara verilən güzəştlər ixracın artmaması ilə əlaqədar büdcəyə geri dönməyəcək və dövlət üçün ağır yükə çevriləcəkdir.

Sözsüz ki, respublikamızın BƏB-də mövqeyinin yaxşılaş-dınlması məqsədilə həyata keçirməli olan ən vacib məsələlərdən biri Azərbaycana birbaşa investisiyaların əsas idxalçılanndan birinə çevirməsidir.

Azərbaycanı birbaşa investisiyalar üçün cəlbedici ölkəyə çevirə bilməsək onun BƏB-də iştirakının milli maraqlar baxımından səmərəliliyinin artırılması üçün hazırlanan tədbirlərin əksər hissəsi kağız üzərində qalacaqdır (aydındır ki, burada məsələnin əsas mahiyyəti xarici birbaşa investisiyaların qeyri-neft sektoruna. Qeyri-resurs sektoruna, emal sənayesinə

C3ih edilməsindən ibarətdir). Çünki, Azərbaycan özü hazırda iqtisadiyyatı kapital resurslarının çatışmamazlığı ilə xarakterizə olunan dövlətlər sırasına daxildir.

Digər tərəfdən isə ekspertlərin hesablamalarına görə ölkəmizin təkcə emal sənaye müəssisələrinin fəaliyyətini yenidən qurmaq üçün 9,64-10,64 milyard ABŞ dolları investisiya tələb olunur. Elektroenergetika sahəsini yeniləşdirmək üçün tələb olunan məbləğ 2,5 milyard, kimya, neft kimya sənayesi üçün 1,1 milyard, kənd təsərrüfatında ən azı 450 milyon, yüngül sənayedə isə 350 milyon ABŞ dollarına bərabərdir. Bütünlüklə neft -qaz kompleksinin ehtiyaclarını da nəzərə alsaq, bu məbləğ 20 milyard ABŞ dollarına çalacaqdır. Aydındır ki, respublikamızın ÜDM-dan 2-4 dəfə çox olan bu qədər vəsaiti müasir dövrdə Ölkə daxilində tapmaq qcyrimümkündür. Onların hamısının kreditlər şəklində cəlb edilməsi isə iqtisadi cəhətdən təhlükəli, səmərəsiz və yolverməzdir. Odur kİ, yaranmış vəziyyətdən yeganə çıxış yolu birbaşa investisiya axmlanmn mümkün qədər çox hissəsinin Azərbaycana yönəldilməsinə nail olmaqdan ibarətdir. Bunun üçün ilk növbədə ölkəmizdə rəqabətqabiliyyətli investisiya mühiti fo nnal a şdırı İmalıdır.

İnvestisiya mühiti kapital qoyuluşlanmn effektivliyini və təhlükəsizliyini təmin edən faktorların məcmusudur.

Təhlükəsizlik faktorları ölkədə iqtisadi və sosial siyasi konyuktorunun kifayət qədər asan proqnozlaşdırıla bilinməsi ilə bağlıdır.

Əlbəttə, məlumdur ki, ölkəmizdə əlverişli investisiya mühitinin formalaşdırılması məqsədilə artıq bir sıra mütərəqqi addımlar atılmışdır. Lakin əldə edilmiş nailiyyətlərlə kifayətlənmə mövqeyini heç nə ilə əsaslandırmaq olmaz.

İndi yaradılmış ilkin təməllərə əsaslanaraq səylərimizi Azərbaycanın investisiya mühitinin digər ölkələrin müvafiq sahələrindən daha da əlverişli edilməsi üzərində cəmləşdirməliyik.

Ona görə ki, yalnız Azərbaycanda İnvestisiya qoyuluşlarının gəlirlilik əmsalının başqa ölkələrə nisbətən yüksək

olacağı təqdirdə onlann məhz ölkəmizə yatırılacağına ümid bəsləmək olar.

Azərbaycanda rəqabətqabiliyyətli investisiya mühitinin yaradılması siyasətinin aşağıdakı 4 saylı sxem üzrə reallaşdırılması, fikrimizcə, məqsədə uyğun olardı:

Sxem 4




Azərbaycanda investisiya mühitinin təkmilləşdirilməsi üçün ilk növbədə bu sahədə qanunvericilik bazasının qüsur- lannm aradan qaldırılması lazımdır. Fikrimizcə, «Xarici investisiyaların qorunması haqqında» qanunun əsas nöqsanları bunlardır:

a) qeydiyyat və lisenziya alınması proseduru həddindən artıq reqlamentləşdirilmişdir;

b) investisiya fəaliyyətinin mühüm hissəsi olan portfel investisiyaları mövzusuna heç toxunulmamışdır;

c) qanundakı bəzi qeyri-dəqiqliklər ucbatmdan bir sıra vacib məsələlər kifayət qədər işıqİandınlmır: məsələn, gəlirin və kapital repartrİasiyasına qanun tərəfindən zəmanət verilsə də məsələnin valyuta rejimi ilə əlaqəsi açıqlanmır;

ç) birbaşa və dolayı konfiskasİya daxil olmaqla ekspropriasiyaya qarşı heç mir zəmanət verilmir;

d) konfıkasiya və konpensasiya anlayışlarının mahiyyəti qanunla açıqlanmır;

e) əgər münsiflər məhkəməsi nəzərdə tutulmamışdırsa konfliktlərin nizamlanma prosedurunun necə olacağı (yerli məhkəmə, yoxsa yerli arbitaj) dəqiqləşdirilməmişdir.

Respublikamızın investisiya mühitinin əlverişliyinin daha da artırılması məqsədilə yuxanda sadalananlardan əlavə ilkin mərhələdə həyata keçirilməsi zəruri olan tədbirləri qısaca olaraq şağıdakı kimi şərh edə bilərik:

1. Layihənin risk dərəcəsindən asılı olaraq investorlara müxtəlif mükafatların təyin edilməsi praktikasını geniş yaymaq lazımdır;

2. Xarici investorlara verilən güzəştlər, imtiyazlann səviyyəsi onlann fəaliyyətinin nəticəsinin beynəlxalq səviyyədə rəqabətqabiliyyətli, yüksək texnoloji, ekoloji cəhətdən təmiz olması və s. şərtlərindən asılı olmalıdır;

3. Layihələrin təsdiqinin çoxmərhələli olması aralıq mərhələlərlə həddən artıq yüklənməsi aradan qaldırılmalıdır;

4. Ölkədən kənara çıxarılmış kapitalın geri qaytanıması mütəxəssislərin fikrincə həmin kapitalın həcmi 10-15 milyard ABŞ dolları təşkil edir. Eyni zamanda ekspertələrin hesablamalarına görə indinin özündə belə Azərbaycandan illik kapital axını 1 milyard ABŞ dollanndan çoxdur. Fikrimizcə xaricə aparılmış kapitalın ölkəyə gətiriləcək qanun layihələri, qərar- lan qəbulu vaxtı çatrmşdır. Misal üçün, xaricə qanunsuz yolla kapital aparmış şəxslərin aministisiyası, onların var-dövlətinin toxunulmazlığı haqqında qanun qəbul etmək olar ki 1990-cı

ilbrdo kənara aparılmış və əgər belə demək mümkünsə, artıq geri qayıtmayacaq kapitalın ölkəyə axınım stimullaşdırır. Onu da qeyd elmək lazımdır ki, lEO-in əksərində belə qanun fəaliyyət göstərir;

5. İqtisadiyyatın real sektoruna yönəldilmiş investisiya lahiyələrindən gələn bank gəlirlərinin vergilərdən azad edilməsi zəruridir (müəssisələr verilən kreditlər nəzərdə tutulmur);

6. Perspektivdə ölkəyə güclü investisiya axınına şərait yaratmaq üçün hazırki dövrdə investisiyalann bir hissəsini müvafiq infrastrukturunun yaradılmasına yönəltmək lazımdır - investisiyaları belə layihələrə cəlb etməyin əsas yolu isə ondan ibarətdir ki, bərpa olunacaq, yaxud tikiləcək obyektlər sonradan müəyyən müddətə investorların idarəetməsinə verilsin. Əlbəttə dövlət həmin obyektləri istismar edən investor şirkətlər üzərində administrativ nəzarət hüququnu saxlamalıdır (qiymətləri süni surətdə qaldırmasınlar, güzəştli istifadə hüququna malik əhali təbəqəsinin və təşkilatların hüquqlarını pozmasınlar deyə və s.}. Lakin bütün hallarda dövlət investorları yatırılan vəsaitin qaytarılacağı haqqında zəmanət, onlara həmin obyektləri kifayət qədər gəlir götürməyə bəs edəcək müddətə idarəetmə hüququ verməlidir və bu işlər həm xüsusi. Həm də dövlət strukturlarının iştirakı ilə tərtib edilmiş, müəyyən strateji məqsədə nail olmasına xidmət edən baş plan üzrə həyata keçirilməlidir;

7. Əhalinin əlində cəmlənmiş vəsaitlərin investisiyalara yönəldilməsi yollarının işlənib hazırlanması-burada ən çətin problem əhalinin banklara olan inamının bərpa edilməsidir. Bunun üçün isə dövlət bir tərəfdən banklann fəaliyyəti üzərində nəzarəti gücləndinnəli, digər tərəfdən isə əhaliyə onların banklara qoyulmuş vəsaitlərinin 100% qaytanlacağı haqqında zəmanət verməlidir.

Müasir dövrdə Azərbaycanın BƏB-də mövqeyinin yaxşılaşdınlması qarşısında duran ən vacib məsələ onun hazır maşın, avadanlıq idxalından komprcks texnologiya, potent. lisenziya idxalına yönəldilməsi və respublikamızın özünün texnika, texnologiyanın iri istehsalçısına çevrilməsinin təmin edilməsidir.

Sirr deyildir ki, XXI əsrdə ölkələrin iqtisadi inkişaf səviyyəsi və templərini ETT müəyyən edəcəkdir, beynəlxalq iqtisadi rəqabətdə isə elmi tədqiqat işləri üçün daha əlverişli şərait yaradacaq dövlətlər qalib gələcəklər. Odur ki, hazırda milli iqtisadiyyat yalnız daim innovasion yeniliklərin kəşfi və tətbiqi yolu ilə öz mövqelərini qoruya, gücləndirə bilər. Təkcə bir faktı göstərmək kifayətdir ki, son illər ərzində İEÖ-in ÜDM-un əlavə artımının 90 %-i innovasiya və elmi-texniki yeniliklər hesabına təmin edilir.

Amerikanın alimlərinin hesablamalanna görə keçən əsrin 70-ci illərindəki ən uğurlu 17 innovasiyadan gələn mənfəət norması 26% olduğu halda, amerikan biznesinə son 30 ildə qoyulan mənfəət norması cəmi 16% olmuşdur, z^nnimizcə, ölkəmizin BƏB-də mövqeyinin yaxşılaşdırılması üçün texnologiyalar idxalına keçməsinin zəruriliyi uzun-uzadı şərh etməyə ehtiyac yoxdur. Bu addımın labüdlüyünə əmin olmaq üçün sadəcə olaraq «toxnologiya» anlayışının tərifini göstərmək, fikrimizcə kifayətdir- texnologiya praktiki məqsədlərə ən səmərəli şəkildə nail olmanın elmi metodudur. Ona görə də dövlət perspektivdə milli mənafelərin qorunması və səmərəli şəkildə reallaşdırılması naminə öz səylərini Ölkə daxilində elmi- texniki və innovasion proseslərin inkişafı üçün əlverişli şəraitin formalaşdınimasına yönəltməlidir. Bu məqsədilə yaxın gələcəkdə aşağıdakı tədbirlərin həyata keçirilməsi çox vacib əhəmiyyət kəsb edir;

1. Azərbaycanda innovasion inkişaf modelinə keçidi sürətləndirmək üçün bu işə rəhbərlik edəcək konkret orqan- Dövlət Elm və Texnika (Texnologiya) Nazirliyi yaradılmalıdır. Həmin nazirliyin yürüdəcəyi elmi- texniki siyasətin əsas vəzifəsi milli innovasiya sisteminin formalaşdırılması, milli iqtisadiyyatı ETT-nin nəticələri və yeni tenologiyalarla təmin edəcək mexanizminin bütün həlqələrinin yaradılması, inkişaf etdirilməsi olmalıdır.

Bu sistem innovasiya fəaliyyətinin hüquqi tənzimlənməsi, elmi-texniki fəaliyyətin aktivləşdirilməsi, innovasion infrastrukturunun formalaşdırılması tədbirlərini elmi-texniki fəaliyyətə dövlət tədbirlərinin iqtisadi və inzibati instru-

mentlərinin işlənib **hazırlanması, ümummilli,** sahəvi, regional innovasiya mərkəzlərinin yaradılmasını əhatə etməlidir. Respublikada innovasion siyasətin həyata keçirilməsi onun iştirakçılarının dəqiq müəyyənləşdirilmiş qarşılıqlı əlaqələr sisteminin olmasını tələb edir. Qarşıhqlı əlaqə sxemlərindən biri aşağıdakı kimi ola bidər. (Sxem 5)

**Sxem 5**



2. Elmi-texniki tədqiqatlann, innovasion layihələrin reallaşdırılması yönəldilən hər cür xərclərin (fiziki, hüquqi şəxslərin, bankların investisiyalarının) ən elmi-texniki fəaliyyətin bütün növ vergilərindən tamamilə azad edilməsi. Burada xarici ölkələrin, məsələn, Fransanın təcrübəsinə uyğun olaraq vergi güzəştləri aşağıdakı şəkildə tətbiq edilə bilər:

I mərhələdə elmi-tədqiqat ilk 7 ildə vergilərdən tam azad olunsun.

II mərhələdə 8-9-cu illər elmi tədqiqat xərclərindən tutulmalı vergilərin 25%-i ödənilsin.

III mərhələdə lO-ll-ci illər elmi tədqiqat fəaliyyətindən tutulmalı vergilərin 50%-i büdcəyə cəlb olunsun.

IV mərhələdə 12-13-cü illər elmi texniki, innovasion fəaliyyətə görə ödənilməli vergilərin 75%-i tutulsun.

V mərhələdə 14 və sonrakı illərə ödənilməli vergilər 100% büdcəyə cəlb edilsin.

3. Şirkətlərin ETT və təcrübə konstruktor işləri üçün ayırdıqlan kapitalın artım hissəsinin vergilərdən azad edilməsi (bu tədbirlərin həyata keçirilməsi yuxandakından fərqli olaraq hər hansı zaman müddəti ilə məhdudlaşdmlmamalıdır).

4. Müəssisələrin vergi qoyulan gəlirlərindən ETTKİ-ni maliyyələşdirmək üçün borc aldıqları vəsaitə görə ödədikləri faizləri çıxmaq.

5.Müəssisələrdə tədqiqat bölməsi İşçilərinin, yaxud ümumiyyətlə bütün işçilərin ixtisas artırmasına, firmalarda kadr hazırlığına yönəldilən xərclərin vergilərdən azad edilməsi.

6. Lizinq şirkələrinin elmi-tədqiqat və innovasiya layihələrin reallaşdmlmasından əldə etdikləri gəlirlərinin vergidən azad edilməsi.

7. Elmi-texniki və innovasion proyektlərin həyata keçirilməsi üçün gətirilən avadanlıqlann gömrük rüsumlanndan tamamilə azad edilməsi.

Burada qeyd etmək lazımdır ki, dövlətin ETTKİ-lərinə vergi güzəştləri bazar iqtisadiyyatı şəraitində subsidyalara nisbətən bir sıra üstünlüklərə malikdir:

a) subsidyalaşdırmadan fərqli olaraq vergi güzəştləri əvvəlcədən avans kİmi deyil, real investisiya və innovasiya fəaliyyətinə mükafat kimi verilir;

b) o, xüsusi sektorun elmi-tədqİqal istiqamətlərini seçmək və onun nəticələrini reallaşdırmaq sahəsindəki məsuliyyətini saxlayır, çünki subsidiyalardan fərqli olaraq bu zaman xüsusi sektor dövlət vəsaitini deyil, öz vəsaitini xərcləyir;

c) firmalar vergi güzəştləri öz əməllərinin nəticəsi, onların fəaliyyətinə verilən yüksək qiymət kimi qəbul edərək daha da stimullaşdırırlar.

Hökümətin ölkədə elmi-texniki proseslərin sürətləndirmək məqsədilə həyata keçirə biləcəyi digər tədbirlərə aşağıdakılar daxildir:

I. İnnovasion və vençtır layihələrin həyata keçirilməsi zamanı yaranacaq risklərin sığortalanması sisteminin təşkili,

II. Elmi tədqiqatlar üçün istifadə olunan əsas fonların amortizasiya müddətinin 1 -2 ilə qədər azaldılması.

III. İntellektual mülkiyyətin qorunması xərclərinin xeyli aşağı salınması, yaxud və xərclərin dövlət tərəfindən kopcn-sasiya edilməsi.

IV. Sinqapurun təcrübəsinə uyğun olaraq, öz sahəsində lider sayılan, əvvəllər ölkədə buraxılmayan yeni məhsullar istehsal edən müəssisələrə dövlətin xüsusi güzəştli rejim yarat- masilə bərabər, müəyyən müddət daxili bazarda onları analoji xarici əmtəələrin rəqabətindən qorunmağa təminat verməsi.

V. İnnovasion fəaliyyətiləngidən səbəblərdən biri də ETTKİ ilə məşğul olan respublika institutlarının, müəssisələrinin idarəetmə sferası işçilərinin kifayət qədər iqtisadi biliklərinin olmamasıdır. Elmi-texniki fəaliyyəti həyata keçirən təşkilatların menecerləri müasir dövrdə özləri potensial investor tapmalı, onu maraqlandırmalı, vəsait qoyuluşlarının effektivliyini sübut etməli, layihələrin həyata keçirilməsi zamanı yaranacaq riskləri minimumlaşdırmah, işin hüquqi incəliklərini də mükəmməl bilməlidir. Ona görə də Elmi-tədqiqal institutları, konstruktor büroları və sair elmi təşkilatların menecer heyətinin əsaslı ixtisaslaşdırma kurslannın kiçilməsi üçün dövlət xüsusi proqram hazırlamalı və reallaşdırmalıdır.

VI. ETTKİ-nin maliyyələşdirilməsi göstəriciləri dünya səviyyələrinə qaldınlmahdır. Məsələn, xüsusi şirkətəlrin ETTKİ-nin ABŞ-da 35,9%-i, Yaponiyada 20,5%-i, Almaniyada 33,3%-i dövlət vəsaitləri ilə həyata keçirilir.

VII. Elmi-tədqiqat işlərinin aparılmasında ali təhsil ocaqlarının potensialından geniş istifadə edilməsinə nail olmaq lazımdır. Bunun üçün ilk növbədə adekvat maliyyələşdirmə və fəaliyyətin sifarişlər əsasında qurulması zəruridir. Təsadüfü deyildir ki, bu prinsipləri əsas götürən ABŞ-da ETTKİ-nin 18,2%-i, Yaponiyada 19,3%-i, Almaniyada 19,1%- i, Fransada 17,5%-i, Böyük Britaniyada 20%-i, bəzi kiçik Avropa ölkələrində isə 25%-dən çoxu məhz universitetlər və institutlar, yəni ali məktəblər tərəfindən həyata keçirilir.

VIII. Dövlət elmi-tədqiqat institutları və ali təhsil ocaqlarının fəaliyyətinin, konstruktor bürolannm fəaliyyətinin, sənaye və s. sahələrdə kooperasiyası və korparasiyasma nail olmaq-belə fəaliyyəti hərtərəfli stimullaşdırmaq lazımdır.

IX. Dövlətin elm və texnika sahəsində ən yeni nailiyyətlər haqqında məlumatların yığılması, emalı, sənaye müəssisələrinə ölürülməsi öz üzərinə götürülməsi.

X. Proiritet sahəsində tender əsasında dövlət sifarişlərindən geniş istifadə edilməli və əldə edilmiş texnika, texnologiyalar, lisenziya, potcnt şəklində və yaxud lizİnq vasitəsilə aktiv surətdə sənaye müəssisələrinə ötürülməlidir.

XI. Eyni sahədən olan iri sənaye şirkətləri və dövlət tərəfindən birgə maliyyələşdirilən tədqiqat mərkəzləri yaratmaq.

Elm və texnikanın inkişafının stimullaşdırılması üzrə müxtəlif tədbirlər həyata keçirərkən ilk növbədə nəzərə almaq lazımdır ki, bu sahədə qəbul olunan qanun layihələri təkcə ETTKİ-nin aparılmasını deyil, həm də onun nəticələrini istehsal sferasına sürətlə və hərtərəfli tətbiqini də stimullaşdırmalıdır. Bundan əlavə dövlət təkcə elmi-tədqiqat innova- siya, yaxud vençur fəaliyyəti üçün əlverişli mühit yaratmaqla kifayətlənməməlidir. O, eyni zamanda həmin mühitdəki «mülayim iqlim» dəyişməyəcəyinin, dəyişsə də yalnız daha da mülayimləşəcəyinin qarantı olmalıdır.

Azərbaycanın BƏB-də mövqeyinin yaxşılaşdırılması üçün milli iqtisadiyyatın mövcud resursların intensiv istifadəsinə keçməsinə nail olmaq vacib şərtdir. Resurslardan istifadənin inlensivləşdirilməsi xammal, hazır əmtəə istehsalı prosesində aralıq proseslərin azaldılması, təkrar emal üçün ehtiyatların istifadəsi, yüksək resurstutumlu sahələrin ləğv edilməsi, materila və enerjiyə qənaət proqramlarının tərtib edilməsi və reallaşdırılması, ilkin resurs hasilatı sahələrinin istehsal güclərinin resursların təkrar emalına yönəldilməsi, yeni enerji mənbələrinin yaradılmasını nəzərdə tutur. Bu sadalanan tədbirlərin həyata keçirilməsi mİUi iqtisadiyyatın fəaliyyətinin lullantısız və az tullantıh texnologiyalar üzərində qurulması vasitəsilə mümkündür.

Tullantısız və az tullantıh texnoloji üsul istehsalın elə bir tərkib hissəsidir ki, təbii sərvətlərin və materiallann kompleks emalına, istehlak dəyərinə malik faydalı elementlərin hamısının istifadəyə cəm olunmasını təmin edir, bir sahənin tullantıları başqa sahədə xammal kİmi istifadə olunur.

Dünya təcrübəsində resursların təkrar emalı iki istiqamətdə inkişaf edir:

a) lullantılann istehsala cəlb edilməsi;
b) istehsalda zay məhsullann istifadəsi.

Ekspertlərin hesablanmalan göstərir ki, əgər resursqoru-yucu, enerjiyə qənaət edən müasir texnologiyadan istifadə etməklə yüngül sənayedə maya dəyərini 30% azaltmaq olsaydı, bu istehsalın həcminin iki dəfə çoxalması ilə nəticələnərdi. Hesablamalara görə əlvan, qara metalların təkrar emalı üçün yararlı olan ehtiyatlannm dövriyyəyə cəlb edilməsi sənayenin müvafiq xammal bazasını 40-45% artırardı. Məlumdur ki, təkrar metaldan bir ton ielalın alınması dəmir filizinə nisbətən 3,5-4 dəfə (lomdan alman polad isə 20-25 dəfə) ucuz başa gəlir, 8-10 dəfə az enerji tələb edir, az tullantı verir. Yaxud, mütəxəssislərin rəyinə görə respublikada havaya buraxılan kükürdün miqdarı optimal səviyyələrə endirilərsə əldə edilən xammal hesabına Azərbaycanda kükürd turşusu istehsalını 2-
2,5 dəfə atırmaq olar.

Təkrar xammal emah üçün əsas mənbələr lom, şlak, şlam, fızinka və mənəvi cəhətdən aşınmış maşınlar, avadanlıqlar, dəzgahlar, hissələr, köhnəlmiş dəmir yolu relsləri, borular,zay məhsullar,sənaye tullantıları və s.

Respublikada təkcə müxtəlif sənaye müəssisələri ərazisində yığılıb qalmış metalların ehtiyatları milyonlarla tondur. Eyni zamanda kənd təsərrüfatında da metallom ehtiyatı vardır. Demək olar ki, respublikanın hər kəndində köhnəlmiş kənd təsərrüfatı maşınlannın qəbristanlığına rast gəlmək mümkündür. Kompleks istifadə şərtləri daxilində bu külli miqdarda resurs mənbəsi deməkdir. Yalnız Daşkəsəndə dəmir filizi, alunit, mərmər mədənlərinin açıq üsulla istismarı şəraitində çıxarılan əhəng və boş süxurlar istifadə edilsə milyonlarla ton sement, kərpic, müasir yüngül üzvlük materillar və s. tikinti materialları əldə etmək olar. Bunlardan əlavə tərkibi külli miqdarda əlvan metallarla zəngin olan məişət tullantılan, tərkibi neft qalıqları, neftli maddələr, sütkü materialları, mazut, texniki yağlar, üzvi maddələr, metal oksidləri ilə zəngin olan kimya, neft-kimya, neft-qaz çıxarma müəssisələrinin havaya, suya, torpağa atılan tullantıları da xammalın təkrar emalının mühüm mənbələridir. Həm də yaddan çıxarmaq olmaz ki, respublikanın faydalı qazıntıları öz tərkibinə görə kompleks xarakterlidir. Onların tərkibində dəmir və alüminiumdan başqa sink, qalay, xrom, qurğuşun, mis, molib- en, civə, qızıl, gümüş, pirit, həmçinin kobalt, kadmium, vanadium, qallium və s. nadir elementlər də vardır. Lakin onlar zamanı tullantıya çıxır. Ona görə də metallurgiyanın rekonstruksiyası zamanı elə texnologiyalar tətbiq etmək lazımdır ki, onlar qara metallara rüsbətən xeyli baha olan, beynəlxalq miqyasda texniki tərəqqinin ali mərtəbəsindən (cihazqayırma, elektronika, elektrotexnika) daha çox iştirak edən həmin əlvan və nadir metalların filizlərin tərkibindən çıxarılmasını təmin etsin. Bu qeyd edilən elmtutumlu sahələrin respublikada inkişafı üçün tələb olunan nisbətən bahalı resursların (əlvan, nadir metallar) tamamilə yerlİ ucuz xammalla təmin edilməsinə şəraİt yaradar və onların inkişafına əlavə stimul verər.

ümumilikdə resursların təkrar emalına keçid respublikamızın BƏB-də mövqeyinin yaxşılaşdırılması naminə aşağıdakı töhfələri verə bilər:

1. Hər şeydən əvvəl, qeyd etdiyimiz kimi, milli əmtəələrin maya dəyəri dəfələrlə aşağı düşər və bu onlann rəqabət-qabilliyyətliliyini güclü surətdə yüksəldər.

2. Təkrar xammalın əvvəlcədən bütöv sənaye emalına məruz qalmış olması ilə əlaqədar onlardan hazırlanmış əmtəələrin tərkibində qatışıq maddələr filizdən hazırlanmış əmtəələrə nisbətən xeyli az olur. Bu onların daha keyfiyyətli olmasım təmin edir və beynəlxalq bazarda rəqabətqabi- liyyətliliyini bir daha artırır.

3. Məlumdur ki, hazırda respublikamız kənardan çoxlu metallurgiya, kimya məhsulları, tikinti materiallan idxal edir. Təkrar xammal istifadəsinə keçid respublikanın özünün bu məhsulların iri istehsalçısma çevrilməsinə şərait yaradar və ölkənin material asılılığını demək olar ki, aradan qaldırmaqla fasiləsiz təkrar istehsalı təmin edər.

4. Tullantısız və tullantıh texnologiyalar tullantıların miqdarını o dərəcədə azaldır ki, istehsalın ətraf mühitə zərər verməsini, demək olar ki, dayandırmış olurlar. Beləliklə, onlar respublikanın BƏB-də səmərəli iştirakında çox mühüm rol oynayan turizm, həmçinin kənd təsərrüfatı resurslarının qorunmasını təmin edirlər.

Ölkəmizin BƏB-də mövqeyinin yaxşılaşdırılmasına kompleks yanaşma milli iqtisadiyyatımızın dünya təsərrüfatı miqyamda rəqabətqabiliyyətliliyinin artırılmasından ibarətdir. İxracyönlü iqtisadiyyatın yaradılması, Azərbaycanın birbaşa investisiyaların, ən yeni texnologiyaların idxalçısına və istehsalçısına çevirmək, sənayenin təkrar xammal emalına keçirilməsi-əslində bütün bunlar öz-özlüyündə rəqabətqabiliy-yətliliyinin yüksəldilməsinin vacib şərtləri əsasına daxildir. Çünki onlar son nəticədə Azərbaycanın BƏB-də iştirakının daha da səmərələşdirilməsinə xidmət edirlər. Buna isə yalnız ölkənin rəqabətqabiliyyətliliyini beynəlxalq səviyyələrə qədər artırmaqla nail olmaq mümkündür.

Lakin rəqabətqabiliyyətlilik məfhumunu yuxanda sadalananlarla məhdudlaşmır. Ona görə də Azərbaycanın BƏB-də milli maraqlar nöqteyi nəzərindən əlverişli mövqelər tutması üçün rəqabətqabiliyyətlilik anlayışının digər tərəfləri də təhlil edilməli və ölkəmizin onlardan istifadə imkanları araşdırmalıdır.

Rəqabətqabiliyyətlilik ən ümumİ şəkildə təsərrüfat subyektlərinin iqtisadi rəqabətdə üstünlüyünə şərait yaradan xüsusiyyətlərdir. Həmin xüsusiyyətlər bir-birindən fərqli obyektlərə-əmtəə növləri, müəssisə və təşkilatlar, sahələr, ölkələrə aid edilə bilər. Bu ardıcıllıqla əsas rol bütöv milli təsərrüfat sisteminin rəqabətqabiliyyətliliyinə məxsusdur. Çünki ayn-ayrı təsərrüfat subyektlərinin beynəlxalq arenada rəqabətqabil- iyyətli olması milli iqtisadiyyatın bütün mərhələlərinin effektivliyindən asılıdır.

Milli rəqabətqabiliyyətlilik sənayesinin daim inkişaf etmək və innovasiyalar istehsal etmək qabiliyyəti ilə izah olunur.

Müəssisələrə rəqabət üstünlüklərini saxlamağa yalnız əmtəənin, istehsal üsulunun və s. faktorların daimi təkmilləşdirilməsi imkan verir. Həm də bu elə sürətlə baş verməlidir ki, rəqiblər həmin müəssisələrə çata, onları keçə bilməsinlər. Ona görə də ölkənin rəqabətqabiliyyətliliyi anlayışının əsasında bu ölkənin istehsal yeniləşdirməyə və təkmilləşdirməyə sövq etmə məharəti durur.

Fikrimizcə, ölkənin rəqabətqabiliyyətliliyi anlayışının mahiyyətini ən aydın şəkildə M.Porter ifadə etmişdir. Porter göstərmişdir ki, ölkənin beynəlxalq arenada rəqabətqabiliyyətliliyinin əsasında istehsal amillərindən istifadənin effektivliyi durur-«Beynəlxalq rəqabətdə bu və ya digər ölkənin uğur qazanmasını təyin edən şərt istehsal amillərinin özü deyil, onların hansı sahədə və nə dərəcədə səmərəli istifadə olun- masıdır».

Dövlət ölkə daxilində baş verən iqtisadi proseslərin tənzimlənməsində əsas subyektdir və ona görə də məhz o, milli təsərrüfatın rəqabətqabilliyyətliliyinİn artınimasmın katalizatoru olmalıdır. Müasir dövrdə Azərbaycan dövlətinin milli iqtisadiyyatın və iqtisadi subyektlərin dünya bazarında

**rəqabətqabiliyyətliliyini artırmaq üçün əvvəl söyləmələrdən əlavə həyata keçirilmə olduğu vacib tədbirlərdən sxematik təsviri (bax sxem 6) aşağıdakı kimidir;**

Sxem 6




**Rəqabət siyasətinin işlənib hazırlanmasının prioritet istiqamətləri ölkə daxilində rəqabəti gücləndirmək və yüksək səviyyəli rəqabət üstünlüklərinin təşəkkülünü təmin etməkdən ibarət olmalıdır. Yalmz güclü daxili rəqabət müəssisələri fəaliyyətinin bütün mərhələrində resurslardan istifadənin effektivliyini artırmağa sövq edə bilər və beləliklə yerli müəs- isələrin beynəlxalq bazara çıxışı üçün İlkin şərait yaradar. Ucuz işçi qüvvəsi, yaxud xammal kimi aşağı səviyyəli rəqabət üstünlükləri isə asanlıqla rəqiblərə keçə bilər; məsələn, məişət elektronikasının istehsalında Yaponiyanın malik olduğu ucuz işçi qüvvəsi üstünlüyü artıq çoxdan Cənubi Koreyaya və Honkonqa keçirmişdir, öz növbəsində onlann firmalarının biznesi üçün artıq Malayziya və Taylandın daha geniş və ucuz işçi qüvvəsi təhlükə yaratmışdır.**

**Daha yüksək səviyyəli üstünlüklərə uzunmüddətli intensiv kaptal qoyuluşları, ənənəvi və texnoloji infrastruktur, strateji marketinq, firmanın nüfuzu, kadr potensialı, texnologiyaları və s. aiddir. Azərbaycan hökuməti Öz səylərini məhz belə üstünlüklərin əldə edilməsi üzərində cəmləşdirmişdir.**

**Daxili bazarda rəqabəti stimullaşdırmaq üçün dövlət köm- rük siyasətində fıskal resurslardan bərabərləşdirici**

keçməli, yeni firmaların yaradılmasını hər cür dəstəkləməli, ölkədə minimal və maksimal əmək haqlan arasındakı fərqi azaltmalı, orta təbəqəni gücləndirməli, prioritet sferalarda tələbi stimullaşdırmalı, geridə qalmış regionların inkişafını təmin etməlidir.

Təəssüf ki, hazırda Azərbaycanca ayrı-ayrı obyektlərin rəqabətqabiliyyətliliyinin sistemli şəkildə yüksəldilməsi ilə məşğul olan müvafiq qanunvericilik normativ metodiki baza, dövlət və ictimai strukturlar yoxdur. Dövlət rəqabətqabiliyyətliliyİn yüksəldilməsi məqsədinə xidmət edən müvafiq mühitin yaradılması ilə məşğul olmur. Lakin problemin çətinliyi onun inkar edilməsi üçün əsas ola bilməz. Fikrimizcə, Azərbaycanın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

*1.* Azərbaycan Respublikası Prezidentinin yanında rəqabətqabiliyyətlilik üzrə milli şuranın, elm və texnologiya üzrə milli şüranm yaradılması;

*2.* Rəqabətqabiliyyətliliyin hüquqi bazasının işlənib hazırlanması;

*3.* Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, AMEA-nın İqtisadiyyat İnstitutu, Dövlət Standartlaşdırma və Sertifika- siya Komitəsinin birgə səyləri ilə Azərbaycanın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi ideologiyasının hazırlanması;

*4.* 2005-20! 5-ci illəri əhatə edən «Azərbaycan rəqabətqabiliyyətliliyinin yüksəldilməsi)) proqramının işlənib hazırlanması;

*5.* AMEA nəzdində rəqabətqabiliyyətlilik İnstitutunun yaradılması;

*6.* Təhsil sisteminin rəqabətqabiliyyətliliyinin artırılması üçün Təhsil Nazirliyinin nəzdində rəqabətqabiliyyətlilik Akademiyasının yaradılması;

*7.* Müxtəlif sferalarda (idarəetmə, standartlaşdırma, hüquq sistemi, təhsil və s.) rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və idarə edilməsi üzrə tədris-metodiki vəsaitlərin buraxılması;

*8.* Rəqabətqabiliyyətlilik problemi üzrə ali məktəblərdə ixtisas kurslarının açılması.

Rəqabətqabiliyyətliliyinin hüquqi bazasının işlənib

Azərbaycan Respublikası hökümətinin qərarları mühüm rol oynaya bilər:

1. «Rəqabəlqabiliyyətliiiyin təmin edilməsi sistemi haq- qmda» qanun. Qanunda rəqabətqabiliyyətlilik sisteminin strukturları, onun İdarə edilməsi səviyyələri, idarəetmənin subyekt və obyektləri, onlann hüquq və vəzifələri, rəqabətqabiliyyətlilik sferasında istifadə olunacaq termin və anlayışlar göstərilməlidir.

2. «Azərbaycanda rəqabətqabilİyyətliliyin idarə edilməsinin təşkilati- hüquqi aspektləri haqqmda» qanun.

3. wDövlətin təhsil, elm, texnologiya, standartlaşdırma, idarəetmə investisiya siyasəti haqqından Azərbaycan Respublikası Prezidentinin sərəncamı.

4. «Kadr hazırlığı, rəqabətqabiliyyətlilik sahəsində mütəxəssislərin və dövlət işçilərinin ixtisas səviyyəsinin artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı.

5. wMilli rəqabətqabiliyyətlilik sisteminin maddi-texnikİ bazasının formalaşdınıması haqqmda» Azərbaycan Respublikası Prezidentinin sərəncamı.

6. Ayn-ayrı obyektlərin müqayisəli üstünlüklərinin (rəqabət üstünlüklərinin) qiymətləndirilməsi metodikası haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı.

7. «Ayrı-ayn obyektlərin rəqabətqabilİyyətliliyinin qiymətləndirilməsi metodikası haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəran.

8. «Azərbaycanda rəqabətqabilİyyətliliyinin idarəetmə strukturunun formalaşdırılması haqqmda» Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı.

9. «Azərbaycanda rəqabəqabiliyyətliiiyinin idarəedilməsi sisteminin informasiya təminatı haqqmda» Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı.

10. «Ayrı-ayrı obyektlərin rəqabətliyyətliliyinin yüksəldilməsinin idarə edilməsi üzrə məsuliyyətin tənzimlənməsi haq- qında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı.

11. «Ayn-ayn obyektlərin və proseslərin keyfiyyətinə

Məlumdur kİ, ölkənin milli rəqabətqabiliyyətinin formalaşdınlmasmda əsas rol getdikcə təhsil sferasına keçəcikdir. XXI əsrdə təhsil və işçilərin ixtisas səviyyəsi rəqabət mübarizəsində silah olacaqdır. Bu onunla bağlıdır ki, müasir dinamik inkişaf edən cəmiyyət, mürəkkəb texnoloji və sosial infrastuktur şəraitində artıq ənənəvi faydalı qazıntılar deyil, məhz informasiya strateji resursa çevrilir. Bu səbəbdən də mütəxəssislərin professional hazırlıq səviyyəsi hazırda rəqa- bətqabiliyyətliliyin bütün struktur soviyyələrdə-əmtəənin rəqabətqabiliyyətliliyindən ölkənin rəqabətqabiliyyətliliyjnədək* təmin edilməsinin həlledici faktoru olmuşdur. Avropa İqtisadi Komissiyasının Sənaye Tədqiqatlan və İnkişaf üzrə Konsulta- tiv Komitəsinin məruzələrindən birində deyilir; «Rəqabətqabihyyətlİ təhsil sistemi olmadan rəqabətqabİliyyətli işçi qüvvəsi olmaz, rəqabətqabİliyyətli işçi qüvvəsi olmadan isə rəqabətqabİliyyətli iqtisadiyyat olmayacaqdır».

Bununla əlaqədar müasir dövrdə Azərbaycan iqitsadiyyatmın rəqabətqabiliyyətliliyinin artırılmasında ən vacib məsələ rəqabətqabİliyyətli milli təhsil sisteminin formalaşdırması hesab edilməlidir. RəqabətqabİIiyyətli təhsil sistemi aşağıdakı 3 vəzifəni həll etməlidir:

1. Təhsil sistemi fərddə əldə edilmiş məlumatların biliyə çevirmə qabiliyyəti formalaşdırılmalıdır;

2. Təhsil sistemi fərdin vacib olanı əhəmiyyətsiz olandan ayıra bilməsi üçün baza yaratmalıdır;

3. Təhsil sistemi şəxsdə yeniliyə maraq oyatmalı, təhsildən yüksək səviyyədə məmunluğu təmin etməlidir. Bu daha sonra da bütün ömür boyu elTektiv şəkildə bilik Öyrənmək, təhsil almaq üçün ilkin şərait yaradır.

Ölkənin BƏB-də mövqeyinin inkişaf etdirilməsi kursunun əsas doktrinalardan biri texnologiyalara investisiya qoyuluşudur, Lakin yaddan çıxarmaq olmaz ki, bu texnologiyaları yaradan yüksək ixtisas səviyyəli insanlardır. Ona görə də ölkənin rəqabətqabiliyyətliliyinin artırılması üçün texnologiyalara investisiya qoyuluşu mütləq «insan kapitalı»nın inkişafı ilə əlaqələndirilməlidir. Əks halda bu adekvat kadr təminatında çatışmamazlıqla nəticələnə bilər.

**Son onilliklərdə özünə qərar tapmış «təbiətə zərər vermədən iqtisadi artım», >^axud « ekoloji artım», ya da «yaştl artım» adlanan konsepsiya iqtisadi və ekoloji siyasətin tam vəhdətim nəzərdə tutur. Əslində bu özlüyündə III minilliyin reallıqlarına uygtın yeni iqtisadi inkişaf modelidir, «Yaşıl artım» konsepsiyasının həyata keçirilməsi nəticəsində milli iqtisadiyyatın strukturunda böyük dəyişikliklər baş verir, qabaqcıl texnologiyalar sürətlə inkişaf edir, istehsalın yeni sahələri formalaşır. Dünya ölkələrində getdikcə genişlənən miqyaslarda reallaşdırılan «yaşıl artım» siyasəti iqtisadiyyatın ekoloji cəhətdən təmiz sahələrini investisiyalar üçün daha cəlbedici edir. Ona görə də Azərbaycan istehsalçılarının sürətlə qabaqal texnologiyalara keçməsi, tamamilə yeni sahələrə böyük investisiyalar cəlbedilməsi üçün ekoloji siyasət dövlətin ümumi iqtisadi siyasətinin aktiv alətinə çevrilməlidir.**

**Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, ekoloji normalar çoxlu sayda ölkələrin xarici ticarətdə tətbiq etdiyi ən əsas qeyri'tarif maneələrindən biridir. Əgər respublikamızın əmtəələri «keyfıyyət/qiyraət» nisbətinə görə xarici mallarla rəqabətqabüiyyətli olub, ekoloji normalara uyğun gəlmə- sələrdə bir çox ölkələrə ixrac edilə bilməyəcəklər.**

**Müasir dövrdə ekologiya ilə əlaqəli bir sıra amillər vardır ki, milli rəqabətqabiliyyəüiliyin artırılması siyasətində onlan nəzərə almamaq düzgün deyildir; məsələn, cəmiyyətdə təbiətə hörmətə əsaslanan mənəvi dəyərlərin formalaşması, lEÖ-də ekoloji cəhətdən təmiz mallara tələbatın artması, daima şərtlənən milli və beynəlxalq ekoloji normalara riayət etmək zərurəti, həm istehlakçıların, həm də dövlət orqanlarının gözündə firmanın müsbət imicini formalaşdırmaq problemi (misal üçün, əksər ölkələrdə yaxşı ekoloji imicə malik şirkətə müəssisənin genişləndirilməsi, yeni istehsal gelərinin tikilməsinə icazə almaq xeylİ asan olur). Odur ki, lEÖdn firmalan ekoloji amili öz rəqabətqabiliyyətliliyini artırma sferası kimi qəbul edirlər. Azərbaycan hökuməti də milli istehsalçılanmızı belə düşünməyə sövq etməlidir.**

**Hal-hazırda dünya üzrə reallaşdırılan ekoloji**

bazan perspektivdə ən iri həcmli və dinamik inkişaf edən bazar hesab edirlər. Çünki ekoloji məhsullar bazan bütün növ əmtəə və xidmətlərin istehsalını əhatə edİr. Amerika mütəxəssislərinin proqnozlarına görə XXI əsrin I yarısının sonunda dünya istehsalının 40%-i ekologiya ilə bağlı əmtəə və texnologiyaların payına düşəcəkdir. Beləliklə bu tendensiyanı hamıdan qabaq duyub istifadə edən firmalar, ölkələr çox böyük rəqabət üstünlükləri əldə edəcəkdir. Azərbaycanın da həmin ölkələr sırasında olmasını çox istərdir.

tikin etapda hökümətimiz iqtisadiyyatda ekoloji amilləri stimullaşdırmaq üçün aşağıdakı vasitələrdən istifadə edə bilər:

- ekoloji vergilər və susidiyalar;
- tullantılara kvotalar;
- təbii şəkildə parçalanmayan, gec parçalanan maddələrin əmtəələrin xüsusi çəkisinin təyin edilməsi;
- tullantılara gorə tərəflərin dəqiq məsuliyyətinin müəyyənləşdirilməsi.

Fəaliyyəti hələ XVI əsrdə Azərbaycanda mövcud olan xanlıqların fiskal orqanlarının evlərdən çıxan tüstü borulannın sayın görə tutduqları «tüstü pulu» vergisinin toplama əməliyyatını xatırladan bizim Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə yığdığı cərimələr. Toplanan peniyalarm, həmçinin büdcədən ona ayrılan vəsaitin xeyli hissəsini ilk növbədə ekoloji texnologiyaların yaradılması, sənaye müəssisələrinə ötürülməsi, sahibkarlar arasında ekoloji amilin səmərəliliyi faktının yayılması işlərinin maliyyələşdirilməsinə sərf etməlidir.

Azərbaycanın BƏB-də səmərəli mövqe tutması naminə onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün ölkədə həyata keçirilən struktur siyasətinin strateji istiqamətlərini ən qısa şəkildə aşağıdakı kimi şərh edə bilərik:

1 .Stabil və proqnozlaşdırıla bilən qanunvericilik sisteminin qurulması bu sahədə hələ də ciddi problemlər mövcuddur qanun qəbul edilir, demək olar ki, səhərisi gün ona düzəlişlər olunmağa başlayır. Qanunvericilik bazasının qeyri-stabilliyi ümumiqtisadi konyukturun proqnozlaşdırıla bilməsini qeyri- mümkün edir, bu isə potensial investorları uzunmüddətli yatırımlardan çəkindirən ən birinci amillərdəndir.

2. İqtisadiyyatın çevik, cəlb strukturunun formalaşdı- nlması üçün rnillİ iqtisadiyyat ilk növbədə kiçik və orta müəssisələrə əsaslanmalıdır. Çünki kiçik müəssisələr iqtisadi mühitdə baş verən dəyişikliklərə tez uyğunlaşma qabiliyyətinə malikdirlər. Əgər ölkənin iqtisadiyyatının əsas hissəsi də kiçik və orta müəssisələrdən ibarət olarsa, deməli, həmin ölkənin milli təsərrüfatı qlobal konyuktur dəyişikliklərini tez duya, çevik reaksiya verə bilər. Beləliklə Ölkə dünya iqtisadiyyatının perspektiv inkişaf istiqamətlərini birinci mənimsəyənlər sferasında olar.

3. Bütün səviyyələrdə idarəetmənin keyfiyyətinin operativliyinin və şəffaflığının artın İması-qeyd edilən faktorun əhəmiyyətliyini aydınlaşdırmaq üçün bircə məqama diqqət yetirmək, zənnimizcə kifayətdir: əgər hər hansı layihəsinin təsdiqi üçün lazım olan sənədləri potensial investor Tailanda, yaxud Malayziyada heç bir rüşvət vermədən 2-3 saata, Azərbaycanda isə külli miqdarda rüşvət verərək 3-4 aya əldə edərsə, sizcə o, hansı ölkəni seçəcəkdir?

4. Əmtəələrin, iqtisadi əməliyyatların reqlamentləşdirilməsinə, keyfiyyətinə nəzarətin ciddiləşdirilməsi-bu siyasətin əsas məqsədi daxili bazardan keyfiyyətsiz məhsulları sıxışdırıb çıxarmaq, qiymət rəqabətini keyfiyyət rəqabətinə çevirmək, istehsalın texniki və texnoloji standartlarının dünyanın son tələblərinə cavab verən dəqiq sistemini qurmaqdan ibarət olmalıdır. Aydındır ki, qeyd edilən tələblərin reallaşdırılması sonda Azərbaycan əmtəələrinin, firmalarının dünya bazarında rəqabətqabiliyyətliliyinin artması ilə nəticələnəcəkdir.

Beləliklə, Azərbaycanın BƏB-də mövqeyinin inkişafına təsir edən stimulların yaradılması üçün onun potensial imkanlanndan ən effektiv şəkildə istifadəyə şərait yaradan milli bazar mexanizmi formalaşdırılmalıdır. Xarici biznesmenlər Azərbaycanın təbİİ resursları ucuz və ixtisaslı işçi qüvvəsi, elmi-texniki, sənaye potensialı hesabına gəlir əldə etməkdə maraqlıdırlar. Azərbaycanın BƏB-də mövqeyini yaxşılaşdırmaq üçün ölkədə həmİn maraqlan respublikamızın mİlli iqtisadi mənafeləri ilə balanslaşdınnağa imkan verən bazar mexanizminin fəaliyyət göstərməsi çox vacibdir.

## Bölmə IX. Beynəlxalq iqtisadi inteqrasiya BİM-in əsas istiqamətidir

*9. L İqtisadi inteqrasiyanın mahiyysti, shəmiyyati va onu şarthndiran amilləri.*
*9.2. İEOÖ-də inteqra.siyanın səbəbləri və xüsusiyyətləri.*
*9.3. Beynəlxalq iqtisadi inteqrasiya sistemində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT-in) yeri və onun Azərbaycanla əlaqələrinin səmərəli təşkili.*
*9.4. Azərbaycanla İƏT-in arasında İnteqrasiya əlaqələrinin təkmilləşdirilməsi*

9.1. Qeyd etmək lazımdır ki, keçən XX əsrə müxtəlif sahənin mütəxəssisləri tərəfindən inkişafın əlamətlərindən asılı olaraq bir çox adlar verilmişdir, məsələn «kosmonaviika əsri», «kompüter əsrİ», «elmi-texniki tərəqqi əsri» və s. Bütün bunlar bəşəriyyətin inkişafı tarixində çox vacib yer tutan həmin hadisələrin XX əsrin payına düşməsindən irəli gəlir. Odur ki, fikrimizcə, XX əsrə daha bir ad da vermək yerinə düşərdi- «inteqrasiya əsri». Belə ki, bütün dünyanın inkişafı üçün mühüm stimul olan iqtisadi inteqrasiyanın təşəkkülü, tərəqqisi məhz XX əsrə təsadüf edir.

Dünya təsərrüfatı sistemində iqtisadi inteqrasiya ilə yanaşı siyasi inteqrasiya (məs: Avropa Şurası), hərbi sahədə inteqrasiya (məs. NATO), regiona! inteqrasiya birlikləri (məs: AB, NAFTA, ASEAN, İslam Konfransı təşkilatı və s.) sürətlə inkişaf etmişdir. Hazırki kitabda iqtisadi inteqrasiyanın məzmunu, əhəmiyyəti, onu şərtləndirən və s. vacİb məsələlər işaqlandınlacaqdır.

İqtisadi inteqrasiyamn mahiyyəti, əhəmiyyəti nədən ibarətdir? Nədən müasir dövrdə kiçik şirkətlərdən tutmuş iri dövlətlərə kimi dünya təsərrüfatının bütün subyektləri ona doğru getdikcə daha da sürətlə meyl edirlər?

İqtisadi inteqrasiya, mahiyyət etibarı ilə, təsərrüfat subyektlərinin qarşılıqlı əlaqələrinin genişlənməsi, dərinləşməsi və çox hallarda onların birləşməsi ilə nəticələnən iqtisadi

prosesdir. İqtisadi inteqrasiya həm qarşılıqlı istehsal texniki əlaqələrin gücləndirilməsi, resursların birgə istifadəsi, kapitalların birləşdirilməsi, həm də iştirakçı tərəflərin bir-birinə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün əlverişli şərait yaratmalannda, müxtəlif maneələri aradan qaldırmalarında təzahür edir.

İqtisadi inteqrasiyanın mahiyyətini izah edərkən nəzərə almaq lazımdır ki, onun əsasında ilk növbədə təsərrüfat subyektlərinin ixtisaslaşması və əmək bölgüsü durur. Çünki yalnız yüksək səviyyədə ixtisaslaşmış təsərrüfat subyektləri arasında qarşılıqlı əlaqələr maksimum dərəcədə geniş və dərin ola bilər. Bunu sübut etmək üçün sadəcə cəmiyyətin inkişafı tarixində müəyyən mərhələ təşkil etmiş natural təsərrüfatlar dövrünə nəzər salmaq kifayətdir.

Burada iqtisadi subyektlər arasında əlaqələr minimum səviyyədə idi. Ona görə ki, onlar lazım olan şeylərin hamısını özləri istehsal etməyə çalışırdılar. Bu zaman digər subyektlərə hər hansı iqtisadi əlaqələr yaratmaq zərurəti də ən aşağı səviyyəyə enir. Belə zərurət isə ancaq yuxarıda qeyd etdiyimiz kimi ixtisaslaşma və əmək bölgüsü nəticəsində yarana bilər. Bunun rellaşması mexanizmini qısaca olaraq belə təsvir edə bilərik: hər hansı məhsul üzrə ixtisaslaşmış iqtisadi .subyekt öz təsərrüfat fəaliyyətini həyata keçirə bilmək üçün, əlbəttə ki, həmin məhsulun istehsalında istifadə olunan hansısa xammala ehtiyac duyacaqdır. Çünki onun fəaliyyət sferasına yalnız bu məhsulun istehsalı daxildir. Onda təsərrüfat fəaliyyətini davam etdirmək üçün subyektin qarşısında 2 yol var: I ya lazımı xammalı onun özü tərəfindən hazırlanmalı; U. Ya da öz təsərrüfat fəaliyyətini bilavasitə həmin xammalın hazırlanması üzərində qurmuş, bu sahədə ixtisaslaşmış digər bir subyektlə iqtisadi əlaqələrə girmək. Belə olan şəraitdə birinci təsərrüfat subyektinin seçim etməsinə həlledici təsir göstərən amil meydana çıxır. O, səmərilüik amilidir. Ona görə ki, hər hansı iqtisadi subyekt öz təsərrüfat fəaliyyətini sadəcə həyata keçirmək yox, onu səmərəli həyata keçirməlidir. Məhz burada

«iqlisadi inteqrasiya» prosesinin mahiyyəti və iştirakçı tərəflər üçün əhəmiyyətli özünü biruzə verir. Yəni, müxtəlif əmtəələrin istehsalında ixtisaslaşmış subyektlərin mövcudluğu fəaliyyəti ilk növbədə onların əmək məhsuldarlığının yüksəlməsinə gətirir. Bu istehsal xərclərinin azalmasına səbəb olur.

Odur ki, əgər birinci subyekt natural təsərrüfatın başlanğıcını xatırladan «lazımi xammalı özünün hazırlanması» yolunu seçsə belə vəziyyət iqtisadi fəaliyyətin ən vacib tərəfinə- əmək məhsuldarlığına mənfi təsir edəcək, onun aşağı düşməsi ilə nəticələnəcək. Çünki həmin subyekt xammalın İstehsalı üzrə ixtisaslaşmamışdır. Əgər birinci subyekt iqtisadi inteqrasiyanın başlanğıcı olan II-ci yolu seçsə bu cür seçim ilk öncə onun öz mənafeyinə uyğun olcaqdır. Çünki xammal onu daha aşağı qiymətlə istehsal edə bilən başqa ixtisaslaşmış, subyektdən alınacaqdır. Beləliklə, II-ci subyektin fəaüyyətinə ehtiyac olduğu üçün həm xammal, həm də sonrakı mərhələdə hazır məhsul ucuz başa gələcəkdir. Son nəticədə müxtəlif sahələrdə çoxsaylı ixtisaslaşmış təsərrüfat subyektlərinin fəaliyyətinə ehtiyac duyan və onların qarşılıqlı əlaqələrini nəzərdə tutan, bu yolla reallaşan iqtisadi inteqrasiya belə əlaqələr vasitəsilə cəmiyyət üçün ümumilikdə bütün əmtəələrə sərf olunan xərclərin azalmasına, cəmiyyətin ümumi rifah halının yüksəlməsinə səbəb olur.

İqtisadi inteqrasiya həm ayrı-ayrı müəssisələr, firmalar, kooperasiyalar arasında, həm də müxtəlif ölkələrin bütövlükdə götürülmüş milli təsərrüfatları səviyyəsində təzahür edə bilər. Bir qədər owəl qeyd etdiklərimiz iqtisadi inteqrasiyanın müəyyən dövlət daxilində əhəmiyyətinin əsaslandırılmasından ibarət idi. Lakin dövlətdaxili təsərrüfat subyektləri arasında inteqrativ əlaqələrin formalaşması dövrü artıq çoxdan geridə qalmışdır, onda qeyd etdiyimiz kimi, inteqrasiyanın zəruriliyini sübut etmək məqsədilə bir əsas kimi istifadə edilə bilər. Müasir dövrdə isə iqtisadi inteqrasiya prosesi artıq kiçik təsərrüfat subyektlərini deyil, ayrı-ayrı dövlətləri, dövlət qruplarım əhatə edir. Çox hallarda isə hər hansı materikin

ərazisindən kənara çıxır, dünyanın əsas tərəflərində yerləşmiş dövlətləri özündə birləşdirir. Odur ki, iqtisadi inteqrasiya təhlil olunarkən onun beynəlxalq iqtisadi inteqrasiya formasına xüsusi diqqət yetirmək, beynəlxalq İqtisadi inteqrasiyanın mahiyyətini, səbəblərini, yaranması ardıcıllığmı və hər mərhələnin (5 mərhələ) təsərrüfat subyektlərinin fəaliyyətinin səmərəliliyi üçün əhəmiyyətini tədqiqat obyekti kimi götürmək məqsədəuyğun olardı.

Beynəlxalq iqtisadi inteqrasiya masında BƏB, sərbəst təsərrüfatçılıq fəaliyyəti aparan subyektlərin iqtisadi maraqlan duran. Özünü tənzimlənmə və inkişaf potensialına malik olan milli təsərrüfat sistemlərinin yaxınlaşması, qarşılıqlı uyğunlaşması və birləşməsi prosesidir.

Beynəlxalq iqtisadi inteqrasiya uzun sürən hadisə olub, bir neçə mərhələdən ibarətdir. Amerikan alimi B.Balaşa inteqrasiyama aşağı mərhələsindən başlamış yuxarıyadək 5 mərhələdən keçdiyini əsaslandırmışdır. Onun fikrinə görə inteqrasiyaya girən ölkələr vahid azad ticarət zonası əmələ gətirirlər.

İkinci mərhələdə kömrük ittifaqı yaradılır və bu şəraitdə iştirakçı ölkələr vahid xarici ticarət siyasəti həyata keçirirlər.

Üçüncü mərhələdə inteqrasiyaya daxil olan dövlətlər ümumi bazar əmələ gətirirlər.

Dördüncü mərhələdə iqtisadi ittifaq-birlik yaradılır. Bu şəraitdə ümumi bazara harmonizasiyalı iqtisadi siyasət əlavə olunur, təsərrüfat tərəflər arasında razılaşdırılmış tədbirlər həyata keçirilir.

Nəhayət beşinci mərhələdə unifıkasiya edilmiş iqtisadi və sosial siyasət həyata keçirilir, vahid valyuta dövriyyəyə daxil edilir, dövlətin başı üstündə siyasi və iqtisadi institutlar formalaşdırılır. Bu mərhələlərin əmələ gəlməsi 1991 və 2001-ci illər ərzində avropa birliyinin tİmsahnda həyatda öz praktiki həllini tapmışdır. Qeyd etmək lazımdır ki, hər mərhələ öz mahiyyətinə uyğun olaraq bu prosesin iştirakçıları üçün müxtəlif cəhətdən əhəmiyyətlidir. Onlan ən ümumi şəkildə aşağıdakı kimi xarakterizə etmək olar:

**Sxem 7**

| | BF>R » | İstehsalm ----^ və kapitalın beynəlmilləlləş-məsi | Beynəlxalq inteqrasiya |
|---|---|---|---|
| əməyi lAəmərəU təşkili<br>i<br>▼<br>məhsuldar qüvvələrin inkişafı<br>i<br>▼<br>əmək lığının artımı və məhsulun əmək tutumunun azalması<br>*i*<br>məhsulun fond tutumunun azalması<br>;<br>ümumi istehsal xərclərinin düşməsi | İxtisa^aşma-nın daha da dərinləşməsi və bunun nəti-cəsində hər ixtisaslaşmış dünya təsər-rüfatı subyekti-nin öz sahə-sində artırmaq üçün stimullarının güclənməsi imkanlarının böyüməsi<br>*i*<br>bütövlükdə dünya üzrə məhsul lışmm müxtəlif dövlətlərdə ayn-ayn məhsullara daxili tələbin ödənilməsi və eyni zamanda BƏB nəticə-sində potensial im-kanlanmn genişlənməsi əlaqədar onla- | İs artırılması istehsalm sə-mərəliliyinin artırılması. idxalçı ölkədə həmin əm-təələrin daha aşağı qiy-mətlərlə gəlməsi, ya-xud o ölkə-lərin bol və ucuz resurslarından (işçi təbii xammal və s.) edilməsi kapitalın ixracı, onun beynəlmiləll məsi, orada müvafiq istehsal sahələrinin yaradılması<br>1<br>▼<br>beləliklə id-xalçı ölkənin sənaye sialmm art-ması, ölkədə | Dünya təsərrüfatı nın bütün subyektlə-rinin tələ-batlarının tam, dol-ğun əvvəl-kinə nis-bətən ucuz ödənilməsi imkanla-rının reallaşdı-rılması<br>1<br>Hər hansı bir ixti-saslaşmış dünya təsərrüfatı subyekti-nin təkba-şına həyata keçirə bil-məyəcəyi layihələrin inteqrasiya ya daxil olan təərəf-lərin qüv-vələrinin |

| | | |
|---|---|---|
| rm digər ölkə-lərə ixracı im-kanın yaranması 1 1 əmtəələrlə beynəlxalq mübadilə və onlar ixtisaslaşmay qədərkindən ucuz başa gəldiyi üçün müxtəlif ölkələrin öz daxili ehtiyaclarını xarici məhsullarla daha dolğun ödəməsi | əvvəllər idxal olunan məh-sula tələbatın (indi yerli is-tehsal nəticə-sində qiymət-lərİn düşməsi ilə bağlı ola-raq)daha ke^yyətli ödənilməsi, onlarda hətta məhsulların ixracı poten-siahnın yaranması | birləşdiril məsi yolu ilə həyata keçirilməs elmin, nikanın müxtəlif qabaqcıl sahələrində qarşılıqlı faydalılıq prinsipləri əsasında əmək-daşlıq 1 1 nəticədə bütün bə-şəriyyətin həyat şəraitinin və ümumi rifah halının yüksəlməsi |

**Beynəlxalq iqtisadi inteqrasiyanın onun iştirakçılan üçün əhəmiyyəti bununla bitmir. Ayrı-ayrı iştirakçı dövlətlər baxımından inteqrasiyanın əhəmiyyətli tərəfinə bunları da aid etmək olar:**

1. **Bazarın həcminin genişlənməsi-bu beynəlxalq iqtisadi inteqrasiyanın ilkin effektiv nəticəsidir. Əgər inteqrasiyadan qabaq ölkənin daxili bazarı kiçik, xarici bazarlara əmtəələrin İxracı müxtəlif kvotalar və idxal resurslannm mövcudluğu ilə əlaqədar qeyri-səmərəli idisə, onda kiçik həcmli daxili bazarı olan ölkənin müəssisələri öz istehsal güclərini və s. potensiallarım tam istifadə edə bilməyəcəklər. İnteqrasiya**

qeyd etdiyimiz maneələr ləğv olunduğundan, həm də iştirakçı ölkələrin sayı və ölçüsündən asılı olaraq, bu müəssisələrin bazan dəfələrlə arta bilər. Bu bir tərəfdən «miqyas effekti»ndən, digər tərəfdən həmin effektlə bağlı surətdə, müəssisələrin istehsal gücündən tam istifadə etməyə imkan verir. Miqyas effekti dedikdə, tam yüklənməmiş istehsalın həcmlərinin artımı zamanı sabit xərclərin dəyişməməsi və yalnız dəyişən xərclərin çoxalması ilə istehsal olunmuş hər bir əmtəə vahidinə düşən xüsusi xərclərin azalması başa düşülür.

Bu zaman iqtisadi inteqrasiyanın I iştirakçı dövlət üçün əhəmiyyətli yenİ bazarlann əldə edilməsi, müəssisələrin tam güclə işlənməsi, istehsal xərclərinin aşağı düşməsindən, 11 iştirakçı dövlət üçün isə bazar tələbinin əvvəlkindən aşağı qiymətli məhsullarla təmin edilməsindən ibarət ola bilər.

Eyni zamanda bu səmərə qarşılıqlı da ola bilər. Yəni, ən sadə halda belə fərz etsək ki, «N» ölkəsində «K» məhsulunun və «M» ölkəsində «q» məhsulunun daxili bazarı kiçikdir, onda inteqrasiyaya girdikdən sonra «N» ölkəsi «k», «M» ölkəsi isə «q» məhsulu üzrə miqyas effektindən istifadə edə bilərlər. Lakin beynəlxalq iqtisadi inteqrasiyada iştirak edən ölkələrin və daxili bazan kiçik olan məhsulların sayının daha çox olması mümkündür. Bu vəziyyət, uyğun olaraq, beynəlxalq iqtisadi İnteqrasiyanın iştirakçıları üçün onun əhəmiyyətini bir qədər də artırır.

2. Ölkələr, onların müxtəlif təsərrüfat subyektləri arasında rəqabətin güclənməsi.

3. Ümumi ticarət və s. iqtisadi fəaliyyət şəraitinin yaxşılaşdırılması.

4. Qabaqcıl texnologiyanın daha sürətli yayılması

Ayrı-ayrı dövlətlər arasında beynəlxalq iqtisadi inteqrasiyanı şərtləndirən bir neçə amil vardır. Bunlara aşağıdakılan aid etmək olar;

1. inteqrasiyaya daxil olan ölkələrin siyasi rəhbərliklərinin arzusu və əzmi-bu ölkələrarası İnteqrasiyanı şərtləndirən ən vacib amildir. Avropa ittifaqı, KARIKOM, Latın Amerikası inteqrasiya Assosiasiyası, lƏT və s. bu gün fəaliyyət göstərən inteqrasya qruplaşmalarının yaradılmasına onların iştirakçı

dövlətlərinin siyasi rəhbərliklərinin təşəbbüsləri təkan olmuşdur. İştirakçı ölkələrin siyasi rəhbərliklərinin həlledici rolu ondan ibarətdir ki, məhz ayn-ayn dövlətin müvafiq orqanlan beynəlxalq İnteqrasiya üçün ilkin siyasi-hüquqi baza hazırlayır, qruplaşma çərçivəsində bütün tərənərə fayda gətirəcək qərarlan qəbul edir (və ya qəbul etmir), fövəldövlət qrumlarım yaradır, inteqrasiya naminə səmərəli fəaliyyət göstərə bilmələri üçün onlara veriləcək səlahiyyətləri müəyyən edir, müxtəlif məqsədyönlü dövlətlər arası layihələr tərtib edir və həyata keçirir.

2, İnkişaf etmiş infrastrukturun olması-əgər siyasi rəhbərliyin arzusu və əzmi inteqrasiyanın reallaşdınimasınm hüquqi əsasıdırsa, məhz inkişaf etmiş infrastruktur onun iqtisadi əsasını təşkil edir. İnfrastrukturun dünya standartları çərçivəsinə çatdınimaması əmtəələrin nəqlinə çəkilən xərcləri artırır və onu orta dünya səviyyəsindən yüksək edir, məhsulların yollarda saxlanılması şəraitinin keyfiyyətli olmaması təsərrüfat subyektləri arasındakı əlaqələrə son nəticədə çox mənfi təsir göstərir. Bu sadaladıqlanmız infrastrukturun yalnız iki elementidir və onlar belə, göründüyü kimi, məhsulun qiymət səviyyəsinə, deməli onun rəqabətqabiliyyətliliyinə, qarşılıqlı iqtisadi əlaqələrin sonrakı inkişafına mühüm təsir edir. Məsələn, yenə ən sadə variantı nəzərdən keçirək-«M» ölkəsi «L» ölkəsinin bazarda tələb olunan hər hansı «b» məhsulunu istehsal edir. Tutaq ki, başqa bir «K» ölkəsi də həmin «b» əmtəəsini buraxır və «L» ölkəsində bazar tələbi onun məhsulları ilə ödənilir. «M» Ölkəsi öz təsərrüfat subyektlərinin iqtisadi maraqlannı nəzərə alaraq «L» ölkəsi ilə inteqrativ əlaqələr qurmaq, idxal rüsumlarını aradan qaldırmaq, beləliklə onun «b» məhsulu üzrə daxili bazarında «K» ölkəsini sıxışdırmaq istəyir. Əgər «M» ölkəsi və «L» dövləti arasında infrastruktur əlaqəli dünya standartları səviyyosindədirsə, həmin inteqrasiyanın tərəqqisinə tariflərin qarşılıqlı ləğv edilməsi də əhəmiyyətli təsir edə bilməyəcəkdir. Çünki bu zaman «M» ölkəsindən «L» ölkəsinə ya əvvəlki kimi «b» məhsulu gətirilməyəcəkdir, ya nəqliyyat xərclərinin baha olmasından «K» ölkəsindən gətirilən eyni məhsula rəqabət imkanı az olacaq, ya

da məhsullann əksəri yolda zay olduğundan onun «L» ölkəsinə ixracı səmərəsiz olacaqdır, ən yaxşı halda əmtəənin nəqli imkanlarının məhdudluğundan «M» ölkəsinin müəssisələri yaranmış miqyas effektindən istifadə edə bilməyəcəkdir. Nəticədə bazarda inteqrasiyaya girməyən, lakin «L» ölkəsi ilə yaxşı infrastruktur sistemi olan «K» ölkəsinin məhsullarına qarşı heç bir əsaslı rəqabət yaranmayacaq.

Odur ki, inteqrasiya qruplaşmasının iştirakçıları arasında ümumi infrastruktur təsərrüfatının dünya standartları səviyyəsində olmaması onun, yəni inteqrasiyanın verə biləcəyi effekti azaldır, bəzən isə heçə endirir.

«M» ölkəsinin vəziyyətinə diqqətlə baxsaq görərik ki, əgər o, inteqrasiyaya girməmişdən əwəl onsuz da «b» məhsulunu lazımi infrastrukturun olmaması, həm «L» ölkəsi tərəfindən idxal rüsumlarının tətbiqi, həm də «K» ölkəsi əmtəələrinin rəqabəti üzündən İxrac edə bilmirdi. Lakin axırda inteqrasiyaya girgikdən sonra «M» Ölkəsi özü də «L» ölkəsi üçün idxal rüsumlarını ləğv etmişdir. Çünki büdcənin gəlirlərinin azalmasına səbəb olacaq bu addımın ixrac fəaliyyətinin genişlənməsi ilə əlaqədar vergi daxilolmalarının artması ilə konpen- sasiya olunacağı nəzərdə tutulurdu. Ancaq buna nail olunmadı, ixrac artmadı və ixrac fəaliyyətindən də uyğun olaraq, vergi daxilolmaları proqnozlaşdırılan səviyyəyə qalxmadı. Nəticədə inteqrasiya öz mahiyyətinin əksinə olaraq, «M» ölkəsi üçün qeyri-səmərəli, faydasız proses oldu. Bu da beynəlxalq iqtisadi inteqrasiyanın dünya təsərrüfatında əhəmiyyətinin azalması ilə nəticələnir.

Yuxarıda qeyd etdiyimiz vəziyyət nəzəri hal olsa da, oxşar situasiya MER KOSU R-da rast gəlinmişdir. Belə ki, qruplaşma üzvlərinin ərazi nöqteyi-nəzərindən yaxın yerləşmələrinə baxmayaraq, bir-biri İlə lazımi infrastruktur əlaqələrinin olmaması, MERKOSUR-un ilkin mərhələdə inkişafının demək olar ki, qarşısım almışdır. Hazırda isə buna bənzər vəziyyət İƏT-mda və bütün Afrika iqtisadi inteqrasiya qruplaşmalarında müşahidə edilməkdədir.

3.Hələ ilk mərhələdə inteqrasiya prosesinə rəhbərlik edən, onun qarşılıqlı faydalığını təmin edən müəyyən üstqurumun

yaradılması-inteqrasiya prosesi ən azı qruplaşma daxilində hər bir problemin bütün üzv dövlətlərin səyləri vasitəsilə həllini tələb edir. Buna görə də kollektiv müdaxilə zəruri olan problemlərin həlli zamanı ayn-ayn milli yanaşmaların uzlaşdırılması və iştirakçı dövlətlərin hamısının qəbul edə biləcəyi variantların işlənib hazırlanması üçün belə üstqurum mövcudluğu çox vacibdir. İlkin mərhələdə həmin fövqəldövlət strukturlanna iqtisadi inteqrasiya bloku üzvlərini müəyyən hüquqlan verilməsi, beynəlxalq inteqrasiya dərinləşdikcə onların səlahiyyətləri də çoxaldılmalıdır.

9.2,Yaşadığımız XXI əsrin başlanğıcında regional iqtisadi inteqrasiya artıq dünya təsərrüfatının əsas inkişaf meylinə çevrilməkdədir. Faktiki olaraq, bütün bünya ayrı-ayrı regional iqtisadi qruplaşmaların cəmindən ibarətdir. Qərbi və Şərqi Avropada Şimali və Cənubi Amerikada, Cənub-Şərqi və Mərkəzi Asiyada iri regional birliklər yaradılmış və fəaliyyət göstərirlər. Buna səbəb qloballaşmanın özünün geniş şəkildə göstərdiyi müasir dünyada kiçik və orta miqyaslı iqtisadiy- yatlann özlərini biruzə verməsinin getdikcə çətiniəşməsi və onların yaranmış vəziyyətdən çıxış yolunu birgə səylərin ortaya qoyulması ilə qloballaşmanın mənfi nəticələrindən müdafiədə görmələrindən ibarətdir. Dünya İqtisadiyyatının qloballaşması fonunda bütün yaradılan regional inteqrasiya blokları əsasən ona daxil olan kiçik və orta miqyaslı iqtisadiyyata malik dövlətlərin birgə maraqlarını ifadə etməklə, onlann mənafelərinin müdafiəsinə istiqamətləndirilir. Bu vaxtı ilə Avropa İttifaqının, həmçinin ASEAN, KARİKOM kimi inteqrativ qruplaşmaların yaradılmasının əsasında durmuşdur.

Beləliklə, müxtəlif kiçik və orta Ölçülü milli təsərrüfata malik İEOÖ-in ayn-ayn böyük dövlətlərin və iri miqyaslı iqtisadiyyatların asılılığına düşməmək kimi ortaq məqsədləri, buna nail olmaq üçün ortaq səylərin həyata keçirilməsi onlar arasında regional inteqrasiya biliklərinin yaradılması və inkişafının əsas hərəkətverici qüvvəsi və səbəbidir. Qeyd etmək lazımdır ki. Azərbaycan Respublikası da belə

nəzəriyyəsi baxımından yanaşmaq lazımdır. Başqa sözlə respublikamız nəinki imkanları, hətta bütövlükdə öz potensialı nöqteyi-nəzərindən dünya bazannın konyukturuna təsir göstərmək iqtidarında deyil. Əksinə mövcud situasiyadan tam şəkildə asılıdır və ona uyğun olaraq fəaliyyət göstərmək məcburiyyətindəndir. Yəni Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sistemində layiqli mövqe tuta bilməsi respublikanın özü tərəfindən təkbaşına həUediləcək məsələ deyildir. Bu səbəbdən də ölkəmizin milli mənafelərinin zəruri səviyyədə təminatı onun həm regional, həm də beynəlxalq güc mərkəzləri ilə formalaşdıra biləcəyi əlaqələrdən asılıdır. Odur ki, mövcud reallıqlara əsaslanaraq fəaliyyətdə olan regional inteqrasiya bloklarından birinə üstünlük verilməlidir. Qeyd etdiklərimiz demək olar ki, bütün İEOÖ-in regional əməkdaşlığım və beynəlxalq İqtisadi inteqrasiya əlaqələrini şərtləndirən səbəbdir.

Qərbin və Şərqin TEÖ-i üçün TEOÖ, o cümlədən, tƏT regionun, xammal mənbəyi kimİ maraq kəsbedir (Türkiyə (faydalı qazıntılann azlığı ilə əlaqədar) və İran (siyasi vəziyyətlə əlaqədar) istisna olmaqla). Buna əyanİ sübut xarici kapitalın İƏT regionunda demək olar ki, yalnız neft hasilatı və dağ-mədən sahələrində toplanmasından, emaledici və son məhsul buraxan sahələrdə isə (qoyulan kapitallann həcmlərini müqayisə etdikdə) praktiki olaraq yoxsulluqdan ibarətdir. Ona görə də, İEOÖ-in inteqrasiya prosesində iştirakının mühüm səbəblərindən biri regional sənayeləşməni həyata keçirməkdir. Yalnız bu halda həmin ölkələr üçün ixracatın səmərli strukturuna nail olmaq və xarici ticarətdən fayda görmək mümkündür. Çünki məlum olduğu kimi, xammalla müqayisədə sənaye məhsullarının qiyməti nisbətən sabit qalır.

iqtisadi inteqrasiya nəticəsində inteqrasiyaya daxil olan İEOÖ arasında tarif və qeyri-tarif maneələrin ləğvi, onların inkişaf etmiş infrastruktur və təsərrüfat əlaqələrinin mövcudluğu şəraitində, tərəflərin sürətli tərəqqisinə səbəb olur. Bunun həyata keçirilməsi mexanizminə şərti bir misal üzərində baxaq: fərz edək ki, inteqrasiyaya daxil olan «A» və «B» ölkələrindən biri, məsələn «A», hər hansı «d» məhsulunun istehlakçısı, «B» ölkəsi isə onun istehsalçısıdır. İnteqrasiyaya

daxil olmayan hər hansı İEÖ olan «C» də eyni «d» məhsulunun istehsalçısı və ixracatçısıdır. İnteqrasiyaya daxil olmayanadək «A» ölkəsi «B» və «C» ölkələri üçün eyni idxal tarifləri tətbiq edirdi və «C» ölkəsinin məhsulu «A» ölkəsinə daha ucuƨ başa gəlirdi. Bu müxtəlif səbəblərdən ola bilər; «C» ölkəsinin «B>> ölkəsinə nisbətən «A»-ya daha yaxın yerləşməsi, məhsulun «A» ölkəsinə nəqli yolunda keçdiyi dövlətlərlə «C» ölkəsinin «B» ölkəsinə nisbətən «A»-ya daha yaxın yerləşməsi, məhsulun «A» ölkəsinə nəqli yolunda keçdiyi dövlətlərlə «C» ölkəsinin tranzit daşımalar haqqında müqaviləsinin olması. «B» ölkəsinin isə belə müqavilələr bağlamaması; «d» məhsulunun istehsalında istifadə olunan xammallann idxal etdiyi ölkələrin «B» ölkəsinə nisbətən «C» ölkəsinə yaxın olması, yaxud onun xammal idxal etdiyi Ölkələrlə inteqrasiya əlaqələrində olması; «C» ölkəsinin ixracyönlü istehsalat və ya dempinq siyasəti yetirməsi və s.

Lakin qeyd etdiyimiz kimi «A)> ölkəsi müəyyən siyasi, iqtisadi baxışlar altında «B>> ölkəsi ilə inteqrasiyaya girmişdir. Çünki hər hansı İEOÖ-nin (A) ixracyönlü istehsalat siyasəti yeridən İEÖ (C) ilə inteqrasiyaya girməsi bir tərəf üçün o qədər də arzuolunan hal deyildir. Tutaq ki, «A» və «B» ölkələri arasında tarif və qeyri-tarif maneələri ləğv edildiyindən, bütün digər şərtlər dəyişməz qaldığı müddətdə, «d» məhsulunun «B» ölkəsindən idxalı «A» ölkəsi üçün onun «C» ölkəsindən idxalından ucuz başa gəlmişdir. Deməli, inteqrasiyanın nəticələri belə olur;

1.İnteqrasiyaya girən «A» və «B» ölkələri hər ikisi İEOÖ olduğundan onların bərabər tempi iqtisadi inkişaf və milli mənafelərin bərabər səviyyədə qorunması (xüsusilə məhsul idxal edən «A» ölkəsi) ehtimalı daha böyük olur.

2.«A» ölkəsi istənilən İEOÖ ilə deyil, bilavasitə onun daxili bazarında tələb olunan «d» məhsulunu (hazır əmtəə və ya xammalı) istehsal edən «B» ölkəsi ilə inteqrasiyaya girdiyindən bu proses hər iki tərəf üçün səmərəli olur, birlik daha dinamik inkişaf edir.

3.Əgər İEÖ «C» ölkəsi ixracyönlü istehsalat, yaxud dempinq siyasəti yeridirsə «A» dövləti onunla münasibətləri

birbaşa pozmadan (yəni ona qarşı antidempinq tarifləri, kvotalar tətbiq etmədən) dolayı yolla belə siyasətə qarşı öz cavab tədbirlərini həyata keçirir.

Bu misalda xüsusi şəraiti nəzərə alsaq da, əslində o, yaxud ona bənzər hallar İEOÖ-in inteqrasiya meylərinin əsasında duran səbəblərdən biridir. Həm də yuxarıdakı misal onu göstərir ki, inteqrasiya prosesi İEOÖ üçün ayn-ayn, bəzən bir- biri ilə o qədərdə bağlı olmayan istiqamətlərdə faydalı ola bilər.

İEÖ-dən fərqli olaraq TEOÖ regional iqtisadi əməkdaşlığı və inteqrasiyanın bir sıra xüsusiyyətləri var. Həmin xüsusiyyətlər hər şeydən əvvəl belə inteqrasiya qruplaşmalannda xarici ticarətin tənzimlənməsi ilə bağlıdır. Bu da çox vaxt inteqrativ əlaqələrə daxil olmuş İEOÖ-in iqtisadi inkişaf səviyyəsinin və ən ümumimilikdə milli təsərrüfatlannm rəqabət qabiüyyətinin bir-birindən xeyli fərqlənməsi, nəticədə daxili bazarın müdafiəsi məqsədilə tətbiq edilən idxal resurslarının qeyri-bərabərsizliyi ilə müəyyən edilir. Ona görə də İEOÖ-in inteqrasiya bloklan çərçivəsində üç ölkələrə xarici ticarətdə vahid tarif səviyyəsinin təyin edilməsi adətən problemli məsələ olur və inteqrasiya prosesinin sürətini yavaşıdır. Qeyd etdiyimiz halı İƏT üzərində nəzərdən keçirək.

Demək lazımdır ki, daxili bazarın müdafiəsi məqsədi ilə tətbiq edilən idxal rüsumlarının səviyyəsi baxımından İEOÖ-in 3 qrupu fərqləndirilir.

I- ci qrupa gömrük rüsumlarının səviyyəsini 50%-ə qədər müəyyən edən və geniş çeşidli əmtəələr üçün tamamilə rüsum almayan ölkələr daxildir. lƏT-in üzvi olan dövlətlərdən bura Azərbaycan, Qazaxıstan, Qırğızıstan aid edilir,

II- ci qrupa daxil olan ölkələrdə idxal gömrük rüsumları 50-100 % arasında dəyişir, İƏT üzvlərindən bura ancaq İran aid edilir.

III- cü qrupa isə idxal gömrük rüsumlarının səviyyəsi 100%, bəzi məhsullar üzrə daha yüksək olan Ölkələr birləşdirilir.İƏT- in üzvlərindən bura Türkiyə və Pakistan aiddir.

İEOÖ-lərİn hətə yalnız inteqrasiyanın ilk mərhələsində qarşılıqlı qəbul edilə biləcək variantların axtarılıb tapılma

sında rastlaşdıqlan çətinliklər yuxarıdakı məlumatlardan aydın surətdə görünür. Xarici ticarətin qeyri tarif tənzimlənməsindəki müxtəlifliklər də nəzərə alınarsa vəziyyətin mürəkkəbliyi bir o qədər də artar. Bu səbəbdən həmin ölkələr ümumilikdə regional iqtisadi, inteqrativ münasibətlərə xələl gətirmədən, öz aralannda 3 ölkələrlə ticarət və əməkdaşlığın qarşılıqlı əlverişli və faydalı şərtlərini uzun-uzadı axtarmaq məcbuiyyətindədirlər.

lEOÖ-in regional inteqrasiyasmm digər xüsusiyyəti isə bu ölkələrin çox vaxt milli təsərrüfatlarmda qarşılıqlı tamamlama olmadan inteqrativ əlaqələrə girmələrindən ibarətdir. Təəsüf ki, onlar,çox hallarda inteqrasiyaya daxil olduqdan sonra ayn-ayn milli təsərrüfat subyektləri tərəfindən belə münasibətlərin qurulacağına ümİd bəsləyirlər. Halbuki, istehsalın qarşılıqlı tamamlanmasını inteqrasiya əlaqələri müəyyən etmir. Tam əksinə beynəlxalq inteqrativ proseslərin çıxış nöqtəsi məhz iştirakçı ölkələrin ən müxtəlif iqtisadi subyektləri səviyyəsində birbaşa beynəlxalq iqtisadi (istehsalat, elmi- texniki, texnoloji və s.) münasibətlərin olmasından ibarətdir. Həmin əlaqələr genişlənərək, dərinləşərək tədricən müxtəlif milli təsərrüfatların bütövləşməsinə, bir-birini tamamlanmasına gətirib çıxanr. Bunun ardınca isə artıq labüd surətdə hüquqi, iqtisadi, sosial sistemlərin uyğunlaşdınıması, vahidləşdirilməsi gəlir. Nəhayət müxtəlif idarəetmə strukturlanmn birləşdirilməsi, yəni fövqəldövlət qurumlarının yaradılması gəlir.

Ona görə də sərbəst ticarət zonalarının, gömrük birliklərinin təşkili, istehsal amillərinin bərəkətinin sərbəstləşdirilməsi ilə formalaşdınlan inteqrasiya birliklərinin həmin maneələrin aradan götürülməsi nəticəsində effektiv və dinamik İnkişafı üçün ilk növbədə iqtisadi baza, yəni inteqrasiyaya girən dövlətlərin təsərrüfat subyektlərinin sıx qarşılıqlı münasibətləri olmahdır. Dövlətlər ilk öncə bu cür münasibətləri stimullaşdırmalı, qurmalıdırlar ki, müxtəlif iqtisadi əlaqələrin ləğv edilməsi Üə yüksəlişə doğru irəliliyəcək müəyyən əlaqələr artıq mövcud olsun.

9-3. Oevd etmək lazımdır ki. İƏT 1985-ci ildə Türkivə.

təşkilatdır. O, 1964-1979~cu illərdə fəaliyyət göstərmiş RƏT-in varisi sayılır. 1992-ci ilin noyabnnda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, Əfqanıstan lƏT-na qəbul edilmişdir. Buna görə də hər il noyabrın 28-i İƏT günü kimi qeyd edilir.

Bir regional iqtisadi təşkilat kimi İƏT-nin dünya təsərrüfatının inkişafında yeri və rolu ilk növbədə onun öz qarşısına qoyduğu məqsədlər və bununla bağlı gördüyü işlər, həyata keçirdiyi layihələrlə müəyyən edilir. Dünya təsərrüfatının inkişafında əhəmiyyətli yer tutmaq üçün İƏT-nin qarşısına qoyduğu məqsədlər ümumən aşağıdakılardan ibarətdir:

1. Preferensial tariflər əsasında iştirakçı dövlətlər arasında ticarət maneələrinin tədricən ləğv edilməsi və regiondaxili ticarətin inkişafına kömək etmək;
2. Sənaye sferasında regional bazara istiqamətlənmiş birgə müəssisələrin yaradılması yolu ilə əməkdaşlığın inkişaf etdirilməsi;
3. Üzv ölkələrin özəl sektorlarının da iştirakçı ilə Ticarət və İnkişaf Bankının yaradılması;
4. İƏT regionunun kənd təsərrüfatı potensialının effektiv istifadəsini təşkil etmək;
5. Region daxilində turizmin inkişafına nail olmaq;
6. İƏT regionunda ümuminəqliyyat sisteminin yaradılması;
7. İƏT daxilində istehsal amillərinin hərəkətinin sürətləndirilməsi;
8. Qarşılıqlı texniki-ekspert xidmətinin təşkili;
9. İƏT elmi fondunun yaradılması;
10. Ətraf mühiti qorumaq, qaçakmalçılığm, narkotik- lərdən istifadənin qarşısını almaq üçün əməkdaşlıq etmək;
11. İƏT gənclər fondunun yaradılması;
12. Digər regional və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq etmək.

İƏT-nm dünya təsərrüfatında mövqeyi və onun inkişaf etdirilməsində tutduğu yer haqqında nisbətən aydın təsəvvürə malik olmaq üçün təşkilata daxil olan ölkələrin ümumi

makroiqtisadi göstəricilərinə diqqət yetirmək, fıkrimizcə faydalı olar;

1. lƏT ölkələrinin ümumi ərazisi-7,8 mln. km^
2. Dünyanın quru ərazisində onun xüsusi çəkisi-5,23 %
3. Ümumi əhalisi-təqribən 360 mln. nəfər Dünyanın ümumi
4. əhalisində xüsusi çəkisi-6 %
5. İƏT üzrə ÜMM -600 müyard $
6. Ümumdünya milli məhsulunda xüsusi çəkisi-təqribən 2,5 %

2. Orta hesabla hər nəfərə düşən ÜMM-1770 $ (müqayisə üçün İEÖ-də bu göstəricisi orta hesabla 20000 $-dan çoxdur)

3. ÜMM-un illik orta artım tempi-5-6 %.

Qeyd elmək lazımdır ki, 5,6,7,8-ci göstəricilərdə Əfqanıstan nəzərə alınmamışdır. Ona görə də 7 və 8-ci göstəricilər bir qədər də aşağı səviyyələrdə qiymətləndirilə bilər.

Qarşısına qoyduğu məqsədlərə nail olmaq və dünya təsərrüfatının inkişafında öz yerini möhkəmlətmək üçün İƏT iqtisadiyyatın aşağıdakı konkret sahələrində səylərini cəmləşdirməyi nəzərə almışdır;

- ticarət və investisiya;
- nəqliyyat və telekommunikasiya;
- enerji resursları, digər faydalı qazıntılar və ətraf mühit;
- sənaye və kənd təsərrüfatı;
- layihə araşdırmaları üzrə əməkdaşlıq;
- iqtisadi tədqiqat və statistika.

Makroiqtisadi göstəricilərdən aydın olduğu kim i,dünya əhalisinin 6%-i, ərazisinin 5,23 %-i İƏT-nın payına düşdüyü halda bu dövlətlərdə ümumdünya milli məhsulun cəmi 2,5 %-i istehsal edilir. Bu səbəbdən də İƏT-nin dünya təsərrüfatının inkişafında tutduğu yer heç də qənaətbəxş kimi qiymətləndirilə bilməz. Belə vəziyyətin əlbəttə bir sıra səbəbləri var. Mə.sələn; İƏT-nm 6 üzvü (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan) keçmiş SSRİ-nin tərkibində olduğu vaxt onlann milli təsərrüfatlarının imperiya mənafeləri əsasında qurulması, imperiya dağıldıqdan sonra həmin respublikaların sosialist təsərrüfatlarının da

dağılması və 1991-ci ildən müstəqil inkişaf yoluna qədəm qoyması;

-Tacikistanda 1992-1997-ci illərdə getmiş vətəndaş müharibəsi, Azərbaycan ərazisində 1988-ci ildən bəri hələ də davam edən Ermənistanın təcavüzü və ərazinin 20%-nin işğal edilməsi;

- Əfqanıstanda 1979-cu ildən 2010-cu ilədək gedən dağıdıcı müharibə (o cümlədən vətəndaş müharibəsi) və Əfqanıstan iqtisadiyyatının faktiki olaraq dağıdılması;

-Pakistanın XX əsrin ortalarına qədər (1947-ci il) de-fakto və de-yuro İngiltərənin müstəmləkəsi olması, sonradan müstəmləkəçilik dövründən qalmış ziddiyətlər nəticəsində 1947-1949, 1965,1971-ci illərdə Hindistanla müharibə;

-İranın 1979-cu ilə qədər şah üsul-idarəsində yaşaması, müstəqil dövlət kimi tanınsa da əslində İngiltərə və ABŞ-ın müstəmləkəsi olması, 1979-1987-ci illər İran-İraq müharibəsi və s.

Bütün bunlara baxmayaraq, İƏT-nm dünya təsərrüfatınm inkişafında layiqli yer tuta bilməsi üçün çox böyük potensial imkanları vardır. Onları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1.zəngin təbii resurslar-region özü-özünü mineral, kənd təsərrüfatı və eneıji resurslarına olan ehtiyaclanm tamamilə ödəyə bilər;

2. əlverişli coğrafi mövqe-region bir tərəfdən Rusiya, Avropa ilə digər tərəfdən Qərbi, Cənubi, Cənub-Şərqi Asiya arasında əlverişli mövqe tutması;

3.yüksək demoqrafik potensial-region yüksək savadlılıq səviyyəsi ilə xarakterizə olunan ucuz_ əmək resurslarına malikdir. Məsələn, savadlılıq dərəcəsi, İranda 79,51% Türkiyədə 84,07%, Azərbaycanda 97%, Qırğızıstanda 98,3%, Tacikistan, Türkmənistan və Qazaxıstanda 98%, Özbəkistanda 98,8%-dir. Yalnız Pakistanda (40%) və Əfqanıstanda (31,5 %) bu göstərici kəskin dərəcədə aşağıdır;

4. kifayət qədər etibarlı elmi-texniki potensial;

5.qarşılıqlı investisiyalar və birgə müəssisələr vasitəsilə rəqabət qabiliyyətli məhsullar buraxmağa imkan verən güclü istehsal imkanları;

6. çox güclü ixrac potensialı;

İƏT-nm regional birlik kimi dünya təsərrüfatının inkişafında oynadığı rol onun iki əsas fəaliyyət istiqaməti ilə müəyyən olunur;

I. regionun hər bir nöqtəsinin inkişafı üçün İƏT-nm rolunun gücləndirilməsi;

II. regionun dünya təsərrüfatı sisteminə sürətli inteqrasiyası naminə digər beynəlxalq və regional təşkilatlarla sıx və qarşılıqlı faydalı əlaqələrin qurulması;

Hazırkı dövrdə İƏT-nm fəaliyyətinin bir İstiqamətini sxematik olaraq aşağıdakı kimi göstərmək olar;

Sxem S



Qeyd eldiyimiz kimi, İƏT-nm dünya təsərrüfatının inkişafında oynadığı ən mühüm rollardan biri regionun nəqliyyat-kommunikasiya sisteminin formalaşdırılması və onun beynəlxalq nəqliyyat sisteminə qoşulması ilə əlaqədar gördüyü işlərdən ibarətdir. Ümumiyyətlə, nəqliyyat sisteminin inkişaf etdirilməsi iqtisadi inteqrasiyanın ən mühüm amillərindən biridir. Çünki məhz inkişaf etmiş nəqliyyat infrastrukturu İƏT ölkələrinin əlverişli coğrafi mövqelərindən maksimum bəhrələnməyə imkan verə bilər, İƏT ölkələrindən yalnız Türkiyə, İran, Pakistan dünya okeanına birbaşa çıxışı olduğu nəzərə alınarsa bu amil həddən artıq aktuallaşır. Ona görə də artıq İƏT çərçivəsində nəqliyyat və kommunikasiya üzrə daimi komissiya yaradılmışdır. Komissiyanın məqsədi regionda müvafiq infrastrukturun İnkişafını sürətləndirmək və həmin sahədə həyata keçirilən layihələrə rəhbərlik etməkdir.

Hələ 1994-cü ildə təşkilat tərəfindən üzv ölkələrdə İƏT yol sisteminə təklif olunmuş ümumilikdə 11700 km avtomobil yolları yoxlanmış, onların milli inkişaf proqramları işlənib hazırlanmışdır. 1995-ci ildə İƏT-nın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə İranın Fars körfəzi sahilindəki limanları ilə ölkənin şimalım birləşdirən dəmir yolu xəttinin tikintisi başa çatmışdır, 1997-ci ildə 700 km-lik həmin BƏFK-Bəndər-Abbas xəttinə birləşən Məşhəd-Tecen-Sərəxs xəttinin açılışı olmuşdur. Beləliklə, Çinin şərq sahilindəki limanları və digər şəhərləri dəniz yolu vasitəsilə də Urumçi, Alma-Ala, Daşkənd, Məşhəddən keçmək və Fars körfəzi limanları ilə əlaqələndirilmişlər. Bu yolla Orta Asiya respublikaları bir tərəfdən dünya okeanına, digər tərəfdən İstambul vasitəsilə Avropaya çıxış əldə etmiş, nəticədə yüklərin daşınması müddəti 25-30% azalmışdır.

İƏT-na üzv ölkələr arasında hava əlaqəsi barədə dövlətlərarası razılığa gəlinmiş, hava xətti fəaliyyətə başlanmış, eyni zamanda İƏT aviakompaniyasmın təsisi üçün ilkin razılaşma imzalanmışdır.

1997- ci ildə Aşqabadda üzv ölkələrin dövlət başçılannm fovqalədə yığıncağında materik daxilində yerləşən İƏT

ölkələrinin neft və qaz ehtiyyatlannm dünya bazanna çıxarılması məqsədi ilə yeni boru kəmərlərinin tikintisi üçün regional konsorsiumların yaradılması qərara alınmışdır.

1998-ci ilin martmda Aşqabadda Nəqliyyat və Kommunikasiya nazirlərinin görüşü zamanı bu sahədə on illik fəaliyyət proqramı (1998-2007-ci illər) qəbul edilmişdir. Proqram aşağıdakılan nəzərdə tutur:

a) regionda başlıca tranzit nəqliyyat marşurutiarmda müxtəlif qeyri-fiziki maneələrin aradan qaldıniması;

b) Qərb-Şərq yollarının infrastrukturunun inkişafı, Şimal-Cənub arasında nəqliyyat koridorlanmn yaradılması;

c) İƏT regionunda televiziya və poçt rabitəsinin inkişaf etdirilməsi.

1999-cu ildə Lahorda İƏT çərçivəsində Alma-Ata- Daşkənd-Tehran- İstambul marşrutu üzrə həm yük, həm də sərnişin daşınmalarmda istifadə ediləcək Transasiya dəmİr yolu xəttinin açılışı üzrə təsdİq olunmuşdur. Həmin marşurut 2001-ci ilin fevralından istifadəyə verilmişdir.

Bundan başqa rabitə sahəsində vahid poçt məkanının yaradılması, telekommunikasiya avadanlığı istehsalı, dəniz nəqliyyatı sahəsində əməkdaşlıq, İƏT gəmiçilik kompaniya- smm təsisi qərara ahnmışdır.

Hər hansı iqtisadi birlik çərçivəsində inteqrasiya səviyyəsinin ümumi göstəricilərindən biri iştirakçdann xarici ticarətində qarşılıqlı ticarətin xüsusi çəkisidir. İƏT bu göstəriciyə görə Avropa, Şimali Amerika, Latın Amerikası, Cənub-Şərqi Asiyanın inteqrasiya bloklarından çox-çox geri qalır. İƏT ölkələrinin ümumi xarici ticarətində qarşılıqlı ticarətin payı cəmi 6%-dir. Faktiki olaraq, o, yalnız Azərbaycan və Mərkəzi Asiya respublika! annda bir qədər yüksək olub, 14-15% təşkil edir.

Odur ki, hazırda İƏT regiondaxiH tarif və qeyri-tarif maneələrin ləğv edilməsinə, bunun üçün zəruri dövlətiərarası razılaşmalann ratifikasiyasının sürətləndirilməsinə, üzv dövlətlərin xarici ticarət rejimlərinin daha da Hbelallaşdırılmasma, nəha

yət onlann regional ticarot-iqtisadi siyasətlərinin əlaqələndirilməsi və uyğunlaşdırılmasma çalışır. Ona görə də İƏT iştirakçısı ölkələri preferensial tariflər haqqında protokol imzalamalarına nail olmuşdur. Protokol aşağıdakıları nəzərdə tutur;

-güzəştli tariflərə ticarətin həyata keçirilən mal nomenklaturası 20 % artınlsm;

-blokdaxili ticarətin liberallaşdırılması həyata keçirilsin və sərbəst ticarət - iqtisadi zonaların yaradılması yolunda bütün maneələr aradan qaldırılsın;

- daim fəaliyyət göstərən sərgilər təşkil edilsin;

-ticarət və nəqliyyat hesablaşmalarının vahid Ödəmə mexanizminin yaradılması məqsədilə İƏT dövlətlərinin mərkəzi banklarının nümayəndələrindən ibarət komitə yaradılsın.

Azad ticarətin normal inkişafı tranzit daşımaları üçün əlverişli şərait yaradılmassa, həddən artıq çətindir. Belə şərait həm də indiyə kİmi formalaşdırılmış bütün regional nəqliyyat-kommunikasiya infrastrukturundan, o cümlədən Transasiya dəmir yolu xəttindən istifadənin rentabelliyinin artırılmasına səbəb olardı. Bunları nəzərə alaraq İƏT iştirakçısı ölkələri arasında 2000-ci ildə tslaraabadda tranzit ticarət haqqında razılaşmanın imzalanmasını da həyata keçirmişdir. Eyni zamanda təşkilat vasitəsilə İƏT üzvü olan Ölkələrin biznesmenləri üçün viza rejiminin sadələşdirilməsi haqqında razılaşma imzalanmışdır. Qeyd edilən iki razılaşma təşkilata daxil olan ölkələrin öz mallannm xarici bazarlara nəqli zamanı bir- birinin ərazisindən rüsumsuz olaraq tranzit məqsədilə istifadə etməyə, beləliklə onların nəqli xərclərini aşağı salmaqla dünya bazarında daha rəqabətqabiliyyəlH olmağa imkan verir. Əlbəttə, həmin razılaşmalar region dövlətlərinin ticarət- iqtisadi münasibətlərinə yeni təkan verəcək və İƏT-in dünya təsərrüfatının inkişafında oynadığı rolun əhəmiyyətini bir qədər də artıracaqdır.

Hazırda İƏT tərəfindən qarşılıqlı ticarətin inkişafı üçün üzv dövlətlərlə «Ticarət haqqında regional razılaşma» (ECOTA-Economic Cooperation OrganÎzation Trade

Agreement) layihəsi təqdim edilmişdir. Layihədə regionda ticarət imkanlan və şərait haqqında ölkələrin işgüzar dairələrinin informasiya təminatının yaxşılaşdırılması, müvafiq məlumat bazasının, informasiya sisteminin yaradılması təklif olunmuşdur.

lƏT-mn region və ümumilikdə isə dünya təsərrüfatının inkişafında əhəmiyyətli rol oynaya biləcək layihələrindən biri tƏT Ticarət və İnvestisiya Bankının yaradılmasıdır. Yaradılması planlaşdırılan bankın əsas məqsədləri ilk növbədə regiona investisiyalar cəlb etmək, təşkilatın müxtəlif layihələrini, üzv dövlətlər arasında ticarəti maliyyələşdirməkdir.

İƏT-nın dünya təsərrüfatının inkişafında rolunu müəyyən edən əsas cəhətlərdən biri də onun üzv ölkələr arasında elmi əlaqələrin (xüsusi kənd təsərrüfatı sahəsində) yaradılması cəhdində özünü biruzə verir. İƏT-nın belə orqanlanna misal olaraq, onun kənd təsərrüfatı, sənaye və səhiyyə idarəsini göstərə bilərik. 1992-ci ildə yaradılmış idarə regionda ərzaq təhlükəsizliyinin təmin olunması, yeni texnologiyaların, bitkilərin yetişdirilməsinin yeni metodlarının ayrılması, kənd təsərrüfatı resurslarının maksimum istifadəsinin təmin edilməsi üzrə işlər apanr. İdarə üzv dövlətlərə müəyyən qıt məhsulların çatışmamaziığımn aradan qaldınıması üçün konsultativ xidmət də göstərir. Bundan əlavə idarə aşağıdakı İstiqamətlər üzrə fəaliyyət göstərir;

- regionda səhralaşma ilə mübarizə;
- bitkilərin yeni məhsul növlərinin yaradılması üçün əməkdaşlıq;
- regionda şəkər çuğundurunun becərilməsi üzrə əməkdaşlıq;
- ev heyvanlarının və kənd təsərrüfatı heyvanlarının xəstəlikləri ilə mübarizə;
- regionda tələbatın gələcək inkişafının proqnozlaşdırılması və ödənilməsi yollarının müəyyən edilməsi məqsədilə əməkdaşlıq.

Təşkilat daxilində digər belə orqan 1996-cı ildə təsis edilmiş, İƏT-nın elmi fondudur. Fond elmi-texniki tədqiqatları maliyyələşdirməkdən əlavə regional əhəmiyyətli elmi axtarışların istiqamətlərinin kordinsayası, texnologiyaların ötürülməsi sahəsində əməkdaşlıq əlaqələrinin gücləndirilməsi məqsədini güdən İƏT layihələrini həyata keçirmək üçün yaradılmışdır.

İƏT-in fəaliyyətinin ən vacib istiqamətlərindən biri narkotik maddələrin qanunsuz istehsalı və yayılmasına qarşı mübarizədir. Nəzərə almaq lazımdır ki, dünya üzrə istehsal olunan narkotik maddələrin 70-75%-i təkcə Əfqanıstanda hazırlanır. Bu vəziyyət region ölkələrinin özündə narkotika istifadəçilərinin sayını artırır. BMT-nin məlumatlarına əsasən İranda və Pakistanda narkotikadan istifadə edənlərin sayı artıq 1 milyon nəfəri keçmişdir. Bununla bərabər İƏT ölkələri narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə aparıcı yer tutur dünyada müsadirə edilən narkotik maddələrin 80-90%-i onların payına düşür. Odur ki, hələ 1992-ci ildə narkotik vasitələrin qeyri-qanuni istifadəsi ilə mübarizə tədbirlərini koordinasiya edəcək və BMT ilə qarşılıqh fəaliyyət göstərəcək tƏT-ın xüsusi komitəsi yaradılmışdır.

Ümumiyyətlə, qeyd etdiyimiz kimi İƏT-ın fəaliyyətinin aynca mühüm bir istiqamətini regionun dünya təsərrüfatı sisteminə sürətli inteqrasiyası naminə digər beynəlxalq və regional təşkilatlarla qarşılıqlı səmərəli əlaqələrin qurulması təşkil edir. Bu səbəbdən İƏT-ın bir sıra beynəlxalq qurumlarla, o cümlədən maliyyə təşkilatları ilə getdikcə artan ikitərəfli münasibətlərini yalnız alqışlamaq olar. Xüsusilə onun BYİB, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, BMT-nin Asiya və Sakit okean üzrə iqtisadi və sosial komissiyası, UTT, Ümumdünya Səhiyyə Təşkilatı. BMT-nin narkotik vasitələrə nəzarət üzrə proqramı və s. nüfuzlu təşkilatlarla əməkdaşlığı regionun iqtisadi əhəmiyyətinin daha da artmasına kömək edir. Belə münasibətlər eyni zamanda İƏT səviyyəsində müəyyən məsələlərin həllində adı çəkilən qurumlardan yardım almağa və həmin problemlərin daha effektiv həllinə nail

Cədvəl 8

## Azərbaycan-ın İƏT ölkələri arasında ixrac və idxalda yeri (2005 -ci il)

| ölkələr | Azərbaycana ixract mln. $ | Ümumi ixracda Azərbaycanın xüsusi çəkisi, %-lə | İƏT ölkələrinə ixracda Azərbaycanın xüsusi çəkisi, %-lə | İƏT ölkələrinə ixracda Azərbaycanın tutduğu yer (9 ölkə arasınad) | Azərbaycana idxal, mln. $ | Ümumi idxalda Azərbaycanın xüsusi çəkisi, %-lə | İƏT ölkələrindən ixdal- da Azərbaycanın xüsusi çəkisi, %-lə | İƏT ölkələrindən ixracda Azərbaycanın xüsusi çəkisi, %-lə | Azərbaycanla ticarət üzrə saldo mln.$ |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qırğızıstan | 2,7 | 0,45 | 1,22 | 7 -ci | 2,5 | 0,35 | 0,9 | 8-ci | 0,2 |
| Qazaxıstan | 23,2 | 0,33 | 4,3 | 7-ci | 19,4 | 0,25 | 5,01 | 5 -ci | 3,8 |
| Əfqanıstan | 1,0 | 0,8 | 3,13 | 4 -cü | 1,0 | 0,2 | 1,92 | 7 ™cı | 0 |
| Pakistan | 11,38 | 0,13 | 5,33 | 6 -cı | 0,48 | 0.004 7 | 0,21 | 7 -ci | 10,9 |
| Türkmənistan | 29,0 | 3.9 | 9,51 | 5 -ci | 22,0 | 1.8 | 5,0 | 6 -cı | 7,0 |
| tran | 194,0 | 1,06 | 29,35 | 1 -ci | 119,0 | 0,82 | 20,7 | 2 -ci | 75,0 |
| Türkiyə | 319,7 | 1,22 | 24,86 | 1 -ci | 58,3 | 0,12 | 5,27 | 5 -ci | 261.4 |
| Özbəkistan | 3,1 | 0,071 | 0,6 | sonuncu | 4,0 | 0,09 | 0,51 | 8 -ci | -0,9 |
| Tacikistan | 0,07 | 0,0096 | 0,032 | sonuncu | 3,2 | 0,43 | 0.9 | 7 -ci | -3,13 |
| Cəmi | 584,15 | 0,87 | 14,65 | X | 229,88 | 0,26 | 5,45 | X | 354,27 |

olmağa imkan verir. Məsələn, 1993-cü ildə İƏT İslam İnkişaf Bankı və BMT-nin Asiya və Sakit okean üzrə iqtisadi və sosial komissiyası ilə birlikdə regionda avtomobil və dəniz yolu xəttlərinin dəqiq xəritəsini tərtib etmiş və nəqliyyat sektorunun inkişaf proqramını hazırlamışdır.

Regionda kənd təsərrüfatı üçün başqa beynəlxalq təşkilatlar tərəfindən ayrılmış mütəxəssis-maliyyət-texniki yardımların səmərəli istifadəsi məqsədilə İƏT-i FAO ilə əməkdaşlıq əlaqələrinə girmişdir. İƏT ölkələri bir-bİrinə çox yaxın yerləşdiyi üçün təşkilat çərçivəsində səhiyyə sahəsində əməkdaşlıq da az əhəmiyyətli deyildir. Burada da İƏT Kənd Təsərrüfatı, Sənaye və Səhiyyə İdarəsi beynəlxalq səhiyyə qurumları ilə ikitərəfli münasibətlər qurmaqla regionda xəstəliklərə qarşı mübarizə tədbirlərində üzv ölkələrinin səylərinin birləşdirilməsinə çalışır. Həmin məqsədlə İƏT müxtəlif yoluxucu xəstəliklərdən müdafiə və ailə planlaşdırılması mövzusunda Ümumdünya Səhiyyə Təşkilatı (WHO), UNICEF, UNFPA ilə birgə yığıncaqlar keçirmişdir. Bu cür yığıncaqların məqsədi son nəticədə regionda yolxucu xəstəliklərdən müdafiə və ailə planlaşdırılması sahəsində vahid siyasətin işlənib hazırlanmasıdır.

Qeyd etmək lazımdır ki, İƏT ilə Azərbaycan arasında əlaqələr hələlik əsasən ticarət sferasını əhatə edir. Çünki Azərbaycan bu təşkilata cəmi 16 ildir ki, üzv olmuşdur və bir tərəfdən İƏT-mn reallaşdırdığı layihələr indiki dövrdə bilavasitə respublikamızı əhatə etmir (məsələn, Tecens-Sərəxş- Məşhəd; Bəfk-Bəndər-Abbas; Alma-Ata-Daşkənd-Tehran-İstambul dəmir yolu xətləri), yaxud Azərbaycanı əhatə edən sazişlər nisbətən təzə qəbul edildiyi üçün (məsələn, preferensial tariflər haqqında, tranzit ticarət haqqında və s.) onların praktiki nəticələri barədə danışmaq hələ bir qədər tezdir. Digər tərəfdən Azərbaycanın iştirak etdiyi bəzi İƏT layihələri (məsələn, elmi fond, gəmiçilik təşkilatı, sığorta təşkilatı, ticarət və investisiya bankı və s.) paraflanmış niyyət protokolları şəklindədir.

İƏT-mn iştirakçısı dövlətləri ilə respublikamızın ticarət əlaqələrini əslində 1997-ci ildən başlanmışdır. Çünki 1996-

1997- **ci illər tƏT ölkələrinin, ilk növbədə təşkilata üzv olan keçmiş SSRİ respublikalarının İqtisadiyyatında dirçəliş ili kimi xarakterizə olunur. Bu meyl 6-cı cədvəlin materiallarında özünü göstərir;**

**Birinci cədvəldə göstərdiyimiz göstəricilərin və yerdəyişmələrin məntiqi davamım 7 saylı cədvəlin materialları əsasında nəzərdən keçirək.**

Cədvəl 7

Azərbaycanla tƏT dövlətləri arasında ticarət əlaqələri ( 2004-cü il)

| Ölkələr | Omumi xarici ticarət dövriy-yəsi, mlıı.$ | lƏT ölkələri ilə xarici ticarət dövriyyəsi mln. S | Azərbaycanla xarici ticarət dövriyyəsi mln.$ | lƏT ölkələri ilə xarici ticarət dövriyyəsində Azərbaycanın xüsusi çəkisi %-la | İƏT ölkələri İlə cəmi xarici ticarət dövriyyəsində Azərbaycanın tutduğu yer (9 Ölkə sırasında) |
|---|---|---|---|---|---|
| **Qırğızıstan** | **1313,1** | **501,5** | **5,2** | **1,04** | **8-ci** |
| **Qazaxıstan** | **14842,0** | **296,6** | **42,6** | **4,6** | **7-cı** |
| **Əfqanıstan** | **621,0** | **84,0** | **2,0** | **2,4** | **7-ci** |
| **Pakistan** | **18938,0** | **445,32** | **11,86** | **2,7** | **6-cı** |
| **Türkmənista** | **1979,0** | **749,0** | **51,0** | **6,81** | **6 -cı** |
| **tran** | **32972,0** | **1235,0** | **313,0** | **25,3** | **2-ci** |
| Türkiyə | **74828,0** | **2392,9** | **378,0** | **15,8** | **2 ci** |
| **Özbəkistan** | **8901,5** | **1292,4** | **7.1** | **0,55** | **sonuncu** |
| **Tacikistan** | **1477,3** | **576,44** | **3,27** | **0,57** | **7-ci** |

**Statistik rəqəmlərdən bir daha aydın olur ki, lƏT ölkələri ilə xarici ticarət dövriyyəsində yalnız tran və Türkiyə ilə vəziyyət xüsusi çəki baxımından kafi hesab edilə bilən səviyyəyə yaxındır. Əslində Azərbaycanın Türkiyə Uə ticarət dövriyyəsinin mütləq səviyyəsi 1,0 mlrd, dollardan aşağıdır. Azərbaycandan Türkiyəyə ixrac olunan malların ölkənin tədiyyə balansında xüsusi çəkisi 1%-dan azdır. Bundan fərqli**

olaraq Türkiyədən Azərbaycana ixrac olunan malların respublikamızın tədiyyə balansında xüsusi çəkisi 10-12%-ə çatır. Bir regional inteqrasiya birliyi daxilində əməkdaşlıq edən Tacikistan, Özbəkistan, Əfqanıstan, Pakistan kimi ölkələrlə ticarət əlaqələri yox səviyyəsindədir.

Öz növbəsində Azərbaycanın xarici ticarət dövriyyəsində İqtisadi Əməkdaşlıq təşkilatının üzvü olan ölkələrin xüsusi çəkisinin öyrənilməsi də böyük maraq doğurur. Beləki, İƏT ölkələrinin respublikarmzın xarici ticarət dövriyyəsində payı
1998- ci ildən sonra azalmağa doğru meyilli olmuşdur.

2005-ci ilin yekunlarına görə İƏT Azərbaycanın idxalında 22% xüsusi çəki ilə tƏİT (49,9%), Qara Dəniz İƏT (37,8%), Asiya-Sakit Okean İƏT (36,6%), MDB (32%), İslam Konfransı Təşkilatı (26,1 %), ixracında isə 8,7% xüsusi çəki ilə İƏİT (71,7%), Avropa Birliyi (60,4%), Qara Dəniz İƏT (19,3%), MDB (13,5 %), İslam Konfransı Təşkilatından (9,7%) geri qalmaqla hər iki göstərici üzrə 6-cı yerdə durur.

Respublikamızın xarici ticarət dövriyyəsində İƏT, İƏİT (62,9%), Avropa Birliyi ( 43,9 %), Qara Dəniz İƏT (26,7%), MDB (20,9%), Asiya-Sakit Okean İƏT (18,6%), İslam Konfransı Təşkilatından (16,3%) sonra 7-ci yerdədir.

Azərbaycan Respublikasının 1996-2005-ci illər ərzində ixracında İƏT üzvü olan 5 dövlət, idxalında isə İƏT üzvi olan 4 dövlət 25 ölkə sırasında yerləşmişlər. Onların Ölkəmizin ixrac-idxal əməliyyatları üzrə tutduqları mövqe 8 və 9 saylı cədvəllərində öz əksini tapmışdır.

**Cədvəl 8**

**Azərbaycanın ixracında İƏT-na daxil olan əsas tərəfdaşların xüsusi çəkisi ( %-lə) və yeri**

| **İllər** | **1996** | **1997** | **1998** | **2004** | **2005** | **1996** | **1997** | **1998** | **2000** | **2005** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Türkiyə** | **6,2** | **5,3** | **22,4** | **7.4** | **6,0** | **4** | **4** | **1** | **4** | **4** |
| **Tacikistan** | **0,3** | **0,4** | **0,3** | **1.2** | **1,1** | **20** | **17** | **25** | **14** | **13** |
| **Türkmənistan** | **5.4** | **1,1** | **2,3** | **1,0** | **0,5** | **5** | **9** | **8** | **17** | **17** |
| **İran** | **35,8** | **24,3** | **7,3** | **2,4** | **0,4** | **i** | **1** | **5** | **10** | **22** |
| **Qazaxıstan** | **2,4** | **1,1** | **1,7** | **0,4** | **0,4** | **7** | **8** | **14** | **21** | **25** |

Göründüyü kimi Azərbaycanın ixracında tƏT daxilində nisbətən böyük xüsusi çəkiyə malik olan Türkiyə ümumi ixracımızda 4-cü yeri tutur. İran və Qazaxıstan müvafiq olaraq 22 və 25-ci yerdədirlər. Ümumi idxalda isə Türkiyə 2-ci, Qazaxıstan və İran müvafiq olaraq 6-cı, 7-ci yeri tuturlar. Türkmənistan isə 23-cü yerdədir. Bütün bunlar belə bir fikri qeyd etməyə əsas verir ki, respublikamızın xarici ticarət əlaqələrində həm ixrac həm də idxal sahəsində İƏT ölkələri arasında yaranmış vəziyyətin yaxşılaşdırılmasına ehtiyac vardır.

**Cədvəl 9**

**Azərbaycanın idxalında İƏT-na daxil olan ölkələrin xüsusi çəkisi (%-lə) və yeri**

| İllər | 1996 | 1997 | 1998 | 2000 | 2005 | 1996 | 1997 | 1998 | 2000 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Türkiyə | 22,5 | 22,6 | 20,4 | 13,8 | II | 1 | 1 | 1 | 2 | 2 |
| Qazaxıstan | 2 | 3.7 | 4.1 | 2,4 | 4,9 | 8 | 8 | 7 | 11 | 6 |
| İran | 6.9 | 6,1 | 4 | 4,6 | 4,8 | 6 | 4 | 8 | 6 | 7 |
| Türkmənistan | 1,5 | 3,2 | 2.5 | 1,3 | 0,8 | 12 | 9 | 10 | 16 | 23 |

İƏT üzvü olan ölkələrlə respublikamızın ticarət-iqtisadi münasibətlərinin dinamikasının təhlili və inkişaf meylləri aydın göstərir ki, bu dövlətlərin son illərdə Azərbaycanın ixrac potensialından istifadə edilməsində rolu getdikcə artır, (bax cədvəl 10).

Lakin genişlənən iqtisadi əlaqələr mövcud potensialdan istifadə səviyyəsindən geri qalır. Bu əlaqələr sisteminə istehsal kooperasiyanın, İnkişafı hesabına xeyli genişləndirmək üçün Azərbaycanda böyük imkanlar vardır. Bu İmkanlar ilk növbədə kimya, neft kimyası, metalurgiya, emal sənayesi və s. mövcuddur. Bunun üçün istehsalın beynəlxalq kooperasiyasının bütün formalarından, o cümlədən birgə müəssisənin təşkilinə diqqət xeyli gücləndirilmişdir.

Azərbaycan sənayesində bİrgə müəssisələrin yaradılmasında prioritet istiqamətlərdən biri neft emalı sahəsidir. Çünki birincisi, Türkiyədən başqa bütün İƏT ölkələri böyük neft, yaxud qaz yataqlarına malikdirlər. İkincisi, yaxın gələcəkdə

Cədvəl 10

**Azərbaycanın İƏT ölkələri ilə ixrac -idxal əməliyyatlarının dinamikası**

| Ölkələr | İxrac, min $ | | | İdxal, min $ | | | Saldo, min $ | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1997 | 1998 | 98/97 %-tə | 1997 | 1998 | 98/97 %-lə | 1997 | 1998 |
| Qazaxıstan | 9000,0 | 10292,9 | 114,4 | 30000,0 | 47704,9 | 159,0 | -21000,0 | - 37412 |
| Qırğızıstan | 2000,0 | 4440,9 | 2,22 dəfə | 1300,0 | 12088.0 | 93,0 | 7000,0 | 3232,1 |
| Əfqanıstan | 200,0 | 1187,1 | 5,9 dəfə | 30,0 | - | - | 170,0 | 1187,1 |
| İran | 190000,0 | 44623,8 | 23,5 | 49000,0 | 40264,8 | 82,2 | 141400,0 | 4359 |
| Özbəkistan | 4000,0 | 1970,7 | 49,27 | 5940,0 | 2995,4 | 50,4 | - 1940.0 | - 1024,7 |
| Pakistan | 200,0 | 15,0 | 7,5 | 250,0 | 829,9 | 3,32 dəfə | -50,0 | -814,9 |
| Tacikistan | 3500,0 | 1563.3 | 44,7 | 80,0 | 240,3 | 3 dəfə | 3420,0 | 1322,9 |
| 'Fürkiyə | 41000,0 | 135697,0 | 3,31 dəfə | 180000,0 | 207899,7 | 115.5 | 139000,0 | - 72202,7 |
| Türkmənistan | 8500,0 | 14775,6 | 173,8 | 25000,0 | 25817,3 | 103,3 | - 16500,0 | - |
| Cəmi | 258400,0 | 214566,3 | 83,0 | 291160,0 | 326961,1 | 112,3 | - 32760,0 | 112394.8 |
| Azərbaycanın ümumi idxal-ixracında xüsusi çəkisi. %- lə | 33,1 | 36,3 | x | 36,67 | 25,49 | x | x | x |

K)
O

Cədvəl 10-nın davamı

| Ölkələr | İxrac, min S | | | İdxal, min $ | | | Saldo, min $ | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1998 | 2000 | 2000/1998 | 1998 | 2000 | 2000/1998 %-lə | 1998 | 2000 |
| Qazaxıstan | 10292,9 | 4069,4 | 39,54 | 47704,9 | 24580,1 | 51,53 | -37412,0 | * 20510,7 |
| Qırğızısta | 4440,9 | 3705,9 | 83,45 | 1208,8 | 1214,1 | 100,44 | 3232,1 | 2491,7 |
| Əfqanısta | 1187,1 | 178,3 | 15,02 | - | - | - | 1187,1 | 178,3 |
| tran | 44623, | 22598,6 | 50,64 | 40264, | 46736, | 116,07 | 4359,0 | -24138 |
| Özbəkista | 1970,7 | 740,5 | 37,58 | 2995,4 | 422,6 | 14,11 | -1024,7 | 317,9 |
| Pakistan | 15,0 | 149,0 | 9.33 dəfə | 829,9 | 2748,7 | 3,31 dəfə | - 814,9 | * 2599,7 |
| Tacikistan | 1563,3 | 10782, | 6,9 dəfə | 240,3 | 182,9 | 76,11 | 1322,9 | 10599, |
| Türkiyə | 135697,0 | 69081,1 | 50,91 | 207899,7 | 145548,3 | 70,01 | - 72202,8 | -76467,2 |
| Türkmənista | 14775, | 8864,5 | 59,99 | 25817, | 12913, | 50,02 | -1141,6 | - 4049,3 |
| Cəmi | 214566,3 | 120169,5 | 56,01 | 326961,1 | 234347,1 | 71,67 | 112394,8 | 114177,6 |
| Azərbaycanın ümumi idxal* ixracında xüsusi çəkisi, %-lə | 36,13 | 13,31 | x | 25,49 | 23,18 | x | x | x |

Cədvəl 10-nm davamı

| Ölkələr | İxrac, min $ | | | İdxal, min $ | | | Satdu, min $ | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 2005 | 2005/2000 %-lə | 2000 | 2005 | 2005/2000 %-b | 2000 | 2005 |
| Qazaxıstan | 4069.4 | 6664,1 | 163,8 | 24580,1 | 57575,5 | 2,34 dəfə | -20510, | -50911,4 |
| Qırğızıstan | 3705,8 | 1872,6 | 50,5 | 1214,1 | 3154,6 | 2.6 dəfə | 2491,7 | - 1282,0 |
| Əfqanıstan | 178,3 | 757,2 | 4,25 dəfə | - | 3.2 | - | 178.3 | 754,0 |
| İran | 22598,6 | 7679,6 | 34,0 | 46736,7 | 56830,2 | 121,6 | -24138.İ | -49150,6 |
| Özbəkistan | 740,5 | 1061,3 | 143,3 | 422,6 | 751,3 | 177,8 | 317,9 | 310.0 |
| Pakistan | 149,0 | 296,4 | 199,0 | 2748,7 | 1570,7 | 57,14 | -2599,7 | -1274,3 |
| Tacikistan | 10782, | 19585, | 181,6 | 182,9 | 148,1 | 81,0 | 10599,4 | 19437,2 |
| Türkiyə | 69081,1 | 104981,0 | 152,0 | 145548, | 128502, | 88,3 | - | -23521,6 |
| Türkmənistan | 8864.5 | 8228,6 | 92,8 | 12913,7 | 9643,8 | 74,7 | -4049.3 | -1415,2 |
| Cəmi | 120169, 5 | 151126,1 | 125,8 | 234347,1 | 258180,0 | 110,2 | 114177, 6 | 107053,9 |
| Azərbaycanın ümumi idxal-ixracında xüsusi çəkisi, %-lə | 13,31 | 8,66 | X | 23,18 | 22,08 | X | X | X |

K)
o

region üzrə neft hasilatının xeyli artacağı gözlənilir. Odur ki, neft emalı tƏT çərçivəsində birgə müəssisələrin yaradılması üçün olduqca etibarlı sahədir. Hələ hazırkı vəziyyətdə, yəni avadanlığın keçmiş SSRİ dövründən qalması, texnologiyaların köhnəliyi, fiziki və mənəvi aşınmaya uğraması nəzərə alınmaqla respublikamızda bu sənaye sahəsinin illik gücü 20 mln. tondur. Aydındır ki, birgə müəssisələrin təşkili ilə maliyyə vəsaitinin cəlb edilməsi nəticəsində onların gücü və effektivliyi qısa müddət ərzində dəfələrlə artırıla bilər və Qazaxıstan, Türkmənistan neftinin bir hissəsi də o müəssisələrdə emal olunar. Qeyd etmək lazımdır ki, Azərbaycan həm də bunun üçün lazımi infrastruktura (elmi-texniki, kadr potensialı, terminallar, boru kəmərləri) da malikdir.

Prioritet istiqamətlərdən biri, yuxarıda göstərdiyimiz kimi, kimya və neft kimyasıdır. Regionda neft hasilatının gözlənilən artımı ilə bağlı olaraq həmin birgə müəssisələr də yaxın zamanda təşkil edilməlidirlər. Ümumiyyətlə nəzərə almaq lazımdır ki, kimya sənayesi dünya iqtisadiyyatının ən perspektivli istiqaməti kimi qiymətləndirilir. Kimya və neft_ kimya sənayesi yüksək kapital tutumlu olduğundan burada İƏT-na üzv dövlətlərlə birgə müəssisələrin yaradılması üçün onların kapitalının qorunacağına və istehsalın təmin olunacağına dövlət zəmanəti də verilə bilər.

Metallurgiya sənayesində birgə müəssisələrin yaradılması İƏT ölkələri üçün ona görə maraqlı ola bilər ki, bir tərəfdən ölkəmiz çox müxtəlif, böyük ehtiyatlan olan faydalı qazıntı yataqlarına malikdir (məsələn, Zəylik alunit yatağı-sənaye ehtiyatı 165 milyon tondur) və onlar həmin müəssisələrin ehtiyaclarım tamamilə təmin etmək iqtidarındadırlar, digər tərəfdən Azərbaycanın metallurgiya sənayesinin nəhəngləri- Sumqayıl, boru-prokat zavodu, Daşkəsən fUiz-saflaşdırma kombinatı özəlləşdirilməyə hazırlaşdırıhr. Həm də Sumqayıt boru-prokat zavodu əsasında lƏT ölkələri ilə yaradıla biləcək yüksək texniki təchizatlı birgə müəssisənin regional boru-kəmər layihələrinin reallaşdınlmasında İştirak etmək imkanları böyükdür.

Qarşılıqlı nəqliyyat-kommunikasiya əlaqələrinin inkişaf etdirilməsi sahəsində əməkdaşlıqdan danışarkən qeyd etməliyik ki, o, əvvəlcə də göstərildiyi kimİ, inteqrasiya prosesinin əsasında duran mühüm amildir və Azərbaycan Respublikasının İƏT ölkələri ilə belə əməkdaşlıq münasibətlərinin inkişaf potensialı çox böyükdür. Bu ilk növbədə respublikamızın Şimal və Cənub, Qərb və Şərq arasında əlverişli coğrafi mövqe tutmasından irəli gəlir. Əslində Azərbaycanın İƏT-na üzv olan digər dövlətlər, xüsusilə Mərkəzi Asiya dövlətləri ilə nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ölkəmizin həmin təşkilata üzv olub-olmamasından asılı deyildir, dövrün tələbindən irəli gələn zərurətdir. Mərkəzi Asiyanın müxtəlif üzvi və qeyri-üzvi faydalı qazıntılarla zənginliyi, eyni zamanda regionun coğrafi baxımından qapalılığı, bazarın isə əsasən Avropada yerləşməsi bu cür əməkdaşlığı zəruri edən səbəblərdir.

Azərbaycanın İƏT ölkələri ilə nəqliyyat sahəsində əməkdaşlığının dərinləşdirilməsinin mühüm bir istiqaməti TRASEKA layihəsi çərçivəsində ola bilər. Qeyd etmək lazımdır ki, üzv ölkələrin 7-si bilavasitə TRASEKA layihəsində iştirak edir. TRASEKA üzrə əməkdaşlığın həmin dövlətlər üçün fərqli cəhətİ ondan ibarətdir ki, onlar qalan digər dövlətlərlə danışıqlarda (daşıma tarifləri, texniki göstəricilər və sair barəsində) təşkilat vasitəsilə vahid platformadan çıxış edə bilərlər. Bunlara şərqdə Yaponiya, Çin, YSÖ, qərbdə Şərqi və Qərbi Avropa ölkələridir.

TRASEKA layihəsi iki yolla Qazaxıstanın Drujba və Gürcüstanın Batumi şəhərlərini birləşdirir:

I. D ruj ba->Daşkənd—>^Səmərqənd—^Bayraməli-+Aşqabad —♦Türkmənbaşı —♦ Bakı—+ Tbilisi—»Poti—> Batumi.

li.Drujba—♦Aktübinsk—^ Atırau—> Aktau—♦ Bakı—*Tbilisi—+ Poti—♦Batumi.

Göründüyü kimi hər iki yolun kəsişmə nöqtəsi Bakı şəhəridir. Əgər nəzərə alsaq ki, TRASEKA Orta Asiyadan Avropaya qədər məsafəni 3000 km qısaldır və layihənin həyata keçirilməsi nəqliyyat daşımalarını, ardınca isə regionda

turizm inkişaf etdirəcəkdir, onda İƏT üzvü olan ölkələrin Azərbaycanla (eyni zamanda əksinə) bu sferada əməkdaşlığı obyektiv zərurətə çevrilir.

Mərkəzi Asiya—>Azərbaycan—»Gürcüstan-^Qara dəniz—+Aralıq dənizi marşrutu ona qarşı yeganə alternativ ola biləcək Mərkəzi Asiya —»Pakislan, yaxud İran—♦Ərəb dənizi Ədən körfəzi^Qırmızı dəniz—>Suveyş kanalı—♦ Aralıq dənizi marşrutundan da (Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Əfqanıstan, Türkmənistan, Tacikistan üçün) xeyli qısadır. Ona görə də Azərbaycanın istiqaməti beynəlxalq yük daşımalarında vaxta və nəqliyyat xərclərinə eyni zamanda qənaət etməyə imkan verir. Mərkəzi Asİya—♦İran—>Türkiyə (—♦ Avropa) marşrutu isə əvvəllər həmin dövlətlərin karbohidrogen ehtiyyatlannm dünya bazarına çıxarılması üçün boru-kəmər xəttinin çəkilişində Azərbaycan marşrutu ilə rəqabət apara bilirdi. Lakin yaxın gələcəkdə ƏİBK-nin çəkilişi reallaşacağından Mərkəzi Asiya respublikalarını İrandan keçməklə Türkiyəyə boru kəmərinin tikintisində də artıq az maraqlı edir. Çünki indi bu məqsədlə sadəcə olaraq Transxəzər kəmərinin çəkilişi və onun ƏİBK-nə birləşdirilməsi kifayətdir. Transxəzər layihəsini səmərəli edən cəhətlərdən biri də ƏİBK-nin Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan qazının eyni zamanda ötürə bilmək qabiliyyətidir.

İran və Pakistan (o cümlədən Hindistan) kİmi ixrac potensialına malik ölkələr üçün isə Pakistan-^İran—♦ —♦Azərbaycan—♦Rusiya^Şərqi Avropa marşrutu onların Gürcüstan, Rusiya, Ukrayna, Şərqi Avropa bazarlarına çıxması üçün demək olar ki, yeganə avtomobil və dəmir yoludur. Alternativ avtomobil və dəmir yolu Pakistan-+İran-*Türkmənistan—♦Özbəkistan-+Qazaxıstan—♦ —>Rusiya—>Şərqi Avropadır. Bu istiqamətlərin müqayisəsini aparsaq belə ikincinin çatışmamazhqlan aydındır. I. Əgər əvvəlki marşrutda başlanğıc və son nöqtə arasında 3 ölkə (İran, Azərbaycan, RusIya) vardırsa, ikinci istiqamət üzrə başlanğıc və son nöqtə arasında 5 ölkə (İran, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Rusiya) yerləşir. Deməli, tranzit

daşıma xərcləri burada çoxdur. II. Azərbaycan istiqaməti ilə nəqletmə Pakistan, İran üçün nəinki Şərqi Avropa, həmçinin Rusiya bazarı baxımından da daha qısadır.

Respublikamızın İƏT ölkələri ilə əməkdaşlığın dərinləşdirilməsinin hər iki tərəf üçün vacib istiqamətlərindən biri də, fikrimizcə, ilkin mərhələdə sırf təşkilata daxil olan dövlətlərə imtiyazlar nəzərdə tutan regional azad iqtisadi zonaların yaradılmasıdır. Bu məqsədlə ilk növbədə müvafiq qanunverici baza hazırlanmalı və İƏT vasitəsilə bütün üzv dövlətlərə, onların işgüzar dairələrinə məlumat çatdırmalıdır. Həmin azad iqtisadi zonalar konkret olaraq respublikamızın Sumqayıt, Yevlax, Mingəçevir, yaxud Şirvan şəhərlərində təşkil edilə bilər. Belə ki, adlan çəkilən şəhərlərin hər biri özünəməxsus ixtisaslaşma istiqaməti ilə fərqlənir. Məsələn, Sumqayıt özünün güclü kimya, neft -kimya, metallurgiya. Yevlax respublika əhəmiyyətli nəqliyyat qovşağı olması. Mingəçevir yaxşı enerji təminatı, elektrotexnika və maşınqayırma müəssisələri, Şirvan da enerji cəhətdən yaxşı təmin olunması, pambıqtəmizləmə müəssisələri ilə seçilir. Kimya və neft kimyası, nəqliyyat, pambıqçılıq isə məlum olduğu kimi, bütün tƏT ölkələrinin İqtisadiyyatının yüksək inkişaf etmiş, yaxud yüksək inkişaf perspektivi olan sahələridir.

İƏT ölkələri ilə əməkdaşlıq əsasında Sumqayıtda ixrac- istehsal zonasının yaradılması, fikrimizcə, daha məq.sədəuyğun olardı. Sumqayıt şəhərinin böyük sənaye potensialı belə azad iqtisadi zonanın təşkili və effektiv fəaliyyət göstərməsinə çox əlverişli şərait yaradır. Şəhərin sənaye gücü və formalaşdırılacaq ixrac-istehsal zonasının səmərəliliyinə əmin olmaq üçün Sumqayıtda sintetik etil spirti zavodu, sintetik kauçuk zavodu, üzvi məhsullar zavodu, boru-prokat zavodu, alüminium zavodu, kompressor zavodu, boru tökmə zavodu, aşqarlar zavodu, şüşə və dəmir-beton məmulatları zavodu, polimer tikinti məmulatları zavodu, polietilen zavodu, superfosfat zavodu. Azərkimya boru zavodu. Üzvi Sintez Birliyi (ümumi sayda 40-a yaxın iri sənaye müəssisəsi).

qənnadı, toxuculuq fabrikləri, balıq zavodunun yerləşdiyini göstərmək yəqin ki, kifayətdir.

Həm də Sumqayıt aşqarlar zavodu keçmiş SSRİ-də aşqar istehsalına görə ən böyük zavod olmuş, Sumqayıt Üzvi Sintez Birliyinin 40-dan çox kimya məhsulları isə keçmiş İttifaq dövründə 200-dən artıq ölkəyə ixrac olunmuş və bütövlükdə xammalı ancaq Azərbaycanın özü verirdi. İndi də adlan çəkilən müəssisələrin əsaslı rekonstruksiyası ilə əvvəlki bazarların əksər hissəsi geri qaytanla bilər. Çünki L Xammal- Azərbaycan nefti yüksək keyfiyyətlidir. Qalan xammal növləri də heç yerdən idxal olunmur. II. Xammal mənbəyi yaxında yerləşdiyi üçün nəqliyyat xərcləri cüzidir və təhlükəsizdir. Bu amillər, əlbəttə ki, Sumqayıt müəssisələrində istehsal oluna biləcək məhsulların dünya bazarında rəqabət qabiliyyətini güclü surətdə artırır. Digər tərəfdən, kimya sənayesi, əvvəl də göstərildiyi kimi, dünya təsərrüfatının ən perspektivli sahəsidir. Qeyd etdiyimiz amil də Sumqayıtda ixrac-istehsal zonasımn yaradılmasının cəlbedici tərəflərindən biridir.

Yevlax isə nəqliyyatla bağlı digər xidmətlər də daxil olmaqla bağlama anbarları tipli azad iqtisadi zonanın yaradılması səmərəli nəticələr verə bilər. Ona görə ki, Yevlax şəhəri respublika əhəmiyyətli nəqliyyat qovşağıdır. Burada Azərbaycanı Qərb və Şərq, Şimal və Cənubla birləşdirən avtomobil və dəmir yollan qovuşur. TRASEKA çərçivəsində Avropa-Qafqaz- Asiya nəqliyyat dəhlizi də Yevlaxdan keçir. Yevlaxda həmçinin aeroport və Kür çayı üzərində gəmi dayanacağı vardır. Odur ki, bu şəhərin yaxın gələcəkdə regional əhəmiyyətli nəqliyyat qovşağına çevrilməsi imkanları yetərincədir və həmin imkanlardan tezliklə hər cür yollarla, o cümlədən azad iqtisadi zonaların təşkili hesabına istifadə olunmalıdır.

Azərbaycanla İƏT ölkələrinin əməkdaşlığının qarşısında duran ən mühüm vəzifələrdən biri bu dövlətlərin əksərinin malik olduğu böyük ümumi intellektual potensialın səmərəli istifadəsi, milli təsərrüfatların sürətli inkişafı üçün dövrün tələblərinə cavab verən elmi-texniki bazanın yaradılması,

regional iqtisadiyyatın texnoloji cəhətdən irəliləyişinin təmin edilməsi məsələsidir. Burada aşağıdakı istiqamətlər proiritet kimi göstərilə bilər;

' regionda resursa qənaət edən yüksək texnologiyalar əsasında mineral xammalların kompleks istifadəsi sisteminin yaradılması;

- biotexnologiya, genetika elmləri sahəsində birgə tədqiqatların həyata keçirilməsi, onların nailiyyətlərinin kənd təsərrüfatına geniş tətbiqi;

- Qazaxıstanın hərbi-müdafiə komplekslərinin, Özbəkistan və Türkiyənin təyyarəqayırma, Qırğızıstan, Azərbaycan, Türkiyə, Pakistan cihazqayırma, tran və Azərbaycanın karbohidrogen xammalının emalı müəssisələri bazasında yeni sənaye texnologiyalarının yaradılması;

- ətraf mühitin mühafizəsi üçün birgə proqramların hazırlanması-belə proqramlar ətraf mühitin müxtəlif zəhərli tullantılardan təmizlənməsi, onun bitki və heyvanlar aləminin bərpası, səmərəli istifadəsini əhatə etməlidir. Həmin proqramlar ilk növbədə Xəzər dənizi. Aral dənizi, Amudərya və Sırdərya çaylarının hövzələri üçün tərtib və tətbiq olunmalıdır.

Elmi-texniki əməkdaşlıq əlaqələri respublikamızın və digər İƏT Ölkələrinin universitet laboratoriyalarının, eləcə də elmi-təqiqat institutlarının, sənaye müəssisələrinin laboratori- yalarımn, mühəndis-texniki bürolannın birgə səyləri, dövlətlər- arası elmi araşdırmalar mərkəzinin təşkil edilməsi İƏT ölkələrinin bu cür fəaliyyətə müxtəlif imtiyazlar verməsi, qrantlar ayırması yolu ilə həyata keçirilə bilər.

İşin bu cür təşkili Azərbaycanın iqtisadi potensialının bir hissəsi olan yalnız neftin ixracına deyil, digər sahələrin də istifadə otuna biləcək ehtiyatlarından səmərəli istifadə etməyə imkan verəcəkdir.

9.4. Azərbaycanla beynəlxalq səviyyədə və İƏT arasında əməkdaşlığın tənzimlənməsi sistemin təkmilləşdirilməsinə düzgün yanaşma, fikrimizcə bu əməkdaşlıq əlaqələrinin inkişafı problemlərinin müəyyənləşdirilməsi və onların həlli yollarının axtarılmasına əsaslanmalıdır.

Azərbaycan Respublikasının beynəlxalq səviyyədə İƏT İlə əməkdaşlığının təkmilləşdirilməsində başlıca problemlər aşağıdakılardır:

1) Birincisi və ən əsası İƏT çərçivəsində Türkiyə, İran, Pakistan arasında regionda liderlik uğrunda rəqabətin getməsidir. Yəni formaca iqtisadi qurumun mahiyyətcə artıq siyasi- ləşməsi, Türkiyə, İran, Pakistan isə regionda siyasi liderliyi ələ keçirmək üçün təşkilata bir vasitə kimi yanaşmağa səy göstərir.

Pakistan İƏT-dan istifadə etməklə üzv olan keçmiş SSRİ respublikalarına özünün «strateji konsensus» təklifini «zorla» qəbul etdirmək, onları Rusiyadan uzaqlaşdırmaq və Hindistanla mübarizədə «müsəlman tərəfdaşlar» qazanmaq istəyir. Pakistanın siyasi dairələrinin fikrincə həmin məqsədləri yerinə yetirməklə İƏT İslamabadın regional siyasətinin mühüm möhkəmləndirici elementi olar və Cənubi, Qərbi, Mərkəzi, Asiyada qüvvələr nisbətini onun xeyrinə dəyişər. Buna görə də Pakistan İƏT-nm fəaliyyətinə təkcə iqtisadi yox, həm də siyasi çalarlar verməyə çalışır, onu «rcgional təhlükəsizliyin qarantı» vəzifəsinə irəli sürür, təşkilat çərçivəsində yüksək səviyyəli yığıncaqlarda imkan daxilində Kəşmir məsələsini müzakirəyə qoyur. Dağlıq Qarabağ probleminin həllində Azərbaycanı dəstəklədiyini nümayiş etdirir.

İran İƏT vasitəsilə beynəlxalq iqtisadi izolyasiyanı yarmağa cəhd edir və maliyyə cəhətdən o qədər də güclü olmaması səbəbindən əməkdaşlıq əlaqələrinin qurulmasında dini amillərə üstünlük verir.

Türkiyə də eyni səbəbdən liderlik uğrunda mübarizədə postsovet (türk) ölkələrində liderlik mövqeyini möhkəmləndirir və bu məqsədlə təşkilatdan hər cür istifadə etməyə çalışır.

İqtisadi qurum çərçivəsində belə lüzumsuz siyasi debatlar hər hansı layihənin qəbulu və həyata keçirilməsinə, əlbəttə ki, olduqca mənfi təsir göstərir, qarşılıqlı əlaqələri mürəkkəbləşdirir, İƏT-dan sırf iqtisadi əməkdaşlıq gözləyən Azərbaycan və Mərkəzi Asiya respublikalarını zəifiədir.

Odur ki, Azərbaycanla lƏT arasında əməkdaşlığın tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin birinci istiqaməti təşkilat daxilində üzv dövlətlərlə danışıqlarda siyasi elementlərin aradan qaldırılması və onların iqtisadi müstəviyə keçirilməsindən ibarət olmalıdır.

2) İƏT ilə Azərbaycan arasında əməkdaşlığın inkişafını çətinləşdirən, təşkilatın qəbul etmiş olduğu və respublikamızı da əhatə edən layihələrin realiaşdınlmasmı təngidən səbəblərdən biri də üzv ölkələrin iqtisadi inkişaflarının müxtəlif istiqamətliyidir.

Məsələn, Özbəkistan, Türkmənistan, İranın iqtisadiyyatı avtonom xarakter daşıyır. Bu ölkələr daxili bazarlarının tələblərini yalnız öz resursları və əmtəələri ilə təmin etməyə çalışırlar. Bu vəziyyət ümumiyyətlə İƏT çərçivəsində əməkdaşlıq əlaqələrinə güclü əks təsir göstərir. Təkcə 2000-ci ildən bəri Türkmənistan, çox hissəsi türk müəssisələri olmaqla, bəhs etdiyimiz iqtisadi rejimin təzyiqlərinə dözməyən 2000 xarici firma tərk etmiş, nəticədə Türkmənistan iqtisadiyyatı ən azı 5 mlrd. $ itirmişdir. Beləliklə, demək olar ki, Azərbaycan müəssisələri üçün də Türkmənistan iqtisadiyyatının qapılan bağlanmışdır.

İƏT ilə Azərbaycanın əməkdaşlıq münasibətlərinin inkişafına mənfi təsir edən qeyd etdiyimiz səbəbin digər tərəfi təşkilat üzvlərinin müxtəlif xarici iqtisadi tərəfdaşlara istiqamətlənmələridir. Bu cür meyl onların daxili bazarlarının və regionun nəqliyyat sisteminin zəif inkişaf etməsi ilə əlaqədardır. Məsələn, Azərbaycan ABŞ, Avropa Birliyi, Türkiyə ilə, Türkiyə Avropa Birliyi, ABŞ ilə Türkmənistan Rusiya və İran ilə, Özbəkistan Avropa Birliyi, ABŞ ilə, Tacikistan Rusiya ilə, Qazaxıstan Çin, Rusiya, ABŞ ilə Pakistan ABŞ və Ərəb ölkələri ilə, İran Almaniya, İtaliya, Yaponiya ilə qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsinə səy göstərir. Göründüyü kimi təşkilat üzvlərinin əksəri ümumiyyətlə İƏT ölkələri ilə iki tərəfli əlaqələrə prioritet istiqamət kimi yanaşır. Həm də Qazaxıstan, Tacikistanın milli iqtisadiyyatları getdikcə Rusiyadan daha çox asılı vəziyyətə düşür. Belə tendensiya Azərbaycanla

İƏT arasında əməkdaşlığa heç cürə müsbət təsir göstərə bilməz.

Ölkəmizlə İƏT-nın qarşılıqlı münasibətlərinə dezinleqrativ istiqamət verən səbəbin, yəni üzv dövlətlərin İqtisadi inikşa- fının müxtəlif istiqamətliyinin başqa bir tərəfi postsovet respublikalannda aparılan islahatların müxtəlif xarakteri, fərqli templəri və ayrı-ayrı sahələri əhatə etməsidir. Əgər Azərbaycan, Qazaxıstan, Qırğızıstan müstəqillik əldə etdikdən sonra sürətlə köhnəlmiş idarəetə strukturlarının dəyişdirilməsi, yeni bazar institutlarının yaradılmasını həyata keçirməyə çalışırlarsa, Özbəkistan, Türkmənistan, Tacikistan dövlət idarəetməsinin xeyli hissəsini saxlamışlar. Azərbaycan, Qazaxıstan, Qırğızıstan ticarətin tam liberallaşdınimasınm tərəf- darıdırlarsa, Özbəkistan, Türkmənistan, həmçinin İran, Pakistan bu məsələyə xeyli ehtiyatla yanaşmağı üstün tuturlar.

Məhz bəhs etdiyimiz səbəbin nəticəsidir ki, Özbəkistan İƏT çərçivəsində qəbul olunmuş və Azərbaycan üçün əhəmiyyət kəsb edən tranzit ticarət haqqında sazişə, Qırğıcıstan, Özbəkistan, Tacikistan respublikamızın iqtisadiyyatına eyni dərəcədə vacib olan üzv ölkələrin biznesmenləri üçün viza rejiminin sadələşdirilməsi haqqında razılaşmaya qoşulmamışlar.

Buna görə də Azərbaycanla İƏT arasında əməkdaşlığın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi üçün təşkilat daxilində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, Əfqanıstanın yüksək dövlət məmur! an nm, Türkiyə, İran. Pakistanın isə həm də mütəxəssislərinin iştirak etdiyi islahatlar üzrə İƏT komissiyasının yaradılması, fikrimizcə, məqsədəuyğun olardı. Komissiyanın vəzifələri aşağıdakıları təyin edə bilər:

-bütün üzv ölkələrin iqtisadi islahatlar təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi;

-üzv ölkələrin milli təsərrüfatlarının iqtisadi-hüquqi şəraitinin yaxınlaşdırılması və yaxşılaşdırılması üçün konkret təkliflərin hazırlanması;

-həmin təkliflərin regionda tətbiqi mexanizminin müəyyən edilməsi və nəticələrin proqnozlaşdırılması.

Respublikamızla İƏT arasında əməkdaşlığın tənzimlənməsi sisteminin digər vacib istiqamətləri aşağıdakılardır;

I) İƏT-nm digər regional inteqrasiya qruplaşmaları ilə qarşılıqlı əlaqələrinin yaradılması və İnkişaf etdirilməsində Azərbaycanın vasitəçi səlahiyyətlərində çıxış etməsinə nail olmaq. Bu təklif ilk dəfə Azərbaycan Respublikası prezidenti olmuş H. Əliyev tərəfindən İƏT başçılarının Tehran konfransında (VI/ 2000) irəli sürülmüşdür. H.Əliyev öz çıxışında söyləmişdir: «İƏT-nın digər beynəlxalq təşkilatlarla əlaqələrinin inkişafı məsələsi ilə bağlı qeyd etmək istəyirəmki, Azərbaycan bu işə öz töhfəsini verməyə hazırdır. Xüsusilə də biz üzv dövlət kimi İƏT və Qara dəniz İƏT arasında qarşılıqlı əlaqələrin qurulması sahəsində öz köməyimizi göstərə bilərik. Bu məqsədlə hər iki təşkilatın baş katiblərinin Bakıda görüşünün keçirilməsini təklif edirik. Hesab edirəm ki, belə bir görüş İƏT və Qara dəniz İƏT-nın gələcək əməkdaşlığı üçün ilkin zəmin yarada bilər».

Əlbəttə, həmin yüksək səviyyəli əməkdaşlığın həyata keçirilməsində vasitəçi rolunu yerinə yetirmək ölkəmizin mənafeəi.ırinin daha çox nəzərə alınması baxımından səmərəli ola bilər və hər iki təşkilat daxilində onun nüfuzunu xeyli qaldırar.

Perspektivdə isə bu cür vasitəçilik əməliyyatlan respublikamızın üzv olmadığı başqa iqtisadi birliklərlə (ASEAN, Ərəb Məqribi, SADK) nəqliyyat və sair sahələrdə vahid tariflərin əldə edilməsi üçün Azərbaycanın aparacağı danışıqları bilavasitə İƏT strukturlarının cəlb edilməsi məqsədini güdməlidir.

II) Azərbaycan İƏT çərçivəsində qarşılıqlı investisiya fondları mərkəzinin yaradılmasına nail olması.

Azərbaycanla İƏT arasında əməkdaşlığın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi nöqteyi-nəzərindən həmin fondların mahiyyəti və vacibliyini başa düşmək üçün aşağıdakı tamamilə mümkün vəziyyəti nəzərdən keçirək.

Fərz edək ki, nəhayət Azərbaycanın, Özbəkistanın, Türkmənistanın ən iri dövlət müəssisələri özəlləşdirilməyə buraxıldı və açıq tipli səhmdar cəmiyyətinə çevrildi. Bu iri müəssisələrin

**səhmləri müvafiq ölkələrin fond birjalannda alınıb-satılmağa başladı.**

**Konkret Azərbaycanı götürsək, misal üçün, hər hansı azərbaycanlı fiziki şəxs, yaxud kiçik müəssisə, səhmdar cəmiyyətə çevrilmiş ARDNŞ-nin səhmlərinin, sonradan bahalaşacağına ümid edərək, 100 ədədini əldə edib. Qiymətlər qalxan zaman həmin səhmləri özünə sərfəli şərtlərlə satmaq İstəyir. Lakin fond biıjasında aydın olur ki, onlar heç ARDNŞ-nin 1 səhmim belə almaq iqtidarında deyildirlər. Çünki ARDNŞ kimi perspektivli şirkətin səhmləri bir neçə yüz, yaxud bir neçə min $- dir və fiziki şəxs, ya da kiçik müəssisənin malik olduğu pul vəsaiti buna çatmır.**

**Burada qarşılıqlı investisiya fondları köməyə gəlir. Onlar səhmdar cəmiyyət kimi öz səhmlərini (əlbəttə, investisiya fondlarının səhmləri iri şirkətlərin səhmlərinə nisbətən xeyli ucuz olur) minlərlə adi vətəndaşa, yaxud xırda müəssisələrə satırlar, əldə edilən vəsaitə isə həmin şirkətlərin qiymətli kağızlarını alırlar. Sonra İki müəssisələrin səhmləri ilə aparılan alqı-satqı əməliyyatları nəticəsində əldə edilmiş mənfəətdən fond üzvlərinə onların payına müvafiq divident verirlər.**

**Qarşılıqlı investisiya fondlarının fəaliyyətinin sadə mexanizmi belədir; misal üçün, ARDNŞ-nin səhmlərinin qiyməti, fərz edək ki, 1800 $-dır. 12 Azərbaycan vətəndaşmm (onlar istənilən lƏT ölkəsinin vətəndaşı da ola bilər) isə hərəsinin 150 $-vəsaiti var. Ayn-ayrılıqda onlar üçün heç biri ARDNŞ-nin 1 səhmini belə ala bilməzlər. Lakin investisiya fondu onların vəsaitini toplayır, bir ARDNŞ səhmi alır. Səhmin qiyməti 2040 $-a qalxanda satır. Əldə edilən 240 $-ı hər vətəndaşa 20 $ olmaqla divident şəklində verir. Və bu fəaliyyətinə görə onlardan müəyyən komission rüsumlan alır.**

**Lakin qarşılıqlı investisiya fondlarının rolu təkcə xırda investorların fond bazarında çıxışını təmin etməklə bitmir. Onun ikinci mühüm vəzifəsi əmtəə və xidmət istehsalçılarının pul vəsaitinə olan ehtiyacını ödəməkdən ibarətdir. Bunun da ən səmərəli yolu onların səhmlərinin əldə edilməsidir. Qarşılıqlı investisiya fonlarının fəaliyyəti isə elə həmin prinsip**

üzrə qurulmuşdur. Beb olduqda İƏT ilə Azərbaycan arasında əməkdaşlığın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi üçün təşkilat daxilində qarşılıqlı investisiya fondları mərkəzinin yaradılması nə dərəcədə zəruridir?

Bildiyimiz kimi Azərbaycan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan yenicə müstəqilliyini qazanmışlar və hələ ki, bu respublikalarda kiçik müəssisələrin özəlləşdirilməsi tam başa çatmışdır. Məhz yuxarıda qeyd etdiyimiz iri müəssisələrin özəlləşdirilməsinə ya heç başlanılmamış, ya da yenicə başlanmışdır. Beləliklə, əgər nəzərə alsaq ki, İƏT dövlətlərində gəlirlərini düzgün yerləşdirə bilməyən, yəni bunun üçün lazımi ixtisaslı kadrlar saxlamaq iqtidannda olmayan yüz minlərlə kiçik firma, şəxsi vəsaitini dövriyyəyə buraxmaq əvəzinə «yastıq altına» yığmağı üstün tutan yüz milyonlarla əhali, özəlləşdirməyə ehtiyac duyan minlərlə iri və perspektivli müəssisələr var ki, onda regionun ümumi sosial- iqtisadi rifah səviyyəsinin yüksəldilməsi məqsədilə belə fonların yaradılması az qala bir nömrəli zərurətə çevrilir.

Qarşılıqlı investisiya fondlarının səmərəliliyini sübut etmək üçün ABŞ-dan misal gətirmək, yəqin ki, inandırıcı olar. Əgər 2000-ci ildə ABŞ-ın iqtisadiyyatına qoyulan cəmi xarici investisiyalar 260 mlrd. $ olmuşdursa, təkcə qarşılıqlı investisiya fondları vasitəsilə qoyulan daxili investisiyalar 400 mlrd. $-ı ötmüşdür.

Respublikamızla İƏT arasında əməkdaşlıq münasibətlərinin təkmilləşdirÜmsi məqsədi ilə Azərbaycan təşkilat daxilində aşağıdakı mərhələr üzrə qarşılıqlı investisiya fondları mərkəzinin yaradılmasına nail olmalıdır;

- İƏT-nın qeyd etdiyimiz kimi, yaradılması zəruri olan islahatlar üzrə komissiya ilə sıx əməkdaşlıq əsasında üzv ölkələrdə qarşılıqlı investisiya fondlarının təşkili üçün regional layihənin işlənib hazırlanması;
- üzv ölkələrin müəssisələrinin qiymətli kağızların İƏT regionundan dönərli olmasına imkan verəcək qayda və kriteriyalann müəyyənləşdirilməsi;

- üzv ölkələrin fond birjalarını əlaqələndirəcək beynəlxalq informasiya mərkəzinin yaradılması;

- ayn-ayn İƏT ölkələrindəki qarşılıqlı investisiya fondlarının fəaliyyətini əlaqələndirəcək, ona nəzarət edəcək, hüquqlarını qoruyacaq mərkəzin təşkili.

III) Azərbaycanın İƏT çərçivəsində pambıq istehsalı və satışı üzrə regional iqtisadi birliyin yaradılmasına nail olması. Ümumiyyətlə pambıq bütün İƏT ölkələrinin ən əsas kənd təsərrüfatı məhsulları arasında aparıcı mövqedə durur. O, Azərbaycan, Türkmənistan, Tacikistan, Özbəkistan, Pakistanın bitkiçilik məhsullan ixracında birinci yeri; Əfqanıstanda üçüncü yeri tutur. Türkiyə, İran, Qazaxıstan, Qırğızıstanın bütöv ixracında isə toxuculuq, trikotaj məmulatları qabaqcıl yer tutur. Və İƏT ölkələri dünya üzrə istehsal olunan pambığın 50 %-indən çoxunu verirlər.

Azərbaycanın İƏT vasitəsi ilə belə birlik yaratmaqla digər üzv dövlətlərlə birgə surətdə pambıqçılıq sahəsində məhsuldarlığın yüksəldilməsi, irriqasiya-drenaj infrastrukturunun təkmilləşdirilməsi üzrə araşdırmalar aparar, istehsal və satış sferasında gücləndirmək, respublikamızda onun istehsalım əvvəlki səviyyələrə çatdırmaq, dünya bazarında Hindistan və Misir kimi ixracatlarla müvəffəqiyyətlə rəqabət aparmaq imkanı qazanır. Lakin belə əməkdaşlıq qarşılıqlı olacağından qeyd edilən birliyin yaradılması təkcə Azərbaycan üçün deyil, eyni dərəcədə tƏT-nın qalan üzvləri üçün də çox əhəmiyyətlidir.

IV) Azərbaycana İƏT daxilində regional elmi-texniki siyasətin tənzimlənməsi üzrə xüsusi komitənin yaradılmasına nail olması. İƏT-na üzv olan keçmiş SSRİ respublikalarının istehsal etdikləri əmtəələrin rəqabət qabiliyyətliliyinin aşağı olmasının əsas səbəblərindən biri məhsulun əmək tutumu, material tutumunun dünya standartları ilə müqayisədə artmasına gətirən texnoloji gerilikdir. Bu həmin ölkələr üçün bazarların əksər hissəsinin itirilməsi ilə nəticələnmişdir. Buna görə də regionda elmi-texniki siyasətin tənzimlənməsini həyata keçirəcək qurumun yaradılması çox vacibdir və Azərbaycan

özünün neft, kimya, neft maşınqayırması, kənd təsərrüfatı sahələrindəki elmi potensialının yox olmasını gözləmədən, onları həmin komitə çərçivəsində istifadə və inkişaf etdirmək məqsədi ilə belə qurumun yaradılmasında təşəbbüsçü olmalıdır. Tövsiyə etdiyimiz komitənin əsas vəzifələri aşağıdakılar təyin edilə bilər;

1)Üzv Ölkələr arasında elmi-tədqiqat işçiləri ilə bağlı olan əməkdaşlığın mümkün formalarının təşkili, o cümlədən ETTK üzrə milli planlann əlaqələndirilməsi, tədqiqätlann birgə həyata keçirilməsi;

2)Üzv ölkələr arasında elmi-texniki tədqiqatların nəticələri ilə ticarətin təşkili;

3)Üzv ölkələr arasında mütəxəssislərin hazırlanması və mübadiləsi üzrə əməkdaşlıq münasibətlərinin formalaşdırılması;

4)Üzv ölkələr arasında elmi-texniki informasiya mübadiləsinin təşkili.

Bundan əlavə məkrəz üzv ölkələrinin ayrı-ayrı müəssisələrinin elmi- texniki informasiya təminatı üzrə sifarişlərini yerinə yetirməli (pulsuz və ya pulu əsaslarla), regionun maraqları və ehtiyacları nəzərə alınmaqla digər nüfuzlu inteqrasiya qruplaşmalarının müvafiq strukturları ilə qarşılıqlı səmərəli əməkdaşlıq əlaqələri qurmalıdırlar.

## Fəsü m

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF YOLLARI, VASİTƏLƏRİ VƏ AMİLLƏRİ

## Böljnə X. İstehsalın beynəlxalq kooperasiyası və BİM

*10.1. İstehsalın beynəlxalq kooperasiyasının mahiyyəti və BİM-in inkişafında yeri.*

*10.2. Birgə müəssisənin mahiyyəti, formaları və inkişaf meyäləri*

*10.3. Ölkələrə investisiya cəlb edilməsində istehsalın beynəlxalq kooperasiyasMuı rolu.*

10.1. **istehsalın beynəlxalq təşkilinin mütərəqqi formalanndan biri də ixtisaslaşma və bunun ladüd nəticəsi olan kooperasiyalaşmadır. İxtisaslaşmanın dərinləşməsi eyni bir məhsul istehsalının iştirakçıları arasında yeni-yeni təsərrüfat əlaqələrini tələb edir ki, buna da istehsalın kooperativləşməsi deyilir.**

**Sənayedə kooperasiyalaşma müəyyən bir məhsulun birgə istehsalı ilə məşğul olan şirkətlər, müəssisələr və s. arasındakı uzun müddətli təsərrüfat əlaqələn formasında meydana gəlir və inkişaf edir.**

**Müəssisələr arasında kooperasiya əlaqələri uzun dövrü-konkret məhsulun istehsalı əhatə edir və bir növ müntəzəm xarakterli olur.**

**Ərazi üzrə təşkili baxımdan kooperasiya aşağıdakı formalarda yaranır.**

1. **rayondaxili kooperativləşmə;**
2. **rayonlararası və ya regional kooperativləşmə;**
3. **sahədaxili kooperativləşmə;**
4. **sahələrarası kooperativləşmə.**

Sənayedə ixtisaslaşma istiqamətinə müvafiq olaraq kooperasiyalaşmamn üç növünü xüsusi olaraq fərqləndirmək lazımdır;

1. aqreqat məhsullar üzrə kooperativləşmə. Bu halda kooperasiyaya daxil olan müəssisələr ayn-ayn dövlətlərdən elektrik mühərrikləri, generatorlar, nasoslar, kompressorlar və s. kimi aqreqatlar almaqla məhsul istehsalım tamamlayır. 2. hissə üzrə kooperativləşmə. Burada tam məhsul deyil, onun əsas özəkləri kooperasiya halında qurulur.

3. texnoloji mərhələ üzrə kooperativləşmə, texnologiyanın vəhdəti.

Kooperativləşmə prosesini səciyyələndirmək üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

1. bir müəssisənin dövlətin şirkətlərilə kooperasiya əlaqələrinə girmiş.

2. məhsul vahidinin maya dəyərində satın alınmış xammal materialın xüsusi çəkisi.

3. dövlətlərarası kooperativləşmənin dövlətdaxili şirkətlərə nisbəti.

Kooperasiya şəraitində müəssisələr, dövlət müəssisəsi, fərdi (ailə), şərikli (tam ortaqh) payçı və şərikli, məhdud təşkİ- latı-hüquqi formalarda fəaliyyət göstərirlər.

Son onilliklərdə dünyada çox böyük iqtisadi, siyasi, sosial proseslər baş verir. Bütün bunlar əlbəttə beynəlxalq əmək bölgüsünün gedişinə təsir etməyə bilməz.

Son vaxtlar beynəlxalq əmək bölgüsünün inkişafında beynəlxalq ixtisaslaşma və kooperasiyalaşma istiqaməti daha üstünlük təşkil edİr.

Beynəlxalq kooperasiya və beynəlxalq ixtisaslaşma beynəlxalq əmək bölgüsünün qanunauyğun bir formasıdır və onun daxili məzmununu əks etdirir. Beynəlxalq ixtisaslaşmada müəyyən növ məhsul istehsalı bir sahə və ya bir müəssisədə (firmada) cəmləşdirilir. İstehsalın beynəlxalq kooperasiyası nəticəsində isə müxtəlif ölkələrə məxsus şirkətlər arasında

razılıq əsasında birgə istehsal təşkil edilir, yaxud xidmətlərin göstərilməsi həyata keçirilir.

Qeyd etmək lazımdır ki, ixtisaslaşma kimi koopera- siyalaşma da məhsuldar qüvvələrin artan inkişaf səviyyəsindən və xüsusiləşmiş müəssisələrin sabit istehsal əlaqələrinin artması zərurətindən irəli gəlir.

Dünya ölkələri arasında istehsal, elmi-texniki, mənzil, kredit, satış, kənd təsərrüfatı, fırmadaxili, fırmalararası, üfüqi, şaquli, qarışıq, ölkələrarası,

rcgionlararası və bu kimi sahələrdə baş verən iqtisadi əlaqələrdə kooperasiya vasitəsi ilə həyata keçirilir.

Dünyanın müxtəlif ölkələri birgə müəssisələr yaratmaqla geniş əməkdaşlıq edirlər. Müəyyən nÖv məhsul istehsalı və xidmətlər üzrə xüsusiləşmiş müəssisələr yaradılır. Bu da kooperasiya proseslərinin sürətlənməsinə, beləliklə də dövlətlər arasında BlM-in inkişafına səbəb olur.

Müasir Elmi Texniki İnqilab İstehsal Kooperasiyasının ən zəruri elementi olan elmİn də birgə fəaliyyətinə geniş yol açmışdır. Qeyd etdiyimiz kimi İstehsalın Beynəlxalq Kooperasiyası ölkələr arasında əməkdaşlığın müxtəlif formalarını əhatə edir. Bunlardan bəzilərini, yəni dünya təsərrüfatında ən çox istifadə olunan formalarım nəzərdən keçirək.

10.2. Bazar münasibətlərinin dərinləşməsinə istiqamətlənmiş iqtisadi islahatlar şəraitində müxtəlif ölkələrdə, həmçinin Azərbaycanda mülkiyyətin formaları əmələ gəlmişdir. Dövlət mülkiyyəti ilə yanaşı real kooperativ mülkiyyəti, səhmdar və icarə müəssisələri, bələdiyyə mülkiyyət forması və xüsusi mülkiyyətin müxtəlif formaları yaranmışdır. Əmələ gələn çoxlu sayda yeni mülkiyyət formaları arasında istehsalın beynəlxalq kooperasiyasının ən geniş yayılmış formalarından biri olan birgə müəssisələr müstəsna yer tuturlar.

Birgə müəssisə-beynəlxalq sahibkarlığın nisbətən yeni təşkilatı-sosial formasıdır. İqtisadi ədəbiyyatlarda birgə müəssisə xarici tərəfkeşlərə hüquqi və təsərrüfat əməkdaşlığının elə bir formasının adlandırılması nəzərdə tutulur ki, orada

material və maliyyə resurslarından istifadə üzrə ümumi mülkiyyət yaratmaq əsasında elmi-texniki, xarici ticarət, istehsal və s. funksiyalar yerinə yetirilmiş olsun. Birgə müəssisələrdə istehsal olunan məhsullar və xidmətlər yerli və xarici tərəfkeşlərin ümumi mülkiyyəti hesab olunur ki, bu da qeyd etdiyimiz sahibkarlıq formasının xarakterik cəhətlərindən biridir. İstehlak olunan məhsullar və xidmətlər birgə müəssisənin yerləşdiyi ölkədə, həmçinin xaricdə reallaşdırılır.

Onu da qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatlarda əksər hallarda birgə müəssisələr «qarışıq» müəssisələrlə mahiyyətcə eyniləşdirilir. Əlbəttə bu cür yanaşma ilə razılaşmaq olmaz.

Qeyd etmək lazımdır ki, «qarışıq» müəssisə bir ölkənin iki və daha çox təsərrüfatçılıq edən subyektlərin bazasında fəaliyyət göstərən müəssisədir. Burada müxtəlif mülkiyyət formalı sahibkarlar ölkə daxilində öz aralannda birləşərək fəaliyyət göstərirlər. Məsələn, dövlət və xüsusi mülkiyyətçilərin birləşməsi, xüsusi və bələdiyyə, bələdiyyə və real kooperativ mülkiyyətçilərinin birləşməsindən əmələ gələn istehsal vahidi «qarışıq» müəssisə adlanır. Bunun əksi olaraq birgə müəssisə- elə təsərrüfatçılıq vahididir ki, o, müxtəlif ölkələrin mülkiyyətçiləri tərəfindən kooperasiyaya girmək məqsədilə yaradılır.

Birgə müəssisə spesifik növ mülkiyyəti əks etdirir ki, o da beynəlxalq İqtisadi əməkdaşlığın gedişindən yaranır.

Məlumdur ki, beynəlxalq iqtisadi münasibətlər inkişaf edir. Bunlardan birincisi, ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakıdır. Bu haqda əvvəlki bölmələrdə ətraflı məlumat verilmişdir. İkinci yol isə istehsalın beynəlxalq kooperasiyasıdır. Beynəlxalq əmək bölgüsündə iştirak etmək böyük həcmdə kapital tələb etdiyi üçün bu tələbin ödənilməsi əksər ölkələrin imkanları xaricindədir. Buna görə də inkişaf etməkdə olan dövlətlər əsasən ikinci yola, yəni istehsalın beynəlxalq kooperasiyasında iştirak etməyə üstünlük verirlər.

Beynəlxalq iqtisadi münasibətlərin istehsalın beynəlxalq kooperasiya, o cümlədən onun bir forması olan birgə

müəssisələr hesabma inkişafı BƏB-ə nisbətən yaranma tarixinə görə yenidir. Lakin buna baxmayaraq son on illiklərdə onun inkişaf miqyası daha sürətlə genişlənir.

Beynəlxalq əmək bölgüsündə (BƏB) iştirak etməklə yeni texnologiyalar əldə etmək, yaxud özünün yeni texnologiyası və məhsulu vasitəsilə dünya bazarına çıxmaq, ölkədə həddindən artıq qıt olan məhsulların istehsalına qısa müddətdə nail olmaq mümkün olmadığı hallarda ölkələr xarici sahibkarlarla birgə müəssisələrin yaradılmasına üstünlük verməyi məqsədəuyğun hesab edirlər.

Qeyd etdiklərimizdən başqa birgə müəssisələrin yaradılması yalnız qısa müddətdə mənfəət əldə etmək məqsədini güdmür. Onların təşkili müxtəlif məqsədlərə xidmət edir.

Beləki, Oksford jurnalının məlumatına əsasən Rusiyada xarici iş adamları ilə birlikdə yaradılan birgə müəssilərdə 45%- i gələcəkdə daha geniş fəaliyyəti təmin etmək üçün öz mövqelərini möhkəmləndirmək niyyətini güdür, 25 % ucuz və yaxşı təhsil almış işçilərdən istifadəyə üstünlük verirlər, 20 %-i geniş Rusiya bazan ilə maraqlamr, 10 Vo-i isə yerli enerji resurslanndan istifadə sisteminə daxil olmağa səy göstərirlər.

Qeyd etdiklərimizdən başqa birgə sahibkarlığın inkişafı xarici tərəfkeşin bazarlarından faydalanmağa, ölkəyə böyük həcmdə xarici investisiya gətirməyə imkan verir. Deməli, birgə müəssisələr Ölkəyə xarici kapital gətirmək funksiyasını yerinə yetirir ki, bu da iqtisadiyyatda diversifikasiya probleminin həllinə kömək edir.

İstehsalın beynəlxalq kooperasiyasının apancı formalarından biri olan birgə müəssisələrin yaradılmasının üstün cəhətlərini nəzərə alaraq Azərbaycanda da böyük tədbirlər həyata keçirilir. l992-ci ildə respublikada birgə sahibkarlığın inkişafı arzu olunan hal xarakteri daşıyırdısa, hazırda Azərbaycanda 15 dövlətin sahibkarlarının İştirakı ilə 300-dən çox birgə müəssisə fəaliyyət göstərir ki, onların məhsulları dünyanın 160-dan çox ölkəsinə ixrac olunur. Birgə müəssisələrin və xarici firmaların sayına görə Böyük Britaniya birinci, ABŞ

ikinci, Türkiyə isə üçüncü yeri tutur. 2008-ci ildə Azərbaycanda fəaliyyət göstərən birgə müəssisələr və firmalar iqtisadiyyatımıza 300 mln. dollardan çox xarici investisiya qoyublar.

İstehsalın beynəlxalq kooperasiyasının formaları onların xarakterindən asılı olaraq geniş istifadə olunur. Beynəlxalq praktikada təşkilatı nöqteyİ nəzərindən xarici kapitalın payı müəyyənləşdirilməklə yeni müəssisə, bir zavod, iki zavod, çox zavod formasında birgə müəssisələrindən də geniş istifadə edilir.

Son illərdə dünya təsərrüfatında birgə sahibkarlığın yeni formaları meydana gəlmişdir ki, onlardan bəziləri üzərində qısa dayanmağı məqsədəuyğun hesab edirik.

Bu formalardan biri də Tollinq əməliyyatlarının təşkilidir. Tollinq müəssisəsinin davalçıhq əsasında işini özündə əks etdirir. Davalçıhq əsasında fəaliyyətin mahiyyəti ondan ibarətdir ki, xarici firma (məsələn, İtahyanın ayaqqabı istehsal edən şirkəti) digər ölkənin şirkəti ilə məsələn, Azərbaycanda ayaqqabı istehsal edən müəssisə ilə) Tollinq müqaviləsi bağlayır. Müqaviləyə əsasən xarici firmanın istəyinə uyğun olaraq kənardan xammalın gətirilməsi, onun emalı və görülən işlərin pulu zavoda ödənilir. Bu halda tövsiyyə olunan xammaldan istehsal olunmuş məhsulun mülkiyyətçisi xarici kreditor hesab olunur. Yerli şirkət isə nəinki xammalın emalına sərf olunmuş xərcləri ödəyir, həmçinin mənfəət əldə edir, eyni zamanda öz məhsulu ilə xarici tərəfkeşin bazarına daxil olmaq imkanını qazanır.

İstehsalın beynəlxalq kooperasiyasıma dünya praktikasında özünü doğrultmuş tollinq əməliyyatları ən çox Çin dövlətində geniş tətbiq olunmuşdur. Çin iqtisadiyyatının hazırkı inkişafında beynəlxalq kooperasiyanın digər formalar ilə yanaşı şəksiz ki, tollinq fəaliyyətinin də müəyyən rolu olmuşdur.

Şərqi Avropa dövlətlərində istehsalın beynəlxalq kooperasiyasının françayzinq, birgə müəssisələrin ümumi kapitalında iştirak payına görə formalaşan fəaliyyət forması və s. geniş yayılmışdır.

Təşkili fonnasmdan asılı olmayaraq birgə müəssisələrin sərbəst balansı vardır və onlar kommersiya hesabına əsasən fəaliyyət göstərirlər. Onların fəaliyyəti Öz xərclərini ödəmə və özünü maliyyələşdirməyə əsaslanır. Birgə müəssisələr müstəqil şəkildə istehsal fəaliyyətinin, məhsulun satışı proqramını hazırlayır və həyata keçirir. Onlar öz əmlaklarına cavabdehlik daşıyırlar və hansı ölkənin ərazisində yerləşirlərsə həmin dövlət onların fəaliyyətinin nəticələrinə görə məsuliyyət daşımırlar.

Birgə müəssisələrin yaraldılmasmm istehsal, sosial-iqtisadi imkanları, müxtəlif ölkələrdə milli iqtisadiyyatların inkişafında əvəzsiz əhəmiyyəti onların təşkilinin səmərəli olmasının əyani sübutudur. Kim birgə müəssisəni, öz iqtisadiyyatını düzgün idarə edirsə və onun beynəlxalq iqtisadi münasibətlər sisteminə qoşulması imkanlarım müəyyən edirsə o da effekt əldə edir.

10.3. İstehsalın beynəlxalq kooperasiyasının bir çox funksiyaları vardır. Onlardan biridə bu sistemə qoşulmuş ölkələrin milli iqtisadiyyatlarına investisiya cəlb etməkdən ibarətdir.

Bir qayda olaraq bu və ya digər ölkəyə xarici investisiyaların cəlb edilməsi birgə layihələr əsasında təbii resursların mənimsənilməsi, elmi-texniki proqraırdann reallaşdınıması, struktur dəyişiliklərinin həyata keçirilməsi və s, ilə əlaqədar zərurətə çevrilir. Müxtəlif ölkələrin bu zərurətdən irəli gələn investisiya ehtiyaclarının ödənilməsi beynəlxalq maliyyə-kredit təşkilatlan, TMK-ın və sair qurumların vəsaiti hesabma həyata keçirilir.

İqtisadiyyatın inkişafı üçün lazım olan xarici investisiyalara olan ehtiyaan ödənilməsində istehsalın beynəlxalq kooperasiyasının da böyük rolu vardır. Müxtəlif şəraitdə, həmçinin istehsalın beynəlxalq kooperasiyası zamanı ölkəyə inves- tisiyamn cəlb edilməsi müəyyən mühitin yaradılmasını və bu ehtiyacın əmələ gəlməsi amillərinin nəzərə almasını tələb edir.

Ölkəyə investisiya cəlb edilməsi üçün ümumiləşdirilmiş halda aşağıdakı amillərin olması tələb olunur:

1, siyasi və sosial sabitliyin təmin edilməsi;

2. xarici investorlar üçün əlverişli qaydalar yaradılması, İnvestlorlann şəxsi və iqtisadi təhlükəsizliyinin qorunması;

3. xarici investorların cəlb edilməsi üçün dövlətin dəqiq siyasi və iqtisadi strategiyasının olması;

4. müasir tələblərə uyğun sahəvi quruluş yaradılması;

5. rəqabət qabiliyyətli işgüzar texniki infrastruturun formalaşması;

6. investisiya fəaliyyətinin təmİn etməsi üçün yerli kadrlar hazırlanması sisteminin yaradılması;

7. dünya kapital bazarının vəziyyətinin hərtərəfli tədqiq edilməsi.

Bütün qeyd etdiyimiz amillər istər birbaşa və istərsədə partfel formasında investisiyanın cəlb edilməsinə eyni dərəcədə təsir göstərir.

Beynəlxalq kooperasiya istehsal, xidmət və s. sahələrdə qarşılıqlı əməkdaşlığı özündə əks etdirdiyi üçün, əwəlkİ səhifələrdə onun qeyd etdiyimiz formalarından praktikada istifadə edilməsi ölkəyə investisiya cəlb etməyin mühüm vasitəsinə çevrilir.

Qeyd etdiklərimizi Azərbaycan respublikasının statistik məlumatları əsasında nəzərdən keçirək.

2008-ci ildə Azərbaycan iqtisadiyyatına 6,1 mlrd, dollardan çox xarici investisiya qoyulmuşdur. Bunun əsas hissəsi neft sektoruna xərclənib. Deməli, iqtisadiyyatın digər sahələri özlərinin xarici investisiyaya olan tələbatını ödəmək imkanından kənarda qalmışdır. Yaranmış vəziyyət Ölkəyə xarici İnvestisiya cəlb etmək üçün alternativ mənbələr axtarmaq zərurətini doğurur. Bu şəraitdə istehsalın beynəlxalq kooperasiyası şirkətlərin investisiya ehtiyaclarının ödənilməsinin mühüm mənbəyi kimi çıxış edir.

Faktlar göstərir ki, iqtisadiyyatın prioritet sahələrində investisiya baxımından nəzərə çarpan çətinliklər özünü biruzə vermirsə, digər, sahələrdə və koomersiya qurumlarında bu vəziyyət çətin həll olunan problemə çevirilir. Elə buna görə də müxtəlif ölkələrdə olduğu kimi Azərbaycanda da birgə

sahibkarlığın inkişafı hesabına ölkəyə xarici investisiya cəlb edilməsinə diqqət getdikcə güclənir.

Azərbaycanda xarici investorlar üçün əlverişli mühitin yaradılmasının məntiqi nəticəsidir ki, 1995-ci ildə birgə sahibkarlığın yaradılması hesabına 14,9 mln, dollar xarici investisiya qoyulubsa, 2000-ci ildə bu göstərici 118 mln. dollar, 2003- cü ildə 250,1 mln. dollar, 2008-ci ildə 300 mln. dollardan çox olmuşdur. Təhlil göstərir kİ, 1994-2Ü06-cı illərdə birgə müəssisələr əsasən xidmət, yeyinti və s. sahələrdə inkişaf edirdisə, son illərdə bu meyl digər istehsalatlardada özünü biruzə verir.

Azərbaycanda birgə müəssisələrin inkişafı emaledici sənayedə, kənd təsərrüfatında, elektrotexnikada, turizmdə və s. sahələrdə uğurla inkişaf etdirilir. Bu da o deməkdir ki, qeyri- neft sektorunda fəaliyyət göstərən sahələr, şirkət və s. mülkiyyət sahibləri tərəfindən birgə sahibkarlığın inkişafı yolu ilə ölkəyə xarici investisiyanın cəlb edilməsinə maraq xeyli güclənmişdir.

İstehsalın beynəlxalq kooperasiyasının formalarından istifadə sahəsində ölkəyə xarici kapitalın cəlb edilməsi, yeni texnologiyalann gəlirilməsi əsasında iqtisadiyyatın intensiv amillər əsasında inkişafı sahəsində son 8-10 ildə Çində, Cənubi Koreya və Cənubi-Şərqi Asiyanın yeni sənaye ölkələrində böyük nailiyyətlər qazanılmışdır.

Əsas vəzifə ondan ibarətdir ki, qeyd etdiyimiz dövlətlərin istehsalın beynəlxalq kooperasiyasından faydalanmaq təcrübəsindən respubhkamızda təsərrüfatçılıq sistemində səmərəli istifadə edilsin, sahələrin İnvestisiya təminatında tarazlıq pozulmasın və milli iqtisadiyyatımızın dayanıqlı inkişafı intensiv amilləri əsaslanmış olsun.

***11.1. Beynəlxalq turizmin mahiyyəti və inkişafının ilkin şərtləri.***
***11.2. Turizmin formaları və inkişaf xüsusiyyətləri.***
***11.3 Azərbaycanda turizmin inkişafının milli cəhətləri və prioritetləri.***

11.1. Problemi daha aydın başa düşmək üçün əvvəlcə turizmin mahiyyətinə nəzər salmaq məqsədəuyğun hesab edirik.

Turizm iqtisadiyyatın dinamik inkişaf edən bir sahəsidir. Ölkə iqtİsadiyya üçün ən sərfəli hesab olunan beynəlxalq turizmin gəlmə hissəsinin mühüm elementi kimi ekskursiya fəaliyyətinin də əsas funksiyalarından biri gəlir əldə etməkdir. Məhz ekskursiyaxidmətlərinə motivlənmiş turistlər əraziyə səyahət edərək, xarici valyutanın Ölkəyə daxil olmasına şərait yaradırlar. Buna görə də ekskursiyaların mühüm iqitsadi funksiya yerinə yetirdiyini qeyd etmək olar. Ekskursiyalann digər mühüm funksiyaları kimi isə ideya, siyasi, ümumi- maarifləndiricİ, informasiya, tərbiyəedici, konkret məzmunlu istirahət, dünyagörüşünün genişləndirilməsi, insanlarda yeni maraqların formalaşdırılması, kadr hazırlığı və təkmilləşdirilməsini göstərmək olar.

Turizm dedikdə iqtisadiyyatın böyük bir sektoru başa düşülür. Müasir dünya iqtisadiyyatında tutduğu roluna görə turizjn təkcə neftçıxarma və avtomobil qayırma sənayesi ilə rəqabət aparan bir industriya halına gəlmişdir. Cəmiyyətin sosial inkişafı nöqteyi-nəzərindən də turizmin əhəmiyyəti çox böyükdür. Ayn-ayrı regionlarda, bütövlükdə Ölkədə turizmin inkişaf etdirilməsi bir çox sosial-iqtisadi problemlərin kökündən həll edilməsi üçün əlverişli şərait yaradır. Onun inkişaf etməsi ilə çoxlu sayda yeni iş yerlərinin açılması, kənd əhalisinin şəhərə xaotik axınının qarşısının alınması, əhalinin kommunikasiya və mədəni əlaqələrinin artmasında irəliləyişlərə nail olmaq mümkündür. Turizm inkişaf edən regionlarda mədəniyyətlərarası inteqrasiyanın güclənməsinə də əlverişli

şərait yaranır. Dünyada elə bölgələr vardır ki, burada iqtisadiyyatın digər sahələrinin inkişafı üçün sadəcə şərait olmadığı halda turizm həmin ərazinin insanlarının məşğulluq problemlərinin həll edilməsi baxımından yeganə bir vəsait sayılır. Ekskursiya işi, ümumiyyətlə turizm fəaliyyəti sosial-mədəni sahələrə aid olub, insanların ən mühüm rekreasiya-mənəvi tələbatlarının ödənilməsi ilə xarakterizə olunur. Sferanın digər sahələrində olduğu kimi turizm və onun vacib elementi olan ekskursiya işi zamanı insan amili ən yüksək səviyyədə özünü göstərir. Buna görə də müxtəlif xalqların nümayəndələri olan mədəniyyət, dil, yaş, cins, dünyaya baxış və s. görə müxtəlif xarakterlər ifadə edən ekskursantİarla işləyən insanın-dinin (fransızca quide-bələdçi) buradakı funksional rolu və şəxsi keyfiyyətləri, öz işinə bağlılığı və vətəninə sevgisi (gəlmə turizmdə ilk addımlarım atan bir ölkədə birgə müəssisələrin yaradılması məqsədəuyğun hesab olunsa da, mütəxəssis qid kimi xarici ölkə vətəndaşlarının bu işə cəlb olunmasını bu aspektdən tamamilə yolverilməz hesab edirəm) əsas amil kimi göstərilməlidir. Ona görə də turizmdə bu açar mövqeyə malik olan şəxsə-bələdçiyə qarşı qoyulan tələblər çox yüksək olub, onun bir çox keyfiyyətləri özündə birləşdirməyi şərtləndirir.

Bu keyfiyyətlərə aşağıdakılar aiddir:

1. turizm dövlətlərin xalqlarının sosial, iqtisadi, mədəni, maarif və beynəlxalq münasibətlərinə bilavasitə təsir edən mühüm fəaliyyət kimi başa düşülür. Turizmin inkişafı millətlərin sosial-iqtisadi inkişafından asılı olub, insanm dərin humanitar xarakter daşıyan asudə vaxt çərçivəsində fəal istirahət, məzuniyyət və sərbəst səyahət etmək imkanı əldə etməsindən asılıdır. Turizmin mövcud olması özünün möhkəmlənməsinə töhfə verdiyi dünyəvi sülhün möhkəmliyindən tamamilə asılıdır;

2. insanların turizmə olan meylləri, qanunvericilik və dövlət institutları sahəsində dövlətlərin fəaliyyətləri, əhalinin müxtəlif təbəqələrini təmsil edən ictimai təşkilatların səyi və ixtisaslaşmış orqanların texniki dəstəyi nəticəsində turizm insanların fəaliyyətində mühüm əhəmiyyət qazanmışdır.

Dünya dövlətlori bu faktı etiraf etmiş va onların oksariyyəti turizmin harmonik vo daimi İnkişafı məsələlərini həll etməyi Ümumdünya Turizm Təşkilatına (ÜTT), bir çox hallarda isə Birləşmiş Millətlər Təşkilatının (BMT) ixtisaslaşmış orqanlarına və digər maraqlı qurumlara həvalə etmişlər;

3. istirahət etmək hüquq, xüsusilə məzuniyyətlər əldə etmək, sərbəst səyahət etmək və turist getmək hüququ insan şəxsiyyətinin əsas inkişaf elementi kimi əksər ölkələrin qanunvericiliyinə və İnsan Hüquqları Bəyənnaməsinin müddəalarında öz əksini tapmışdır. Bu, cəmiyyət qarşısında öz vətəndaşlarına turizmdən istifadə etmək üçün real, səmərəli və fərq qoyulmayan imkanlar yaratmaq vəzifəsi qoyur. Bu şərait hər bir ölkənin qanunvericiliyinə, inkişaf prioritetlərinə və adətlərinə uyğun olmalıdır.

4. turizmin inkişafına mane olan bir çox amillər təsir edir. Ölkələr və onların ittifaqları bu amilləri müəyyən edib, öyrənməli və onların mənfi təsirlərini aradan qaldırmaq üçün tədbirlər görməlidir;

5. milli iqtisadiyyatda və beynəlxalq ticarətdə turizmin payı onu dünya iqtisadi inkişafının mühüm göstəricisi etmişdir, Milli iqtisadiyyatda, beynəlxalq ticarətdə və xarici ticarət balansında olan tarazlaşdıncı rol turizmi dünya iqtisadiyyatının mühüm sahələrindən birinə çevirmirdir;

6. hər bir ölkə çərçivəsində daxili turizm milli gəlirin bölüşdürülməsi ilə milli iqtisadiyyatın daha balansh vəziyyətdə olmasına, ölkə iqtisadiyyatı üçün daha yararlı olan fəaliyyət növlərinin cəmiyyət tərəfindən dərk olunmasına şərait yaradır. Ona görə də daxili turizmin inkişafına beynəlxalq turizmin inkişafına yönəldilmiş səylər qədər diqqət yetirilməlidir;

7. turizmin İqtisadi səmərəsi nə olarsa olsun, dövlətin bu işdə iştirak etməsi üçün yeganə kriteriya olmamalıdır. Məzuniyyət əldə etmək hüququ, insana onu əhatə edənlərlə tamş ola bilmək imkanının yaradılması, milli şüurun dərinləşməsi, həmvətənlərlə əməkdaşlıq, insana hansı mədəniyyətə və xalqa aid olmaq hisslərinin aşılanması ona milli və beynəlxalq

turizmdən istifadə edə bilmək imkanının yaradılmasını vacib şərt kimi ortaya qoyur;

8. müasir insanların həyat keyfiyyətləri kimİ öz asudə vaxtlarından istifadə etməyə və turizmə verdiyi əhəmiyyət hökümətləri bu tələbatları nəzərə almağa və onun reallaşmasını dəstəkləməyə çağırır;

9. Sosial turizm cəmiyyətin aztəminatlı üzvlərinin istirahət hüquqlarının təmin olunması məqsədilə istifadə olunmalıdır;

10. insanların fiziki və psixoloji sağlamlığına təsir edən turizm sosial bərabərliyə, əmək kollektivinin fəallığına, fərdi və ictimai rifah halının yüksəlməsinə də təsir edən amil kimi tanmır;

İL turizm tələbinin ödənilməsi üçün lazım olan müxtəlif xidmətlər yeni iş yerləri üçün mənbə rolunu oynayan fəaliyyət növləri yaradır. Bu səbəbdən turizm inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələrdə sosial inkişafın vacib elementi hesab olunur;

12. ayn-ayn şəxslərin və ümumilikdə cəmiyyətin sülhə və beynəlxalq əməkdaşhğa doğru istəkləri çərçivəsində turizm qarşıhqh tanıma və anlaşmanın daimi müsbət amili, habelə dünya xalqları arasında daha yüksək etibar və hörmətin əsası kimi çıxış edir;

13. müasir turizm insanlara əsas insan hüquqları kimi istirahət və asudə vaxt və haqq ödənilən məzuniyyətlərin verilməsi ilə əlaqədar aparılan sosial siyasət nəticəsində meydana çıxmışdır. O, insanlar və xalqlar arasında qarşılıqlı anlaş- mamn və şəxsiyyətin inkişafının amilinə çevrilmişdir. O,yaxşı məlum olan iqtisadi aspektlərdən əlavə mədəni və mənəvi aspektlər də qazanmışdır ki, bü da turizmin iqtisadi amillərin təsiri ilə yarana biləcək mənfi təsirlərdən qorunmasını tələb edir. Buna görə də dövlət orqanları və operativ turizm sektoru lazımi istiqamətdə sərmayə qoyuluşlannı müəyyənləşdirərək turizmin inkişafına öz töhfələrini verməlidirlər;

14.gənclər əhalinin gəlir baxımından aztəminatlı təbəqəsi oluğundan gənclərin turizm səyahətlərinə getməsi üçün əlverişli şəraitin yaradılmasına diqqətli yanaşmaq lazımdır. Bu

sahədə müsbət istiqamətli siyasət özünü maksimum şəraitin yaradılması və güzəştlərin tətbiqində göstərməlidir. Eyni diqqət ahıl yaşlı insanlara və fiziki cəhətdən qüsurlu şəxslərə də verilməlidir;

15. yeni beynəlxalq iqtisadi münasibətlərin bərqərar olunması məqsədilə edilən ümumi cəhdlər zamanı turizm ölkələrarası bərabərlik, əməkdaşlıq, qarşılıqlı anlaşma və həmrəylik üçün pozitiv rol oynaya bilər;

16.dövlətlər turizm sənayesi işçilərinin həmkarlar ittifaqları yaratması və kollektiv müqavilələr bağlaması üçün ən yaxşı şərait yaratmaqda əməkdaşlıq etməlidirlər;

17.müxtəlif ölkələrin turizm ehtiyatları həm təbii zənginliklər, həm də maddi dəyərlərdən ibarətdir. Məsələn, ondan ibarətdir ki, bəzi turizm ehtiyatlarının limitsiz istifadəsi onların tükənməsinə və hətta yox olmasına da gətirib çıxara bilər. Turizm tələbatlarının ödənilməsi naminə turistləri cəlb edən əsas amillər olan təbii ehtiyatların, habelə tarixi və mədəni yerlərin dağılmasına və yerli əhalinin sosial-iqtisadi maraqlarına zərər vurmasına yol verilməməlidir. Bütün turizm ehtiyatları bəşəriyyətin ümumi nailiyyətidir. Milli qurumlar və bütövlükdə beynəlxalq ictimaiyyət onların qorunması üçün tədbirlər görməlidirlər. Tarixi, mədəni və dini obyektlərin istənilən vəziyyətdə, xüsusən hərbi münaqişələr zamanı qorunması dövlətlərin əsas vəzifələrindən birinə çevrilməlidir;

18.turizm sahəsində beynəlxalq əməkdaşlıq xalqların xüsusiyyətləri və dövlətlərin əsas maraqları üzərində qurulmalıdır. Bu istiqamətdə ÜTT-nin aparıcı istiqamətverici və koordinasiyaedici rolu görünməkdədir;

19.ikitərəfli və çoxtərəfli texniki maliyyə əməkdaşhğı bir yardım aktı kimi qiymətləndirilməməli, bütün ölkələrin mənafeləri naminə resursların istifadə olunması üçün vasitələrin birləşdirilməsi kimi nəzərdən keçirilməlidir;

20.turizm praktikasında mənəvi dəyərlər maddi-texniki elementlər üzərində üstünlük təşkil etməlidir. Belə əsas mənəvi dəyərlər kimi isə aşağıdakılar qeyd olunur;

a) insan şəxsiyyətinin tam və harmonik inkişafı;

b) daim artan tərbiyə və tanışlıq meylinə verilən diqqət;

c) xalqların bərabər hüquqlarını və öz müqəddəratını həll etməyə hörmət;

d) insan ləyaqətinə hörmət hüququ kimi azadlıqların verilməsi;

e) xalqların mənəvi dəyərlərinə hörmət və mədəni mənsubiyyətlərin etirafı.

Turizmə hazırüq vətəndaşlara onların vəzifələrinin yerinə yetirilməsinə hazırlıqlarla müşaiyət olunmalıdır. Buna görə də yaxşı olardı ki, hökümətlər Öz sərəncamlarında olan bütün tədris və informasiya resurslarını istifadə etməklə ayn-ayn şəxslərin və təşkilatların birgə fəaliyyətində əməkdaşlıq etməlidirlər. Turizm praktikasına hazırlıq məzuniyyətlərdən istifadə olunması və səyahətlərə getmək gənclərin tərbiyəsinin bir hissəsi olmalıdır. Buna görə də turizm təhsili proqramlarına gənclərin təhsilinin daxil olunması tərbiyəvi element və sülhün möhkəmləndirilməsində mühüm vasitə kimi hesab olunmalıdır.

Bəşəriyyətin gələcək sosial, iqtisadi və mədəni inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi müasir cəmiyyətin və beynəlxalq ictimaiyyətin həyatının ayrılmaz tərkib hissəsi olan milli və beynəlxalq turizm fəaliyyəti müvafiq dərəcədə nəzərdə tutulmalıdır. Məhz bu cür yanaşma ilə turizmin əsas komponentləri olaraq qəbul edilən dəyərlər kimi dövlət əhalinin daha çox təbəqəsini əhatə edən məzuniyyətlər və səyahətlərə əsaslanan milli və beynəlxalq turizmə diqqət ayırar və həmçinin ayrı-ayrı şəxslərin cəmiyyətin digər əsas tələbatları ilə turizm inkişafının harmonik əlaqələrini təmin edə biləcək müxtəlif məqsədli səyahətlərin təşkilinə diqqət yetirə bilər. Bu baxımdan müxtəlif dövlətlərə və digər konfras iştirakçılarına, habelə ÜTT-yə təcrübə bazaları çərçivəsində öz gündəlik vəzifələrində dünya turizminin inkişafını dərinləşdirmək və ona yeni impuls vermək üçün konfransın işində müəyyən olunan fikir və tövsiyyələrin nəzərə alınmasına ciddi fikir vermək tövsiyyə olunur.

Konfrans ÜTT-yə bu yekun sənəddə əks olunan prinsip, konsepsiya və əsas istiqamətlərin qlobal tətbiqinə nail olmaq məqsədilə beynəlxalq, hökümətlərarası və qeyri-hökümət təşkilatlarının əməkdaşlığı zamanı daxili imkanlardan istifadə olunmasında lazımi tədbirlər görməyi tövsiyyə edir.

Müasir dünyada turizmin belə bir əhəmiyyətli mövqeyə gəlib çıxmasında heç şübhəsiz müasir texniki vasitələrin (nəqliyyat, rabitə, informasiya texnologiyalan və s.) inkişafının və onların bu sahədə tətbiq olunmasının da rolu vardır. Beynəlxalq turizmin inkişafında informasiya texnologiyasımn rolu isə turizmin bir sıra səciyyəvi xüsusiyyətləri ilə daha da əhəmiyyətlidir. Bu, turizm xidmətinin daşınılmaz olması, onun təşkil olunması üçün geniş informasiya-reklam tədbirlərinin aparılmasının vacibliyi və s. ilə izah olunur. Bundan başqa turizm biznesinin müəyyən dərəcədə mövsümi xarakter daşıması, mövsümlərin qızğın çağında kütləvi turist tələbatının həddən artıq yüksəlməsi, turistlərin tələbatlarının ödənilməsi üçün turizm müəssisələrindən əlavə digər çoxlu sayda müəssisələrin də bu işə cəlb olunması da burada etibarlı və sürətli informasiya mübadiləsi zərurətini ortaya qoyur. Kompüter texnologiyasımn və sürətli informasiya mübadiləsinin tətbiqi turizmin təşkilində aparıcı rola malik olan turoperatorların fəaliyyətinə təsir edir.

Beynəlxalq turizm dedikdə xaricə yollanan və orada ödəncii əmək fəaliyyəti ilə məşğul olmayan ancaq fiziki və mənəvi istirahət etmək məqsədi ilə gəzməyə, seyr etməyə, tamaşa etməyə gələn şəxslərin səyyahəti nəzərdə tutulur. Beynəlxalq mal dövriyyəsində turist xidmətləri gözəgörünməz mal şəklində çıxış edir. Bir mal kimi çıxış edən turist xidmətlərinin xarakterik xüsusiyyətləri və özünəməxsus vəziyyəti və dəyərliliyi bundan ibarətdir ki, xidmətlərin böyük bir hissəsi yerlərdə ən az məsrəflərlə başa gəlir və eyni qaydada da digər valyutalardan istifadə olunur. Xarici turistlər turist sənayesi müəssisələrinin xidmətindən istifadə edirlər.

Müasir şəraitdə beynəlxalq turizm BİM-in yaranması kimi geniş miqyas almış və dövlətlər arasında siyasi, iqtisadi və

mədəni əlaqələrin inkişafına və təkımlləşdirilməsinə xüsusən təsir göstərir. Beynəlxalq turizm üçün xarakterik cəhət turistlərin sayının sürətlə artınu və turizimdən daxü olan gəlirlərin ciddi çoxalmasıdır.

Beynəlxalq turizm eyni zamanda bir çox İEÖ üçün valyuta daxil olmasımn mühüm mənbəyi kimi qiymətləndirilir. Beynəlxalq turizm Qərbi Avropa ölkələrində daha çox inkişaf etmişdir, Bu məhəllinin payına dünya turist bazarının 70 %-dən bir qədər çox, valyuta daxil olmalannın isə 60 %-ə qədəri düşür.

Beynəlxalq turizimin inkişafı üçün əsas İlkin şərtlər aşağıdakılardır;

- xarici ölkələrdən muzdlu tutulan fəhlə və qulluqçuların sayının artması;
- onların maddi və mənəvi səviyyəsinin yüksəlməsi;
- əməyin intensivliyinin yüksəldilməsi;
- işçilərə uzunmüddətli məzuniyyət verilməsi və onların daha yüksək əmək haqqıyla təmin olunması və s.

Yer kürəsində turist sənayesində 30 mln-dan çox adam məşğuldur. Turist sənayesi dedikdə, turist xidmətlərini və turist təlabath malları realizasiyası ilə məşğul olan istehsal, ticarət və nəqliyyat müəssisələrinin məcmusu başa düşülür.

Tur izim sənayesində insanlar digər ölkələrin gözəllikləri və mədəniyyətləri ilə tanış olurlar, həm də getdikləri ölkəyə pul qazandırırlar. Yəni turizm ziyarət edilən ölkənin iqtisadiyyatına böyük təsir göstərir.

Bu termin ilk dəfə XIX əsrin əvvabrində bəzi ingilislərin Avropaya gedişləri üçün istifadə olunmuşdur. Bu termin daha geniş miqyas almışdır. Ümumdünya Turizim Təşkilatı turizm gəlirlərinin hər il 4 % artdığım bildirmişdir. Proqnozlara görə 2020-ci il Avropa ən çox gəzinti yeri kimi qalacaq. Lakin onun payı 60 %-dən (1995) 46 %-ə düşəcəkdir. Dünya Turizmin sıralanması ÜTT tərəfindən Barometr Nəşrinin hissəsi kimi çıxış edir. 2007-ci ildə dünyada 903 mln. turist olmuşdur. Aşağıdakı cədvəldə 2007-ci üdə ziyarət olunan 50 ölkənin sıralanması və həmin ölkələrə gələn əhalinin sayı göstərümişdir (cədvəl 11)

Cədvəl 11

**2007-ci ildə gələn turistlərin sayına görə Ölkələrin sıralaıunası**

| Sıra | Ölkə | Gələnlərin sayı |
|---|---|---|
| 1 | Fransa | 81,9 milyon |
| 2 | İspaniya | 59,2 milyon |
| 3 | ABŞ | 56 milyon |
| 4 | Çin | 54,7 milyon |
| 5 | İtaliya | 43,7 müyon |
| **6** | Böyük Britaniya | 30,7 milyon |
| 7 | Almaniya | 24,4 milyon |
| 8 | Ukrayna | 23,1 milyon |
| 9 | Türkiyə | 22,2 milyon |
| 10 | Meksika | 21,4 milyon |
| 11 | Malaysiya | 21 milyon |
| 12 | Avstriya | 20,8 milyon |
| 13 | Rusiya | 20,2 milyon |
| 14 | Kanada | 17,9 milyon |
| 15 | Hong Kong | 17,2 milyon |
| 16 | Yunanıstan | 16 milyon |
| 17 | Polşa | 15 milyon |
| 18 | Tayland | 14,5 milyon |
| 19 | Makao | 12,9 milyon |
| 20 | Portugaliya | 12,3 milyon |
| 21 | Səudiyyə Ərəbistanı | 11,5 milyon |
| 22 | Niderland | 11 milyon |
| 23 | Misir | 10,6 milyon |
| 24 | Xorvatiya | 9,3 milyon |
| 25 | CAR | 9,1 milyon |
| 26 | Macarıstan | 9,6 milyon |
| 27 | İsveçrə | 8,4 milyon |
| 28 | Yaponiya | 8,3 milyon |

| | | |
|---|---|---|
| 29 | Sinqapur | 8 milyon |
| 30 | trlandiya | 8 milyon |
| 31 | Mərakeş | 7,4 milyon |
| 32 | BƏƏ | 7,1 milyon |
| 33 | Belçika | 7 milyon |
| 34 | Tunis | 6,8 milyon |
| 35 | Çexiya | 6,7 milyon |
| 36 | Cənubi Koreya | 6,4 milyon |
| 37 | Indonesiya | 5,5 milyon |
| 38 | İsveç | 5,2 milyon |
| 39 | Bolqarıstan | 5,2 milyon |
| 40 | Avstraliya | 5,1 milyon |
| 41 | Braziliya | 5 milyon |
| 42 | Hindistan | 5 milyon |
| 43 | Danimarka | 4,7 milyon |
| 44 | Argentina | 4,6 milyon |
| 45 | Bəhreyn | 4,5 milyon |
| 46 | Vyetnam | 4,2 milyon |
| 47 | Dominikan Respublikası | 4,0 milyon |
| 48 | Norveç | 3,9 milyon |
| 49 | Tayvan | 3,7 milyon |
| 50 | Puerte Riko | 3,7 milyon |

Beynəlxalq sərnişinlərin səyahət gəlirləri 2007-ci ildə 1,02 trİn. ABŞ dollarına çatıb. ÜTT-nın məlumatlarına görə yuxanda qeyd etdiyimiz 10 ölkə

2007-ci ildə çox turizim qazancı olan ölkədir. Bunu 2006-cı illə müqayisədə aşağıdakı 12-ci cədvəldən daha aydın görmək mümkündür;

**CədvDİ 12**

**2007-ci ildə turizmin inikşafından ən çox gəliri olan ölkələr**

| **Sıra** | **Ölkə** | **Regional bazar** | **Beynəlxalq turizmdən gəlirlər milyard** | **Beynəlxalq turizm gəlirləri (2006)** |
|---|---|---|---|---|
| **1** | ABŞ | Şimali Amerika | 96,7 | 85,7 |
| 2 | İspaniya | Avropa | 57,8 | 51,1 |
| 3 | Fransa | Avropa | 54,2 | 46,3 |
| 4 | İtaliya | Avropa | 42,7 | 38,1 |
| 5 | Çin | Asiya | 41,9 | 33,9 |
| 6 | Böyük Britaniya | Avropa | 37,6 | 33,7 |
| 7 | Almaniya | Avropa | 36,0 | 32,8 |
| 8 | Avstraliya | Okeaniya | 22.2 | 17,8 |
| 9 | Avstriya | Avropa | 18,9 | 16,6 |

Turizm və beynəlxalq səyahətlər dünyada ən güclü iqtisadi inkişaf vasitəsinə çevrilmişdir. Turizm ölkəyə, regiona böyük miqdarda xarici valyuta axınına səbəb olur. Turizm xidmətləri beynəlxalq əmtəə dövriyəsində «görünməz ixrac» adlanır. Onların bir əmtəə kimi səciyyəvi özəlliyi və özünəməxsusluğu ondan ibarətdir ki, bu xidmətlərin xeyli hissəsi minimum məsrəflərə və bir qayda olaraq xarici valyutadan istifadə etmədən istehsal olunur.

Turizmin dünya ticarətində xidmətlərlə birgə payı 30%- dən çoxdur. Dünya bazarında turist məhsulu neft səviyyəsində liderlik edir. Hər il turizm sənayesində investisiya artımı 35% təşkil edir. Turizm biznesin ən gəlirli sahələrindən birinə çevrilmiş və bu gün dünya kapitalının 7%-ni istifadə edir. Hələ 1995-ci ildə beynəlxalq turizmdən gələn gəlir 373 mlyrd. dollar təşkil edirdi. Turist sahələrinin maliyyə-iqtisadi vəziyyətinin artımı turizmin dünyanın bir çox ölkələrində regional inkişafın əsas amilinə çevrilməsinə gətirib çıxarmışdır. Müxtəlif səviyyə

lərdə ərazi idarə etmə orqanları turizmin və zəngin rekreasiya resurslarına malik olan ərazilərin inkişafına qayğı göstərirlər. Turizmə regional iqtisadiyyatın katolizatoru kimi baxılır. Belə ki, təkcə bütün rekreasiya resursları kompleksinin fəaliyyət göstərməsinə icazə verir, eləcə də ekoloji və mədəni müxtəlifliyin qorunması şərtilə daha effektli xarakterlə birgə istehsal və ərazinin sosial-mədəni potensialını istifadə etməyə imkan verir.

Turist məhsulu yalnız kütləvi turizm şərtləri ilə iqtisadi kateqoriyaya çevrilmişdir. Turizm intensivliyi-əhalinin neçə faizi hər il ən azı bir səyahət etdiyini bildirən göstəricidir. Turizm intensivliyi 50 %-dən çox olarsa, həmin ölkədə turizm kütləvi xarakter daşıdığını demək olar. Ölkənin turist balansı- ölkə daxilində xaricilər tərəfindən reallaşan məhsul və xidmətlərin dəyəri ilə xaricdə ölkə vətəndaşları tərəfindən reallaşan məhsul və xidmətlərin dəyəri arasındakı münasibətlərdir. Əgər balans «+»dirsə, turizm həmin ölkənin iqtisadiyyatında aktivdir (Tayland, İsveçrə), əgər «-»dirsə onda passivdir (Almaniya, Rusiya).

Turist biznesi ölkədə digər sahələrin inkişafına stimul verir. Bu biznes sahibkarlan aşağıdakı səbəblərə görə özünə cəlb edir:

1. az ilkin investisiya;
2. turist xidmətlərinə artan tələbat;
3. yüksək səviyyəli rentabellik;
4. xərclərin qısa müddətdə ödənilməsi (yəni ödəniş əmsalının yüksək olması).

Turist sənayesindən verilmiş xidmətlərin həcminin artımı işyerlərini digər sahələrə nisbətən daha sürətlə artırır. Turizmin inkişafı məsələsi çoxlu əlaqədar məsələlərin həllini tələb edir. Məsələn: nəqliyyat sisteminin inkişafı, ictimai təchizetmə sisteminin inkişafı, imicin yaxşılaşdırılması, informasiya strukturunun inkişafı və s.

Beynəlxalq turizmin həcminin intensiv olaraq artması və sərhədlərinin genişlənməsi, dünya turizm sənayesinin dinamik inkişafı, onun dünya iqtisadiyyatının aparıcı sahəsinə çevrİl

məsi, müxtəlif ölkələrin turizm fəaliyyətini yoluna qoymaq və tənzimləmək məqsədilə beynəlxalq turizm təşkilatlarının yaradılmasını tələb etmişdir. Beynəlxalq turist əlaqələrinin İntensiv inkişafı çoxsaylı beynəlxalq turist təşkilatlarının təşəkkülünə səbəb oldu ki, bu da BİM-in bu sferasının daha yaxşı təhlilinə təsir göstərdi. Beynəlxalq turizm təşkilatlarının missiya, məqsəd və vəzifələri onların nizamnamələrində və digər proqram sənədlərində müəyyən edilmişdir. Ümumilikdə 70-ə yaxın müxtəhf, profili və statuslu beynəlxalq təşkilatlar beynəlxalq turizmin inkişafı məsələləri ilə məşğul olurlar. Ümumi xarakterli beynəlxalq turizm təşkilatlarına aiddir;

- Ümumdünya Turizm Təşkilatı;
- Ümumdünya səyahətlər və Turizm Şurası;
- Dünya Turizminin Beynəlxalq Assosasiyası;
- Beynəlxalq Turizm İttifaqı;
- Beynəlxalq Turizm Alyansı;
- Asudə vaxt və istirahət məsələləri üzrə Ümumdünya Assosiasiyası.

Bunlardan ən genişi və nüfuzlusu BMT-nin tərkibində olan Ümumdünya Turizm Təşkilatıdır. Bu təşkilat 1925-ci ildə Haaqada yaradılmışdır. ÜTT-nın nizamnaməsi 1970-ci il sentyabr ayının 27-də qəbul olunmuşdur. Baş qərargahı Madriddə yerləşir. Hazırda bu təşkilat özündə 150 dövləti birləşdirir və üzv ölkələrin turizm siyasətinin formalaşmasında, həyata keçirilməsində yaxından iştirak edir.

ÜTT-nin əsas məqsədi Nizamnamənin III maddəsinə görə «iqtisadi inkişaf, beynəlxalq qarşıhqlı anlaşmaya, əminaman- lıq, tərəqqi, irqi, cinsi, dil və din fərqi qoymadan bütün insanlar üçün insan hüquqları və azadlıqlarına ümumi hörmət və riayət edilməsinə tövhələr vermək üçün turizmin inkişafına yardım etməkdin). Nizamnamə məqsədlərindən çıxış edərək ÜTT-nin əsas vəzifələri bunlardır; ölkə və regionların inkişafı məqsədilə turizm sahəsində bu təşkilatın üzvü olan dövlətlərin əməkdaşlığım genişləndirmək və dərinləşdirmək; turizm kadrlarının təhsil və peşə hazırlığı keyfiyyətini təkmilləşdirmək; ətraf mühitin dünyanın sabit inkişafı konteksində

müdafiəsi və ondan rasional istifadə üzrə tədbirlərin planlaşdırılması, işlənib hazırlanması və reallaşdırılması; turizm xidmətlərinin təhlükəsizliyinin təmin edilməsi, turizm bazarının öyrənilməsi, statistik məlumatların toplanılması, təhlili və sistemləşdirilməsi, turizmin inkişafının proqnozlaşdırılması; turizmin inkişafında iştirak edən ölkələr arasında əlaqələrin və informasiya mübadiləsinin təmin edilməsi; turizm sənədlərinin hazırlanması və yayılması.

Azərbaycan Respublikası 2001 -ci ilin sentyabr ayında BMT ÜTT-nın tam hüquqlu üzv seçilmişdir. Bu bizə imkan verir ki, BMT ÜTT-nın Baş Assambleyasında və digər mötəbər tədbirlərdə səsvermə hüququ ilə iştirak edək və turizm sahəsi üzrə qabaqcıl ölkələrin təcrübəsindən bəhrələnərək dünya turizm ailəsinə inteqrasiya edək.

Ümumdünya Turizm Təşkilatının «Böyük İpək Yolu» layihəsinin xüsusi əhəmiyyəti var. Bu layihə mədəni-tarixi yerlərə marşrut üzrə turizmin inkişafına yönəlmişdir. Onun məqsədi Orta Asiya və Cənubi Qafqaz ölkələrində müasir turizm infrastrukturunun yaradılmasının təşviq edilməsi və turizm potensialının meydana gəlməsinə, bu ölkələrin imicinin beynəlxalq turizm bazarına çıxarılmasına və rəqabət qabiliyyətli turizm məhsulunun yaradılmasına kömək edilməsidir. Bununla əlaqədar BMT ÜTT tərəfindən bir sıra beynəlxalq tədbirlər keçirilmişdir. BMT ÜTT ilə əməkdaşlıq Mədəniyyət və Turizm Nazirliyinə ölkəmizdə turizmin idarə etmə mexa- nizimlərinin yaradılmasına, davamlı inkişafının təmin edilməsinə və turizm sənayesinin iqtisadiyyatımızın ən gəlirli sahəsindən birinə çevrilməsinə xidmət edir. Bütün bunlar beynəlxalq turizm anlayışının öz məzmunundan irəli gələn zəruri şərtlərdir ki, onlara əməl etmədən turizmi iqtisadiyyatın gəlirli sahəsinə çevirmək qeyri mümkündür.

11.2.Turizm fəal istirahətin geniş yayılmış və ən kütləvi növüdür. Turizmin bir çox növlərinin neqativ nəticələri düşərgə (çadırların qurulması, ocağın qalanması, oduncağın tədarükü), yoldan kənar (çox sayda turistin cığırların ötərək hərəkət etməsi), nəqliyyat (avtonəqliyyatın yollardan kənar

hərəkəti), hasilat (göbələk, giləmeyvə, gül, dərman bitkilərinin toplanması, ovçuluq, balıq ovu) yönümlü rekreasiya ilə bağlıdır. Bu tam olaraq yaşayış məntəqələrində dayanacaq təşkil edilməsi nəzərdə tutulmayan piyada gəzintilərinə, su turizminə, çoxgünlük velosiped və at gəzintilərinə və s. aid edilir. Müasir dövrdə ekoturizm və ekoturlann da 4 növü geniş yayılmışdır. Bunlardan bir neçəsini nəzərdən keçirməyi vacib sayırıq.

Elmi turizm-elmi ekoturlar zamanı turistlər müxtəlif cür tədqiqatlarda iştirak edirlər. Məsələn, Latın Amerikasında quşların özlərini necə aparraalannı müşahidəsi və Sakit okeanda balinaları saymaq ilə əlaqədar olan ekoturlar geniş yayılmışdır. Adətən belə turlarda xüsusi qorunan təbiət ərazilərindən istifadə olunur; qoruqlar, yasaqlıqlar, milli parklar, təbiət abidələri. Elmi turizm həm universitetlərin və institutların təbii-elmi fakültələrində oxuyan tələbələrin səyyar təcrübələri, həm də xarici elmi-tədqiqat ekspedisiyaları aiddir.

Bu qəbildən olan turlara zooloji, ornitoloji (quşların müşahidəsi), entomoloji (həşəratların müşahidəsi), ixtioloji (balıqların müşahidəsi), paleontoloji, geoloji və s. turlar daxildir. Bundan başqa ekoturlann xüsusi növü-fotosafari də mövcuddur.

Təbiət və tarixi turlar-bu səyahət ətrafdakı təbiəti və yerli mədəniyyəti öyrənməklə əlaqədardır. Adətən belə turlar özündə təlim, elmi araşdırma və tematik xarakterli ekskursiyaları birləşdirir. Bu ekskursiyalar xüsusi avadanlıqla təchiz olunmuş ekoturizm cığırlarından keçir. Çox zaman belə cığırlar qoruqların və Milli parklann da ərazilərində təşkil edilir. Buna həm də məktəbililərn gəzintiləri də daxildir. Bu gəzintilər zamanı müəllimlər, bələdçidər təbiət haqqında geniş söhbət açırlar. Belə ekoturizm növü xüsusən Almaniyada geniş yayılıb, ona görə də bu növü «ekoturizm inkişafının Alman modeli» adlandırırlar.

Macəra turizmi-bu nÖv turizmə aktiv hərəkətlə və təbiətdə istirahətlə əlaqədar olan bütün səyahətlər daxildir. Bu növ turizmdə məqsəd yeni hiss və təəssüratlar əldə etmək, turistin

fiziki cəhətdən hazır olmasına və idman nəticələrinin yüksəldilməsinə nail olmaqdır. Buraya alpinizm, qayaya dırmaşma, buza dırmaşma, speleoturizm və piyada, su və xiziklə gəzinti kimi turizm növləri aiddir.

***Trekkinq və ya piyada*** r«r/zm-ckoturizmin ən geniş yayılmış növüdür. Piyada gəzintilər xüsusi avadanlıq və fiziki hazırlıq tələb etmir; lazımı fiziki yüklənmə və ətraf mühitlə təmasdan həzz almağa imkan verir. Təəccüblü deyil ki, bu növ turizm getdikcə məşhurlaşır və iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əhalisi öz tətillərini bir neçə «hissəyə» bölərək, müxtəlif müddətli marşrutlar həyata keçirirlər. Məsələn: ABŞ əhalisi milli mənzərə cığırında, avropalılar Norveçin piyada marşrutlarında, müxtəlif ölkələrdən olan turistlər and dağ- lannda-İnəklərin cığırında istirahətə üstünlük verirlər. Dünya üzrə ən məhşur piyada marşrutlarına: uzunluğu 4200 km. olan və ABŞ-ın Böyük suayırıcı silsiləsindən keçərək, Kanada sərhəddindən Meksika sərhədlərinə qədər uzanan marşrut; ümumi uzunluğu 3473 km. olan, Appalaç dağları və ABŞ-ın 14 ştatının ərazisindən keçən Appalaç mənzərəli cığırı; uzunluğu 33 km. olan və Peruda, Mərkəzi Andlarda Kusko şəhərindən Maçu-Pikçu şəhərinə qədər uzanan İnklərin cığırı və s. misal göstərmək olar.

Te/ojçazın/tVəı-.-velosiped bir çox ölkələrdə ən vacib nəqliyyat vasitələrindən biri olaraq qalır. Bununla yanaşı Avropada hər ailədə bir və ya bir neçə avtomobilin olmasına baxmayaraq, velosipedlərdən geniş tendensiyası müşahidə olunmağa başlayır. Bu nəqliyyat vasitəsinin məşhurlaşmasının əsas səbəbi onun ekoloji cəhətdən təmiz olması və gündəlik fiziki treninqdir. Məsələn: Finlandiyada səkilər boyunca velosiped yollan çəkilmişdir.

Velosipedlərin üç əsas növü mövcuddur: yol, kross və dağ velosipedləri. Yol velosipedləri örtüklü yollar üçün nəzərdə tutulmuş, onların təkərləri ensiz, şinləri isə nazik olur. Dağ velosipedlərinin şinləri enli olub, zərbələri yumşaltmaq üçün xüsusi ressoriara malikdir. Kross velosipedi yuxarıda qeyd olunanların ümumiləşdirilmiş şəklini təşkil edir. Dünyada ən

məhşur velosiped cığırları Kanada Qayalı dağlannda-Banf və Casper milli parklarında, Kosta-Rika rütubətli meşələrində, Şotlandiya dağlarında və Keniyanın Helz-Qeyt milli parkında mövcuddur.

Atla gəzintilər-hal-hazırda dünyada məhşur turizm növlərindən biridir. Bu növ marşrutların get-gedə məhşurlaşması ilə əlaqədar olaraq, turistlərə xidmət etmək üçün xüsusi kem- pinqlər fəaliyyət göstərirlər.

Turizmin təsnifləşdirilməsində aşağıdakı növləri fərqləndirmək lazımdır:

1. daxili turizm-ölkə daxilində ölkədə daim yaşayanların səyahəti;
2. getmə turizm-ölkədə daim yaşayanların digər ölkəyə getməsi;
3. gəlmə turizm-ölkə sərhədləri daxilində, həmin ölkədə daim yaşayanların səyahəti;
4. beynəlxalq turizm-gəlmə və ya getmə turizm;
5. sosial turizm-tam və ya qismən büdcə vəsaitləri, dövlət büdcədən kənar fondların vəsaitləri, eləcədə iş verənlərin vəsaitləri hesabına reallaşan vəsait;
6. özfəaliyyət turizm-turistlər tərəfindən müstəqil təşkil edilən səyahət.

Turizmi məqsədinə görə aşağıdakı iki formaya ayırmaq olar:

- rekreasiya turizm;
- işgüzar turizm.

Qeyd etdiklərimizdən başqa iqtisadi ədəbiyyatlarda mövcud olan turizmin digər növləri də vardır. Bunlara aşağıdakıları göstərmək olar:

- sərgüzəşt turizm;
- alternativ turizm;
- döyüş zonası turizm;
- sərhəd turizm:
- işgüzar turizm;
- gəmi turizm;
- kulinariya turizm;

- **ekoturizm;**
- təhsil turizm;

**-etnik turizm;**

- **fəvqəlhadisə turizm;**
- **azad müstəqil turizm;**
- **gopark turizm;**
- **geoturizm;**
- **ada turizm;**
- tibbi turizm;
- **dağ tun2an;**
- **ticarət turizm;**
- **fəza turizm;**
- **idman turizm;**
- **şəhər turizm;**
- **qış turizm;**
- **oyun turizm və s.**

**Respublikamızda turizmin bir sıra növləri inkişaf etmişdir ki, bunlardan ən geniş yayılmışları kənd turizmi, ekoloji turizm, mehmanxana turizmi və digər növlərini misal göstərmək olar. Son dövrlərdə qış turizmdə sürətlə inkişaf edir. Bunlarla yanaşı Kənd-yaşıl turizmi və ya aqroturizm (qısaca olaraq kənd turizmi) haqqında danışarkən bu ifadəni işlətmək düzgün olardı. Müasir dövrdə get-gedə vüsət alan turizm biznesi sahəsində kənd turizmdə özünə kifayət qədər yer tutmaqdadır. Əlbəttə, bir sıra turizm növləri-kruizlər, çimərlik, işgüzar, dini, mədəni turizm növləri ilə müqayisədə kənd turizminin həcminin geniş olmadığını göstərmək lazımdır. Lakin bununla yanaşı, yerinə yetirdiyi mühüm sosial-iqtisadi funksiyalarına görə o bütün dünyada, o cümlədən bizim ölkəmizdə də əhəmiyyət qazanmaqdadır. Buna görə də kənd turizmini həm bir tədqiqat obyekti, həm də turizmin təbliğində geniş kütlə üçün asan mənimsənilən bir turizm növü kimi hesab etmək olar.**

**Hər il minlərlə insan səyahət həvəskarları sırasına qoşulur və getdikcə kənd turizmi daha geniş vüsət alır. Turizm sadəcə maraq və dəb deyil. Bu, son 20-25 ildə insanların vərdiş**

etdikləri həyatı təlabatdır. Son onilliklər ərzində insanların həyat şəraiti yaxşılığa doğru xeyli dəyişilmişdir. Bununla yanaşı mədəni inkişafın kölgəli tərəfləri də özünü büruzə verməyə başlamışdır. Bu, işdə və ailədə insanların artmaqda olan hərəkətsizliyində, artıq qidanın qəbulunda, psixo- emosional gərginliyin artmasında özünü göstərir, tnsanlar artıq görüb-duyurlar ki, həyatda təkcə yaxşı məişət və maddi təminata malik olmaq əsas şərt deyil. Yaxın keçmişdə mükəmməl istirahətin etalonu, əsasən dənizə səyahət, sanatoriya, kurort və istirahət evlərində dincəlmək sayılırdı. Sözsüz ki, günəş, hava su və sağlamlığın möhkəmləndirilməsinin əvəzolunmaz amilləridir. Lakin, unutmaq lazım deyil ki, bunlar böyük fiziki fəallıqla əlaqələndirildikdə istənilən səmərəni verə bilər. Sağlamlığın möhkəmləndirilməsi ilə səciyyələnən və özündə bir neçə turizm növlərini cəmləşdirən kənd yaşıl turizmidir. Yenidən kənd həyatının təəssüratlarını yaşamaq, uşaqlıq illərini yada salmaq, təbiətin bəxş etdiyi gözəlliklərdən və sakitlikdən həzz almaq, bu gün kənddə yaşayan və onu qurub-yaradan qadınlar və kişilərlə üz-üzə gəlmək və salamlaşmaq yadda qalan xatirələrdir. Bu turizm növü təbiətlə ünsiyyət, şəraitin dəyişilməsi, psixoloji gərginliyin aradan qaldırılması və ən başlıcası isə fiziki fəallıqdır. Bundan başqa, kənd-yaşıl turizmi təşkilati cəhətdən də çox sadədir və həm də yaşından və ictimai vəziyyətindən asılı olmayaraq, hər bir kənd sakini üçün əlverişlidir. Kənd turizmi dedikdə kənd mühütində yataq yerləri ilə təmin etməyə istiqamətləndirilmiş kompleks turist xidmət fəaliyyəti nəzərdə tutulur. Həmin ərazidə yaşayan yerli əhali üçün bu fəaliyyət, ənənəvi kənd təsərrüfatında əldə olunan gəlirdən əlavə olaraq qazanılan gəlir mənbəyi kimi təqdim olunur. Bu növ turizm kənd təsərrüfatı sahəsində, onun əsas peşəsinə təsir göstərmədən, yeni iqtisadi alternativ fəaliyyət kİmi özünü göstərir. Kənd turizm biznesinin fəaliyyəti nəticəsində bir sıra imkanlar yarana bilər. Kənd təsərrüfatı məhsullarının dəyərinin digər məhsullarla bərabərləşdirilməsi və ənənəvi kənd təsərrüfatından gələn gəlirin azalması, məhsulun müxtəlifliyi ilə

**nəticələnmişdir. Məsələn, əvvəllər, kənd təsərrüfatı sahəsinin əkinçilik və heyvandarlıq kimi ikicə növü var idi. Lakin kənd turizmi torpaqdan və mövcud şəraitdən istifadə etməklə başqa müxtəlifliklər də yaratmışdır. Ənənəvi kənd təsərrüfatından fərqli olaraq, turizm xidməti və ya ərzaq məhsullarına təlabat ölkədəki xidmət şəraitinin yüksəlişinə, əməyə olan tələbatın yaradılmasına və münasibətin yaxşılaşmasına səbəb olmuşdur. Kənd turizmi həmin regionun adət-ənənəsinin, mətbəx və digər mədəni-məişət sahələrinin təbliğində də ən mühüm vasitə kimi özünü göstərir. Yerli adamlar turistin həmin regionun mədəniyyəti ilə maraqlandığım gördükdə, onlar bu sahəyə xüsusi diqqət yetirirlər və qısa vaxt ərzində bu münasibət icmaların digər üzvləri arasında da yayılır. Adət və ənənələrə turistlər tərəfindən marağın artması, yerli adamları bu sahədə daha çox məlumat toplamağa və turistlərin tələbinə uyğun biliklərini artırmağa sövq edir. Kənd əhalisi ətraf mühitin qorunmasına adətən az əhəmiyyət verirlər. Kənd turizmi biznesində isə müştəri təbiət mənzərələrinə xüsusi yer və vaxt ayıraraq, ətraf mühitin qayğısına qalırlar. Bütün bunlara diqqət yetirərək bu sahədə kənd əhalisi də təbiətə əvvəlki münasibətlərini dəyişirlər. İstehsalçı öz ənənəvi fəaliyyətindən fərqli olaraq, yeni məqsədlərə nail olmaq üçün istifadə etməyə əlverişli ərazilər və mənzərələr yerlər tapmaq məcburiyyətində qalır. O, kənd təsərrüfatı məhsulları yetişdirməkdən və iri buynuzlu mal-qara saxlamaqdan əlavə, turizm fəaliəti haqqında düşünməyə başlayır. Bu baxımdan təklif olunan ekoturizm fəaliyyəti meşə siyasətinin bir növ təbliği deməkdir. Kənd turizminin inkişafı nəticəsində kənd ərazilərində yaşayan əhalinin statusu gücləndirilir. Demək olar ki, kənd mühitində turizm aspektinin ən vacib tərəfi mədəni əlaqələrin perspektivliyindən, yerli əhalinin maliyyə və iqtisadi səviyyəsindən asılıdır bu baxımdan yerli əhalinin tarixi, həyat tərzi illər boyu yarattıqlan ailə ənənələri turistlərdə böyük maraq doğurur. Kənd turizminin inkişafı yerli inkişafın dəstəklənməsi deməkdir. Kənd mühitində bu sayaq yenİ biznes sahəsi həmdə başqa sahələr arasında nəqliyyat, səhiyyə**

xidməti, komunikasiya, habelə yolların bərpası və düzəldilməsi işlərinə dəstəyin verilməsi tələbini qoyub.

Dünya təcrübəsi göstərir ki, kənd turizmi hər şeydən əvvəl bizim üçün hələ də keçmiş sistemdən miras qalmış olan şəhər və kənd arasındakı həyat tərzindəki kəskin fərqləri aradan qaldırmaqda ən güclü vasitəyə çevrilə bilər. Əgər turizmin çoxaldıcı effektini də nəzərə alsaq, onun vasitəsilə kənd ərazilərində bütün sosial infrastruktur sahələrinin-yol, elektrik, su, mənzil-kommunal, rabitə, nəqliyyat, səhiyyə, əsaslı tikinti və s. güclü inkişafını təsəvvür etmək çətİn deyil. Qeyd etmək lazımdır ki, son illərdə dövlətin həyata keçirdiyi mühüm tədbirlər nəticəsində ucqar kəndlərdə bu problemlərin ən vacibləri (təhsil, səhiyyə, nəqliyyat və s.) sahəsində mühüm işlər görülmüşdür. Bu gün şəhərlərimizdə geniş vüsət alan, ancaq ucqar kəndlərdə hələ də inkişaf etdirilə bilməyən bir çox sahələrin-mənzil tikintisinin, müasir ticarət mərkəzlərin, sosial xidmət obyektlərin, İnternet mərkəzlərin inşa edilib istifadəyə verilməsinə məhz bu turizm növünün inkişafı ilə təkan vermək olar. Çünki bu günkü müasir turistlər getdikləri turizm destinasiyalarının bənzərsizliyinə olan tələbkarlığı qədər onun infrastrukturunun da bütün tələblərə cavab verə biləcək səviyyədə mükəmməl olmasında, öz sağlamlıqlarının, həyat və mal təhlükəsizliyinin qorunmasında maraqlıdırlar. Bu isə öz növbəsində aid sahələrin də işinin müasir tələblərə cavab verəcək səviyyədə təşkilini tələb etməkdədir. Nəticədə isə əhalinin məşğulluğu, məskunlaşması, həyat səviyyəsinin yüksəlməsi və s. kimi sosial problemlərin həllində mühüm irəliləyişdə özünü biruzə verir.

Kənd turizminin təşkilində qarşıya çıxa biləcək problemlər heç də dövlətimiz və ya sahibkarlarımız üçün həll olunmayacaq dərəcədə çətin deyildir. İlk növbədə onu qeyd etmək lazımdır ki, istənilən turizm növünün, o cümlədən kənd turizminin inkişafı üçün geniş turizm maarifçiliyinə ehtiyac vardır. Turizmin iqtisadiyyatın bir çox hissələri, turistlərin isə demək olar ki, bütün əhali təbəqələri ilə birbaşa təmasda olması bu məsələnin həllini zəruri etməkdədir. Geniş əhali kütləsinin

turizmin mahiyyati, onun iqtisadi əhəmiyyəti haqqında məlumatlandırılması, xarici turistlərlə diqqətli davranılması barədə bütün vasitələrlə bilgi verilməlidir. Bu. həm də baş verə biləcək bir sıra sosial ziddiyətlərin də qarşısının alınmasında mühüm Önləyici tədbir sayılır. Ancaq qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələri üçün hələ də problem olaraq qalan bu məsələ ölkəmiz üçün yox dərəcəsindədir. Müstəqilliyimizin əldə olunması ilə vətəndaşlarımızın, o cümlədən kənd əhalisinin xeyli hissəsinin yaxın və uzaq xaricə getmə turizm səfərləri etməsi, əhalinin yüksək mədəni və intellektual səviyyəsi, turizmin lokomotivi sayılan gənclərin bu sahəyə, həm də ali təhsil səviyyəsində geniş meyli bu barədə optimist fikir söyləməyə imkan verir. Ekskursiya işi turizm fəaliyyəti təşkilinin ən mühüm bölmələrindən olub, turistlərin ətraf aləmin əyani olaraq dərk etməsinin ən populyar formalarından biridir. Turizm-ekskursiya müəssisəsinin fəaliyyətinin nəticəsi kimi ekskursiya xidmətlərinin tərkibinə təbii, tarixi, mədəni və s. (hətta əhəmiyyətini itirmiş keçmiş hərbi) obyektlərə təşkil olunan səfərlər daxildir.

Ekskursiyalar turizmin baş verməsi üçün mühüm şərtlərdən biri hesab olunur. Əgər turizm motivinin yaranması səbəblərinə baxsaq görərik ki, turizm səfərləri zamanı əsas rol oynayan turizm suprastrukturu-yerləşdirmə, nəqliyyat, yemək servisi ekskursiya xidməti olmadan ayrılıqda turistlərin əraziyə səyahət etmələri üçün əsas motiv ola bilməz. Çünki, turistlər sadəcə yüksək komfortlu otellərdə qalmaq, rahat nəqliyyat vasitələrindən istifadə etmək və ya ləziz yeməklər yemək xatirinə səyahət etmirlər. Doğurdan da, müasir turistlərin əksəriyyəti iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş, həyat səviyyəsi yüksək olan ölkələrin vətəndaşları olub, qeyd etdiyimiz lüks həyat şəraiti onların gündəlik məişətində də vardır. Ona görə də bu şəraitin turistlərdə qeyri-adi mühit təəssüratı yarada biləcəyini düşünmək çətindir. Ona görə də turizm səfərlərinin əsas motivi kimi ekskursiyalarda iştirakın qeyd olunmasını obyektiv qəbul etmək lazımdır. Ekskursiya

xidməti digər mühüm üç şərtlə birlikdə turizm təklifini (turizm məhsulunu) formalaşdırır.

Latınca excursio-səfər mənası verən ekskursiya əvvəlcədən seçilmiş obyektə bu və ya digər mövzu ətrafında insanların dünyagörüşünün artınıması məqsədi daşıyan məqsədəuyğun bir proses kimi başa düşülür. Başqa sözlə, ekskursiya zamanı turistlər (bu halda ekskursantlar) turizm destinasiyası haqqında müxtəlif informasiya vasitələri ilə (qəzet, jurnal, bukletlər, televiziya, radio, internet, dost-tanışların şifahi təəssüratları) aldıqları məlumatlardan fərqli olaraq obyekti canlı görmək, təmasda olaraq hiss elmək, bir sözlə hər şeyin əyani şahidi olmaq imkanı əldə edirlər.

Buna görə də ekskursiya işinin təşkili zamanı onun prinsiplərini, yerinə yetirdiyi funksiyaları və ekskursiyaların mərhələlərini elmi olaraq müəyyənləşdirmək zərurəti yaranır.

Ekskursiyaların təşkil olunmasında aşağıdakı prinsipləri əsas götürmək lazımdır. İlk olaraq, ekskursiyalar elmi olmalıdırlar. Faktların, hadisələrin, nəzəri mülahizələrin aid olduqları elmi prizmalardan işıqlandırılması onlara obyektiv qiymət verilməsi üçün zəmin yaradır. Bundan əlavə, ekskursiyalar turizmi təşkil edən ölkə mənafeyinə uyğun olaraq ide- yalılıq ifadə etməli, burada turistlərə çatdırılan informasiya həqiqətə uyğun olmalı, nəzəri və praktiki cəhətdən vəhdət təşkil etməli, ekskursantlara tez qavranılan, inandırıcı olmalıdır.

Bu prinsiplərə əməl olunması təqdirdə ekskursiya fəaliyyətinin yerinə yetirəcəyi funksiyalardan müsbət nəticə gözləmək mümkündür.

Ekskursiyaların bu funksiyaları yerinə yetirməsi üçün onların hazırlanması mərhələlərinə dəqiq əməl olunmalı, hər mərhələnin məzmunun və ona qarşı qoyulan şərtlər ekskursiyanın əsas məqsədilə ahəngdar olmalı və operativliyə çalışılmalıdır.

İlk mərhələ ekskursiyanın mövzusunun seçilməsidir. Əvvəlcədən müəyyən olunmaması bir mövzuya əsaslanmayan, kortəbii həyata keçirilməyə çalışan bir ekskursiya ümumiyyətlə mümkün deyildir. Sonrakı ekskursiya mərhələri kimi bu

mövzuya uyğun olan mənbələrin seçilməsi, bu mövzu üzrə yeni məzmunlu ekskursiyaların tərtib olunması və onun həyata keçirilməsi üçün hazırlıq aparılması göstərilə bilər.

Ekskursiyanın mövzusu onun tərkibini əks etdirən, göstərilən və haqqında danışılan obyektin əsl mahiyyətini ifadə edən bir addır. Ona görə də ekskursiyanın mövzusuna dəqiq uyğun gələn bir obyekt seçilməlidir. Ekskursiyanın mövzusu aşağıdakı tələblərə cavab verməlidir. O, unikal olmalı, asan İfadə olunub, yadda qalan, dəqiq və görkəmli, xoşagələn olmalıdır.

Müasir turistlərin sosial-demoqrafik əlamətlərinə görə məhdudİyyətli olmadığı üçün ekskursantlar arasında uşaq, gənc, yaşlı, qadın, kişi, şəhər və kənd əhalisinin nümayəndələri ola bilər. Onların hər bir qrupunun öz maraq dairəsi, uyğun tələbatlan olduğundan ekskursiyalar insanların estetik zövqünün formalaşması və inkişafına xidmət edən bir poses olmalıdır. Əks halda turizm səfərlərinin əsas məqsədi olan turizm təəssüratı yaranmayacaqdır. Bu məqsədlə turizm-ekskursiya fəaliyyətinin təşkilatçıları tematik, ekoloji, tarixi, incəsənət, bədii-ədəbi, arxitektura, şəhərsalma, muzey, şəhər və şəhərətrafı ekskursiyalar zamanı real tələbata uyğunlaşan mövzu seçməlidirlər.

Bunlardan əlavə, həyata keçirələn işin və ümumi strategiyanın müvəffəqiyyəti naminə ekskursiyalar qarşısına bir sıra tələblər qoyulur. Bunlar, ekskursantlann həyat və sağlamlığının təhlükəsizliyi, onlann əmlakının mühafizəsi, ətraf mühitin, o cümlədən təbii, tarixi və mədəni abidələrin qorunması kimi əsas, ekskursiya marşrutunun optimal və estetik, obyektə asan çata bilmək, baxış üçün geniş meydanın və avtomobil dayanacaqlarının olması və s. kimi əlavə tələblər kimi göstərilə bilər. Ekskursiyaların etik normalar çərçivəsində və mümkün ola biləcək maksimum komfort səviyyəsində olması da zəruri tələblər arasındadır. Bu kimi tələblərin məcmu olaraq ahəngdar şəkildə bir-birini tamamlaması ekskursiyanın, bütövlükdə turizm məhsulunun cəlbediciliyi yüksəlir. Ekskursantlann optimal sayının 15-20 nəfər arasında olması isə yuxanda

göstərilən tələblərə cavab vermək və iqtisadi səmərəliliyinə nail olmaq baxımından tövsiyyə olunan və dünya təcrübəsində özünü göstərən bir şərtdir.

Turizm növləri arasında ən geniş yayılmış növlərindən biri də ekoloji turizm və ya ekoturizmdir. Ekoturizm anlayışı son illər çox geniş yayılmışdır, özündə həm ekoloji, həm iqtisadi, həm də sosial mənaları ehtibar edir. Ekoturizm dedikdə artıq əvvəllər mövcud olan «dəniz, qum, günəş üçbücağı»mdan daha geniş anlayış nəzərdə tutulur. Bəzi hallarda isə bu anlayışın yerinə tez-tez istifadə olunan bir ifadəyə təsadüf edilir. Bu, təbiət turizmidir. Əslində ekoturizm mənasını verən təbiət turizmi anlayışı ötən əsrin 80-ci illərindən geniş istifadə olunmağa başlayıb. Ekoturizm ilk olaraq ucqar, mənzərəli, təkrarı olmayan yerlərə səyahətlə bağlı idi. Yəni təhsil elementləri dinləyici üçün vacib və ya tələb olunan şərt deyildi. Daha sonralar inkişaf etdikcə bu elementlərin də paralel olaraq inkişaf etdirilməsi qaçılmaz oldu. O, vaxtdan ekoturizm planlaşdırma metodlarını, idarəetmə metodlarını və iqtisadi yönləri özündə birləşdirməklə inkişaf etmişdir. Ərazi haqqında məlumatdan əlavə ətraf mühitin qorunması, təhsil, iqtisadi və sosial mənfəət və ictimaiyyətin cəlb olunması onu daha da qiymətsiz edir.

Ekoturizm təbiət turizminin bir forması kimi, ətraf mühitə qayğı ilə bağlı turizmdir. Eyni zamanda ekoloji turizm-həmin yerin təbii və mədəni-etnoqrafık xüsusiyyətləri haqqında təsvir alma məqsədilə toxunulmamış təbiətə səyahət daxil edilmiş turizm, hansı ki, bununla ekosistemin bütövlüyünü pozmur. Bununla yanaşı ekosistemin qorunması yerli əhaliyə sərf edəcək şəkildə həyata keçirilməlidir.

Ekoturizm həm təbiət qorunmasına, həm də çiçəklənməsinə imkan yarada bilər. Bu növ turizm bir növ ekoturizm turizm fəaliyyətinin yerli əhali ilə qarşılıqlı əlaqəsini özündə əks etdirir.

Ekoturizm-turizmin elə növüdür ki, orada;

1.turizmin dİgər növləri ilə müqayisədə insanlar tərəfindən daha az korlanmış təbii ərazilərdə həyala keçirdir;

2. ekoturizm ətraf aləmin dağıdılmasına və onun keyfiyyətini aşağı düşməsinə səbəb olmur;

3. ekoturizm istifadə etdiyİ ərazilərin qorunmasına və idarə olunmasına birbaşa təsirini göstərir;

4. müvafiq, etibarlı və bacanqla həyata keçirilməlidir.

Yuxanda qeyd olunanlar ekoturizmin həyatda istifadə olunan bir neçə qaydası idi. Ancaq müxtəlif ədəbiyyatlarda ekoturizmin ən çox yayılmış qaydası aşağıdakıdır: ekoturizm digər ərazilərlə müqayisədə daha az korlanmış təbii mühitə ətraf-aləmi öyrənmək, təbiətdən həzz almaq və mədəni diqqətəlayiq yerləri görmək məqsədilə (təbiəti qorumaq şərti ilə), edilən səyahətdir, hansı ki, təbiətin qorunmasına, ətraf- aləmə «yumşaq» təsir göstərilməsinə, yerli əhalinin sosial- iqtisadi cəhətdən ekoloji turizmdə iştirakının təmin edilməsinə və bu fəaliyyyətdən mənfəət qazanmasına əsaslanan turizmdir.

Ekoturizm əsas prinsiplərinə aşağıdakılar aiddir:

1) təbiətə səyahət, bununla belə bu səyahətlərin məzmunu canlı təbiətlə, yerli adətlər və mədəniyyətlə tanışlıqdır;

2) ekoloji və sosial-mədəni xarakterli neqativ halların minumuma endirilməsi, ətraf mühitin ekoloji sabitliyini qorumaq;

3) ekoloji təhsil və tərəqqi;

4) yerli əhalinin turizm fəaliyyəti ilə məşğul olması və bu sahədən giİr əldə etmələri, hansı ki onlara təbiətin mühafizəsinə iqtisadi stimul verir;

5) ziyarət olunan regionların iqtisadi effektliyinin və zənginliyinin davamlı inkişafı.

Bu sahədə Fransa, ABŞ, İspaniya, İtaliya, Keniya, Tanzaniya, Ekvador, Kosta-Rika, Nepal, Avstraliya, Yeni Zenlandİya və CAR liderlik edir. Avropanın İEÖ-də və ABŞ- da ekoturistlər adətən özlərinin ölkələrində səyahət edirlər.

Mövcud və ya potensial inkişafda olan təbiət turizmi və ekoturizmə olan tələbat hazırkı zamanda yalnız Şimali Amerikada artıq inkişaf etmiş ekoturizm göstəricilərinə əsas- lanır-Avropa, həmçinin Yaponiya və yeni sənaye ölkələrinin bazarı hələ də tam tədqiq olunmamış hesab olunur. Bu günə

qədər ümumdünya ekoturizm bazarının geniş miqyaslı tədqiq olunması demək olar ki, aparılmamışdır. Bu İstiqamətdə yalnız müxtəlif turizm regionlarınm marketinq araşdırmaları mövcuddur (məsələn, Kosta-Rika, Beliz, Keniya). Bu xüsusda məlum olan tədqiqatlar əsasən turoperatorlar tərəfindən təşkil olunan və vahid xidmət paketi şəklində reallaşdırılan turlar üzərində cəmləşdirilir, fərdi turizm seqmentinə isə kifayət qədər diqqət yetirilmir. Bu fonda UTT-nin rəhbərliyi ilə 2002- ci ildə həmin ilin Beynəlxalq ekoturizm ili elan olunması ilə əlaqədar Avropa (Avstriya, Fransa, Almaniya, İspaniya, İtaliya və Böyük Britaniyada), Kanada və ABŞ bazarında marketinq tədqiqatları aparılmışdır. Beynəlxalq turizm bazarında ekoturizmin məlum olan göstəriciləri bir-birindən çox fərqlənir. Xüsusi elmi ədəbiyyatlarda 7% (ÜTT 1992-ci il); digər göstəricilərə görə 20-30%-dir (1996-cı il). Bəzi göstəricilərə görə isə ekoturistlərin sayı dünyada hər il 20% artır (2001-ci il). Ekoturizmə olan tələbata gəldikdə isə müəyyən olunmuşdur ki, turist təqdim edən və qəbul edən əsas bölgələr birinci növbədə Şimali Amerika, daha sonra Qərbi Avropa (ilk növbədə Almaniya və Böyük Britaniya), Avstraliya və Yeni Zelandiyadır. Bəzi ölkələrdə ekoturizm hətta daxili bazarda tələb olunur (məsələn Tailand, İndoneziya).

Turizm üzrə Dünya Birliyinin və Ümumdünya Turizm Təşkilatının göstəricilərinə görə turizm sənayesi dünyanın ən geniş miqsaylı və dinamik inkişaf edən sahələrindəndir. 20(X)- ci ildə beynəlxalq səyahətlərin sayı (işgüzar səyahətlər daxil olmaqla) 698 milyona çatmışdır. Səyahətlər sənayesində 200 mln. nəfər çahşır (digər sözlə desək, işlə təmin olunan şəxslərin hər 12 nəfərdən biri). 2000-ci ildə ümumi gəlirləri 469 mlrd. ABŞ dolları olmuşdur, bu da ümumdünya miqyasında daxili milli məhsulun 11 “/o-ni təşkil edir. Həcminə görə bu sahə avtomobil, boru-prokat İstehsalı, neft sənayesi, elektronika və kənd təsərrüfatı kimi təsərrüfat sahələrini aşır. Ekspertlər hesab edirlər ki, təbiət və macəra turizmi sənayesində an sürətlə inkişaf edən sahələrdirlər.

**BMT və ÜTT-nin verdiyi məlumata əsasən 2000-ci ildə beynəlxalq ekoturizmin gəlirləri 154 mlrd. ABŞ dollanna yaxın olmuşdur. Bəzi müəlliflərin fikrincə daxili turizmdən əldə olunan gəlirləri də buraya əlavə etsək, nəticədə həmin rəqəm 5-7 dəfə çox ola bilər. Beləliklə, təbiət turizmi ciddi biznes kimi dünyada qəbul edilmişdir. Təbiət turizminin ən sürətlə inkişaf edən sahələrindən biri xüsusən də Şimali Amerikada-köçəri quşları izləməkdir. Müxtəlif qiymətləndirmələrə görə hər il bu turlarda 30 mln.-dan 78 mln. nəfərə qədər turist iştirak edir, bu da həmin ölkələrə 78 mlrd. ABŞ dollanna yaxın gəlir əldə etmək imkam yaradır. Kvezal adlı tutuquşu növü ilə maraqlanan** *börvotçerhrin* **Kosta-Rikaya axım nəticəsində əldə olunan gəlirlər Monteverdedə yağışlı meşələrin bərpasına yönəldildi. Ekoturizmin daha bir məşhur növlərindən biri hesab olunan balinaları müşahidə etmə 87 ölkədən 9 mln. səyahətçi cəlb etmişdir. Kanada da isə vəhşi təbiətə səyahət daxili turizmdən əldə olunan ümumi gəlirlərin 1/4-ni təşkil edir. Ekoturizmdən ölkəyə daxil olan vergilərə görə isə Ölkə 1,7 mlrd. ABŞ dolları gəlir əldə edir. Bu məbləğ Kanada hakimiyyəti tərəfindən hər il (300 mln. dollar) təbiətin mühafizə proqramına ayırdığı vəsaitdən təqribən 5 dəfə artıqdır. Bəzi inkişaf etməkdə olan ölkəlrdə bu fərqlər daha kəskin ola bilər, Beləliklə, ekoturizm təbiəti mühafizə ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün effektiv maliyyə mənbəyi ola bilər. Ekoturizm ölkənin mİlli iqtisadiyyatına əhəmiyyətli sərmayə gətirə bilər və ölkəni vacib resurslarla təmin etmək imkanına malikdir. Məsələn, Ruandanm Des Volkans Milli parkı nəinki dağ qorillalarmm populyasiyasınm bərpasım təşkil etməyə, həmçinin həmin əraziləri fermer təsərrüfatından qorumağa yardım etdi, buna da əlavə olaraq dünyanın ən ekzotik turizm obyektlərindən olmaqla ölkəyə daxil olan xarici valyutanın həcminə görə parkın gəlirləri 3-cü yer qazandı.**

**BMT-nin və Ümumdünya Turizm Təşkilatının verdiyi məlumatlara əsasən son 20 il müddətində ekosistemlərinin müxtəlifliyi, fauna və florasının zənginliyi ilə seçilən inkişafda olan ölkələrə turistlərin axını əhəmiyyətli dərəcədə artmışdır.**

**Bu planda siyasi stabilliyə malik ərazilər xüsusi üstünlüyə malikdirlər. Belə ölkələrdə ekoturizm çox böyük gəlirlərə malikdir. Keniya, Ekvador, Kosta-Rika, Nepal kimi kiçik ölkələrdə ölkəyə daxil olan xarici valyutanın tərkibində ekoturizmin payı üstünlük təşkil edir və müvafiq olaraq 1400, 1180, 1140 və 1550 ABŞ dolları təşkil edir. Konkret ölkələrdə ekoturizmdən əldə olunan gəlirlərin miqdarı həmin ölkələrin ümumi inkişafının, iqtisadiyyatının və ümumiyyətlə turizm fəaliyyətinin inkişafından asılıdır. Bu amillərdən asılı olaraq turizmin inkişafı ilə əlaqədar müxtəlif ölkələrdə bu sahədən əldə olunan gəlirlər eyni olsa da, ölkədən asılı olaraq onların dövlət büdcəsində hacmi müxtəlifdər. Məsələn, Ruanda və Dominikanda ekoturistlərin kiçik də olsa axını ölkə iqtisadiyyatında inkişafa səbəb olmuşdur. Eyni zamanda həmin miqdarda turistlərin sayı Meksika iqtisadiyyatında heç bir əhəmiyyət kəsb etmədiyi halda Ekvador və Kosta-Rikada hiss olunacaq dərəcədə büdcəyə gəlir gətirir. Bütün bunlara baxmayaraq, ölkə iqtisadiyyatında mühüm əhəmiyyətə malik olan ekoturizm, Ölkənin ekoturizmlə məşğul ayrı-ayrı bölgələrinin inkişafına çox vacib rol oynaya bilər. Ekoturizmin digər turizm növləri ilə müqayisədə məhdud şəkildə inkişafından asılı olaraq, onun sosial-iqtisadi əhəmiyyəti məhz regional və lokal əhəmiyyət kəsb edir (yerli əhali üçün iş yerləri və yerli iqtisadiyyata daxil olan gəlirlər). Maliyyə gəlirlərinin daxil olma kanalları və formaları müxtəlif ola bilər. Onlar arasında daha çox yayılmışdır;**

- **təbiətə mühafizə və ya kommunal obyektlərin istismarına görə turizmdən gələn gəlirlərin yerli büdcə və ya xüsusi fondlara köçürülməsi;**
- **yerli idarəetmə orqanlarının istifadə hüquqlarım xarici turist firmalarına (arenda və s.) ötürülməsi üzrə ödəniş;**
- **turizm firmalarına yerlərdə ilkin xidmətlərin göstərilməsi (məsələn, qida məhsulları, tikinti materilları, əl işləri ilə təminat və s.);**
- **muzdlu əmək (peşəkar turist firmalarının işçiləri).**

Lakin, ekoturizmin rolu birbaşa maliyyə gəlirlərinin daxil olması ilə məhdudlaşrmr. İqtisadi cəhətdən qiymətləndirilmə imkanı olmayan yaxud da yalnız dolayı yolla iqtisadi kateqoriyalarla ifadə olunan maliyyədən kənar mülkiyyətlər də turizmin bu sahəsində heç də az əhəmiyyətli deyil. Bunlara misal olaraq yeni iş yerlərinin açılması, ekoloji mariflәndirmә, əhalinin mədəni səviyyəsinin artınıması, infrastruktur şəbəkəsinin inkişafı, iqtisadi cəhətdən geri qalmış ərazilərin inkişaf etdirilməsini göstərmək olar. Məsələn, inkişafda olan Ölkələrdə ekoturizm bir çox hallarda digər təbiəti istismar edən az effektli kənd təsərrüfatı, ovçuluq, yığıcılıq, oduncaq tədarükü, faydalı qazıntıların istismarı, kütləvi türizmin inkişaf etdirilməsi kimi iqtisadiyyatın sahələrinə alternativ təşkil edir. Ekoturizmdən fərqli olaraq sadalanan sahələr tez və çox miqdarda gəlir gətirir, lakin ekoturizmin təşkil olunması üçün zaman tələb olunur. Buna baxmayaraq, resursların istismarının dayamqlıhğı iqtisadiyyatın bu sahələrində yüksək deyil və bu da təbiətin sürətlə deqradasiyaya uğramasına səbəb olur. Bir sıra hallarda, məsələn, ekoturizm yerli miqyasda yüksək gəlir gətirməyən sahə hesab olunduqda, bəzi ölkələr onun inkişafını vergilər, dotasiyaların tətbiq olunması və digər güzəştlər vasitəsilə təmin edirlər. Həmçinin birbaşa və yaxud dolayı yollarla ekoturizm iqtisadiyyatın digər sahələrinin, xüsusi sahibkarlığın və s. inkişafına güclü təsir edir.

Vətənimiz Azərbaycan özünəməxsus gözəllikləri ilə zəngin bir ölkədir. Respublikamızın gəzməli-görməli yerləri həmişə turistlərin diqqətini cəlb etmişdir. Azərbaycan özü kimi vüqarlı uca dağlan, laləzar vadiləri, mənzərəli düzənlikləri, alp çəmənlikləri, qızıl qumlu çimərlikləri, gur sulu çayları, mavi gölləri, fısunkar meşələri, yaşıl ormanları, memarlıq, təsviri incəsənət abidələri, tətbiqi xalq sənəti, ədəbiyyat, musiqi və teatr mədəniyyəti, faydalı qazıntıları, palçıq vulkanları, rəngarəng flora və faunası, subtropik zonası ilə tanınan diyardır. Bu diyara təşrif buyuranlar, ora səyahətə çıxanlar hər zaman səmimi mehribanlıqla, əsl qonaqpərvərliklə qarşılanır, unudulmaz, ömür uzadan günlər yaşayır, özlərinə sədaqətli dostlar qazanırlar.

Respublikamızda turizmin bu sahəsinin inkişafı ilə eləcə də bir sıra cəmiyyət və ictimai birliklər məşğul olur. Bunlardan bin də Azərbaycanın Omitalojı Cəmiyyətdir (AOC). 1986-cı ilin mart ayından fəaliyyətə başlayan Azərbaycan Ornitoloji Cəmiyyətinin əsas missiyası quşların ekosistemlərdə davamlı yaşamasına, cəmiyyətdə quşlara qarşı marağın artmasına və münasibətin yaxşılaşmasma dəstək vermək, quşlar haqqında bilikləri yaymaq, quşsevərlərin fəaliyyətini əlaqələndirməkdən ibarətdir. AOC fəaliyyəti müddətində bir çox işlərə imzasını atmışdır. İşin səmərəli aparılması üçün AOC yerlərdə təbiəti və quşları sevənlərlə sıx əlaqə saxlayır və şöbələrini yaradır, quşları və onlann yaşayşn yerlərini qorumaq və öyrənmək məqsədilə iş şəbəkəsini yaradır. Azərbaycanda Mühüm Omotolojİ Ərazilərin (MOƏ) müasir vəziyyətini öyrənmək, alınmış nəticələri dünya üzrə məlumatlar bazasına saldırmaq, MOƏ-iərin səmərəli qorunması üçün lazıım tədbirlər görmək məqsədilə AOC xüsusi proqram həyata keçirir. Bu proqramın əsas məqsədi Azərbaycandakı bütün MOƏ-iər haqqında müasir məlumatlar toplamaq, yeni MOƏ-Iər təsvir etmək və yerlərdə MOƏ-lər ilə daima işləyən qruplar yaratmaqdır. Bu qrupların əsas məqsədi, nadir və endemik, həmçinin müəyyən iqlim zonalarına məxsus quş növlərinin qorunmasına yardım etmək, quşlann çoxlu sayda toplanan yerlərinin qoruyub saxlanmasında iştirak etməkdir. Bunun üçün müntəzəm müşahidələr (monitorinq) aparılmalıdır və alınan nəticələr əsasında tədbirlər görülməlidir.

Azərbaycan Ornitoloji Cəmiyyəti öz sıralarında doğma təbiətimizi və onun ən gözəl incilərindən olan quşları sevən və tədqiq edən, onların qorunmasında fəal iştirak edənləri birləşdirir.

«Birdlife İnternational» 100-dən çox təşkilatın birliyi kimi quşları və onların yaşayış sahələrini qorumaqla biomüxtəlif- liyin qorunması ilə məşğul olan bir təşkilatdır. Bu birliyin strateji məqsədlərindən biri də bütün dünyada mühüm ornitoloji əraziləri müəyyən edib mühafizə etməkdən ibarətdir.

**Azərbaycanda «Birdlife İnternational» təşkilatının tərəfdaşı Azərbaycan Ornitoloji Cəmiyyətidir. O, «Birdlife İnter- national» təşkilatı ilə birlikdə Azərbaycanın Mühüm Ornitoloji (quşlar üçün vacİb) ərazilərin tədqiqi və monitorinqi proqramını həyata keçirir.**

**Belə təşkilatlardan biri də «Şəfəq» Ekoturizm İctimai Birliyidir. Bu təşkilat əsas fəaliyyət dairəsi cənub regionumuzu əhatə edir. Fəaliyyətinin əsas istiqamətini daim cənub bölgəsində turizmin və xüsusilə ekoturizmin inkişafına həsr edən «Şəfəq» Ekoturizm İctimai Birliyi bu günə kimi bir çox layihələr həyata keçirmişdir. Belə layihələrdən biri də daim təşkilatın əməkdaşlarını düşündürən «Cənub regionunda elektron turizm informasiya sisteminin yaradılması» layihəsidir.**

**Bu layihənin məqsədləri aşağıdakılardan ibarətdir:**

**• ictimaiyyət üçün elektron informasiya üsulu əsasında cənub regionunun turizm ehtiyatlan və məhsulları haqqında informasiya əldə imkanı yaratmaq;**

**• cənub regionunda mövcud olan turizm potensialının təbliğini elektron informasiya üsulu əsasında həyata keçirməklə regiona turist axınını gücləndirmək və daxili turizmi inkişaf etdirmək.**

**Layihənin nəticələrinə isə aşağıdakılar aid edilir;**

**• ictimaiyyət üçün elektron informasiya üsulu əsasında cənub regionunun turizm ehtiyatları və məhsulları haqqında informasiya əldə etmək imkanı yaratmaq;**

**• cənub regionunda mövcud olan turizm potensialının təbliğini elektron İnformasiya üsulu əsasında həyata keçirməklə regiona turist axınım gücləndirmək və daxili turizmi inkişaf etdirmək;**

**Layihənin nəticələrinə isə aşağıdakılar aid edilir:**

**• cənub regionunda yeni informasiya texnologiyalarından İstifadə turizm sferasına da öz müsbət-davamlı təsirini göstərəcək;**

**• bir çox turizm müəssisələrinin cənub regionu ilə bu sahədə əməkdaşlığı artacaq;**

• elektron informasiya vasitəsi ilə turizm ehtiyatları və məhsullan haqqında məlumailann yayılması cənub regionuna turist axınım gücləndirəcək;

• turizm informasiya mübadiləsi əsasında yoxsulluq səviyyəsi azalacaq, kiçik və orta sahibkarlığın inkişafına mühüm şərait yaranacaq.

Bütün qeyd olunanlarla yanaşı qeyd etmək lazımdır ki, ekoturizmin inkişafında və təbiətin qorunmasında bütün dünya ölkələrində və eləcə də respublikamızda mühüm yer tutan Milli parklardır. Milli parklar-xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik olan ərazilərdir. Azərbaycanda bu səbəbdən olan bİr neçə ərazi fəaliyyət göstərir.

Akademik Həsən Əliyev adına Ordubad Milli parkı-2003- cü ilin 16 iyun tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun inzibati ərazisinin 12131 hektarında yaradılmışdır. Ərazisinin çox hissəsi dağlıqdır. Ordubad Milli parkı zəngin bioloji müxtəlifliyə malikdir. Burada Azərbaycanın «Qırmızı kitabı»na daxil edilmiş 58 (35 onurğah və 23 həşərat) heyvan və 39 bitki növü vardır. Milli parkın ərazisində nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan fauna növlərindən Asiya bəbirini, dağ qoyunu-muflonu, bezoar keçini, Avropa tüvüyünü, ağ quyruq dəniz qartalını, berkutu, bəzgəyi göstərmək olar.

Şirvan Milli parkı-Azərbaycan Respublikası Prezidentinin sərancamı ilə 2003-cü ilin 5 iyul tarixində Qaradağ, Salyan, Neftçala rayonlarının inzibati ərazisinin 54374 hektarında yaradılmışdır. Yarımsəhra landşafta malikdir. Ərazinin 4000 hektarını su hövzəsi təşkil edir. Qoruğun ornitoioji faunası çox zəngindir. Su-bataqlıq ərazilərdə nadir və qiymətli köçəri quşlar yuvalayır (turac, bəzgək, dovdaq, qu quşları və s.)

.4ğ-göl Milli parkı-2003-cü ilin 05 iyul tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Ağcabədi və

Beyləqan rayonlarının inzibati ərazilərində Ağ-göl dövlət təbiət qoruğu və Ağ-göl dövlət təbiət yasaqlığının bazasında 17924 hektar ərazidə yaradılmışdır. Ağ-göl Kür-Araz ovalığının Mil düzənliyində yerləşir, yanmsəhra landşafta malikdir, respublika ərazisində quşların ən vacib qışlama və yuvalama yeri olduğu üçün «ornitoloji sahə» də adlandırıla bilər. Buranın ornitoloji faunası çox zəngindir. 140-dan çox quş növlərinə rast gəlmək olar, onlardan 89 növü bilavasitə yuva salan quşlardır. (Sultan toyuğu, ərsindimdik, qu quşları, fıtçi və mərmər cürələr, bəzgək və s.) Ağ-gölüm əsas mühafizə obyektləri köçəri, su ətrafı və su quşlarının kütləvi yuva salma və qışlama yerləri olan suekoloji sistemləridir. Ağ-göl YUNESKO-nun «Əsasən su quşlannın yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan Sulu-bataqlıq yerləri haqqında» Konvensiyasının Siyahısına daxil edilmişdir.

Hirkan Milli parkı-2004-cü ilin fevral ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Lənkəran və Astara rayonlarının inzibati ərazisində 21435 hektar sahədə yaradılmışdır. Burada üçüncü dövrün qədim relikt və endemik bitki növləri qorunur. Azərbaycanda yayılan 435 ağac və kol növünün 150-si Hirkan meşələrindədir. Meşələrdə Azərbaycanın «Qırmızı kitabı»na düşmüş Hirkan şümşadı, dəmirağacı, şabalıdyarpaq palıd. Hirkan ənciri, Hirkan armudu. Xəzər lələyi, İpək akasiya, Qafqaz xurması. Hirkan bigəvəri, qızıiağac və s., heyvan növlərindən bəbir. Talış qırqovulu. Hirkan arıquşu, qara leylək, berkut və sair vardır. Hirkan meşələrinin YUNESKO-nun Təbii və Mədəni İrs Siyahısına daxil edilməsi üçün elmi cəhətdən əsaslandırılmış sənədlər tərtib olunaraq, YUNESKO-nun Katibliyinə təqdim edilmişdir.

Altıağac Milli parkı-2004-cü ilin 31 avqust tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Xızı və Siyəzən rayonlarının inzibati ərazisinin 11035 hektarında yaradılmışdır. Milli parkın ərazisinin 90,5 %-ni enliyarpaq meşələr təşkil edir. Əsas ağac növləri Palıd, Qafqaz vələsi. Şərq fıstığı, adi göyüş, ağcaqayın və s. təşkil edir. Ərazidə cüyür.

ayı, qaban, vaşaq, yenot, tülkü, dovşan, dələ, canavar və s. heyvanlar məskunlaşmışdır.

Abşeron **Milli** parkı-Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 08 fevral tarixli 622 nömrəli sərəncamı ilə Abşeron Dövlət Təbiət Yasaqlığının bazasında Bakı şəhərinin Əzizbəyov rayonunun inzibati ərazisinin 783 hektarlıq sahəsində Abşeron Milli parkı yaradılmışdır. Abşeron Dövlət Təbiət Yasaqlığı 1969-cu ilin iyul ayında ərazidə məskunlaşmış ceyranın, xəzər suitisinin və su quşların qorunub saxlanılması məqsədilə yaradılmışdır. Ərazidə yarımsəhra və quru bozqırların mülayim-isti iqlim tipi hakimdir. Burada bitki örtüyünün növ tərkibi və fitokütləsi xeyli azdır, bitkilər ərazinin su və duzluluq rejiminə uyğun olaraq dəyişir. Dəniz sahili qum bitkiləri (42,6%), cığlıqamışlı və paz otlu çəmənliklər (13,2%), birillik şoran otları (5,2%) və s. yayılmışdır. Efemerlər də erkən yazda nisbətən yaxşı inkişaf edir. Buranın quru ərazisində heyvanlardan ceyran, çaqqal, tülkü, borşuq, dovşan, Xəzərin sularında suiti və müxtəlif balıqlar, quşlardan gümüşü qağayı, fısıldayan qu quşu, boz və qırmızıbaş qara, ağgöz qara ördəklər, böyük ağ vağ, qumluq cüllütü, qaşqaldaq, bataqlıq belibağhsı, dəniz dozçası və s. köçəri quşlar məskən salmışlar. Abşeron Milli parkının yaradılması həmin ərazidə nadir təbiət komplekslərinin və obyektlərinin, xüsusən pəra- yaqlı heyvanların yeganə nümayəndəsi olan Xəzər suitisinin daha çox yayıldığı arealda, ceyranların, həmçinin su bataqlıq quşlarının qorunub saxlanılmasına və bərpasına imkan yaradacaqdır. Abşeron Milli parkının yaradılması eyni zamanda təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, ətraf mühitə diqqət və qayğının artırılması, yeni ekoloji şüurun formalaşması sahəsində aparılan məqsədyönlü tədbirlərin ardıcıl nümunəsidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi, ekoloji şəbəkənin yaradılması istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində hazırda ölkəmizdə 6 Milli park, 14 dövlət təbiət qoruğu və 19 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir.

Zəngin təbii potensiala malik ölkələr sırasında olan Azərbaycanda da turizmin bu sahəsim inkişaf etdirmək üçün hər cür imkan var. Bizim ekoturizmdən istifadə etmək imkanlarımız olsa da, potensialdan lazımınca istifadə olunmur. Bu baxımdan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoturizmin inkişafı çərçivəsində milli parklara turist səfərləri təşkil etmək təşəbbüsü təqdirəlayiqdir. Bu gün ölkədə 6 Milli park, 14 dövlət təbiət qoruğu və 20 xüsusi mühafizə olunan zona mövcuddur. Təbiət turizmi turistlərin nəinki dincəlməsinə, eyni zamanda Azərbaycanımızı daha yaxından tammağa imkan verəcək onun dünyada qüdrətli dövlət olduğunu sübut edəcəkdir.

11.3. İqtisadi islahatların həyata keçirilməsində iqtisadi və sosial mexanizmlərin formalaşma, dinamikası və proqnozlaşdırılması, xüsusi tədqiqat obyekti kimi təhlil, islahatlann əsaslandırılması və onun reallaşması zamanı meydana çıxan sosial nəticələrin qiymətləndirilməsi aktuallıq baxımından mühüm əhəmiyyət kəsb edir. Müstəqillik əldə etmiş Azərbaycan Respublikasının qarşısında duran strateji məqsəd ölkənin bazar iqtisadiyyatına keçməsilə bağlı qarşıya çıxan bir sıra sosial-iqtisadi problemlərin həllində onun mütərəqqi formalanndan səmərəli istifadə yollarını müəyyən etməkdir. Turizm haqqında Azərbaycan Respublikası qanunu Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimİ turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasım müəyyənləşdirir.

Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlanmn təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən İstifadənin gücləndirilməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmununu müəyyənləşdirən milli iqtisa-

diyyatm müstəqil sahəsidir. Turizmdə əmək məhsufdarhğınm artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stıımıllaşdmlmasınm forma və üsullanmn təkmilləşdirilməsi, turizm və sosial-mədəni servis xidmətlərinin təşkilinin yenidən qurulması zəruridir. Əvvəlki bölmələrdə qeyd etdiyimiz kimi ölkəmizin dünyada turizm ölkəsi kimi tanınması üçün geniş imkanlar mövcuddur. Müstəqil Azərbaycanın neft strategiyasının əsasını qoyan «Əsrin müqaviləsİnin» imzalanmasının 8 ili tamam olmasına iki gün qalmış-2002-ci il sentyabnn 18-də Bakı şəhərində Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinin təməli qoyuldu və bu layihə raüvəf-fəqiyyətlə başa çatdırıldı. Bu layihənin davamı olaraq «Avro-pa-Qafqaz-Asiya» (TRASEKA) nəqliyyat dəhlizi proqramı çərçivəsində 1998-ci il sentyabr ayının 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın rəsmi nümayəndələrinin iştirakı ilə Bakı şəhərində tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfrans keçirildi və burada Avrasiya nəqliyyat dəhlizi üzərində yerləşən ölkələrin inkişafı, onlann təbii ehtiyatlarının mənimsənilməsi, iqtisadi potensialdan daha da səmərəli istifadə olunması, ticarətin, turizmin və iqtisadi əməkdaşlığın genişlənməsi üçün etibarlı zəmin yaradan saziş imzalandı. 2007-ci il fevral tarixində Azərbaycan dünya nəqliyyat- kommunikasiya sisteminə mühüm töhvə kimi qiymətləndiriləcək uğura imza atdı; möhtərəm prezidentimiz İlham Əliyev cənablarının səyi nəticəsində Tiflis şəhərində Azərbaycan, Gürcüstan və Türkiyə hökümət rəhbərləri arasında Bakı- Tbiüsi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi ilə bağlı əldə olunmuş razılaşma bütövlükdə Cənubi Qafqaz və Orta Asiya regionlarının uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Son illər Azərbaycanda turizm sahəsində beynəlxalq əlaqələrin təşkili və inkişaf etdirilməsi, turizm imkanlarının təbliği, milli turizmin inkişafı və turizm infrastrukturlannın yeniləşməsi sahəsində konkret istiqamətlər müəyyənləşdirilib. Azərbaycanın qədim tarixə malik olması. Xəzər dənizi sahilində yerləşməsi, tarixi abidələrlə zənginliyi, dünyanın 11 iqlim

qurşağından 9-nun burada mövcudluğu və insanların qonaqpərvərliyi turizmin inkişaf etdirilməsinə geniş İmkanlar yaradır. Ölkəmizdə 12 təbii və tarixi qoruq, 17 müvəqqəti qoruq və ovçuluq təsərrüfatı mövcuddur. Müxtəlif regionlarda 6 mindən artıq memarlıq və mədəniyyət abidələri qorunub saxlanılır. YUNESKO tərəfindən qeydiyyata alınan «İçəri şəhər», «Qız qalası», «Şəki Xan sarayı», «Möminə Xatun Türbəsi» və digər mədəniyyət abidələri artıq bütün dünyada məhşurdurlar. Dövlət proqramı bütün sərvətlərdən səmərəli istifadə etməklə, turizmi inkişaf etdirməyi qarşıya məqsəd qoymuşdur. Eyni zamanda Azərbaycanda turizmi inkişaf etdirmək məqsədilə aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

- turizm sahəsində sahibkarlığı, ilk növbədə kiçik və orta sahibkarlığı inkişaf etdirməklə rəqabətə davamlı turizm bazarını yaratmaq;
- turistlərə xidmətin keyfiyyətinin yüksəldilməsini, onun beynəlxalq standartlara uyğunlğunu təmin etmək;
- turizm fəaliyyətinin dövlət tənzimlənməsini həyata keçirmək;
- turizmdən dövlət və yerli büdcələrə daxil olan vəsaitin həcmini artırmaq;
- turizmin infrastrukturunu, onun maddi-texniki bazasını möhkəmlətmək;
- turizm müəssisələrinin beynəlxalq turizm proqramlarında iştirakı üçün əlverişli şəraiti yaratmaq, xarici investorları turizm sferasına cəlb etmək.

Bu vəzifələrin hər birinin yerinə yetirilməsi gərgin və məsuliyyətli əmək tələb edir. Azərbaycanda turizm sahəsi üzrə dövlət siyasətini həyata keçirən Mədəniyyət və Turizm Nazirliyi turİzm sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə turizmin millİ xüsusiyyətlərə uyğun inkişafına xüsusi diqqət yetirir. Azərbaycan Respublikası höküməti ilə 16 ölkə- Türkiyə, Pakistan, Özbəkistan, Qırğızıstan, Çin, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Rumıniya, Bolqarıstan, Belarus, Yunanıstan, Moldova, Qazaxıstan və Qətər hökümətləri arasında

turizm sahəsində əməkdaşlıq sazişləri imzalanıb. Azərbaycan bir sıra beynəlxalq və regiona! təşkilatlarda, o cümlədən Ümumdünya Turizm Təşkilatı, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, MDB üzv dövlətlərinin Turizm Şurası və digər regional təşkilatlar ilə turizm sahəsində əməkdaşlıq edir. 2006-cı il İslam Konfransı Təşkilatının turizm naƨdrlərinin V-ci Konfransının Azərbaycanda keçirilməsi və Turizm üzrə Bakı Deklorasiyasının qəbul olunması Azərbaycanda turizm sektorunun inkişafı, infrastrukturun dünya standartları səviyyəsində qurulması üçün böyük əhəmiyyət kəsb edir.

Son illər beynəlxalq turizmin inkişafı, respublikamızda turizm şirkətlərinin, teltəsərrüfatlarımn və mehmanxanaların sayının artması, ölkəmizdə turizm sektorunun dünya standartlarına uyğun səviyyədə inkişaf etdirilməsi Azərbaycanın dünya turizm bazarına inteqrasiyası istiqamətində aparılan ardıcıl işlərdəndir.

Azərbaycan iqtisadiyyatının sosial-iqtisadi inkişafının sahə və ərazi problemləri onun dayanıqlı və tarazlı dinamikası respublikanın təbii insan və coğrafi resurslarının səmərəli istifadəsi və bazar münasibətləri şəraitində imkanların alternativ layihələr əsasında iqtisadi dövriyyəyə cəlb edilməsi ilə mümkündür. Respublikanın inkişaf konsepsiyası onun resurslarının kompleks istifadə edilməsi yolu ilə maksimum həyat səviyyəsi və təhlükəsiz həyat fəaliyyətinin qərarlaşdırmaqdan ibarət olur. Sosial iqtisadi amil olaraq turizmin mövcud vəziyyəti onun qlobal məqsədlərin reallaşmasında rolunun qiymətləndirməklə perspektiv sahənin inkişafının tənzimlənməsi bütövlükdə iqtisadi inkişaf strategiyasının və strateji planlaşmanın tərkib hissəsi kimi çıxış edir. Turizmin dövriyyəsinə daxil olan resurs potensialı, onların mövcud istifadə formaları və səmərəliliyi bu sahənin ilkin fəaliyyəti və sonrakı perspektivi üçün bir sıra təşkilati maliyyə və proqram tədbirlərinin əsaslandırılmasını, onların elmi-metodiki proqnoz əsaslarını yaradır. Ona görə də konseptual yanaşma baxımından turiz

min inkişafı həm iqtisadi artım, həm investisiya prioritetləri, həmçinin ərazi və region inkişaf problemlərinin həlli üçün nüvə rolunu oynayır. İqtisadi rol kompleks göstəricilər sisteminin səmərə və xüsusi səmərə yolu ilə nəzəri cəhətdən qiymətləndirilir. Amil olaraq hər Ür konseptual vəzifənin reallaşmasında fəal roluna görə turizmin sintetik səmərəsi vahid göstərici ilə müəyyənləşə bilər.

Hər bir regionun iqtisadi durumu regional xüsusiyyətləri, onun məhsuldar qüvvələrinin ərazi və sahə quruluşu, yerləşməsi, istifadə dərəcəsi son nəticədə bütün sosial sferanın və onun əsas göstəricisi olan rekreasiya tələbatını, turizm xidmətini müəyyənləşdirir. Azərbaycanda mövcud coğrafi- iqtisadi potensial, transformasiya sürəti və bütövlükdə iqtisadi və təbii əhali artımı turizmin inkişafı üçün bazar xüsusiyyətlərinə uyğun amilləri və nəticələri formalaşdırır. Respublikada əhalinin kənd yerlərində inkişafa zəruriyyəti turizm yolu ilə mümünlüyü onun əsas obyektivliyini təmin edir. Regionların kompleks inkişafına turizmin təsiri qarşılıqlı əlaqədə həll edilir. Turizmin sahələrinin seçilməsi hər bir bölgə üçün potensiala uyğunlaşdırılır. Hansı turizm növünün səmərəliliyi çox meyarlı fəaliyyət və proqnozlara görə müəyyənləşir. Belə proqnozların ən mühümü sosial meyarlardır.

Turizm Azərbaycan əhalisi üçün son illərdə məskunlaşma və təbii, coğrafi şəraitin intensiv istifadəsi şəraitində daha aktual sahəyə çevrilmişdir. Məskunlaşmanın region prioritetliyi mövcud olan dövrlərdə kənd turizminin yerli təbii iqlim şəraitindən istifadə etmək daha geniş yer tutmuşdur. Əhalinin rifahımn dəyişməsi onların bir sıra ənənəvi tələbatının ödənilməsi, yeni daha çox dünya dəyərlərinə uyğun tələbat növünün artmasına səbəb olur. Bu isə respublikada tarixi dövrlərdə müəyyən xüsusiyyətlərdə özünü formalaşdmr. Belə ki, 1970-1980-ci illərdə mərkəzləşdirilmiş qaydada turizm subyektləri genişlənir, ümumi ittifaq göndərişlərlə vahid sistem halında hər bir ölkədə mövcud və lahiyələndirilən turizm bazaları ümumi ittifaq ehtiyacları üçün istifadə olunmaqla, onların maliyyələşdirilməsi və maddi-texniki bazasının yara

dılması təmin olunurdu. Bazar iqtisadiyyatı şəraitində turizmin inkişafının yeni tip modelləri və əsas əlamətləri yaranır və bu əlamətlər müxtəlif ölkələrdə eyni həll olunmur. Onun region xüsusiyyətləri birbaşa sahibkarlıq, biznes, maliyyələşdirmə xüsusiyyətləri ilə əlaqəli dəyişir.

Azərbaycanda turizmin inkişafı onun formalaşması ətaləti daha çox psixoloji seqmentlərdən asılıdır. Turizmin inkişafı xarici turistlərin istifadəsi üçün lahiyələndirilməsi və proqnozlaşdırılması daha əməli və tez başa gələn transformasiya modeli olsa da, əhalinin turist xidməti üçün hazırlanması və onun şəraitinin yaxşılaşdırılması ətalətli və əhali arasında təbliğat işinin yeniləşməsi ilə baş verə bilər. Əhalinin turizm tələbatı respublikada daim yaşayanların və respublikaya gələnlərin ehtiyaclarını nəzərə almaqla reallaşdırılır. Turizmin Azərbaycan əhalisi üçün genişlənməsi, əhalinin məşğulluğu, onların maddi rifahı və sosial-demoqraflk tərkibi ilə respublikada işləyən xarici vətəndaşların ümumi sayı onların həyat tərzinə uyğun turist elementlərinin seçilməsi ilə mümkündür. Turizmin respublikada spesifik .xüsusiyyəti ölkədə olan təbii vəsaitlərin iqtisadi dövriyyəyə cəlb edilməsi dərəcəsi və onların marketinq quruluşunun dəyişilməsi ilə həmçinin, respublikada ənənəvi olan turist sənayesinin, milli nemətlərə olan arxitektura, əyləncə və mədəniyyət obyektlərinin milli xərcləri və Avropa şərq sistemində formalaşmış xidmət ictimai iaşə müəssisələrinin mövcud vəziyyəti və perspektivi ilə bağlı olaraq dərinləşir. Ona görə də miras qalmış ənənəvi teatr, mədəniyyət, incəsənət əsərlərinin yeni səpgidə qurulması, mənzil və məişət şəraitinin yüksək standartlara uyğunluğu və turist zövqünə uyğun dəyişdirilməsi psixoloji amil olaraq, onun inkişafına şərait yaradır.

Turizmin dinamikası, onun əsas istiqamətləri, respublika iqtisadiyyatında onun ictimai-siyasi, mədəni quruculuqda baş verən keyfiyyət dəyişmələri və dünya standartlarına uyğun təşkilati-iqtisadi tədbirlərin hazırlanması, həyata keçirilməsi ilə ölçülür.

Azərbaycan Respublikasının mü.stəqülik və dünya iqtisadiyyatına inteqrasiyası, neft strategiyası və beynəlxalq layihə-

brin respublikada aparıcı həlqəyə çevrilməsi turizmin zəruriliyi, onun subyektlərin və istehlakçıİann panaramasını dəyişdi. Turizmin bazar iqtisadiyyatı şəraitində yeni mülkiyyətçiləri, kapital və resurs təminatçıları, hüquqi və fiziki şəxs kimi turizm bazarında öz turizm məhsulu və onun istifadəsi kimi elementləri meydana çıxır. Ona görə də turizm sahəsində qərar qəbulu, planlaşma və tənzimləmə idarəetmə siyasəti sərbəst və bir sıra sosial, məqsədli və həmçinin qlobal və lokal meyarların əsasında inkişafı imkanları yaranır. Turizm artıq potensial şəraitdən iqtisadi və sosial dövriyyəyə cəlb olunan aktiv dövlət siyasətinin tərkib hissəsi kimi formalaşır və inkişaf edir.

Turizm fəaliyyətinin ərazi təşkili ərazinin təbii-rekreasiya sərvətlərinin mövcudluğu şəraitində mümkün olur. Bu sərvətlərin dəyəri və ehtiyatlarından asılı olaraq, müxtəlif səviyyəli kurortların təşkilindən danışmaq olar. Bunların hər birinə hazırlıq səviyyəsi, sənədlərin təsdiqi və qərarların qəbulu xasdır. Burada təbii müalicəvi sərvətlərin axtarılması və ekspert qiymətləndirilməsi, iqlimin müalicəvi xüsusiyyətləri haqqında məlumatın olması ilk addım ola bilər. Qeyd edək ki, ərazinin turist rekreasion sənədlərinin hazırlanması işinin təşkilinin sifarişçisi qeyri-dövlət və kommersiya strukturları ola bilər. Lakin müvafiq dövlət orqanlarının icazəsi ilə ilk növbədə aşağıdakı sənədlər hazırlanmalı və müzakirə edilməlidir;

- ərazinin təbii-rekreasiya amillərinin keyfiyyəti haqqında elmi nəticələr;
- təbi i-rekreasiya sərvətlərin ehtiyyatı haqqında ekspert nəticə;
- müalicə-sağlamlıq zonası, ərazinin və onun hüdudları daxilindəki təbii sağlamlıq sərvətlərinin vəziyyəti haqqında dövlət ekologiya və sanitar-epidemioloji ekspertizanın nəticələri;
- profil dəyişmə, yerdəyişmə və bağlanması lazım olan təbü-rekreasiya ərazisi hüdudlarında yerləşən sənaye, kənd təsərrüfatı və başqa müəssisələrin siyahısı;
- ərazinin topoqrafik planı, onların istehsalçıları haqqında məlumatlar.

Sənədlərə müəyyən müddət ərzində mədəniyyət və Turizm Nazirliyinin rayonlararası ekspert şöbəsi tərəfindən baxılır.

Hökümət qərarının qəbulundan sonra texniki-təşkilati tədbirlər həyata keçirilir;

- ərazinin abadlaşdırılması;
- təbii-rekreasiya sərvətlərin yenidən öyrənilməsi;
- sərhədlərin qorulması və istehlak rejimi layihəsinin işlənməsi;
- ərazidə sərvətlərin müəyyən olunması vəziyyəti üzərində müşahidənin təşkili;
- ərazini əlverişli ekoloji və sanitar-epidemioloji vəziyyətdə saxlamaq, təbiəti qorumaq işlərin həyata keçirilməsi.

Turizmin ərazi təşkili zamanı bu əraziyə aşağıdakılar aid olmalıdır:

- bir və ya bir neçə unikal təbii-müalicəvi sərvətlərə malik olmalıdır;
- bu sərvətlərin lazımi ehtiyatına malik olmalıdır;
- kurort tikintisi üçün geniş və münasib sahəyə malik olmalıdır;
- ekoloji və sanitar-epidemioloji normalara uyğun gəlməlidir;
- digər texniki təchizat mənbələrinə malik olmalıdır.

Daha sonra təbİi-rekreasiya zonasınm fəaliyyətdə olan zonaya çevrilməsi prosesi gedir. Məhz bu mərhələdə investorların maraqları reallaşır. Bura aşağıdakı mərhələlər daxildir;

**1.** ərazinin planlaşdırılması və sanatoriya-kurort sahəsinin inkişafı nəzərə alınmaqla, turist-rekreasiya və kurort kompleksinin baş planı hazırlanır;

**2.** cəlb olunan investisiyalar, büdcə, qeyri-büdcə vəsaitləri hesabına istirahət müəssisəsi və obyektlərinin iş layihəsi və tikintisi başlanır;

**3.** ərazinin əhəmiyyətli turist-kurort zonası kimi tanınması haqqında sənədlər hazırlanır;

**4.** fəaliyyətdə olan turist-kurort obyektlərinin siyahısı;

**5.** təbii-müalicə sərvətlərinin vəziyyəti haqqında balneoloji və onların ehtiyatlan haqqında ekspert nəticələri;

**6. təbii müalicəvi və başqa təbii sərvətlərin, ərazinin vəziyyəti haqqında dövlət ekoloji və sanitar-epidemioloji tədqiqatların nəticələri.**

**Azərbaycanın geosiyasi və coğrafi mövqeyinə görə əlverişli şəraitdə olması, onun ərazisində xarici vətəndaşların sayının artması onun beynəlxalq əlaqələrində ticarət, mədəni və istirahət məqsədlərinin artması, beynəlxalq turizm layihələrini və onların dünya ölkələri arasında istiqamətlərini müəyyən edir. Azərbaycan sərhədyam ölkələrlə müəyyən etnik, mədəni və təsərrüfat əlaqələri ilə sıx bağlıdır. Azərbaycan ərazisi tranzit ölkəsi kimi yük daşıma və əhali üçün əhəmiyyətli coğrafi zonada yerləşir. Onun iqlim şəraiti, kənd təsərrüfatı məhsuliannm və təbii sərvətlərin istehsal strukturu dünya inteqrasiya sistemi üçün bir sıra maraqlar baxımından əlverişlidir. Ona görə də turizmin əsas tərəfi olan beynəlxalq turizm iqtisadi səmərə və inteqrasiya baxımından səmərəli ölkədir. Bu mühit beynəlxalq turizmin tələblərinə uyğun islahatlar proqramı və konkret turist obyektlərinin profilini, onun yerləşmə strategiyasını hazırlayır.**

**Beynəlxalq turizmin bütövlükdə sosial-iqtisadi inkişafın daxili imkanlardan istifadə etmək, beynəlxalq əlaqələrinin əsas forması olmaqla iqtisadi artımın tərkib hissəsi olmaqla, islahatlar proqramının tərkib hissəsidir. Beynəlxalq turizm sisteminə daxil olmaq hər bir ölkənin daxili imkanları, spesifik xüsusiyyətləri və çevik sosial-iqtisadi siyasəti ilə mümkündür. Beynəlxalq turizm layihələrinə qoşulmaq inteqrasiya sisteminə daxil olmaq üçün, yeni islahatlar proqramının tərtibi və təşkili üçün əsas rol oynayır.**

**Azərbaycanda iqtisadiyyatın potensial imkanlan və Ölkənin perspektiv üfüqləri beynəlxalq turizmə qoşulmaq istiqamətlərini müəyyənləşdirir. Ölkədə xarici şirkətlərin artması, onlann bir çox sahələrdə fəal təsərürfat fəaliyyəti, Azərbaycan Respublikasının sahibkarları və biznes fəaliyyəti ilə məşğul olanların xarici-i qtisadi əlaqələrinin miqyası və keyfiyyəti, kəmiyyət və çeşidinin dünya bazarında yerinin müəyyən edilməsi dünya turizminə inteqrasiyanın əsas**

istiqamətidir. Turizmin beynəlxalq miqyası ictimai əmək bölgüsü ilə ölçülür. Belə ki, Azərbaycan turizm fəaliyyətinin dünya turizm inkişafında rolu, onun xüsusi çəkisi və turizm sahəsində məşğul olanların sayı bütövlükdə turizmin ictimai əmək bölgüsündə rolunu müəyyənləşdirir.

Beynəlxalq turizmin respublikada inkişafı birbaşa bu sahədə ixtisaslaşan turist təşkilatçıların fəaliyyəti və beynəlxalq turizm bazası olan obyektlərin mövcudluğu və istifadəsi yolu ilə mümkün olur. Beynəlxalq turizm üçün respublika xarici vətəndaşlann yerli turist komplekslərindən istifadə etmək imkanlarını genişləndirmək nəzərdə tutulmalıdır. Belə ki, beynəlxalq standartlara uyğun turizm məhsulunu istehsal etmək qabiliyyəti, minimum məsrəflərlə rəqabət mühitinə daxil olub əlavə gəlir gətirmək fəallığı və bir sıra üstünlüklər əsas rol oynayır.

Beynəlxalq turizmə yönəldilən siyasət yoxsul ölkələr üçün bir sıra problemlər yarada bilir. Qloballaşan dünya siyasəti prossesində yoxsul ölkələrin dünya turizminə qoşulması əlavə kapital, köklü islahatlar və mövcud şəraitin dünya tələbinə uyğun transformasiyası tələb olunur. Bu istiqamətdə bazarın ayrı-ayrı sahələrini yaratmaq cəhdləri və konkret tədbirləri əsas rol oynayır.

Beynəlxalq turizmə qoşulmaq üçün ilkin addım beynəlxalq turizm fəaliyyətinə, onların beynəlxalq qurumlarına üzv olmaqla yanaşı, beynəlxalq tələbatı təhlil edib, onun dünya təcrübəsini, adekvat ölkələrdə keçilən mərhələ və tədbirləri qiymətləndirməklə iqtisadi addımlar atmaq tələb olunur.

Dünya turizm fəaliyyəti təkamül inkişafı ilə xarakterizə olunur. Onun dinamikası sosial-demoqrafik, iqtisadi və siyasi amillərdən asılıdır. Dünya turizm dinamikası qloballaşan siyasətdə və dünya ölkələrində baş verən siyasi müharibə, bir sıra ekoloji təsirlər turizmin inkişafına mənfi təsir edir və onun artım tempini azaldır. Ona görə də dünya miqyasında durmadan artma tempi yox, artım azalma tempinə malik qanunauyğunluq mövcuddur. Dünyada turizmin İnkişafına tələbat artımı, bütövlükdə dünyada sosial tərəqqi, iqtisadi

**artım və demoqrafik artım tempinin azalması və iqtisadi maraqlar təsir edir. Tədqiqatlara görə beynəlxalq turizmin artım tempi 2005-ci ildə 4,4% olub, 2010-cu ildə isə 6,3%-ə yüksəlməyə proqnozlaşdınlır.**

**Beynəlxalq turizmin motivi və əsas istiqamətləri hər bir ölkənin təbii, coğrafi və həmçinin isteblak üçün əlverişli mühitlə müəyyənləşir. Bir çox regionlarda dünya səviyyəsində rəqabət aparmaqla dünya turizm bazarına çıxmaq tədbirləri görülür. Azərbaycan Respublikasının Avropa ölkələri ilə əlaqəsi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin başa çatması, neft hasilatının gəlirlərinin digər sahələrə istifadəsi və ayn-ayn regionlarda nəqliyyat əlaqələrinin, avtomobil yollarının restruktizasiyası, Avropa-Asiya dəhlizi üçün TRASEKA çroqramı beynəlxalq turizmin inkişafına şərait yaradır. Ölkələrin Azərbaycan əhalisi üçün turizm ölkələrinə çevrilməsi, həmin Ölkələrin turizm məhsulunun Azərbaycan əhalisi arasında istehlak məhsuluna çevrilməsi şəraitindən xeyli asılıdır. Belə ki, respublikada baş verən keyfiyyət dəyişiklikləri xarici turizmi zəruriləşdirir. Turizm bazarında tələbatı qiymətləndirsək Avropa əhalisi daha çox beynəlxalq turizm xidmətinə meyllidirlər. Avropadan Azərbaycana gələnlərin sayının artması, respublikanın Avropa ölkələri ilə ticarət və iqtisadi əlaqələrinin dərinləşməsi, ticarət dövriyyəsində dövlətlər arasında idxal və ixracın ümumi həcminin artması və onların strukturunda daha çox istehsal və xidmət xarakterli təsərrüfat əlaqələrinin artması əsas aparıcı rol oynayır. Bu məqsədlə hava nəqliyyatı, su nəqliyyatı və həmçinin TRASEKA proqramı çərçivəsində tranzit əlaqələri məqsədilə yaradılan xidmət sferası, istehsal və xidmət infrastrukturu əsas rol oynayır. Azərbaycan hava nəqliyyatı üçün əlverişli coğrafi və maddi-texniki bazası olan ölkədir. Beynəlxalq hava limanlarının olması respublikada yükdaşıma və sərnişindaşıma üçün tranzit ölkəsi kimi xidmət obyektlərinin yaradılması beynəlxalq turizmin ilkin şərtidir. Bakıda, Naxçıvan və Gəncədə beynəlxalq hava limanlarının Avropa və Şərq arasında əlverişli yükdaşıma və əhalidaşıma üçün sərfəli coğrafi mühitin**

Azərbaycanda dəniz nəqliyyatının istehsal gücləri, onun maddi-texniki bazası və həmçinin nəqliyyat terminalları, azad zonaları uzunmüddətli tarixi xüsusiyyətlərə malikdir. Həmçinin Azərbaycanın təbii sərvətləri, onların ehtiyatları və karbohidroden zənginliyi bu resursları olmayan ölkələr üçün faydalı əməkdaşlıq olmaq zərurəti yaradır. Beynəlxalq tədqiqatlar və elmi əsaslarla aparılmış təhlil göstərir ki, Azəbaycan Respublikasında həmin resursların əldə edilməsi və Azərbaycan məkanından tranzit məqsədləri üçün istifadə edilməsi, digər ölkələrdən iqtisadi və təhlükəsizlik baxımından xeyli sərfəlidir. Ona görə də bir çox ölkələrdən məhz Azərbaycan nəqliyyat bazanna yükdaşıma və əhali daşınmada istifadə üçün maraqlar daha genişdir. Bu maraqlar son nəticədə turizmin inkişafını da müəyyənləşdirir.

İdxal və ixracın intensiv artımı, həmin ölkələrin əmtəə və xidmətinə yerli əhalinin tələbatının və konkret tələbinin nəticəsi olaraq inkişaf edir. Belə ki, respublikadan sağlamlıq və istirahət məqsədilə Rusiyaya, o cümlədən. Şimali Qafqaza Azərbaycan əhalisinin kütləvi axını baş verir. Məhz mineral sular, müalicə müəssisələrinə ildə 100 minə yaxın əhalinin getməsi respublikadan pul vəsaitinin axmasına səbəb olur, iqtisadi təhlil göstərir ki, iqtisadiyyatın inkişafı ilə yanaşı Şimali Qafqaz regionuna müalicə məqsədilə gedənlərin sayı artır. Onların tərkibinə iş adamlarının, biznes fəaliyyəti ilə məşğul olanların xüsusi çəkisi daha sürətlə artır. Turizmin inkişafı respublikada hər bir infrastruktur mühiti ilə uyğunlaşır. Tabelik xüsusiyyətindən asılı olmayaraq respublikada nəqliyyat potensialı, əhali və yükdaşımalarm yüksək təminatı və rahatlığı, ölkə iqtisadiyyatının inkişafı, onun kompeks xidmət obyekti kimi bütün fiziki və mədəni ehtiyaclarının ödənilməsi şəraitinin olması turizm üçün potensial sayıla bilər. Ona görə də vahid məqsəd ətrafında turizm dövriyyəsinə cəlb olunan bütün obyektlərin kompleks vəhdəti onun sahə və funksional vəzifəsini turizmin keyfiyyətinə, həmçinin idarə olunmasında vəzifələr müəyyənləşdirir.

Sxem 6

**Respublikada funksional vəzifələr sistemində turizmin yeri**




**Respublikada yuxanda göstərilən funksional vəzifələr reallaşdıran, sahibkarlıq fəaliyətinin və mexanizmlərin respublikada və regionlarda özünəməxsus xüsusiyyətləri formalaşır. Belə ki, hüquqi və fiziki şəxslər kimi sahibkarlıq fəaliyyəti, qeyri-dövlət maliyyə imkanlarını genişləndirmək üçün turizm**

məqsədilə maliyyə resurslarını təmin etmək üçün kredit ittifaqları yaradır. Xarici şirkətlər birbaşa əlaqəyə girib, müştərək, yaxud uzunmüddətli kredit qoyuluşu ilə təsərrüfat formaları yaradırlar. Yerli əhali üçün turizmin inkişafında fərdi kapitalın daha çox əhaliyə xidmət edən obyektlərin lahiyələş- dirilməsinə və istifadəsi üçün şəraitin yaradılmasına yönəldilir. Sxemdə göstərilən hər bir fəaliyyət növü dairəsi və mexanizmləri menecment sahəsi kimi və qərar qəbullarının səmərəli təşkili formasında baş verir. Turizmin informasiya bazarı onun fəaliyyəti haqqında məlumatların və reklamın səmərəli təşkili ilə baş verir.

Beynəlxalq turizmin inkişafının əsas istiqamətləri Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığa inteqrasiya istiqamətləri ilə müəyyənləşir. Belə ki, respublikada istehsal və xidmət sferasının transformasiya modeli uyğun olaraq inteqrasiya şəraitinə və o cümlədən perspektiv sahə olan turizmin inkişafını yaradır. Respublikanın ərazisində resursların mülkiyyət formasından asılı olmayaraq xarici turizm üçün istifadəsi uyğun maliyyə resursları hesabına respublikaya gələn turistlərin marağını artıran biznes planı və infrastruktur yaratmaqla mümkün olmalıdır. Beynəlxalq turistlər üçün ucuz və istehlak üçün əlverişli dizayn şəraitin yaradılması daxili imkanların potensial imkanları kifayət də olsa zəruri şərt deyil. Zəruri şərt üçün respublikada iqtisadiyyatın artımı, əhali gəlirlərinin yüksəlməsi və həmçinin sahibkarların pul gəlirləri dünya bazarında əhəmiyyətli olan xarici turist bazarına girmək və həmin bazarda təşəbbüsü ələ almaqla mümkündür.

Beynəlxalq turizmin əsas istiqamətləri respublikada sanotoriya, kurort və həmçinin Xəzər rayonunun potensialından istifadə etmək, dağ rayonlarında istirahət müəssisələri tikməklə daha geniş inkişaf etməlidir. O cümlədən Şəki, Zaqatala, Quba, Xaçmaz, Naxçıvan rayonlarında xarici turistlər üçün müəssisələr tikməlidir.

Regionların sosial-iqtisadi inkişafının sürətlənməsi və regionların dünya Ölkələri ilə iqtisadi əməkdaşlığı və regiona gətirilən valyutanın artması üçün həmin regionların birbaşa və

vasitəçilik yolu ilə dünya ölkələri ilə turizm sahəsində əməkdaşlıq etməsidir. Regionlarda özəlləşmənin xarakteri və sahibkarlığın formaları və onlarm təsərrüfat fəaliyyətinin əsas istiqamətləri turizm üçün spesifik xüsusiyyətlər yaradır. Belə spesifik biznes fəaliyyətinin məhsulunun çeşidi, keyfiyyəti, daxili və xarici bazarda həmin məhsullara olan tələbatla müəyyənləşir. Regionlarda sosial-iqtisadi inkişafın əsas istiqamətləri olan iş yerlərinin açılması üçün turizm potensialından səmərəli istifadə etmək on optimal variant kimi qəbul olunur. Xarici turizmin inkişafında əhalinin yoxsulluq həddi, yaşayış səviyyəsi mühüm amil olur. Xarici nəqliyyat vasitələrinin ucuz başa gəlməsi, pensiyaçıların və biznes fəaliyyəti ilə məşğul olan işçilərin xarici turizm subyektinə çevrilməsi üçün pensiyaların həcmi, onun ərzaq, qeyri-ərzaq, sağlamlıq tələbatını ödəməklə turist kimi səhayəti üçün də kifayət etməlidir. Avropa ölkələrinin əsas turist konengcntləri pensiyaçılar və işgüzar adamlardır. Xırda və orta sahibkarlığın idxal və ixrac olunan məhsullarda xüsusi çəkisi respublikada sahibkarlıq içərisində xarici şirkətlərin payının yüksəldilməsi xarici turistlərin axınını intensiv olaraq artırır. Qeyd edək ki, xarici turistlərin kommersiya mənfəəti, onların respublikaya gəlməsinin motivi olduğu halda, daxili bizneslə onların maraqlan arasında əlverişli razılaşmalar baş verməlidir. Əgər uzlaşma maraqları ekvivalent xərc və gəlir prinsipləri əsasında olmazsa, onda ərazidə turizmin inkişafı üçün vahid qərar qəbulu çətinlik törədir. Biznes mühitində turizm sahəsinə edilən himayəçilik siyasəti bütöv sahibkarlar üçün xarakterizə və miqyasda olmalıdır. Xarici turistlərin stimullaşdırılması üçün çevik islahatlar siyasəti, reklam mühiti, denominasiya və lobbiçilik səviyyəsində iş aparmaq təkcə iqtisadi tədbirlə deyil, təşkilati-psixoloji amillər də əsas rol oynayır.

Beynəlxalq turizmə inteqrasiya üçün respublikamız hər şeydən əvvəl dünya standartlarına uyğun islahatlar proqramı və mövcu şəraitin transformasiyası dünya standartlarına uyğun qurulmahdır. Daha çox əhalinin rifahı və istehlak strukturunda mütərəqqi dəyişikliklər və turizm xidmətinə tələbatı formalaşdırmaq lazımdır.

# Bölmə XII. Azad iqtisadi zonalar və BİM

12.1. ***Azad iqtisadi zonaların mahiyyəti və əmələ gəlməsi məqsədləri***
12.2. ***Azad iqtisadi zonaların formaları.***
12.3. ***Azad iqtisadi zonaların inkişaf meylləri və Azərbaycanda onların*** yaradılması imkanları.

**12.1.** Son on illiklərdə dünya təsərrüfatı sistemindən əsas surətdə nəzərə çarpan yeni hallardan biri də azad iqtisadi zonaların (AİZ) inkişafıdır. Onların dünyanın müxtəlif ölkələrində geniş yayılmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 90-cı illərin əvvələrində dünyada mindən bir qədər çox azad iqtisadi zona mövcud olmuşdursa, hazırda onların sayı 4,5 minə çatır. Qərbi ekspertlərinin fikirlərinə görə 2010-cu ildə dünya üzrə əmtəə dövriyyəsinin 30 %-i azad iqtisadi zonaların payına düşəcəkdir. Bu da dünya təsərrüfatının bir elementi kimi azad iqtisadi zonalarının böyük perspektivə malik olmasından xəbər verir.

Azad iqtisadi zona nədir? Bu suala cavab verməzdən əvvəl qeyd etmək lazımdır ki, iqtisadiyyata, xüsusilə ticarətə azad anlayışım ilk dəfə İngilis alimi A.Smit gətirmişdir. Sonrakı dövrlərdə azad ticarət, azad iqtisadiyyat, azad-sərbəst valyuta- kredit münasibətləri və s. anlayışlar əməli fəaliyyətdə tətbiq edilməyə başlamışdır.

Azad iqtisadi zona-bu elə coğrafi ərazidir ki, ölkənin siyasi mərkəzləri həmin dövlətdə təsərürfat fəaliyyəti üçün qəbul edilmiş ümumi rejimlərə nisbətən daha çox güzəştlər sistemi yaradır. Başqa sözlə desək AİZ elə bir anklavdır ki, burada dövlətin iqtisadi proseslərə qarışması seçmə yolu ilə azaldılır. Daha dəqiq desək bir növ milli iqtisadi məkanın elə xüsu- siləşməsi hissəsidir ki, orada həmin dövlətin digər ərazilərində İstifadə edilməyən müəyyən güzəştlər sistemi tətbiq olunur.

İlk dəfə azad iqtisadi zonalar haqqında konkret olaraq rəsmi tərif 18 may 1973-cü ildə Kiot konvensiyasında verilmişdir. Konvensiyanın materillarmda göstərilir ki, azad iqtisadi zona anlayışı altında dövlətin ərazisinin elə bir hissəsi başa düşülməlidir ki. oradan çıxarılan əmtəələrə adətən kömrük ərazisindən, müvafiq vergilərdən və kömrük nəzarətindən

kənarda yerləşən mallar kimi baxılır. Tərifdən bir daha görünür ki, AİZ^də dövlətin ərazisinin bir hissəsinin azad olması mütləq məna deyil, nisbi xarakter daşıyır. Burada ölkə ərazisinin digər hissələrinə gətirilən və aparılan mallara rəğmən azad anlayışı işlədilir. Bu isə o deməkdir ki, AİZ-ə xaricdən gətirilən əmtəələr, o məhsulları qəbul edən ölkənin ərazisində olduğu kimi deklarasiya edilmir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, qanunlar əmtəə sahiblərini və investorları mövcud iqtisadi hüquq qaydalarından azad etmir, sadəcə olaraq bİr qədər onu asanlaşdırır. Azad iqtisadi zona əhəmiyyəti baxımından bütün dövlətlər, həmçinin İEOÖ-lər üçün səmərəlidir. Çünki zəif dövlətlər beynəlxalq əmək bölgüsündə iştirak etmək imkanına malik deyillər. Bu baxımdan AİZ-də iştirak etməklə beynəlxalq münasibətdən faydalanmaq tEOÖ-lər üçün çox əlverişlidir. Deməli, azad iqtisadi zona beynəlxalq əmək bölgüsünə yaxın olan fəaliyyət sahəsi kimi dünya təsərrüfatımn bir elementidir. Burada yalnız ticarət deyil, istehsal, xidmət, texnologiyalar, investisiyalar və s. üzrə idxal-ixrac əməliyyatları aparılır.

Azad iqitsadi zonaların yaranması tarixində iki konseptual yanaşma mövcüd olmuşdur. Bunlardan biri ərazi yanaşması, digəri İsə funksional yanaşmadır. Hər iki yanaşmanın əsasında təsərrüfatçıhğın pereferesial rejimini əks etdirən eyni prinsiplərin olmasına baxmayaraq onların arasında köklü fərqlər vardır. Məhz bu fərqlər əsasında onlardan biri praktikada istifadə olunmaq üçün seçilir.

Azad iqtisadi zonaların yaradılmasının birinci yanaşmasına uyğun olaraq güzəştli rejimdən mütləq azad ərazidə yerləşən müəssisə və təşkilatlar İstifadə edirlər. İkinci yanaşmada isə pereferensiya müəyyən növ sahibkarlıq fəaliyyətinə, onlann harada yerləşməsindən asılı olmayaraq tətbiq olunur.

Azad iqtisadi zonaların yuxarıda qeyd etdiyimiz yanaşmalardan birinin əsasında təşkili onlar yaradılarkən qarşılanna qoymuş konkret vəzifələrdən asılıdır.

Azad iqtisadi zonalarının təşkilinin dünya praktikası əsas verir. Qeyd edək ki, onlar müxtəlif məqsədləri əldə etmək üçün yaradılır.

Müxtəlif qəbildən olan azad iqtisadi zonaların başlıca məqsədi beynəlxalq əmək bölgüsü prosesinə ölkələrin daha dərindən iştirakına nail olmaqdan ibarətdir. Burada söhbət ölkədən ixrac olunan rəqabət qabiliyyətli məhsulların istehsalını artırmaqdan və beləliklə də valyuta daxil olmalarımn çoxalmasına naİl olmaqdan gedir və bu məntiq tamamilə başa düşüləndir. Əgər ölkə məlum səbəblərə görə öz iqtisadiyyatını xarici sahibkarlıq kapitalı üçün geniş aça bilmirsə, onda o, bu funksiyanı azad iqtisadi zona şəraitində yerinə yetirmək üçün imkan əldə edir.

İkincisi, maraqlı dövlətin daxili bazarını yüksək keyfiyyətli məhsulla, xüsusilə idxalı əvəz edən əmtəələrlə təmin etmək üçün azad iqtisadi zona lazımdır, Anklav ərazidə xarici kapitalın köməyi ilə bu məqsədə nail olmaq üçün idxah əvəz edən istehsal təşkil olunur.

Üçüncüsü, azad iqtisadi zonaların yaradılması yalnız istehsal sahəsində beynəlxalq əmək bölgüsündə İştirakı deyil, həm də turizm, mədəniyyət, kurort-sanatoriya və digər sferalarda bu istiqamətdə iştiraka kömək edir ki, nəticədə ölkəyə daxil olan valyutanın həcmi artır.

Dördüncüsü, azad iqtisadi zonalar ölkənin milli iqtisadiyyatında xarici və ölkənin daxilində əldə olunmuş elmi-texniki araşdırmaların nəticələrinin istehsala tətbiqini təmin etmək vəzifəsini əsas məqsəd kimi yerinə yetirir.

Azad iqtisadi zonalar özlərinin ümumi məqsədlərinə görə oxşar olmalanna baxmayaraq onların funksiyaları kifayət qədər müxtəlifdir və fərqlidirlər.

Azad iqtisadi zonaların ABŞ-da, Çində və s. ölkələrdə yaradılması təcrübəsi göstərir ki, onların funksional xüsusiyyətlərinə baxmayaraq bir çox ümumi cəhətləri vardır ki, bunlardan aşağıdakıları göstərmək olar:

- əlverişli coğrafi vəziyyət;
- daha əlverişli infrastrukturanın olması;
- infrastruktura ilə bağlı torpaq, su, enerji, müxtəlif xammal növləri, nəqliyyat şəbəkəsi, telekomunikasiya və s. mövcudluğu;
- əlverişli sosial infrastruktura, o cümlədən zəruri standartlara uyğun yaşayış binaları, uşaq bağçaları, məktəblər, xəstəxanalar, gündəlik tələbat mallarının təminatı və s.;

- nisbətən ucuz, lakin yüksək İxtisaslı İşçi qüvvəsinin olması;

- yüksək maliyyə xidmətlərinin göstərilməsi və beynəlxalq maliyyə bazan ilə əlaqə;

-avadanlıqlann təmiri üzrə yüksək xidmət;

-AİZ-də idarəçilik üzrə normativ qanunların aydınlığı;

-vergi qoymada güzəşt və digər hüquqi normaların mövcudluğu;

-ümumi siyasi sabitliyin olması və s.

Ümumi və fərqli cəhətlərin olmasına baxmayaraq bütün hallarda azad iqtisadı zonaların yaradılması aşağıdakı ümdə problemlərin həllinə xidmət edir.

AİZ-in müxtəlif dövlətlərdə yaranması prosesində qeyd etdiyimiz cəhətlər baza kimi qəbul edilmişdir. Məlum olduğu kimi ilk AİZ-in ən geniş yayılmış asudə formaları XVII-XVIII əsrlərdə yaranmışdır. Lakin XIX əsrdə müxtəlif dövlətlərdə, o cümlədən ABŞ-da 1934-cü ildən başlayaraq AİZ-in elmi əsaslar üzərində təşkilində dönüş əmələ gəldi. Məhz bu dövrdən başlayaraq dünya təsərrüfatı sistemində AİZ-in yeni formaları meydana gəlməyə başladı.

**12.2.** Hazırda dünya təsərrüfatı sistemində azad iqtisadi zonaların 30-dan çox müxtəlif növlərinə rast gəlmək olur.

Qeyd edək ki, azad iqtisadi zona anlayışı altında onların müxtəlif formaları dövrün tələblərinə uyğun olaraq fəaliyyət göstərmişdir. Nisbi mənada azad hesab olunan anklav ərazilərdən başqa dünya təsərrüfatı sistemində xüsusi yaxud əlahiddə azad iqtisadi zonalar da, böyük inkişaf tapmışdır. Xüsusi, yaxud əlahiddə azad iqtisadi zonaların azad iqtisadi zonalardan fərqi ondan ibarətdir ki, birinci formada tənzimlənmə element özünə məxsus rol oynayır. Xüsusilə investisiya əməliyyatlarında əlahiddə azad iqtisadi zonalarda müəyyən məhdudiyyətlər tətbiq olunur.

Dünyada ilk dəfə yaranan xüsusi iqtisadi zonaların arasında böyük inkişaf yolu keçmiş formalardan biri azad ticarət zonasıdır. Bu qəbildən olan zonalar aeraport, dəniz limanların yaxınlığında təşkil olunmuşdur.

Azad ticarət zonalarının çox yayılmış formalarından biri xarici ticarət zonalarıdır. Bu qəbildən olan zonalar 1934-cü

ildə ABŞ-da geniş yayılmışdı. Məhz ABŞ iqtisadiyyatının həmin illərdə böhrandan çıxmasında, işsizliyin azaldılmasında xarici ticarət zonalarının böyük rolu olmuşdur.

XX əsrin 50-ci illərində sənaye istehsalının inkişafını maraqlandırmaq məqsədilə istehsal təyinatlı yaradıldı ki, son ralar onlar ixrac istehsal zonaları kimİ təsərrüfatçılıq sistemində yerlərini möhkəmləndirdilər.

İlk dəfə belə zona 1959-cu ildə İrlandiyanın Şennon aeroportunda yaradılmışdır.

1980-cı ildə ABŞ-da müəssisə zonası adlanan anklav ərazilər meydana gəlmişdir. Bu cür zonalarda vergİ güzəştləri istehsala, tikintiyə və ticarətə tətbiq olunaraq inkişaf üçün stimul yaradılır.

XX əsrin axırlarında Çində azad iqtisadi zonaların inkişafında böyük irəliləyiş baş vermişdir. Bu dövlətdə AİZ- lər, XİZ-lərlə yanaşı texniki tətbiq etmə zonaları, açıq rayonlar və s. adda azad iqtisadi zonalar əmələ gəlmişdir. Bu zonaların Çində iqtisadi inkişafda, məşğulluq probleminin həllində, dünya bazarına çıxmaqda, yaşayış səviyyəsinin yüksəldilməsində böyük rolu olmuşdur. Çində azad iqtisadi zonalarda işləməyə maraq o qədər güclənmişdir ki, hətta AİZ yaradılan bəzi məkanlar ölkənin digər ərazilərindən daş hasarlar vasitəsilə ayrılmışdır.

Bu istiqamətdə böyük nailiyyətlərin qazanılmasına baxmayaraq sürətli inkişaf üçün yeni layihələr həyata keçirilir. Belə ki, 20 il ərzində Çin, Rusiya və Cənubi Koreyanın sərhədində Tumanqan xüsusi iqtisadi zonasının yaradılması layihəsi həyata keçirilməkdədir ki, onun birinci mərhələsi 90-110 mlrd. ABŞ dollarına başa gələcəkdir.

Qeyd etdiyimiz iqtisadi zonada Yaponiya, Cənubi Koreya, Monqolustan, Çin, Koreya XDR-in işçi qüvvəsindən istifadə ediləcəkdir. Burada böyük liman, çoxlu sənaye müəssisələri və geniş infrastruktura şəbəkəsi yaradılacaqdır. Rusiya dövləti bu müəssisələrə emal üçün xammal göndərəcəkdir. Dünya təsərrüfatında gedən proseslərin təsiri altında son on illiklərdə dövlət səviyyəsində deyil, regional miqyasda işgüzar əlaqələrin artması nəticəsində Yevroregion deyilən, anlayışın əmələ gəlməsinə səbəb olmuşdur.

**Yevroregion keyfiyyətlə yeni səviyyədə xarici iqtisadi əlaqələrin təşkili forması olub müxtəlif dövlətlərin sərhəd vilayətlərini könüllü birləşməsini özündə əks etdirir. Hazırda Av- roregionun yeni nəsillərinin yaradılmasında Avropa dövlətləri arasında iri miqyaslı layihələr həyata keçirilməkdə davam edir.**

**Dünyada fəaliyyət göstərən azad iqtisadi zonaların müxtəlif formalarım növlərini və yarım növlərini inkişaf istiqamətləri əlamətinə görə dörd qrupa bölmək olar. Bunlara daxildir;**

- **ticarət istiqaməti üzrə inkişaf edən AİZ-lər;**
- **sənaye istehsalı istiqaməti azad iqtisadi zonalar;**
- **texniki-tətbiq etmə istiqamətli AlZ-lər;**
- **servis (xidmət) istiqamətli azad iqtisadi zonalar.**

**Şəxsi ki, hər bir istiqamət üzrə inkişaf edən AlZ-lərin bir neçə alt formaları vardır. Bu baxımdan son illərdə müxtəlif dövlətlərin diqqətimi daha çox cəlb edən servis istiqamətli AİZ-lərin alt formalarının nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik.**

**Beləki, servis istiqamətli AtZ-lər beş adda alt iqtisadi zonam özündə birləşdirir. Bura daxildir: 1) Offşor zonaları, 2) Maliyyə mərkəzləri, 3) Bank xidmətləri, 4) Turist xidmətləri və 5) Ekoloji parklar.**

**Servis zonalan dedikdə müxtəlif maliyyə-iqtisadi, sığorta və s. xidmətləri göstərmək firma, şirkət və s. qurumların sahibkarlıq fəaliyyəti üçün xüsusi güzəştli rejimə əsaslanan ərazi başa düşülür. Servis zonalanndan-offşor zonalarım və vergi güraştlərini göstərmək olar. Vergi güzəştləri sahibkarları cəlb etdikdə onlara çox əlverişli şərtlərlə valyuta-maliyyə, flskal rejimi, yüksək səviyyədə bank və kommersiya sirri, dövlət tənzimlənməsində xeyirxahlıq göstərilməsini nəzərdə tutur. Vergi güzəştləri adını daşıyan zonaların offşor zonalarından fərqi odur ki, onlarda bütün yerli və xarici firmalara demək olar ki, fəaliyyət növlərinin hamısı üzrə vergi güzəştləri tətbiq olunur.**

**Offşor zonalannm bu xüsusiyyətinin nəticəsidir ik, onların sayı sürətlə artır. Hazırda dünyada 300-dən çox sabit fəaliyyət göstərən offşor zonası mərkəzi mövcuddur. Statistik məlumatlara görə offşor şirkətlərində çalışan işçilərin sayı 2 mln. nəfərdən coxdur. Onu da qevd etmək lazımdır ki, offsor**

paniyalann təşkili az ilkin kapital tələb edir. Bu xüsusiyyətin də onlann sürətlə inkişafında rolu böyükdür. Davam edən bu proseslərin təsiri altında dünyanın bir çox ölkələrində ofTşor kompaniyaları fəaliyyət göstərirlər. Bunlardan-Lixtenşteyn, Panama, Honkong, LİberiyaLİberiya, İrlandiya, İsveçrə və s. göstərmək olar.

Offşor zonalarda ticarət, bank, sığorta fəaliyyəti demək olar ki, vergiyə cəlb edilmirlər. Ona görə də offşor zonaları yaradılan ölkələrə xarici kapitalın axmasına çox əlverişli zəmin yaranır. Məhz bunun nəticəsidir ki, offşor zonalarında istifadə edilən kapitalın həcmi qısa müddətdə 500 mlrd ABŞ dollanna çatmışdır. Bu da bütövlükdə AİZ-in, həmçinin offşor zonalannın iqtisadi cəhətdən çox səmərəli olmasım göstərir.

Onu da qeyd edək ki, son illərdə texniki tətbiq etmə zonalan da geniş yayılmağa başlamışdır. Bu zonalar ABŞ-da texniki parklar adlandırılır və dövlətin iqtisadiyyatında onlann əhəmiyyəti danılmaz faktdır. Oxşar zonalar Yaponiyada texnopolis, Çin və Rusiyada texniki tətbiq etmə zonalan adlandırılır. Adlarının müxtəlif olmalarına baxmayaraq onlann mahiyyəti etibarı ilə eynidirlər və prinsipcə eyni funksiyanı yerinə yetirirlər. Bu funksiya da elmi-texniki yeniliklərin tətbiqi, innovasiya probleminin səmərəli həllinə xidmət etməkdən ibarətdir.

12.3. Azad iqtisadi zonaların dövlətlər arasında iqtisadi münasibətlərin inkişafında və dünya bazarına çıxmaqda artan rolu İEOÖ-in, həmçinin Azərbaycan dövlətinin iqtisadi strategiyasmda özünə məxsus yer tutur.

Məlum olduğu kimi Azərbaycan iqtisadiyyatı çox sahəlidir. Respublikada kifayət qədər inkişaf etmiş neft-mədən maşınqayırması, neft-kimyası, kimya, cihazqayırma və s. sahələr inkişaf etmişdir. Bu sahələrin böyük iqtisadi potensialı vardır və yaxşı təhsil almış mühəndis-texniki işçilərə malikdirlər. Bazar iqtisadi münasibətləri şəraitində bu potensialdan səmərəli istifadə edilməsində və rəqabət qabiliyyətli məhsuUann istehsalında digər amillərlə yanaşı azad iqitsadi zonalann imkanlarından istifadə edilməsinin də böyük əhəmiyyəti vardır.

Bu məqsədlə Azərbaycan dövləti azad İqtisadi zonaların

yaradılmış və müvafiq prezident fərmanları əsasında Aİ2-in yaradılması ilə əlaqədar işlər mərhələlər üzrə həyata keçirilir.

90-cı illərin sonunda Azərbaycanda AİZ-in yaradılması imkanlarım araşdıran Komissiyasının məlumatlarına əsasən respublikamızda Sumqayıtda və qərb zonada-Gəncədə azad iqtisadi zonaların təşkili üçün real şəraitin olması müəyyənləşdirilir.

Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasının güclənməsi, həm də respublikamızın Avropa ilə Asiya arasında yerləşməsi faktı imkan verir ki, o malik olduğu iqitsadi potensialdan və coğrafi mövqeindən maksimum faydalansın.

Qeyd etdiklərimizi nəzərə alaraq Azərbaycanda müasir tələblərə cavab verən qablaşdırma-saxlama və nəql etmə əməliyyatları istiqamətində «Liman» azad iqtisadi zonasının yaradılması qərara alınır. Təxmini məlumatlara bu cür AİZ-də böyük həcmdə xidmət işləri yerinə yetirilməklə yanaşı bir ildə 300 mln. ton beynəlxalq yükü qəbul edib onu ünvanına çatdırmaq mümkün olacaqdır.

Şübhə yoxdur ki, respublikamızda azad iqtisadi zonalarının yaradılması cənubi Qafqaz, İqtisadi Əməkdaşlıq Təşkila- tma üzv dövlətlərdə daxili bazarın inkişafında böyük rolu olacaqdır.

Vaxtı ilə Dubay azad iqtisadi zonası yarananda ondan ətraf dövlətlər istifadə edirdilərsə, hazırda bu iqtisadi zonanın imkanlarından 300 milyon insan faydalanır.

Heç şübhə yoxdur Azərbaycanda Sumqayıt şəhərinin sənaye potensialı bazasında ixrac istehsal azad zonalarının və s. yaradılması respublikamızda çoxlu iş yerlərinin yaradılmasına və əhalinin sosial şəraitinin yaxşılaşdırılmasına kömək edəcəkdir.

Digər tərəfdən Azərbaycanla qonşu dövlətlərin sərhədləri arasında müxtəlif formalı azad iqtisadi zonaların təşkili respublikamıza valyuta axınının güclənməsinə səbəb olacaqdır ki, bu da müxtəlif layihələrin həyata keçirilməsində maddi baza rolunu oynayacaqdır.

## Bölmə XIII. Birləşmiş Millətlər Təşkilatı (BMT) və beynəlxalq iqtisadi münasibətlər

***13.1. BMT-nin yaranması.***
***13.2. BMT-nin əsas vəzifələri, funksiyaları və təşkilat-iqti- sadi strukturu.***
***13.3. BMT-nin İnkişaf proqramı və Azerbaycanla onun əməkdaşlığı.***

13.1. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi sisteminin formalaşması ikinci dünya müharibəsindən sonrakı illərdə özünü daha aydın göstərirdi. Hər bir beynəlxalq qurumun konkret olaraq BMT-nin hansı sahələri tənzimləməsi barədə kifayət qədər danışıqlar, görüşlər, müqavilələr həyata keçirilmişdir. Beynəlxalq miqyasda mübadilə münasibətlərinin inkişafına maneçilik törədən amillərin aradan qaldırımasma səylər göstərilirdi. BİM-in tənzimlənməsində bir sistem yaratmaq məqsədi ilə 1920-ci ildən 1933-cü ilədək beş Ümumdünya İqtisadi konfrans olmuşdur. 1920-ci ildə Brüsseldə «Maliyyə və Xarici Ticarətə dair», 1922-ci ildə Genuyada «Avropada İqtisadiyyatın Bərpası və Himayədarlığın Azaldılmasına Dair, 1927-1930-cu illərdə Çenevrədə «Himayədarlıq və Gömrük dərəcələrinin Azaldılmasına Dair, 1933-cü ildə Londonda «Milli Valyuta Sabitləşdirilməsi və Ticarət Siyasəti Barədə Məhdudiyyət Problemlərinə dair « və bu kimi digər razılaşmaları qeyd etmək olar. Qeyd etməliyik ki, sadaladığımız konfranslar və digər görüşlər o qədər nəticə verə bilmirdi. Bu da ondan irəli gəlirdi ki, hələ o vaxtlar dövlətlər arasında iqtisadi İnkişaf baxımından fərqlər və kəskin ziddiyətlər vardı. Müəyyən iqtisadi razılaşmalar beynəlxalq əmək bölgüsü sisteminin inkişafına əsaslanmırdı.

Eləcə də 1919-cu ildə yaradılmış «Millətlər Birliyi»nin, onun iqtisadi komitəsinin və həmin ildə yaradılmış «Bey- nəlxalq Əmək Təşkilatı»nın səyləri heç bir nəticə verməmişdir.

Beləliklə, tam inamla deyə bilərik ki, BİM-in hərtərəfli tənzimlənməsi sistemində BMT-nin yaranması keyfiyyətcə yeni mərhələ təşkil etmişdir. Qeyd etməliyik ki, BMT-nin

yaranması da tarixi baxımından bir çox mülahizabr və müzakirələrlə bağlıdır. Belə ki, 1942-ci İldə Vaşinqton 26 dövlətin iştirakı ilə faşizm əleyhinə dövlətlərin və xalqların qüvvələrinin birləşdirilməsi barədə qətnamə qəbul etmişdir. Bu sənəd BMT-nin qətnaməsi adı ilə məhşurdur. 1943*cü ilin okyabnnda keçmiş SSRİ, ABŞ, Böyük Britaniya və Çinin xarici işlər nazirliyi Moskvada qətnamə qəbul etmişdilər. Bu qətnamədə göstərilir ki, bütün müstəqil dövlətlərin hüquq, sülh və təhlükəsizliyi prinsiplərim qoruyan ən ümumi bir beynəlxalq təşkilat yaradılması zərurəti təşkil edir.

1943-cü ildə (28.X1-1-XII)ABŞ, keçmiş SSRİ və Böyük Britaniyanın hökümət başçılarının Tehran görüşündə qəbul edilmiş qətnaməyə əsasən bütün millətlər birliyinin, sülhün həyata keçirilməsində əməkdaşlığının zəruriliyi əks etdirilmişdir.

1945-ci ildə Krım (Yalta) konfransında BMT-nin nizamnaməsinin hazırlanması qərara alınmışdır.

Beləliklə, keçmiş SSRİ, ABŞ, Böyük Britaniya və Çin nümayəndələrinin San-Fransisko (ABŞ) konfransı 26 iyun 1945-ci ildə BMT-nin Nizamnaməsini qəbul etmişdir. 1945-ci il 24 oktyabrda keçmiş SSRİ, ABŞ, Böyük Britaniya, Fransa və Çin tərəfindən Nizamnamə təsdiq edilmişdir. Beləliklə, dünyada ən nüfuzlu təşkilat olan BMT yaranmışdır. Bütün bu kimi yüksək səviyyəli görüşlərdən sonra dünya miqyasında baş verən hadisə və proseslərin vahid bir mərkəzdən tənzimlənməsini həyata keçirə bilən vahid bir təşkilatın yaradılması mümkün olmuşdur. Məlum olduğu kimi ictimai-iqtisadi həyatın bütün sahələrində BMT çox geniş fəaliyyət göstərir. Biz BMT-nin bütün fəaliyyətini deyil, ancaq iqtisadi fəaliyyətini araşdıracağıq. Aydındır ki, BMT-nin iqtisadi fəaliyyəti onun iqtisadi qurumlan tərəfindən tənzimlənilir və həyata keçirilir. Odur ki, bu mövzuda müəyyən ümumi mülahizələrin verilməsi ilə kifayətlənəcəyik. Ayn-ayn qurumların fəaliyyəti isə sərbəst mövzular şəklində şərh edilir.

BMT-nin Nizamnaməsində onun iqtisadi vəzifələri ilə yanaşı beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, raillət-

**lərarası dostluq münasibətlərinin İnkişafı, xalqların öz müqəddəratının həll edilməsi, iqtisadi, sosial, mədəni, humanitar xarakterli beynəlxalq problemlərin həlli kimi məsələlər də vardır. Bütün bu problemlərin həllində BMT, onun səlahiyyət qurumları, eləcə də bir çox digər institut və təşkilatlan iştirak edirlər. Beləliklə də birgə qarşılıqlı əməkdaşlığ mövcud olur. BMT-nin yaranması bütün başqa sahələrlə birlikdə iqtisadi sahədə də beynəlxalq təşkilatların, komitələrin və institutlann yaranmasına yol açmışdır. Bu kimi konkret qurumlar isə BİM-in konkret bölmələrinin tənzimlənməsi sisteminin təşkilati-iqtisadi strukturunun genişlənməsinə səbəb olmuşdur.**

13.2.**Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi Konstitusiyalı bir sənəd olub bu təşkilatın bütün fəaliyyətini tənzimləyir. Daha doğrusu kollektiv təhlükəsizlik sisteminin formalaşması, hərbi, siyasi, iqtisadi, ekoloji, humanitar və bütün digər sahələrdə hər bir dövlətin özünü necə aparması barədə özünəməxsus qanun (kodeks) hazırlayır.**

**BMT-nin Nizamnaməsi əsasında yüzlərlə çoxtərəfli müqavilə sistemi yaranıbdır ki, onlarm əsasında dünya təsərrüfatı sisteminin müxtəlif tərəfləri idarə olunur, vaxtaşırı tənzimləmələr həyata keçirilir.**

**Hazırda BMT-nin 185 üzvü vardır. Əslində bütün dövlətlər BMT-nin üzvüdür. Ümumi şəkildə BMT-nin əsas vəzifələri aşağıdakılardan ibarətdir;**

**1.kollektiv tədbirlər və münaqişələrin sülh yolu ilə həlli əsasında beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi;**

**2.ayrı-ayrı xalqların öz müqədaratını təyin etmək və bərabərlik prinsipi əsasında dövlət arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi;**

**3.iqtisadi, sosial, mədəni, humanitar və digər sahələrdə yaranan beynəlxalq problemlərin həllində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və insan hüquqlarına hörmət edilməsi;**

**4.ümumi məqsədə nail olmaq üçün ayn-ayn ölkə və xalqların öz qüvvələrini birləşdirmək işində mərkəz rolunu oynaması və s.**

**Bu kimi vəzifələrin yerinə yetirilməsində BMT aşağıdakı prinsipləri nəzərdə tutur:**

- **öz üzvlərinin müstəqil bərabərliyi;**
- **nizamnaməyə əsasən götürülmüş Öhdəliklərin vicdanla yerinə yetirilməsi;**
- **beynəlxalq münaqişələrin sülh yolu ilə həlli;**
- **beynəlxalq münasibətlərdə başqa dövlətlərə qarşı güc işlətməmək;**
- **başqa ölkələrin daxili işlərinə qarışmamaq;**

**• bu prinsiplər əsasında təşkilatın üzvlərinə hər hansı bir köməklikdə iştirak etmək.**

**Bütün bu prinsiplər əsasında** BMT **müəyyən təkliflər, tədbirlər, konvensiyalar (beynəlxalq sazİş) və s. işləyib hazırlayıb və müəyyən normativ aktlara uyğun olaraq həyata keçirir.**

**BMT sistemi əsas və köməkçi orqanlarla birlikdə BMT- nin özünü, 18 ixtisaslaşdırılmış qurum, atom enerjisi üzrə Beynəlxalq agentliyi (MAQATE) və bir sıra proqram, şura və komissiyaları əhatə edir.**

**BMT-nin nizamnaməsinə uyğun olaraq əsas orqanlar sırasma Baş Assambleya; Təhlükəsizlik Şurası; İqtisadi və Sosial Şura; Beynəlxalq məhkəmə və Katiblik daxildir.**

**Köməkçi qurumlar isə yuxarıda qeyd etdiyimiz kimi müxtəlif proqlamlar, şuralar və komissiyalardan ibarətdir.**

**Qeyd etdiyimiz kimi BMT ən nüfuzlu, daha çoxtərəfli problemlərin həlli ilə məşğul olan bir təşkilatdır. Bütün bu problemlər BMT sisteminə daxil olan qurumlar tərəfindən həll edilir.**

**Ona görə dünya iqtisadiyyatında. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində böyük rolu olan bəzi ixtisas-laşdınlmış qurumlar göstərmək çox yerinə düşər. Bunlara daxildir:**

- **İqtisadi və Sosial Şura;**
- **Ümumdünya intellektual mülkiyyət təşkilatı;**
- **Beynəlxalq inkişaf birliyi;**
- **Beynəlxalq dəniz təşkilatı;**
- **Beynəlxalq mülki aviasiya təşkilatı;**

- Beynəlxalq əmək təşkilatı;
- Beynəlxalq Maliyyə Korporasiyası;
- Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı;
- Beynəlxalq Valyuta fondu;
- **Beynəlxalq kənd təsərrüfatımn inkişaf fondu;**
- İnvestisiya təminatı üzrə çoxtərəfli agentlik;
- BMT-nin təhsil, elm və mədəniyyət üzrə təşkilatı (YUNESKO);
- BMT-nin sənayenin inkişafı üzrə təşkilatı;
- BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı.

Bu təşkilatların bir çoxunun fəaliyyəti ayrı-ayrı mövzularda daha geniş öyrəniləcəkdir.

BMT-nin iqtisadi funksiyalan da elə buk imi ixtisaslaşdırılmış qurumlar tərəfindən həyata keçirilir. BMT-nin Nizamnaməsinə uyğun olaraq onun iqtisadi sahədə də fəaliyyəti genişdir. Bu sahədə də çoxtərəfli əməkdaşlığın həyata keçirilməsinə zəmin yaradır.

BMT sisteminin iqtisadi funksiyaları (ümumiləşdirilmiş şəkildə) aşağıdakı sahələri nəzərdə tutur;

- müasir dövrün qlobal iqtisadi problemləri;
- inkişafa yardım edilməsi;
- inkişaf etməkdə olan ölkələrin və keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafına köməklik göstərmək;
- təbiətin mühafizəsi və ətraf mühitin qorunması;
- fövqəladə hallarda humanitar yardım göstərilməsi və s.

Qlobal iqtisadi problemlərdə əhali artımı, statistika, elm və texnika, dövlət idarəçiliyi və maliyyə sahələri üzrə yaranan çətinliklərin həllinə daha çox diqqət verilir. Qlobal inkişafa yardım barədə 90-cı illərdə olduğu kimi müasir şəraitdə də çox güclü yardım göstərilir. Burada yardım edən (donor) ölkələrin sosial sahələrə diqqəti artınlır.

Qeyd etmək kifayətdir ki, müəyyən fondlar və BMT-nin inkişaf proqramı (PROON) tərəfindən göstərilən əvəzsiz yardımlar hər il təqribən 4-5 mlrd, dollar təşkil edir. Aydındır ki, belə yardımlar əsasən kasıb ölkələrə göstərilir.

**Hazırda təkcə inkişaf proqramının fəaliyyəti 150-dən artıq ölkəni əhatə edir. Bu ölkələrdə 7 minə qədər layihə həyata keçirilir.**

**Azərbaycan BMT-yə daxil olduqdan sonra 1992-ci ilin payızında İnkişaf Proqramı Bakıda öz nümayəndəliyini açmışdır. Həmin proqram çərçivəsində I994-2003-cü illərdə Azərbaycanda 65 layihənin yerinə yetirilməsi xətti ilə 36 mln. dollardan artıq yardım göstərilmişdir, 2010-cu il üçün isə Azərbaycana bu yolla yardımların göstərilməsi davam etdiriləcəkdir.**

**Son vaxtlar BMT-nin iqtisadi sahədə apardığı tədbirlər sırasında keçid iqtisadiyyatı ölkələrinin dünya təsərrüfatına inteqrasiya işinə və bazar iqtisadiyyatı institutları yaradılmasına köməkliyi də xüsusi rol oynayır.**

**Eləcə də BMT-nin təbiətin mühafizəsi sahəsində ki, fəaliyyəti də çox genişdir. Burada BMT-nin «Ətraf mühitin mühafizəsi!) proqramı mövcuddur. BMT-nin sabit inkişaf Komissiyası bu proqramla birlikdə ətraf mühitin qorunması, ekoloji norma və standartlar hazırlanması sahəsində (qlobal iqlimin mühafizəsi, torpağın erroziyaya uğraması, havanın, dənizin, okeanlann çirklənməsinə qarşı mübarizə, tullantıların zərərsizləşdirilməsi, meşələrdən qənaətlə istifadə edilməsi və s. sahədə) geniş iş aparılır.**

**Bu sahədə enerjidən, nəqliyyatdan sabit istifadə edilməsi, içməli su ilə təminat, xammala qənaət edilməsi modelinin yaradılması da vacib problemlər kimi ön plana çəkilir. Fəvqəladə hallarda isə zərər çəkən əhaliyə İldə 3-4 mlrd, dollar vəsait xərclənir.**

**BMT-nin təşkilatı strukturuna daxil olan əsas orqanlarından biri Baş Assambleydır (baş məclis). Bu məclis BMT- nin üzvü olan bütün dövlətlərdən ibarət təşkil olunur. BMT- nin nizamnaməsi çərçivəsində hər bir məsələni müzarikə etmək və müvafiq qərar çıxarmaq hüququna malikdir. Baş məclisin qərarlan o qədər də məcburi hüquqi qüvvəyə malik deyildir. Başqa gözlə desək bu qərarlar tövsiyə xarakteri daşıyır. Bununla yanaşı hər halda dünya ictimaiyyətinin fikirlərini əks**

etdirdiyi üçün bu qərarlar böyük əhəmiyyət kəsb edir. Baş məclis BMT-nin siyasəti və proqramım müəyyən edir, büdcəni təsdiq edir, fəlaliyyətin əsas istiqamətini hazırlayır və müxtəlif yığıncaqlar keçirir.

Nizamnaməyə uyğun olaraq Baş məclis beynəlxalq əməkdaşhğa dair araşdırmalar aparır və dəyərli təkliflər verir. Bu təkliflərə daxildir;

- siyasi sahədə daha mütərəqqi beynəlxalq hüququn inkişafına həvəs oyatmaq və onun sistemləşdirilməsini həyata keçirmək;

- iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə sahələrində və irqindən, cinsindən, dilindən, dinindən asılı olmayaraq insanların hüquq azadlığının həyata keçirilməsi. Bu baxımdan beynəlxalq sənədlərin və hüququn hazırlanmasmda Baş məclis böyük təcrübə qazanmışdır. Bu təcrübəyə əsasən hər hansı bir məsələ barədə əvvəlcə bəyannamə (rəsmi bildiriş) qəbul edilir. Sonra isə bu bəyannamə əsasında beynəlxalq müqavilə və saziş hazırlanır. Onu da qeyd etməliyik ki, bu günədək Baş məclis beynəlxalq hüququn sistemə salınmasına dair 10 mindən artıq qətnamə qəbul elmişdir.

Baş məclisdə 6 əsas komitə mövcuddur:

- tərksilah və beynəlxalq təhlükəsizlik üzrə;
- iqtisadi və maliyyə məsələləri üzrə;
- sosial, humanitar və mədəni məsələlər üzrə;
- xüsusi siyasət və müstəmləkəçilik əleyhinə məsələlər üzrə;
- inzibati və büdcə məsələləri üzrə;
- hüquq məsələləri üzrə.

Aydındır ki, bunlardan əlavə cari işlərə baxan komitələr, daimi fəaliyyət göstərən komitələr, işçi qrupları, xüsusi qurup- lar da mövcuddur. Qeyd etdiklərimizdən başqa Baş məclisin quruluşunda iqtisadi məsələlərlə aşağıdakı qurumlar məşğul olurlar;

- iqtisadi və maliyyə işləri üzrə komitə;
- beynəlxalq ticarət hüququ üzrə BMT-nin komissiyası;
- beynəlxalq hüquq üzrə komissiya;
- investisiya üzrə komitə.

Bu komitələrin hər biri öz sahəsi üzrə təkliflər hazırlayır, qətnamə işləyir və Baş məclisin müzakirəsinə təqdim edirlər.

1.İqtisadi və maliyyə məsələləri üzrə komitə-Bu komitə əsas komitələr sırasına daxildir, iqtisadiyyat və maliyyə üzrə olan məsələlərlə məşğuldur.

2.Beynəlxalq ticarət hüququ üzrə komitə-1996-cı ildə yaradılıbdır.

Beynəlxalq ticarət sahəsində bərabər hüquq normalarına riayət edilməsinə köməklik göstərir. Bu komissiya BMT-nin ticarət və inkişaf» üzrə komissiyası (YUNKTAD) ilə əməkdaşlıq edir. 36 üzvü vardır. Bunlardan-9 nümayəndə Afri- kamn; 7-si Asiyanın; 5-i Şərqi Avropa ölkələrinin; 6-sı Latın Amerikası və Karib hövzəsi ölkələri; 9-u Qərbi Avropa və ABŞ-m payına düşür.

3.Beynəlxalq hüquq üzrə Komissiya. Bu komissiya 1947- ci ildə yaradılıbdır. Əsas məqsədi beynəlxalq əməkdaşlıq, beynəlxalq hüququn inkişafı və sistem halına salınmasıdır. Komissiyamn 34 üzvü vardır. Bunlardan-8 nümayəndə Afrika ölkələrinə; 7-si Asiyanın; 3-ü Şərqi Avropa ölkələrinin; 6-sı Latın Amerikası və Karib ölkələri, 8-i Qərbi Avropa və ABŞ- m payına düşür. Komissiya beynəlxalq hüquqa dair məsələlər üzrə layihə işləyib hazırlayır.

4.İnvestisiya üzrə komitə-1947-ci ildə yaradılıbdır. Bu komitə BMT-nin nəzarəti altında olan vəsaitin investisiya kimi yerləşdirilməsinə köməklik göstərir. İldə 4-5 iclas keçirir (adətən Nyu-Yorkda) 9 üzvü vardır.

BMT-nin əsas orqanlarından biri iqtisadi və sosial şuradır. O, 1946-cı ildə yaradılıbdır. Bu Şura Baş məclis ilə birlikdə və onun rəhbərliyi altında BMT-nin bir çox vəzifələrinin yerinə yetirilməsində məsuliyyət daşıyır.

İqtisadi və Sosial Şuranın 54 üzvü (ölkə) vardır. Bunlardan 14-ü Afrika ölkələri; 11-i Asiya ölkələri; 6-sı Şərqi Avropa ölkələri; 10-u Latın Amerikası və Karib hövzəsi ölkələri; 13-ü Qərbi Avropa və ABŞ-dan ibarətdir.

Bu üzvlərin hər il 30 %-ə qədəri dəyişir-3 illiyə yenidən seçilir. Şura ildə bir dəfə təşkilati, iki dəfə növbəti sessiya

keçirir. Bu mənada iqtisadi və sosial Şura daimi orqan hesab edilmir. BMT-nin cəmi büdcə vəsaitinin 71%-ə qədəri bu şuranın payına düşür.

Beynəlxalq İqtisadi əməkdaşlığın inkişafı baxımından iqtisadi və SŞ BMT-nin iqtisadi, sosial mədəni və humanitar sahələri üzrə olan siyasətində aparıcı rol oynayır.

Belə ki, o, BMT-nin iqtisadi və sosial fəaliyyətini digər ixtisaslaşdırılmış qurumların fəaliyyəti ilə əlaqələndirir.

BMT sistemi üzrə və bütövlükdə qlobal və sahələr arası iqtisadi-sosial xarakterli problemlərin müzakirəsində, təkliflər hazırlanmasında mərkəz rolunda çıxış edir.

İqtisadi və Sosial Şura (İ və SŞ) çərçivəsində tədqiqat işlərinin hazırlanması iqtisadi, ekoloji, sosial, mədəniyyət, təhsil, səhiyyə, həvəsləndirmə, hörmət və insan hüquqlarına riayət edilməsi sahəsində olan beynəlxalq məsələlər üzrə geniş iş aparılır və məruzələr hazırlanır. Baş məclisdə olduğu kimi burda da ayrı-ayrı dövlətlər üçün iqtisadi və valyuta-maliyyə məsələləri üzrə hazırlanan qətnamələr tövsiyə xarakteri daşıyır.

Bütün bunlarla yanaşı İ və SŞ ümumiləşdirilmiş şəkildə əsasən aşağıdakı məsələlərlə məşğul olur:

- dünya üzrə iqtisadi və sosial vəziyyətin durumu barədə əsaslandınimış təhlil və xülasələr hazırlamaq (BMT-nin universiteti-1972 və Elmi-tədqiqat institutu-yunitar-1965 tərəfindən hazırlanır);
- beynəlxalq ticarətin vəziyyətini təhlil etmək. Bu iş BMT- nin ticarət konfransı və eləcə də beynəlxalq ticarət üzrə hüquq komisiyası tərəfindən öyrənilir və əlaqələndirilir;
- ətraf mühit problemi. Bu problem ətraf mühit proqramı (YUNEP-1972) və təbii fəlakət zamanı yardım göstərilməsi üzrə BMT-nin əlaqələndirmə Bürosu tərəfindən öyrənilir;
- inkişaf etməkdə olan ölkələrə iqtisadi və elmi-texniki yardım göstərilməsi. Bu problem BMT-nin inkişaf proqramı-PROON-1996, inkişaf etməkdə olan ölkələrdə sənayenin inkişafı üzrə komissiya-YUNİDO-1967 və Beynəlxalq kənd təsərrüfatının inkişafı fondu-1976, tərəfindən öyrənilir;

**- müxtəlif səpkidə ərzaq problemləri Dünya Ərzaq Proqramı (1961), Ümumdünya Ərzaq Komitəsi (1974), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı-FAO (1945), tərəfindən öyrənilir.**

**- sosial-tqtisadi Statistika Problemi: bu problem Statistika Komissiyası (1946), tərəfindən tədqiq edilir.**

**- əhali artımı və yaşayış məntəqələri problemi: bu problem əhali artımı sahəsində BMT-nin Fondu-1967, Beynəlxalq Əmək Təşkilati-1946, Qaçqınların işi üzrə Ali Komissarlıq İdarəsi 1949, BMT-nin uşaq Fondu-1946 və Ümumdünya səhiyyə təşkilatı-1946 tərəfindən öyrənilir;**

**- təbii ehtiyatlar problemi: bu problem Təbii ehtiyatlar üzrə komitə-1970, eləcə də Enerji mənbələrinin mənimsənilməsi və istifadə edilməsi komitəsi-1982 tərəfindən öyrənilir.**

**- planlaşdırma və maliyyə ehtiyatİanmn səfərbər edilməsi problemi: bu problem BVF, BY, və İB, BMK, Bİ A kimi maliyyə təşkilatlan tərəfindən öyrənilir,**

**- sosial iqtisadi sənədlərin-proqramlannm hazırlanması və onların həyata keçirilməsinə nəzarət edilməsi;**

**- regional əməkdaşlıq problemi: qeyd etməliyik ki, İ və SŞ çərçivəsində 5 ərazi Komissiyası fəaliyyət göstərir;**

**- Avropa iqtisadi komissiyası, 1947 (30 Avropa ölkəsini, eləcə də ABŞ və Kanadanı birləşdirir)-katibliyi Cenevrədədir;**

**- Asiya və Sakit Okean üçün İqtisadi-Sosial Komissiya-1947,35 ölkəni birləşdirir-katiblik Banqkonkdadır (Tailand);**

**- Afrika üçün iqtisadi komissiya-1958,50 ölkəni birləşdirir;**

**- Latın Amerikası üçün iqtisadi komissiya-1948,40 ölkəni birləşdirir;**

**- Qərbi Asiya üçün iqtisadi komissiya-1974,14 ölkəni birləşdirir;**

**Bu regional komissiyaİann əsas məqsədi dünyamn ayrı-ayn ərazilərində iqtisadi və texnoloji problemlərin öyrənilməsi, onlann iqtisadi və sosial inkişafına yardım etmək, birgə siyasət yetirmək və s.-dən ibarətdir.**

**Bunlardan əlavə İ və SŞ-in tərkibində iqtisadi məsələlərlə məşğul olan komitələr, xüsusi qruplar da az deyildir. Belə ki, 6**

**işlək komissiya və yarım komissiya mövcuddur. Bunlar aşağıdakılardan İbarətdir:**

*** sosial inkişaf üzrə,**

- **narkotik vasitələr üzrə;**
- **elm və texnika üzrə;**
- **inkişaf üzrə;**
- **sabit inkişafa köməklik üzrə;**
- **statistika üzrə.**

**Transmilli Korporasiyalar üzrə 2 daimi komitə fəaliyyət göstərir-Proqram və əlaqələndirmə üzrə; Qeyri dövlət təşkilatlan üzrə.**

**Qeyd etdiklərimizdən başqa 7 ekspert orqanı fəaliyyət göstərir.**

- **planlaşdırümanm inkişafı;**
- **vergiqoyma üzrə beynəlxalq əməkdaşlığa dair xüsusi ekspertlər qrupu;**
- **təhlükəli yüklərin daşınmasına dair komitələr;**
- **iqtisadi, sosial və mədəni hüquqa dair;**
- **milli ehtiyatlara dair;**
- **enerji mənbələrinin bərpası və istifadəsinə dair;**
- **Dövlət idarəçiliyi və maliyyə üzrə ekspertlərin görüşlərinə dair.**

**Onu da qeyd etməliyik ki, t və SŞ çərçivəsində Transmilli Korporasiyalar barədə də komissiya yaradılıbdır. Bu komisiya Transmilli Korporasiyalann daha işlək olması üçün beynəlxalq müqavilələr bağlanmasına köməklik göstərir.**

**BMT-nin əsas orqanlanndan biri katiblikdir. Katibliyə baş katibi rəhbərlik edir. Baş katib əsas inzibati vəzifəli şəxs hesab olunur. Katibliyin tərkidində 7 departament fəaliyyət göstərir. Bunlardan ancaq biri iqtisadi problemlərlə məşğuldur.**

**wİqtisadi və Sosial Məsələlər üzrə Departament»-bu departament 1977-ci İldə yaradılıbdır. Beynəlxalq iqtisadi əməkdaşlıq sahəsindəki problemlərin hərtərəfli həllinə və eləcə də BMt-nin bütün digər qurumlannın qarşılıqlı fəaliyyətinə xidmət edir. Bunlarla yanaşı katiblik inkişaf sahəsi üçün proqram**

işləyib hazırlayır. Elm və texnika sahəsinin inkişaf istiqamətini öyrənir. Beynəlxalq ticarət, nəqliyyat, sənaye və inşaat statistikası barədə məlumatlar toplayır və təhlil edir, standartlaş- dınlma və Statistika baxımından təsnifat hazırlayır və həyata keçirir.

BMT-nin iqtisadi strukturunda DB, BVF, İƏİT, ÜTT-ı kimi beynəlxalq təşkilatlar da fəaliyyət göstərirlər. Onların fəaliyyəti sonrakı bölmələrdə ətraflı işıqlandırılacaqdır.

13.3. İqtisadi problemlərin tənzimlənilməsi sistemində fəaliyyət göstərən əsas qurumlardan biri də BMT-nin inkişaf proqramıdır (PROON). Bu təşkilat 1966-cı ildən fəaliyyət göstərir. BMT-nin «Geniş texniki yardım və xüsusi fondunu» özündə birləşdirir. Bu qurum BMT sistemində iqtisadiyyatın çoxşaxəli maliyyələşdirilməsində və texniki yardım sahəsində fəaliyyət göstərən ən böyük təşkilatlardan biri hesab edilir.

İnkişaf Proqramının (İP) 48 üzvü var, İP-in rəhbər orqanı İcra Şurasıdır. İcraedici şura 3 ildən bir seçilir. BMT-nin Baş katibi İP-ə 4 illiyə inzibati rəhbər təyin edir. İcraedici Şura İP- İn layihələrinə baxır, onu təsdiq edir, maliyyə vəsaitini bölüşdürür, ümumi rəhbərlik prinsipləri və direktiv göstərişləri hazırlayır.

Bütün bunlar'barədə icraedici şura BMT-nin İqtisadi və Sosial Şurasına (EKOSOSa) vaxtaşırı məruzə təqdim edir. Sonra bu məlumat Baş Assambleyaya çatdırılır.

Bu təşkilatın əsas məqsədi inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafına texniki yardım göstərmək və əhalinin həyat səviyyəsinin artmasına kömək etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün BMTİP öz fəaliyyətini aşağıdakı istiqamətdə həyata keçirir:

-ayrı-ayrı ölkələrdə yerli mütəxəssislərə məsləhətlər verir, seminarlar keçirir və onlara ekspert xidməti göstərir;

-bir çox qlobal problemlərə dair qəbul edilən qərarların yerinə yetirilməsi yollarını müəyyənləşdirir. Məsələn, 1992-ci ildə ətraf mühitə və inkişafa dair Rio-de-Janero-da keçirilən forum; 1994-cü ildə əhali artımı və inkişafa dair Qahirə görüşü; 1995-ci ildə sosial inkişafa dair Kopenhagen forumu;

qadınların vəziyyətinə dair 1995-ci il Pekin forumu; yaşayış məntəqələrinə dair i996-cı il İstanbul forumunun qərarları və s. göstərmək olar:

' idarəçilikdə milli kadrlann hazırlanmasına, iqtisadiyyatın dövlət bölməsində islahatların və iqtisadi siyasətin həyata keçirilməsinə, eləcə də xüsusi bölmənin İnkişafına şərait yaradılmasına köməklik göstərir;

- insan inkişafına, yoxsulluğun ləğv edilməsinə, məşğulluğun artırılmasına, ətraf mühitin yaxşılaşdırılması və s. problemlərin həllinə yaxından köməklik edir.

Qeyd etmək lazımdır ki, BMT müxtəlif adlı fonları və proqramları vasitəsilə hər il 4-5 mlrd, əvəzsiz yardımlar həyata keçirir.

BMTİP üzrə olan müxtəlif təyinatlı yardımlar çox vaxt uzun müddətə-5 ilə nəzərdə tutulur. Məsələn, 1992-1996-cı illər üçün illik yardım fondu (büdcə) təqribən 1 mlrd, dollar təşkil etmişdi. Bu vəsaitin yaranmasında əsas donor ölkələri inkişaf etmiş sənaye ölkələrindən ibarət olmuşdur (Cədvəl 13).

**Cədvəl 13**

| **Dövlətlər** | **İllik donor, mln. dollar** | **Dövlətlər** | **İllik donor, mln. dullar** |
|---|---|---|---|
| ABŞ | 199,5 | Norveç | 75,2 |
| Yaponiya | 98,1 | Hindistan | 5,1 |
| Niderland | 97,4 | Çin | 2,8 |
| Danimarka | 92,8 | Səudi Ərəbistan | 2,0 |
| İsveç | 79,2 | Tailand | 1,9 |
| Almaniya | 61,5 | | |

Aydındır ki, donor ölkələrin sayı dəyişməz deyil, artır, onların ayırdığı yardım da iqtisadi artımla bağlı olaraq artıb- azalır.

1977-ci ildən başlayaraq İnkişaf proqramının mərkəzi büdcəsinin 55%-i Ölkələrdə əhalinin hər nəfərinə düşən ÜDM- in həcminə görə, 11.8%-i regional prinsiplərə görə, 1,6% BMT-

**nin xüsusi maliyyə qurumları tərəfindən (proqrama əsasən), 0,5% inkişaf etməkdə olan ölkələrdə texniki əməkdaşlıq xətti ilə ödənilir.**

**Bunlarla yanaşı İnkişaf Proqramı bir çox dİgər beynəlxalq təşkilatlann birgə fəaliyyəti zəminində çoxtərəfli fondlardan istifadə edir. Bunlardan;**

**«Qlobal ekoloji fondu»;**

**«?OCI əsrin potensialı»;**

**«BMT-nin qadınlar üçün inkişaf fondu»;**

**«BMT-nin kapital inkişafı fondu»;**

**«Müəyyən xəstəliklərə qarşı mübarizə fondu» və s. qeyd etmək olar.**

**Bütün bunlarla yanaşı BMTİP öz strategiyasında ardıcıl olaraq əlavə ehtiyat mənbələrini də səfərbərliyə alır, iqtisadi və insan ehtiyatlarından səmərəli istifadə edilməsində öz təcrübəsinə əsaslanır.**

**Hazırda tP-in fəaliyyəti 150-dən çox ölkəni əhatə edir. Bu ölkələrdə 6500-dən çox layihə həyata keçirilir. Qeyd etməliyik ki, Azərbaycanın BMT-yə daxil olmasından bir qədər sonra, 1992-ci ilin payızında BMT İP-in Bakıda öz nümayəndəliyini yaratmışdır. BMTİP öz fəaliyyətinin ilk mərhələlərindən humanitar yardıma, xüsusilə Dağlıq Qarabağ münaqişəsindən zərərçəkənlərə fövqəladə humanitar yardıma üstünlük verir. Lakin vaxt keçdikcə BMTİP-in Azərbaycandakı fəaliyyəti də genişlənir.**

**Beləliklə, BMTİP öz fəaliyyətində yoxsulluğun azaldılması, insan hüquqlarının təşviqi, ətraf mühitin mühafizəsi, torpaqların minalardan təmizlənməsi, informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin artması və s. kimi problemlərə daha çox üstünlük verir.**

**Bu kimi problemlərin həlli üçün BMTİP 1994-2003-cü illərdə 65 layihənin yerinə yetirlməsi xətti ilə 36 mln. dollardan artıq yardım etmişdir. Bu vəsaitin 30%-i iqtisadi böhranların qarşısının alınması və bərpa işlərinə; 2Syo-i demokratik idarəçiliyin inkişafına; 22%-i enerji və ətraf mühitin**

12%-i yoxsulluğun azaldılması işlərinə; 6%-i informasiya və kommunikasiya texnologiyalarına sərf edilmişdir. Son vaxtlar Azərbaycanda inkişaf proqramının daha dinamik və ardıcıllığı artmışdır. Azərbaycan ərazilərinin minalardan təmizlənməsi üzrə milli Agentlik (ANAMA) yaradılmışdır. Elə həmin vaxtdan bu sahədə milli proqram hazırlanmış və ərazilərin minalardan təmizlənməsi məqsədilə 7 mln. dollar maliyyə vəsaiti sərf edilmişdir. BMTİP, son dövrlərdə Azərbaycanda baş verən inkişafı və müəyyən dəyişiklikləri müşahidə etmək məqsədi ilə 1995-cİ İldən başlayaraq, milli insan inkişafı üzrə hesabat da hazırlayır (Azərbaycan 1994-cü ildən BMT İP-in İnsan İnkişafı Konsepsiyasına qoşulubdur). İnkişaf proqramının əsas nəşri olan bu hesabat Azərbaycanın humanitar yardımdan insan inkişafına doğru olan dəyişiklikləri özündə əks etdirmişdir.

Neft sektoru ilə qeyri-neft sektoru arasında fərqi azaltmaq məqsədilə BMTİP-in Azərbaycandakı nümayəndəliyi «qara qtzılm», «insan qızılına» çevrilməsi ideyasını irəli sürmüşdür. Bu fikir ilk dəfə 2002-ci ilin aprel ayında keçirilən BMT İP-in yoxsulluq və məşğulluq məsələləri üzrə olan konfransda səslənmişdir. BMT İP-in rezident nümayəndəsi cənab Marko Borsotti demişdir ki, sürətlə inkişaf edən Şərqi Asiyanın bəzi ölkələri kimi Azərbaycanda insan potensialının inkişafına kapital qoyuluşunu artırmalıdır. Bu məqsədə nail olmaq üçün neftdən əldə edilən gəlirdən müxtəlif istiqamətlərdə istifadə etmək olar. Məsələn, xarici texnologiyalardan istifadə bacarığının öyrənilməsi üçün minlərlə azərbaycanlını xaricə göndərmək olar. Bu isə insan kapitalının inkişafına kömək edəcək.

BMT İP-in nümayəndəliyinin bu konsepsiyasına əsaslanaraq Azərbaycan yoxsulluğun azaldılmasına dair milli strategiya hazırlamış və 2002-ci ilİn oktyabr ayında Dövlət proqramı təqdim edilmişdir. Beləliklə BMT İP özünü bu proqramın icrasına yardım göstərmiş hesab edir. Bütün bu kimi nailiyyətləri nəticə etibarı ilə «qara qızıim» «insan qızılına» çevrilməsi işində əsas va.sitə sayır.

BMT İP-in bütün başqa sahələrdə olduğu kimi bu problemin icrasında da ardıcıl və dinamik iş apanlmasına köməklik edir. Belə ki, məsələn, yoxsulluğun azaldılması üzrə 2002- 2003-cü illər üçün 366169 min dollar ümumi vəsait sərf edilmişdir. Bu vəsaitin 319669 min dolları BMT İP büdcəsi, qalanı isə digər tərəflər hesabına Ödənilmişdir.

2003-2004-cü illər üçün isə yenə də yoxsulluğun azaldılması məqsədilə BMTİP üzrə «Əmək statistikası və regional inkişaf sahəsində Azərbaycana texniki yardım» layihəsi hazırlanmışdı. Bu layihənin həyata keçirilməsi üçün 265100 dollar vəsait xərclənməsi nəzərdə tutulmuşdur.

Yuxanda qeyd etdiyimiz kimi BMT İP ən çoxşaxəli maliyyələşdirmə sisteminə malik olan qurumlardan biridir. Bu mənada həmin təşkilatın «fÖvqəladə halların qarşısının alınması və bərpa» üzrə də kifayət qədər layihələri həyata keçirilir.

Bu layihə «Azərbaycan mina təhlükəsi mübarizə proq- ramı» adı altında həyata keçirir. Layihə 1999-2003-cü illəri əhatə etmişdir. Bu layihənin maliyyələşdirilməsi üçün 6.048.340 dollar vəsait ayrılmışdır.

Bu vəsait aşağıdakı mənbələr hesabına həyata keçirilmişdir:

| | |
|---|---|
| 1. Avropa komissiyası | 1.600.000 dol. |
| 2. ABŞ | 1.521.039 dol. |
| 3. BMTİP | 1.013.436 dol. |
| 4. Azərbaycan | 600.000 dol. |
| 5. Yaponiya | 486.725 dol. |
| 6. Beynəlxalq əməkdaşlıq departamenti | 450.000 dol. |
| 7. İtaliya | 200.000 dol. |
| 8. Norveç | 112.140 dol. |
| 9. Kanada | 65.000 dol. |

Bu layihənin köməkliyi ilə 4.250.000. kv.m şübhəli ərazi minalardan təmizlənib, 3.000 ədəddən çox partlamamış mərmilər, 53 tank əleyhinə mina məhv edilmişdir.

Bütün bu işlərin görülməsi üçün 10 nəfərdən ibarət texniki yoxlama dəstəsi və 106 nəfərdən ibarət minalardan təmizlənmə dəstəsi yaradılıb və tam gücü ilə fəaliyyət göstərmişdir.

BMT İP-in fəaliyyətində həyata keçirilən layihələrdən bİri də «Enerji və ətraf mühit)> problemidir. Bu layihə «Xəzər Ekoloji Proqramı çərçivəsində Transsərhəd Ətraf Mühit Problemlərinin həlli» adlanmışdır. Bu layihə 1999-2003-cü illəri əhatə edir. Layihənin ümumi büdcəsi 5574124 dollara bərabər olmuşdurö Bu vəsaitin 5274603 dolları Qlobal Ekoloji Fond tərəfindən ödənilmişdir,

BMT İP həyata keçirdiyi layihələrdə « İnkişaf üçün milli informasiya Kommunikasiyası texnologiyaları Strategiyası və onun ilkin mərhələdə icrası» layihəsi də mərkəzi yerlərdən birini tutur. Bu layihə 2002-2004-cü illər üçün nəzərdə tutulmuşdur. Layihənin icrası üçün 1.200.000 dollar (BMTİP- in xətti ilə Azərbaycan-600.000 dol.) nəzərdə tutulmuşdur.

Onu qeyd etməliyik ki, BMT İP çərçivəsində və yaxud birgə fəaliyyət şəraitində BMT-nin «Qaçqınlar üzrə Ali Komissarlığınm»; «Ümumdünya ərzaq proqramının»; «BMT- nin uşaq fondunun»; «BMT-nin əhali fondunun»; «BMT-nin İctimai informasiya departamentinin»; «Beynəlxalq miqrasiya təşkilatımn»; «Ümumdünya səhiyyə təşkilatının»; «Qadmlar üçün inkişaf fondunun» və bu kimi qurumlarında böyük rolu vardır.

## Bölmə XIV. Beynəlxalq Valyuta Fondu (BVF) və dünya təsərrüfatında BİM-in inkişafı

***14.1.Beynəlxalq Valyuta Fondunun strukturu və üzv dövlətlərin kvotaları.***

***14.2.BVF-nun fəaliyyətinin xüsusiyyətləri və üzv ölkələrə kreditin verilməsi siyasəti.***

***14.3.BVF-u ilə Azerbaycan arasında əlaqələrin inkişaf meylləri.***

14.1. Beynəlxalq Valyuta Fondu (BVF) 1945-ci ildə yaradılmışdır və BMT-nin ixtisaslaşdırılmış idarələrindən biridir. 183 ölkə üzvüdür.

Beynəlxalq Valyuta Fondunun yaradılması, məqsədləri və bu məqsədlərlə birlikdə onun dünya iqtisadiyyatında necə rol oynadığını daha dərindən başa düşmək, fonda qərarların verilməsi sistemini öyrənmək üçün, fondun strukturu ilə tanış olmaq, buradakı hər bir səlahiyyətli ştabın hansı vəzifələri yerinə yetirdiyini öyrənmək çox vacibdir. Qeyd edək ki, idarəetmə zənciri və əmrlərin ardıcıllığı üzv ölkələrin yerli hökümətləri səviyyəsindən BVF-nin ali orqanlarına qədər uzanır. Burada İdarəedici Şura, İcraedici Şura, İdarəedici direktor və heyət və s. daha mühüm rol oynayır. Qısaca da olsa, onların nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik.

İDARƏEDİCİ ŞURA (Board of Governors). Konkret olaraq bu şura aşağıdakı səlahiyyətlərə və vəzifələrə malikdir;

a) İcraedici Şuranın üzvləri, İcraedici Direktor İdarəedici Şurada müəyyənləşdirilirlər (yaxud seçilir) İdarəedici Şuraya bir İdarəedici və bir Əvəzedici daxil olunur və bunlar üzv ölkələr tərəfindən təyin edilirlər (əgər həmin ölkənin təyin etmə hüququ varsa). Hər bir İdarəedici və Əvəzedici yeni təyinatlar müəyyən edilənə qədər xidmət edir. Heç bir Əvəzedici, başçının olmadığı hal istisna olmaqla, səsvermədə iştirak edə bilməz (səs verə bilməz). İdarəedici Şura bir idarəedicini başçı kimi seçməlidir;

b) İdarəedici Şura özünün hər hansı bir səlahiyyətini, yaxud bu səlahiyyətdən istifadə etmək hüququnu İdarəedici

Şuraya verə bilər. Yalnız Baş Razılaşma ilə birbaşa olaraq İdarəedici Şura verilmiş səlahiyyətlər istisnalıq təşkil edir;

c) İdarəedici Şura ona, yaxud İcraedici Şuraya lazım olan görüşləri keçirməlidir. İdarəedici Şuranın yığıncaqları vaxtından asılı olmayaraq, əgər 15 üzv tərəfindən, yaxud ümumi səsvermə gücünün dövrdə birinə sahib üzv tərəfindən tələb olunarsa, keçirilir;

d) İdarəedici Şuranın yığıncaqları üçün iştirakçıların elə bir hissəsi təmsil olunmalıdır ki, onlar ümumi səsvermə gücünün üçdə iki hissəsindən az paya malik olmasınlar;

e) İdarəedici Şura müvafiq prosedura ilə, əgər hər hansı bir xüsusi əhəmiyyətə malik məsələ fondun maraqlarına son dərəcə xidmət edirsə, bu zaman Şura yığıncaq çağırmaqdan da İdarəedicilərin səslərini əldə edə bilər (müəyyən qərara gələ bilər);

q) İdarəedici Şura və İcraedici Şura genişləndirilmiş səlahiyyətlərlə fondun öz işini bilməsi üçün lazım gəldikdə yeni qaydalar və tənzimləmələrdən də istifadə edə bilərlər.

g) İdarəedici və Əvəzediciləri Fonddan heç bir kompensasiya almadan işləməlidirlər, lakin Fond, əgər yığıncaqlara görə hər hansı əlavə xərc yaranarsa onu ödəyir;

h) İdarəedici Şura İcraedici direktorlara və Əvəzedicilərə ödənilməli olan pulun məbləğini müəyyənləşdirməlidir, həmçinin İdarəedici Direktorun (Managing Direktor) maaşım və onun xidməti haqqındakı kontraktın şərtlərini də müəyyənləşdirir;

i) İdarəedici Şura və İcraedici Şura yeni komitələr də yarada bilərlər (əgər buna ehtiyac olarsa və məsləhət görülərsə). Bu komitələrin üzvləri yalnız İdarəedicilərdən, İcraedici Direktorlardan yaxud onların Əvəzedicilərindən ibarət olmaya da bilər.

## İcraedici Şura

**a)** İcraedici Şura fondun bütün biznesinə cavabdehdir. Bu məqsədlə, o İdarəedici Şura tərəfindən ona verilmiş bütün

səlahiyyətlərdən və gücdən istifadə etmək səlahiyyətinə malikdir;

b) İcraedici Şura İcraedici Direktorlardan və başçı kimi İdarəedici Direktordan ibarət olmalıdır. İcraedici Direktorların tərkibi isə aşağıdakı kimidir;

I) onların beşi beş ən böyük kvotaya malik üzv ölkələr tərəfindən təyin olunur;

II) on beşi isə digər üzvlər tərəfindən seçilməlidir;

İcraedici Direktorlann hər dəfə müntəzəm seçkisi zamanı, İdarəedici Şura Ümumi səsvermə gücünün 85 %-nin dəstəyi ilə İcraedici Direktorların sayım artıra və ya azalda bilər;

c) İcraedici Direktorların hər bir seçkisi üçün İcraedici Şura İcraedici Direktorlar seçmək üçün tələb olunan səslərin miqdannda dəyişiklik etməklə yeni qaydalar müəyyənləşdirilə bilər;

d) Hər bir İcraedici Direktor da öz növbəsində onun yoxluğu zamanı onu tam əvəz edə biləcək gücdə olan Əvəzedici təyin etməlidir, icraedici Direktorun olduğu vaxtlarda da Əvəzedicilər yığıncağında iştirak edə bitər, lakin, səs verə bilməzlər;

e) İcraedici Direktorlar öz işlərinə yenisi təyin olunana, yaxud seçilənə qədər davam etməhdir. Əgər seçilmiş İcraedici Direktorun yeri onun vaxtı başa çatmamışdan əvvəl 90 gündən çox boş qalarsa bu zaman əvvəlki İcraedici Direktoru seçmiş üzv Ölkələr qalan vaxt üçün yeni bir İcraedici Direktor seçməlidirlər. Seçki üçün səs çoxluğu tələb olunur. Yerin boş qaldığı vaxtlarda isə keçmiş İcraedici Direktorun Əvəzedici onun bütün səlahiyyətlərindən istifadə etməlidir, yalnız o, artıq özünə yeni bir Əvəzedici seçə bilməz;

0 İcraedici Şura cari sessiyada Fondun baş ofisində öz funksiyalannı yerinə yetirməli və Fondun işləri nə qədər tələb edərsə, o qədər də yığıncaqlar keçirməlidir;

g) İcraedici Şuranın yığıncaqlarının baş tutması üçün İcraedici Direktorlann çoxluğunun iştirakı tələb olunur ki, bu çoxluq da ümumi səsvermə gücünün yarısına sahib olmalıdır və s.

## icraedici Direktor və heyət

a) İcraedici Şura İdarəedici Direktor seçməlidir və o, İdarəedici yaxud, İcraedici Direktorlardan olmalıdır. İdarəedici direktor İcraedici Şuranın Başçısıdır, lakin, onun səsvermə hüququ yoxdur yalnız, səslərin bərabər olduğu hallar istisna olmaqla (yəni bu zaman Direktor həlledici səsvermə hüququna malikdir). O, həmçinin İdarəedici Şuranın yığıncaqlarında da iştirak edə bilər ki, bu zaman da onun yenə səsvermə hüququ yoxdur. Əgər İcraedici Şura qərarı alarsa bu zaman İdarəedici Direktor öz postunu tərk etməlidir.

b) İdarəedici Direktor əməliyyat heyətinə başçılıq etməlidir və İcraedici Şuranın da iştirakı ilə Fondun biznesini yönəltməkdə iştirak etməlidir;

c) İdarəedici Direktor və heyət özlərinin bütün səlahiyyətlərinə və funksiyalarına görə heç bir başqa səlahiyyətli şəxsə yox, Fonda borclu olmalıdır, (yənİ Fonda işləməlidirlər hər hansı bir səlahiyyətliyə yox). Fondun hər bir üzvü özünün vəzifələrinin beynəlxalq xarakterinə hörmət etməli və başqalarına da təsir edə biləcək funksiyalarından, kənar təşəbbüslərdən özünü saxlamalıdır;

d) İdarəedici Direktor heyəti təyin edən zaman, ən böyük diqqət işin mükəmməllik standartlarının qorunmasına, texniki cəhətdən yaxşı təşkil olunmasına və personalın mümkün qədər geniş coğrafi arenadan çağırılmasına yetirilməlidir.

## Səsvermə

Hər bir üzv 250 səsə malikdir. Əgər hansısa bir xüsusi hal nəzərdə tutulmayıbsa Fondun bütün yığıncaqları səs çoxluğunun razılığı itə həyata keçirilməlidir. (Azərbaycamn sahib olduğu səslərin miqradı və s. haqda irəlidə məlumat verilir).

BVF-nun ehtiyatları və gəlirlərin bölüşdürülməsinə gəldikdə isə, aşağıdakılar mütləq qeyd olunmalıdır:

a) Fond illik müəyyənləşdirilir ki, onun xalis gəlirinin nə qədəri ümumi ehtiyatlara (general reserves), yaxud xüsusi

ehtiyatlara (spesial reserves) yatınimah və hər hansı hissəsi bölüşdürülməlidir (əgər bölüşdürüləcək ümumiyyətlə bir hissə varsa);

b) Fond xüsusi ehtiyatlardan yalnız bölüşdürmə istisna otmaqla ümumi ehtiyatlardan istifadə etdiyi bütün məqsədlər üçün istifadə edə bilər;

c) əgər hər hansı bir il üçün xalis gəlir bölüşdürülürsə, onda bu bütün üzvlərə, həm də onlann kvotalarına uyğun olaraq bölüşdürülməlidir;

d) Fond, ümumi səslərin yetmiş faizinin dəstəyi ilə ümumi ehtiyatların istənilən hissəsini bölüşdürmək qərarına gələ bilər. Hər hansı bir bölüşdürmə isə (c) bəndinə (yuxanda) uyğun aparılmalıdır;

e) yuxarıda (c) və (d) bəndlərində göstərilmiş bölüşdürmələr SDR-lə aparılmalıdır. Lakin, əgər Fond və üzv ölkə razılaşarsa onda həmin ölkənin valyutası ilə də ödəmə edilə bilər.

Üzv ölkələrin kvotalarına gəldikdə isə burada əsasən Azərbaycana qonşu ölkələrin, MDB ölkələrinin, habelə bəzi İEÖ-nin kvotalannı nəzərdən keçirək (cədvəl 14).

**Cədvəl 14**

**BVF bəzi ölkələrinin kvotaları (2008-ci il)**

| **Kvota** | **Kvota** | | **tdarəedici** | **Səslər** | |
|---|---|---|---|---|---|
| | **Milyon SDR** | **Ümumi həcmi, %** | | **Sayı** | **Ümumidə xüs. Çəki,** |
| Azərbaycan | **160,9** | **0.08** | Samir Şərifov | **1,859** | **0,09** |
| Ermənistan | **92,0** | **0,04** | Varlan Koçaryan | **1,170** | **0,05** |
| Kanada | **6369,** | **2,99** | Jon Manley | **63,94** | **2.94** |
| Fransa | **10738,** | **5,05** | Fransis Mer | **107,63** | **4,95** |
| Gürcüstan | **150.5** | **0,07** | İraklü Manaqaqze | **1,753** | **0,08** |
| Y unanıstan | **823,0** | **0,39** | Nikolas C.Garqanos | **8,840** | **0,39** |
| tran | **1497,** | **0,70** | İbrahim Şeybani | **15,22** | **0,70** |
| ttaiiya | **7055,** | **3,32** | Giolio Tremonti | **70,80** | **3,26** |
| Yaponiya | **13312,** | **6,26** | Masajuro Şikoda | **133,37** | **6,14** |

| | | | | | |
|---|---|---|---|---|---|
| Qazaxıstan | 365,7 | 0,17 | Griqorı Marçenko | 3,907 | 0,18 |
| Qırğızıstan | 88,8 | 0,04 | Ulan Sarbanov | 1,138 | 0,05 |
| Rusiya Fed. | 5945,4 | 279,0 | Aleksey Kudrin | 59,704 | 2,75 |
| Səudiyyə Ərəbistanı | 6985,5 | 3,28 | İbrahim A.A. 1 - Assaf | 70,105 | 3,23 |
| Tacikistan | 87,0 | 0,04 | Murotali M. Alimardanov | 1,120 | 0,05 |
| Türkiyə | 964,0 | 0,45 | Əli Babacan | 9,890 | 0,46 |
| Türkmənistan | 75,2 | 0,04 | İmamdurdu Grandimov | 1,002 | 0,05 |
| Ukrayna | 1372,0 | 0,64 | Serqey Tiginko | 13,97 | 0,64 |
| Britaniya | 10738, | 5,05 | Gordan Broun | 107,6 | 4,95 |
| ABŞ | 37,149,3 | 17,4 | Jon U.Snou | 371,7 | 17,0 |
| Özbəkistan | 275,6 | 0,13 | MoUacanov Feyzulla | 3,006 | 0,14 |

Göründüyü kimi MDB məkanında BVF üzv olan Azərbaycanın kvotası Ermənistan və Gürcüstandan çoxdur. Kvotanın həcminə görə BVF-da ABŞ birinci yerdə gedir. BVF-da üzv ölkələrlə hesablaşmalar əsasən SDR-lə həyata keçirilir.

## SDK

Növbəti paraqraflarda biz tez-tez İşlədəcəyik ki, BVF Azərbaycana, məsələn, 1996-cı il, 17 noyabrda 58,5 milyon SDR, 1996-cı il, 20 dekabrda 152,1 milyon SDR məbləğində kredit təsdiqlədi və s. Bu baxımdan SDR-lə tanış olmaq, onun mahiyyətini açıqlamaq çox yerinə düşər.

SDR-(Spesial drawinq right), yəni xüsusi pul götürmə hüququ mənasında işlədilir. O, 1969-cu ildə BVF tərəfindən yaradılır. Bu dövrədək əsas ehtiyat aktivi kimi qızıl və ABŞ dolları işlənirdi. Üzv ölkələr isə istəmirdilər ki, qlobal ehtiyatlar qızıl istehsalından, yaxud tədiyyə balansında defisitlə müşayiət olunan ABŞ dollarından asılı olsun. SDR də bu dövrdə əlavə ehtiyat aktivi kimi yaradıldı və BVF bununla üzv

ölkələrlə hesablaşmalar aparmağa başladı. SDR bəzən «Kağız qızıb) kimi də tanmır. Lakin, onun fizikİ forması yoxdur. BVF 21,4 milyard SDR (təxminən 29 milyard dollar) üzv ölkələrə bölüşdürülüb (yəni mühasibat hesablaşmalarında, çünki onun qeyd etdiyimiz kimi fiziki forması yoxdur). Üzvlərin sayı artdıqca bu bölüşdürmə davam BVF-nun üzvləri SDR*dən öz aralarında və BVF ilə olan hesablaşmalarında istifadə edə bilərlər. SDR qeyd olunduğu kimi BVF-nun hesablaşma vahididir. Bir sıra digər beynəlxalq və regional təşkilatlar da bunun əsas hesablaşma vahidi kimi, yaxud hesablaşma vahidinə baza kimi istifadə edirlər. SDR-in dəyəri gündəlik olaraq 4 mühüm valyutanın daxil olduğu səbətə uyğun olaraq təyin olunur. 2003-cü il 30 may üçün 1 SDR = 1,41995 $; 1 dollar=0,704249 SDR. Həmin səbətə daxil edilmiş valyutalara isə beş ildən bir yenidən baxış keçirilir və onların iqtisadi yyatmdakı yeri müəyyənləşdirilir. Hazırda bu səbətə Yaponiya yeni fund sterlinq, ABŞ dolları və avro daxildir.

14.2. Beynəlxalq aləmdə iqtisadi və maliyyə stabilliyini qorumaq, habelə üzv ölkələrə iqtisadi yardımlar etmək üzrə ixtisaslaşmış institut olan BVF-nun məqsədləri və bu məqsədlərə ən yüksək dərəcədə nail olmaq üçün yaradılmış təşkilatı strukturu ilə tanış olduq. Məhz məqsədlər struktur fondun fəaliyyəti üçün baza formalaşdırır. BVF-nun fəaliyyəti isə üç mühüm növbədə həyata keçirilir. Birincisi, təftiş-nəzarətlə əlaqədardır, iqtisadi və maliyyə sahələrindəki monitorinqlərdə həyata keçirilir, məqsəd isə əsasən böhranların öyrənilməsidir. İkincisi, BVF-nun borc verməsi ilə əlaqədar maliyyələşdirmə fəaliyyətidir. Üçüncüsü, BVF-nun texniki yardımları ilə əlaqədar fəaliyyətidir. Lakin burada biz yalnız ən mühüm fəaliyyət sahəsi olan borc vermə fəaliyyəti İlə tanış olacağıq.

BVF-nun mühüm funksiyalarından biri tədiyyə balansı problemləri yaşayan ölkələrə iqtisadi inkişafı əldə etmək üçün borclar verməkdir. Məhz BVF-nun yardımları ölkələrə (iqtisadi çətinliklərlə üzləşən) beynəlxalq ehtiyatlarını möhkəmləndirməyə, valyutalarını stabilləşdirməyə və ticarət məh- 

dudiyyəti idxala qoymadan importa ödəmələr etməyə imkan verir. İnkişaf banklarından fərqli olaraq BVF xüsusi layihələr üçün əsasən kredit vermir.

Fondun verdiyi borclara və maliyyələşdirmə mexanizmlərinə keçməzdən əvvəl borc alan ölkələrlə qısaca tanış olaq.

BVF-nun verdiyi borca adətən ölkənin həqiqətən borc almağa ehtiyacı olduğunu göstərən iqtisadi vəziyyəti Özündə əks etdirən razılaşma sənədi ilə təchiz edilir. Bu razılaşma İcraedici Şura tərəfindən təsdiqlənməlidir və bu İcraedici Şuraya niyyət məktubu vasitəsilə təqdim olunur. Borclar (kreditlər) proqram həyata keçirildikcə əvvəlcədən planlaşdırılmış qaydada verilir. Onu da qeyd edək ki, müəyyən dövrlərdə BVF- nun verdiyi borcların həcmi əhəmiyyətli dərəcədə dəyişmişdir. Xüsusən, İ970-Cİ illərin neft böhranından və 1980-cı illərin neft böhranından sonra BVF-nun verdiyi kreditlərin həcmində kəskin artmalar müşahidə olunmuşdur. Əlavə olaraq 1990-cı illərin əvvəllərindəki Mərkəzi və Şərqi Avropa ölkələrində baş verən keçid prosesləri və İEOÖ-dəki bəzi böhranlar BVF-nun kreditlərinə olan tələbatı daha da artırdı. Bu cür dəyişkən dövrlər bir-birini əvəz etdikcə BVF-də lazım olan ölkələrə vermək üçün müxtəlif nÖv kreditlər müəyyənləşdirirdi. Kreditlər imtiyazlı və imtiyazsız kimi iki mühüm hissəyə ayrılır. Belə ki, aşağı gəlirli ölkələr PRGF krediti üzrə az faiz dərəcəli borclar ala bilərlər. Digər imtiyazsız borclar isə beş mühüm kreditləşmə üzrə verilir. Bunlara aşağıdakılar aiddir:

1. «Stend-bay» kreditləri (SBA) (Stand-By arrangements);
2. Genişləndirilmiş Fond kreditləri (EFF) (Extended Fund Facility);
3. Əlavə Ehtiyat kreditləri (SRF) (Supplemental Reserve Facility);
4. Kontingent kredit (CCL) (Continqent Credit Lines);
5. Kompensasiya edici kreditlər (CFF) (Compensatoru Financinq Facility).

Həmçinin fövqəladə kömək üzrə (Emergency assistance) maliyyələşdirmə də mövcuddur.

**Qeyd etdiyimiz bu maliyyələşdirmə mexanizmləri ilə nisbətən yaxından tanış olaq. Həm də nəzərə alsaq ki, Azərbaycan da bunların istifadəçilərindən biridir (yalnız bəzilərinin, çünki elə kreditlr var ki, onlan bizim ölkənin almağa iqtisadi gücü imkan vermir) onda onlara olan marağınuz daha da artar,**

**PRGF (Poverty Reduction And Growth Facility), Yox-sulluğun Azadılması və İqtisadi Artımın Maliyyələşdirilməsi Mexanizmi,**

**BVF uzun illərdir ki, (daha doğrusu 1970-ci illərin son-lanndan başlayaraq) yoxsulluğun azaldılması və iqtisadi inkişafa nail olmaq üçün ölkələrə yardımlar edir. Həmin Ölkələrə yardımlar əsasən az faiz dərəcələri ilə ESAF (Enhan- ced Structural Adjusment Facility, Strukturun yaxşılaşdırılması kreditləri) kreditləri üzrə verilirdi. Lakin, 1999-cu ilin noyabrında qəbul edilmiş qərarla ESAF kreditləri PRGF kreditləri ilə yaxud Yoxsulluğun azaldılması və İqtisadi Artımın Maliyyələşdirilməsi Kreditləri ilə əvəz olunur. Adından da göründüyü kimi, əsas məqsəd məhz birbaşa yoxsulluğun azaldılmasından ibarətdir. PRGF kreditlərinin yaranmasının labüdlüyünü isə belə izah edə bilərik. Belə ki, 1999-cu illər ərzində 3,2 mlrd, əhaliyə malik olan 56 ölkə SAF və ESAF kreditləri (ESAF krediti SAF-ın nisbətən genişləndirilməsi formasıdır) alıb. Bunlara əlbəttə azgəlirlİ ölkələrə müəyyən qədər müsbət təsiri olub, lakin, təəsüf ki, istənilən nəticələr əldə olunmadı. Nəticədə bu hökümətləri, beynəlxalq təşkilatlan öz strategiyalarına yenidən baxmağa vadar etdi (Azərbaycanın da istifadə etdiyi kreditlər içərisində PRGF böyük paya malik olduğuna görə bu kredit haqda nisbətən geniş məlumat verməyə çalışırıq). Beləliklə, 1999-cu ildə BVF və Dünya Bankının illik yığıncağında üzv ölkələrin Nazirləri yeni yanaşma qəbul etdilər. Burada BVF və Dünya Bankının imtiyazlı borc siyasətinə əsaslanaraq yeni, ölkədə mövcud yoxsulluğun azaldılması strategiyasının işlənməsi qərara alındı. Yeni yanaşma əvvəlkindən kasıb ölkənin xüsusiyyət-** 

lərinin tamamilə nəzərə alınması ilə fərqlənirdi. Onu da qeyd edək ki, heç bir proqram, o cümlədən, bu da dərhal öz müsbət nəticələrini vermir. Bunun üçün hökümətin (və onun əməkdaşlıq etdiyi təşkilatların) uzun müddətli işləmələri tələb olunur. Nailiyyət əldə etmək üçün isə ilk növbədə iştirakçı ölkə Yoxsulluğun Azaldılması Strategiyası Sənədinə (kredit almaq üçün lazım olan mühüm sənəd) «master» plan hazırlanmalıdır. Bu geniş plan BVF-na həmin ölkəyə ən effektiv yardım etmə imkanı verir (BVF bu plana görə qiymətləndirmə aparır). Ümumiyyətlə, PRGF üzrə verilən borclar yoxsulluğun Azaldılması Strategiyası Proqramına (PRSP) əsaslanır. Bu sənəd isə ölkə tərəfindən müxtəlif sivil cəmiyyətlərlə və xüsusən, Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində hazırlanır. PRGF üzrə faiz dərəcələri yalnız 0,5-dir (illik). Borcu qaytarmaq vaxtı isə 10 ildən çox deyildir.

PRGF üzrə az faiz dərəcəli kreditlər 1987-ci ildə yaradılnuş PRGF xəzinəsi tərəfindən təhciz edilir və bu xəzinədarlığın işi aşağıdakılardan ibarətdir:

- Mərkəzi banklardan, hökümətlərdən, dövlət institutlarından borc almaq və onu PRGF üzrə uyğun ölkələrə verir.
- PRGF üçün pul verənlərin təhlükəsizliyini qorumaq üçün ehtiyat hesablar yaradır (yəni PRGF borcu alan Ölkənin onu qaytara bilmə ehtimalı da nəzərə almır).

Ehtiyat hesabın resursları isə ilk növbədə BVF-nun 1970-ci illərin ortalarından başlamış qızıl satışlanndan və investisiya gəlirlərindən təşkil olunur. Ehtiyat hesabı PRGF üçün bütün borc verənlərin ümumi razılığı olmadan heç bir başqa məqsəd üçün istifadə edilə bilməz. Cari dövrdə PRGF kreditlərinin 17 donoru var:

1. Kanada höküməti;
2. Çin höküməti;
3. İspaniya höküməti;
4. Agence Française de development (Fransa İnkişaf Agentliyi);

5. İtaliya Bankı;
6. Kreditanstalt fiir Wiederaufbau (Almaniya);
7. Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı;
8. Koreya bankı;
9. Niderland Bankı;
10. Norveç Bankı;
1 l.OPEC-in Beynəlxalq İnkişaf Fondu;
12. İspaniya Bankı;
13. İsveç Konfederasiyası;
M.İsveç Milli Bankı;
15. Belçika Milli Bankı;
lö.Danimarka Milli Bankı;
n.Misir Mərkəzi Bankı.

PRGF borclarının davamlılığı haqda qeyd etmək lazımdır ki, 2001- 2002-ci illərdən PRGF xəzinəsindən verilən borcları əlavə 4 il müddətində aralıq kreditlər, yəni aralıq PRGF kreditləri izləyəcək ki, bunların da ümumi dəyəri 1 mlrd. SDR, yaxud 1,3 mlrd, dollar təşkil edəcək. Artıq PRGF kreditlərinin də məqsədi cari PRGF kreditləri ilə eynidir. Yəni, davamlı iqtisadi inkişafa nail olmaq və yoxsulluğu azaltmaq. Az faizli kreditlərin 2005-ci ildən sonrakı dövr üçün davamlılığına gəldikdə isə qeyd edək ki, bu zaman həmin vaxt üçün yenidən qiymətləndirmə aparmaq lazım gələcək və bu borcların böyük hissəsini BVF-nun PRGF xəzinə hesablarına toplanmış öz resursları hesabına verməsi gözlənilir. Lakin, bu resurslar yalnız PRGF-ə borc vermiş ölkələrin, institutların bankların (yuxanda qeyd etmişik) borcları ödənildikdə və beləliklə Ehtiyat Hesaba ehtiyac qalmadıqdan sonra istifadə oluna biləcək. Aralıq kreditlər üçün ümumi borc resurslarının məbləği 4-4,5 mlrd. SDR, yaxud 5-6 mlrd. ABŞ dolları müəyyənləşdirilib.

Cari dövrdə PRGF kreditləşdirməsi üzrə borc verilə biləcək ölkələr isə aşağıdakı cədvəldə verilib:

**Cədvəl 15**

**PRGF kreditləşdirilməsi üzrə borc verilə biləcək ölkələr**

| | | | |
|---|---|---|---|
| i)Albaniya | 2I)Kote | 40)Lesoto | 60)Seneqal |
| 2)Anqola | Divuar | 41)Liberiya | 61 )Şire Leone |
| 3)Azərbaycan | 22)Reibauii | 42)FYR | 62)Solomon |
| 4)Banqladeş | 23) Dominika | 43)Madaqaskar | ad. |
| 5)Benin | 24)Efiopiya | 44)Malavi | 63)Somaliya |
| 6)Butan | 25)Erifriya | 45)maldivas | 64)Şri-Lanka |
| 7)Bo!qarİya | 26)Qomboa | 46)Mali | 65)Sl.Lusiya |
| 8)Bosniya | 27)Giücüslan | 47)Mavritaniya | 66)Sudan |
| və Herso- | 28)Qana | 48)Moldova | 67)Tacikislan |
| qovina | 29)Qrenada | 49)Monqolustan | 68)Tanzaniya |
| 9) Burkina Faso | 30)Qvineya | 50)Mozambik | 69)Toqo |
| 10) Burundi | 31 )Qvineya | 5I)Muanmar | 70)Tonqo |
| 11) Kamboca | Bissau | 52)Nepal | 71)Uqanda |
| 12) Kamerun | 32)Quyana | 53)Nikoraqua | 72)Vanuatu |
| 13) Kape Verde | 33) Şaiti | 54)Niger | 73)Vyetnam |
| 14) Əfqanıstan | 34)Hondrans | 55)Nigeriya | 74) Yəmən |
| 15) Ermənistan | 35)Hindistan | 56)Pakistan | Res. |
| 16) MƏR | 36)Keniya | 57)Ruanda | 75)Zanbiya |
| 17)ÇAD | 37)Kirobati | 58)Samoa | 76)Zimbabve |
| 18) Komors | 38)Qırğızıstan | 59)Sao Tome və | |
| 19) Konqo DR | 39)Lao, PDR | Prinsipi | |
| 20) Konqo Res. | | | |

Ümumiyyətlə, BVF kasıd ölkələrə yalnız PRGF kreditləri üzrə yox, həm də ağır borclu Ölkələrə verdiyi ayrıca HİPC kreditləri üzrə də (həmin ölkələrin borcdan qurtarmasına yardım etmək üçün) borclar verir. Lakin, HİPC kreditlərini Azərbaycan almadığı üçün (daha doğrusu onu Azərbaycana vermirlər) ondan bəhs olunmayacaq.

İmtiyazsız, tam faiz dərəcəli kreditlər isə yuxarıda qeyd etdiyimiz kimi 5 növdədir. Onlardan birincisi;

**Stend-bay (Stand-By Arrangements)** kreditləridir. Birinci dəfə 1952-ci ildə istifadə olunub və qısa müddətli tədiyyə balansı çətinlikləri zamanı verilir. Hazırda BVF-nun ən çox istifadə olunan kreditidir, Kredİtləşmə müddəti 12-18 aydır. Bor

**cun ödənilməsi əgər heç bir vaxt uzadılması nəzərdə tutulmayıbsa 2 1/4-4 ü ərzində həyata keçirilməlidir. Əlavə faiz dərəcələri isə kredit götürməyə yüksək imkanlar açır (yəni faizi ödəyən krediti asan götürür). Lakin, bu kredit uzun müddətli tədiyyə balansı problemlərini həll etmək üçün nəzərdə tutulmayıb, bunun üçün aşağıdakı maliyyələşdirmədən istifadə olunur.**

**Genişləndirilmiş kreditləşdirmə sistemi (Extendend Fund Facility (EFF)). 1994-cü ildə iqtisadiyyatın strukturu ilə əlaqədar olan uzun müddətli tədiyyə balansı problemlərini həll etmək məqsədilə yaradılıb. Bu kreditin verilməsi nisbətən uzun -3 ilə qədər sürə bilər, ödəmələr isə 4 1/2-7 il ərzində həyata keçirilir (əgər vaxtın uzadılması nəzərdə tutulmursa). Lakin ödəmə öhdəliyi 4 1/2-19 ildir. Stend-Bayda isə (yuxarıda) ödəmə öhdəliyi pulun götürülməsi vaxtından 3 1/4-5 ildir. Ümumiyyətlə qeyd edək ki, Genişləndirilmiş kreditləşdirmə üzrə verilən kreditlər struktur çatışmamazlıqlan ilə əlaqədar olaraq yaranan iqtisadi çətinlikləri həll etməyə yönəldiyindən ilk növbədə özünə iqtisadi mexanizmlərin işləmə funksiyalarının təkmilləşdirilməsini daxil edir. Bura isə vergi və maliyyə sektortarmda islahatlarm aparılması, dövlət müəssisələrinin özəlləşdirilməsi, əmək bazarında elastikliyin artırılması aiddir. Həmçinin yuxarıda qeyd etdik ki, bu krediti alan ölkənin onu 4 1/2 -7 il ərzində qaytarması gözlənilir, lakin, əgər müəyyən səbəblərdən bu dövrdə qaytara bilməyəcəyini görərsə onda öhdəliyi götürdüyü müddət bitən zaman, yəni 4 1/2 -10 il ərzində qaytarmalıdır və bu haqda BVF-nun İcraedici Şurasına müraciət etməlidir. Bu kreditlər üzrə ödənilə biləcək faizlər ümumi Ehtiyatlar Hesabı (GRA) tərəfindən müəyyənləşdirilir. Bu da öz növbəsində həftəlik SDR faiz dərəcələri ilə proporsiyada müəyyənləşdirilir və BVF-nun hər bir maliyə kvartah ərzində bütün GRA üzrə veriləcək məbləğlərin gündəlik balansına aid edilir.**

**Əlavə Ehtiyat Kreditləri (Supremental Reserve Facility, SRF). Bu ük dəfə 1997-ci ildə təqdim olunub və qısa müddətli, lakin, böyük həcmdə maliyyələşdirmədir. Kredit gözlənilmə-**

yən hallarda qəfil, daxili bazardakı vəziyyətin pisləşməsinə görə xaricə küllü miqdarda kapital axınının nəticəsində tədiyyə balansı problemlərinin yarandığı vaxt verilir. Bu çətinlik 1990- cü illərin əvvəllərində inkişaf edən bazarlarda özünü tam açıqlığı ilə göstərdi, belə ki, həmin dövrdəki xaricə massiv kapital axınları BVF-dan o dövrə qədər tələb olunmamış miqyasda borc tələb olunması ilə nəticələndi. Bu səbəbdən əlavə Ehtiyat Krediti təşkil olundu. Onun qaytarılma müddəti 2-2,5 ildir. Lakin, ölkələr 6 ayda əlavə vaxt üçün müraciət edə bilərlər.

**Kontingent Kreditləşdirmə sistemi** (Contingent Credit Lines). Bu kredit, başqalanndan ilk növbədə onunla fərqlənir ki, **böhranı aradan qaldırmaq üçün yox, böhran baş vermədən onu qabaqlamaq üçün verilir.** Kredİt 1999-cu ildə, ölkələrə «yolxu- cu maliyyə xəstəliklərinin» keçməməsi üçün iqtisadi siyasətləri həyata keçirmək məqsədilə yaradılıb. Bu kreditin də ödəmə müddəti əvvəl qeyd etdiyimiz kredit kimi qısa müddətlidir. Yəni ödəmə müddəti 1-1,5 il, ödəmə öhdəliyi 2-2,5 ildir.

**Kompensasiya edici kreditlər** (Conpensatory Financinq Facility (CFF)). 1969-cı illərdə yaradılıb və 2 növ iqtisadi çətinliklərlə qarşılaşmış ölkələrə yardım məqsədi ilə verilir. Birinci növ ölkə ixracdan gələn gəlirin qəfil olaraq azalmasına görə iqtisadi çətinüyə düşmüş ölkədir, ikinci nÖv isə dünyada istehlak məhsullarının qiymətlərinin (əsasən ərzaq məhsullarının) dəyişməsinə görə idxal xərclərinin artdığı ölkədir. Bu kreditin bütün digər şərtləri Stend-bay krediti ilə eynidir, lakin, burada heç bir əlavə faiz dərəcəsi yoxdur. Onu da qeyd edək ki, şərtlərin eyni olmasına və ümumiyyətlə Stend-bay və Genişləndirilmiş Maliyyələşdirmə kreditləri üzrə kreditlərlə eyni tipli olmasına baxmayaraq, bu kreditdən istifadə edən zaman yuxanda qeyd etdiyimiz iki kreditdən istifadə imkanı məhdudlaşdırılmır.

Bu qeyd olunan 5 mühüm kreditləşdirmə növündən başqa BVF-nun fövqəladə kömək üzrə yardımları da mövcuddur. Lakin, bu haqda danışmazdan əvvəl BVF-nun öz kreditlərini hansı faiz şərtləri ilə verdiyinə nəzər salaq.

Ümumiyyətlə, BVF-un kreditləri PRGF kreditləri istisna olmaqla (yəni, yoxsulluğun azaldılması üçün kreditlər) bazar

faiz dərəcələrinə yaxm dərəcələrlə, bəziləri isə hətta bu faiz dərəcələrindən əlavə faiz dərəcəsi də yüklənməklə verilir. Faiz dərəcələri isə SDR faiz dərəcəsinə əsaslanır və həftədə bir dəfə bu faiz dərəcəsinin beynəlxalq pul bazarlarında necə dəyişməsi qiymətləndirilir. Hazırda faiz dərəcəsi 2,93-ə yaxındır (10 mart 2003-cü ildə). Həmçinin, onu da deyək ki, BVF-nun öz resurslarının verdiyi borcların üzərinə əlavə faiz dərəcələri qoyaraq həddən çox işlənməsi tərəfdar deyil və əgər borclu ölkənin şəraiti imkan verirsə, borcu tez ödəməyi də gözləyə bilər (və bunu tələb də edir). Qeyd etdiyimiz kreditlər haqda daha konkret məlumatı 16 saylı cədvəldən ala bilərik.

**Cədvəl 16**

**BVF maliyyə köməklərinin ümumi şərtləri**

| Kreditin növü | Təyin olunmuş qiymət | Qaytarılma şərtləri | | |
|---|---|---|---|---|
| | | Öhdəlik müddəti (il) | Gözlənilən müddəti-(U) | Ödəmə möhləti |
| Stend - bay krediti, (SBA) | Əsas % dərəcəsi + əlavə % | 3 % -5 | 2 ¼-4 | Kvartalhq |
| Genişləndirilmiş kreditlər, (EFF) | Əsas % dərəcəsi -t- əlavə % | 4'/2-10 | 4 ***V2-I*** | Yarım iUik |
| Konpensasiya edici maliyyələşdirmə | Əsas % dərəcəsi | 3 ¼-5 | 2'/4-4 | Kvartalhq |
| Fəvqəladə yardım | Əsas % dərəcəsi | 3 ¼-5 | Yoxdur | Kvartalhq |
| Əlavə ehtiyat krediti, (SRF) | Əsas % dərəcəsi+ 300-500 % hədləri | 2 ½-3 | 2 - 2 ½ | Yarım İUik |
| Kontingent kreditlər, (CCL) | Əsas % dərəcəsi+ 150-350 % hədləri | 2 - 2 ½ | 1 - 1 ½ | Yanm illik |

| | | | | |
|---|---|---|---|---|
| ARGF, ***İYox***-sulluğun Azaldılması və İnkişaf Krediti) | İllik 0,5 %-lə | 5 ’/2-İO | Yoxdur | Yanm illik |
| Xidmət haqqı (həyata keçirmək üçün haqq) | 0,5 % | - | - | - |

Qeyd etmək lazımdır ki, əlavə faiz dərəcəsi əsasən ilk iki kreditə tətbiq olunur. Belə ki, üzv ölkə kvotasının 100%-lə nə qədər normal olaraq kredit götürə bilir. Bir illik, ümumi məbləği isə 30%-ə qədər (100%-lik sistemində hesablanmadığı halda) xüsusi hallarda bu məbləğ arta da bilər. Əgər kreditin həddi 100%-i ötürsə ondan əlavə faiz tətbiq olunur, yox əgər 300-ü Ötürsə onda 200 həddindən başlayaraq əlavə faİz tətbiq olunur.

28 noyabr 2000-ci ildən başlayaraq, verilən məbləğlərin Fövqəladə Kömək və RPGF üzrə kreditlər İstisna olmaqla, gözlənilən vaxtda ödənilməsi tələb olunur (öhdəlik vaxtında yox).

Bundan başqa birdəfəlik xidmət haqları da tutulur (pul köçürmələri vaxtı). Xidmət haqqı qabaqcadan da tutula bilər və üzv ölkələrinin öz kvotasının 100%-ə qədər istifadə etməsinədək, 25%-dən bir, 100%-dən sonra isə 10%-dən başlayaraq xidmət haqqı tutulur. İlk 25%-dən isə alınmır. Xidmət haqqı cədvəldə göstərildiyi kimi 0,5%-dir.

Lakin BVF-nun maliyyələşdirilmələri yuxanda qeyd olunmuş 5 sistemdə məhdudlaşmır. Digər mühüm növ maliyyə yardımı Fövqəladə köməkdir (Energency assistance). Bu maliyyələşdirmə haqda qısa olaraq 1995-ci ildən indiyədək Fövqəladə Yardım üzrə verilən borclar haqda bəzi məlumatlan nəzərdən keçirək (cədvəl 17).

**Codvəl 17**

**1995 -2008 -ci Ulərda TəbU Fəlakaüərl? Əlaqədar Fövqəladə kömək üzrə yardunların dinamikası**

| Ölkələr | İl | Hadisə | Məbləğ (mln. ABSS) |
|---|---|---|---|
| Banqades | 1998 | DaşqmIar | 138,2 |
| Dominikan Res. | 1998 | Qasırğa | 55,9 |
| Haiti | 1998 | Qasırğa | 21,0 |
| Houndras | 1998 | Qasırğa | 65,6 |
| St. Kits va Neys | 1998 | Qasırğa | 2,3 |
| Türkiyə | 1999 | Zəlzələ | 501,0 |
| Malavi | 2002 | Ərzaq catısmamazhğı | 23,0 |
| Qrenada | 2003 | Qasırğa | 4,0 |
| Ölkələr | Tarix | Məbləğ ABŞ % mln. | % kvota |
| Bosniya və Hersoq ovina | Dek. 1995 | 45,0 | 25 |
| Rvanda | Aprel 1997 | 12,0 | 15,0 |
| Albaniya | Noy. 1997 | 12,0 | 25,5 |
| Rvanda | Dek. 1997 | 8,1 | 10,0 |
| Tacikistan | Dek. 1997 | 10,1 | 12,5 |
| Tacikistan | Aprel 1998 | 10,0 | 12,5 |
| Konqo Res. | İyul 1998 | 9,6 | 12,5 |
| Sere Lione | Noy. 1998 | 16,0 | 15,0 |
| Quina-Bissau | Yan. 2000 | 1,9 | 10,0 |
| Siera Leone | Sent. 2000 | 13,3 | 10,0 |
| Konqo Res. | Noy. 2000 | 13,6 | 12,5 |
| Yuqoslaviya Fed. | Dek. 2000 | 151,0 | 25,0 |
| Burundi | Okt. 2000 | 12,5 | 12,5 |

Beləliklə, BVF-nun 3 mühüm fəaliyyət növündən biri olan borc vermə və kreditləşmənin müxtəlif növləri, onlann verilmə şərtləri ilə qısaca tanış olduq. İndi İsə bütövlükdə bu maliyyələşdirmə fəaliyyətinin hansı xüsusiyyətlərə malik olduğuna nəzər salaq.

tik növbədə qeyd edək ki, BVF sırf yardım agentliyi yaxud inkişaf bankı deyil. O, üzv ölkələrə tədiyyə balansı problemlərini həll etmək və davamlı iqtisadi inkişafa nail olmaq üçün borc verir. Verilən xarici valyuta həmin ölkənin mərkəzi bankında depozitlənir, istifadə olunur və həmin məbləğ ölkənin kvotasından asılı olaraq müəyyənləşir. İnkişaf agentliklərinin verdikləri borcdan asılı olaraq BVF-nun borcları hansısa xüsusi layihəni, yaxud fəaliyyəti əsasən dəstəkləmir (Dünya Bankı ilə iş birliyi çərçivəsində ola bilər).

BVF-nun kreditləşdirməsi şərti xarakter daşıyır. Borc alan ölkə tədiyyə balansı problemlərini həll edəcəyini sÖz verə biləcək bir siyasət hazırlamalıdır. BVF-nun verdiyi borcların şərtliyi də məhz buradan irəli gəlir. Yəni BVF əmin olmalıdır ki, üzv ölkə borc almaqla sadəcə olaraq borclarmın məbləğini artırmayacaq, əksinə iqtisadiyyatını gücləndirərək borcu da tezliklə qaytaracaqdır. Həmçinin həyata keçirilməli olan iqtisadi siyasət barədə BVF və üzv ölkə razılaşmalıdırlar. Bundan başqa BVF krediti mərhələlərlə verir. Bu da üzv ölkənin həyata keçirəcəyi siyasətdən asılıdır. Xüsusən 2000-200l-ci illərdən BVF-nun öz maliyyələşdirilmələrində ölkəyə iqtisadi siyasət seçimində daha çox imkanlar verir və həm də öz siyasətlərini isə üzv ölkənin həyata keçirmək istədiyi siyasətinin tam əksinə olmamasına və beləliklə bu işi daha da effektli etməyə çalışır (əlbəttə üzv ölkə də öz növbəsində fondla hesablaşır).

BVF-nun maliyyələşdirməsi müvəqqəti xarakter daşıyır. Yəni bu istifadə olunan kreditin növündən asılıdır. Belə ki, borc ən qısa vaxt üçün 6 ay müddətindən başlamış 4 il müddətinə qədər verilə bilər. Qısa müddətli borclar üçün (Stend- bay kreditləri) ödəmə müddəti 3 1/4-5 il, yaxud bildiyimiz kimi orta müddətli maliyyələşdirmə üçün (genişləndirilmiş kreditlər üzrə) isə ödəmə müddəti 4 1/2- 10 ildir. Lakin 2000-ci ilin noyabr ayında İcraedici Şura öhdəlikdən daha tez ödəmə edilməsi qərarına gəldi. Beləliklə, Stend-bay kreditləri üzrə ödəmə 2 1/4-4 il müddətinə, genişləndirilmiş kreditlər üzrə ödəmə müddəti isə 4 1/2-7 il müddətinə qədər azaldıldı, BVF-

nun imtiyazlı krediti PRGF üçün isə müddəti 5 1/2-10 il olaraq saxlanılıb.

BVF borclu olan Ölkənin borcunun qaytarılmasına çox böyük önəm verməsini gözləyir (tələb edir). Borc alan ölkə borcu BVF-yə əvvəlcədən müəyyən olunmuş vaxt üzrə qaytarmalıdır. Beləliklə fond da tədiyyə balansı problemləri ilə üzləşmiş digər ölkələrə borcvermə gücünü özündə saxlayır. Öz növbəsində BVF də ölkənin digər borclarla yaxud ödəmə faizləri ilə yüklənməsinə mane olur. Bundan başqa ən mühümü odur ki, beynəlxalq aləmdə BVF-nun artıq bir çox üstünlüklərə malik kreditlər kimi tanıyırlar. Bu o deməkdir ki, BVF- nun özünün ölkələr gec, yalnız ölkənin öz öhdəliklərini yerinə yetirə biləcəyindən tam əmin olandan sonra borc verməsinə baxmayaraq, o ölkələr tərəfindən borcunun qaytarılması olduğu əsas təşkilat hesab olunur.

BVF-dan İmtiyazsız borc alan bütün ölkələr bazar faiz dərəcələrinə yaxın faiz və xidmət haqqı ödəyirlər. Fondun kreditlərindən hədsiz şəkildə istifadəni qabaqlamaq üçün müəyyən hədlərdən sonra (yuxanda bu haqda qeyd olunub) əlavə faiz dərəcələri də təyin olunur. Bu digər bəzİ kreditlər kimi əlavə Ehtiyat Sistemi üzrə verilən kreditlərə də aiddir. Az gəlirli ölkələr isə bildiyimiz kimi Yoxsulluğun Azaldılması və iqtisadi Artım kreditlərinə görə illik yalnız 0,5 % ödəyirlər.

Üzv ölkələrin BVF-nun resurslarından istifadəsinin təhlükəsizliyini artırmaq üçün Fond bütün vasitələrlə ölkə ilə mümkün qədər sıx əlaqə saxlamağa, buradakı iqtisadi və maliyyə vəziyyəti haqqında mümkün qədər dəqiq məlumat almağa çalışır.

Əksər hallarda BVF borc verən zaman, ölkənin xaricdən əldə edə biləcəyi məbləğin (maliyyə yardımlarının) yalnız kiçik bir hissəsini təhciz etmiş olur. Lakin, BVF-nun borc verməsinin mühüm əhəmiyyəti odur ki, bu zaman həmin ölkənin düzgün iqtisadi siyasət həyata keçirdiyi (yaxud keçirəcəyi) haqda beynəlxalq aləmə sanki bir siqnal vermiş olur. Nəticədə digər xarici investorlar da ölkənin xarici maliyyə olan tələbatının ödənilməsində əminliklə iştirak edirlər.

14.3.Bildiyimiz kimi, Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdiyi zaman artıq hələ bir neçə il əvvəldən ölkədə İqtisadiyyatın əksər sektorları üzrə inkişaf əhəmiyyətli dərəcədə azalmışdır. Bu istiqamətdə iqtisadi İnkişaf 1991-ci ildən sonra daha zəiflədi. Nəticədə 1992-1993-cü və 1994-cü illər ərzində iqtisadiyyat bütövlükdə böhran vəziyyətə düşmüşdü ki, bu da istehsalın azalması ilə əlaqədar ÜDM-in həcminin də hər il təxminən 20% aşağı düşməsi ilə müşaiyət olunurdu. Bu da öz növbəsində təbii şəkildə ölkədən kapital axınına və hətta əvvəlki dövrlərdə yaradılmış infrastrukluranm da talanaraq xaricə satılmasına səbəb olurdu. Nəticədə tüğyan edən infliyasiya istər əhali, istərsə də dövlət üçün ən böyük problemə çevrilmişdir. Əsas səbəb isə yuxanda qeyd olunduğu kimi tələb və təklif arasında kəskin fərqin yaranması idi. Burada ən böyük məsuliyyət dövlətin üzərinə düşürdü. Əslində dövləti də tam günahkar saymaq olmaz. Çünki, birincisi, sabit dövlət yox idi, ikincisi dövlətə tabe orqanların və iri müəssisələrin olmasına baxmayaraq de-fakto onların böyük hissəsi işlək deyildi. Belə şəraitdə isə dövlət praktiki gücə sahiblikdən məhrum idi. Sivil bazar iqtisadiyyatı ölkələrində belə durumda əhalinin sosial vəziyyəti pis olmaya da bilər, çünki orada İqtisadiyyat dövlətin yox, sahibkarlann yəni, insanların üzərində qurulub. Bizdə isə istehsalla məşğul olmaq üçün nə dövlətdə, nə də sahibkarda güc yox idi (ümumiyyətlə sahibkarın özü yox idi). Digər tərəfdən də effektli nəzarətin olmaması maliyyə sahəsində müsbət irəliləyişlərə imkan vermirdi. Bütün bunlar 1993-cü ilin sonunadək davam etdi. 1994-cü ilin birinci yarısında artıq müəyyən stabillik əldə olunmuşdu, lakin, ilin sonuna doğru infliyasiya yenidən artmağa başladı və noyabr- dekabr aylarında 50%-ə çatdı. Aylıq isə həmin il üçün 29% infliyasiya müşaiyət olundu. 1995-ci ildə isə maliyyə siyasətlərinin daha da tarımlaşdınlması və həyata keçirilən məqsədyönlü siyasət nəticəsində artıq mart 1995-ci ildə aylıq infliyasiya 3%-ə enmişdir.

Əlbəttə, Azərbaycan dövləti tək həm infliyasiyanın qarşısını ala bilməzdi, həm də iqtisadi islahatlar keçirməkdə

çətinlik çəkirdi. Bu baxımdan ölkəmizin bir sıra iqtisadi qurumlara üzv olması onun üçün çox böyük iqtisadi və siyasi əhəmiyyətə malik olduğunu 1994-96-cı illərdə bir daha göstərdi. Bu qurumların ən mühümlərindən biri isə Beynəlxalq Valyuta Fondudur (BVF). Ümumiyyətlə Fondun öz üzvləri və məqsədləri ilə birlikdə dünya iqtisadiyyatında necə əsaslı rola malik olduğu artıq bizə məlumdur və Fond necə deyərlər daha çox İEOÖ-ə lazımdır. Hətta ən böyük İEOÖ-in səviyyəsinə çatmaq üçün xeyli yol getməli olan Azərbaycana isə Fondun xidmətləri daha çox gərəklidir. Bunu artıq zaman özü indiyədək sübut edib, sadəcə olaraq bir neçə səbəbin üzərində dayanmağı lazım bilirik.

Hər şeydən əvvəl, bazar iqtisadiyyatına yenicə «düşmüş» bir ölkə üçün məsləhət xarakterli görüşlər əhəmiyyətlidir (lakin, hər bir ölkə müstəqildir və BVF-nun məsləhətlərini də özünə uyğun bilirsə əməl edə bilər).

İkincisi, Azərbaycan maliyyə vəsaitinə olan ehtiyacını özü çətin ödəyə bilərdi.

Üçüncüsü, Azərbaycan kasıb ölkədir (adambaşına gəliri, sosial vəziyyəti aşağıdır), deməli, PRGF (Yoxsulluğun Azaldılması və İqtisadi Artımın dəstəklənməsini maliyyələşdirmə mexanizmi) üzrə kreditlər ala bilər. Bu kreditin isə faizi əvvəlki bölmədə qeyd etdiyimiz kimi 0,5 %-dən yüksək deyil.

Dördüncüsü, hər dəfə BVF Azərbaycana kredit verdikdə əslində o, həm də xarici investorlara sübut etmiş olur ki, Azərbaycan höküməti onun razılaşdığı iqtisadi siyasəti həyata keçirəcək. Nəticədə ölkəmizə beynəlxalq aləmdə müəyyən əminlik yaranır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, BVF-a üzv olmaqla Azərbaycan həm öz iqtisadi inkişafına, həm də beynəlxalq iqtisadi inteqrasiyaya yardım elmişdir.

Fond Azərbaycanda dövlətlə birlikdə iqtisadi və maliyyə sabitliyinə nail olmaq oğrunda müxtəlif kredit paketləri üzrə proqramlar həyala keçirmişdir ki, bunun da ölkə iqtisadiyyatı üçün əhəmiyyətli nəticələri göz qabağındadır. Ümumiyyətlə, böhranlar zamanı BVF-nun ölkəyə qarşı yürütdüyü siyasətlərin tərəfdarı olmayan, yaxud tam əleyhdarları olan

mütəxəssislər də vardır, lakin bu haqda sonra qeyd edəcəyik. Hələlik isə Azərbaycanın Fonddakı maliyyə vəziyyətinə nəzər yetirək (Cədvəl 18).

**Cədvəl 18**

## Azərbaycanın BVF-kı maliyyə vəziyyəti

| | | | | | |
|---|---|---|---|---|---|
| **I** | **üzvlüyü** | | **18 sentyabr 1992-ci ildə qoşulub** | | |
| **II** | **Ümumi Resurslar Hesabı** | | **Mln.SDR** | **% kvota** | |
| | **Kvota** | | **160,90** | **100,00** | |
| **III** | **SDR deportamenı** | | **Mln. SDR** | **Bölüşdürmədə payı %-lə** | |
| | **Ehtiyatları** | | **0,51** | **Yoxdur** | |
| **IV** | **Aldığı əsas borclar və kreditlər** | | **Mln.SDR** | **% kvota** | |
| | **Genişləndirilmiş kreditlər** | | **47,15** | **29,30** | |
| | **Kontingent və konpensasiya edici** | | **32,20** | **21,88** | |
| | **Sistem transformasiyası** | | **26,81** | **16,66** | |
| | **PRGF kreditləri** | | **95,95** | **59,63** | |
| **V** | **Son Maliyyə Razılaşmaları (alınacaq kreditlər üzrə)** | | | | |
| | **Növü** | **Təsdiq olunduğu tarix** | **Başa çatma tarixi** | **Təsdiq olunmuş məbləğ (mln. SDR)** | **Götürülmüş (mln. SDR)** |
| | **PRGF** | **6.07.2001** | **05.07.2004** | **80,45** | **16,10** |
| | **EFF** | **20.12.1996** | **16.03.2000** | **58,50** | **53,24** |
| | **ESAF/PRGF** | **20.12.1996** | **19.03.2000** | **93,60** | **81,90** |
| **VI** | **Fonda nəzərdə tutulmuş ödəmələr** | | | | |

(Mln. SDR, cari dövrdəki resurslardan və SDR ehtiyatlarından istifadəyə əsaslanır).

**Cədvəl 19**

## Azərbaycanın BVF-da kvotası

| | **2003** | **2004** | **2005** | **2006** | **2007** |
|---|---|---|---|---|---|
| **Əsas** | **55,99** | **40,29** | **32,57** | **25,25** | **24,45** |
| **% haqq** | **2,83** | **1,73** | **1,13** | **0,070** | **0,40** |
| **Ümumi** | **58,82** | **40,01** | **33,70** | **25,96** | **24,85** |

VII. HİPC üzrə həyata keçirmələr yoxdur.

Cədvəldən gördüyümüz kimi Azərbaycanın kvotası 161 mln. SDR-ə yaxındır. Bu isə ümumi kvotaların 0,08%-ni təşkil edir. Cədvəldə göstərilmiş digər rəqəmlər haqqında isə BVF- nun Azərbaycanda həyata keçirdiyi proqramları öyrəndikcə söhbət açacağıq.

Bu proqramlardan ən birincisi 1995-ci il proqramıdır. Belə ki, BVF 19 aprel 1995-ci ildə Azərbaycana 29,25 mln. SDR (46 mln. dollara yaxın) vəsait ayırdı və bu STF mexanizmi üzrə yəni, sistem transformasiyası üzrə ayrılmışdır.

STF (Systemic Transformation Facility)-müəyyən müddət üçün nəzərdə tutulmuş maliyyələşdirmədir ki, əsasən ənənəvi ticarət əlaqələrinin pozulmasından yaranan iqtisadi çətinliklər zamanı verilir. Keçid dövrünü yaşayan ölkələrə daha çox şamil edilir. Makroiqtisadi stabilliyi əldə etmək və sistemli islahatlar aparmaq üçün bu, Azərbaycanın götürdüyü ilk kredit idi. STF tərəfindən dəstəklənən 1995-ci il proqramının əsas **məqsədləri** ilk **növbədə qiymətləri təcili sabitləşdirmək,** yenidən iqtisadi inkişafa yol aça biləcək aşağı infliyasiyalı mühit yaratmaq və əsaslı **struktur islahatlarının** başlanğıcım qoymaq idi. Bunun üçünsə proqram daha öncə aşağıdakıları nəzərdə tutur: 1. ÜDM-da azalmanı 6 faizədək endirmək; 2. ilin sonuna qədər aylıq infliyasiyanı təxminən 2 faiz həddinə qədər aşağı salmaq; 3 xarici hesablardakı defısiti ÜDM-un 10 faizindən az səviyyədə tutmaq və xarici ehtiyatları bərpa etmək.

Nəticədə dövlət bütün fiskal defisitləri 1994-cü ildəki ÜDM-un 13,2% həddindən 1995-ci ildə 4,8%-ə endikmək qərarına gəldi. Proqramın məqsədləri də özünə daxil edən maliyyə və kredit siyasəti həyata keçirilməyə başlandı, belə ki, bank sistemindən höküməti xalis kreditlər ÜDM-un 2%-i qədər məhdudlaşdırdı və faiz dərəcələri isə nisbətən yüksək səviyyədə saxlanıldı. Bundan başqa **dövlət xərclərinin əsaslı azaldılması qərarma da** gəlindi ki, bura Dağlıq Qarabağ konfliktində müəyyən irəliləmələrin əldə olunması ilə əlaqədar hərbi xərclərin azaldılması da daxil idi. Həmçinin 1996-cı ildə bütün **büdcədənkənar fondların büdcədə birləşdirilməsi** qərarına gəlindi. Dövlət illik gəliri sahəsində gəldikdə isə qeyd oiun-

malıdır ki, vergi yığımındakı son azalmalara müsbət müdaxilə edə bilmək üçün, ilk növbədə aidiyatlı orqanlar və şəxslər **vergi administratorluğunun** bütövlükdə mütəşəkkilliyini artırmaq və həmçinin dövlət müəssisələri də daxil olmaqla vergi borclarını yığmaq üçün səyləri artırmağa başladılar. Digər tərəfdən bir sıra vergilərin dərəcələri və idxal tarifləri artırıldı, habelə, vergidən azad olmalar, gəlir vergisi və əlavə dəyər vergisi üzrə imtiyazlar ləğv olundu. Beləliklə, 1995-ci il proqramı əsasən bunları əhatə etdi və demək olar ki, 1996,1997-ci illərdə də götürülmüş bu iqtisadi kurs davam etdirildi.

Lakin 1995-ci il proqramı bununla məhdudlaşmırdı. Belə ki, qeyd etdiyimiz kimi bu dövrdən struktur islahatları da başlandı. Bunun üçün Azərbaycan dövləti bazarın fəaliyyətini artırmaq məqsədi ilə tədbirlər görməyə başladı. Belə ki, valyuta dəyişmə rejimi vahidləşdirildi və liberallaşdırıldı. Xarici valyuta ehtiyatlan mərkəzi bankda ləmərküzləşdirildi, dövlət sifariş sistemi ləğv olundu, ticarət liberallaşdırıldı və yanacaq məhsullannın qiymətləri beynəlxalq səviyyəyə yaxmlaşdınldı. Proqram çərçivəsində qiymətlərin liberallaş- dırılmasmm başa çatdırılması nəzərdə tutulurdu. Digər tərəfdən səhmlərin nəğd satışı üçün geniş özəlləşdirmə proqramları yenidən nəzərdən keçirilir. Belə ki, müəssisələrin korporativləşdirilməsi və bu məqsədlə böyük müəssisələri hissə-hissə özəlləşdirmək üçün **tender qaydaları** müəyyənləşdirildi. Həmçinin dövlət orta və iri müəssisələrin səhmdar müəssisələrə çevrilməsi tədbirinə başladı ki, bu da səhmlərin yerli və xarici investorlara satılması işini daha da sürətləndirməyə kömək etdi. Eyni zamanda proqram çərçivəsində kiçik müəssisələrin də özəlləşdirilməsi apanimağa başlanıldı.

Onu da qeyd edək ki, proqram **sosial müdafiənin** təşkilini də nəzərdə tutur. Belə ki, 1995-ci ildə dövlət Fondla birlikdə sosial müdafiə şəbəkəsini qurmaq və onu daha da effektli etmək üçün geniş tədbirlər paketi hazırladı. Yuxanda qeyd etdik ki, proqram çərçivəsində subsidiyalar ləğv olundu, lakin, onları konpensasiya etmək üçün nəğd köçürmələrin (transferlərin) edilməsi qərara alındı ki, bunun da ailə gəlirləri səviyyəsində həyata keçirilməsi planlaşdırıldı və həmçinin

**işsizliyə görə verilən məbləğlərin də maliyyələşdirilməsi üçün həmin nəğd köçürmələrdən istifadə olunur.**

**Beləliklə görürük ki, 1995-ci il proqramında dövlət ilk növbədə Azərbaycanın iqtisadi və maliyyə çətinliklərini geniş qiymətləndirmişdir. Həmçinin onlar bu tədbirlərin daha da sürətlə həyata keçirilməsinə çalışıblar (xüsusən makroiqtisadi stabilliyi yaratmağa). Çünki, bu bir tərəfdən Azərbaycanın iqtisadi bərpası üçün özül rolunu oynayırsa, digər tərəfdən və orta müddət üçün ölkəyə hədsiz dərəcədə vacib olan neft strategiyasının həyata keçirilməsinə şərait yaradır. Ümumiyyətlə proqramın həyata keçirilməsi ciddi səylərin hesabına başa gəlir, həm də bir halda ki, o birbaşa büdcə ilə əlaqəli şəkildə aparılır, bu səylərə daha çox ehtiyac yaranır. Çünki, istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə gözlənilən və gözlənilməyən risklər həmişə mövcuddur. Lakin o da qeyd olunmalıdır ki, proqram həyata keçirilmədən ilk növbədə ona qarşı ola biləcək çətinliklər, risklər qiymətləndirilir və nazirliklər və daha yüksək səviyyədə tədbirlər görülür. Proqramın ümumiyyətlə bütün digər proqramlarında həyata keçirilməsində əlavə xarici maliyyə dəstəklərinin də müsbət rolu var (əgər BVF həmin xarici maliyyə dəstəklərini uyğun görürsə). Qeyd etdik ki, birinci proqram 1995-ci ildə həyata keçirildi, ona görə də həmin dövrdəki iqtisadi vəziyyətin bİr neçə seçilmiş göstəricisini nəzərdən keçirmək yerinə düşərdi (cədvəl 20).**

**Cədvəl 20**

**BVF tərəfindən Azərbaycanda həyata keçirilən proqramın nəticələrini əks etdirən seçmə göstəricilər**

| | 1993 1 1994 1995 | | |
|---|---|---|---|
| | (faiz dəvismə) | | |
| İqtisadi inkişaf | -23,3 | -21,9 | -6,0 |
| İstehlak qiymətləri | 1,129 | 1664.4 | 520,0 |
| | (ÜDM-un faizi) | | |
| Maliyyə balansı (deüsit-) | -12,5 | -13,2 | -4,8 |
| Xarici iqtisadi əlaqələr balansı (defİsit-) | -2,8 | r -15,6 | Γ 9.7 |

**Mənbə: BVF-nun Azərbaycanın səlahiyyətli orqanlarının qiymətləndirilmələri.**

Bu və digər bu tip cədvəllərdə yalnız söhbət gedən dövrün iqtisadi göstəriciləri verilib. Yəni, 2000-ci il üçün eyni göstəricini öyrənməkdən ötrü sonrakı səhifələrə bax.

Beləliklə bu proqram 1995-ci ilin payızına qədər həyata keçirildi, nəticədə uğurlu dəyişikliklərin əsası qoyuldu və proqram 1995-ci ilin sonundan yeni 1995-1996-cı il proqramı ilə (əslində bu da əvvəlkinin davamı idi) davam etdirildi.

Beləliklə Beynəlxalq Valyuta Fondu Azərbaycana «Stend-bay» krediti və ikinci STF (sistem transformasiyası mexanizmi «Stend-bay» haqda isə əvvəlki bölmələrdə məlumat verilib) kreditin verilməsi 17 noyabr 1995-ci ildə təsbiq olundu. Təsdiq olunmuş ümumi məbləği 87,8 milyon SDR (132 mln.dollara yaxın) təşkil edib ki, əsas məqsəd keçiriləcək 1995-96-cı il islahatlar proqramım dəstəkləmək idi. Ümumi məbləğin 58,5mln. SDR-i (88 mln. doUarı) «Stend-bay» krediti üzrə, 29,3mln. SDR-i (44 mln. dollar) isə sistem transformasiyası maliyyələşdirmə mexanizmi (STF) üzrə verilir (STF üzrə birinci məbləğ 29,3 milyon SDR 19 apreldə təsdiq olunmuşdur bu haqda yuxarıda qeyd olunub).

1995-96-cı illər dövlət proqramı haqda qeyd etməzdən əvvəl həmin dövrdə mövcud bazaya, ölkədə formalaşmış vəziyyətə nəzər salaq. Artıq bildiyimiz kimi 1995-ci ilin əvvəlində Azərbaycanın başladığı geniş stabilləşdirmə və islahat proqramı makroiqtisadi sabitliyin əldə olunması baxımından çox uğurlu alındı. STF-nin maliyyələşdirilməsi ilə dəstəklənmiş bu proqram infliyasiyanın 1994-cü ilin sonundakı 50%-dən 1995- ci ilin may ayından sonra aylıq orta hesabla 2-0,5 % həddinə düşməsinə səbəb oldu. Ən mühüm uğurlardan biri də **monetar stabillik** sahəsində əldə olunmuşdu ki, bu da özünü ilk növbədə nominal valyuta dəyişmə **kurslarındakı** stabillikdə göstərdi. Lakin o da mütləq qeyd edilməlidir ki, bu mərhələdə digər keçid ölkələrinin çoxunda olduğu kimi Azərbaycanda da ticarət və xidmət sektorlarının inkişafına baxmayaraq, real **istehsalatda** azalma hələ davam edirdi. 1995-ci ildə həm də bütövlükdə bazar sisteminin iş funksiyası təkmilləşdirildi, bu valyuta dəyişmə mexanizmini vahidləşdirmək və liberallaşdır

maqla, xarici valyuta ehtiyatlarının mərkəzi bankda təmərküzləşdirməklə, dövlət sifarişvermə sisteminin ləğv olunması ilə əldə olundu. Struktur islahatları isə xüsusən Özəlləşdirmə sahəsində o qədər də sürətlə getmirdi. Buna baxmayaraq belə demək olar ki, ölkədə artıq iqtisadi islahatlar aparmaq habelə biznesi İnkişaf etdirmək üçün nisbətən daha əlverişli şərait yaranmışdı.

1995-96-cı il proqramına gəldikdə isə, əldə olunmuş ilkİn uğurların davam etdirilməsi üçün BVF dövlətin bu proqramını həm ikinci STF krediti, həm də «Stend-bay»ı maliyyələşdirilməsi üzrə kreditlə dəstəkləyir, **əsas məqsəd** isə proqramın sonuna qədər maliyyə siyasətləri vasitəsilə aylıq infliyasiyanı 1 %-ə endirmək və 1996-cı ilin sonuna qədər iqtisadi inkişafa nail olmaq idi. Ümumiyyətlə bu proqram daha çox fiskal yönümlü idi və 1996-cı ildə büdcə defisitlərinin ÜDM-un 3 %-i qədər olmasını nəzərdə tuturdu. Həmçinin 1995-ci ilin yayında pul kütləsinin həcminin artması ilə əlaqədar olaraq yarana biləcək infliyasiya artımının qarşısını ala bilmək üçün nisbətən kəskin pul siyasəti həyata keçirirdi. 1996-ci ilin sonunda bu həyata keçirildikdən sonra 1996-cı ildəki pul siyasəti (monetar siyasət) birbaşa infliyasiyanın azaldılmasına və beynəlxalq ehtiyatların yüksək səviyyəsinin qorunmasına yönəldildi.

Proqramın yenə digər mühüm hissəsini struktur islahatları təşkil edirdi. Belə ki, 1995-ci ilin sonunadək 8000 kiçik müəssisənin və 1996-cı ilin mart ayınadək 50 iri və orta həcmli müəssisənin özəlləşdirilməsi nəzərdə tutuldu və 1996-cı ilin mart ayından başlayaraq da digər müəssisələrin özəlləşdirilməsi üçün qiymətli kağızlar **(özəlləşdirmə payı)** da paylanıldı. Müəssisələrin işlədikləri sektoru yenidən qurmaq üçün dövlət əsasən MDB ölkələrində qazanılmış təcrübədən istifadə edirdi. Həmin təcrübəyə görə dövlət ilk növbədə ziyanla işləyən müəssisələri müəyyən edİb, onları bank sistemindən təcrid etdi, işçi heyətini ixtisar etdi və s.

1995-96-cı illərdə həyata keçirilən bu proqram çərçivəsində **sosial müdafiəyə ayrılan xərclərin ümum! həcmi artırılmadı,** yəni, ÜDM-un 7-8%-i səviyyəsində saxlanıldı, lakin bütövlük

də bu islahatlarla əlaqədar sosial mydafiənin effektliyi artmışdır.

Makroiqtisadi stabillik və struktur islahatları sahəsində əldə olunan müvəffəqiyyətlər Azərbaycanın digər mühüm potensial imkanlarından xüsusən neft potensialından daha səmərəli istifadə etmək imkanı verdi və Azərbaycanın neft strategiyası da bu dövrdə formalaşdı. Neft strategiyasının həyata keçirilməsi həm də ölkəyə orta müddətdə kapital axınının həcminin artması üçün çox vacibdir.

Qeyd olunanlardan görünür ki, Azərbaycanın ilk dövrlərdə BVF ilə birlikdə həyata keçirdiyi iqtisadi və maliyyə siyasəti gözlənilən nəticələri verdi və ölkə 1996-cı ildən sonra hazırki dövrdə Fondla əməkdaşlığı uğurla davam etdirir.

Artıq qeyd etmək olar ki, Azərbaycanda 1995-ci ildən başlanmış makroiqtisadi stabilləşdirmə və struktur islahatları proqramı uğurla həyata keçirilir. Bu istər maliyyə sahəsi olsun, istər struktur sahələri, sosial müdafiə və s. sahələrinə baxmayaraq öz müsbət nəticələrini vermişdi. Beləliklə də, ölkədə həm inamla iqtisadi islahatlar aparmaq üçün, həm də sahibkarlıq fəaliyyəti üçün nisbətən münbit şərait yaranmışdır (burada yalnız nisbətən münbit şərait demək mümkündür). Nisbətən münbit şəraiti yaradan ən böyük amil isə infliyasiya göstəricisi idi. Belə ki, 1996-cı ildə illik infliyasiya 20%-dən az olmuşdur. Halbuki, 1995-ci ildəki göstərici illik 400%-dən çox idi.

Digər tərəfdən iqtisadi bərpa prosesi çox az sürətlə oka da başlamışdı. Yəni, Azərbaycanın ÜDM-u əvvəlki ilə müqayisədə 1% artmışdır, Fiskal siyasətlər isə sərt olaraq saxlanılırdı və nəticədə fiskal defisİt 1995-ci ilədək ÜDM 4,3% həddindən 1996-cı ilin sentyabr ayında 1,4% həddinə enmişdir. Bunlarla birlikdə struktur İslahatları isə nəzərdə tutulduğundan çox az sürətlə gedirdi.

Digər tərəfdən hökümətin 1996-99-cu il iqtisadi proqramı dəstəkləmək üçün Beynəlxalq Valyuta Fondu ESAF (Struktur islahatların maliyyələşdirilməsi mexanizmi) üzrə və EFF (Genişləndirilmiş Fond maliyyələşdirmə mexanizmi) üzrə

kreditlər ayırdı. Bu kreditlərin həcmi haqda qeyd etməzdən əwəl qısaca onu deyək ki, ESAF krediti əslində əvvəlki bölmələrdə qeyd etdiyimiz PRGF, yaxud YoxsuUuğun Azaldılması və iqtisadi artımın maliyyələşdirilməsi mexanizmi üzrə kreditlərin əvvəlki nəslidir. Yəni, PRGF kreditləri yaradılan 1999-cu ilə qədər ölkələrə (daha doğrusu kasıb ölkələrə) ESAF kreditləri verilib, ESAF verilən borclardan PRGF-də olduğu kimi illik 0,5 % dərəcəsinə sahib olublar və geri ödənilmə vaxtı isə 5 Uda möhlət vermək şərti ilə 10 il müəyyən edilmişdir. Bu kredit makroiqtisadi sabitsizlikdən və struktur problemlərindən yaranan iqtisadi çətinlikləri həll etmək üçün verilir və geri qaytarılma Öhdəliyi 10 İldir, faiz dərəcəsi isə təxminən 4,2- ə yaxındır və həftəlik dəyişilə bilər.

Maliyyə dəstəyinin məbləğinə gəldikdə isə 1996-cı il 20 dekabrda təsdiqlənmiş bu iki maliyyələşdirmənin ümumi məbləği 152,1 milyon SDR (təxminən 219 milyon dolları) olub ki, bu məbləğin də 93,6 milyon SDR-i (təxminən 135 milyon dollan) ESAF maliyyələşdirmə mexanizmi üzrə və 58,5 milyon SDR-i (təminən 84 milyon dalları) EFF krediti üzrə verilib. Proqramın müddəti və bu orta müddəti strategiyanın özünə gəldikdə isə qeyd edək ki, bu bir tərəfdən makroiqtisadi stabillik baxımından əhəmiyyətli rola malik idi, digər tərəfdən də Azərbaycanın neft istehsalı və ixracmdakı artımla əlaqədar olacaq yeni bir dövrə hazırlıq idi. Hələ o vaxt artıq XXI əsrin əvvəllərindən neft istehsalının 2 dəfəyə yaxın, daha sonra isə 4 dəfə artacağı planlaşdınlıraşdı. Əsas makroiqtisadi hədəflər isə 1997-ci ildə 5% illik iqtisadi artıma nail olmaq, sonrakı illərdə bunun 7-8%-ə yüksəltmək, habelə 1999-cu ilə qədər illik infli- yasiya dərəcəsini 6%-ə qədər endirmək idi. Öz növbəsində xarici iqtisadi münasibətlərin 1996-cı ildəki ÜDM-un 19% həddindən 1999-cu ildə 24%-ə qədər genişləndirilməsi nəzərdə tutuldu ki, bu da birbaşa neft sektorundakı işlərlə əlaqədar idxalın artması ilə bağlı idi. Dövlətin ümumi defısitlərinin isə 1996-cı ildəki 2,7%-dən 1999-cu ildə 0,5%-ə endirilməsi planlaşdırıldı. Həmçinin bu illərdə də sərt pul siyasəti davam etdirilirdi ki, bu da yerli valyutaya olan inamı müəyyən qədər artırdı.

Bu orta müddətli proqramın tərkib hissəsi olan 1996-97-ci il proqramının məqsədi isə birinci növbədə ÜDM-un illik 5,1% artımına nail olmaq, infliyasiyanın illik faiz dərəcəsini 9,1-ə endirmək idi. Bunlara nail olmaq məqsədilə ümumi dövlət defisitləri 1999-cu ildən 2,0% həddində saxlanıldı bu da Öz növbəsində daha yüksək dövlət gəlirinə və daha az dövlət xərclərinə əsaslanırdı. Dövlət xərclərinin əsas hissəsini vergidən gələn gəlirlər maliyyələşdirirdi, əlavə resurslar isə investisiyaları və xarici borcları maliyyələşdirmək üçün istifadə olunurdu.

Proqram həmçinin özünə struktur islahatlarının gücləndirilməsini və sosial müdafiənin artırılmasını da daxil edirdi. Struktur islahatlarında ən çox önəm isə bankçılıq sahəsindəki islahatlara, özəlləşdirmənin sürətləndirilməsi, dövlətin istehsalata və ticarətə müdaxiləsinin azaldılmasına yönəlmişdir. Xüsusən iqtisadi effektliyi artırmaq üçün 1999-cu ildə dövlət müəssisələrinin 70%-nin özəlləşdirilmosini qərara aldı. Dövlətin istehsala və ticarətə güclü müdaxiləsinin qarşısını almaq üçün artıq müəyyən addımlar atılmışdı və bu sahədə görülən İqtisadi tədbirlər qanunvericilik bazasını təkmilləşdirməklə tamamlanmalı idi. Qanunvericilik bazası isə bu dövrdə təəssüf ki, istənilən səviyyədə deyildi, yalnız sonrakı illərdə müxtəlif prezident fərmanları və qəbul edilən yeni dəyişikliklərlə əvvəlki boşluqlar əsasən aradan qaldırıldı (lakin qanunvericiliyin təkmilləşdirilməsi hələ də davam etdirilir). Proqramın ilk illərində isə yalnız bir neçə yeni qanun qəbul edilmişdi, bunlar da ilk növbədə mülkiyyət hüququ haqda, kommersiya qaydaları haqda və s. idi. Bundan başqa proqram çərçivəsində, yəni bu müddətdə ticarət də xeyli liberallaşdınıdı. Həmçinin yuxanda qeyd etdiyimiz kimi sosial müdafiənin gücləndirilməsi sahəsində də müəyyən işlər görmək əsas məqsəd idi və bu sahədə bir sıra yeniliklər edildi. Xüsusən ən zəif sosial təbəqələrin qorunması üçün, pensiyaların ödənilməsində irəliləyişlər baş verdi. Həmçinin iş axtaranlara müəyyən məsləhət və öyrətmə xarakterli yardımlar edən Məşğulluq Fondunun işinin effektliyini artırmaq üçün burada işsizlərə verilən konpensasiyaların verilmə şərtlərinə yenidən baxış

keçirildi. Lakin dövlətin həyata keçirdiyi proqramın uğurlu davamı üçün ölkəyə investisiya axını da davam etməli idi ki, bu istər istehsalın canlandırılması, istərsə də işsizlik probleminin həll edilməsi baxımından yüksək rol oynayacaqdır. Bu investisiya isə Azərbaycana təəssüf ki, yalnız neft sektoru sahəsindən daxil olurdu, İkinci böyük sahə isə xidmət sahəsidir ki, hər iki sahə yəni istər hasilat, istər xidmət iqtisadiyyatın inkişafı üçün istehsal sektorunun oynadığı qədər rol oynaya bilməz. Hətta indiki dövrdə də ən az investisiya qəbul edən sahələrimizdən biri kənd təsərrüfatıdır. Elə buna görə bu proqramın həyata keçirildiyi dövrdən (1996-1997) dövlət qeyri-neft sektorunda və Azərbaycanın rayonlarında biznesi canlandırmaq üçün müəyyən tədbirlər keçirməyi qərara aldı.

Proqramın reallaşdığı və sonrakı müddətlərdə əldə olunmuş və proqnozlaşdırılan göstəricilərə gəldikdə onların dəyişmə meylləri 21 cədvəlində öz əksini tapır.

**Cədvəl 21**

**Proqramın reallaşdığı dövrlərdə əldə edilmiş göstəricilərin dəyişmə meylləri**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|
| Faizlə dəyişmə | | | | | |
| ÜDM | -11,0 | 1,2 | 5,1 | 7,6 | 8,4 |
| İslehlak qiymətləri (orta) | 411,7 | 19,7 | 9,1 | 6,5 | 6,2 |
| (ÜDM-da xüsusi çəkisi faizlə) | | | | | |
| Maliyyə balansı (defisit) | -4,3 | -2,7 | 2,0 | -1,4 | -0,5 |
| Xarici cari hesablama balansı (defilist) | -11,4 | -19,1 | -15,9 | -18,8 | -24,0 |
| Ümumi beynəlxalq ehtiyatlar | 1,2 | 2,0 | 2,9 | 3,4 | 3,5 |

Mənbə; BVF heyətinin qiymətləndirilmələri və layihələri. Azərbaycanın rəsmiləri.

Beləliklə 1996-97-ci il proqramı çərçivəsində də iqtisadi bərpa prosesi davam etdirildi. Əslində bu proses 1995-ci ilin əvvəllərindən başlamışdı və həm BVF-nun, həm də beynəlxalq və regional qurumların, o cümlədən Dünya Bankının qarşılıqlı əməkdaşlığı ilə dəstəklənirdi. İslahatların uğurlu keçirilməsindən xəbər verən ən böyük isə **infliyasiyadakı kəskin azalma və iqtisadi inkişafın başlanması,** ən mühümü isə iqtisadiyyatın bəzi sahələrində bazar mexanizminin mənimsənilməsi idi. Əvvəlcədən nəzərdə tutulmuş və qiymətləndirilmiş şəkildə 1997-ci ildə infliyasiya 9 %-ə qədər endi istehsalda isə 5,5 % artım müşahidə olundu. Digər tərəfdən fıskal balansda müsbət saldo əldə olunmuşdu. Bu ilkin uğurları davam etdirmək üçün daha davamlı iqtisadi siyasət yürütmək tələb olunurdu və bu BVF tərəfindən Azərbaycana ESAF/EFF maliyyələşdirmə mexanizmi üzrə ikinci kreditin verilməsi ilə başlamış oldu. Lakin, ümumiyyətlə aparılmış bu iqtisadi islahat proqramlarını daha da yüksək nəticələr verə biləcək şəkildə aparmağın mümkün olduğunu qeyd edən mütəxəssislər də var. Bir qrup mütəxəssislər isə ümumiyyətlə müstəqil siyasət yürütməyin üstünlüklərinin daha çox olduğunu bildirirlər, yəni BVF ilə sıx əməkdaşlığın uzun müddətdə ölkə üçün müsbət olmayan nəticələrə gətirib çıxardığını qeyd edirlər. Bu məsələləri araş- dırmazdan əvvəl BVF-nun Azərbaycana verdiyi ESAF/EFF maliyyələşdirmə mexanizmləri üzrə ikinci kreditin verilməsi məsələsi üzərində qısaca dayanaq. Yəni, ESAF struktur islahatlarının maliyyələşdirilməsi mexanizmi üzrə kasıb ölkələrə verilən kreditdir və indiki PRGF-Yoxsulluğun Azaldılması və İnkişafın Artımı kreditinin 1999-cu ilə qədər mövcud olmuş formasıdır. Bunlar arasında fərq yalnız ondadır ki, PRGF- ESAF maliyyələşdirilməsindən fərqli olaraq birbaşa kasıbçılığın aradan qaldırılmasına yönəldilib. Faiz dərəcəsinə gəldikdə isə illik 0,5%-lə verilir və 10 illik qaytarılma öhdəliyi var. EFF yaxud genişləndirilmiş fond maliyyələşdinnə mexanizmi üzrə kreditlərsə, əsasən struktur problemləri ilə bağlı iqtisadi çətinlikləri həll etmək üçün təxminən, 4,2%-lə verilir və 10 il müddətinə qaytarılma şərti var. 1997-ci il 23 dekabrda

təsdiqlənmiş bu hər iki kreditin ümumi məbləği 46,8 mln. SDR (təxminən 64 mln,ABŞ dollara yaxın) təklif etmişdir. Bu ümumi məbləğin də 29,4 mln. SDR-i (40 mln. dollara yaxın) iki bərabər yarım İllik ödəmə şəklində hər dəfə 14,6 mln. SDR (20 mln. dollara yaxın) almaqla ESAF mexanizmi üzrə və 17,5 mln. SDR-i (24 mln. dollara yaxın) isə EFF mexanizmi üzrə verilib. Bu və bundan əvvəlki maliyyələşdirmələrlə dəstəklənən Azərbaycanın orta müddət üçün nəzərdə tutulmuş iqtisadi strategiyasının əsas məğzi bildiyimiz kimi bazar iqtisadiyyatına keçid etmək və ölkənin neft resurslarından iqtisadiyyatın digər sahələrində heç bir mənfi təsirə yol açmayacaq şəkildə istifadə etməkdir. Ümumiyyətlə neftdən əldə olunan gəlirlərin artması ölkədəki iqtisadi artımın sürətinə müsbət təsir etmək baxımından yaxşıdır, lakin, bunun iqtisadiyyatda qeyri-balanslaşdınimış inkişafa yol açma ehtimalı da vardır ki, bu da özünü ilk növbədə qeyri-neft sektorunun xarici investisiya cəlb etməməsi ilə və onun ixracatdakı xüsusi həcminin azalması ilə göstərilir. Buna mümkün qədər yol verməmək üçün (bəzi iqtisadçıların fikrincə bu artıq baş verib) dövlət ilk növbədə yerh investorları qeyri-neft sektoruna daha çox cəlb etmək və bu məqsədlə ölkənin daxili maliyyə ehtiyatlarından daha səmərəli və geniş istifadə etmək məqsədini güdür.

Proqramın bu hissəsində, yəni 1998-cı il proqramı çərçivəsində ÜDM-un illik 7-9% (1998-2000-ci il) artımı illik infli- yasiya isə 5%-ə yaxın planlaşdırıldı (buna nail olundu). İnves- tisiyalarmsa gözlənildiyindən çox olaraq 2000-ci ildə ÜDM-un 44%-i həddinə qədər yüksələcəyi müəyyənləşdirildi, qiymətləndirməyə görə isə bu 27% olmalı idi. Cari hesablar defisitinin isə 2000-ci ildə neftlə əlaqədar olaraq (yəni neft sektorunun inkişafı üçün idxalla əlaqədar olaraq) artaraq ÜDM 35%-ə çatacağı, 2000-ci ildən sonra isə neft ixracının arması ilə birlikdə yenidən azalacağı müəyyənləşdirildi. Bu müddətdə aparılacaq fıskal siyasətlər vasitəsilə isə ümumi dövlət defisitlərinin ÜDM-un l“/o-dən az səviyyədə tutulacağı qərara alındı. İnfliyasiyaya gəldikdə isə pul siyasəti vasitəsi ilə onun

aşağı səviyyəsi növbəti illərdə də qorundu və 1998-ci ildə onun illik faizi 5-i ölmədi.

Bildiyimiz kimi orta müddətli proqramın qarşıya qoyduğu məqsədlərə nail olmaq üçün tələb olunan ən mühüm məsələlərdən biri **struktur islahatlannda** ciddi nailiyyətlərin əldə olunmasıdır ki, burada prioritet təşkil edən sahələr dövlət **sektorunun idarəetməsinin təkmilləşdirilməsi, bankçılıq və özəlləşdirmə,** habelə müəssisələrin və torpaqların özəlləşdirilməsinin sürətləndirilməsidir. **Dövlət idarəetməsinin təkmilləşdirilməsi** dedikdə, yəni bu ona əsaslanır ki, dövlət bazar iqtisadiyyatında hansı rolu oynayır və hansı rolu oynamalıdır. Belə ki, bu sahədə əsas vəzifə ilk növbədə dövlətin kommersiya və istehsal fəaliyyətinə yol verməmək, əvəzində dövləti müntəzəm şəkildə uyğun iqtisadi siyasət yürüdən bir orqana çevirməkdir. Azərbaycan dövləti artıq bu istiqamətdə irəliləyir, lakin onu da qeyd etməliyik ki, BVF-nun bu cür tələblər, əlbəttə iqtisadiyyatın dövlətsizləşdirilməsi baxımından əhəmiyyəti çoxdur və bu gün Avropa ölkələri də bu istiqamətdə siyasət yürüdürlər. Amma nəzərə alsaq ki, Azərbaycan bazar iqtisadiyyat! yolu ilə inkişaf etmiş bir ölkə deyil və yerli sahibkarların maliyyə imkanları azdır, maliyyə imkanı olan da onu hansı yolla olursa-olsun ticarət və xidmət sahəsinə yönəltməyə çalışır. Bu münasibət fikirləşməyə əsas verir ki, bəzi seçilmiş sahələrdə dövlətin istehsal fəaliyyətinə hazırda ehtiyac duyulur. Daha sonra isə işə düşmüş həmin istehsal sahəsini, müəssisəsini səhmdar cəmiyyətə çevirərək özəlləşdirmək mümkündür. Lakin, iqtisadi cəhətdən hansı yol tutmasından asılı olmayaraq resurslardan daha səmərəli istifadə edən, tərəfsiz məhkəmə sisteminə malik və sahibkarlıq hüquqlarını tam qoruya bilən qanunvericiyə sahib modern ölkənin formalaşdırılması daha çox vacibdir. Bunun üçün, düzdür, qanunları təkmilləşdirmək Önəmlidir. Lakin artıq XXI əsrdə daha böyük önəmli qanunları təkmilləşdirməyə deyil, insanları təkmilləşdirməyə verilir, daha doğrusu keyfiyyətli insan yaratmağa. Bu halda dövlətin yürütdüyü iqtisadi siyasətdə daha uğurlu nəticələr verə bilər. Özəlləşdirməyə gəldikdə isə

dövlət bu sahədə geniş proqram müəyyənləşdirmişdir ki, bu proqrama əsasən 2000-ci ildə artıq dövlət müəssisələrinin 70 %-dən çoxu özəlləşdirilmiş oldu. Nəticədə kiçik müəssisələrin özəlləşdirilməsi əsasən başa çatdırıldı, orta iri müəssisələrin özəlləşdirilməsi l998-ci ildən etibarən sürətləndirildi. Sosial müdafiə sahəsində dövlət bu illərdə xüsusən səhiyyəlinin işini qənaətbəxş olmadığına görə bu sahəyə diqqəti artırdı (özəl səhiyyə müəssisələrini yaradılması üçün şərait yaxşılaşdırıldı). Səhiyyə İlə yanaşı təhsil sahəsində də geniş islahatlar planlaşdırıldı. Burada ən mühüm amillərdən biri büdcədən təhsilə ayrılan vəsaitlərdən daha səmərəli istifadə olunması idi. Bundan başqa 1998-ci ildə Sosial Müdafiə Fondundan xərclər ÜDM-un 5 %-i səviyyəsindən 6,1 %-i səviyyəsinə yüksəldildi.

Beləliklə, bütövlükdə ölkədə makroiqtisadi stabilləşdirmə və struktur islahatları Öz uğurlarını özəl sektorun işinin aktivləşməsi ilə aydın şəkildə göstərirdi. Bu da öz növbəsində neftdən gələn gəlirlərin infliyasiya yarada bilmə təhlükəsini qabaqlamaq üçün Milli Bankla hökümətin arasında kordinasiyanın davam etməsi baxımından çox mühümdür. Bunu 22 saylı cədvəlin göstəricilərindən aydın görmək olar.

Cədvəl 22

Proqram üzrə iqtisadi inkişafın əsas göstəricilərinin dəyişməsi meylləri

| GöstəricUər | 1995 | 1996 | 1997 | 1998 | 199 | 2000 |
|---|---|---|---|---|---|---|
| ÜDM-lə dəyişmə | -11,0 | 1,3 | 5,0 | 7,0 | 8,5 | 9,6 |
| İstehlak qiymətləri (dövrün sonuna) | 85,4 | 6,7 | 3,9 | 4,5 | 5 | 5 |
| (ÜDM-un faizlə hissəsi) | | | | | | |
| Maliyyə balansı | -4,3 | -2,6 | -2,8 | -3,0 | -1,1 | -0,9 |
| Cari hesablar balansı (defisit) | -11,4 | -23,6 | -21,7 | -27,4 | -32, 1 | -34,8 |
| Bütün beynəlxalq chtiyartar | 1,2 | 2,0 | 3,5 | 4,0 | 4,0 | 4,2 |

Mənbələr; Azərbaycanın rəsmi orqanları və BVF-nun qiymətləndirmə və layihələşdirmələri.

Cədvəldən gördüyümüz kimi, iqtisadi inkişafın ən mühüm göstəricilərindən biri olan ÜDM-un proqram üzrə 1998-1999- cu illərdə uyğun olaraq 7,0 və 8,5% müəyyənləşdirilib. 2000-ci ildə isə ÜDM-un artımın 9,6% olacağı gözlənildiyi halda ÜDM-un həmin illərdəki artımı bu göstəricilərdən daha çox oldu (2000-ci İldə 11,1%). Digər tərəfdən maliyyə balansındakı defisitlər 2000-ci ilə doğru azalmış cari hesablar balansı isə 2000-ci ilə doğru daha çox defısitlə çoxalmışdır ki, bu da neft sektoruna görə idxalın artması ilə əlaqədardır, 2000-ci ildən sonra isə neft hasilatının sürətlə artması bu defısitin azalmasına səbəb olmuşdur.

Beləliklə, 1998-ci il proqramı və ölkədəki makroiqtisadi və maliyyə sabitliyini qorumaq cəhdləri uğurla reallaşdırıldı. ESAF və digər maliyyələşdirmə mexanizmləri ilə dəstəklənən bu islahatların müsbət nəticələri BVF-nun İcraedici Şurası tərəfindən də qiymətləndirilib. Xüsusən makroiqtisadi siyasət vasitəsilə illik infliyasiya faiz dərəcələrinin aşağı səviyyədə saxlanıla bilməsi və bu siyasətin gələcəkdə də davam etdirmə niyyəti alqışlanıb. Bundan başqa hökümətin manatın məzənnəsi ilə əlaqədar həyata keçirdiyi siyasət də dəstəklənib ki, bu siyasət də ilk növbədə manatın məzənnəsindəki qısa müddətli kənarlaşmaları aradan qaldırmaq, onun nominal dəyərinin iri həcmdə dəyişməsini qabaqlamaq məqsədini güdürdü. Həmçinin pul siyasətinin və valyuta əməliyyatlarının effektliyini artırmaq üçün hökümətə Ölkədə kredit və qiymətli kağızlar bazarım inkişaf etdirmək üçün tədbirlər görmək tövsiyyə olundu. BVF tərəfində vaxtaşarı aparılan qiymətləndirmələr zamanı struktur islahatları əlbəttə nəzərdən qaçınla bilməz. Belə ki, rəhbərlik tərəfindən həyata keçirilən vacib struktur islahatları alqışlamaqla yanaşı bəzi sahələrdə xüsusən aqrar sektorda görülməli işlərin çox olduğu da qeyd olunub. Bu həm də ona görə əhəmiyyətlidir ki, məhz aqrar sektorda istehsalın artması ölkə iqtisadiyyatında balanslaşdırılmış iqtisadi inkişafa yol açır. 1998-ci ıl 17 avqustda apanimış bu müzakirə zamanı İcraedici Şuranın Direktorları dövlət xərclərini yenidən qurutması və bu xərcləri üzərində nəzarətin güclən

dirilməsi sahəsində az irəliləyişin əldə edildiyinə görə təəssüfləndiyini bildirdi və qeyd olundu ki, məhz bu cür islahatlar orta müddət üçün maliyyə vəziyyətinin sabit saxlanılması baxımından çox mühüm əhəmiyyətə malikdir. Bundan başqa maliyyə sahəsindəki uğurların qeyd olunması ilə yanaşı bankçıhq sektorundakı islahatların gecikmələrlə müşaiyət olunmasının özəl sektorun inkişafına, xüsusən də kiçik və orta ölçülü müəssisələrin inkişafına və bütövlükdə qeyri-neft sektorunun inkişafına mənfi təsir edəcəyi də vurğulandı. Bundan başqa dövlətin idarəetmə sahəsindəki problemləri həll etmə, habelə ölkənin fiskal şəffaflığını təmin etmə cəhdləri də qiymətləndirildi və bunlara ilk növbədə qanunvericilik sahəsini (xüsusən onun bazara yönəlmiş hissələrini) təkmilləşdirmək, dövlət sektorunda maliyyə nəzarətinin gücləndirilməsi özəlləşdirmə prosesində şəffaflığın artırılması, daha ümumi şəkildə desək dövlətin iqtisadiyyata müdaxiləsinin mənfi nəticələrinin mümkün qədər azaldılması ilə nail olmağın vacibliyi vurğulandı. Həmçinin dövlət sektorunun fəaliyyətinin effektivliyinin artırılması məqsədilə 1999-cu il büdcə kontekstində administrativ islahatların aparılması üçün hazırlıq işlərinin tamamlanması tələb olundu.

Digər tərəfdən Direktorlar xarici neft investorlarından alınan bonusların saxlanılması, habelə gələcək neft gəlirlərinə optimal istifadə üçün ilkin planlar hazırlayan işçi qrupunun yaradılmasından razı qaldılar. Lakin onlar bu ehtiyatlardan istifadənin şəffaflığı tam olmaq şərti ilə dövlət bu ehtiyatları gələcək nəslə saxlaya biləcək bir institsional mexanizmin yaradılmasını tövsiyyə etdilər.

Beləliklə, Azərbaycandakı islahatlar əvvəlcə «Stend-bay» maliyyələşdirməsinin köməyi ilə, 1996-cı ildən sonra isə EFF və ESAF maliyyələşdirmə kreditləri ilə davam etdirildi. Bunu da iki tranşı haqda yəni, 1996-cı il 20 dekabrda təsdiqlənmiş 152,1 mln. SDR (təxminən 119 mln. dollar) və 1997-ci il 23 dekabrda təsdiqlənmiş 46,8 mln. SDR (təxminən 64 mln. dollar) kreditləri haqda məlumat əldə etdik. Lakin, proqram 3 kredit tranşı nəzərdə tutmuşdur ki, 3-cü məbləğ 26 yanvar

1999- cu ildə təsdiqləndi. Ümumi dəyəri 79,7 mln SDR (təxminən 112 mln. dollar) olan maliyyələşdirmənin əsas məqsədi 1999-cu ildə iqtisadi və maliyyə proqramım davam etdirməkdir. Bunun da 23,4 mln. SDR-i (təxminən 3,3 mln dollar) ESAF (struktur islahatlarının maliyyələşdirmə mexanizmi) kreditləri üzrə 56,3 mln. SDR-i (təxminən 79 mln. dollar) konsepsasiyaedici maliyyələşdirmə mexanizmi üzrə (CFF) verilib.

1999-cu il proqramında hansı işlərin görüldüyünü və hansıların nəzərdə tutulduğunu qeyd etməzdən əvvəl əvvəlki dövrlərdə hansı nailiyyətləri əldə olunduğuna və ölkədəki iqtisadi vəziyyətə qısaca nəzər salaq. Bildiyimiz kimi 1998-ci ildə bütövlükdə ölkə iqtisadiyyatı böyüməkdə davam etdi ki, bu da 1990-cu ildə ÜDM-un təxminən 8% artımı ilə müşaiyət olunmuşdu. İnfliyasiya da öz növbəsində aşağı səviyyədə saxlanılmışdı ki, bu da özünü manatın məzənnəsinin sabit saxlanılmasında göstərirdi. Bu isə birbaşa aparılan sərt pul siyasətinin nəticəsi idi. Lakin 1998-ci il proqramının həyata keçirilməsi zamanı ölkə iki mühüm xarici mənfi təsirə məruz qaldı ki, bu da ölkədəki maliyyə və tədiyyə balansının vəziyyətinin müəyyən qədər arzu olunmayan istiqamətdə dəyişməsinə səbəb oldu. Birinci xarici mənfi təsir neftin qiymətlərinin aşağı düşməsi, 2-cisi isə Rusiyadakı maliyyə böhranı idi. Xüsusən neftin qiymətindəki enmələrin nisbətən uzunmüddətli olması, həmçinin həmin dövrdə aparılmış bir sıra tədqiqatlarda (neftaxtarma işlərində) gözləniləndən də az nəticələrin əldə olunması son nəticədə əlbəttə ölkəyə planlaşdırılan investisiyaların həcminə də öz mənfi təsirini göstərir. Qeyri-neft sektoruna gəldikdə isə burada inkişafın olmadığını qeyd etmək olmaz. Lakin həmin inkişafın çox böyük hissəsi iki mühüm sahənin payına düşür; 1) inşaat; 2) xidmət (bu vəziyyət bu gün də qalmaqdadır). Qeyri-neft sektorunun digər sahələrinə gəldikdə isə, məsələn sənaye istehsalı və kənd təsərrüfatı, burada təəsüf kı, nəzərə çarpacaq böyük inkişafın baş verdiyini qeyd etmək olmaz. Bunun da iki mühüm səbəbi vardır. Birincisi, bu məhslullara xarici bazarda

tələbatın zəif olması, ikincisi isə Ölkəyə yüksək rəqabət qabiliyyətli məhsulların idxalının artması (xüsusən də 1998-ci il avqust ayında rublun depresiyasmdan sonra). Digər tərəfdən onu da qeyd edək ki, Azərbaycana da BVF tərəfindən kon- pensasiyaedici kreditləşdirmə üzrə borcun ayrılma səbəbi də elə bunlar idi (yəni neftin qiymətlərinin enməsinə görə neftdən əldə olunan gəlirlərin və ixracdan gələn gəlirlərin azalması).

1999-cu il proqramına gəldikdə isə ilk növbədə burada planlaşdırılan və nəzərdə tutulan iqtisadi inkişaf istiqamətlərini işıqlandırmağı vacib hesab edirik. Belə ki, 1999-2001-cu illərdə **Proqram üzrə nəzərdə tutulan ÜDM-un illik artımınm 7 % olması** (əvvəlkindən bir qədər az), infliyasiyanm isə illik 4% həddi nəzərdə tutulmuşdu. Digər tərəfdən neft istehsalı artımı hesabına ümumi inkişafa nail olunsa da qeyri-neft sektorundakı inkişaf 1999-cu ildə zəiflədi ki, bu da xarici bazarlardakı tələbatın azalması (xüsusən Rusiya) və valyuta dəyişmə kursundakı dəyişikliklərlə bağlı idi (1998-ci ildə dollara qarşı manat 3890 səviyyəsində idi).

Sayca üçüncü olan bu proqram makroiqtisadi siyasətin, xüsusən maliyyə stabilliyini qorumaq və struktur islahatlarının gücləndirilməsi sahələrini əhatə edib. Büdcəyə gəldikdə 1999- cu il üçün defisitin ÜDM-un 3,1%-i qədər olması müəyyənləşdirildi ki, bu da əvvəlcədən planlaşdırıldığından daha böyük oldu. Nəticədə ölkədə maliyyə möhkəmliyinin yaradılmasına ehtiyac artdı. **Xüsusən vergi yığımı sahəsində** irəliləyişlər əldə etmək üçün tədbirlər müəyyənləşdirildi ki, buna zərurət doğuran amillərdən ən birincisi aşağı səviyyəli neft qiymətlərinin yaratdığı gəlirin azalmasını bir növ konpensasiya etmək, digər tərəfdən struktur islahatları üçün dövlət xərclərini artırma imkanı əldə etmək və nəhayət ödənilməli olan borcların ödənilməsi imkanlarının yaxşılaşdırılması idi. Həmçinin 1999- cu ildə ölkədəki çətinlikləri əvvəlcədən qabaqlaya biləcək pul siyasəti davam etdirildi ki, ən mühüm məqsəd də maliyyə sabitliyini qoruyub saxlamaqdan ibarət idi.

Proqram çərçivəsində nəzərdə tutulmuş struktur islahatları haqda onu qeyd edək ki, ən böyük önəm dövlət

sektorunda islahatların aparılmasına, korrupsiya ilə mübarizəyə və ümumiyyətlə hökümətin fəaliyyətinin təkmilləşdiril- məsinə verilmişdir. Eyni zamanda dövlət **orqanlarının iqtisadiyyata lüzumsuz müdaxilələrinin qarşısını almaq, hökümətin strukturunu təkmilləşdirmək və dövlət sektorunda işləyənlərin sayının artmaması üçün** müəyyən səylərin edilməsi nəzərdə tutuldu. Digər tərəfdən struktur islahatlan çərçivəsində ən mühüm məqsədlərdən **bankçıhq sektorunun** yenidən qurulması və maliyyə sisteminin möhkəmləndirilməsini, özəlləşdirmə prosesinin genişləndirilməsini və gücləndirilməsini, dövlət müəssisələrinin özəlləşdirilməsini, habelə tam bazar iqtisadiyyatına əsaslanan **aqrar sektorun** yaradılmasını göstərə bilərik. Sosial müdafiə sahəsində isə **səhiyyə və təhsildəki** islahatlar davam etdirilirdi. Bu dövr üçün nəzərdə tutulmuş bir sıra iqtisadi göstəriciləri nəzərdən keçirməzdən qabaq onu da qeyd edək ki, 1992-ci il 18 sentyabrda BVF-na qoşulmuş Azərbaycanın bu qurumdakı kvotası 1999-cu ildə artaraq 160,9 mln. SDR-ə (təxminən 225 mln. dollar) çatmışdır.

1999-2000-cİ illərdə bilavasitə BVF-nun iştirakı ilə həyata keçirələn proqramın təsiri nəticəsində iqtisadi inkişafın əsas göstəricilərində böyük keyfiyyət dəyişiklikləri baş verdi (cədvəl 23).

**Cədvəl 23**

1999-2000-Cİ **illərdə BVF-nun iştirakı ilə həyata keçirilmiş proqramın makroiqtisadi göstəricilərə təsiri**

| Makroiqtisadi göstəricilər | | | | |
|---|---|---|---|---|
| | 1997 faktiki | 1998 proq- | 1999 | 2000 |
| UDM-in İllik artımı (faizlə) | 5,8 | 8,0 | 7,0 | 6,0 |
| O cümlədən: neft | -3,6 | 25,0 | 22,6 | 5 ^ |
| Qeyri-neft | 7,8 | 4,8 | 3,5 | 6,2 |
| İstehlak qiymətləri infliyasiyası (%-lə, dekabrdan dekabradək olan dövr) | 0,4 | 0,5 | 5,0 | 3,0 |
| Nominal ÜDM (mlrd, manat) | 15,352 | 16,580 | 18,600 | 20,603 |

| | | | | |
|---|---|---|---|---|
| Nominal ÜDM (mln. ABŞ doHar) | 3,854 | 4,295 | 4,819 | 5,23 |
| Pulun artımı (%-b, dd!iabrdan dekabradək) | | | | |
| Manat ehtiyat pulu | 35,1 | -20,7 | 10,0 | 3,0 |
| Manat geniş istifadəli pul | 29,2 | -21,3 | 14,8 | 17,5 |
| Manat geniş istifadəli pıüun dövriyyəsi | -16,8 | 29,3 | -2,6 | -6,7 |
| Maliyyə (ÜDM-da hissəsi %-lə) | | | | |
| Ümumi dövlət balansı | -1,7 | -4,3 | -3,1 | -2,4 |
| Ümumi dövlət gəlirləri | 19,7 | 17,2 | 19,3 | 19,9 |
| Ümumi dövlət xərdəri | 21,4 | 21.5 | 22,4 | 22,3 |
| Xarici cari iqtisadi əlaqələr balansı (ÜDM-da %-lə) | -23,7 | -29,8 | -32,5 | -38,4 |
| Ümumi rəsmi ehtiyatlar (dövrün sonuna) mln. dollar ABŞ | 467,0 | 432,0 | 590,0 | 715,0 |

**Mənbə; A2ərbaycanın səlahiyyətli orqanları və BVF.**

**Beləliklə, 1996-1999-cu illəri əhatə etmiş və ESAF və EFF maliyyələşdirmə mexanizmləri ilə dəstəklənmiş bu proqram demək olar ki, uğurla başa çatdırıldı. Belə ki, 1999-cu il 30 iyunda BVF-nun verdiyi rəydə İdarəedici Direktorlar müavini Şiqemitsu Suqisaki aparılmış islahatların nəticəsi kimi Azərbaycana əlavə 11,1 mln, SDR pulun aynIdığmı qeyd etdi. Həmin bu müzakirə zamanı İdarəedici Şura əsasən. bİr neçə əhəmiyyətli sahələrə toxundu. İlk növbədə Azərbaycanın 1998-ci ildəki, çətin və qeyri-müəyyən mühitdə (Rusiyadakı maliyyə böhranı və s. nəzərdə tutulur) sərt siyasətlə ölkənin maliyyə stabilliyini qoruya bilməsi yüksək qiymətləndirildi.**

**Digər tərəfdən Direktorlar Milli Bankın monetar vəziyyətini bir qədər yumşaltmasını dəstəklədilər. Həmçinin fiskal siyasəti nəzərə almaqla şərti ilə Şura hökümətin büdcəsinin nəğd xərclərini artırmaq qərarına da müsbət yanaşdı. Çünki xərclərin əsas hissəsi vaxtı çatmış pensiyaların verilməsinə sərf olunacaqdı ki, bu da cəmiyyətdəki kasıb təbəqəyə dəstək deməkdir. Eyni zamanda vergİ administratorluğunun təkmilləş-**

dirməyə ehtiyacı olduğu habelə dövlətin büdcədən ödəməli olduğu xərci yığıb saxlamamağı vurğulandı.

Direktorlar həm də ölkə rəhbərlərinə struktur islahatlarını intensivləşdirməyə, beləliklə xarici və yerli sahibkarların fəaliyyəti üçün daha yaxşı imkanlar yaratmağı tövsiyyə etdilər.

Beləliklə, biz müəyyən qədər retrospektiv müstəvidə Azərbaycanla BVF-nun əməkdaşlığı ilə qısaca olsa da tanış olduq. Lakin qeyd etmək lazımdır ki, bu əməkdaşhq bu gün davam edir və görülən işlərin vəziyyətini nəzərdən keçirək.

2001-ci ildən başlayaraq BVF-nun maliyyə dəstəyi ilə Yoxsulluğun Azaldılması və İqtisadi Artım layihəsi çərçivəsində Azərbaycan Respublikası iqtisadi proqram həyata keçirməyə başlamışdır. Bir neçə mərhələdən ibarət olan bu proqram haqqında qeyd etməzdən əvvəl 1998-1999-cu illərin sonunda əldə olunmuş iqitsadi bazaya nəzər salaq. Çünki hər bir iqtisadi proqram müəyyən iqitsadi bazaya əsaslanır. Belə ki, bildiyimiz kimi 1998-1999-cu illərdə Azərbaycan Genişləndirilmiş struktur İslahatların Maliyyələşdirmə mexanizmini (ESAF) və Genişləndirilmiş Fond Maliyyə mexanizmi (EFF) üzrə sərt maliyyə siyasətlərini həyata keçirməyi davam etdirdi. Bu siyasət həmçinin Dünya Bankının, Struktur İslahatları kreditləri vasitəsi ilə də dəstəklənmişdir. Nəticədə ölkədəki iqtisadi aktivlik öz canlılığını qorumuş, infliyasiya isə nəzərdə tutulduğu kimi aşağı səviyyədə saxlanılmışdır. Həmçinin dövlət maliyyəsi bu dövrdə mövcud olmuş aşağı neft qiymətlərindən və gətirlərin toplanması sahəsindəki problemlərdən mənfi təsirlənmişdir. Aşağı səviyyədə neft qiymətləri xarici iqtisadi münasibətlər balansına mənfi təsir etdi. Bu faktorlar və Rusiyadakı maliyyə böhranı dövləti yeni istiqamətdə maliyyə siyasətləri həyata keçirməyə vadar edirdi (məsələn: manatın məzənnəsinin aşağı salınması).

Digər tərəfdən ÜDM-un 1998-ci ildə artımı gözlənildiyindən çox 10%-ə çatdı ki, bu da neft istehsalının genişlənməsi və əlbəttə tikinti və xidmət sahəsindəki aktivliyin artması ilə əlaqəli idi. Halbuki, qeyri-neft .sənaye sahələrində istehsal artımı 1998-ci ildə 8 % azalmışdır. Kənd təsərrüfatı istehsalı isə

yalnız 4 % çoxala bilmişdir. Sənaye və kənd təsərrüfatı haqda təkrar da olsa onu qeyd edək ki, həmin ilin ortalarında (1998) Rusiyada rublun güclü devalyuasiyasından sonra hər iki sahə Azərbaycanda Rusiyadan gələn məhsulların miqdarının artırılması ilə güclü rəqabətlə qarşılaşdı. Bu da inkişafa mane olan faktorlardan biri idi. Bundan başqa 1998-cİ ildə beynəlxalq səviyyədə aşağı neft qiymətlərinin bir qədər davamlılığı neft sektoruna qoyulacaq bir sıra investisiyaların gecikməsi ilə müşaiyət olunur. Bu hal hətta neftin qiymətləri bərpa olunduqdan sonra da yəni 1999-cu ildə də davam etdi ki, nəticədə ümumi inkişaf tempi aşağı endi (bu özünü ÜDM-un 1999-cu ildə azalması ilə biruzə verdi, xüsusən də I yarımildə).

İstehlak qiymətləri infliyasiyası isə 1998-ci ilin sonuna doğru 7%-ə qədər yüksəldi və disinfliyasiya prosesi 1999-cu ilin ilk aylarında da davam etdi. Nəticədə 1999-cu ilin aprel ayına qədərki, 12 ay müddətində istehlak qiymətləri disinfli- yasiyası 11%-ə çatdı. (1999-cu ilin ilk aylarından sonra manatın dollara qarşı məzənnəsi düşdü və 41000 səviyyəsini keçdi, bu da istehlak qiymətlərinin yenidən infliyasiya edə bilməsinə şərait yaratdı).

Maliyyə vəziyyəti isə 1998-ci ilin birinci yarısında yaxşı deyildi, gəlirlər gözlənildiyindən az toplanmışdır və bir sıra planlaşdırılmış büdcədənkənar xərclər meydana çıxmışdı. Gəlirlərin az olmasının bir səbəbi neftin qiymətinin aşağı düşməsi İdisə, digər səbəbi də vergi yığımındakı çatışmamazlıqlar idi. Gəlirlərin az olması bəzi sahələrdəki xərclərin azaldılması ilə və ödəmələrin gecik dirilməsi ilə bir növ konpensasiya edilirdi. Fiskal defisit də elə gözlənildiyi həcmdə deniş oldu (ÜDM-un təxminən 4%-i qədər). Bu tendensiya, yəni gəlirlərin aşağı yem ciddi vergi administratorluğunun tətbiqinə baxmayaraq 1999-cu ilin kvotasında da davam etdi. Bu da öz növbəsində yəni bəzi sahələrdə xərclərin azaldılması ilə müşaiyət olundu.

Xarici iqtisadi münasibətlərdə də bu dövrdə ciddi müsbət dəyişikliklərin olduğu söylənilə bilməz. Belə ki, həmin dövrdə (1998) cari iqtisadi əlaqələr balansında defisit artmışdır. Səbəb

isə ixracdan gələn gəlirlərin az olması və idxalın ümumi dəyərinin nəzərdə tutulduğundan çox olması idi (bu arada onu da deyək ki, neftin ixracının həcmi artmışdı). Buna baxmayaraq qeyd etdiyimiz kimi balansdakı defisit azalmayıb, artıb. Bunun səbəbləri haqda yuxanda bir qədər qeyd olunub. Bundan başqa dövlətin əsas önəm verdiyi məsələlərdən biri ölkədəki valyuta məzənnəsi idi. Belə ki, 1998-ci ildə manat ABŞ dollarına qarşı demək olar ki, əsasən sabit saxlanıldı. Bu bir tərəfdən çox əhəmiyyətli idi, yəni ilk növbədə dövlət infliyasiyanı daha asan nəzarət edə bilirdi, digər tərəfdən ictimaiyətdə inamsızlıq kimi halların yaranmasına yol verilməmiş olurdu və həm də bütün bunlar qonşu ölkələrdə sərt devalyuasiyaların baş verdiyi vəziyyətdə həyata keçirilirdi. Lakin bir başqa tərəfdən həmin dövrdə manatın məzənnəsi heç də qeyri-neft sektorundakı inkişafa müsbət təsir etmirdi. Daha sonra, xüsusən 1998-ci ilin dekabr ayından maya qədər olan dövrdə manatın ABŞ dollanna qarşı dəyişmə kursu təxminən 3 %-ə yaxın depresiya edildi, yəni azaldıldı. Bu isə o deməkdir ki, dolların qiyməti bir neçə yüz manat yüksəldi.

Struktur islahatları isə dövlət tərəfindən geniş miqyasda həyata keçirilməyinə baxmayaraq ümumi şəkildə sürəti zəif İdi. Xüsusən özəlləşdirmə və qanunvericilik sahəsində. Kənd təsərrüfatı və torpaq özəlləşdirmə sahəsində isə müəyyən irəliləyişlər əldə olunmuşdu. Bankçılıq sahəsində isə dövlət banklarının özəlləşdirilməsi prosesi hissə-hissə davam etdirildi. (Dövlət Banklarının özəlləşdirilməsi prosesi uzun müddət çəkən prosesdir və bu gün də davam etdirilir. Beynəlxalq Bankın və BUS Bankın özəlləşdirilməsi ilə). Digər tərəfdən idarəetmənin təkmilləşdirilməsi və burada korrupsiyaya yol vermənin azaldılması üçün səylər də davam etdirildi (BVF və Dünya Bankı bu sahədə də müəyyən köməkliklər edib). Bütün bunlar 1999-cu il 30 iyunda BVF-nun qiymətləndirilməsi zamanı da təqdim olundu. Belə ki, tcraedici Direktorlar 1998- ci ildəki xarici mənfi təsirlərə baxmayaraq sərt iqtisadi siyasətlə ölkədəki iqtisadi və stabilliyinin qorunmasını alqışla

**dılar. Direktorlar həmçinin bu stabilliyin davamlı olması üçün ilk növbədə struktur islahatlarım intensivləşdirməyin vacibliyini qeydetdüər. DİgƏr tərəfdən yaxın müddət üçün maliyyə siyasətlərini qiymətləndirən zaman Direktorlar büdcədən nəğd xərclərin artınıması qərarını və monetar vəziyyəti bir qədər müsbət qarşıladılar. Xüsusən də pensiya borclarımn ödənilməsi üçün Dövlətin MiUİ Bankındakı depozitlərindən istifadə etmək qəran təqdirə layiq bilindi (çünki, bu kasıb təbəqəyə birbaşa yardım deməkdir). Bunlarla yanaşı dövlət maliyyə sektorundakı strukturun gücləndirilməsi ilə bu sahədəki şəlTanığın təmin olunması üçün bir sıra tədbirlərin həyata keçirilməsinin vacibliyi bir daha vurğulandı.**

**Valyuta siyasətinə gəldikdə isə ilk növbədə bütün 1998-ci il ərzində manatın məzənnəsinin əsasən sabit saxlanıla bilməsi müsbət hal kimi qeyd olundu. Lakin, qeyri-neft sektorundakı iqtisadi fəaliyyətin dəstəklənməsi üçün artıq manatın məzənnəsi buna uyğunlaşdırmağın münasib olduğu ifadə edildi.**

**Son illərdə Azərbaycanla Beynəlxalq Valyuta Fondu arasındakı əməkdaşlıq daha çox yoxsulluğun azaldılması istiqamətində davam etdirilir. Lakin bu əməkdaşlıq əlaqələri hələ 2001-ci ildən başlayıb. Belə ki, 2001-ci ilin iyul ayının 2-si BVF-nun İcraedici Şurası Azərbaycana prinsipcə 3 illik 80,5 mln. SDR ekvivalentinə bərabər (təxminən 100 min. ABŞ dolları) Yoxsulluğun Azaldılması və İqtisadi Artımın Təmin Olunmasına Yönəldilmiş Kredit Mexanizmi (RRGF) çərçivəsində kredit təsdiq etmişdir. Məqsəd dövlətin iqtisadi proqra- mmı və yoxsulluğun azaldılmasına yönəldilmiş səylərini dəstəkləmək idi. Bu haqda son qərar isə yoxsulluğun azaldılmasına yönəldilmiş strategiya sənədi (PRSP) müzakirə olunduqdan sonra verilir. Biz isə bu xətt üzrə verilmiş kreditlərə keçməzdən əvvəl proqramın məzmununun nədən ibarət olduğuna və nəyi nəzərdə tutduğuna diqqət yetirək. Bu dövrdə Azərbaycanın makroiqtisadi durumu qənaətbəxş idi. Belə ki, ÜDM-m artımı 11 %-ə çatmışdır, qeyri-neft sektorundakı artıra isə 13%-ə yaxınlaşmışdır (bunlara neftin qiymətinin yük**

sәlmәsi dә müsbәt tәsir edib). Bu inkişaf tendensiyası 2001-ci ilin birinci rübündә dә davam etdi vә ümumi inkişaf keçәn illә müqayisәdә 8% artdı. İllik infliyasiya isә aprel ayına qәdәr olan 12 aylıq dövrdә orta hesabla 1,6% hәddindә müşaiyәt olundu.

Yeni iqtisadi proqramın isә üç mühüm mәqsәdi var: makroiqtisadi stabilliyi davam etdirmәk, idarәetmәni güclәndirmәk vә iqtisadiyyatın qeyri-neft sahәlәri ilә әlaqәdar sahәlәrindә inkişafı artırmaq. 2001-2004-cü illәrdә hәyata keçirilәn makroiqtisadi siyasәtdә ilk növbәdә ÜDM-un illik 8,5 artımına nail olmaq vә istehlak qiymәtlәri infliyasiyanın illik 2,5% sәviyyәsindә stabil saxlamaq nәzәrdә tutulub. Proqramın Tıskal hәdәflәri isә xәrclәrin sәviyyәsini sabit saxlamaq, o cümlәdәn fıskal defısiti ÜDM-un 1%-i hәddini aşmağa qoymamaqdan ibarәtdir.

2001-ci ildә fıskal siyasәt isә әsasәn sәrt siyasәt olaraq saxlanıldı vә fıskal defisit ÜDM-un 0,5%-i qәdәr oldu. Neftdәn gәlәn gәlirlәri nәzәrә almamaqla isә bu defisit 9,2% müәyyәnlәşdirilib ki, bu da 2000-ci ildәkindәn 1,9% çox idi. 2001-ci ildә hәmçinin büdcәnin xәrclәrindә dә müәyyәn artmalar baş verdi. Bu da ilk növbәdә sәhiyyә vә tәhsil xәrclәrinin artması ilә әlaqәdar idi. Bundan başqa dövlәt xәrclәr siyasәtini, idarәetmәni, vergi vә gömrük administratorluğunun işini tәkmillәşdirmәk, habelә geniş anti-korrupsiya proqramını yaratmaq vә hәyata keçirmәk üçün birsıra tәşkilatı tәcrübәlәrә әl atdı.

Pul siyasәtinin isә әsas mәqsәdi aşağı infliyasiyanı qorumaq vә beynәlxalq ehtiyatların qәnaәtbәxş sәviyyәsini saxlamaqdır. Faktlardan görünür ki, beynәlxalq ehtiyatların ümumi mәblәği 2001-ci ildә artmışdır. Bu da iqtisadiyyata kredit qoyuluşu imkanlarının artmasına imkan vermişdir.

2001-2005-ci illәrdә mövcud vә nәzәrdә tutulmuş bir sıra iqtisadi göstәricilәrin dәyişmә meyllәrini nәzәrdәn keçirәk (cәdvәl 24).

**Gədvəl 24**

## Azərbaycanda iqtisadi inkişafın əsas göstəricilərinin inkişaf dinamikası

| | Göstəricilər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|
| | Proqram (illik faiz dəyişməsi göstərilməyibsə) | | | | | | | |
| I. | Milli gəlir | | | | | | | |
| | ÜMM cari qiymətlərlə | 9,1 | 25,5 | 12,3 | 8,6 | 6,6 | 10,3 | 14,5 |
| | ÜDM cari qiymətlərlə | 7,4 | IM | 8,5 | 8,5 | 8,5 | 8,0 | 11,2 |
| | 0 cümlədən; neft sektoru | 30,6 | 2,3 | 6,1 | 6,4 | 6,5 | 3,9 | 24,8 |
| | Digər sektorlar | 2,1 | 12,8 | 9,1 | 9,0 | 9,0 | 9,0 | 8,0 |
| | ÜDM defliyatoru | 1,6 | 13,0 | 3,5 | 0,1 | -1,8 | 2,2 | 3.0 |
| | İstehlak qiyməti indeksi (dekabr-dan/dekabra) | -0,5 | 2,2 | 2,5 | 2,5 | 2,5 | 2,5 | 2,5 |
| II | Dövlət maliyyəsi | | | | | | | |
| | Ümumi gəlir | 2,0 | 42,9 | 19,3 | 8,1 | 9,1 | 9,1 | 16,3 |
| | Ümumi xərc | 8,9 | 10,5 | 22,4 | 7,4 | 10,3 | 9,4 | 10,1 |
| | 0 cümlədən: cari xərclər | -0,3 | 11,9 | 17,3 | 8,3 | 9,8 | 8,6 | 9,1 |
| | İnvestisiya xərcləri | 119,5 | 3,0 | 52,7 | 3,3 | 12,6 | 13,2 | 14,6 |
| III | Pul və kredit | | | | | | | |
| | Xarici aktivlər | 51,9 | 65,8 | 46,0 | 44, | 39,6 | - | - |
| | Daxili aktivlər | -35,8 | -28,6 | -31,5 | -28,7 | -21,6 | - | - |
| | Yerli kredit | -18,6 | -43,7 | -18,7 | -28,7 | -21,6 | - | - |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **o cümlədən: iqlisadiyyala kredit** | **5,4** | **4,2** | **5,3** | **5,7** | **5,1** | **-** | **-** |
| | **Manat geniş istifadəli pul (orta illik dəyişmələr)** | **-5,5** | **16,9** | **13,6** | **10,8** | **12,8** | **-** | **-** |
| | **Xarici valyuta depozitləri (manata olan nisbətdə)** | **29,4** | **39,2** | **41,7** | **43,7** | **45,7** | **-** | **-** |
| **IV** | **Xarici sektorlar** | | | | | | | |
| | **Eksport həcmi** | **7.6** | **17,8** | **12,9** | **4,8** | **1,4** | **1,8** | **28,3** |
| | **İmport həcmi** | **-21,7** | **8,9** | **13,3** | **20,0** | **13,0** | **4,8** | **14.3** |
| **V** | **(ÜDM-un %-lə hissəsi)** | | | | | | | |
| | **Ümumi İnvestisiyalar** | **33,7** | **25,8** | **32,1** | **43,3** | **51,5** | **49,5** | **52,2** |
| | **Dövlət** | **2,6** | **2,1** | **2,9** | **2,7** | **2,9** | **3,0** | **3,0** |
| | **Özəl sektor** | **31,1** | **23,7** | **29,2** | **40,6** | **48,6** | **40,5** | **49,3** |
| | **O cümlədən: neft sektoru** | **16,9** | **11,2** | **15,8** | **26,4** | **32,9** | **29,4** | **31,0** |
| | **Ümumi daxili yığım** | **19,7** | **28,3** | **30,7** | **29,8** | **26,3** | **24,9** | **29,4** |
| | **Ümumi milli yığım** | **20,5** | **23,1** | **26,0** | **26,1** | **24,1** | **24,0** | **26,5** |
| | **Dövlət** | **-2.0** | **2,5** | **2,7** | **2,6** | **2,4** | **2,3** | **3,5** |
| | **Özəl sektor** | **22,4** | **20,6** | **23,4** | **23,4** | **21,7** | **21,7** | **23,0** |
| **VI** | **Dövlət maliyyəsi** | | | | | | | |
| | **Gəlir** | **18,2** | **20,8** | **22,1** | **22,0** | **22,5** | **22,2** | **22,6** |
| | **Ümumi xərc** | **23,7** | **20,9** | **22,7** | **22.5** | **23,3** | **23,1** | **22,2** |
| | **Ümumi fıskal defisİt** | **-4,8** | **0,4** | **-0,5** | **-0,3** | **-0,6** | **-0,7** | **0,6** |

Mənbələr: Azərbaycan səlahiyyətləri və BVF-nun qiymətləndirmələri və layihələri.

Dövlətin bu proqramını dəstəkləmək üçün BVF 6 iyul 2001-ci ildə son təsdiqlənməni etdi. Beləliklə, Yoxsul)uğun Azaldılması və iqtisadi Artımın Maliyyələşdirilməsi Mexanizmi üzrə 80,5 mln, SDK (təxminən 100 mln. dollar) kredit xətti açılmış oldu. Nəticədə Azərbaycan dərhal 8,1 mln. SDR (təxminən 10 min. dollar) götürmək haqqı qazandı. Lakin, Azərbaycana ilk tranş 20 fevral 2002-ci ildə təsdiqləndi (yəni

Azərbaycanın iqtisadi vəziyyətinə baxışkeçirdikdən sonra). Buna əsas səbəb İcraedici Şuranın öz müzakirəsi zamanı Azərbaycandakı iqtisadi vəziyyətin qənaətbəxş olduğunu (yəni PRGF krediti üçün uyğun olduğunu) qəbul etməsidir. Bu müzakirədən sonra İcraedici Orqanda Azərbaycan haqqında belə bir fikir söylənilib: «Azərbaycamn yaxın illərdəki sürətli inkişafı və aşağı infliyasiya ilə müşaiyət olunmuş makroiqtisadi vəziyyəti təqdirəlayiqdir. Ancaq həm də yoxsulluq da geniş şəkildə qalmaqdadır və bunu aradan qaldıra bilmək üçün ilk növbədə qazanılmış makroiqtisadi stabilliyi qorumaq lazımdır. O, cümlədən səlahiyyətli orqanlarda struktur islahat- lannı və idarəediciliyi təkmilləşdirmək üçün daha çox səy göstərməlidirlər. Bu kontcksdə həyata keçirilən proqram vacib əhəmiyyətli o]acaq». Bundan başqa və maliyyə siyasətləri, habelə Azərbaycan Mərkəzi Milli Bankı tərəfindən həyata keçirilən valyuta dəyişmə kursu siyasəti də mövcud duruma uyğun qiymətləndirildi. İdarəçiliyin təkmilləşdirilməsi sahəsində isə ilk növbədə müsbət addım kimi hesablama palatasının səlahiyyətləri artırılaraq bura bütün büdcə və büdcədənkənar fondların daxil edilməsi qeyd olundu. Digər tərəfdən Neft fondu ilə dövlət büdcəsinin inteqrasiyası və dövlətin artıq müəyyən məqsədlər üçün xüsusən yoxsulluğun azaldılması üçün Neft fondu aktivlərindən istifadə edə bilmə imkanları səsləndirildi. Həmçinin Dövlət investisiyalarının inkişaf etdirilməsi (yəni səmərəliliyinin təmin olunması və həcminin artırılması) da bu istiqamətdə atılacaq müsbət addım hesab edildi. Bank sisteminə gəldikdə isə buradakı nailiyyətlər haqda söhbət açıldı. Bu zaman da bu sahədə səlahiyyəth orqanlara Azərbaycanda sağlam rəqabətli bank sistemini yarada bilmək üçün **Beynəlxalq Bankın** özəlləşdirilməsini sürətləndirmək tövsiyyə olundu və **Birləşmiş Universal Səhmdar Bankın** da özəlləşdirmə üçün hazırlanan fikirləri alqışlandı.

Həqiqətən də 2001-ci il müddətində Azərbaycanda iqtisadi vəziyyət nəzərdə tutulduğu şəkildə inkişaf edirdi. Belə ki, ÜDM-un artımı nəzərdə tutulmuş 8,5%-don ölərək 9"/o-ə çatmışdır. Bu inkişaf az ya da çox dərəcədə həm neft sektoruna,

həm də qeyri-neft sektoruna və kənd təsərrüfatına da aiddir. Istehlak qiymətləri infliyasiyası da nəzərdə tutulduğu 2,5%- dən az-1,3% (dekabr 2001) oldu. Daha sonra, təsdiqlənmiş bu proqramın vaxtı 2005-ci il mart ayının 31-nə qədər uzadıldı. Proqram çərçivəsində növbəti tranş isə bir neçə gün əvvəl-16 may 2003-cü ildə təsdiqləndi. Məbləği isə 12,87 mln. SDR (təxminən 18 mln. dollar) həcmindədir. Bu tranşm verilməsi üçün BVF-nun İcraçı Direktorlar Şurası 2003-cü il may ayının 14-də Azərbaycanın proqram fəaliyyətinin ikinci icmalını başa çatdırmışdır. Məhz burada ölkənin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmə istiqamətindəki uğurlu addımları nəzərə alınaraq yuxanda qeyd etdiyimiz ikinci tranş təsdiqləndi. Proqram çərçivəsində hökümətin makroiqtisadi sabitliyə yönəlmiş pul-kredit və büdcə-vergi siyasətlərinə, habelə valyuta siyasətinə sadiq qalması gözlənilir. Digər tərəfdən infrastruktur və sosial xərclərə ehtiyacın artmasına görə 2003- cü ildə qeyri-neft sektorunda büdcə kəsrində mötədil artım BVF-nun İcraedici Şurası tərəfindən məqbul sayılır və bu neft gəlirlərinin əsas hissəsinin gələcək nəsillər üçün saxlanılması üzrə uzunmüddətli strategiyaya uyğundur. Bundan başqa onu da qeyd edək ki, yaxın İllərdə Azərbaycanda sağlam rəqabətlik bank sisteminin qurula bilməsi üçün dövlət banklarının özəlləşdirilməsi sürətləndirilməlidir. Struktur islahatlarına gəldikdə isə bu sahədə ilk növbədə müə^Lsisələrin mənfəət vergisinin dərəcəsinin 2004-cü ilin büdcəsi konteksində yenidən bərabər- ləşdirilməsi gözlənilir. Bundan başqa sahibkarlıq fəaliyyəti üçün xüsusi razılıq (lisenziya tələb edən) sahələrin sayı azalmışdır ki, bu da bütövlükdə ölkədə sahibkarlıq fəaliyyətinin inkişafına stimul yarada biləcək amildir.

Beləliklə, Azərbaycan üçün çox əhəmiyyətli olan iqtisadi proqramların həyata keçirilməsində Beynəlxalq Valyuta Fondunun 1995-ci ildən indiyə qədər böyük rolu olduğunu nəzərdən keçirtdik, lakin bunlarla yanaşı belə bir faktı da qeyd etməmək olmaz ki, ümumiyyətlə bir sıra mütəxəssislər ölkədə iqtisadi proqramların həyata keçirilməsi zamanı beynəlxalq qurumların o cümlədən BVF-nun dəstəyindən istifadə etməyi

razılıqla qarşılamırlar. Onlar əsas arqument kimi BVF-nun siyasətlərinin əhalinin rifah hahnm yüksəlməsinə yox, dövlətin maliyyə cəhətdən güclənməsinə yönəldiyini vurğulayırlar. Bu da ona səbəb olur ki, maliyyə tərəfdən zəif olmayan dövlət fonddan aldığı bordan asanlıqla qaytara bilir, lakin, ölkədəki ümumi iqtisadi vəziyyət və əhalinin rifah halı qənaətbəxş olmadığına görə o yenidən borc almaq məcburiyyətində qalır. Azərbaycanla da buna oxşar problem yaşanmışdır. Belə kİ, 2002-ci il dekabr aymın 21-dəa İl-nədək Azərbaycanda səfərdə olan BVF-nun rəhbərliyi ilə Azərbaycan rəhbərlərinin apardıqları müzakirələr zamanı müəssisələrin mənfəət vergisinin regionlar və sahələr üzrə deferensiallaşdırıiması mövzusunda razılıq əldə oluna bilməmişdir (bu və bir sıra başqa səbəblərdən, hətta proqramın davam etdirilməsi də bir il təxirə salındı və buna görə də yuxarıda qeyd etdiyimiz kimi proqramın vaxtı nəzərdə tutulmuş 2004-cü ilin iyul ayından 2005-ci ilin mart ayına qədər uzadıldı). Bu cür iqtisadi münasibətlərə əsaslanaraq BVF-nun maliyyə xidmətlərindən istifadə etməyə dövlətlər də mövcuddur. Həmin dövlətlərdə sosial-iqtisadi inkişafı heç də digər ölkələrdən geri qalmırdı. Onlarda infliyasiya yox səviyyəsindədir, yoxsulluğun azaldılması problemi ardıcıllıqla həll olunur.

# Bölmə XV\ Transmilli korporasiyalar (TMK-lar) BİM sistemində

***15.1. TMK-in iqtisadi məzmunu, formaları* və *inkişaf xüsusiyyətləri.***
***15.2. TMK~ın yaranmasına tə.sir edən amillər və inkişaf mərhələləri.***
***15.3. TMK-lar ölkələr arasında əməkdaşlıq sistemində investisiya daşıyıcılarıdır.***

15.1. Transmilli korporasiyalann (TMK-ın) iqtisadi mahiyyəti ilə əlaqədar məsələlərin öyrənilməsinə keçməzdən əvvəl qeyd edək ki, «Trans» sözü sərhədi keçmək mənasında işlənilir. Yəni öz ölkəsinin sərhədinin hüdudlarını keçib, dünyanın digər dövlətlərində fəaliyyət göstərən təşkilatı qurum nəzərdə tutulur. «Korporasiya» sözünün kökü latın dilində olan «Korpus» sözündən götürülüb və hərfi mənası «bədən demək- dir». Lakin, burada söz öz birinci mənasından uzaqlaşaraq cəmiyyət, təşkilat mənasım verir. Bu cəmiyyət elə bir qurumdur ki, o müxtəlif üzvlərin birləşməsindən yaransa da vahid fərd, yaxud mexanizm kimi fəaliyyət göstərir. Böyük Britaniya və İrlandiya Respublikasında isə korporasiya anlayışı həmçinin, sahələrdə yerli idarəedici orqanlar üçün də İşlədilib. TMK-a nədir?

TMK-in tərifi ilə əlaqədar müxtəlif yanaşmalar və fikirlər mövcuddur. Rus alimləri K.Semyonovun və Q.Ovçinnikovun əsərlərində TMK-lar dedikdə elə beynəlxalq şirkətlər birliyi başa düşülür ki, onların illik dövriyyəsi 100 mln. ABŞ dollarından çox, ən azı dünyanın 6 dövlətində qız şirkətləri olsun və mütləq BMT-də qeydiyyatdan keçsinlər. Bununla yanaşı Q.Ovçinnikov hesab edir ki, TMK-lar çoxmilii korporasiya işlədilməlidir. Digər ədəbiyyatlarda isə korporasiya sözü əvəzinə şirkət anlayışının işlədilməsi məqsədəuyğun hesab edilir. Əlbəttə, bütün bunlar alimlərin şəxsi fikirləridir. Lakin bu həqiqəti unutmaq lazım deyil ki, özəl biznes öz mülkiyyət mənsubiyyətinə görə üç formada mövcud olur. Bunlara aşağıdakılar aiddir: şəxsi mülkiyyət bazasında inkişaf edən,

müştərəkliyə əsaslanan və korporasiya forması. Bununla əlaqədar belə bir fikiri qeyd elmək çox yerinə düşər ki, şəxsi mülkiyyətə əsaslanan biznes o biznesdir ki, o müəssisə olaraq öz sahibindən ayrılıqda mövcud deyil. Ona görə də korporasiyalara aid məhdud məsuliyyətlilik bura aid edilmir. Müəssisənin bütün bordan həm də onun sahibinin borcları deməkdir. Burada mühüm şərtlərdən biri də odur ki, sahibkarın şərikləri olmamalıdır. Və burada sahibkar bütün işləri öz adından həyata keçirir. Elə buna görə də müəssisənin bordan həmin şəxsin (sahibkarın) şəxsi borcları hesab edilir. Və bu həmin müəssisə yeni bir hüquqi şəxsə (subyektə)çevrilənə qədər davam edir. Məsələn, korporasiya (şirkətə) çevrilənə qədər, (bu halda artıq borclar bir nəfərin bordan yox, korporasiyanın bordan olur). Şəxsi mülkiyyətə əsaslanan müəssisələr korporasiyüalara tətbiq edilən qaydalarla, hüquqi şəxs kimi vergi ödəmir, əksinə onun sahibi öz gəlirindən vergi ödəyir (fiziki şəxs olaraq). Həmçinin şəxsi mülkiyyətə əsaslanan müəssisələrin sahibləri korporasiyalarda (şirkətlərdə) olduğu kimi vergi tutulma üçün narahat olmur.

Şəxsi mülkiyyətə əsaslanan müəssisələrin fəaliyyətləri üçün kapital tapmalan bir qədər çətin olur, çünki səhm sata bilmirlər. Həmçinin işçi tapmaqla da çətinlik yaşaya bilərlər. Və bu forma qeyd etdiyimiz kimi qeyri-məhdud məsuliyyətlidir. Əgər müəssisə haqda məhkəmə iddiası qaldırılarsa onun sahibkarı hər şeyə görə cavabdehdir.

Müştərək yaradılmış biznes müəssisələri elə müəssisələrdir ki, orada şəriklər həm gəliri, həm də zərəri bir-biriəri ilə bölüşürlər.

Şəxslər də iki cür olur. Birincisi, gəlirlərin və zərəri bölüşən, həm də idarə etmədə birbaşa iştirak edən şərik. İkincisi, isə gəlirləri və zərəri bölüşsə də idarəetmədə heç bir iştirakı olmayan şərik. Bu şərik «gizlİ şərik» də adlanır.

Müştərəklik şəxslər arasında müqavilə ilə təşkil edilir və bu şəxslər bir-birilərinə yardım, öz vəsaitlərini, əməklərini və fəaliyyətlərini birləşdirməyə razı olurlar, əvəzində isə gəlirləri bölüşdürürlər.

Deməli, həm TMK anlayışının kökünün mənası, həm də mülkiyyət mənsubiyyəti yuxarıda qeyd etdiyimiz fikirlərlə razılışmamağa əsas verir. TMK-lara verilən təriflə əlaqədar qeyd etmək istəyirik ki, o, rus mənbələrindən başqa BMT-nin və digər beynəlxalq təşkilatların heç bir rəsmi sənədlərində öz əksini tapmamışdır. Əksər qərb alimlərinin əsərlərində, ensoklopediyalarda və BMT-nin TMK-a dair **sənədlərində iki və daha çox ölkədə istehsalı olan, öz məhsulunu bir neçə ölkədə satan, müxtəlif dövlətlərdə rezidentləri-mülkiyyətçiləri olan və BMT-də qeydiyyatdan keçən beynəlxalq şirkətlərin birliyi TMK** adlandırılır. Hazırkı kitabda biz TMK-ın iqtisadi mahiyyətini açmağa imkan verən bu metodoloji yanaşmanı qəbul edirik və özəl biznesə məxsus mülkiyyət formalarından biri olan korporasiyaların inkişaf məsələlərini öyrənməyə səy göstərmişik.

TMK-ın iqtisadi mahiyyətinə uyğun təşkilatı qurum formasında mövcudluğu qədim dövrlərə təsadüf edir. Bəzi mənbələrə görə onların mövcudluğu hətta qədim Roma imperiyası dövrünə qədər gedib çıxır. Baxmayaraq ki, həmin dövrdəki korporasiyalar bu günkü korporasiyalara xas olan bəzi mühüm xarakterik cəhətlərə malik olmamışlar. Lakin, hər halda onlar da müəyyən məqsəd uğrunda çalışmaqdan ötrü investisiya qoyulan, biznesdə pay sahibi olan şəxslərdən ibarət olan, dövlət tərəfindən sanksiyalaşdırılan təşkilatlar idilər.

Roma imperiyasının dağılması, xristianlığın genişlənməsi və Gcrman tayfalannın yayılması ilə əlaqədar korporasiyanın Roman tipi digər formalarda təzahür etməyə başladı. Və bu dövrdə də korporasiyaların öz üzvlərindən fərqli bir subyekti kimi çıxış etməsi davam edirdi.

Korporosiyaiarm inkişafına həmçinin orta əsrlərdə formalaşmış kilsə konsepsiyası da təkan verib. Həmin dövrdə kilsənin korporasiya tipli fəaliyyət göstərməsi üçün ayrı-ayrı şəxslər tərəfindən müxtəlif nəzəriyyələr irəli sürülürdü. Bu nəzəriyyələrin bir-birindən müxtəlif fərqləri olsa da lakin, onları yazanların hamısı bir məsələdə həmfikir idilər:-kiisə öz üzvlərindən daha önəmlidir və hər bir fərdi üzvün müxtəlif

səbəblərdən sıradan çıxarılmasından asılı olmayaraq o, öz varlığını davam etdirməlidir.

Bu müasir korporasiyaların və korporasiya nəzəriyyəsinin!, habelə daha sonrakı dövrdə öz bəhrəsini verəcək bir çox yeni ideyaların yaranması üçün bir mərhələ rolunu oynadı.

İlk korporasiya formalı qurumlar adətən onu təşkil etmiş adamın, yaxud adamların adlarını daşıyırdı. Yəni, bir ad həm korporasiyam təşkil edənlər, həm də korporasiyanın hüquqi admı əks etdirirdi.

İlk kommersiya tipli korporasiyalar dövlət tərəfindən müəyyən edilmiş çərçivələr daxilində təşkil edilirdi. Bu korporasiyaları təşkil etməkdə məqsəd isə dövlət və ya ayrı- ayrı şəxslər üçün həddindən artıq baha və riskli olan işləri görməkdən ibarət olmuşdur. Dünyada ən qədim kommersiya məqsədli korporasiya kimi İsveçin Falun şəhərindəki wStora Kopparberq mədən birliyi» göstərilir. Onun 1347-ci ildə kral Magnus Eriksondan fəaliyyəti üçün rəsmi icazə sənədi alındığı bildirilir. Halbuki, bəzi rus mənbələrində dünyada ilk TMK- nın daha sonrakı illərdə yaradılması göstərilirdi. Rus alimlərinin əsərlərində göstərilir ki, dünyada ilk dəfə 1602-ci ildə yaradılan həmin TMK İngiltərəyə məxsus olan «Ost indianadır)) ki, onun da əsas məqsədi Asiyadan müxtəlif ədviyyatları, fil sümüyünü, emal sənayesi məhsullarının Avropa ölkələrində satmaqdan ibarət olmuşdur. Yaranması dövründən asılı olmayaraq onların, o cümlədən Avropa Ölkələrində TMK-m qarşısında duran əsas məqsədlərdən birİ müstəmləkəçilik siyasətini həyata keçirmək idi. Məsələn, «Datc İstİndiana Kompanu» (Holland Şərqi Hindistan Kompaniyası). Bu ko- pcrasiya forması sonrakı dövrdə korporasiya müstəmləkəçiliyinin formalaşmasında böyük rol oynayıb.

Amerika Birləşmiş Ştatlarında isə korporasiyalar daha çox XIX əsrin sonlarında sürətlə inkişaf etməyə başladı. XIX əsrin ortalarında isə dövlət tərəfindən korporasiyaların fəaliyyəti məhdud dairəyə salınmışdı. Həmin dövrdə əhalinin maraqlarını güdmək, səhmdarların maraqlarını güdməkdən daha əhəmiyyətli hesab edilirdi. Buna görə də korporasiyaların

təşkil edilməsi ştatlar tərəfindən ciddi tənzim edilirdi. Korporasiya təşkil etmək hüquqi çətin məsələyə çevrilmişdir. Korporasiyaların fəaliyyəti onun nizamnaməsindəki məqsədlərdən kənara çıxa bilməzdi. Bu səbəblərdən bir sıra xüsusi firmalar XIX əsrdə korporasiya modelindən imtina etmişdilər. Məsələn, Andryu Kamiq öz prolad şirkətini müştərək müəssisə şəklində qurmuşdu. Con D. Rokfeller isə «Standart Oil» şirkətini trest şəklində təşkil etmişdi. Lakin, sonrakı dövrdə ştatların rəhbərlikləri müəyyənləşdirdilər ki, onlar nisbətən yumşaq korporasiya qanunları qəbul etməklə korporasiyaların qeydiyyatından daha çox gəlir əldə edə bilərlər. Bu istiqamətdə addım atan ştat Nyu-Cersi və o XIX əsrdə ABŞ da ilk dəfə ştata daha çox biznes cəlb etmək məqsədi ilə korporasiyalar üçün daha əlverişli qanunlar qəbul etdi. Bundan sonra digər ştatlar da bu ənənəni davam etdirdilir.

XX əsrdər isə artıq bütün dünya üzrə korporasiyaların inkişafını dəstəkləyən qanunlar qəbul edilməyə başlandı. Bu da şəksiz bir sıra ölkələrdə sürətli iqtisadi inkişafa yol açırdı. XX əsrin sonlarına doğru, xüsusən I980-cı illərdən isə bu böyük dövrlərdə də korporasiyasilann özəlləşdirilməsi prosesi başladı. XX əsrdə, xüsusən ikinci dünya müharibəsindən sonra korporasiyaların inkişafında qeyd olunmalı xarakterik cəhətlərdən biri də böyük korporasiyaların kiçikləri almasıdır və bu proses konqlomeratların yaranması ilə müşayiət edildi.

Ən son dövrlərdə isə korporasiyalarda həcmin nisbətən kiçildilməsi, offşor əməliyyatların artırılması, ən gəlirli biznes sahələrinə yönəlmə kimİ tendensiyalar özünü göstərir. Bütün bunlar, həmçinin beynəlxalq ticarət rejimləri də korporasiyaların son dövrlərdə öz gəlirlərini daha da artırmalarına, işçi qüvvəsinə, nəqliyyata və digər ünsürlərə çəkilən xərclərin isə azaldıla bilməsinə gətirib çıxarıb.

Qeyd etmək lazımdır ki, tarixən korporasiyalar hökümətin xüsusi qərarı ilə təsis edilib. Müasir dövrdə isə korporosiyalar adətən dövlət tərəfindən, yaxud əyalət, ştat və s. tərəfindən qeydiyyata almır və həmin dövlətin qanunları ilə idarə olunurlar. Qeydiyyat korporasiyanın məhdud məsuliyyətli fəaliy

yətə başlaya bilməsi, yaxud bu statusu alması üçün ən mühüm şərtdir.

Qeydiyyatın bir hissəsi kimi korporasiya özünün baş ünvanını və öz nümayəndəsini göstərməlidir.

Korporasiya özünün korporasiyalaşma haqda müddəalarını dövlətin müvafiq orqanına göndərir. Korporasiyanın qeydə alınması üçün lazım olan bu müddəalarda tələb edilən məlumatlar isə həm korporasiyadan, həm də ölkələrin yuridik- siyasmdan asılı olaraq fərqlənə bilər. Lakin ümumi şəkildə götürdükdə qeyd edilməlidir ki, burada xırda detallar haqda məlumatlar tələb edilmir.

Məsələn, ABŞ-da korporasiyanın hüquqi şəxs kimi qeydiyyata alınması üçün tələb edilən müddəalara aşağıdakılar daxil edilir:

* korporasiyanı təşkil edənin adı;
• korporasiyanın səhm buraxıb buraxmayacağı, əgər səhm buraxacaqsa bunun müəyyənləşdirilmiş miqdarı;
* korporasiyanın direktorlarının adlan;
• korporasiyanın qeydiyyata düşmüş ofisinin yerləşdiyi yer.

Lazım olduqda hüquqi sənədlər bu ofisə göndərilir. Bəzi ştatlarlarda isə əlavə olaraq qeydiyyata düşmüş agentin də göstərilməsi tələb edilir. Agent korporasiyanın nümayəndəsidir və hüquqi sənədlər birbaşa ona da göndərilə bilər.

Bunların qeydiyyata alınmasından sonra korporasiyanın diretorları korporasiyanın daxili fəaliyyəti üçün prosedураları müəyyənləşdirmək məqsədi ilə görüşürlər. Məsələn, iclasların keçirilməsi qaydaları və vəzifəli şəxslərin təyinatı ilə əlaqəli proseduralan təyin etmək üçün belə görüşlər keçirilir.

Korporasiya hansı yurisdiksiya daxilindədirsə oradakı qanunlarda onun daxili məsələlərinin əksəriyyətini idarə edir (yəni həmin ölkənin qanunları) buraya maliyyə məsələləri də daxildir. Əgər korporasiya ölkəsindən kənarda fəaliyyət göstərirsə onda onun həmin Ölkədə xarici korporasiya kimi qeydiyyatdan keçməsi tələb olunur. Mübahisəli məsələlərin

həllində, müqavilələrin bağlanmasında, ictimai və s. işlərdə həmin ölkənin qanunlarına riayət etməsi başlıca şərt hesab edilir.

Korporasiyaların adətən hansısa bir xüsusi adı olur. Tarixən isə korporasiyalar onların əsasım qoyanların adlan ilə adlandırılırdı. Müasir dövrdə isə əksər Ölkələrin yurisdik siya- sında korporasiyaların xüsusi adı mövcuddur. Korporasiyaların adlan ümumi şəkildə 3 hissədən ibarət olur:

1) «təyinedici» (yaxud fərqləndirici) hissə. Bu hissə həmin korporasiyanı digərlərindən fərqləndirir;

2) «izahedici» (yaxud təsviredici) hissə. Bu hissə həmin korporasiyanın biznes sahəsinə işarə edir;

3) hüquqi sonluq.

Məsələn, «Taiqə kompyuters. İnc» («tiger Computers İnc.»).

Korparasiyanm adında «Tiger» sözü təyinedici, yaxud fərqləndirici hissədir. «Computers» sözü isə izahedici və ya təsviredici hissədir. «İnc» isə hüquqi sonluqdur. («İnc» sözü «İncorporated» sözünün qısaldılmış formasıdır və «korporasi- ya kimi qeydə ahnmış» mənasını verir). Hüquqi sonluq onu göstərir ki, yəni bu hüquqi cəhətdən qeydə alınmış korporasiyasıdır, şəxsi biznes, ya da müştərək müəssisə deyil. Hüquqi sonluqlar aşağıdakılardan birindən seçilir: «İncorporated», «Lumited» və «Corporation» yaxud onların qısaltmalanndan: «İnc», «Ltb», «Corp» («İncorporated» ingiiiscədən tərcümədə «hüquqi» cəhətdən (korporasiya kimi) qeydə alınmış, «Limited» ingiiiscədən təcrübədə «məhdud» (məsuliyyətli), «corporation» İsə ingiiiscədən tərcümədə «korporasiya» deməkdir. Bəzi korporasiyaların adlarında 2-ci hissə, yəni izahedici hissəyə rast gəlinmir.

Kanadada isə bir sıra korporasiyaların (xüsusilə kiçik korporasiyaların) adlan demək olar ki, yalnız rəqəmlərdən ibarətdir (Məsələn; «Ontario 123-4567 Limited»).

O, da qeyd olunmalıdır ki, korporasiyaların adlarmdakı üçüncü hissə, yəni onların hüquqi statuslarını göstərən hissə ölkələrin yurisdiksiyasına və dillərinə görə müxtəlif ölkələrdə

bir-birindən fərqlənir. Amerika Birləşmiş Ştatlarmda «incorporated» (inkorporeitid) sözündən istifadə edilir. Məsələn; «Texas Instruments, Incorporated». Bu ölkədə həmçinin «corporation» (korporeyşm) sözündən də istifadə edilir. Məsələn; «Netscape Communications Corporation». Böyük Britaniya Krallığında isə «Ltd» və «rlc» qısaltmalanndan istifadə edilir. («Ltd»-«Limited companu» sözü üçün istifadə edilən qısaltmadır, mənası «məhdud məsuliyyətli cəmiyyot» deməkdir, «rlc» isə «Pablic Limited company» söz birləşməsi üçün qısaltmadır və mənəvi «açıq (tipli) məhdud məsuliyyətli cəmiyyət» deməkdir). Almaniyada isə bu frazalar istifadə olunur: «Geseİleschaft mit beschrankter Haftung» (Almanca «Məhdud Məsuliyyətli Cəmiyyət» və «GmbH» kimi qısaldılır), və «Aktiengeselleschaft» (Almanca; «Səhmdar Korporasiya» və «AG» kimi qısaldılır). Məsələn: «L'Orange GmbH», yaxud <{Deutsche Bank AG».Fransa, İspaniya, Portuqaliya, Polşa, Niderland və Cənubi Amerikada «S.A.» qısaltmasmda korporasiyalar üçün istifadə olunur. Norveç iş səhmdar korporasiyalar üçün «A.S.» qısaltmasım istifadə edir. (Norveç dUində Aksce Selskap). İtaliya isə «Srl», yaxud wSocieta a Responsabilita Limitataw (Məhdud Məsuliyyətli Cəmiyyət) və «SpA», yaxud «Societa Per Azioni» (səhmdar cəmiyyət) qısaltmalarını və frazalarını istifadə edirlər.

Maraqlı cəhətlərdən biri də budur ki, bəzi ölkə yurisdiksiyalarında «korporasiya» statusunu bildirmək üçün tək olaraq «kompaniya» («company» sözünün işlədilməsinə icazə verilmir. Bu söz, yəni kompaniya «cəmiyyət» mənasını verir və daha geniş və mücərrəd məna daşıması burada əsas gətirilir. Məsələn, «kompaniya» sözü şəxsi və müştərək mülkiyyətə əsaslanan (yəni «korporasiya oImayan») subyektləri də bildirə bilər. Yaxud da ümıımiyətlə bizneslə əlaqəsi olmayan insan qrupuna da işarə etmək üçün istifadə edilə bilər.

Biznesin mülkiyyət formasının xarakteri, təyinatı və ixtisaslaşma tiplərindən asılı olaraq TMK-lar müxtəlif növlərə bölünürlər. Bu baxımdan korporasiyalar kommersiya məqsədli və qeyri-kommersiya məqsədli, açıqtipli və qapalı tipli, milli,

milbtlərarası və transmilli kimi növlərə ayrılırlar. Qeyd etmək lazımdır ki, kommersiya və qeyri kommersiya məqsədi iiə yaradılan korporasiyalar adətən ayrı-ayn qanunlar vasitəsi ilə tənzimlənirlər. Qeyri kommersiya məqsədi ilə təşkil edilən korporasiyalar o korporasiyalardır ki, onların əsas məqsədi qeyri-kommersiya məqsədi ilə fərdlərin və ya dövlətin maraqlarını müdafiə etmək, onlar üçün çalışmaqdır. Bu qəbilədən olan korporasiyalar müxtəlif sferalarda fəaliyyət göstərə bilərlər. Bunlara İncəsənət, xeyriyyə işləri, təhsil, siyasət, din, tədqiqat işləri və s. aid ola bilər.

Qeyri-kommersiya məqsədli korporasiyaların fəaliyyətində mənfəət olmasa da onlar öz fəaliyyətlərini təmin edə bilmək üçün müəyyən qədər gəlirə sahib olmalıdırlar. Onların bu maliyyə vəsaiti isə adətən donorlar tərəfinədn verilir. Donor rolunu həm vətəndaşlar, müxtəlif fondlar, həm də dövlət və müxtəlif özəl qurumlar oynaya bilər.

Bir çox korporasiyalar milli səviyyədə uğurla inkişaf etdikdən sonra Öz ölkəsinin sərhədlərini aşaraq transmilli korporasiyalara çevrilirlər. Nəticədə korporasiyaların qloballaşan dünyada rolu əhəmiyyətli dərəcədə artır. Korporasiyaların dünya üzrə böyüməsində onların özlərindən kiçik digər şirkətləri alması, onların səhmlərinə sahiblənməsi mühüm yer tutur. Bu hal TMK-m fəaliyyətinin idarəedilməsində vertikal və horizontal istiqamətlərdə funksialannda dəyişikliklərin meydana gəlməsinə səbəb olur. Adətən TMK-lar ana şirkətlə qız şirkətləri arasındakı funksialarm bölüşdürülməsi əlamətlərinə görə üç böyük qruppa bölünürlər. Bunlara aşağıdakılar aiddir:

1. horizontal inteqrasiyah transmilli korporasiyalar. Bu korporasiyaların İstehsal müəssisələri müxtəlif ölkələrdə yerləşir, lakin eyni və ya oxşar məhsul istehsalını həyata keçirirlər;

2. vertikal inteqrasiyah transmilli korporasiyalar. Bu korporasiyaların bir ölkədə yerləşən müəssisəsində istehsal edilən məhsul, dİgər ölkədəki müəssisəsində istehsal edilən məhsul üçün yarımfabrikat rolunu oynayır;

3. üçüncü növ transmilli korporasiyalar isə elə korporasiyalardır ki, onların müxtəlif ölkələrdə istehsalatları olsa da onlar bir-bİrləri ilə nə horizontal, nə də vertikal qaydada inteqrasiyaya malik deyillər.

Qeyd etdiklərimizdən başqa İqtisadi ədəbiyyatlarda korporasiyaları həmçinin açıq və qapahtipli fəaliyyətlərinə görə də fərqləndirirlər.

Açıqtipli korporasiyalar o, korporasiyalardır ki, onların səhmləri bütün insanlar üçün açıq olan bazarlarda (Məsələn: Nyu-York fond birjası) alınır və ya satılır. Bu səhmlərə hamı sahib ola bilər. Dünyada böyük korpoarsiyalann əksəriyyəti açıq tiplidir. Lakin, korporasiyaların əksər hissəsi qapalı cəmiyyətlər şəklində fəaliyyət göstərirlər. Bu tip korporasiyaların səhmlərini alıb satmaq üçün heç bir daimi bazar fəaliyyət göstərmir və onlar adətən kiçik qrup insanlar tərəfindən sahiblənir və idarə olunur. Buna baxmayaraq qapahtipli korporasiyalar da ən böyük açıqtipli korporasiyalar qədər böyük ola bilər.

Hüquqi baxımdan açıq və qapahtipli korporasiyalar əksər hallarda eyni statuslara malikdirlər. Əksər ölkələrdə bu iki tip koroprasiyalar arasında əsas fərq ondan ibarətdir ki, açıqtipli korporasiyalar əlavə cavabdehliklər daşıyırlar. Bunlar adətən təhlükəsizliklə əlaqəli qanunlara riayət etməkdən ibarətdir. Bu qanunlar (xüsusən ABŞ-da) səhm sahiblərinə onları səhmlərin alımb satılması zamanı haqsızhğa məruz qalmaqdan və aldadılmaqdan qoruyur, onlara əlavə hüquqlar verir. Bundan əlavə açıqtipli koroprasiyalann ictimaiyyətin öz fəaliyyətləri haqda məlumatlandırılması tələblərinə riayət etməsi daha sərt şəkildə tələb edilir. Bəzən də bir sıra böyük əməliyyatlar və hadisələr zamanı onlar haqda əlavə hesabatlar istənilə bilər. Bu cür mühüm əməliyyatlara, məsələn yeni bir firmanın alınması, hadisələrə isə direktorların seçilməsi və s. aid edilə bilər. Bu da onu göstərir ki, TMK-m hüquqi şəxs kimi hüquqi statusu vardır. Yəni fiziki şəxsdən fərqli olaraq korporasiya hüquqi subyektdir.

Hüquq sistemində onun hüquqları qorunur. Korporasiya dedikdə adi dildə kommersiya ilə məşğul olan subyektlər başa düşülür. Həmçinin bəzi ölkələrdə kilsələrin, həvəskar qrupların, dövlət müəssisələrinin də korporasiya kimi tanınması halları ola bilər. Hüquqi şəxs olaraq korporasiyalar adi vətəndaşların sahib olduğu əksər hüquqlara sahibdirlər və hər bir vətəndaşın üzərinə düşən Öhdəlikləri də daşıyırlar. Məsələn, mülkiyyətə sahib olmaq hüququ, vergi ödəmək öhdəliyinə və s. Bir sıra konstitusyon hüquqlar korporasiyalara aid edilə bilməz. Məsələn, səs vermə hüququ ancaq vətəndaşlara məxsus olduğu halda bu hal korporasiyalara aid deyildir.

Bütün bunlar korporasiyaların bir sıra xüsusiyyətlər kəsb etməsinə səbəb olur. Onlardan biri də məhdud məsuliy- yətliliyin olmasıdır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, korporasiyaların səhmdarları müştərək müəssisələrdən və şəxsi mülkiyyətə əsaslanan müəssisələrdən fərqli olaraq korporasiyanın borc və öhdəlikləri üçün heç bir Öhdəlik, cavabdehlik daşımırlar. Yəni səhmdarın «məhdud» potensial itgisi həmin səhmdarın səhm (yaxud səhmlər) üçün ödədiyi vəsaitin məbləğindən çox ola bilməz. Bu da korporasiyalara imkan verir ki, onlar korporasiyanın sahiblərini risk altında qoymadan müxtəlif riskli biznes əməliyyatları həyata keçirsinlər. TMK-ın əsas xüsusiyyətlərindən biri də «daimi ömür» hesab olunur.

Bu da o, deməkdir ki, korporasiyanın mövcudluğu onun hər hansı səhmdarının, direktorunun ömüründən asılı olmayaraq davam edir. Bu da stabil olaraq məhsul istehsalını artırmağa və kapital yığımına şərait yaradır. Nəticədə daha uzun müddətli və böyük məbləğdə investisiya yatırımlarına imkan yaranmış olur.

Lakin, o da qeyd olunmalıdır ki, «daimi ömür» heç də o demək deyil ki, korporasiyanın daimi fəaliyyəti məcburi xarakterdədir. Yəni korporasiyanın fəaliyyətinə onun öz istəyi ilə istənilən vaxt son qoyula bilər. Mühüm xüsusiyyətlərdən biri də gəlirin maksimumlaşdırılmasıdır. Qərb ölkələrinin yurisdiksiyasmda biznes korporasiyalarının öz səhmdarlarının mənafeyini ən yüksək şəkildə ödəmələri tələb edilir. Bununla

da hər bir səhmin qiymətinin yüksəldilməsi və nəticədə gəlirlərin artırılması qarşıda duran əsas məqsədə çevrilir. Korporasiya qanuntannda direktorların hansısa digər maraqlar üçün gəlirlərini qurban vermələri qadağandır. Bu digər maraqlara, həmçinin ətraf mühitin mühafizəsi, ölkədə sosial vəziyyətin yaxşılaşdırılması və sair məsələlərə də aİd edilir. Məsələn, Henri Ford dividendləri azaltmaqla yanaşı və öz maşınlarının qiymətini aşağı salırdı ki, cəmiyyətdə onun maşınlarına sahib ola biləcək İnsanların sayı artsın. Onun yeznəsi firmanın səhmdarı Mr. Dodg ona qarşı firmanın gəlirliyini aşağı salındığına görə hüquqi iddia qaldırmışdı. Mr. Dodg qalib gəlir və məhkəmə onun iddiasının təmin edilməsi nəticəsində əlavə etdiyi vəsaitlə özünün avtomobil kompaniyasını təşkil edir. Müasir korporasiya qanunlarında da korporasiya direktorlarına yalnız korporasiyanın mənafeyini ən yüksək şəkildə təmin etmək üçün fəaliyyət göstərməyə icazə verilir. Korporasiya əvəzsiz xeyriyyə işləri ilə də məşğul ola bilər. Lakin, yalnız o halda ki, bu iş gəliri yüksəltməyə xidmət etsin. Məsələn, əgər vəsaitlərin xeyriyyə işlərinə xərclənməsi gələcəkdə gəlirlərin artmasına hər hansı bir digər biznes fəaliyyətindən daha çox təkan verəcəksə, onda həmin xeyriyyə işinin görülməsi mümkün haldır. Məhz bu xarakterik xüsusiyyətlər imkan verir ki, TMK-lar investisiya qoyuluşunun artmiması hesabına yüksək mənfəət əldə etməyə nail olsunlar.

15.2. Dünya təsərrüfatı sistemində inhisar forması kimi transmilli korporasiyaların meydana gəlməsi bir çox amillərin təsiri nəticəsində baş vermişdir. Bu əsas amillər qrupuna aşağıdakılar daxildir:

- dünyada ayrı-ayrı dövlətlərin malik olduqları təbii sərvətlə fərqi;
- mövcud maliyyə vəsaitləri və potensialları;
- dövlətlərdə mövcud yüksək texniki və texnologiyaların səviyyələri;
- ölkələrdə fəaliyyət göstərən yüksək ixtisaslı mütəxəs-sisələrin olması;

-a yn-ayn ölkələrin dünya dövlətləri arasında mövcud olan iqtisadi və siyasi potensialları və onların təsir dairələri;

-dünya ölkələri arasında beynəlxalq iqtisadi və siyasi təşkilatların rolu və təsir dairələri;

-beynəlxalq nəqliyyat vasitələri və onların potensial imkanları;

-müxtəlif ölkələrdə mövcud olan transmilli korporasiyaların təşkilatı və xüsusi imkanları.

Qeyd etdiyimiz əsas amillərin təsiri altında TMK-lar qanunauyğun tələbat kimi meydana gəlmişdir.

İlk TMK-lar əsasən bir-iki sahədə fəaliyyət göstərməklə, həm də təşkilatı cəhətdən çox kiçik idilər. Onların inkişafı son yüzilliklərdə ixtisaslaşma səviyyələri, universallıq dərəcəsi, dövrün tələblərindən asılı olaraq bir neçə mərhələ keçmişdir. TKM-m inkişafını mərhələlərə bölmək üçün BMT-nin, yaxud digər beynəlxalq iqtisadi təşkilatların hazırladığı metodiki yanaşma mövcud deyildir. Lakin bu sahədə çalışan alimlər və mütəxəssislər tərəfindən TMK-ın yaranma mərhələlərini konkretləşdirmək üçün bəşəriyyətin inkişafında böyük rol oynamış tarixi hadisələrin əsas götürülməsi özünü aydın biruzə verir. Bu baxımdan TMK-ın əmələ gəlməsini şərti olaraq aşağıdakı mərhələlərə bölmək olar:

1. XIX **əsrin birinci yarısından 1900-cu İlədək;**
2. 1900-cu il-1914-cü ilədək;
3. 1914-cü il-1939-xu ilədək;
4. 1939-cu il -1945-ci ilədək;
5. **1945-ci İl-1955-Cİ ilədək;**
6. 1955-ci **İI-1970-Cİ ilədək;**
7. 1970-ci il-1980-ci ilədək;
8. **1980-ci İl-1991-Cİ** ilədək (SSRİ-nin dağılmasınadək);
9. 1991-ci il-müasir dövrədək.

TMK-ın inkişaf mərhələləri arasında ikinci dünya müharibəsindən sonrakı inkişaf mərhələləri daha çox diqqəti cəlb edir. Beləki, 1945-ci ilədək TMK-lar əsasən ABŞ və Avropa ölkələrində sürətlə inkişaf etmişdirlərsə, 50-cı illərdən başlayaraq onların Asiya dövlətlərində, xüsusilə Yaponiyada

yaranması diqqəti daha çox cəlb edir. Həmin dövrdə Yaponiya dövləti milli şirkətlərin bazasında əmələ gəlmİş TMK-m inkişafı üçün xarici iqtisadi fəaliyyətin bəzi sahələrində (maşınqayırmada) proteksionizm siyasəti tətbiq etdi. Məhz bu siyasətin hesabına ölkədə yaranmış əlverişli iqtisadi mühit «Mazda», «Tayota», «Nissan» kimi şirkətləri xarici rəqabətdən qoruyaraq onların möhkəmlənməsinə, məhsullarının isə rəqabət qabiliyyətinin artmasına imkan verdi. Həmçinin Yaponiyada TMK-m inkişafında yeni dövr başlandı. Hazırda Yaponiya TMK-nın məhsullarından və xidmətlərindən dünyanın ən inkişaf etmiş bazarlarında istifadə olunur. Dünyanın ən böyük 500 TMK-ı sırasında, həmçinin 50 super TMK-ı arasında Yapon TMK-ı da ləyaqətlə təmsil olunurlar.

Asiya qitəsinin ən böyük 50 TMK-ı arasında 35-i Yaponiyanın payına düşməsi onlann dünya iqtisadiyyatında böyük mövqeyə malik olmalarından xəbər verir.

Məhz 1955-70-ci illərdə Asiyanın digər ölkələrində, xüsusilə Cənubi Koreyada, Çin və s. TMK yaranması yeni vüsət aldı. TMK-ın inkişaf etdiyi ənənəvi dövlətlərdən fərqli olaraq Asiyanın inkişaf etmiş yeni sənaye ölkələri olan Malayziyada, Sinqapurda, Honkonqda, Tayvanda, Filippində müasir tələblər səviyyəsində dünya bazarında fəaliyyət göstərə bilən TMK-lar əmələ gəldi. Hazırda Yaponiyada 81, Cənubi Koreyada 11, Hindistanda 5, Tayvandda 2, Çində 16, Sinqapurda 1 TMK vardır.

Beynəlxalq şirkətlərin yaranmasında 1991-ci il və sonrakı illər mühüm mərhələ təşkil edir.

Məlum olduğu kimi 1991-ci ildə sovet imperiyasının dağılması nəticəsində bir çox müstəqil dövlətlər əmələ gəldi. Bu dövlətlərin hər biri özlərinin milli maraqlarına uyğun olaraq iqtisadiyyatlarım inkişaf etdirmək və dünya təsərrüfatına inteqrasiya etmək məqsədilə iri miqyaslı islahatlar aparır və bazar iqtisadiyyatının təbiətindən irəli gələn istehsal vahidlərini, o cümlədən beynəlxalq şirkətlər yaratdılar.

Bu cür şirkətlər Rusiyada, Ukraynada. Azərbaycanda, Baltik Yanı dövlətlərdə, Qazaxıstanda və s. ölkələrdə inkişaf

etməyə başladı. Hazırda yalnız Rusiyada 8 beynəlxalq şirkət mövcuddur. Eləcə onu göstərmək kifayətdir ki, Rusiyaya məxsus «Lukoii» şirkətinin dünyanın neft emalı sənayesi sahəsi üzrə ixtisaslaşmış şirkətlər arasında 19-cu yeri Uitur. Bu şirkətin 2005-ci ildə əldə etdiyi gəlirin həcmi 28,810 mlrd, dollara bərabər olmuşdur.

Buna bənzər inkişaf meylləri Azərbaycanda da özünü bİruzə verir. Hazırda respublikamızda Azərbaycan Respublikası Dövlət Neft şirkəti (ARDNŞ), Beynəlxalq Əməliyyat Şirkəti (BƏŞ) və s. qurumlar fəaliyyət göstərir ki, onlar heç də Asiyanın digər beynəlxalq şirkətlərindən geri qalmırlar. Düzdür hazırda Azərbaycanda TMK yoxdur. Lakin respublikamızda iqtisadi inkişafın tempi, beynəlxalq inteqrasiya, əmək bölgüsü və sahibkarlığın inkişafı sahəsində qazanılmış nailiyyətlər gələcəkdə TMK-ın yaranması üçün əlverişli baza yaradır. Həm də müasir mərhələdə yaradılan TMK-lar öz sələflərindən əsaslı surətdə fərqlənirlər. Əgər 40-70-ci illərdə əmələ gələn TMK-lar 1-3 sahə üzrə ixtisaslaşaraq formalaşdılarsa, 1980-90-cı illərdə dünyamn 200 nəhəng TMK-nın hər biri 10-15 sahə üzrə formalaşmışdır. Müasir Yapon TMK- ı isə daha çox, yəni 200-ə qədər sahə və alt sahələrdə iştirak etməyə üstünlük verirlər.

Müasir dövrdə TMK-la özlərinin siyasi, iqtisadi sferasında təsirini bütün dünyada, xüsusilə inkişaf elmiş ölkələrdə, inkişaf etməkdə olan dövlətlərdə də MDB-də məharətlə nümayiş etdirirlər.

Hazırkı şəraitdə TMK-ın inkişaf mərhələsinə nəzər yetirdikdə aydın görmək olar ki, II dünya müharibəsinə qədər inkişaf səviyyələri müxtəlif olan ölkələrin, xüsusilə İngiltərənin, Almaniyanın, Fransa və ABŞ-ın TMK-ı sürətlə inkişaf etmiş və çoxlu gəlir əldə etmişlər. O dövr, üçün Almaniya TMK-nın inkişafı II dünya müharibəsinin başlanmasına səbəb olan amillərdən biri olmuşdur. 1945-ci ildən sonra Yaponiyanın, İtaliyanın və Almaniyanın transmilli korporasiyaları yeni struktur və formada inkişaf etdirilmişdir. Ona görə də transmilli korporasiyaların inkişaf tarixləri, çoxşaxəli inkişaf

istiqamətlərinin müasirləşdirilməsi, həmçinin yeni istehsal proseslərinin əmələ gəlməsinin əsasını qoymuşdur. Heç şübhə yoxdur ki, transmilli korporasiyaların əmələ gəlməsi və inkişafı təcrübəsindən Azərbaycan Respublikası da lazımınca istifadə etməklə müasir beynəlxalq şirkətlərin yaradılması sahəsində uğurlar qazanacaqdır.

Hər şeydən əvvəl qeyd etmək istəyirik ki, kartel hüquqi cəhətdən müstəqil olan, qiymətləri təyin etmək, təklifi idarə etmək və rəqabəti məhdudlaşdırmaq məqsədi daşıyan istehsalçıların birləşməsidir. İlk kartellər XIX əsrin II yarısında formalaşıb. Kartel təşkil edən istehsalçı şəxslər həm istehsalı vasitələri, həm də istehsal edilmiş məhsul üzərində öz mülkiyyət hüquqlarını saxlayırlar. Kartelə daxil olan üzvlər öz aralarında istehsalın həcmi və məhsulun qiyməti haqda razılığa gəlirlər. Yəni hər bİr kartel üzvünün nə qədər məhsul istehsal edəcəyi (istehsal kvotası) və hansı qiymətə salacağı bəlli olur. İstehsal olunmuş məhsulu isə hər kartel özü bazarda reallaşdırır. Kartel müqaviləsi iştirakçıların müqavilə şərtlərini pozduqları halda böyük məbləğdə cərimə verməklə cəzalandırılmasını nəzərdə tutur. Əksər ölkələrdə kartel formasında fəaliyyət antitrest qanunları ilə qadağan olunub. Lakin buna baxmayaraq kartellər həm rəsmi, həm də qeyri-rəsmi şəkildə milli və beynəlxalq səviyyədə mövcuddurlar. Onu da qeyd edək ki, heç də hər bir böyük istehsalçı, yəni monopoliya (inhisar) yaradan tək bir subyekt kartel adlandırıla bilməz. Ona görə də məsələn, böyük inhisar olan «Maykrosoft» şirkəti kartel adlandırmaq düzgün deyil. Beynəlxalq kartelə misal olaraq OPEK-i göstərmək olar. OPEK ölkələri 1970-ci illərin enerji böhranı zamanı bir araya gələrək istehsal kvotası və neftin dünya bazarındakı qiymətləri barədə razılığa gələrək qapalıtipli kartel OPEK-i təşkil edirlər.

Ümumiyyətlə isə kartellər iqtisadi baxımdan sabit olmurlar. Belə ki, adətən ayrıca götürülmüş hər bir kartel üzvündə daha çox məhsul istehsal edərək, yəni kartel tərəfindən qoyulmuş kvotadan daha çox məhsul istehsal edərək çox gəlir götürmək həvəsi olur.

15.3. Əvvəlki bölmələrdə qeyd etdiyimiz kİmi TMK-ın əsas funksiyalarından biri kapital ixracıdır. Beynəlxalq və regional maliyyə təşkilatlarla birlikdə TMK-lar kapital ixrac etməklə ayrı-ayrı ölkələrin milli iqtisadiyyatlarının inkişafında böyük rol oynayırlar.

Konqlomeratlar uğursuzluğa düçar olduqdan sonra dünya təsərrüfatı sistemində TMK-ın inhisar forması kimi mövqeyi daha da gücləndi.

TMK-lar dünya təsərrüfatı sistemində birbaşa investisiyaların qoyuluşunda, İEOÖ-in təbii resurslarının, xüsusilə enerji daşıyıcılarının mənimsənilməsində aparıcı rol oynayırlar. Statistik məlumatlardan göründüyü kimi İEOÖ ticarətin 80%-i, sənaye məhsulunun isə 50%-ə qədəri TMK-ın payına düşür. Son illərin təcrübəsi göstərir ki, bir çox ölkələrdə neft, filiz və s. yataqların mənimsənilməsində beynəlxalq şirkətlər öz maraqları çərçivəsində konsorsium halında birləşərək daha güclü inhisar formalarına çevrilə bilərlər. Bu cür inhisar birliyi Azərbaycanın payına düşən Xəzər sektorunda neft resurslarının mənimsənilməsində iştirak edirlər. Beynəlxalq şirkətlərdən ibarət konsorsiumda ABŞ-m, Böyük Britaniyanın, İtaliyanın, Fransanın, Yaponiyamn, Norveçin və s. dövlətlərin TMK-ı maliyyə və digər imkanlarım cəmləşdirərək fəaliyyət göstərirlər.

Statistik məlumatlardan göründüyü kimi beynəlxalq təşkilatlarla müqayisədə transmilli korporasiyalar kapital İxracı üzrə fərqlənən əsas şirkətlərdir. Məhz transmilli korporasiyaların fəaliyyəti nəticəsində hazırda Almaniyanın, Böyük Britaniyanın, Norveçin ümumi milli məhsulunun 16-22 %-i, Fransanın 24%-i, Avstraliyanın 36 %-i, Kanadanın 56 %-i xarici kapitalın nəzarəti altındadır. Əgər əvvəllər şirkətlər transmilli korporasiyalar şəklində, kartel (Almaniya), trest (ABŞ) sindekat (Fransa) konsern formasında birləşmişdisə, hazırda ən yeni forma olan oliqopolistik TMK-lar, konsorsium tipli formada birləşərək, daha təkmil TMK meydana gətirmişlər ki, bunlar da xarici iri şirkətləri özündə cəmləşdirirlər.

Qeyd etmək lazımdır ki, kapital ixracı sahəsində fərqlənən ən böyük transmilli korporasiyalar sırasına Exxon, Amoko, Penzoyl, Yunokal, Şevron, Royal Ahold, Mobil, Mak Dermott, Britiş Petroleum, BP,Şell, Remko, ENİ, Peuglot, Total, Statoyi, TPAO, ONES, ACİP, İtoçu, Elf Akiten, HBOS, Bosch, UBS, Delta, Repsol, General-Elektrik, Wal- Mart-stores inc. və s. aiddir.

Kapital ixracının daşıyıcıları hesab edilən bu transmilli korporasiyaların hər birinin dünyanın müxtəlif yerlərində qız şirkətləri və filialları fəaliyyət göstərdiyi üçün onlar nəinki iqtisadi, eyni zamanda sosial problemlərin də həllinə kömək edirlər.

Yalnız onu göstərmək kifayətdir ki, ABŞ-ın Exxon transmilli korporasiyasının dünyanan 120 ölkəsində qız şirkəti və filialları vardır. Avropada ABŞ-a məxsus transmilli korporasiyaların isə 10362 firma və filialları mövcuddur. Bu firma və filiallarda 400 mlrd, dollardan çox ümumi məhsul istehsal edilir. Onlarda 4,0 mln. nəfərə yaxın işçi çalışır ki, bunun da məşğulluğun yüksəldilməsinə və digər problemlərin həllində böyük sosial səmərəsi vardır. Yalnız ABŞ-m Wal- Mart-stores inc. TMK-da 1,3 mln. Nəfər adam işləyir.

Dünyanın super 50 transmilli korporasiyalarının kapital ixracından 2005-ci ildə əldə etdikləri xalis gəlir 50 mlrd, dollardan çox olmuşdur. ABŞ-ın yalnız Exxon transmilli korporasiyasının əldə etdiyi gəlir Cenla Motors, Avstraliya, Danimarka, Yeni Zellandiya dövlətlərinin bütövlükdə götürdüyü mənfəətdən çox olmuşdur. Əldə edilən gəlir göstəricisinə görə Avropa TMK-ı arasında BP birinci yerdədir.

Son illərdə dünyada kapital ixracında mövqeyini gücləndirmək və müflisləşməkdən qorunmaq məqsədilə bir çox TMK-lar öz aralarında birləşmək barədə müqavilə bağlayırlar. Bu cür müqavilə 1998-ci ildə ABŞ-ın Exxon və Mobil TMK-ı arasında imzalanmışdır. Müqavilənin şərtlərinə görə mobil şirkətinin hər bir səhmi Exxon şirkətinin 1,32015 səhminə konvertasiya olunacaq. Birləşmə nəticəsində Mobilin səhmdarları yeni qurumun səhmlərinin 30 %-nə, Exxon səhmdarları isə 70%-nə sahib olacaqdır,

Dünyanın iki nəhəng transmilli korporasiyasının birləşməsi nəticəsində şirkətlərin kapital ixracında rolu daha da artacaqdır. Məsələn, Afrikanın qərbi. Xəzər regionu. Cənubi və Şimali Amerika, Rusiyada bu şirkətlərin fəaliyyətləri demək olar ki, bir-birini tamamlayır.

Transmilli korporasiyalar istiqamətlərini kapital ixrac edən inhisar forması kimi müxtəlif sahələr, o cümlədən istehsalat sahələrinə, elmi-tədqiqat işlərinə, texnologiyaların yaradılmasına, silah istehsalına (hərbi-sənaye kompleksinə) və s. yönəldirlər. Kapitalın ixrac istiqamətinə görə müxtəlif transmilli korporasiyalar arasında müəyyən fərqlər vardır. Bunlardan bəzilərini nəzərdən keçirək.

Qeyd etdiyimiz cəhətlərə görə, İngiltərənin trasmilli korporasiyaları daha çox fərqlənirlər. Belə ki, İngiltərə transmilli korporasiyaları başqa transmilli korporasiyalardan fərqli olaraq ixrac edilən kapitalın bir hissəsini elmi-tədqiqat sahələrinə, yeni texnika texnologiyalar sərf edirlər ki, nəticədə ayn-ayrı sahələr üzrə, o cümlədən neft-qaz, metallurgiya, maşınqayırma və s. üstünlük əldə edirlər.

Son illərdə keçmiş İttifaqın dağılması ilə əlaqədar İngiltərənin ən inkişaf etmiş məlum transmilli korporasiyaları MDB ölkələrinə, o cümlədən Azərbaycana küllü miqdarda kapital ixrac etmişlər. Xüsusilə, neft, alüminium istehsalına, nəqliyyat, rabitəyə çoxlu kapital qoyulmuşdur.

Müasir dövrdə və yaxın gələcəkdə iqtisadiyyatın inkişafına kapital qoyuluşunun 60%-dən çoxu xarici siyasət planına uyğun olaraq Avropa və MDB ölkələrinə qoyulacağı gözlənilir. Lakin ttransmilli korporasiyaların kapitalının əsas hissəsi (təxminən 70%-i) aparıcı sahə hesab edilən neft hasilatına yönəldilmişdir. İqtisadi ədəbiyyatlardan göründüyü kimi 70-ci illərdən sonra transmilli korporasiyaların kapital ixracında yeni istiqamət-hərb sənaye komplekslərinə investisiya axını güclənmişdir. Bu sahədə xüsusilə ABŞ-ın transmilli korporasiyaları fərqlənirlər. ABŞ hərbi sənaye kompleksinin (HSK) inkişaf etdirilməsi, hərbi məqsədlər üçün son 30 ildə demək olar ki, üç trilyon dollardan çox kapital sərf edilmişdir. Son 30 ildə bu kapitalın həcmi ilk dəfə çoxalmışdır. Qeyd etdiyimiz

dövrdə yalnız nüvə silahının istehsalı və sınağı üçün 200 mlrd, dollardan çox kapital xərclənmişdir.

ABŞ-ın 100-dən artıq transmilli korporasiyasının dünyanın müxtəlif ölkələrində qoyduqları ümumi kapitalın 65.9 %-ni hərbi sahələrə çəkilən məsrəflər təşkil etmişdir.

Statistik materiallardan və aparılan ümumiləşdirm əl ərdən belə bir nəticəyə gəlmək olar ki, transmilli korporasiyalar kapital daşıyıcısı, yaxud tərəqqinin stimulyatorlan kimi dünya iqtisadiyyatında gedən beynəlmiləlləşmə prosesinin sürətlənməsinə birbaşa təsir göstərirlər.

Xüsusilə Qərbi Avropa dövlətlərinin transmilli korporasi- yalan bu sahədə daha çox fərqlənirlər. Onlar çoxşaxəli fəaliyyət göstərərək dünya iqtisadiyyatına töhfələrini ildən ilə artırırlar. Avropanın 31 ən iri transmilli korporasiyaçının ixtisaslaşma istiqamətlərinin bu baxımdan nəzərdən keçirilməsi fik- rimizcə praktik cəhətdən əhəmiyyətli ola bilər, (bax cədvəl 25).

Göründüyü kimi Avropanın qeyd etdiyimiz TMK-nm ölkəmizdə fəaliyyəti üçün uyğun sahələr (aviasiya maşınqayırmasından başqa) vardır. Əsas məqsəd həmin şirkətləri ölkəyə cəlb edə bilən mühit yaratmaq, onların imkanlarından istifadə etməklə hazırda işləməyən sahələri hərəkətə gətirməkdən ibarətdir.

**Cədvəl 25**

**Avropanın ən iri TMK-nın ixtisaslaşma istiqamətlərinin xarakteristikası.**

| Şirkətlər | Ölkələr | İxtisaslaşma istiqaməti |
|---|---|---|
| ABB Ltd | İsveç/Norveç | maşınqayırma |
| BP plc | Böyük Britaniya | neft, qaz, dağ-mədən |
| Neslle SA | İsveçrə | yeyinli |
| Britiş Eyrueyz | Böyük Britaniya | nəqliyyat, nəqliyyat xidməti |
| Tesco Plc | Böyük Britaniya | pərakəndə ticarət, bölgü |
| AKSTUAN | Fransa | Sığorta |
| BMV | Almaniya | maşınqayırma, aviasiya maşınqayırması |
| Correfour SA | Fransa | pərakəndə ticarət, bölgü |

| Cədval 25-in davamı | | |
|---|---|---|
| Unilever NN | Niderland | yeyinti məhsulları |
| Daimler Chrysler | Almaniya | maşınqayırma, aviasiya maşınqayırması |
| Royal Dutch/Shell | Niderland | neft, qaz, dağ-mədən |
| Allianz AG Holding | Almaniya | Sığorta |
| Eyn-Es-Bi-Si | Böyük Britaniya | banklar, maliyyə təşkilatlan |
| BT Group Plc | Böyük Britaniya | elektronika, elektrotexnika |
| Deutsche Bank | Almaniya | səhiyyə, ev əşyalan |
| Siemens AG | Almaniya | elektronika, elektrotexnika |
| Roche Holding AG | İsveçrə | xidmət, kompyüter, ofis avadanlığı |
| Telefon ABLM Ericsson | İsveç | elektrik, səhiyyə və əşyalan |
| SAP | Almaniya | xidmət, kompyüter, ofis avadanlığı |
| L'Oreal | Fransa | səhiyyə, ev əşyalan, parfümeriya |
| Barclayc Plc | Böyük Britaniya | banklar, maliyyə təşkilatlan |
| Mişken | Fransa | kimyəvi məhsullar, kauçuk, plasmaslar |
| BA texnoloqi | Avstirya | maşınqayırma |
| Elestrolux | İsveç | elektronika, elektrotexnika |
| Atlas Konko | İsveç | banklar, maliyyə təşkilatları |
| Lyods TSB Group Plc | Böyük Britaniya | pərakəndə ticarət, bölgü |
| Marks And Spencer Group Plc | Böyük Britaniya | pərakəndə ticarət. bÖlgü |
| Axold | Niderland | pərakəndə ticarət, bölgə |
| İnditekx | İspaniya | parça, paltar |
| Sekuritas | İsveç | xidmət, kompyüter, ofis avadanhğı |
| Nokia Oyc | Finlandiya | elektronika, elektrotexnika |

## Bölmə XVI. Beynəlxalq iqtisadi münasibətlər sistemində birjalar və hərraclar

*16.1. Baya ticar9tinm nudiiyy9tif rolu və inkişafı.*
*16.2. Ənaəə birjasının təşkili qaydtdarı quruluşu, və birja sövdələşmələrinin növləri*
163. *Hərracların mahiyyəti, təşkili formaları və keçirilməsi mexanizmi.*

**16.1. Birja-əmtəələrm, xammalın qiymətli kağızların satışı ib məşğul olan vaxtaşırı fəaliyyət göstərən topdan buraxılış istiqamətində bazardır. Onlar bazar iqtisadiyyatının iqtisadi aləti rolunu yerinə yetirir və əmtəələrin, xammalın və qiymətli kağızların alışı və satışında azad bazar münasibətlərini formalaşdırır.**

**«Birja» termini latın sözü olub (bursa), «çanta» mənasını daşıyır. XV əsrdə Niderlandın iri ticarət mərkəzi Brüqqe şəhərində məşhur dəllal və pul dəyişən Van der Bursanın (termin də məhz bundan yaranmışdır) evinin qarşısındakı meydanda xarici veksellər əldə etmək və ticarət məlumatlarının mübadiləsi məqsədilə dünyanın müxtəlif ölkələrindən tacirlər yığdırdılar. Beləliklə, XV-XVI əsrlərdə birjalar Hollandiyada (Niderland), İtaliyada, İngiltərədə yaranmışdır. Birjalann çiçəklənməsi XIX əsrin ikinci yarısına təsadüf edir və istehsalın inkişafı və ticarət, nəqliyyat, rabitənin həcminin artması ilə bağlıdır. Rusiyada ilk birja I Pyotor tərəHndən 1703-cü ildə Sankt-Peterburqda təsis edilmişdir. Keçmiş SSRİ- də Yeni İqtisadi Siyasət dövründə 100-ə qədər bİrJa fəaliyyət göstərmiş, lakin 1930-cu ildən onların fəaliyyəti dayandırılmışdı. İnzibati-amirlik sistemi dövründə əmtəə-pul münasibətlərinin inkişafı formal xarakter daşıdığına görə, əmtəə birjaları yox idi. Azərbaycan Respublikasıda bu sistemə daxil olduğuna görə burada da eyni vəziyyət mövcud olmuşdur. Bazar iqtisadiyyatına qədəm qoyduqdan sonra respublikamızda da bazarın bu növü yaranmağa və inkişaf etməyə başlamışdır. Azad sahibkarlığın inkişafı 2000-ci ildə «Əmtəə**

birjaları və birja ticarəti haqqında» Azərbaycan Respublikası qanununun qəbul edilməsi buna daha böyük təkan vermişdir.

Birjalar üçün standartlar üzrə (müəyyən edilmiş sortlar) və ya standart nümunələr üzrə (taxıl, qənd, pambıq, qəhvə, kauçuk, metallar) əmtəələrin kütləvi alqı-satqısı xarakterikdir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə birja ticarəti və digər kənd təsərrüfatı məhsulları, qənd, yun, qəhvə, kauçuk, neft, neft məhsulları, tikinti materiallan, əlvan və qara metallar və digər əmtəə bazarlarının vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Beləliklə, xaricdə birja ticarəti, bir qayda olaraq, kütləvi tələbat malları və istehsalı standartlaşdırıla bilən əmtəələr üzrə həyata keçirilir. Bu isə istehsal və qeyri-istehsal yönümlü eynicinsli, standartlaşdırılmış əmtəələrin (birja əmtəələrinin) partiyalarla satışını təşkil etməyə imkan verir.

Əmtəə birjalarının əsas məqsədi azad ticarətin həyata keçirilməsi, tələb və təklifin təsiri altında yaranan bazar qiymətləri ilə əmtəələrin alışı və satışı üzrə müqavilələrin (kontraktların) bağlanmasından ibarətdir.Birja bir növ təşkil olunmuş topdan bazara bənzəyir. Birja alqı-satqı aktları kütləvi aşkarlıq formasında müəyyən edilmiş birja qaydaları əsasında, əvvəlcədən təyin edilmiş yerdə və vaxta aparılır.

Birja qiymətlərin tənzimləyicisi kimi böyük funksional əhəmiyyət kəsb edir. Birjalar eyni bir əmtəə üzrə qiymətlərin tərəddüd etməsini (qalxıb-düşməsini) qiymət kursları vasitəsilə nizamlamağa «ütüləməyə» imkan verir. Əmtəə birjasında konkret müqavilə (kontrakt) qiymətləri qeydə alınır (fiksə edilir) və sonra əmtəənin orta limit qiyməti dərc olunur. Alıcılar və satıcılar alqı-satqı aktlarını həyata keçirərkən məhz orta birja qiymətlərini əsas götürürlər ki, bu da qiymətlərin kəskin tərəddüd etmə hallarını aradan qaldırır. Beləliklə, qiymətlərin təbii tənzimləyicisi əmələ gəlir.

Xaricdə əmtəə birjalarının fəaliyyət göstərdikləri ilk dövrlərdə real (mövcud olan) əmtəə birjaları üstünlük təşkil edirlər, bu isə sövdələşmələrdən sonra əmtəələrin dərhal və mütləq satışını nəzərdə tuturdu.

Hazırki dövrdə real əmtəələrlə sövdələşmələr aparan əmtəə birjaları dünyada çox az qalmışdır. Onların yerini fyuçers bir- jalan tutmuşdur ki, hazırki dövrdə birja sövdələşmələrinin əksər çoxluğu məhz bu birjalarda həyata keçirilir. Fyuçers birjaları (sazişləri) sövdələşmələr baş tutduqdan sonra malların (əmtəələrin) göndərilməməsi mümkünlüyünü də nəzərdə tutur.

Birjalar birja ticarətini təşkili ilə bilavasitə əlaqəli olmayan ticarət, vasitəli ticarət və digər fəaliyyəti həyata keçirə bilməzlər. Müasir, səmərəli fəaliyyət göstərən birja mürəkkəb mexanizmə bənzəyir. Birjalar texnika tutumlu, geniş informasiya şəbəkəsinə malik və yüksək səviyyəli peşəkar mütəxəssislərdən ibarət olmalıdır. Bir çox inkişaf etmiş ölkələrdə yalnız bir birja (tsveç, İçveçrə və Hollandiyada), İngiltərədə 5 birja, ABŞ-da 11 fond və 30 əmtəə birjaları fəaliyyət göstərir. Bu birjalarda mindən çox brokerlər çalışırlar. Birja ticarətinin optimal fəaliyyət göstərməsi üçün Ölkədə birjaların sayı minimum olmalıdır. Birjalar yalnız İri biznes və iş mərkəzlərində yaradılır. ABŞ-da Nyu-York və Çikaqoda, Böyük Britaniyada-London və Liverpulda, Yaponiyada-Tokioda, Rusiyada-Moskvada, Sankt-Peterburqda, Novosibirskidə birjalar fəaliyyət göstərir.

16.2,Məlum olduğu kimi birja-qanunvericilikdə müəyyən olunmuş qaydada marağı olan hüquqi və fiziki şəxslər tərəfindən könüllü pay əsasında yaradılmış təşkilatdır. Birjaların yaradılmasında dövlət orqanları, banklar, sığorta və investisiya şirkətləri və fondlar, ictimai, dini və xeyriyyəlçi təşkilatlar və qurumlar iştirak edə bilməzlər.

Birjalar təsisçilərin iclasında qəbul edilmiş qərarlar əsasında yaradılır. Təsisçilər iclasda müəyyən edilmiş ölçüdə öz paylarını daxil edirlər. Daxil edilmiş pay ölçüsündə təsisçilər birjanın təsərrüfat fəaliyyətinin nəticələrinə görə məsuliyyət daşıyırlar. Birja dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs statusu əldə edir, birja ticarəti aparmaq üçün lisenziya əldə etdikdən sonra isə birja sövdələşmələri aparmaq hüququna malik olur.

Birjanın nizamnamə kapitalında iştirak edən və ya birjanın nizamnaməsində nəzərdə tutulan və birjanın əmlakına üzvlük haqqı və ya digər məqsədli haqlar şəklində ödəmələr edən hüquqi və fiziki şəxslər birjanın üzvü ola bilərlər. Birjanın üzvü olmaq birja ticarətində iştirak etmək, birjanın ümumi iclasında və digər idarəetmə orqanlarının İclaslarındakı qərarların qəbul edilməsində, mənfəət və dividentlərin (gəlirlərin) bölüşdürülməsində iştirak etmək hüquqi və digər üstünlüklər verir.

Birjanın idarəetmə orqanlarına təsisçilərin və birja üzvlərinin ümumi iclası, birja komitəsi (şurası), birjanın idarə heyəti (direktorluğu) daxildir.

Birja təsisçilərinin və üzvlərinin ümumi iclası birja fəaliyyətinə rəhbərlik edən ali orqan hesab edilir. Birjanın ümumi iclasının işində səsvermə hüququ olmayan birjanın işçiləri və qulluqçuları, dəvət olunmuş və digər şəxslər də iştirak edə bilər.

Biijanın ümumi iciasımn səlahiyyətlərinə aiddir:

-birjanın iş qaydasının nəzərdən keçirilməsi və təsdiq olunması;

-birja üzvləri tərəfindən ödənilən üzv olmaq və illik üzvlük haqlarının ölçüsünün müəyyən edilməsi, sövdələşmələrdən daxil olan birja yığımlarının ölçüsünün, birja üzvü olmayan daimi və digər iştirakçılardan giriş haqlarının, xidmətlərə görə haqların və digər ödənc və yığımlarının ölçülərinin təyin edilməsi;

-birja üzvlərinin və onun sədrini, təftiş komissiyası üzvlərinin və onun sədrinin, orbitraj komissiyası və onun sədrinin seçilməsi və komissiya üzvlərinin yerinə yetirdikləri vəzifələrdən azad edilməsi;

-birja üzvülüyünə qəbul olunma və birja üzvülüyündən azad olunma məsələlərinin nəzərdən keçirilməsi və həll olunması;

-birja komitəsinin təsərrüfat-maliyyə fəaliyyəti haqqında illik hesabatlarının, təftiş komissiyasının hesabatlarının

nəzərdən keçirilməsi və təsdiq olunması, birja komitəsinin qərarlarının təsdiq və ya ləğv olunması.

Ümumi iclasda təsisçilərin əksər səs çoxluğu ilə əldə edilmiş qərarlar qəbul edilmiş hesab olunur.

Növbədənkənar ümumi iclas bİr və ya bir neçə təsisçinin və birja üzvlərinin 2/3-dən çoxunun tələbi ilə çağnla bilər.

*Ümumi iclaslar arasındakı dövrdə birjanın idarəolunmasını sədrin başçılığı ilə birja komitəsi həyata keçirir.*

Birja komitəsinin səlahiyyətlərinə aşağıdakılar daxildir:

1. birja üzvlərinin ümumi iclasları arasındakı dövrdə birja fəaliyyətinə rəhbərlik edilməsi;

2. birjanın idarə heyətinin (direktorluğun) fəaliyyətinə nəzarət;

3. birjanın maliyyə vəsaitlərindən və digər əmlakından istifadəyə sərəncam verilməsi, idarə heyətinin vəsaitlərinin sərf olunmasına nəzarət;

4. birjanın bütün işləri üzrə dövlət təşkilatlarında və dİgər təşkilatlarda birjanın təmsil olunması;

5. birja üçün zəruri olan və ictimai əsaslarla fəaliyyət göstərən bölmələrin yaradılması;

6. birja təsisçilərinin və üzvlərinin ümumi iclaslarında qəbul edilmiş qərar və qətnamələrin həyata keçirilməsi;

7. birja iştirakçıları tərəfindən birja ticarəti qaydalarına riayət olunmasına nəzarətin həyata keçirilməsi.

Birja komitəsinin qərarları o vaxt qəbul edilmiş hesab olunur ki, ona birja komitəsində iştirak edən üzvlərinin sadə çoxluğu səs vermiş olsun.

Birjanın təşkilati-təsərrüfat fəaliyyətini təmin etmək məqsədilə birja komitəsi icraedici orqan kimi birjanın idarə heyətini (direktorluğun) yaradırlar ki, buna da sədr (baş direktor) başçılıq edir.

Birjanın idarə heyəti aşağıdakı funksiyaları həyata keçirir:

1. uçotun təşkili və aparılması, müəyyən edilmiş statistik hesabatlarının hazırlanması, birjanın təsərrüfat-maliyyə fəaliyyətin təmin olunması;

2. birja əmlakının əldə edilməsi və satılması və birja komitəsinin sərəncamı İlə onun ardından digər hüquqi əməliyyatların həyata keçirilməsi;

3. muzdla işləyən və birja üzvü olmayan işçilərin və qulluqçuların işə qəbulunun və işdən azad olunmasının həyata keçirilməsi;

4. birjanın kommersiya məlumatlarının dərc olunmasının və reklam fəaliyyətinin təşkili;

5. birjanın zəruri struktur bölmələrinin yaradılması;

6. idarə heyətinin fəaliyyətinin təyin olunması üçün birjanın sərəncamına verilmiş maliyyə vəsaitindən və digər əmlakından istifadə olunması;

7. birjada satılan və ya dəyişdirilən əmtəə nümunələrinin standartlara uyğunluğunun, ekspertiza aparılmasının, zəruri hallarda isə laboratoriya müayinələrini və sınaq yoxlamalarının aparılmasının təşkili;

8. birja sövdələşmələri iştirakçılarına zəruri olan informasiya-kommersiya, reklam və məsləhət xarakterli xidmətlər göstərilməsinin təşkili, onların zəruri olan texnika və rabitə vasitələri ilə təmin olunması;

9. birja sövdələşmələri iştirakçılarının, digər iştirakçılarının və qonaqların müəyyən edilmiş birja qaydalarına riayət etmələrinə nəzarətin həyata keçirilməsi.

Birja öz işi üçün zəruri olan struktur bölmələri-makleriat (ticarət şöbəsi), məzənnə təyinedici və arbitraj komissiyalarını və digər orqanları formalaşdırır. Birjanın fəaliyyətinə nəzarəti ümumi iclas tərəfindən seçilmiş təftiş komissiyası həyata keçirir.

Birjanın xüsusi komitələri sövdələşmə prosesinin təkmilləşdirilməsi, vahid (tipoloji) müqavilələrin (kontraktların) işlənib- hazırlanma.sı ilə məşğul olur, əmtəə bazarlarının vəziyyəti haqqında məlumatların təmin olunmasını təşkil edirlər. İri birjalar birja əməliyyatları ilə bağlı mübahisələrin operativ həlli üçün öz tərkibində daimi fəaliyyət göstərən orbitrajlara malik olurlar.

inkişaf etmiş ölkələrdə birjalar təşkilati-hüquqi nöqteyi-nəzərdən kütləvi və xüsusi birjalara bölünürlər.

Kütləvi birjalara dövlət və bələdiyyə idarələri kuralorluq edirlər. Onların fəaliyyəti qanunlar və digər normativ aktlarla tənzimlənir və açıq xarakter daşıyır.

Kütləvi birjalar-Avropa ölkələrində geniş yayılmışdır və fəaliyyət miqyasına görə əsasən regional xarakter daşıyır. Bu cür birjaların üzvləri əsasən İri şirkətlərin və firmaların rəhbərlərindən ibarət olur. Burada sövdələşmələri həm birja üzvləri, həm də digər sahibkarlar həyata keçirə bilərlər. Birja işçinin maliyyələşdirilməsi birja tərəfindən əməliyyatlarda iştirakına görə sövdələşmə iştirakçılarından möhkəm məbləğ şəklində və ya bağlanmış əqdlərin dəyərindən müəyyən edilmiş faizlər formasında əldə edilmiş vəsaitlər hesabına həyata keçirilir.

***Sxem 10***

**Əmtəə birjalarının tipik strukturu**



Xüsusi birjalara bir qayda olaraq, üzvlərinin sayı məhdud olan qapalı səhmdar cəmiyyətlər formasında təşkil olunur. Birjalar onlanıı fəaliyyətlərini, strukturunu, idarəetmə qaydalarını, fəaliyyətdə olan üzvlərinin tərkibini, onların çıxması və yenilərinin qəbul edilməsi qaydalarım müəyyənləşdirən öz nizamnamələri əsasında işləyirlər. Birja üzvləri öz broker idarələrinə malik olurlar.

İqtisadi ədəbiyyatlardan aydın göründüyü kimi birja ticarəti topdan ticarətin təşkil olunmuş bir forması kimi nəğd əmtəə bazarına, fyuçers və fond bazarlarına bölünür. Bununla əlaqədar birjada aşağıdakı sövdələşmələr həyata keçirilir:

-real (mövcud) əmtəənin alqı-satqısı, burada elə sövdələşmələr nəzərdə tutulur ki, bu sövdələşmələrdən dərhal sonra əmtəənin mütləq satışı həyata keçirilməli və ya mülkiyyət hüququ verən sənədlər təqdim olunmalıdır;

-real əmtəə üzrə sövdələşmələr həyata keçirilərkən satıcı nəğd (real) əmtəələrə malik olmalı və birja müqaviləsində (kontraktda) nəzərdə tutulan müddətdə onun göndərilməsini təmin etməlidir. Bu cür sövdələşmə zamanı satıcı əmtəəni birja ambarına təhvil verməli və varrant adlanan xüsusi anbar şəhadətnaməsi almalı, öz əmtəəsinin sığorta haqqını və anbar xərclərini ödəməlidir;

-göndəriş müddəti bildikdə satıcı varrantı alıcıya təqdim edib, əvəzində ondan ödənc çekini alır. Alıcı həmin varrant əsasında birja anbarından əmtəəni əldə edir;

-sövdələşmənin bu növündə əmtəənin anbardan alıcıya göndərilməsi müddəti birja qaydalarına əsasən müəyyənləşdirilir və bir qayda olaraq, 1-15 gün çəkir.

Real əmtəə sövdələşməsi növlərindən birİ də «forvard sövdəiəşmə»lərdir əmtəə alqı-satqısında göndərilmə müddətinə möhlət verilməsi (sövdələşmədə əmtəənin qiyməti və göndərilmə müddəti danışılır). Başqa sözlə, forvard sövdələşmələri və ya möhlət sövdələşmələri real əmtəənin gələcəkdə göndərilməsini nəzərdə tutur.

***Fyuçers sövdsləşməhri*** zamanı sövdələşmələrdən dərhal sonra əmtəələrin göndərilməsini nəzərdə tutmur. Bu hələ

istehsal olunmamış və ya sövdələşmə anında fiziki baxımdan mövcud olmayan əmtəələrin satışıdır. Faktiki olaraq, gələcək əmtəəyə sahiblik hüququnun alqı-satqı aktı baş verir. Başqa sözlə, bu standart müqavilələr üzrə alqı-satqı sövdələşməsidir.

Fyuçers birjalarında qiymətlərin xoşagəlməz dəyişikliklərindən sığorta olunması məqsədilə aparılan əməliyyatlara **hedjinq** deyilir. Fyuçers bazarında alış hedjinqlə müşayət olunur. Hedjinq risklərin azaldılmasında istehsalçıların, emaledi- cilərin və satıcıların əslində əsas alətdir. Məsələn, satıcı kimi buğda sahəsi olan fermer iştirak edir. O, bilmir ki, payızda məhsul yığımından sonra bazarda buğda hansı qiymətə satılıcaq. Öz gələcək məhsulunun satışına əmin olmaq üçün fermer onu birjada təyin edilmiş (fiksə edilmiş) qiymətə satır və artıq qiymətə istinad edərək öz gələcək planlarını qurur.

Öz növbəsində, buğda alıcısı-un istehsalçısı buğda üçün nə qədər haqq ödəyəcəyini bilib, buna uyğun olaraq öz gələcək istehsal planlarını quracaq. Bu halda istehsalçı buğdanın qiymətinin qalxması təhlükəsindən narahat olmayacaq. Beləliklə, hedjinq biznesmendə müəyyən qiymət əminliyi yaradır və qiymətlərin mümkün dəyişməsi qayğısına qalmadan öz işləri ilə məşğul olmaq imkanı verir,

Fyuçers sazişi bağlanarkən müqavilədə əmtəənin qiyməti və onun göndərilmə müddəti danışılır. Əmtəənin göndərilmə müddəti birjada qəbul edilmiş xüsusi standartlar (qaydalar) üzrə müəyyənləşdirilir.

Lakin əmtəə birjalarında bağlanan fyuçers sazişlərinin böyük əksəriyyəti möhtəkirlik xarakteri daşıyır. Bu hallarda fyuçers sazişinin məqsədi müqavilə bağlanan andakı qiymətlərlə müqavilə müddətinin başa çatdığı son gündəki qiymət arasındakı fərqi əldə etməkdən ibarətdir. Beləliklə, fyuçers möhtəkir sövdələşmələri qiymətlərin tərəddüd etməsi şəraitində mənfəət əldə etmək məqsədilə həyata keçirilir. Möhtəkir əməliyyatlarının müxtəlif növlərini göstərmək olar. Bunlardan biri ondan ibarətdir ki, alıcılar (möhtəkirlər) sonradan daha yüksək qiymətə satmaq məqsədilə birja müqavilələrini alırlar. Möhtəkirliyin bu növünü qiymətlərin qaldırılması «oyunuı>, bu

oyunda iştirak edən möhtəkirləri isə «ökü7:lər» adlandmrlar, Mötəkirliyin digər bir növü-qiymәllərİn aşağı salınması «oyunu»dur. Möhtəkiriər sonradan nisbətən ucuz qiymətə almaq məqsədilə bütün birja müqavilələrini satırlar. Bu cür möhtəkirləri «ayılar» adlandınrlar. Bu tİp fyuçers sazişləri fond bazarlarında geniş yayılmışdır.

Məlum olduğu kimi birjalarda ticarətin təşkilinin özünə məxsus xüsusiyyətləri vardır. Əsas xüsusiyyət ticarət əməliyyatlarının vasitəçilər, brokerlər və s. vasitəsilə aparılmasıdır.

Dəllal (makler) birjanın işçisi olub, birjada sövdələşmələri aparır. Sövdələşmələr birjanın bölmələri üzrə həyata keçirilir. Hər bir əmtəə növü üzrə ixtisaslaşmış birja bölməsinə birjanın müdriyyəti sövdələşmələri aparan dəllal (makler) təyin edir.

Broker-birjada alıcı ilə satıcı arasında əmtəə satışı, alışı və dəyişdirilməsi üzrə ticarət əməliyyatlarının həyata keçirilməsində vasitəçi rolunu yerinə yetirilər, Brokerlər broker firmalarının, idarələrinin nümayəndəsi (işçisi) yaxud da müstəqil şəxs kimi çıxış edə bilərlər.

Satıcılar (əmtəə sahibləri) sövdələşmələrdən öncə müəyyən edilmiş müddətdən gec olmayaraq, birjada müstəqil fəaliyyət göstərən brokerlərə birbaşa və ya birjada xidmət göstərən broker idarələri vasitəsilə öz əmtəələrinin satılması üçün tapşırıqlar verirlər. Tapşırıqlar yazılı şəkildə tərtib olunur. Bu zaman broker satıcı adından çıxış etmək üçün etibarnaməyə də malik olmahdır. Müştərilər (alıcılar və satıcılar) və broker idarələri arasında qarşılıqlı münasibətlər broker xidmətlərinə dair xüsusi müqavilələrə nizamlana bilər. Broker idarələri sövdələşmələr başlanmazdan öncə müəyyən edilmiş müddətdən gec olmayaraq birjanın informasiya kanalma sifariş, yəni müəyyən əmtəə satışı üçün təklif verməlidirlər.

Birja iclaslarında (və ya sessiyalarında) keçirilən kütləvi birja ticarəti öz ənənəvi formasında İkili hərrac prinsiplərinə əsaslanır. Bu zaman alıcıların artan təklifi satıcıların azalan təklifi ilə rastlaşır. Alıcılarla satıcıların təklif etdikləri qiymətlər üst-üstə düşdükdə, sazişlər bağlanır. Hər bir bağlanan

müqavilə aşkaranə surətdə qeydə almır və mətbuat və rabitə kanalları vasitəsilə kütlənin diqqətinə çatdırılır.

Birja sövdələşmələrinin hər bir iştirakçsı öz statusuna müvafiq buraxılış vəsiqəsinə malik olmalıdır və sövdələşmələrin keçirilməsinə məsuliyəti olan şəxslər onu gözlə (vizual) müşahidə etmək imkanı əldə etməlidirlər. Birja sövdələşmələrinin bağlanması üçün əsas brokerlərin şifahi razılığıdır ki, bu da aşkarlıq şəraitində aparılan sövdələşmələr nəticəsində əldə olunur və müvafiq əmtəə bölməsinə xidmət göstərən birja dəllalı tərəfindən qeydə alınır.

Brokerin maklerin onun təklifini elan etdiyi anda bölmədə olmaması, onun sövdələşmələrdə iştirak etməməsi kimi qiymətləndirilir. Bu zaman onun təklif etdiyi əmtəə həmin gün üçün birja sövdələşmələrindən çıxarılır, brokerə qarşı isə birja ticarəti qaydalarına nəzərdə tutulan sanksiyalar tətbiq olunur. Saziş bağlanarkən broker-satıcı bilet (sifariş kartı) doldurulur alıcı tərəfindən imza edildikdən sonra müqavilələrin hazırlanması məqsədilə onu birjanın qeyydiyyat bürosuna təqdim edir. Müqavilələr tərəflərin və birja nümayəndəsinin imzalandığı vahid bir sənədin tərtib olunması yolu ilə bağlanır.

16.3. Hərrac (latın sözündən götürülüb-mənası kütləvi ticarət formasıdır) əvvəlcədən yeri, vaxtı müəyyən edilmiş xüsusi və kütləvi xassəyə malik olan malların satışı üsuludur.

Hərrac ticarəti satıcı tərəfindən maksimum gəlir əldə etmək məqsədilə istifadə edilən pərakəndə satış ticarət növüdür. Bu zaman satıcı malın ilkin qiymətini elan edir və alıcılıq qabiliyyətindən asılı olaraq sonralar həmin qiyməti yüksək həddə çatdınr. Bu ticarət növü əsasən məhdud çeşidli məhsulların; xəzlərin, qiymətli daş-qaşların, bədii əsərlərin, atların, qiymətli məmulatların və s. satışı zamanı tətbiq edilir.

Hərrac-müəssisələr (firmalar), eləcə də ixtisaslaşdırılmış təşkilatlar, səhmdar cəmiyyətlər, koperativlər, şirkətlər və s. tərəfindən təşkil olunur. Hərracların keçirilməsini xüsusi ticarət müəssisələri hesab edilməyən müəssisə və təşkilatlar da təşkil edə bilərlər. Belə hərrac təşkilati formalarına birjaları, salonları, muzeyləri, daimi fəaliyyət göstərən sərgi-təşkilatları,

ticarət təşkilatlan və müəssisələri tərəfindən təşkil edilən hərracları göstərmək olar.

Təşkilati formasından asılı olaraq hərradann məcburi formasını fərqləndirirlər. Burada, bİr qayda olaraq, müsadirə edilmiş, girov qoyulmuş, qiyməti göstərilən vaxtda ödənilməyən malların və əmlakın satılması nəzərdə tutulan mallar realizə olunur.

Keçirilməsi texnologiyasına görə də hərraclar fərqlənirlər. Bu zaman hərrac qaydalanna uyğun olaraq ticarət zamam qiymət satıcı tərəfindən təklif edilən minimum qiymətlə müəyyən edilir. Daha sonralar satıcı İlkin qiymətə əlavələr edir. Digər hərraclar isə məhsula qoyulmuş illdn qiyməti alıcılardan almaq istəyini elan edənə qədər qiyməti aşağı salır.

Hərracda qiymət artımı aşkarlıq və qeyri-aşkarlıq üsulu ilə də apanla bilər. Qeyr-aşkarlıq şəraitində (xəlvəti) alıcılar hərracdan əwəlcədan mala ediləcək qiymət əlavələri barədə razılıq alır və mala qyoulan yeni qiyməti elan edirlər. Hərracçı isə hər dəfə alıcmın adını çəkməyərək malın yeni qiymətini elan edir. Xəlvəti ticarət zamam alıcının adını gizli şəkildə saxlamaq mümkündür.

Hərraclar müvafiq binalar, avadanlıqlar, yüksək ixtisaslı heyətlə təmin olunmuş kommersiya təşkilatı hesab edilir.

Azərbaycan hərrac ticarəti təşkilatlan və müəssisələri tərəfindən təşkil olunur. Belə hərraclar Bakıda, Gəncədə, Sumqayıtda, Mingəçevirdə və digər iri şəhərlərdə fəaliyyət göstərirlər. Sözü gedən hərraclarda əsas alıcılar, xarici ölkələrin topdan mal alan firmaları olurlar.

Adi ticarət qaydalarından fərqli olaraq hərac ticarətində satıcılar mal satıldıqdan sonra onun keyfiyyətinə məsuliyyət daşımırlar.

Hərracın keçirilməsi hərrac komitəsi tərəfindən idarə olunur. Bu heyətə sədr (hərracın direktoru), kommersant, hüquqşünas-məsləhətçi, ekspert, hərracçı və mühasib daxildir.

Malları hərraca qəbul etmək üçün satıcılar hərraca mal vermək istəyənlərə müəyyən təkliflər edirlər. Təklifdə satışa verilən malların tam adı, onun haqqında qısa yazılar, malın

istehlak xassəsi və keyfiyyəti, nüsxələrin sayı, həm do sahibi haqqında məlumatlar göstərilir.

Hərracda satılan mallar (əmlaklar) üçün ekspertlər tərəfindən ilkin qiymətlər müəyyənləşdirilir. Bəzi hallarda satıcı və hərrac komitəsinin işçiləri hərraca gətirilən malları həddindən aşağı qiymətə satılmamaq üçün «ehtiyyat» qiymətlər nəzərdə tuturlar. Yəni, mal nəzərdə tutulan (razılaşdınimış) qiymətdən aşağı satıla bilməz. Hərrac vasitəsilə satılan mallar tərəflərin maraqlarını təmin etməklə hərrac vasitəsilə razılaşdırılır.

Satıcılardan qəbul edilmiş mallar, kəmiyyət və keyfiyyət göstəricilərinə görə çeşidlərin və hər partiyadan nümunə götürürlər. Hər bir mal vahidi, yaxud da mal partiyası satılmaq üçün nömrələnir və hərraca verilir.

Mallar çeşidlənməsi qurtardıqdan sonra hərrac siyahısı tərtib edilir, hərrac tərəfindən nümunələrin adları göstərilməklə alıcılara müvafiq məlumatları əks etdirən kataloqlar buraxılır. Hərracın təklif edilməsi şərtlərinə imkanlı alıcılara əvvəlcədən mallarla tanış olmaq imkanları verilir. Satışa verilən və hərracın siyahısına daxil olan bütün malların nüsxələri ilə tanış olmaq üçün imkanlı alıcılara şərait yaradılmalıdır. Belə olduqda, hərracda satılan mallann keyfiyyəti haqqında sonralar heç bir iddia və şikayət qəbul edilmir (gizli nöqsanlardan başqa).

Hərrac qabaqcadan satıcılara (malgöndərənlərə) satışın keçirilməsi müddəti haqqında məlumat verməlidir. Bunun üçün hərrac üsulu ilə satışın başlanmasına 1,5-2 ay qalmış hərracın keçirildiyi yer, vaxt, şərtlər, malların kəmiyyəti və təklif edilən çeşidləri elan formasında münasib yerdə yerləşdirilir.

Ən səmərəli informasiya vasitəsi-hərrac ərazisində tərtib edilmiş reklam şitləri və transporantları. Transporantlarda, reklam elanlarında hərracın iş qaydası, satışların keçirildiyi vaxt satışa verilən əmlakın və malların siyahısı göstərilir. Bu məqsədlə radio və televiziya verilişlərindən, reklamlardan, reklam tipli məqalə və vərəqlərdən istifadə olunur.

Satışlar əvvəlcədən müəyyənləşdirilmiş gün və saatda xüsusi hərrac salonlarda aparılır. Aşkar üsulda hərraççı satılan partiya malı və mal nüsxəsinin itkin qiymətini elan edir (deyir) və soruşur: «Kim çox verir», sonradan yenə həmin sualla müraciət edir. Cavab verilmədikdən lot elan olunur, axırıncı qiymət təklif edənə mal verilir və çəkiclə xüsusi diskə vurduqdan sonra malın satışı dayandırılır. Satış qurtardıqdan sonra alıcının aldığı mal rəsmiləşdirilir. Hərracdan alınan mala münasib 2 nüsxədən ibarət mal çeki yazır, Çekdə mallann adı, məlumat kartası, nüsxənin və mal partiyasının nömrəsi, hərracın son qiyməti, alıcı haqqında məlumat və satış vaxtı göstərilir. Hərrac yolu ilə əldə edilən gəlirin bölüşdürülməsi qaydası hərrac razılığı ilə həyata keçirilir.

Bəzi Avropa ölkələrində satışlar avtomatlaşdırılmış formalarda aparılır. Bu zaman qiymətin azaldılması və ya artırılması alıcı tərəfindən xüsusi elektron düymələr vasitəsilə müəyyənləşdirilir.

## Ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının konstitusiyası. Azərbaycan Respublikasının Qanunlar Külliyatı. Kitab II Bakı, 1997, səh. 508-616
2. Heydər Əliyev və Azərbaycan. Bakı, «Azərbaycan» nəşriyyatı, 2008, səh. 838
3. Heydər Əliyev irsi Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, «Azərbaycan» nəşriyyatı, 2006, səh. 783
4. İlham Əliyev. Respublika Nazirlər Kabinetinin 14 noyabr 2003-cü il tarixli iclasında nitqi, «Xalq» qazeti, 19.11.2003
5. İlham Əliyev. Mən istənilən səviyyədə, istənilən mübarizəyə hazıram. Bakı, «Azərbaycan» nəşriyyatı, kitab III, 2001, səh.477
6. Gənciyev G.Ə. İxrac ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətləri. Bakı, «Kooperasiya» nəşriyyatı, 2003,səh.127
7. Gənciyev G.Ə. Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı, «Elm» 2005,səh. 259
8. Gənciyev G.Ə., Ələkbərov Ə.R., Məmmədova-Gənci-yeva L.G. Transmilli korporasialar. Bakı, «Elm», 2007, səh. 192
9. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, «Elm», 2005, səh 252
10. Əliyev M.T. Şəkərəliyev A.S., Dadaşov C.M. Dünya iqtisadiyyatmın müasir dövrünün problemləri. Bakı, «Bakı Dövlət Üniversiteti», 2003, səh.455
11. Həsənov Ə.Müasir beynəlxalq münasibətlər və Azərbaycamn xarici siyasəti. Bakı, 2005
12. Səfərov S. İqtisadi siyasət strategiyası. Konseptual əsaslar. Bakı, «Azərbaycan» nəşriyyatı, 2000, səh.341

13. Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, «İqtisad Universiteti» nəşriyyat, 1999.
14. Vəliyev D.Ə. Beynəlxalq iqtisadiyyat. Bakı, «İqtisad Universiteti» nəşriyyatı 1998, səh. 382
15. Vəliyev T.S. İqtisadi elmlərin nəzəri əsaslarının tarxi təkamülü. Bakı, «Elm», 1999, səh.237
16. Bayramov Ə. Regional iqtisadi inteqrasiya. Bakı, 2007
17. Azərbaycanın xarici ticarət əlaqələrinin statistik göstəriciləri. Bakı, 2005-2008
18. Богомолов О.Т. Анатомия глобальной экономики. М, ИНФРА-М., 2002
19. Градобитова Л.Д.Транснациональные корпорации в современных международных экономических отношениях. М.,МГИМО, 2002
20. Ломакин В.К.Мировая экономика. Учебник. 4-е изд., перераб. И доп.-М., Юнити-Дана, 2007, 627 стр.
21. Материалы ООН ЭКОСОС. Обзор мирового экономического и социального развития. Женева, 1996
22. Международные экономические отношения. Под редакцией Рыбалкина В.Е.М., Энити-Дана, 592 стр.
23. Мировая экономика. Под редакцией Булатова А.С.М., Юристь, 736 стр.
24. Мировая экономика и международные экономические отношения. Подредакцией Булатова А.С. и Ливенцева Н.Н.М., магистр, 2008, 656 стр.
25. Пашин С.Т. Функционирование транснациональных компаний: организационно-экономическое обеспечение. М., «Экономика», 2002
26. Михайлушкин А.И.,Шимко П.Д. Международная экономика.Учебник.-2-е изд., перераб. и доп.-М.,Высш. шк., 2004, 476 стр.

27. Михайлушкин А.И., Шимко П.Д. Экономика транснациональной компании. Учеб. Пособие для вузов. М., Высш. шк., 2005, 335 стр.
28. Семенов К.Международные экономические отношения М., Юнити-Дана, 544 стр.
29. Эванс Ф, Бишоп Д. Оценка компаний при слияниях и поглощениях. М., Альпина Паблишер, 336 стр.
30. International Migration 2008, Wallchart. UN Population Division, October 2008
31. International Migration Reports, 2008. United Nations New-York, 2008
32. International Migration 2007, Wallchart. UN Population Division, October 2007
33. www.economy.gov.az-İqtisadi İnkişaf Nazirliyi
34. www.azstat.org.–Dövlət Statistika Komitəsi
35. www.polit.ru (United Nations Population Division,2008)
36. www.day.az.(Washngton Pro File, 2008)